74. Sözlərdən yalnız birinin tələffüz forması düzgündür:
A) [tə:süfnən] B) [ombirillix'] C) [nəba:tət]
D) [prinsipial] E) [uşaxlığdan]

75. Tələffüzü ***səhv*** göstərilmiş sözlərdir:
1. sədrlik – [sədirlix] 2. mədəniyyət – [mədəni:yət]
3. bilikli – [bilix'li] 4. danlayar – [dannayar]
5. ahəstə – [a:həsdə] 6. düzgünlük – [düzgünnüx']
A) 2, 3, 5 B) 1, 3, 6 C) 3, 4, 6
D) 1, 2, 4 E) 1, 2, 5

76. Kar-cingiltili samit cütlüyü olan hansı sözün tələffüzündə daha çox fərqli məqam var?
A) acgözlük B) dağıstanlı C) diqqətəlayiq
D) beşcildlik E) balıqqulağı

77. Tələffüz forması düzgün ***verilməmiş*** sözlər cərgəsini müəyyən edin.
1. [gerçəx'lix'], [əxlak']
2. [mükalimə], [ideyalogiya]
3. [çoxciltli], [informasiya]
4. [mülkiyyət], [varlanmax]
5. [rəqa:bət], [etimalogiya]
A) 2, 4, 5 B) 1, 2, 3 C) 1, 4
D) 2, 3, 4 E) 3, 5

78. Tələffüz forması düzgün verilmiş sözlər cərgəsini müəyyən edin.
1. [eynəx'], [təfərrüat]
2. [əda:vətli], [ezamiyət]
3. [plastik'a], [sa:bik']
4. [əhəmiyyət], [xumarlanmax]
5. [cütqanadlı], [intonasiya]
A) 3, 4, 5 B) 2, 4, 5 C) 1, 2, 4
D) 2, 3 E) 1, 3

79. Sözlərin tələffüzündəki fərqli məqamların sayını gözləməklə cərgəni tamamlayın.
1. avtomat 2. buludlu
3. fıstıq 4. ...
A) şəfqətli B) acıqlı C) cəldlik
D) elliklə E) əliaçıq

Camscanner ilə skan edilib

80. Sözlərin tələffüzündəki fərqli məqamların sayını nəzərə almaqla ardıcıllığı tamamlayın.
1. sazbənd 2. səfərbərlik
3. sərbəstlik 4. ...
A) şokolad B) savadlanmaq C) söyüdlük
D) əməkdaşlıq E) sənətsevərlik

81. Hansı sözlərin tələffüzü doğrudur?
1. [qommax] 2. [minnətdarrıx]
3. [ma:vin] 4. [təkəbbürlü]
5. [qəba:hətdi] 6. [tənbeh]

82. Hansı sözlərin tələffüzü doğru ***deyil***?
1. [novruz] 2. [radiyoçerk']
3. [üsdəgəl] 4. [plannaşdırmax]
5. [istiqamət] 6. [qamarlamax]

83. Tələffüzü ***səhv*** olan sözləri müəyyən edin.
1. [o:vxalamax] 2. [şöhrət]
3. [mülkiyət] 4. [sünbül]
5. [mündərəcat] 6. [qalereya]

84. Tələffüzü düzgün verilən sözləri müəyyən edin.
1. [oddammax] 2. [sərrastcasına]
3. [mütdəfik'] 4. [mək'sət]
5. [evlat] 6. [laureat]

85. Tələffüzü düzgün verilən sözləri müəyyən edin.
1. [soraqlaşmax] 2. [arfaqrafik']
3. [sərtlix] 4. [mütdəfik']
5. [limanat]

86. Tələffüzü düzgün verilən sözləri müəyyən edin.
1. [növbə] 2. [iyaşə]
3. [fərəhləmməy] 4. [əla:hiddə]
5. [diyalek't]

87. Hansı cümlələrdə bütün sözlər düzgün tələffüz formasında verilmişdir?
1. [Qatar pilatformada dayandı.]
2. [Tə:mir işdərini plannaşdırmax nəzərdə tutulmuşdu.]
3. [Uşağın tempiratürü düşmüş, halı yaxşılaşmışdı.]
4. [Ümumbəşəri ideyaların təbliği bu la:yihənin əsas hissəsini təşgil edir.]
5. [Ambardakı tütünnəri yeşix`lərə yığdılar]

88. Hansı cümlələrdə bütün sözlər düzgün tələffüz formasında verilmişdir?
1. [Danlamağa lüzum görmədilər, lakin xəbərdarlıx etdilər.]
2. [Gəmi lövbər saldı, sərnişinnər sa:hilə çıxdılar.]
3. [Müəllimlər üzdənirax qonşuların işğalçılıx siya:sətini pisdədilər.]
4. [Qarşı tərəfdən atılan top mərmiləri kənddə əks-səda yaratdı.]
5. [Həkimlər əməliyata başdamışdılar.]

89. Tələffüz zamanı hansı sözlərdə 3 fərqli məqam özünü göstərir?
1. əzmkarlıq 2. ağırlıq 3. canlanmaq
4. adilanə 5. ədəbiyyatşünaslar

90. Tələffüz zamanı hansı sözlərdə 3 fərqli məqam özünü göstərir?
1. tərifnamə 2. cəsurluq
3. həmsədrlik 4. mütləqiyyət
5. danlanmaq

91. Tələffüzü düzgün ***verilməyən*** sözləri müəyyən edin.
1. [neytirallaşdırmax] 2. [teatr]
3. [ləngərrənmək] 4. [dəfdərrər]
5. [təkra:rən]

92. Tələffüzü düzgün ***verilməyən*** sözləri müəyyən edin.
1. [lo:ğalammax] 2. [ma:lika:nə]
3. [piştaxta] 4. [saxdalaşdırmax]
5. [kələkbaz]

93. Tələffüzü düzgün ***verilməyən*** sözləri müəyyən edin.
1. [qırıx-sökük] 2. [xəsdələmməx']
3. [nəhəng] 4. [hamılıxla]
5. [səxa:vətdi]

94. Tələffüz şəklində verilmiş hansı sözlər yazılışından ***fərqlənmir***?
1. [müşgül] 2. [mətbə:] 3. [iddiya]
4. [sa:mit] 5. [ziya:fət] 6. [münsif]

95. Tələffüz şəklində verilmiş hansı sözlər yazılışından fərqlənir?
1. [damino] 2. [dolap] 3. [foye]
4. [ziya:rət] 5. [füsunkar] 6. [fəda:yi]

96. Tələffüz şəklində verilmiş hansı sözlər yazılışından ***fərqlənmir***?
1. [kira:yə] 2. [işgəncə] 3. [doşap]
4. [vücut] 5. [çisgin] 6. [mantiya]

97. Uyğunluğu müəyyən edin.
Tələffüz zamanı cümlələrdəki sözlərin birində ... .
1. son hecanın samiti düşür
2. ikinci hecanın son samiti düşür
3. ikinci hecadakı açıq sait qapalıya keçir

a. Sabah Gəncəyə getməliyik.
b. Vətən uğrunda şəhid olanlar xalqın qəlbində həmişə yaşayırlar.
c. Atəşgaha gələn turistlər heyrətləndilər.
d. Peçenye hazırlamaq üçün şəkər və un lazım idi.
e. Şəki bir çox görkəmli insanların vətənidir.

98. Uyğunluğu müəyyən edin.
Tələffüz zamanı sözlərin birində ... .
1. sözün ikinci hecasında sait düşür
2. sözdəki ikinci hecanın son samiti düşür
3. sözün ikinci hecasındakı açıq sait qapalıya keçir

a. Günün istisindən təngnəfəs olmuş heyvanlar kölgəyə çəkildilər.
b. Qadınların bəziləri əliuşaqlı olduğundan otaqları qızdırmışdılar.
c. Aparıcı qonağı tamaşaçılara təqdim etdi.
d. Aktyorun səhnədəki sərbəstliyini bəyəndilər.
e. Cavan oğlan cəld ata mindi, qonşu kəndə yola düşdü.

Orfoqrafiya və orfoepiya (ümumi)

1. Yazılışı ilə tələffüzü ***fərqlənməyən*** sözü müəyyən edin.
A) hoppanmaq B) abbasılıq C) hissiyyat
D) təəccüblü E) rəssamlar

2. Birinin deyilişi yazılışından fərqlənir:
A) varis B) xatirə C) malikanə
D) əsarət E) şərq

3. Hansı sözdə səslərin sayı hərflərin sayından bir vahid azdır?
A) səyyah B) mənəviyyat C) hökmlü
D) ziyarət E) üzmək

4. Eyler-Venn diaqramına və sözlərə əsasən doğru fikirlərdir:



A) 1, 4 B) 3, 4, 5 C) 1, 2, 3
D) 2, 5 E) 2, 4

5. Hansı sözdə hərflərin sayı səslərin sayından çoxdur?
A) səyyad B) bərabər C) dostyana
D) laboratoriya E) hüzn

6. Hansı sözdə hərflərin sayı səslərin sayından çoxdur?
A) jurnal B) ambulatoriya C) hüzr
D) sərbəstləşmə E) qəyyum

7. Hansı sözlərin yazılışı ilə tələffüzü ***fərqlənmir***?
A) tələffüz, təfəkkür B) təəccüb, kənddə
C) müddəa, maddə D) qənddan, rəqqas
E) korrektor, aviakassa

8. Yazılışı ilə tələffüzü ***fərqlənməyən*** sözü müəyyənləşdirin.
A) addım B) şair C) həftə
D) yumşaq E) saqqız

9. Yazılışı ilə tələffüzü ***fərqlənməyən*** sözü müəyyənləşdirin.
A) kərpic B) zəif C) rəngsaz
D) tələffüz E) toppuz

10. Yazılışı ilə tələffüzü ***fərqlənməyən*** sözü müəyyənləşdirin.
A) külək B) saqqız C) tənəffüs
D) ədəbiyyat E) rəhmdil

11. Yazılışı ilə tələffüzü ***fərqlənməyən*** qoşasamitli sözü müəyyən edin.
A) hətta B) güllə C) mürəkkəb
D) doqquz E) tappıltı

12. Yazılışı ilə tələffüzündə fərq olan sözlər cərgəsini müəyyən edin.
A) təkrar, meşə, şair B) ana, ailə, saat
C) səadət, sakit, mişar D) radio, bisavad, sevinc
E) zəmi, misal, yaşamaq

13. Hansı cərgədəki qoşasamitli sözlərin yazılışı ilə tələffüzü ***fərqlənmir***?
A) rəssam, güllə, qüvvə
B) toqqa, doqquz, hətta
C) addım, hoppanmaq, səkkiz
D) əlli, mütəkkə, saqqal
E) ittiham, tappıltı, əlbəttə

14. Hansı sözlərin yazılışı ilə deyilişi eynidir?
1. əlaqə 2. intonasiya 3. ideya
4. əlacsız 5. əxlaq
A) 3, 5 B) 2, 3, 4 C) 1, 3
D) 1, 4 E) 2, 4, 5

15. Deyilişi ilə yazılışı ***fərqlənməyən*** sözlər cərgəsini müəyyən edin.
A) mükafat, musiqi B) məndən, hərdən
C) müftə, müstəqil D) mütaliə, materiya
E) mühəndis, dairə

16. Deyilişi və yazılışı fərqlənən sözlər cərgəsini müəyyən edin.
A) müştəri, mənimsəmə B) məcaz, nəzirə
C) nəqliyyat, nadan D) mənfəət, riyaziyyat
E) müşavirə, hərəkət

17. Sözlərdən biri yazılışından fərqli tələffüz edilir:
A) göydələn B) göygöz C) göyərçin
D) gözlənilmədən E) görkəm

18. *"O"* ilə yazılıb [a] ilə tələffüz edilən sözlər cərgəsini müəyyən edin.
A) stadion, radio, Ostankino
B) kosmos, opera, oktyabr
C) samovar, kombayn, konfet
D) avtobus, doktor, opera
E) rejissor, diktor, komitə

Camscanner ilə skan edilib

19. Tələffüzü ilə yazılışı ***fərqlənməyən*** qoşasamitli sözləri müəyyən edin.
1. xallı, qüvvə 2. hətta, həssas
3. saqqal, hətta 4. bənna, zərrə
5. mürəkkəb, rəqqasə
A) 3, 5 B) 1, 3 C) 2, 4 D) 2, 5 E) 1, 4

20. Yazılışı ilə deyilişi fərqlənən sözləri müəyyən edin.
1. ləzzətli 2. fırtına 3. məsləhət
4. qanlı 5. bənövşə 6. elmli
A) 1, 3, 5 B) 2, 4, 5 C) 1, 3, 6
D) 2, 4, 6 E) 1, 4, 6

21. Hansı şəkilçilər sözlərə qoşulduqda bəzən yazıldığından fərqli şəkildə tələffüz olunur?
A) -çı^4, -ın^4 B) -da^2, -ır^4 C) -lar^2, -dan^2
D) -dır^4, -ış^4 E) -saz, -keş

22. Hansı cərgə bütünlüklə yazılışı ilə tələffüzü fərqlənən sözlərdən ibarətdir?
A) çiçək, kitab, sənəd, rahat
B) doqquz, şkaf, həyat, bağban
C) hətta, iradə, atlas, avtobus
D) donmaz, vətəndən, koridor, avtobus
E) saqqal, açar, anbar, baxış

23. Hansı sözdə şəkilçinin tələffüzü yazılışından fərqlənir?
A) gəlirsən B) bilirsən C) bilərdin
D) bilmişəm E) bilirsiniz

24. Yazılışı ilə tələffüzü eyni olan qoşasamitli sözlər sırasını müəyyən edin.
A) guppultu, addım, ləzzət
B) əvvəl, rəssam, şəffaf
C) məəttəl, saqqız, saqqal
D) minnət, Məkkə, mürəkkəb
E) cənnət, toqqa, qüssəsiz

25. Yazılışı ilə tələffüzü eyni olan qoşasamitli sözlər sırasını müəyyən edin.
A) bəlli, hiddət, ləzzət
B) tıqqıltı, tappıltı, məəttəl
C) saqqız, doqquz, hətta
D) əziyyət, xasiyyət, ədəbiyyat
E) səkkiz, hərrac, əlbəttə

26. Cümlələrin birində bütün sözlərin tələffüzü ilə yazılışı fərqlənir:
A) Elşad motorlu qayığa mindi.
B) Aslan həyəcanla danışmağa başladı.
C) Nərminə çiçəkləri rəfiqəsinə verdi.
D) Payızda durnalar isti ölkələrə uçur.
E) Çiçək oxumaqda Laləyə çatmaq istəyir.

27. Cümlələrin birində bütün sözlər yazıldığı kimi tələffüz edilir:
A) Cahangir evə sarı addımladı.
B) Dostumun işləri o qədər də yaxşı getmir.
C) Neftçilər dənizdə yeni buruq qazırdılar.
D) Atam bu zavodda işləyir.
E) Sirac dənizçilik məktəbini bitirdi.

28. Sözlərdən birinin deyilişi ilə yazılışı ***fərqlənmir***.
A) miqyas B) məqsəd C) təqsir
D) nöqtə E) rəqs

29. Sözlərdən birinin deyilişi ilə yazılışı ***fərqlənmir***.
A) təqsir B) iqtisad C) diqqət
D) maqnit E) diqtə

30. Hansı cərgədəki sözlərin hər ikisinin tərkibində yazıldığı kimi tələffüz ***olunmayan*** şəkilçi var?
A) maraqlı, təsirli
B) sınıq, gəlməyəcək
C) şəhərdəki, oxuyurlar
D) torpağım, evimiz
E) çalışqan, xalamgil

31. Hansı cərgədəki sözlərin hər ikisinin tərkibində yazıldığı kimi tələffüz ***olunmayan*** şəkilçi var?
A) qəsdən, igidcəsinə
B) qabaqcıl, narazı
C) diqqətsiz, həvəskar
D) sakitlik, sözsüz
E) gələcək, görərsiniz

32. Hansı cərgədəki sözlərin hamısı yazılışından fərqli tələffüz edilir?
A) montyor, həsəd, formasiya
B) şərik, etibar, ailə C) hasar, dörd, altmış
D) dərhal, coşqun, qaçqın E) əmlak, aşiq, şəfəq

33. Yazılışı ilə deyilişi ***fərqlənməyən*** sözləri müəyyən edin.
A) müavin, toqqa, dost-düşmən
B) sait, samit, mövzu
C) xətkeş, məşğələ, açar
D) sünbül, müəllim, təbiət
E) otaq, güzgü, zəif

34. Yazılışı ilə deyilişi fərqlənən sözləri müəyyən edin.
1. qılıncsız 2. kərgədan 3. məşğələ
4. hamarlamaq 5. qəbahət 6. qaranlıq
A) 2, 4, 6 B) 2, 4, 5 C) 1, 3, 6
D) 1, 4, 6 E) 1, 3, 5

35. Yazılışı ilə deyilişi fərqlənən sözləri müəyyən edin.
1. qrafin 2. pianino 3. məharət
4. istəkli 5. qəriblik 6. müddəa
A) 1, 4, 5 B) 2, 5, 6 C) 1, 3, 6
D) 2, 4, 5 E) 2, 3, 4

36. Nümunədə hansı sözlər yazılışından fərqli tələffüz edilir?
Sən ki ürəyimə dayaqsan, gülüm,
Bəs niyə ürəyim titrəyir belə?
(B. Vahabzadə)
A) 2, 3 B) 3, 4 C) 1, 3 D) 2, 4 E) 1, 4

Camscanner ilə skan edilib

37. Sözlərə qoşulduqda yazılışından fərqli tələffüz olunan şəkilçilərdir:
A) -da^2, -ar^2, -ın^4 B) -acaq^2, -ıq^4, -sınız^4
C) -çı^4, -ın^4, -cıl^4 D) -dır^4, -ış^4, -il^4
E) -saz, -ban, -dar

38. Sözlərə qoşulduqda yazılışından fərqli tələffüz olunan şəkilçilər hansılardır?
A) -çı^4, -ım^4, -ı^4 B) -ış^4, -ıntı^4, -la^2
C) -lıq^4, -aq^2, -sınız^4 D) -keş, -kar, -dar
E) -sız^4, -dakı^2, -ağan^2

39. Sözlərdən birinin yazılışı ilə tələffüzü arasında bir fərqli məqam var:
A) qumbara B) arxaik C) öskürmək
D) protokol E) savadlı

40. Deyilişi və yazılışı arasındakı fərqli məqamların sayına görə məntiqi ardıcıllığı müəyyən edin.
1. tezliklə 2. palıdlıq
3. nöqsanlı 4. ...
A) əlahiddə B) humanizm C) bilikli
D) dərdli E) təəssüflə

41. Yazılışı ilə tələffüzü fərqlənən sözlər sırasını müəyyən edin.
A) mürəkkəb, ovalıq, təhvil
B) tüfəng, müntəxəbat, kəlağayı
C) keçid, gömrük, hökumət
D) öyüd, qolbaq, imtahan
E) ahəng, tapşırıq, məşğuliyyət

42. Yazılışı ilə tələffüzü fərqlənən sözlər sırasını müəyyən edin.
A) müdhiş, satqın, sehrkar, şimşək
B) mücərrəd, nəhəng, formal, bitkin
C) məktəb, sayğac, ürək, kübar
D) kəskin, ixtiyar, müddəa, bişmiş
E) papaq, zənginlik, səhiyyə, zəmanət

43. Saitlə başlanan şəkilçi artırıldıqda bütün məqamlarda son saiti düşən sözlər sırasını müəyyən edin.
A) ətir, nəsil, sətir B) qədir, qayın, qoyun
C) beyin, ömür, abır D) boyun, şəkil, sinif
E) oğul, fəsil, xətir

44. Hansı sözlərə samitlə başlanan şəkilçi artırdıqda söz kökündəki samitlərdən sonuncusu tələffüz ***olunmur***?
A) rəhm, zülm, dörd, kənd
B) üzr, üzv, hökm, sədr
C) dost, neft, turist, sərbəst
D) rəqs, hiss, qərar, rəng
E) tibb, dinc, ləng, əmr

45. Hansı sözlərə samitlə başlanan şəkilçi artırdıqda söz kökündəki səslərin sayı hərflərin sayından çox olur?
A) rəng, rəqs, rəsm
B) nəbz, üzr, hökm, rəhm
C) dost, sərbəst, süst, neft
D) poçt, turist, kənd, bənd
E) kəşf, həsr, teatr, stol

46. Hansı sözlərdə müxtəlif səslər eyni hərflə ifadə olunmuşdur?
A) şəfəq, yaylaq B) yarpaq, torpaq
C) üfüq, aşiq D) ələk, hörük E) qoz, göz

47. Yazılışı ilə tələffüzü fərqlənən sözlər cərgəsi hansıdır?
A) nabat, bala, çarıq B) baba, cızıq, şabaş
C) üzbəüz, nənə, şənbə D) müftəxor, sevinc, canlı
E) dəbdəbə, nəqqaş, fayton

48. Yazılışı ilə deyilişi ***fərqlənməyən*** sözləri müəyyən edin.
1. üstünlük 2. qiraət 3. oynayır
4. izahat 5. gömgöy 6. qaşıqlar
A) 2, 4, 5 B) 3, 4, 5 C) 1, 2, 6
D) 2, 4, 6 E) 1, 3, 5

49. Sözlərdən birinin yazılışı ilə tələffüzü arasında iki fərqli məqam var:
A) mərifətli B) maldarlıq C) lobbiçilik
D) tərəddüd E) lokomotiv

50. Sözlərdən birinin yazılışı ilə tələffüzü arasında fərq ***yoxdur***:
A) dekorativ B) gəldikdə C) akvarium
D) dəhşətli E) teatr

51. Sözlərdən birinin yazılışı ilə tələffüzü arasında üç fərqli məqam var:
A) yumruqlamaq B) üstələmək C) təskinlik
D) surğuclu E) atmosfer

52. Hansı sözlərin yazılışı ilə tələffüzü arasında iki fərqli məqam var?
1. anlaşıqlı 2. lovğalanmaq 3. kasadlıq
4. heyrətlənmək 5. ikitirəlik
A) 1, 4 B) 3, 4, 5 C) 2, 3, 4
D) 2, 5 E) 1, 2

53. *"O"* yazılıb [a] tələffüz edilən sözlər cərgəsini müəyyən edin.
A) stadion, dotasiya, meqafon
B) kosmos, xronika, konsul
C) korifey, favorit, reportaj
D) avtobus, kvota, opera
E) nota, obraz, partnyor

54. Uyğunluğu müəyyən edin.
1. Tərkibində iki məqamda uzun tələffüz olunan sait var.
2. Yazılış ilə tələffüz arasında iki fərqli məqam var.
3. Tələffüz zamanı bir səsin düşməsi və bir səsin artması var.
a. təəssüflə
b. nümayişkaranə
c. sənədləşmə
d. kəhrəba
e. istiqanlı
A) 1 – a; 2 – c; 3 – b, d
B) 1 – b, d; 2 – e; 3 – a, c
C) 1 – b; 2 – a, e; 3 – c
D) 1 – a; 2 – b, c; 3 – e
E) 1 – b; 2 – c, e; 3 – a

Camscanner ilə skan edilib

55. Sözlərin yazılışı və tələffüzü arasındakı fərqli məqamların sayı baxımından ardıcıllığı tamamlayan söz hansıdır?
1. udqunmaq 2. ziddiyyətli
3. sabitlik 4. .....
A) yağmurlu B) söyüdlük C) sehrləmək
D) ustadnamə E) rahatlanmaq

56. Sözlərin yazılışı ilə tələffüzü arasındakı fərqli məqamların sayı baxımından ardıcıllığı tamamlayan söz hansıdır?
1. məhsuldarlıq 2. gerçəklik
3. quraqlıq 4. ...
A) qəhərlənmək B) monitorinq
C) kilidlənmə D) maraqlanmaq
E) paslanmaq

57. Sözlərin yazılışı və tələffüzü arasındakı fərqli məqamların sayı baxımından ardıcıllığı tamamlayan söz hansıdır?
1. xatırlamaq 2. hüdudlu
3. təzadlı 4. ...
A) ideoloji B) otuzluq C) xoşluqla
D) zehinli E) emosional

58. Sözlərin yazılışı və tələffüzü arasındakı fərqli məqamların sayı baxımından ardıcıllığı tamamlayan söz hansıdır?
1. üzrxahlıq 2. olimpiada
3. ölkəşünaslıq 4. .....
A) oxşarlıq B) döyüşkənlik C) paslanmaq
D) reportyor E) simpozium

59. Sözlərin yazılışı və tələffüzü arasındakı fərqli məqamların sayı baxımından ardıcıllığı tamamlayan söz hansıdır?
1. monolit 2. nişanlamaq
3. rasional 4. .....
A) poliqlot B) opponent C) palıdlıq
D) əziyyətlə E) həssaslıq

60. Sözlərin yazılışı və tələffüzündəki fərqli məqamların sayını gözləməklə cərgəni tamamlayan söz hansıdır?
1. paroxod 2. kəşfiyyat
3. tərslik 4. ...
A) sədrlik B) ocaqçı C) uzunsaçlı
D) tündlük E) fərqlənmək

61. Sözlərin yazılışı və tələffüzündəki fərqli məqamların sayını gözləməklə cərgəni tamamlayan söz hansıdır?
1. üzləşmək 2. yüzlük
3. üzrlü 4. ...
A) dövriyyə B) vahidlik C) iştirak
D) legioner E) namərdlik

62. Sözlərin yazılışı və tələffüzündəki fərqli məqamların sayını gözləməklə ardıcıllığı tamamlayın.
1. fonoqram 2. göstərmək
3. əhəmiyyətli 4. ...
A) gizlənmək B) sanmaq C) ədavətli
D) emosional E) səslənmək

63. Sözlərin yazılışı və tələffüzündəki fərqli məqamların sayını gözləməklə ardıcıllığı tamamlayın.
1. düzənlik 2. görünmək
3. şirinlik 4. ...
A) yetkinlik B) vətənpərvərlik C) zülmlə
D) asfaltlamaq E) döyüşkənlik

64. Sözlərin yazılışı və tələffüzündəki fərqli məqamların sayını gözləməklə cərgəni tamamlayın.
1. sönməyən 2. gerçəklik
3. üzrlü 4. ...
A) odlanmaq B) orfoqrafik C) üstünlük
D) zəhmlə E) abadlıq

65. Sözlərin yazılışı və tələffüzündəki fərqli məqamların sayını gözləməklə cərgəni tamamlayın.
1. vərəqləmək 2. sığınmaq
3. çempionat 4. ...
A) fərqlənmək B) cadarlanmaq C) əzəmətli
D) yaxınlıq E) səslənmək

66. Sual işarəsinin yerinə hansı söz yazılsa, hər üçbucaqdakı verilən iki fikirdən yalnız biri həmin sözə aid olar?



A) güzəştsiz B) hoppanmaq C) yastıq
D) sözlük E) qastrol

67. Deyilişi və yazılışı arasındakı fərqli məqamların sayına görə sözlərin ardıcıllığını azdan çoxa doğru müəyyən edin.
1. ahəngdarlıq 2. doluxsunmaq
3. kainat 4. məmnunluqla
A) 2, 4, 3, 1 B) 3, 1, 2, 4 C) 3, 2, 1, 4
D) 4, 1, 3, 2 E) 1, 2, 3, 4

68. Üzərində rəqəm yazılmış sözlərdən hansılar yazılışından fərqli tələffüz edilir?

Dünyadan[1] keçdi, gedi[2]di, getdi[3].
Yaratdı, köçdü getdi.
O, xoyrat bulağından[4]
Füzuli[5] içdi[6] getdi.

(Kərkük bayatısı)

69. Üzərində rəqəm yazılmış sözlərdən hansılar yazılışından fərqli tələffüz edilir?

Dayan[1]!.. Bu bağçanın hər bir budağı[2]
Üstündə[3] min çiçək, min gül bitirmiş[4].

Sizin güldüyünüz çoban torpağı
Nizamilər[5], Füzulilər[6] yetirmiş!

(S. Vurğun)

70. Hansı sözlərin yazılışı ilə tələffüzü arasında üç fərqli məqam var?

1. istilik
2. tolerantlıq
3. protokol
4. dərdləşmək
5. orfoqrafik
6. dəstəklənmək

71. Hansı sözlərin yazılışı ilə tələffüzü arasında üç fərqli məqam var?

1. üzüyumşaq
2. velosiped
3. samanlıq
4. təskinlik
5. uzaqgörənlik
6. yuxulamaq

72. Yazılışı ilə deyilişi ***fərqlənməyən*** sözləri müəyyən edin.

1. çətinlik
2. xarrat
3. maraqla
4. malikanə
5. xətkeş
6. kənddə

73. Yazılışı ilə deyilişi ***fərqlənməyən*** sözləri müəyyən edin.

1. kitabdan
2. firavan
3. palıdın
4. fişənglər
5. müəmmalı
6. ülgüclə

74. Sözlərin deyilişi və yazılışı arasındakı fərqli məqamların sayına görə ardıcıllığını azdan çoxa doğru müəyyənləşdirin.

1. sehrli
2. özəlliklə
3. təklik
4. sənətkarlıqla

75. Uyğunluğu müəyyən edin.

1. Tələffüzü yazılışından bir məqamda fərqlənir.
2. Tələffüzü yazılışından iki məqamda fərqlənir.
3. Tələffüzü yazılışından üç məqamda fərqlənir.

a. fıstıq
b. aeroport
c. maraqlanmaq
d. qarlı
e. cəldlik

76. Uyğunluğu müəyyən edin.

1. Tələffüzü yazılışından bir məqamda fərqlənir.
2. Tələffüzü yazılışından iki məqamda fərqlənir.
3. Tələffüzü yazılışından üç məqamda fərqlənir.

a. təəssüflə
b. havadarlıq
c. qaranlıq
d. bibioğlu
e. cərrah

77. Verilmiş sözlərin yazılışı və tələffüzündəki fərqli məqamlarla bağlı uyğunluğu müəyyən edin.

1. Bir fərqli məqam var.
2. İki fərqli məqam var.
3. Üç fərqli məqam var.

a. ciddiyyət
b. azadfikirli
c. bikar
d. tələskənlik
e. yönləndirmək

78. Sözlərin yazılışı və tələffüzündəki fərqli məqamlarla bağlı uyğunluğu müəyyən edin.

1. Bir fərqli məqam var.
2. İki fərqli məqam var.
3. Üç fərqli məqam var.

a. təkəbbürlü
b. şiddətlə
c. sintez
d. iftixarla
e. məhsuldarlıq

79. Uyğunluğu müəyyən edin.

1. Səslərin sayı hərflərin sayından azdır.
2. Səslərin sayı hərflərin sayından çoxdur.
3. Səslərlə hərflərin sayı bərabərdir.

a. bəraət, məcmuə
b. təəssüf, hakimiyyət
c. planet, dirijor
d. rəsmiyyət, sərbəstlik
e. poema, ailə

80. Uyğunluğu müəyyən edin.

1. Yazılışı ilə tələffüzü fərqlənir.
2. Yazılışı ilə tələffüzü fərqlənmir.

a. kinoprodüser
b. tarixən
c. snayper
d. tammetrajlı
e. treninq

Camscanner ile skan edilib

81. Uyğunluğu müəyyən edin.
1. Yazılışı ilə tələffüzü fərqlənir.
2. Yazılışı ilə tələffüzü fərqlənmir.

a. mürtəce
b. meyil
c. həcmcə
d. günbəz
e. imarət

82. Sözlərin yazılışı və tələffüzündəki fərqli məqamlarla bağlı uyğunluğu müəyyənləşdirin.
1. Bir fərqli məqam var.
2. İki fərqli məqam var.
3. Üç fərqli məqam var.

a. qıtlıq
b. qətiyyətlə
c. qrafik
d. qürurlu
e. qatlanmaq

83. Uyğunluğu müəyyən edin.
1. Yazılışı ilə tələffüzü fərqlənir.
2. Yazılışı ilə tələffüzü fərqlənmir.

a. vəznli
b. sammit
c. kibrit
d. günahkar
e. pansion

84. Uyğunluğu müəyyən edin.
1. Yazılışı ilə tələffüzü fərqlənir.
2. Yazılışı ilə tələffüzü fərqlənmir.

a. parad
b. nəfis
c. nikel
d. realizm
e. obyekt

85. Sözlərdə səs dəyişməsinin kəmiyyət ardıcıllığını gözləməklə uyğunluğu müəyyən edin.
1. doşab
2. monitorinq
3. sayıqlayanlar

a. kinayə, delta
b. ağac, hibrid
c. püxtələşmək, dərinlik
d. mülkədar, sement
e. dərmanlanmaq, yaraqlanmaq

86. Uyğunluğu müəyyən edin.
1. Yazılışı ilə deyilişi arasında dörd fərqli məqam var.
2. Yazılışı və deyilişi arasında fərq yoxdur.
3. Yazılışı ilə deyilişi arasında iki fərqli məqam var.

a. plagiat
b. onluq
c. qəyyum
d. planlaşdırmaq
e. peşəkarlıqla

87. Uyğunluğu müəyyən edin.
1. Yazılışı ilə deyilişi arasında dörd fərqli məqam var.
2. Yazılışı və deyilişi arasında fərq yoxdur.
3. Yazılışı ilə deyilişi arasında iki fərqli məqam var.

a. şairanə
b. xanlıq
c. peçenye
d. fədakarlıqla
e. möhürləmək

88. Yazılışı və tələffüzü arasındakı fərq baxımından azdan çoxa doğru ardıcıllığı müəyyən edin.
1. aidlik
2. vəsait
3. uçunmaq
4. riqqətlə

89. Yazılışı və tələffüzü arasındakı fərq baxımından azdan çoxa doğru ardıcıllığı müəyyən edin.
1. əminliklə
2. fontan
3. kəşfiyyat
4. gözlükdür

Qalmaqallı İmtahan Suallarının Cavabları

Leksika

Sözün leksik və qrammatik mənası

1. Sözlərdən birinin leksik mənası düzgün izah **olunmamışdır**:
A) riyakar – ikiüzlü, hiyləgər
B) ümman – böyük dəniz, okean
C) nikbin – kədərli, dərdli
D) xəzan – payızda yarpaqların tökülməsi
E) nəfəslik – pəncərənin balaca gözü

2. Sözlərdən birinin leksik mənası düzgün izah **olunmamışdır**:
A) ilxı – at toplusu
B) liman – bitki növü
C) aforizm – yığcam və dolğun mənalı ifadə
D) lətafət – incəlik, zəriflik
E) mətin – davamlı, dözümlü

3. Biri gəmilərin düz yolla hərəkətini tənzimləyən işarədir:
A) bürc B) mayak C) sərdabə
D) türbə E) kurqan

4. Biri meşədə kiçik açıq sahə mənasındadır:
A) yarımada B) tala C) ada
D) yamac E) göl

5. Hansı cərgədəki sözlərin leksik mənası ***yoxdur***?
A) axı, kaş, -dək B) kitab, həyat, kaş
C) cəld, görkəm, axı D) kimi, qədər, dəniz
E) dünya, təkcə, səma

6. Hansı sözlər omonimlik yarada bilir?
A) çat, qat B) axşam, səhər
C) həşərat, ağcaqanad D) dünya, kainat
E) yaz, payız

7. Biri köksdən yuxarı abidə mənasındadır:
A) heykəl B) postament C) büst
D) barelyef E) büt

8. "*Ecazkar*" sözünə aid düzgün cavabı müəyyən edin.
A) Köhnəlmiş sözdür.
B) "Səs" sözündən əvvəl işlənərək frazeoloji birləşmə yaradır.
C) "*Qəribə*", "*möcüzəli*" mənasındadır.
D) Sinonimi "*təvazökar*" sözüdür.
E) Omonim kimi işlənə bilir.

9. "*Nakam*" sözü ilə bağlı ***səhv*** fikirdir:
A) Sinonimlik yarada bilir.
B) Köhnəlmiş söz deyil.
C) Təkmənalıdır.
D) Omonim kimi işlənə bilmir.
E) Leksik mənasına görə "*arzusuna çatmayan*" deməkdir.

10. "*Mülahizə*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhv*** fikirdir:
A) Sinonimi "*mübahisə*" sözüdür.
B) "Fərziyyə" sözü ilə sinonimdir.
C) Leksik mənasına görə "*irəli sürülən fikir*" deməkdir.
D) Omonimlik yarada bilmir.
E) Təkmənalıdır.

11. "*Qazanc*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhv*** fikirdir:
A) Leksik mənasına görə "*nəyinsə əldə edilməsi*" deməkdir.
B) "*Gəlir*" sözü ilə sinonimdir.
C) Termindir.
D) Çoxmənalı sözdür.
E) Antonimi "*zərər*", "*ziyan*" sözləridir.

12. "*Möhtəşəm*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Ümumişlək sözdür.
B) "*Mötəbər*" sözü ilə antonimdir.
C) "*Əzəmətli*" sözü ilə sinonimdir.
D) Omonim ola bilmir.
E) Kontekstdən asılı olaraq məcazi mənada işlənə bilər.

13. "*Hiddət*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Omonim söz deyil.
B) Köhnəlmiş sözdür.
C) "Qəzəb" sözü ilə sinonimdir.
D) Təkmənalıdır.
E) Ümumişlək sözdür.

14. "*Məxfi*" sözü ilə bağlı ***səhvi*** müəyyən edin.
A) "Xəlvət" sözünün antonimidir.
B) "Gizli" sözü ilə sinonimlik yaradır.
C) Omonimlik yaratmır.
D) Leksik və qrammatik mənası var.
E) Ümumişlək sözdür.

15. Hansı sözün leksik mənası düzgün izah **olunmayıb**?
A) *abstrakt* – konkret izahı olan
B) *yekdillik* – birlik, mütəşəkkillik
C) *lətafət* – incəlik, zəriflik
D) *mətin* – davamlı, dözümlü
E) *aforizm* – yığcam və dolğun mənalı ifadə

16. Hansı sözün leksik mənası düzgün izah olunmuşdur?
A) *lətafət* – incəlik, zəriflik
B) *qafiyə* – yaxın mənalı sözlər
C) *omonim* – yazılışı müxtəlif, mənası eyni olan sözlər
D) *mətin* – hər hansı bir əsərdən parça
E) *təvazökar* – lovğa, özündənrazı

Camscanner ilə skan edilib

17. Məna baxımından məntiqi ardıcıllığı gözləməklə cərgəni tamamlayın.
Şanlı – şöhrətli – şöhrətli – ...
A) şəxsiyyətli B) lətafətli C) heysiyyətli
D) həyalı E) şərafətli

18. Hansı sözün leksik mənası düzgün izah ***olunmayıb***?
A) *abzas* – mətnin bir sətir başından o biri sətir başına qədər olan hissəsi
B) *təkəbbürlü* – lovğa
C) *astroloq* – göy cisimləri haqqında elm
D) *memuar* – xatirə
E) *mətn* – yazılı nitqin bir parçası

19. Hansı sözün leksik mənası düzgün izah olunmuşdur?
A) *yarımada* – üç tərəfi su ilə əhatə olunan quru sahə
B) *sabit* – dəyişkən
C) *ötrü* – təsadüfü
D) *sənəd* – peşə, ixtisas
E) *qadirlik* – bacarıqsızlıq, qüdrətsizlik

20. "*Mükalimə*" sözünün leksik mənası ilə bağlı doğru fikirdir:
A) malikanə B) münaqişə
C) iki şəxsin əməkdaşlığı
D) iki şəxs arasında söhbət E) incəlik, zəriflik

21. "*Tənə*" sözünün leksik mənası ilə bağlı doğru fikirdir:
A) danlaq, məzəmmət, kinayə
B) qarmaq, tilov
C) özünü ələ ala bilmək bacarığı
D) nəfis, incə iş
E) iki şəxs arasında söhbət

22. Birinin leksik mənası düzgündür:
A) *Ezamiyyət* – məzuniyyətə çıxaraq istirahətə getmək
B) *Flora* – hər hansı bir yerin və ya geoloji dövrün bitki aləmi
C) *Etiket* – malın, eksponatın və s.-nin üstünə yapışdırılan, üzərində onun adı olan yarlıq
D) *Əmlak* – mülklər (torpaq, əkin yeri, malikanə və s.)
E) *Etina* – artıq diqqət yetirmə, əhəmiyyət vermə

23. Bəndlərin birində "*açıq*" sözünün mənası ilə cümlədə işlənməsi arasında ***uyğunsuzluq*** vardır:

mənası	*işlənməsi*
A) sahibsiz	İdarəmizdə üç açıq yer var.
B) qapalı olmayan	Açıq pəncərədən ətrafı seyr edirdi.
C) azaltma əlaməti	Qızın açıq-sarı saçları vardı.
D) müdafiəsiz	Cəbhənin açıq yerlərinə qüvvə göndərmək lazımdır.
E) gizli olmayan	Səhər saatlarında bu yol açıq olur.

24. Bəndlərin birində "*dünya*" sözünün mənası ilə cümlədə işlənməsi arasında ***uyğunsuzluq*** vardır:

mənası	*işlənməsi*
A) ictimai quruluş	Gətirmək təzə üsluba gərəkdir köhnə dünyanı. (S.Ə. Şirvani)
B) Yer kürəsi	Hər ürəyin öz dünyası bir səadət arzular, ... (S. Vurğun)
C) insanların mənəvi aləmi	Gəncin əlini sıxarkən elə bil onun dünyası dəyişirdi.
D) bütün aləm	Bütün dünyanı gəzsən, yenə də belə at tapa bilməzsən.
E) xalq, camaat	Dünya yığılsa da, dediyindən dönən deyil.

25. Sillogizmə əsasən nöqtələrin yerinə uyğun fikri müəyyən edin.
I hökm: Leksik mənası olan sözün qrammatik mənası da var.
II hökm: "Vətən" sözünün leksik mənası var.
Nəticə: .....
A) "Vətən" sözü omonim deyil.
B) "Vətən" sözü təkmənalıdır.
C) "Vətən" sözünün sinonimi var.
D) "Vətən" sözünün qrammatik mənası var.
E) "Vətən" sözünün antonimi yoxdur.

26. *Limon – liman* sözlərinin leksik xüsusiyyətləri ilə bağlı düzgün fikirlərdir:
1. İkisinin də leksik və qrammatik mənası vardır.
2. Sözlərdən biri arxaikləşmişdir.
3. Sözlərin biri əşyanın adını, digəri əlamətini bildirir.
4. İkisi də əsas nitq hissəsidir
5. Sözlərin ikisi də çoxmənalıdır.
A) 3, 5 B) 4, 5 C) 1, 2 D) 1, 4 E) 2, 3

27. Biri torpaq, ağac və ya daşdan düzəldilmiş qədim süni təpə mənasındadır:
A) sərdabə B) mavzoley C) türbə
D) məqbərə E) kurqan

28. Bunlardan biri yeraltı qəbir mənasındadır:
A) mavzoley B) sərdabə C) məqbərə
D) türbə E) kurqan

29. Biri vaxtilə əhali tərəfindən seçilən və kəndin inzibati işlərini idarə edən adam mənasında işlənirdi:
A) kvartal B) kətda C) yasavul
D) murov E) mülkədar

30. Biri qədim şəhər hasarları üzərində tikilən müşahidə yeri mənasındadır:
A) hasar B) mayak C) minarə
D) bürc E) qala

31. Biri çətin dağ zirvələrinə çıxan adam mənasındadır:
A) yolçu B) turist C) səyyah
D) alpinist E) zəvvar

Camscanner ilə skan edilib

32. Biri həftələrin bayram şərəfinə təntənəli keçidi mənasındadır:
A) intişar B) nümayiş C) yürüş
D) üsyan E) parad

33. Biri öz fikrini sübut etməyə çalışanlar arasında baş verən bəhs mənasındadır:
A) müsahibə B) müşavirə C) dialoq
D) mübahisə E) mükalimə

34. Biri müəyyən bir işlə əlaqədar səfərə göndərilmə mənasındadır:
A) istirahət B) məzuniyyət C) istefa
D) təqaüd E) ezamiyyət

35. Biri çoxlu at mənasındadır:
A) mal-qara B) qaramal C) sürü
D) naxır E) ilxı

36. "*Təvazökar*" sözünün leksik xüsusiyyətləri ilə bağlı düzgün cavabı müəyyən edin.
A) Çoxmənalıdır.
B) Köhnəlmiş sözdür.
C) Antonimi "lovğa" sözüdür.
D) Sinonimi "təcavüzkar" sözüdür.
E) Omonim kimi işlənə bilir.

37. "*Mənfəət*" sözünün leksik xüsusiyyətləri ilə bağlı düzgün cavabları müəyyən edin.
1. Omonimdir.
2. Həm leksik, həm qrammatik mənası var.
3. "Maaş" sözü ilə sinonimdir.
4. Antonimi "zərər, ziyan" sözləridir.
5. Leksik mənası "fayda, qazanc" deməkdir.
A) 1, 5 B) 2, 4, 5 C) 3, 4
D) 1, 3 E) 1, 2, 3

38. "*Bivəfa*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) "Sadiq" sözünün antonimidir.
B) Leksik mənaya malikdir.
C) Təkmənalıdır.
D) Omonim kimi işlənə bilmir.
E) Sinonimi yoxdur.

39. "*Topçularımızın atdığı mərmi düşmən cəbhəsini yerlə yeksan etmişdi*" cümləsində xəbərin ifadə etdiyi leksik mənaya uyğun gələni hansıdır?
A) qarmaqarışıqlıq yaratmaq
B) ələk-vələk etmək C) darmadağın etmək
D) ikiyə bölmək E) parçalamaq

40. "*Nailiyyət*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhv*** fikir hansıdır?
A) "Var-dövlət", "sərvət" sözləri ilə sinonimdir.
B) Omonimi yoxdur.
C) Leksik mənasına görə "uğur", "müvəffəqiyyət" deməkdir.
D) Antonimi yoxdur.
E) Təkmənalı sözdür.

41. "*Qalibiyyət*" sözünün leksik xüsusiyyətləri ilə bağlı düzgün fikirləri müəyyən edin.
1. Köhnəlmiş sözdür.
2. Sinonimi var.
3. Antonimi vardır.
4. Omonim kimi işlənə bilir.
5. "Qabiliyyət" sözünün sinonimidir.
6. Müstəqil leksik mənaya malikdir.
A) 5, 6 B) 2, 4, 6 C) 1, 3, 5 D) 2, 3, 6 E) 3, 4

42. "*Qabiliyyət*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhv*** fikirlər hansılardır?
1. Leksik mənası "bacarıq" deməkdir.
2. Köhnəlmiş sözdür.
3. Sinonimi yoxdur.
4. Omonim kimi işlənə bilmir.
5. "*Qalibiyyət*" sözü ilə antonimdir.
A) 1, 3, 5 B) 2, 4, 5 C) 2, 3, 5 D) 1, 4, 5 E) 1, 2, 4

43. "*Ədalət*" sözünün leksik xüsusiyyətlərinə görə ***səhv*** müəyyən edin.
A) Ümumişlək sözdür.
B) Antonimi "ətalət" sözüdür.
C) Sinonimi var.
D) Təkmənalıdır.
E) Omonim kimi işlənə bilmir.

44. "*İstehza*" sözünün sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Antonimi yoxdur.
B) Köhnəlmiş sözdür.
C) Sinonimi "rişxənd" sözüdür.
D) Təkmənalıdır.
E) Omonim kimi işlənə bilmir.

45. "*Maarif*" sözünün leksik xüsusiyyətləri ilə bağlı fikirlərdən biri ***səhvdir***:
A) Köhnəlmiş söz deyil.
B) Omonim söz deyil.
C) Leksik mənasına görə "bilik vermə", "təhsil", "savadlandırma" deməkdir.
D) "Savadsız", "biliksiz" sözləri ilə antonimdir.
E) Təkmənalı sözdür.

46. "*Tənə*" sözünün leksik cəhətdən təhlili ilə bağlı fikirlərdən biri ***səhvdir***:
A) Omonim kimi işlənə bilmir.
B) "Cəza", "əzab" sözü ilə sinonimdir.
C) "Danlaq" "məzəmmət" sözləri ilə yaxınmənalıdır.
D) Təkmənalı sözdür.
E) Antonimi yoxdur.

47. "*Sevinc*" sözünün leksik xüsusiyyətləri ilə bağlı biri ***səhvdir***:
A) Antonimi "qəm", "kədər" sözləridir.
B) Ümumişlək sözdür.
C) Omonimi yoxdur.
D) Leksik mənasına görə "şadlıq", "fərəh" deməkdir.
E) Çoxmənalı sözdür.

48. "*Lətafət*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Təkmənalı sözdür. B) Köhnəlmiş sözdür.
C) Termin kimi işlənmir. D) Omonim deyil.
E) "İncəlik" sözü ilə sinonimdir.

49. "*Məlumat*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Leksik və qrammatik mənaya malikdir.
B) Antonimi yoxdur.
C) Omonim deyil.
D) Termin kimi işlənə bilmir.
E) Sinonimləri "əhvalat", "sərgüzəşt" sözləridir.

50. "*Maaş*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Omonim deyil.
B) Leksik mənasına görə "əməkhaqqı" deməkdir.
C) Arxaik sözdür.
D) Təkmənalı sözdür.
E) Antonimi yoxdur.

51. "*Zəif*" sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhvləri*** müəyyən edin.
I Omonim söz deyil.
II Leksik mənasına görə "gücsüz" deməkdir.
III Təkmənalı sözdür.
IV "Qorxaq", "cəsarətsiz" sözləri ilə sinonimdir.
V Antonimi yoxdur.
A) I, III B) II, IV C) III, IV, V
D) I, II, IV E) I, II, III

52. "*Əhvalat*" sözünün leksik xüsusiyyətləri ilə bağlı hansı ***səhvə*** yol verilmişdir?
A) Sinonimi yoxdur.
B) Termin kimi işlənmir.
C) Antonimi yoxdur.
D) Leksik və qrammatik mənaya malikdir.
E) Omonim deyil.

53. "*Mehriban*" sözünün leksik xüsusiyyətlərinə görə ***səhvi*** müəyyən edin.
A) Omonim deyil.
B) "Səmimi", "istiqanlı" sözləri ilə sinonimdir.
C) Təkmənalı sözdür.
D) Hamı tərəfindən başa düşülür.
E) Antonimi yoxdur.

54. "*Mətn*" sözünün izahı hansı cavabda düz verilmişdir?
A) yazılı nitqin bir parçası B) igid
C) dözümlü D) sözübütöv
E) inadkar

55. Bunlardan biri "*xərclənən vəsait*" mənasındadır:
A) mədaxil B) məxaric C) əmlak
D) malikanə E) istehlakçı

56. Hansı sözün mənası düzgün ***göstərilməyib***?
A) *güney* – cənub, gün düşən yer
B) *nisgil* – ürəkdə qalan məmnuniyyətsizlik hissi, qüssə
C) *müsahibə* – *bəhs* sözündəndir, *höcətləşmə* mənasında işlənir.
D) *mətin* – möhkəm, sarsılmaz, mətanətli
E) *mətn* – yazılı nitqin bir parçası

57. Hansı sözün mənası düzgün ***göstərilməyib***?
A) *təcavüzkar* – qəsbkar, başqasının torpağına göz dikən
B) *turizm* – istirahət və ya tanışlıq məqsədi ilə edilən səyahət
C) *tərənnüm* – həm müsbət, həm də mənfi cəhətləri göstərmək
D) *ötəri* – səthi, gözucu
E) *ötrü* – səbəb-məqsəd qoşması, *üçün* qoşmasının sinonimi

58. Hansı bənddə *"stenoqrafiya"* sözünün leksik mənası düzgün göstərilmişdir?
A) güllə atıcılığı üçün məşq yeri
B) xüsusi işarələrlə sözləri cəld yazma üsulu
C) səsyazma studiyası
D) tibbi avadanlıq saxlanan anbar
E) yazının tarixini öyrənən dilçilik sahəsi

59. Hansı bənddə *"təəssürat"* sözünün leksik mənası düzgün göstərilmişdir?
A) nöqsanları sadalama
B) təəssüf hissi keçirmə
C) hadisələrin başvermə ardıcıllığı
D) əşya və ya hadisənin insan şüurunda buraxdığı iz
E) hadisələrə obyektiv münasibət

60. Sözlərdən birinin leksik mənası düzgün ***göstərilməmişdir***:
A) *labirint* – dolanbac və dolaşıq yolları olan tikili
B) *rubrika* – kitab, qəzet və jurnallarda təkrar olunan başlıq, bölmə
C) *eksponat* – sərgilənən, nümayiş etdirilən əşya
D) *flora* – hər hansı bir ərazinin heyvanat aləmi
E) *meyar* – bir şeyi qiymətləndirmək və ya təsnif etmək üçün əsas əlamət, ölçü

61. "*Metonimiya*" sözünün leksik izahı ilə bağlı ***səhv*** fikirdir:
A) Termindir.
B) "Köçürmək" mənasını ifadə edir.
C) Təkmənalı sözdür.
D) Antonimi yoxdur.
E) Arxaizm deyil.

62. *"Gülərüz"* sözünün leksik izahı ilə bağlı ***səhv*** fikirdir:
A) Köhnəlmiş sözdür.
B) Leksik mənası var.
C) *"Xoşxasiyyət", "mehriban"* sözləri ilə sinonimdir.
D) Omonim ola bilmir.
E) Antonimi var.

Camscanner ilə skan edilib

63. *"Qəm"* sözünün leksik xüsusiyyəti ilə bağlı ***səhv*** fikri müəyyən edin.
A) *"Kədər, qüssə, dərd"* sözləri ilə sinonimdir.
B) Antonimi *"şad"* sözüdür.
C) Omonimliyi yoxdur.
D) Köhnəlmiş söz deyil.
E) Çoxmənalı söz deyil.

64. *"Güney"* sözünün leksik izahı ilə bağlı ***səhv*** fikri müəyyən edin.
A) Leksik mənasına görə *"günəş işığı düşən tərəf"* deməkdir.
B) Antonimi *"quzey"* sözüdür.
C) "Şərq" sözü ilə sinonimlik yaradır.
D) Təkmənalı sözdür.
E) Omonim kimi işlənə bilmir.

65. *"Quzey"* sözünün leksik təhlili ilə bağlı ***səhv*** fikri müəyyənləşdirin.
A) *"Şimal"* mənasını da bildirir.
B) *"Günəş işığı düşməyən yer"* deməkdir.
C) Antonimi yoxdur.
D) Təkmənalı sözdür.
E) Ümumişlək sözdür.

66. *"Tərəf"* sözünün izahı ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Antonimi yoxdur.
B) Lüğəvi mənası cəhət, istiqamət, yaxud hər hansı bir şeyin üzlərindən hər biri.
C) Arxaik söz deyil.
D) Sinonimi yoxdur.
E) Omonim sözdür.

67. *"Tanrı"* sözünün leksik izahı ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Köhnəlmiş söz deyil.
B) *"Allah"* sözü ilə sinonimidir.
C) Təkmənalı sözdür.
D) Antonimi vardır.
E) Omonimlik yarada bilmir.

68. Altından xətt çəkilmiş sözlər leksik baxımdan nədir?
1. *Bizə bircə <u>xal</u> lazımdır. <u>Xal</u> üzünə xüsusi yaraşıq verirdi.*
2. *Burdan bizə bir <u>qarış</u> yoldur. Əvəzin işinə <u>qarışmaq</u> olmur.*
A) sinonim B) termin C) antonim
D) omonim E) çoxmənalı söz

69. Altından xətt çəkilmiş sözlər leksik baxımdan nədir?
1. *<u>Yaş</u> öz işini görür. Paltar <u>yaş</u> idi.*
2. *Yaman <u>ov</u> həvəskarısan, ay zalım. Dağı <u>ovub</u> tunel çəkdilər.*
A) omonim B) termin C) çoxmənalı söz
D) sinonim E) antonim

70. Biri *"sərgilənən, sərgidə nümayiş etdirilən əşya"* mənasındadır:
A) elevator B) eskalator C) eskiz
D) eksponat E) ekskluziv

71. Biri *"çiyidi təmizlənmiş, çiyidsiz pambıq"* mənasındadır:
A) atlaz B) mahud C) kətan
D) ipək E) mahlıc

72. Hansı sözün leksik izahı ***verilməmişdir***?
1. danlaq, məzəmmət
2. coğrafi ad
3. inkişaf, dəyişmə, yeniləşmə
4. hərbi xidmətdən buraxılma
A) toponim B) tənə C) təminat
D) təkamül E) tərxis

73. Hansı sözün leksik izahı ***verilməmişdir***?
1. qəbul etmə, bəyənmə
2. məlumatın yalan olduğunu bildirmə
3. başqasının hərəkətini, danışıq tərzini təkrar etmə
4. qorxutma, hədələmə
A) təhrik B) təqdir C) təkzib
D) təqlid E) təhdid

74. *"Ehtiram"* sözünün leksik təhlilindəki ***səhvi*** müəyyən edin.
A) *"Ehram"* sözü ilə sinonimdir.
B) Antonimi var.
C) Ümumişlək sözdür.
D) Leksik mənasına görə *"hörmət"* deməkdir.
E) Omonim deyil.

75. *"Rişxənd"* sözünün leksik izahı ilə bağlı ***səhvi*** müəyyənləşdirin.
A) Omonim kimi işlənə bilmir.
B) Sinonimi "istehza" sözüdür.
C) Antonimi yoxdur.
D) Təkmənalıdır.
E) "Riqqət" sözü ilə sinonimdir.

76. *"Bəxşiş"* sözünün leksik izahı ilə bağlı ***səhvi*** müəyyən edin.
A) *"Hədiyyə"*, *"ərməğan"* sözləri ilə sinonimdir.
B) Omonim deyil.
C) Termin kimi işlənmir.
D) Çoxmənalı sözdür.
E) Antonimi yoxdur.

77. Verilən fikirləri hansı sözə aid etmək olar?
- *Eyni nitq hissəsinə aid omonimdir.*
- *Termin kimi işlənə bilir.*
- *Çoxmənalı sözdür.*

A) dar B) süjet C) darğa
D) bağ E) burun

78. Verilən fikirləri hansı sözə aid etmək olar?
- *Müxtəlif nitq hissəsinə aid omonimdir.*
- *Termin kimi işlənə bilmir.*
- *Təkmənalı sözdür.*

A) yol B) nəticə C) bal D) surət E) an

Camscanner ilə skan edilib

79. *"Köhnə"* sözünün leksik xüsusiyyətləri ilə bağlı ***səhvləri*** müəyyən edin.
1. Ümumişlək sözdür.
2. Çoxmənalı sözdür.
3. Termin kimi də işlənir.
4. Antonimi "müasir" sözüdür.
5. Sinonimi yoxdur.
6. Omonimliyi vardır.

A) 3, 4, 6 B) 1, 2, 4 C) 2, 5
D) 3, 5, 6 E) 1, 5

80. Sözlərdən birinin leksik mənası düzgün ***göstərilməyib***:
A) rubrika – kitab, qəzet və jurnallarda təkrar olunan başlıq, bölmə
B) labirint – dolanbac və dolaşıq yolları olan tikili
C) fauna – hər hansı bir ərazinin bitkilər aləmi
D) poliqlot – çox dil bilən adam
E) səyyar – daimi bir yerdə qalmayan, gəzib-dolaşan, istənilən yerə daşınan

81. Nümunələrdə işlənmiş *almaq* feilinin ifadə etdiyi məna çalarlarının ardıcıllığını müəyyən edin.
• Keçən həftə göndərdiyin məktubu bu gün aldım.
• Neftdən alınan məhsullardan məişətdə geniş istifadə olunur.
• Başını duman alan dağları seyr etməkdən doymurdu.
• Bir çox kəndləri, şəhərləri alan sərkərdə indi çətin vəziyyətə düşmüşdü.
1. zəbt etmək, tutmaq
2. götürmək, qəbul etmək
3. istehsal etmək, hazırlamaq
4. bürümək, əhatə etmək

A) 2, 3, 1, 4 B) 1, 3, 2, 4 C) 1, 4, 3, 2
D) 3, 2, 4, 1 E) 2, 3, 4, 1

82. *Keçmək* feilinin ifadə etdiyi məna çalarlarının ardıcıllığını müəyyən edin.
• Xaricdə təcrübə keçmiş tələbələr bu həftə vətənə qayıdacaqlar.
• Bu küçəni keçəndə ehtiyatlı olun.
• İlqar qarşı komandaya keçəndən sonra biz məğlub olduq.
• Musiqiyə və şeirə həvəs ona atasından keçmişdi.
1. irəliləmək, yer dəyişmək
2. yerinə yetirmək, başa vurmaq
3. qoşulmaq, birləşmək
4. sirayət etmək, ötürülmək

A) 4, 1, 3, 2 B) 2, 3, 4, 1 C) 3, 1, 4, 2
D) 2, 1, 3, 4 E) 3, 2, 1, 4

83. *Mərci* sözü ilə bağlı ***səhv*** fikri müəyyən edin.
A) Çoxmənalı söz deyil.
B) Antonimi yoxdur.
C) Omonimi vardır.
D) Paxlalılar fəsiləsindən olan dənli bitkidir.
E) Həm leksik, həm qrammatik mənası var.

84. Hansı sözün leksik mənası düzgün ***verilməmişdir***?
A) *ianə* – bir xeyir iş üçün, ehtiyacı olan üçün toplanılan pul, maddi yardım
B) *variant* – bir şeyin başqa bir şəkildə tərtibi, işlənməsi
C) *izdiham* – bir yerə yığılan böyük insan kütləsi
D) *etiraf* – öz səhvini boynuna alma
E) *subyekt* – üzərində iş görülən şəxs, əşya

85. Hansı sözün leksik mənası düzgün ***verilməmişdir***?
A) *anarxiya* – hərc-mərclik, qarışıqlıq
B) *obyekt* – fəaliyyəti icra edən şəxs, əşya
C) *həqarət* – heysiyyətə, mənliyə toxunan hərəkət, söz
D) *forma* – bir şeyin xarici görünüşü, şəkli
E) *mütəmadi* – daimi surətdə baş verən

86. Bəndlə bağlı fikirlərdən biri ***səhvdir***:
Dolaşırsan yenə gendə,
Saçlarıma düşdü dən də.
Bir yol səni düşünəndə,
Min yol ağlım çaşar mənim. (Sücaət)
A) IV misrada frazeoloji birləşmə işlədilib.
B) I misradakı "*dolaşırsan*" sözü "*gəzmək*" sözünün sinonimidir.
C) II misradakı "*saç*" sözünün omonimliyi var.
D) IV misradakı "*ağlım çaşar*" ifadəsinin frazeoloji sinonimi "*dəli olmaq*"dır.
E) III və IV misradakı "*yol*" sözü "*dəfə*" sözünün sinonimidir.

87. Bəndlə bağlı fikirlərdən hansı ***səhvdir***?
Sizə mənim canım qurban,
Yad əllərdə qalan dağlar.
Vallah, elə biz də sizsiz,
Talan olduq, talan, dağlar.
A) IV misrada "*evi dağılmaq*" ifadəsinin frazeoloji sinonimi işlənmişdir.
B) III misrada işlənmiş "*biz*" və "elə" sözləri omonimlik yaradır.
C) II misrada omonimlik yaradan iki söz var.
D) Nümunədəki "*yad*" sözü "*özgə*" sözünün sinonimidir.
E) IV misrada kökləri omonim olan sözlər işlənmişdir.

88. Fikirlərdən biri ***səhvdir***:
A) "*manqurt*" – "*düşünmək qabiliyyətini itirmiş adam*" mənasını bildirir.
B) "*boya*" – omonimdir, isim və feil kimi işlənir.
C) "*min*" müxtəlif nitq hissələrinə aid omonim sözdür.
D) "*baş*" – həm çoxmənalı, həm də omonim kimi işlənən sözdür.
E) "*atlaz*" – parça növü, "*atlas*" – xəritələr toplusu deməkdir.

Camscanner ilə skan edilib

89. Fikirlərdən biri ***səhvdir***:
A) "*inci*" – müxtəlif nitq hissələrinə aid omonim sözdür.
B) "*dolu*" – omonimdir, sifət və isim kimi işlənir.
C) "*göz*" – həm çoxmənalı, həm də omonim kimi işlənən sözdür.
D) "*bikar*" – işsiz, məşğuliyyətsiz deməkdir.
E) "*iffətli*" – ismətli, həyalı, namuslu sözləri ilə sinonimdir.

90. "*Boya*" və "*boyaq*" isimlərinin leksik mənaları ilə bağlı ortaq cəhəti müəyyənləşdirin.
A) Hər ikisi omonim olaraq əşya və hərəkət bildirir.
B) Hər iki söz ancaq qrammatik mənaya malikdir.
C) Bütün üslubi məqamlarda bir-birini əvəz edə bilmir.
D) Çoxmənalılıq və omonimlik xüsusiyyətlərinə malikdirlər.
E) Hər ikisinin antonimi vardır.

91. Verilən sözlərin hər üçünə aid olan ortaq xüsusiyyətləri müəyyən edin.
doğru, qarşı, yaz
A) Müxtəlif nitq hissələrinə aid omonimdir.
B) Həm ümumişlək, həm də köhnəlmiş sözlər kimi işlənə bilir.
C) Termin kimi işlənə bilir.
D) Yalnız qrammatik mənası olan sözlər kimi işlənə bilir.
E) Eyni nitq hissəsinə aid omonim sözlərdir.

92. Sözlərin mənasını nəzərə alaraq, ardıcıllığı müəyyən edin.
- *üstünlük, güzəşt*
- *suyun axdığı yol*
- *yumru şəkildə sarınmış ip*
- *qanunla icazə verilən*

1. yumaq
2. məcra
3. leqal
4. imtiyaz

A) 4, 2, 1, 3 B) 1, 2, 3, 4 C) 3, 2, 1, 4
D) 3, 4, 1, 2 E) 4, 1, 2, 3

93. "*Fərasət*" sözünün leksik izahı ilə bağlı ***səhv*** fikirlərdir:
1. "*Bacarıq*" sözü ilə yaxın mənalıdır.
2. Termin kimi işlənən sözdür.
3. Sinonimi vardır.
4. Omonim kimi işlənə bilmir.
5. Antonimi "fərsiz" sözüdür.

94. "*Zərif*" sözünün leksik izahı ilə bağlı ***səhv*** fikirləri müəyyənləşdirin.
1. Antonimi "kobud" sözüdür.
2. "*İncə*" sözü ilə yaxın mənalıdır.
3. Təkmənalı sözdür.
4. "*Nəfis*" sözü ilə sinonimdir.
5. "Məktub", "paket" mənalarında da işlənir.

95. Verilən sözlərin hər üçünə aid olan ortaq xüsusiyyətləri müəyyən edin.
ay, düz, tək
1. Müxtəlif nitq hissələrinə aid omonim sözlərdir.
2. Çoxmənalı sözlərdir.
3. Termin kimi işlənə bilir.
4. Həm leksik, həm də qrammatik mənaya malik olan sözlərdir.
5. Eyni nitq hissəsinə aid omonim sözlərdir.

96. Nümunədə altından xətt çəkilmiş sözlə bağlı yanlış fikirləri müəyyən edin.
O neyləsin ömrünün bu <u>ixtiyar</u> yaşında? (S. Vurğun)
1. Antonimi "cavanlıq" sözüdür.
2. Omonim kimi işlənə bilən sözdür.
3. "Qoca", "yaşa dolmuş" mənasında işlənmişdir.
4. Müxtəlif nitq hissəsinə aid omonimliyi olan sözdür.
5. Termin kimi də işlənə bilir.

97. "*İtirmək*" feilini üslubi cəhətdən əvəz edə bilən ifadənin işləndiyi cümlələri müəyyən edin.
1. Təzə aldığı telefonunu tez-tez unudub evdə qoyurdu.
2. Bir ay davam edən döyüşdə torpaqların bir hissəsini əldən verdilər.
3. Sənədləri atasına göstərmək üçün yaxınlaşanda o gözünə dəymədi.
4. Dost ölümü ona həyatın vurduğu ən böyük zərbə idi.
5. Sonuncu ümidi də puç olan ana kor-peşman geri qayıdırdı.

98. Cümlələrdə altından xətt çəkilmiş sözlər əsasında uyğunluğu müəyyənləşdirin.
1. Bəşəriyyət üçün ən böyük <u>təhdidlər</u> ətraf mühitin çirklənməsi, nüvə müharibəsi və terror kimi cinayətlərdir.
2. Yeni layihənin özünəməxsusluğu insanları <u>təşviq</u> yolu ilə tərəqqiyə səsləməsindədir.
3. İnsan <u>təlqin</u> vasitəsilə başqalarının fikirlərini dəyişə bilər.

a. bir işi görmək üçün dilə tutmaq, həvəsləndirmək
b. qorxu, hədə
c. hər hansı bir fikri qəbul etdirmək üçün edilən təsir
d. mübarizə, mücadilə
e. xəyalən göz qabağına gətirmək

99. "*Kədərli*" sözü ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Leksik mənaya malikdir.
2. Omonim kimi işlənə bilir.
3. "*Qəmli*", "*qüssəli*" sözləri ilə sinonimdir.
4. Antonimi "*sevincli*" sözüdür.
5. Qrammatik mənaya malik deyil.

Camscanner ilə skan edilib

100. "*Sərvət*" sözünün leksik xüsusiyyətləri ilə bağlı doğru fikirləri seçin.
1. Leksik mənaya malikdir.
2. "*Var*", "*dövlət*" sözləri ilə sinonimdir.
3. Omonim kimi işlənə bilir.
4. Antonimi yoxdur.
5. Çoxmənalılıq yarada bilmir.

101. Nümunədə altından xətt çəkilmiş sözlə bağlı doğru fikirləri müəyyən edin.
Qəhrini çəkdiyim gülün surəti
Sakit xəyalımın gölünə düşdü. (M. Müşfiq)
1. Eyni nitq hissəsinə aid omonimliyi olan sözdür.
2. *Şəkil, görünüş* mənasında işlənmişdir.
3. Sinonimi yoxdur.
4. Termin kimi işlənmişdir.
5. Köhnəlmiş sözdür.

102. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Qrammatik mənasına görə isimdir.
b. "Hadisə" sözü ilə sinonimdir.
c. Antonimi yoxdur.
d. " İncəlik", "zəriflik", "gözəllik" sözləri ilə sinonimdir.
e. Omonim söz deyil.

103. Uyğunluğu müəyyən edin.
1. belə 2. çap 3. sifət
a. Həm isim, həm də feil kimi işlənə bilən omonim sözdür.
b. Eyni nitq hissəsinə aid omonimdir.
c. Köhnəlmiş sözdür.
d. Yalnız qrammatik mənası olan söz kimi də işlənə bilir.
e. Termin kimi də işlənə bilən sözdür.

104. Verilmiş sözlərin leksik mənalarına əsasən uyğunluğu müəyyən edin.
1. defis 2. arxiv 3. kolleksiya
a. cümlə üzvlərinin əlavəsindən əvvəl işlənən uzun üfüqi xətt
b. bir sıra mürəkkəb sözlərdə, sözləri sətirdən sətrə keçirdikdə və s. məqamlarda istifadə edilən kiçik xətt
c. tarix, incəsənət abidələrini, elmi-təbii eksponatları toplayıb mühafizə və nümayiş etdirən müəssisə
d. qədim sənədlərin və yazılı abidələrin saxlandığı müəssisə
e. elmi, bədii və tarixi əhəmiyyəti olan şeylərin müəyyən sistem üzrə düzülmüş toplusu

105. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Eyni nitq hissəsinə aid omonimdir.
b. Termin kimi işlənə bilir.
c. Müxtəlif nitq hissəsinə aid omonimdir.
d. Həm leksik, həm də qrammatik mənası var.
e. Məcazi mənada işlənə bilir.

106. Nöqtələrin yerinə uyğun gələn sözləri müəyyənləşdirin.
1. səhrada 2. uşaqdan 3. yarı
4. yiyəsinə 5. yalanı
... gör, özün danış, ev yıxar ara sözü.
Pis söz qəlp puldur, ... qayıdar.
Sözün doğrusunu ... xəbər al.
Sözün ... olmaz, yanlışı olar.
... gül bitməz, cahilə söz yetməz.

107. Nöqtələrin yerinə uyğun gələn sözləri müəyyənləşdirin.
1. ağlın 2. özündən 3. axmaq
4. para 5. el
Mərd ... bilər, namərd özgədən.
Ağıllı öyrənməyi xoşlar, ... öyrətməyi.
Dəvəcə boyun olunca, düyməcə ... olsun.
... yandıran şamı söndürmək olmaz.
Elm ... ilə yox , çalışmaqla ələ gəlir.

Sözün həqiqi və məcazi mənası. Təkmənalı və çoxmənalı sözlər. Terminlər. Arxaizmlər

1. Verilmiş nümunədə nöqtələrin yerinə hansı söz daha uyğundur?
əl
sözü — ...
topa
A) çatmaq B) atmaq C) tutmaq
D) yetmək E) almaq

2. Verilmiş nümunədə nöqtələrin yerinə hansı söz daha uyğundur?
köynəyin
çayın — ...
ağacın
A) kökü B) ayağı C) başı
D) qolu E) gövdəsi

Camscanner ilə skan edilib

3. *Baş bədənin tacıdır, gözlər onun daş-qaşı.*
Altından xətt çəkilmiş sözlər leksik baxımdan nə sayılmalıdır?
A) termin B) antonim C) sinonim
D) omonim E) çoxmənalı söz

4. Köhnəlmiş sözlər cərgəsini müəyyən edin.
A) vətən, tarix, şəkər
B) sayru, əsən, ayıtmaq
C) çörək, xoşbəxt, övlad
D) gümrah, ötkün, düşüncə
E) naxoş, sağlam, zəif

5. Köhnəlmiş sözləri müəyyən edin.
A) cəhrə, məktəb, aşıq
B) canlı, tədris, ozan
C) yasavul, yüzbaşı, nəsnə
D) mədrəsə, aylıq, neft
E) fikir, qayalıq, darvaza

6. "*Quru*" sözü hansı birləşmədə məcazi mənada işlənmişdir?
A) quru odun B) quru dəsmal C) quru maddə
D) quru adam E) quru çörək

7. "*Quru odun*" və "*quru adam*" birləşmələrindəki "*quru*" sözü aşağıdakılardan hansına aiddir?
A) sinonim B) çoxmənalı söz
C) təkmənalı söz D) omonim E) antonim

8. "*Quşun qanadı*" və "*təyyarənin qanadı*" birləşmələrindəki "*qanad*" sözü aşağıdakılardan hansına aiddir?
A) çoxmənalı söz B) təkmənalı söz
C) omonim D) antonim E) sinonim

9. "*Ağır*" və "*iti*" sözləri hansı cərgədə həqiqi mənada işlənmişdir?
A) ağır gün, iti söz B) ağır söz, iti göz
C) ağır daş, iti ülgüc D) ağır cəza, iti yaddaş
E) ağır xasiyyət, iti baxış

10. Köhnəlmiş sözlər cərgəsini tapın.
A) qovun, xırda, çimərlik
B) daraq, qamçı, qapı C) xəstə, loğman, otaq
D) ələk, köynək, yataq E) xış, yasavul, ayıtmaq

11. Köhnəlmiş sözlər cərgəsini müəyyən edin.
A) təhnə, tanıq, vəl
B) gözəl, qəşəng, yaraşıqlı
C) divan, bağ, ocaq
D) rəndə, baca, bulud
E) toplama, vurma, çıxma

12. Hansı cümlədə məcazi mənada işlənmiş söz vardır?
A) O, şirin çörəyi xoşlayır.
B) Arif bacısına soyuq su verdi.
C) Arif şirin çayı içib həyətə düşdü.
D) Onların arasında soyuq münasibət yaranmışdı.
E) Hava çox soyuq idi.

13. "*Şirin*" sözü hansı cümlədə həqiqi mənada işlənmişdir?
A) Şirin danışığı vardı.
B) Üzündə şirin bir təbəssüm var idi.
C) Şirin bir xatirə tək qalacaqdır dünyada.
D) Gəncliyin şirin xatirələrindən doymazdıq.
E) Uşaq şirin çay içib dərsə getdi.

14. "*Bulağın gözü*", "*körpənin gözü*" birləşmələrindəki "*göz*" sözü hansı məna qrupuna aiddir?
A) çoxmənalı söz B) sinonim C) omonim
D) antonim E) təkmənalı söz

15. Hansı sırada çoxmənalı söz işlənmişdir?
A) ayın işığı-may ayı
B) Kür çayı-şirin çay
C) uşağın üzü-suyun üzü
D) Mil düzü-sözün düzü
E) yaş ağac-uşağın yaşı

16. Çoxmənalı sözlər cərgəsini müəyyən edin.
A) ayaq, ətək, kök, ağız
B) top, ay, günəş, tar
C) ulduz, bel, tut, at
D) papaq, karandaş, nəticə, dolu
E) ana, yaş, bağ, dağ

17. "*Böyük otaq*" və "*böyük vəzifə*" birləşmələrindəki "*böyük*" sözü leksik mənasına görə nədir?
A) omonim B) təkmənalı söz
C) çoxmənalı söz D) sinonim E) antonim

18. Hansı cümlədə sifət məcazi mənada işlənmişdir?
A) Səhərlər şirin çay içmək faydalıdır.
B) O, şirin çörəyi xoşlayır.
C) Camal bacısına soyuq su verdi.
D) Onun çox ağır xasiyyəti var.
E) Soyuq külək əsirdi.

19. Hansı cümlədə feil məcazi mənada işlənmişdir?
A) Bu gözəl mənzərəyə baxanda hamı sevinirdi.
B) O hər gün anasını qarşılamağa gedərdi.
C) Burada təbiət adamın üzünə gülürdü.
D) Dostlar şirin söhbət edirdilər.
E) Gözətçi yatmamışdı.

20. "*Nigar almanı soydu*" və "*Quldurlar taciri soydular*" cümlələrindəki "*soy*" sözü hansı məna qrupuna aiddir?
A) omonimlərə B) təkmənalı sözlərə
C) antonimlərə D) çoxmənalı sözlərə
E) sinonimlərə

21. Hər üçü çoxmənalı sözdür:
A) sel, su, arx B) ayaq, insan, yer
C) yağış, dolu, qar D) lövhə, kəsmək, saymaq
E) bel, çəkic, narın

22. Arxaizmlər cərgəsini müəyyənləşdirin.
A) qovun, xırda, çimərlik
B) sayru, loğman, otaq C) çuxa, qamçı, qapı
D) ələk, qurşaq, arxalıq E) us, yey, altun

CamScanner ile skan edilib

23. Arxaizmlər cərgəsini müəyyən edin.
A) doqqaz, darğa, taqım
B) divan, nəsnə, ocaq
C) çuxa, yasovul, dəbilqə
D) sovruq, təlis, mənzil
E) kəndxuda, vurma, çıxma

24. Biri dilçilik terminidir:
A) silikat B) etimologiya C) fiksaj
D) neolit E) vəzn

25. Biri dilçilik terminidir:
A) humanizm B) hürufizm C) dialektizm
D) sionizm E) realizm

26. Biri dilçilik terminidir:
A) morfologiya B) mutasiya C) miqrasiya
D) mifologiya E) seysmologiya

27. Hansı sifət çoxmənalı söz kimi işlənə bilmir?
A) şabalıdı B) qara C) boz
D) soyuq E) isti

28. Hansı feil çoxmənalı söz kimi işlənə bilmir?
A) atmaq B) bişirmək C) çevirmək
D) yumaq E) hıçqırmaq

29. *"Otağın genişliyi"* və *"ürək genişliyi"* birləşmələrindəki *"genişlik"* sözü aşağıdakılardan hansı məna qrupuna aiddir?
A) təkmənalı sözlərə B) çoxmənalı sözlərə
C) omonimlərə D) antonimlərə
E) sinonimlərə

30. "*İmtahandan <u>kəsildi</u>*" və "*Ağac <u>kəsildi</u>*" cümlələrində altından xətt çəkilmiş sözlər bir-birinə münasibətdə nə adlandırılmalıdır?
A) çoxmənalı söz B) təkmənalı söz
C) sinonim D) omonim E) antonim

31. Aşağıdakı terminlərdən hansını qarşısındakı sözlə əvəz etmək ***olmaz?***
A) faciə – tragediya B) dialoq – mükalimə
C) obraz – personaj D) dekorasiya – remarka
E) komediya – məzhəkə

32. Tərkibində iki çoxmənalı söz işlənən cümlə:
A) Gəminin burnu hərdən dalğalarla sanki döyüşürdü.
B) Nədənsə şkafın gözü, stolun ayağı diqqəti cəlb edirdi.
C) Əsgərlər üç dəstəyə ayrıldılar.
D) Baş həkim iclasda çıxış etdi, hamını dinlədi.
E) Uşağın şirin danışığı hamını valeh etdi.

33. "*Məktubu aparmaq*" və "*verilişi aparmaq*" birləşmələrindən *aparmaq* sözü aşağıdakılardan hansına aiddir?
A) antonim B) təkmənalı söz C) omonim
D) sinonim E) çoxmənalı söz

34. Hansı cərgə yalnız terminlərdən ibarətdir?
A) məhrəba, mişar, süita, neft
B) karikatura, portret, akvarel, not
C) lampa, becid, yerpənək, ərişta
D) saat, lüğət, zərf, sənət
E) dəniz, ixtisas, həyat, namərd

35. Arxaizmlər cərgəsini müəyyən edin.
A) yanacaq, çırpı, odun B) girvənkə, us, üçmaq
C) döşəmə, döşəmə, tavan
D) qapı, qarmaq, qonur E) sürü, qoyun, quzu

36. "*Üz*" sözü hansı cümlədə məcazi mənada işlənmişdir?
A) Kişi danışdıqca üzü qızarırdı.
B) Uşağın üzü, gözü toz içində idi.
C) Üzündən bilinirdi ki, bərk sevinir.
D) Elə işlər görüb ki, adam içinə çıxmağa üzü yoxdur.
E) Dənizçinin üzü gündən qaralmışdı.

37. Nümunədə altından xətt çəkilmiş sözlər leksik baxımdan nədir?
Səhərin də <u>gözü</u> var,
Günəşlə bir açılır.
Bulağın da <u>gözü</u> var
Tutulsa, o qurıyar. (T. Elçin)
A) sinonim B) omonim C) çoxmənalı söz
D) antonim E) həqiqi mənalı söz

38. *Əyilməkdir ağlamağın tərs <u>üzü</u>,*
Dərdi dartıb üzməyəni dərd <u>üzür</u>. (M. Araz)
Nümunədə altından xətt çəkilmiş sözlərin kökü semantik baxımdan nədir?
A) həm sinonim, həm çoxmənalı söz
B) həm omonim, həm antonim
C) həm antonim, həm sinonim
D) həm omonim, həm çoxmənalı söz
E) təkmənalı söz

39. *Adət budur, <u>yar</u> xəbərin <u>yar</u> alar,*
Mənim yarım zəif canım <u>yaralar</u>.
Yerbəyerdən sızıldaşar <u>yaralar</u>,
Rəhm eylə Cüməyə, ay ağa, düşdüm. (Molla Cümə)
Nümunədə altından xətt çəkilmiş sözlərin kökü semantik baxımdan nədir?
A) həm sinonim, həm də çoxmənalı söz
B) həm omonim, həm də antonim
C) həm antonim, həm də sinonim
D) həm omonim, həm də çoxmənalı söz
E) təkmənalı söz

40. ***Səhv*** fikirdir:
A) Dilimizdəki sözlər leksik mənaya malik olub-olmamasına görə iki yerə bölünür.
B) Bəzi sözlər həm həqiqi, həm də məcazi mənaya malik olur.
C) Sözün ifadə etdiyi ilkin məna onun məcazi mənası adlanır.
D) Bəzi sözlər çoxmənalı ola bilir.
E) İzahlı lüğətdə sözlərin leksik mənaları şərh olunur.

Camscanner ilə skan edilib



41. Uyğun ifadə ilə cümləni tamamlayın.
Çoxmənalı sözlər omonimlərdən fərqli olaraq, ...
A) yazılışı və deyilişi müxtəlif olur.
B) tamamilə fərqli mənalar bildirir.
C) fikri daha dəqiq ifadə etməkdə mühüm rol oynayır, nitqdə yersiz təkrarların qarşısını alır.
D) bədii ədəbiyyatda cinas qafiyə yaratmağa xidmət edir.
E) eyni nitq hissəsinə aid olur.

42. Çoxmənalı söz ***deyil***:
A) burun B) qayın C) ətək
D) çəkmək E) kök

43. Çoxmənalı söz ***deyil***:
A) tutmaq B) şam C) ətək
D) qaş E) ayaq

44. Cümlələrin birində həm köhnəlmiş, həm də ümumişlək söz kimi təhlil edilə bilən söz vardır:
A) Koroğlu dəlilləri azğın feodallara qarşı mübarizə aparırdı.
B) Xəstəlik görməyəsən, əsən yaşayasan.
C) Müəllim uşaqları dərnəyə göndərdi.
D) Ağ saqqallı babanın yeri uçmaq olsun.
E) Yazıya baxanda adam fərəh hissi keçirir.

45. "Göz" sözü hansı sözlərlə birləşdikdə məcazi məna bildirir?
1. balığın
2. dolabın
3. bulağın
4. səhərin
5. uşağın
→ gözü

46. Yalnız termin kimi işlənən sözlərdir:
1. sintaksis 2. surət 3. orfoqrafiya
4. bucaq 5. xəbər 6. sinekdoxa
7. enerji

47. Yalnız termin kimi işlənən sözlərdir:
1. kök 2. dil 3. folklor 4. surət
5. xəbər 6. fiksaj 7. orfoepiya

48. Yalnız termin kimi işlənən sözlərdir:
1. sifət 2. akvarel 3. tuyuq 4. antonim
5. ada 6. boğaz 7. enerji

49. Yalnız termin kimi işlənən sözlərdir:
1. bucaq 2. leksika 3. bölmə
4. frazeologiya 5. relyef 6. ahəng
7. zərf

50. Nümunədə hansı misralardakı işarələnmiş sözlər həqiqi mənada işlənib?
1. Mən *istəyirəm*:
2. Buludlar *ağlasın*,
3. Uşaqlar *ağlamasın*.
4. Yanğınlar *sönsün*,
5. Ümidlər *sönməsin*... (R. Rza)

51. *"Ağır"* sözü verilənlərdən hansı ilə söz birləşməsi yaradarkən həm həqiqi, həm də məcazi mənada düşünülə bilər?
1. yük 2. çanta 3. adam
4. daş 5. zənbil

Omonimlər. Sinonimlər. Antonimlər

1. Hansı sözün qarşılığı düzgün verilmişdir?
A) kəmsavad – istedadlı B) bimürvət – insafsız
C) biəql – ağıllı D) kəmşirin – şipşirin
E) laqeyd – diqqətli

2. Altından xətt çəkilmiş sözlər adlanır:
Geyinibdi yar <u>sarı</u>,
Bayqu ilə yar sarı.
Kəbədə ölsə aşiq,
Yönün qoyun yar <u>sarı</u>. (bayatı)
A) sinonim B) omonim C) antonim
D) çoxmənalı söz E) dialekt söz

3. Altından xətt çəkilmiş sözlər adlanır:
Bağında yarpaq sarı,
Gül sarı, yarpaq <u>sarı</u>.
Yar əlindən yaram var,
Gəl yarama ağ <u>sarı</u>. (bayatı)
A) sinonim B) omonim C) antonim
D) çoxmənalı söz E) köhnəlmiş söz

4. *Qarı <u>düşmən</u> <u>dost</u> olmaz.* ("Kitabi-Dədə Qorqud")
Altından xətt çəkilmiş sözlər leksik baxımdan nə sayılmalıdır?
A) sinonim B) omonim C) antonim
D) həm çoxmənalı, həm sinonim E) arxaizm

5. Həm isim, həm də sifət kimi işlənə bilən omonim sözdür:
A) ləpə B) qaz C) qitə D) min E) dolu

6. Həm isim, həm də sifət kimi işlənə bilən omonim sözdür:
A) tut B) qan C) buruq D) don E) qaz

7. Omonimlər cərgəsini müəyyən edin.
A) yay, at, don B) ipək, yaz, sahil
C) tüfəng, divan, söz D) qaz, körpü, tar
E) arzu, mətbəx, uşaq

8. Hansı sıradakı sözlər antonim ***deyil***?
A) küsmək-barışmaq B) yatmaq-oyanmaq
C) almaq-vermək D) açmaq-bağlamaq
E) ağarmaq-qızarmaq

9. Sözlərdən yalnız biri omonim kimi işlənə bilir:
A) inci B) gəlin C) əsr D) nazik E) atlas

10. Sinonim sözlər cərgəsini müəyyən edin.
A) səhər, axşam, gündüz
B) həkim, hakim, sənəd C) hündür, yüksək, uca
D) ləpə, çay, dəniz E) göz, qaş, baş

11. Hansı cərgədəki sözlər omonimdir?
A) uca, yuxarı, aşağı B) gənc, cavan,
C) hündür, yekə, böyük D) top, bal, ay
E) çay, kitab, dəftər

12. Hansı cərgədəki sözlər omonimdir?
A) bez, daş, ov B) ürək, könü
C) balaca, maşın, baxmaq D) iş, neft, q
E) qaz, kiçik, ev

13. Omonim sözlər cərgəsini müəyyən edin.
A) yel, külək, televizor B) qədəm, qələn
C) ləpə, biz, say D) ay, həftə, gün
E) dən, sən, şer

14. İsimlərdən ibarət sinonim cərgəni müəyyə
A) arzu-istək, gözlük-çeşmək
B) almaq-götürmək, atmaq-tullamaq
C) gödək-qısa, qoca-yaşlı
D) tez-sürətlə, asta-yavaş
E) ayrı-başqa, amma-ancaq

15. Omonim sözlər cərgəsini müəyyən edin
A) çöl, arıq, var, el
B) qoşa, quzu, yorğun, yarğan
C) yox, kürək, qayıq, dəniz
D) söz, hərarət, bərəkət, elm
E) bez, yar, düz, biz

16. Sinonimlərdən ibarət cərgəni müəyyə
A) səmərəli, səliqəli, ləzzətli
B) dünya, aləm, cahan C) od, g
D) ata, ana, bacı E) adam

17. Hansı cərgədəki sinonimlər həmişə b
edə bilir?
A) dava, müharibə B) ürə
C) gözəl, göyçək D) ey
E) yoxlamaq, sınamaq

18. Yalnız antonim sifətlər olan cərgə
A) hərb-sülh, cinayət-cəza, məkr-m
B) ağ-qara, gecə-gündüz, içəri-bay
C) böyük-iri, kiçik-balaca, hündür
D) böyük-kiçik, qalxmaq-enmək,
E) böyük-kiçik, uzun-qısa, şirin-a

19. Nümunədə altından xətt çəkilmiş
baxımdan hansına aiddir?
Gətirib onları <u>yada</u>, Təbrizim,
Baş əymə cəllada, <u>yada</u>, Təbrizi
A) antonim B) sinonim
D) omonim E) təkmənalı sö

20. Omonimlərdən ibarət cərgəni n
A) süzmə, dondurma, alın, səpi
B) sənət, od, süfrə, kölə
C) əsr, göz, dan, cəza
D) sol, yol, dağ, bağ
E) çapacaq, göz, alma, qulluq

Cari Cəmiyyətin Sahibi

11. Hansı cərgədəki sözlər omonimdir?
A) uca, yuxarı, aşağı B) gənc, cavan, qoca
C) hündür, yekə, böyük D) top, bal, ay
E) çay, kitab, dəftər

12. Hansı cərgədəki sözlər omonimdir?
A) bez, daş, ov B) ürək, könül, yaş
C) balaca, maşın, baxmaq D) iş, neft, qazmaq
E) qaz, kiçik, ev

13. Omonim sözlər cərgəsini müəyyən edin.
A) yel, külək, televizor B) qədəm, qələm, fizika
C) ləpə, biz, say D) ay, həftə, gün
E) dən, sən, şer

14. İsimlərdən ibarət sinonim cərgəni müəyyən edin.
A) arzu-istək, gözlük-çeşmək
B) almaq-götürmək, atmaq-tullamaq
C) gödək-qısa, qoca-yaşlı
D) tez-sürətlə, asta-yavaş
E) ayrı-başqa, amma-ancaq

15. Omonim sözlər cərgəsini müəyyən edin.
A) çöl, arıq, var, el
B) qoşa, quzu, yorğun, yarğan
C) yox, kürək, qayıq, dəniz
D) söz, hərarət, bərəkət, elm
E) bez, yar, düz, biz

16. Sinonimlərdən ibarət cərgəni müəyyən edin.
A) səmərəli, səliqəli, ləzzətli
B) dünya, aləm, cahan C) od, günəş, tüstü
D) ata, ana, bacı E) adam, insan, xalq

17. Hansı cərgədəki sinonimlər həmişə bir-birini əvəz edə bilir?
A) dava, müharibə B) ürək, könül
C) gözəl, göyçək D) eynək, çeşmək
E) yoxlamaq, sınamaq

18. Yalnız antonim sifətlər olan cərgəni müəyyən edin.
A) hərb-sülh, cinayət-cəza, məkr-məhəbbət
B) ağ-qara, gecə-gündüz, içəri-bayır
C) böyük-iri, kiçik-balaca, hündür-uca
D) böyük-kiçik, qalxmaq-enmək, getmək-gəlmək
E) böyük-kiçik, uzun-qısa, şirin-acı

19. Nümunədə altından xətt çəkilmiş söz leksik baxımdan hansına aiddir?
Gətirib onları <u>yada</u>, Təbrizim,
Baş əymə cəllada, <u>yada</u>, Təbrizim. (S. Rüstəm)
A) antonim B) sinonim C) çoxmənalı söz
D) omonim E) təkmənalı söz

20. Omonimlərdən ibarət cərgəni müəyyən edin.
A) süzmə, dondurma, alın, səpin
B) sənət, od, süfrə, kölə
C) əsr, göz, dan, cəza
D) sol, yol, dağ, bağ
E) çapacaq, göz, alma, qulluq

21. Sözlərdən biri omonim kimi işlənə bilir:
A) məhrum B) təsnif C) mərhum
D) mətn E) mətin

22. Sözlərin üçünün də omonim olduğu cərgəni müəyyən edin.
A) yaş, baş, su B) kök, say, tük
C) çal, yağ, dağla D) arx, yol, göz
E) üz, yol, tək

23. Antonim sözlərin cərgəsini müəyyən edin.
A) ağ-qara, tez-gec, axşam-səhər
B) sevinc-kədər, qəm-qüssə, çox-xeyli
C) el-oba, yurd-yuva, dərə-təpə
D) xeyir-şər, oğul-uşaq, sülh-müharibə
E) əziz-hörmətli, nikbin-bədbin, tünd-açıq

24. Sinonimi olan sözlərin cərgəsini müəyyən edin.
A) böyük, dərə, kitab B) dağ, təpə, yüksəklik
C) yaxşı, meşə, gözəl D) çətin, tərəqqi, varlı
E) məşhur, dəftər, gözəl

25. Hansı cərgədəki sözlərin hamısı omonimdir?
A) baş, göz, qol B) yağ, sağ, oynaq
C) tut, ətək, ayaq D) gəlir, qaçır, görüş
E) gül, dil, göz

26. Antonimlər cərgəsini müəyyən edin.
A) yavaş-yavaş, böyük-kiçik, səhər-səhər
B) uzun-gödək, böyük-kiçik, gecə-gündüz
C) tez-tez, az-çox, ağ-qara
D) səhər-axşam, dost-tanış, yır-yığış
E) yaxşı-yaman, dadlı-dadsız, bağlı-bağçalı

27. Omonim sözlər cərgəsini müəyyən edin.
A) ad, yay B) ud, yad C) az, baş
D) yol, bol E) dolu, boş

28. Hansı sıralardakı hər iki söz omonim kimi işlənə bilər?
1. dil, diş 2. dan, din 3. yol, yon
4. çat, çit 5. yaş, quru
A) 2, 5 B) 1, 5 C) 3, 4 D) 2, 3 E) 1, 4

29. Biri "*günahsız*" sözünün sinonimidir:
A) məyus B) məsum C) məhzun
D) nikbin E) pərişan

30. Biri "*vurulmaq*" sözünün sinonimidir:
A) məşğul olmaq B) sakin olmaq
C) bənd olmaq D) nail olmaq
E) süst olmaq

31. Biri "*kədərli*" sözünün sinonimi ***deyil***:
A) qəmli B) məhzun C) məyus
D) məsum E) pərişan

32. Biri "*batmaq*" sözünün sinonimidir:
A) viran olmaq B) əlbir olmaq C) süst olmaq
D) qərq olmaq E) məyus olmaq

CamScanner ile skan edilib

33. Hansı cərgədə sözlərin üçünü də omonim kimi işlətmək mümkündür?
A) kürü, təsnif, qala
B) qapı, həyət, həyat
C) ağ, qara, qırmızı
D) ürək, könül, qəlb
E) top, külək, don

34. Hansı cərgədə sözlərin üçünü də omonim kimi işlətmək mümkündür?
A) hava, saz, sağ
B) çay, şahid, gəlin
C) divan, bar, həyət
D) bel, göz, ətək
E) qaz, qaş, nəfis

35. Hansı cərgədə sözlərin üçünü də omonim kimi işlətmək mümkündür?
A) nadan, doğru, qan
B) dərd, kədər, hüzn
C) daş, sakin, aş
D) əsr, alma, əkin
E) dolu, kütlə, əsər

36. "*O zaman bəylərin alqışı alqış, qarğışı qarğış idi*" cümləsində altından xətt çəkilmiş sözlər hansı məna qrupuna aiddir?
A) antonimlərə
B) çoxmənalı sözlərə
C) sinonimlərə
D) omonimlərə
E) arxaizmlərə

37. *"Bu dərdə tablaşmaq, bu əzaba dözmək çox çətin idi"* cümləsində altından xətt çəkilmiş sözlər hansı məna qrupuna aiddir?
A) arxaizmlərə
B) antonimlərə
C) omonimlərə
D) terminlərə
E) sinonimlərə

38. *"Hava soyuq idi"* və *"Oyun havası çalındı"* cümlələrindəki "*hava*" sözü hansı məna qrupuna aiddir?
A) omonimlərə
B) sinonimlərə
C) antonimlərə
D) təkmənalı sözlərə
E) çoxmənalı sözlərə

39. Hər üçü omonim kimi işlənə bilər:
A) diş, qaz, bel
B) çay, qol, göz
C) bal, xaş, baş
D) bağ, sağ, tala
E) çöl, bağ, ayaq

40. Hər üçü omonim kimi işlənə bilər:
A) bel, yol, dar
B) al, don, əsr
C) divan, həyat, surət
D) qoruq, kök, kəsr
E) qurd, az, dəniz

41. Hər üçü omonim kimi işlənə bilər:
A) çökmə, qabaq, qax
B) alma, çəkmə, bölmə
C) saç, daş, qan
D) baş, aş, güc
E) alma, dolma, qurma

42. Altından xətt çəkilmiş sözlər bir-birinə münasibətdə nə adlandırılmalıdır?
Pis, yaxşı nəyin var, demək, malındır,
Lakin sənə vacib öz kamalındır.
(N. Gəncəvi)
A) antonim
B) sinonim
C) çoxmənalı söz
D) təkmənalı söz
E) omonim

43. Altından xətt çəkilmiş sözlər bir-birinə münasibətdə nə adlandırılmalıdır?
Dünyada düzlükdən yoxdur əlamət,
Əyrilik etməkdən qaçmalı, əlbət.
(N. Gəncəvi)
A) sinonim
B) antonim
C) çoxmənalı söz
D) omonim
E) arxaizm

44. Altından xətt çəkilmiş sözlər bir-birinə münasibətdə nə adlandırılmalıdır?
Qürbət çörəyini yeyər mühacir,
Vətən havasıyla yaşayar ancaq. (B. Vahabzadə)
A) sinonim
B) omonim
C) antonim
D) çoxmənalı söz
E) həm çoxmənalı, həm omonim söz

45. Omonim kimi işlənə bilən ədəbiyyatşünaslıq terminləridir:
A) remarka, tuyuq
B) məsəl, epos
C) faciə, povest
D) gəraylı, dastan
E) bənd, qoşma

46. Omonim kimi işlənə bilən ədəbiyyatşünaslıq terminləridir:
A) cinas, misra
B) epiloq, proloq
C) divan, qitə
D) obraz, lirika
E) faciə, təcnis

47. Sinonim sözlərdir:
A) odlu – alovlu; alçaq – hündür olmayan
B) əxlaq – həyalı; uca – hündür
C) iradəsiz – iradəsi olmayan; çay – göl
D) əqidə – məsləkli; ismətli – namuslu
E) pis – yaxşı; isti – soyuq

48. Sinonim ***olmayan*** sözlərdir:
A) tez – sürətlə; asta – yavaş
B) gödək – qısa; qoca – yaşlı
C) nəticə – yekun; göy – səma
D) vüsal – qovuşmaq; ayaz – şaxtalı
E) ayrı – başqa; yüngül – xəfif

49. Antonim sözlərdir:
A) yavaş – asta, böyük – kiçik, əyri – düz
B) aşkar – xəlvət, irəli – geri, əliaçıq – xəsis
C) tez – cəld, az – çox, ağ – qara
D) səhər – axşam, dost – tanış, mülayim – coşqun
E) yaxşı – yaman, dadlı – dadsız, bağlı – bağçalı

50. Antonim sözlərdir:
A) əziz – hörmətli, nikbin – bədbin, az – çox
B) xeyir – şər, oğul – uşaq, sülh – müharibə
C) sevinc – kədər, qəm – qüssə, dərd – ələm
D) el – oba, yurd – yuva, dərə – təpə
E) arxayın – nigaran, alqış – qarğış, eniş – yoxuş

CamScanner ile skan edilib

51. Omonim sözlərdir:
1. fəsil 2. köz 3. göz 4. alışmaq
5. xal 6. mətn 7. atlas
A) 1, 4, 5 B) 1, 2, 3, 5 C) 4, 6, 7
D) 1, 2, 4, 6 E) 3, 5, 7

52. Omonim sözlərdir:
1. min 2. dərin
3. saç 4. qarış
5. geyim 6. biçin
7. atlaz
A) 2, 4, 6 B) 1, 3, 4 C) 1, 2, 3, 7
D) 4, 5, 6, 7 E) 1, 3, 5

53. *Endim <u>bulaq</u> başına,*
Yarım çıxdı qarşıma... (Xalq mahnısı)
Altından xətt çəkilmiş sözün sinonimidir:
A) hovuz B) quyu C) çeşmə
D) arx E) göl

54. Aşağıdakı sözlərdən hansılar omonimlik xüsusiyyətinə malikdir?
1. yeddi 2. ürək
3. qaz 4. yaş
5. şirin 6. səksən
7. yüz 8. at
A) 1, 3, 7, 8 B) 3, 4, 6, 8 C) 1, 2, 4, 5
D) 2, 5, 6, 7 E) 3, 4, 5, 7

55. Sözlərdən hansılar omonimlik xüsusiyyətinə malikdir?
1. qala 2. yaşıl
3. göy 4. al
5. sağ 6. şəkər
7. qəlb 8. qoca
A) 4, 5, 6, 7 B) 1, 2, 3, 6 C) 2, 4, 5, 8
D) 1, 3, 7, 8 E) 1, 3, 4, 5

56. "*<u>Gül</u> balalar deyib-<u>gülsün</u>*" nümunəsində altından xətt çəkilmiş sözlər bir-birinə münasibətdə nədir?
A) antonim
B) sinonim
C) omonim
D) çoxmənalı söz
E) təkmənalı söz

57. "*Onun <u>nəfsi</u> ağırdır*" və "*Onun <u>tamahı</u> çoxdur*" cümlələrində altından xətt çəkilmiş sözlər bir-birinə münasibətdə nə adlandırılmalıdır?
A) çoxmənalı söz
B) antonim
C) omonim
D) frazeoloji birləşmə
E) sinonim

58. Antonim sifət cütlüklərindən ibarət sözlərdir:
A) gözəl – qəşəng, səmimi – mülayim, incə – zərif
B) yaxşılıq – yamanlıq, qocalıq – cavanlıq, istilik – soyuqluq
C) güney – quzey, şimal – cənub, yaz – yay
D) gözəl – çirkin, kobud – incə, quru – yaş
E) qış – payız, yüngül – xəfif, oğlan – qız

59. Hər ikisi quruluşca düzəltmə antonim sözdür:
A) eniş, yoxuş
B) açılmaq, bağlanmaq
C) mürəkkəb, çətin
D) danışmaq, susmaq
E) küsüşmək, barışmaq

60. Omonim kimi işlənə bilən dilçilik terminləridir:
A) aşıq, divan, boy
B) bucaq, kəsir, güc
C) zərf, sifət, say
D) roman, dastan, hekayə
E) tamamlıq, xitab, əvəzlik

61. Kökü omonim olan sözdür:
A) toxucu B) soydaş C) soyuducu
D) yaşıllıq E) çalışmaq

62. Biri omonimdir:
A) bildir B) gövhər C) ətək
D) satirik E) təsnif

63. İsim və feil kimi omonim ola ***bilməz***:
A) boya B) qarış C) divan D) din E) dan

64. İsim və feil kimi omonim ola ***bilməz***:
A) qan B) qarış C) an D) qatar E) qır

65. Omonim sözlər sırasını müəyyən edin.
A) dolma, əkin, mətn, yara
B) bölgə, nəbz, çəkmə, bölmə
C) qabaq, qax, fokus, göz
D) dik, qala, çat, say
E) bel, qaş, baş, axır

66. Hansı bənddəki hər iki söz həm omonimlik, həm çoxmənalılıq xüsusiyyətinə malik ***deyil***?
A) baş, ömür B) ada, qol C) ənənə, düz
D) fırtına, say E) din, dil

67. Omonim ola bilən sözdür:
A) dik B) göl C) göz D) qapı E) gilas

68. Omonim ola bilən sözdür:
A) tilov B) qalıq C) bənd
D) balıq E) dəniz

69. Biri omonim ***deyil***:
A) tələ B) divan C) al
D) mürəkkəb E) üz

Cəmiyyətlər üçün skan edilib

70. Uyğunluğu müəyyən edin.

Sinonimlik yarıdan sözlər hər zaman bir-birini əvəz edə bilər.	yanlış
Omonim sözlər fərqli leksik mənaya malikdir.	doğru
Çoxmənalı sözlər eyni nitq hissəsinə aid olur.	
Frazeoloji birləşmələrin 1-ci tərəfi asılı, 2-ci tərəfi əsasdır.	
Düzəltmə sözlərin antonimi ola bilməz.	

A) B) C) D) E)

71. "*Nəfis*" sözünün sinonimi hansı cərgədə düzgün verilmişdir?
A) gözəllik B) acgöz C) zərif
D) tamahkar E) xəsis

72. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
I mürəkkəb II nəticə
II qurd IV yaş
V çay VI şam
A) II, III, V B) IV, V C) II, III, VI
D) I, IV E) I, VI

73. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
I bal II tut
III çən IV top
V əqrəb VI yol
A) I, III, V B) II, VI C) IV, V
D) II, III, IV E) I, VI

74. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
I göy II bar
III dolu IV kök
V əqrəb
A) I, V B) II, IV C) I, II, III
D) I, III, IV E) III, V

75. "*Gümrah*" sözünün sinonimləri hansı cərgədə düzgün verilib?
A) qoçaq, igid
B) sağlam, çevik
C) qıvraq, cavan
D) gülərüz, nurani
E) zirək, qabiliyyətli

76. Misraların hansında "*istək*" sözünün sinonimi işlənmişdir?
1. Bu məktubun hər sətrində
2. Ürək çırpınır
3. Böyük arzu, böyük əməl
4. Dilək çırpınır
A) 2, 3 B) 3, 4 C) 1, 2 D) 2, 4 E) 1, 3

77. "*Yaman*" sözü hansı cümlədə "*olduqca*" mənasında işlənmişdir?
A) Yaman günün ömrü az olar.
B) Dost yaman gündə tanınar.
C) Gərayın sözü ona yaman təsir etdi.
D) Yaman adamdan uzaq ol.
E) Aman, aman oldu, gəl,
Halım yaman oldu, gəl.

78. Altından xətt çəkilmiş sözlərdən hansılar omonimdir?
A) Onun gözləri mavi idi. Şkafın bir neçə gözü var idi.
B) Uşağın boğazı ağrıyır. Qrafinin boğazı nazikdir.
C) Uşağın dişi çıxır. Darağın dişi sındı.
D) Axşam dolu yağdı. Ovçunun belindəki qatar patronla dolu idi.
E) Kağız torba davamsız olur. Bu qədər kağız nəyinə lazımdır?

79. Hansı sözlər həm çoxmənalı, həm də omonim söz kimi işlənə bilir?
1. dil 2. durna 3. sol
4. qol 5. həyət 6. kainat
7. insan 8. üz
A) 5, 6, 7, 8 B) 1, 2, 4, 5 C) 1, 3, 5, 6
D) 1, 4, 6, 7 E) 1, 3, 4, 8

80. Sinonim və antonimlər üçün ortaq xüsusiyyət hansıdır?
A) Bir-birinə yaxın mənaları bildirmək.
B) Bir-birinə əks mənaları bildirmək.
C) Eyni mənaları bildirmək.
D) Bir-biri ilə müəyyən bağlılığı olan sözlərdən təşkil olunmaq.
E) Eyni nitq hissəsinə aid sözlərdən təşkil olunmaq

81. Qafiyə təşkil edən sözlər nədir?
Göl içrə üzürdü bir yekə qaz,
Özünə fəxr edib uzatdı boğaz. (S.Ə. Şirvani)
A) sinonim və çoxmənalı söz
B) sinonim
C) çoxmənalı söz
D) omonim və çoxmənalı sözlər
E) antonim

82. Qafiyə təşkil edən sözlər nədir?
Bir çıxaydım Damqayanın daşına,
Bir baxaydım keçmişinə, yaşına. (M. Şəhriyar)
A) omonim B) sinonim C) antonim
D) omonim və çoxmənalı söz E) çoxmənalı söz

CamScanner ile skan edilib

83. Hansı cümlədə omonim kimi işlənə bilən söz vardır?
A) Göz qəlbin güzgüsüdür.
B) Səsindən baharın nəsimi gəldi.
Alqışa Füzuli, Nəsimi gəldi.
C) Töküldü kağıza sinəmin sözü.
D) Uşaqlar alma dərirdilər.
E) Biz dünənki yarışda qalib gəldik.

84. Hansı cümlədə omonim kimi işlənə bilən söz vardır?
A) Durur göz önündə sənin sözlərin. (Ə. Kərim)
B) Əkrəm kağız götürüb öz otağına keçdi.
C) Şəkil yağlı boya ilə çəkilmişdi.
D) Şəhərdə gördükləri Zaura təsir etmişdi.
E) Cahan daimidir, ömür amanat. (S. Vurğun)

85. Nümunədə altından xətt çəkilmiş sözlər leksik baxımdan nədir?
Elxan girdi palçığa,
Üst-başını <u>buladı</u>.
Toplan görüb utandı,
Quyruğunu <u>buladı</u>. (T. Elçin)
A) çoxmənalı söz B) omonim
C) həqiqi mənalı söz D) sinonim E) antonim

86. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
1. gün 2. göy 3. gül
4. əqrəb 5. sağ 6. an
A) 1, 4, 6 B) 1, 2, 3, 5 C) 2, 3, 5, 6
D) 2, 3, 4, 6 E) 1, 4, 5

87. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
1. bağ 2. qarış 3. bir
4. yaz 5. şam 6. kürü
A) 2, 3, 4, 6 B) 3, 5, 6 C) 1, 3, 4
D) 2, 4, 5, 6 E) 1, 2, 5

88. Sinonimlərlə bağlı ***yanlış*** fikirdir:
A) Daha çox isim, sifət və feillər sinonim olur.
B) Yazılışı və deyilişi müxtəlif, leksik mənalarına görə eyni və ya yaxın mənaları bildirir.
C) Eyni nitq hissəsinə aid olur.
D) Həmişə bir-birini əvəz edə bilir.
E) Nitqdə yersiz təkrarların qarşısını alır.

89. Sözlərdən biri omonimlik xüsusiyyəti daşıyaraq isim və feil kimi işlənə bilər:
A) qoyun B) sürü C) səpin
D) qucaq E) əkin

90. Sözlərdən biri omonimlik xüsusiyyəti daşıyaraq isim və feil kimi işlənə bilər:
A) dolu B) diş C) çap D) çən E) qurd

91. Antonimlərlə bağlı ***səhv*** fikirdir:
A) Mürəkkəb sözlər antonimlik yarada bilmir.
B) Antonim tərəflər eyni nitq hissəsinə aid olur.
C) Mənaca bir-birinin əksi olan sözlərdir.
D) Mürəkkəb sözlərin bir qismi antonimlər hesabına əmələ gəlir.
E) Antonimlərdən istifadə etməklə təzad yaradılır.

92. Omonimlərlə bağlı ***səhv*** fikirdir.
A) Cinas qafiyələr həmişə omonim sözlərdən ibarət olur.
B) Eyni cür yazılan, lakin vurğusu müxtəlif olan sözlər omonim deyil.
C) Bir hərf fərqi ilə seçilən sözlər omonim deyil.
D) Omonim olan söz ayrı-ayrı nitq hissələrinə də mənsub ola bilər.
E) Qrammatik şəkilçi ilə omonim söz yaratmaq olmaz.

93. Cümlələrin birində omonim söz həm isim, həm də feil kimi işlənmişdir:
A) Əkinə ayrılmış sahələri planlaşdırılmış vaxtda əkin.
B) Divardakı enli çatlarda hörümçəklər tor qurmuşdu.
C) Verilişdə qədim Şam şəhərindən danışılırdı.
D) Çoxdan yazmağa başladığı əsərini bir yaz axşamı bitirdi.
E) Balı yığmaq üçün arılar müxtəlif növ çiçəkdən qidalanırlar.

94. Cümlələrin birində omonim söz həm isim, həm də feil kimi işlənmişdir:
A) A Kərbəlayı, mən onu da yaxşı qanıram ki, tökülən qan yerdə qalmamalıdır.
B) İnci qiymətli daşdır.
C) Şövkət imtahandan yüksək bal topladı.
D) Səpin işlərini gecikdirmədən toxumu sahələrə vaxtında səpin.
E) Təzə divanı zalda yerləşdirdik.

95. "*Hədiyyə*" sözünün sinonimi kimi verilənlərdən biri ***səhvdir***:
A) sovqat B) ərməğan C) töhfə
D) bəxşiş E) rüşvət

96. "*Kədər*" sözünün sinonimi kimi verilənlərdən biri ***səhvdir***:
A) qəm B) ələm C) riqqət
D) qüssə E) dərd

97. Nümunədə işarələnmiş sözün sinonimidir:
Ayazlı, <u>şaxtalı</u> bir qış axşamı,
Yeddi yoldaş olub yola düzəldik... (S. Vurğun)
A) qasırğalı
B) tufanlı
C) sazaqlı
D) fırtınalı
E) çovğunlu

98. Nümunədə işarələnmiş sözün sinonimidir:
Alar səni <u>qoynuna</u> mehriban Xəzər,
İnci taxar boynuna narın ləpələr... (N. Xəzri)
A) kürək B) sahil C) ətək
D) qucaq E) ətraf

CamScanner ile skan edilib

99. ***Səhv*** fikirdir:
A) Bəzi sözlər çoxmənalı ola bilir.
B) Omonimlər həm eyni, həm də müxtəlif nitq hissələrinə aid ola bilir.
C) Antonimlər yalnız eyni nitq hissəsinə aid olur.
D) Sinonimlər bədii ədəbiyyatda cinas qafiyə yaratmağa xidmət edir.
E) İzahlı lüğətdə sözlərin leksik mənaları verilir.

100. Hər iki sözü omonim kimi işlətmək mümkündür:
A) dərd, kədər B) baş, daş C) dağ, bildir
D) bar, dan E) doğru, kəsr

101. Hər iki sözü omonim kimi işlətmək mümkündür:
A) qaş, göz B) bənd, qala C) çat, maşın
D) yüz, biz E) ağız, qarı

102. Feillərdən birinin kökü omonim səciyyəli söz ***deyil***:
A) yollandı B) ayırdı C) gülüşdülər
D) solğunlaşdı E) yarıldı

103. Feillərdən birinin kökü omonim səciyyəli söz ***deyil***:
A) düzüldü B) yazıldı C) satıldı
D) dondurulmuşdu E) azğınlaşdı

104. Nümunənin hansı misrasında omonim kimi işlənə bilən söz ***yoxdur***?
Ceyranım dağdan aşdı,
Mənim, gözüm qamaşdı.
Yarla üz-üzə gəldim,
Birdən dilim dolaşdı. (Bayatı)
A) yalnız III B) I, IV C) yalnız II
D) I, II E) III, IV

105. Nümunənin hansı misrasında omonim kimi işlənə bilən söz ***yoxdur***?
Arazın qurumasın,
Göy otun qarımasın
Səni məndən edəni
Görüm heç yarımasın. (Bayatı)
A) I, II B) II, III C) yalnız III
D) yalnız I E) I, IV

106. Uyğun ifadə ilə cümləni tamamlayın.
Omonimlər çoxmənalı sözlərdən fərqli olaraq, ...
A) yalnız eyni nitq hissəsinə aid olur.
B) tamamilə fərqli mənalar bildirir.
C) fikri daha dəqiq ifadə etməkdə mühüm rol oynayır, nitqdə yersiz təkrarların qarşısını alır.
D) oxşar əşya, əlamət və ya hərəkəti bildirir.
E) yazılışı və deyilişi müxtəlif olan sözlərdir.

107. Altından xətt çəkilmiş sözlərdən biri həm çoxmənalı söz, həm də omonim kimi işlənə bilər:
A) Zülm nə din bildi, nə <u>dil</u>, nə Vətən. (B. Vahabzadə)
B) Dağ başına endi <u>çən</u>; Ağ geyindi çöl çəmən. (B. Azəroğlu)
C) <u>Biz</u> onunla uşaqlıq dostuyuq.
D) Bizm meşələrdə <u>şam</u> da bitir.
E) <u>Tər</u> üz-gözündə qanına qarışmışdı. (C. Bərgüşad)

108. Altından xətt çəkilmiş sözlərdən biri həm çoxmənalı söz, həm də omonim kimi işlənə bilər:
A) Əzizinəm <u>din</u> barı; Danış barı, din barı. (Bayatıdan)
B) Bu <u>kitab</u>, ümumiyyətlə, ədəbiyyatımızda bir dönüşdür. (S. Rüstəm)
C) <u>Ağıl</u> yaşda deyil, başdadır. (Atalar sözü)
D) Səhərdir, <u>dan</u> yerindən günəş qalayıb ocaq. (Ə. Cəmil)
E) O, güldü kağıza <u>qol</u> çəkən zaman. (B. Vahabzadə)

109. Sinonimlərlə bağlı ***səhv*** fikirdir:
A) Dildə yersiz təkrarların qarşısını alır.
B) Sinonim kimi çıxış edən sözlər bəzən bir-birini əvəz edə bilmir.
C) Omonimlərdən fərqli olaraq, eyni nitq hissəsinə aid olur.
D) Fikri daha dəqiq ifadə etməyə xidmət edir.
E) Bədii nitqdə təzad yaratmaq üçün istifadə edilir.

110. Hansı cümlədə çoxmənalı olmayan, amma omonim kimi işlənə bilən söz vardır?
A) Bu torpaqda dərindən kök salmışam. (R. Rza)
B) Millət yaşayırsa, dil yaşayır.
C) Baş həkimin otağı üçüncü mərtəbədə yerləşirdi.
D) Qayınlar, vələslər meşənin yaraşığı idi.
E) Ayaq getdi, əl gətirdi, diş yedi. (Aşıq Alı)

111. Hansı cümlədə çoxmənalı olmayan, amma omonim kimi işlənə bilən söz vardır?
A) Xədicəbanu oğlunun əlindən tutmuşdu.
B) Bu dil mənim öz dilimdir.
C) Əlibaba məhsulun hamısını hesablamaqda çətinlik çəkdi.
D) Futbolçunun vurduğu bu qol hamını sevindirdi.
E) Dan yeri təzəcə işıqlanırdı.

112. Hansı nümunədə söz birləşməsinin tərəfləri əsas nitq hissəsinə aid omonimlərlə ifadə olunub?
A) Yenə göyün üzü aydın görünürdü. (İ. Şıxlı)
B) Sahibləri kimi nəfəsləri də bir-birini vurdu. (İ. Şıxlı)
C) Cığırdan uzaqlaşıb Cahandar ağanın evinədək getdilər. (İ. Şıxlı)
D) Satqınlar və casuslar qaçqınlara qoşulub arxaya da keçə bilirlər. (İ. Şıxlı)
E) Sonra uşağın səsi kəndi yuxudan oyatdı. (Ə. Məmmədxanlı)

113. Hansı nümunədə söz birləşməsinin tərəfləri əsas nitq hissəsinə aid omonimlərlə ifadə olunub?
A) Firudinin gözlərində həyatın ağır və əzablı səhnələri canlanırdı. (M. İbrahimov)
B) Şair həyatın, cəmiyyətin müşahidəçisidir.
C) Payız günəşi gizlənmişdi, meşə yuxuda idi.
D) Ərbab qaya kimi susub durmuş kəndlilərə baxırdı. (M. İbrahimov)
E) Maşın sol yola dönüb sürətini artırdı.

114. Hansı nümunədə altından xətt çəkilmiş söz həm omonim, həm də çoxmənalı söz kimi işlənə bilir?
A) Baş bədənin tacıdır, gözlər onun daş-qaşı.
B) Suya girib qayığı sahilə çıxartdı.
C) Bir cüt göz görmüşəm zülmətdən qara,
Qaralığı işıq salır qaranlıqlara.
D) Kənddəki evlərin çoxu çay daşından hörülmüşdü.
E) Günlər keçdikcə səbrim tükənirdi.

115. Hansı cümlədə bütün sözləri qarşılığı ilə əvəz etmək olar?
A) Sən bu kitabları yaxşı saxla.
B) Lalə dibçəklərə həvəslə qulluq edirdi.
C) Azad təbiəti çox sevirdi.
D) Sənəm hər dəfə eyni sözləri təkrarlayırdı.
E) Xalqımız torpaq uğrunda vuruşanları unutmur.

116. Hansı cümlədə bütün sözləri qarşılığı ilə əvəz etmək olar?
A) Əmim səhərki söhbətdən bərk incimişdi.
B) Televizor çoxdan köhnəlmişdi.
C) Yurdumuz başdan-başa gülüstana çevrildi.
D) Bağça tərbiyəçisi kiçik uşaqlara qayğı ilə yanaşır.
E) Mən bunu heç bilmirdim.

117. Eyler-Venn diaqramını tamamlayın.



A) qol B) gün C) həyət
D) kitab E) barmaq

118. Eyler-Venn diaqramını tamamlayın.



A) dolu B) açmaq C) yayılmaq
D) əqrəb E) göz

119. Sual işarəsinin yerinə yazıla biləcək sözü müəyyən edin.



A) sinonim B) omonim C) antonim
D) termin E) köhnəlmiş söz

120. Hansı nümunədə antonim söz ***yoxdur***?
A) Ağa borc eylər, nökər xərc. (Atalar sözü)
B) Analı qızın özü böyüyər,
Anasız qızın sözü böyüyər. (Atalar sözü)
C) Göylər də, yerlər də bu xəbərə ağı deyirdi.
D) Gecələr çalışar, gündüzl
E) Nəşənin qədrini bilməzdi
Qüssə olmasaydı, qəm

121. ***Uyğunsuzluğu*** müəyyən e

Söz	*Sözün kontekst sinonimin işl*
A) səbəb	Cama getməsinə s
B) maneə	Qar əngəlləri c
C) qəzəb	Hiddətində
D) iclas	Zalı yığıncac
E) aşkar	

122. ***Uyğunsuzluğu*** müəyyən e

söz	sinonimi
A) saf	təmiz
B) dərhal	çevik
C) əsarət	köləlik
D) dərə	çuxur
E) təzə	yeni

123. Ayrılıqda antonim olan söz
sifət, digəri zərf kimi iştirak
1. Az danış, çox danışmaq a
2. Pis davranmaq adamı yax
uzaqlaşdırar.
3. Əyri oturaq, düz danışaq.
4. Ağıllı fikirləşincə dəli çay
5. Doğru danışan yalan sözə
A) 2, 5 B) 1, 3 C) 4, 5

124. Hansı sözün sinonimində ai
1. yad 2. parıltı 3. məs
A) nabələd B) bərq
D) hilal E) xəlvə

125. Hansı nümunədə fərqləndi
forması omonim ***deyil***?
A) • Cırıldayan arabanın çar
Qazmış yolu, yerdə qalm
• Buna görə də sizin mən
diqqətlə oxudum.
B) • **Dağın** döşündə otlayan
kimi görünürdü
• Sinəmə çəkdiyi **dağı** un
C) • Seyr et bu varlığı, şeyd
Həyata müjdədir hər yen
• O **bəstə** dilbərim sözdə
Rəhmin, şəfahətin bizdən
D) • Nə yaxşı ki, insan əli y
Yetə bilsə, min **qitəyə** pa
• **Qitənin** qafiyə quruluş
yaxındır.
E) • **Yar** mənim beynimi, y
• Sən həmişə bizim işləri

126. *Uyğunsuzluğu* müəyyən edin.
I – Söz.
II – Sözün sinoniminin işləndiyi cümlə.
A) I – nöqsan
II – Qüsurları aradan qaldırmaq üçün çox çalışmalısınız.
B) I – bəsitlik
II – Onun etiraflarına sadəlövhcəsinə inanmışdım.
C) I – maneə
II – Bu qüvvənin qarşısında heç bir əngəl dayana bilməz.
D) I – böhtan
II – Qalan on məktub da eyni mövzuda yazılmış iftiradır.
E) I – israr
II – Rəisin təkidinə baxmayaraq, Səlim sarı şineli götürmədi.

127. Bir-biri ilə sinonim olan sözlər hansı misralarda işlənib?
Haylıqır, könül, bundan betər çağ hanı?
İnsan yanır, torpaq yanır, dağ yanır.
Bacım, indi ağlamağa vaxt hanı?
Qardaş deyib, yurddaş deyib, ağlama. (M. Araz)
A) II və IV B) I və II C) II və III
D) III və IV E) I və III

128. Çoxmənalı söz və omonim sıralanmasını nəzərə alsaq, nöqtələrin yerinə hansı sözlər yazılmalıdır?
1. yüngül 2. xəbər
3. göz 4. qayın
5. ... 6. ...
A) yayılmaq, əqrəb B) səksən, inşa
C) çay, qaçmaq D) çən, baş E) qar, dar

129. Misralardan birində feil və isim, digərində əvəzlik və isim kimi işlənə bilən omonim sözləri müəyyən edin.
1. *Günəş qızır, çimirik*
2. *Hər gün dənizdə, çayda.*
3. *Bizə mahnı söyləyir*
4. *Axan bulaq da, çay da.*
A) 2-ci və 3-cü misralarda
B) 2-ci və 4-cü misralarda
C) 1-ci və 2-ci misralarda
D) 1-ci və 4-cü misralarda
E) 1-ci və 3-cü misralarda

130. Misralardan birində feil və isim, digərində əvəzlik və isim kimi işlənə bilən omonim sözləri müəyyən edin.
1. *Qıracağam qolumdakı zəncirləri,*
2. *Bizə meydan oxumasın hər yadelli.*
3. *Ana dilim ürəkləri fəth eləsin,*
4. *Vətənimdə işlətməyin siz yad dili.*
A) 2-ci və 3-cü misralarda
B) 2-ci və 4-cü misralarda
C) 3-cü və 4-cü misralarda
D) 1-ci və 3-cü misralarda
E) 1-ci və 2-ci misralarda

131. Hansı omonimlər eyni nitq hissəsinə aiddir?
A) çat, şəkil, qat B) qatar, kök, qayın
C) bəstə, şor, kürə D) qoyun, hava, kürək
E) təsnif, köç, don

132. Hansı omonimlər eyni nitq hissəsinə aiddir?
A) qala, bürc, qundaq B) kürək, qırx, mürəkkəb
C) quru, qazan, ocaq D) oynaq, dolu, tut
E) nəticə, bağ, qoyun,

133. Hansı nümunənin tərkibində əsas nitq hissəsinə a omonim işlənmişdir?
A) Dedim, qaytar, sal aləmə bu səsi... (Şəhriyar)
B) Kəndli yazıq çıraq tapmır yandıra... (Şəhriyar)
C) Həyat, sevincin də, əzabın da şirindir...
(B. Vahabzadə)
D) Külək çoxillik ağacı yıxmışdı.
E) Soyuyur cığırım, üşüyür izim,
Budaqda titrəyən yarpaq görünür. (H. Arif)

134. Hansı nümunənin tərkibində əsas nitq hissəsinə a omonim işlənmişdir?
A) Siz nə gözəlsiniz, yollar, a yollar! (N. Xəzri)
B) Heydərbaba, dünya fani dünyadır.
C) Bəzən yuyunmuşam yağış gölündə,
Bildirçin qovmuşam Ceyran çölündə. (H. Arif)
D) Səsindən baharın nəsimi gəldi
Alqışa Füzuli, Nəsimi gəldi.
E) Bulunmaz dünyada bənzərin, bəlkə,
Zəvvarın olmuşdur bir böyük ölkə. (Ə. Cavad)

135. Sifətlərdən hansıların omonimi isimdir?
1. oynaq 2. yaşlı 3. dolu
4. duru 5. bəstə
A) 3, 4 B) 2, 4, 5 C) 1, 3, 5
D) 1, 2 E) 1, 2, 3

136. Sifətlərdən hansıların omonimi isimdir?
1. keçici 2. alçaq
3. buruq 4. tər 5. dar
A) 2, 4 B) 1, 3, 5 C) 3, 4, 5
D) 1, 5 E) 2, 4, 5

137. Müxtəlif nitq hissələrinə mənsub omonimləri müəyyən edin.
1. bar 2. yar 3. buruq 4. sarı 5. ud
6. top 7. çay 8. aşıq 9. göy
A) 2, 3, 4, 5, 9 B) 1, 3, 6, 7 C) 2, 4, 8, 9
D) 2, 3, 5, 8, 9 E) 1, 4, 6, 7, 8

138. Deyilişi və yazılışı eyni olan, lakin omonim olmayan, müxtəlif nitq hissələrinə aid sözləri müəyyənləşdirin.
1. qocalar 2. almadan
3. düşüncə 4. yaradan 5. yazılar
A) 2, 3 B) 1, 2, 4 C) 1, 4, 5
D) 3, 5 E) 1, 2, 5

139. Klasteri tamamlayın.



1. peşəkar 2. qazanc 3. hədiyyə
4. bəxşiş 5. rüşvət

140. Klasteri tamamlayın.



1. ələsalma 2. inciklik 3. narazılıq
4. rişxənd 5. ismarış 6. israfçılıq

141. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
1. top 2. inci 3. bal 4. qat 5. qax

142. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
1. bağ 2. yad 3. yar 4. yan 5. qurd

143. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
1. yay 2. yaz 3. yol 4. qol 5. uç

144. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
1. tala 2. tağ 3. tək 4. bar 5. tər

145. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
1. şiş 2. bar 3. qarış
4. çaş 5. əqrəb 6. tağ

146. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
1. aşıq 2. bəstə 3. çən
4. çap 5. hava 6. göy

147. Omonim kimi işlənə bilir:
1. sonsuz 2. uçmaq 3. bulamaq
4. kağız 5. sənəd 6. vurulmaq
7. dəniz

148. Omonim kimi işlənə bilir:
1. buz 2. xal 3. kərə 4. kağız
5. yarı 6. könül 7. zərf

149. Hansı nümunələrdə omonimliyi olan söz işlədilmişdir?
1. Say əsas nitq hissəsidir.
2. Şəkli yağlı boya ilə çəkilmişdir.
3. Uşağın gözləri dolmuşdu.
4. Palıd ağacı möhkəm olduğu üçün cürbəcür mebellər hazırlanmasında istifadə edilir.
5. Ata-anana hörmət et, əvəzində hörmət qazan.

150. Nümunədə nömrələnmiş sözlərdən hansılar omonimlik xüsusiyyətinə malikdir?

1 Bahar, bahar gəlmiş, yenə ilk bahar,
2 Güllər, çiçəklər gülər, 3 quşlar oynar,
4 Göyün altun saçlı 5 qızı nur saçar ... (H.Cavid)

151. Nümunədə nömrələnmiş sözlərdən hansıları omonim kimi işlətmək olar?

1 2 3
Üfüqdə qan ləkəsi ...
4 5
Günəşli göy ətəyi maviyə çalır ...
6
Yol üstündə may çiçəkləri ... (R. Rza)

152. Hansı cümlələrdə omonimliyi olan sözlər işlədilmişir?
1. Şaxtanın təsirindən çaylar buz bağlamışdı.
2. Sahibə anasına diqqətlə baxdı.
3. Sahildə yeni binalar ucaldılmışdı.
4. Babası nəvəsinə qəşəng don almışdı.

153. Hansı omonimlər müxtəlif nitq hissələrinə aiddir?
1. nəticə 2. dar 3. bağ
4. dik 5. düz

154. Nümunələrin hansında bir-biri ilə omonim olan sözlər işlənmişdir?
1. Yerlərə baxıram bağçalı, bağlı,
Göylərə baxıram qapısı bağlı. (S. Vurğun)
2. Bu dünya bir dayanacaq,
Allah bilir, kim nə qədər dayanacaq.
(N. Həsənzadə)
3. Elxan girdi palçığa,
Üz-gözünü buladı.
Toplan görüb utandı
Quyruğunu buladı. (T. Elçin)
4. Aqil o kəsdir ki, yazıb qoya bir əsər,
Bir iz qoymayanın yerində yellər əsər. (C. Rumi)

155. Nümunədə işlənmiş sözlərlə bağlı düzgün fikirləri müəyyənləşdirin.
Taxta dirəkləri torpağa deyil,
Qoydular Füzuli divanı üstə.
Yarıya bölündü düz yüz əlli il,
Gəraylı, bayatı, muğam, şikəstə. (B. Vahabzadə)
1. Nümunədə işlənmiş "divan" sözü eyni nitq hissəsinə aid omonimdir.
2. Nümunədə həm ədəbiyyatşünaslığa, həm də musiqiyə aid sözlər işlənmişdir.
3. Sözlərin hamısı həm leksik, həm də qrammatik mənaya malikdir.
4. "Qoy" həm ədat, həm də feil kimi işlənə bilən sözdür.
5. Antonimi və sinonimi olan sözlər yoxdur.

Qarışıqlıq üçün skan edilib

156. Nümunədə işlənmiş sözlərlə bağlı düzgün fikirləri müəyyənləşdirin.

Taxta dirəkləri qoydular, ax, ax!
Qəlbimin, ruhumun, dilimin üstə,
Biz güldük, ağladıq, yenə də ancaq,
Bir sazın, bir telin, bir simin üstə. (B. Vahabzadə)

1. "Bir" həm ədat, həm də say kimi işlənə bilən sözdür.
2. Nümunədə isim və əvəzlik kimi işlənən omonim söz vardır.
3. "Dil" həm omonimlik, həm də çoxmənalılıq xüsusiyyətinə malik olan sözdür.
4. Nümunədə antonimi və sinonimi olan sözlər yoxdur.
5. Sözlərin hamısı həqiqi mənada işlənmişdir.

157. Hansı nümunələrdə bir-biri ilə omonim olan söz var?

1. Misraları sətirlərə düzərək
   Düz danışın, düz yazın.
2. Acın toxdan xəbəri olmaz.
3. Əkin başlandı,
   Səpin başlandı.
4. Xırda, kiçik, balaca –
   Hər nə varsa, tök saca.
5. Mürəkkəb bir zamanda
   Mürəkkəbdir qələmi yazdıran.

158. Hansı nümunələrdə bir-biri ilə omonim olan söz var?

1. Al əlinə bir boya,
   Divarları tez boya.
2. Altı bulaq içərlər,
   Üstü zəmi biçərlər.
3. Bapbalaca boyu var,
   Dam dolusu toyu var.
4. Hər yerdə güllər açıb
   Gülür çəmən, çöl, bayır.
5. Bağa baxarsan, bağ olar,
   Baxmazsan, dağ olar.

159. Hansı omonimlər müxtəlif nitq hissəsinə aiddir?

1. dil 2. qaynaq 3. oynaq
4. səksən 5. hava

160. Hansı omonimlər eyni nitq hissəsinə aiddir?

1. qarı 2. yar 3. boya
4. bar 5. çən

161. Verilmiş nümunədə altından xətt çəkilmiş sözlər semantik baxımdan nə sayılmalıdır?

Ah, mən gündən-günə bu gözəlləşən,
İşıqlı dünyadan necə əl çəkim?
Bu <u>yerlə</u> çarpışan, <u>göylə</u> əlləşən
<u>Dostdan</u>, <u>aşinadan</u> necə əl çəkim? (M. Müşfiq)

1. omonim 2. sinonim
3. neologizm 4. antonim
5. çoxmənalı söz 6. termin

162. Bir-biri ilə omonim olan sözlərin işləndiyi cümlələri müəyyən edin.

1. Bağçadakı çiçəklərin ətri hər tərəfə yayılmışdı. Çiçək dərs əlaçısı idi.
2. Çap hərfləri ilə yazmağa icazə verilmişdi. Kərən atı sürətlə çapırdı.
3. Diş ağrısına dözmək çətindir. Köhnə darağın dişləri əyilmişdi.
4. Divardakı çatdan su axırdı. Sərvər artıq şəhərə çatmışdı.
5. Poçt şöbəsi daşdan tikilmiş ikimərtəbəli binada yerləşirdi. Aramsız yağan yağış çayın daşmasına səbəb oldu.

163. Uyğunluğu müəyyən edin.

1. Çoxmənalı sözlər
2. Omonimlər
3. Sinonimlər

a. Eyni leksik məna ilə bağlı bir-birinə yaxın məcaz mənalar bildirir.
b. Həm eyni, həm də müxtəlif nitq hissələrinə aid ola bilir.
c. Bədii ədəbiyyatda təzad yaratmaqda istifadə olunur.
d. Deyilişi və yazılışı eyni, mənaca fərqli sözlərdir.
e. Fikri daha dəqiq ifadə etməkdə mühüm rol oynayır, nitqdə yersiz təkrarların qarşısını alır.

164. Uyğunluğu müəyyən edin.

1. eyni nitq hissəsinə aid omonimlər
2. müxtəlif nitq hissəsinə aid omonimlər

a. ağrı
b. tütək
c. ləpəli
d. böyür
e. kürək

165. Uyğunluğu müəyyən edin.

1. eyni nitq hissəsinə aid omonimlər
2. müxtəlif nitq hissəsinə aid omonimlər

a. qitə
b. əlli
c. sancaq
d. çən
e. saç

166. Sözlərdə omonimliyin hansı nitq hissələri arasında olması ilə bağlı uyğunluğu müəyyən edin.

1. isim – isim a. ov
2. isim – sifət b. göy
3. isim – feil c. nəticə
   d. buruq
   e. sarı

167. Sözlərdə omonimliyin hansı nitq hissələri arasında olması ilə bağlı uyğunluğu müəyyən edin.

1. isim – isim	a. qax
2. isim – sifət	b. dolu
3. isim – feil	c. çən
	d. mürəkkəb
	e. doğru

168. Nümunələrdə fərqləndirilmiş sözlərin sinonimlərinin işlənmə ardıcıllığını müəyyən edin.

Kitabın ***nəfis*** tərtibatı diqqəti cəlb edirdi.
Gərək elə edəsən ki, ***tamah*** səni aldatmasın.
Keçdim artıq gülə-gülə mən ***aləmdən*** nəşəyə.
(S. Rüstəm)
Çalış ki, həmişə ***müxtəsər*** danışasan.

1. kədər	2. yığcam
3. zərif	4. nəfs

169. Nümunələrdə fərqləndirilmiş sözlərin sinonimlərinin işlənmə ardıcıllığını müəyyən edin.

- *Kitabın **zərif** tərtibatı diqqəti cəlb edirdi.*
- *Gərək elə edəsən ki, **nəfs** səni aldatmasın.*
- *Baxışlarındakı **hüzn** keşməkeşli həyatından xəbər verirdi.*
- *Çalış ki, **yığcam** danışasan.*

1. kədər	2. dilək
3. nəfis	4. nikbin
5. saf	6. lakonik
7. matəm	8. tamah

Frazeoloji birləşmələr

1. Frazeoloji birləşmələrdən biri "*hövsələdən çıxmaq*" ifadəsinin sinonimidir:
A) səbir kasası daşmaq
B) ağız büzmək
C) dilə düşmək
D) dilə gəlmək
E) ürəyi yerindən çıxmaq

2. Cümlələrdən birinin xəbəri frazeoloji birləşmə ilə ifadə olunub:
A) Uşaqlar sevincdən atılıb-düşürdülər.
B) Arzumuz ali məktəbə qəbul olunmaqdır.
C) Qorxudan Asifin canına üşütmə düşdü.
D) Güclü yağış yağmağa başladı.
E) Bu rəsm əsəri gənclik illərimi xatırlatdı.

3. Cümlələrdən birinin xəbəri frazeoloji birləşmə ilə ifadə olunub:
A) Uşaqlıq illərimin xatirələrini dostlarımla bölüşdüm.
B) Məqsədim ədəbiyyatçı olmaqdır.
C) Sevincdən oynayıb-gülürdülər.
D) Güclü külək gözlənilir.
E) Mən dostumu yola saldım.

4. Frazeoloji birləşməni müəyyən edin.
A) məşq etmək
B) məşğul olmaq
C) yerbəyer etmək
D) göz yetirmək
E) iştirak etmək

5. "*Dilotu yemək*" frazeoloji birləşməsinin antonimi hansıdır?
A) dil tökmək
B) ağzına su alıb oturmaq
C) dilə-ağıza düşmək
D) dil-boğaza qoymamaq
E) dilə gəlmək

6. Frazeoloji birləşmələrdən ibarət olan cərgəni müəyyənləşdirin.
A) dilə gəlmək, həll etmək, yaxşı olmaq
B) yola getmək, aman vermək, əldən düşmək
C) hərəkət etmək, əlindən almaq, qanı qaralmaq
D) təhsil almaq, sahilə çıxmaq, yola düşmək
E) qulaq asmaq, su gətirmək, dilə düşmək

7. Frazeoloji birləşmələrdən biri omonim kimi işlənə bilər:
A) xoşu gəlmək
B) acığı gəlmək
C) iştahası kəsilmək
D) ağzına su almaq
E) üz vermək

8. Hansı cərgələrdə sinonim frazeoloji birləşmələr verilmişdir?
1. adı dildən-dilə düşmək, ağızdan-ağıza gəzmək
2. könlündən keçmək, ürəyi istəmək
3. başa düşmək, baş çəkmək
4. özündən çıxmaq, hirsi başına vurmaq
5. get-gələ salmaq, xəcalət çəkmək
A) 2, 3, 4
B) 1, 2, 3
C) 1, 2, 4
D) 1, 3, 4
E) 1, 4, 5

9. Frazeoloji birləşməni müəyyən edin.
A) gedə bilmək
B) işdən gəlmək
C) başdan çıxarmaq
D) sözün hikməti
E) ağacı kəsmək

10. "*Köksünü ötürmək*" frazeoloji birləşməsinin sinonimi hansıdır?
A) ah çəkmək
B) yola salmaq
C) ürəyini boşaltmaq
D) ürəyindən keçmək
E) qəlbini oxşamaq

11. Frazeoloji sinonimlər olan cərgəni müəyyən edin.
A) gözə gəlmək – başa gəlmək
B) haldan düşmək – nəfəsi kəsilmək
C) əldən düşmək – gözdən düşmək
D) ürəyi düşmək – gözü düşmək
E) bel bağlamaq – boynundan atmaq

12. "*Ağız büzmək*" frazeoloji birləşməsinin antonimini müəyyən edin
A) ürəyi ağzına gəlmək
B) ağzını aramaq
C) ağız açmaq
D) xoşuna gəlmək
E) ağzı açıla qalmaq

13. "*Çaşıb qalmaq*" ifadəsi hansı frazeoloji birləşmə ilə əvəz edilə bilər?
A) kələfin ucunu itirmək
B) hirsi başına vurmaq
C) yaxasını kənara çəkmək
D) əldən düşmək
E) başı daşdan daşa dəymək

14. Hansında frazeoloji sinonimlər verilmişdir?
A) vədə gəlmək – şövqə gəlmək
B) yuxusu gəlmək – yazığı gəlmək
C) canına üşütmə düşmək – işə düşmək
D) zəhləsi getmək – yola getmək
E) həsrət qoymaq – mat qoymaq

15. "*Canını oda yaxmaq*" frazeoloji birləşməsinin sinonimi:
A) canına yağ kimi yayılmaq
B) dəridən-qabıqdan çıxmaq
C) burnunun ucu göynəmək
D) mənəm-mənəm demək
E) gözünün odunu almaq

16. "*Ağız açmaq*" frazeoloji birləşməsinə hansı məna uyğun gəlir?
A) danışmaq
B) arzu etmək
C) xahiş etmək
D) dil-dil ötmək
E) yalvarmaq

17. "*Aman verməmək*" frazeoloji birləşməsinin antonimi hansıdır?
A) qan uddurmaq
B) can atmaq
C) baş sındırmaq
D) ayaq basmaq
E) mərhəmət göstərmək

18. "*Əldən düşmək*" frazeoloji birləşməsinin sinonimi hansıdır?
A) nəfəsi kəsilmək
B) ələ salmaq
C) ayağa qalxmaq
D) əl vermək
E) dildən-dilə düşmək

19. "*Qəlbinə dəymək*" frazeoloji birləşməsinin antonimini müəyyən edin.
A) könlünü almaq
B) könül vermək
C) qəlbindən keçmək
D) könül bağlamaq
E) ürəyinə yatmaq

20. "*Başından tüstü çıxmaq*" frazeoloji birləşməsinə hansı məna uyğun gəlir?
A) dil-dil ötmək
B) yalvarıb-yaxarmaq
C) əldən-ayaqdan getmək
D) nəfəsi kəsilmək
E) yanıb-yaxılmaq

21. Frazeoloji birləşmələrdən biri "*aldatmaq*" mənasına uyğundur:
A) gözə kül üfürmək
B) ələ salmaq
C) qaşqabaq sallamaq
D) baş aparmaq
E) gözü su içməmək

22. Frazeoloji birləşmələrdən biri "*sevinmək*" mənasına uyğundur:
A) könlündən keçmək
B) dildən-dilə düşmək
C) könülləri fəth etmək
D) qanad açıb uçmaq
E) dilotu yemək

23. Frazeoloji birləşmələrdən biri "*mürgüləmək*" mənasına uyğundur:
A) gözünün suyunu axıtmaq
B) gözə kül üfürmək
C) gözü yol çəkmək
D) gözü kəlləsinə çıxmaq
E) gözünün acısını almaq

24. Frazeoloji birləşmələrdən birinin sinonimi düzgün *verilməmişdir*:
A) ürəyini qırmaq – ürəyi düşmək
B) ağzına su almaq – ağzını qıfıllamaq
C) gözü ayağının altını görməmək – göylə getmək
D) qılığına girmək – qəlbinə yol tapmaq
E) dil-dil ötmək – dilotu yemək

25. Frazeoloji birləşmələrdən birinin sinonimi düzgün verilmişdir:
A) qəlbinə yol tapmaq – ürəyini ələ almaq
B) yola düşmək – əl-ayağa düşmək
C) yadına düşmək – üz ağartmaq
D) ürəyi istəmək – ürək qızdırmaq
E) dünyadan dördəlli yapışmaq – hər şeydən əlini üzmək

26. Cümlələrin birində frazeoloji birləşmə işlənmişdir:
A) O, gözəl, girdəsifət, gənc bir qız idi.
B) İsti yay günlərində hamı dəniz kənarına çıxır.
C) Şuşadan Turşsuya gedən yol çox mənzərəlidir.
D) Həmid qazancdan əlini üzmüşdü.
E) Rüstəmin ən böyük arzusu ali məktəbə daxil olmaqdır.

27. Cümlələrin birində frazeoloji birləşmə işlənmişdir:
A) Ehtiyatsızlıqdan çanta əlindən yerə düşdü.
B) Soyuqdan burnunun ucu göynəyirdi.
C) Bu xəbəri eşidəndə Nəriman, sanki cin atına mindi.
D) Təzə lüğətdən üç yeni söz götürmək lazım idi.
E) Qılıncı var gücü ilə düşmənin başına endirdi.

28. Hansı cümlədə frazeoloji birləşmə işlənmişdir?
A) Uşağın oynatdığı top yola düşmüşdü.
B) Həyəcandan əlləri əsirdi.
C) Valideynlərinə tez-tez baş çəkirdi.
D) Əlindəkilərin hamısını onun başına vurmuşdu.
E) O bu sözdən sonra lap əsəbiləşdi.

29. Hansı frazeoloji birləşmənin qarşılığı doğrudur?
Gənc ailələrin çoxu yeni mənzillərə köçürülmüşdür.
1. kök, 1 leksik, 1 qrammatik şəkilçi
2. kök, 2 leksik, 1 qrammatik şəkilçi
3. kök, 2 leksik, 2 qrammatik şəkilçi
4. kök, 1 qrammatik, 1 leksik şəkilçi

208. İşarələnmiş sözlərə uyğun sözlərin tərkibini müəyyən edin.
Bir qrup gənc hərbi xidmətə yollandı.
Bəzi ərzaq məhsullarının qiyməti bahalandı.
Həyətimizdəki ağacların bəzisi quruyub.
Artıq köhnə binaların çoxu uçurulmuşdur.
1. kök, 1 leksik, 1 qrammatik şəkilçi
2. kök, 2 leksik, 1 qrammatik şəkilçi
3. kök, 2 leksik, 2 qrammatik şəkilçi
4. kök, 1 qrammatik, 1 leksik şəkilçi

Şəkilçilərin növləri

1. Hansı cümlədə leksik şəkilçili söz *yoxdur*?
A) Təhlükədən qorxan cüyürlər ətrafa dağıldı.
B) Bu xəbər tez bir zamanda hər tərəfə yayıldı.
C) Gətirdiyimiz meyvələrin hamısı satıldı.
D) Atılan topların səsindən qulaq batırdı.
E) Vəziyyəti belə görəndə o da bizə qatıldı.

2. Yalnız qrammatik şəkilçili söz hansıdır?
A) göndərəcəyik B) işləyirlər
C) yaşıllaşdırıldı D) həvəskarların
E) köməkləşirik

3. Yalnız qrammatik şəkilçilərdən ibarət olan bəndi müəyyənləşdirin.
A) -la^2, -lar^2, -ın^4 B) -daş, -çı^4, -lar^2
C) -dan^2, -qın^4, -lı^4 D) -mış^4, -lıq^4, -sız^4
E) -mış^4, -ımız^4, -lar^2

4. Dörd cür yazılan şəkilçilərin tərkibində hansı saitlər işlənir?
A) açıq saitlərin hamısı B) bütün saitlər
C) *u, a, ü, e* saitləri D) qapalı saitlər
E) incə saitlər

5. Sözlərdən birində üç leksik şəkilçi işlənmişdir:
A) qayıqçıların B) azaldılmış
C) könüllülük D) sənətkarlıqdır
E) döyüşçülərin

Camscanner ilə skan edilib

6. Sözlərdən birində üç leksik şəkilçi işlənmişdir:
A) uçurdulmuş B) döyüşçülərimizdən
C) dinləyicilərinə D) çökəkliklərdən
E) çəkilişimiz

7. Ön şəkilçi artırıla bilən sözlər cərgəsini müəyyən edin.
A) məkan, qeyd, normal B) işıq, insaf, kişi
C) nasir, şahid, ağac D) dinc, hasar, baxış
E) xaric, qiymət, görüş

8. Ön şəkilçi artırıla bilən sözlər cərgəsini müəyyən edin.
A) şükür, məkan, məzə B) dinc, məchul, yetmiş
C) hiss, huş, dağlıq D) razı, müəyyən, irəli
E) rəhm, meyil, gecə

9. Hansı sözlərdə "*l*" samitini həm leksik, həm də qrammatik şəkilçinin tərkibində düşünmək olar?
1. yazılar 2. burular 3. sürülər
4. atılar 5. qırılar
A) 3, 4 B) 2, 4 C) 1, 2, 5
D) 1, 3 E) 1, 4, 5

10. *Qoy ucalsın Xanın səsi,*
Qarabağın şikəstəsi. (S. Vurğun)
Altından xətt çəkilmiş şəkilçi haqqında hansı fikir doğrudur?
A) Mənsubiyyət şəkilçisidir.
B) Zaman şəkilçisidir. C) Xəbərlik şəkilçisidir.
D) Hal şəkilçisidir. E) Leksik şəkilçidir.

11. *Sənin gülüşlərin bir ruzigar kimi*
Əsərkən arzumun gülü açılır. (M. Müşfiq)
Altından xətt çəkilmiş şəkilçi haqqında hansı fikir doğrudur?
A) Zaman şəkilçisidir.
B) Mənsubiyyət şəkilçisidir.
C) Xəbərlik şəkilçisidir.
D) Hal şəkilçisidir.
E) Leksik şəkilçidir.

12. Cümlədə üzərində rəqəm qoyulmuş sözlərdən biri tərkibindəki leksik və qrammatik şəkilçilərin sayına görə digərlərindən fərqlənir:
Əkinçilərimiz[1] uzaq sahələrdəki[2] suvarılmamış[3] torpaqları yenidən şumladandan[4] sonra sulamağı qərarlaşdırdılar[5].
A) 5 B) 1 C) 3 D) 4 E) 2

13. Biri qrammatik şəkilçilər sırasında verilə ***bilməz***:
A) feilin qrammatik məna növ şəkilçiləri
B) ismin hal şəkilçiləri
C) cəm şəkilçisi
D) feilin şəxs şəkilçiləri
E) mənsubiyyət şəkilçiləri

14. Altından xətt çəkilmiş şəkilçilərdən biri yalnız leksik şəkilçi kimi düşünülə bilər:
A) dondurma B) vurğu C) durum
D) yataq E) yanacaq

15. Altından xətt çəkilmiş şəkilçilərdən biri ancaq leksik şəkilçi kimi düşünülə bilər:
A) axar B) əkin C) titrək
D) bölmə E) yozum

16. Hansı sözlərin tərkibində *-dır* leksik şəkilçisi işlənib?
1. yaşadır 2. işıqlandır 3. yazmışdır
4. ucaldır 5. alovlandır 6. ağardır
A) 1, 3, 4 B) 2, 6 C) 2, 5
D) 2, 3, 5 E) 1, 4, 6

17. Hansı sözlərin tərkibində *-dır* leksik şəkilçisi kimi işlənib?
1. çoxaldır 2. ruhlandır 3. pozmuşdur
4. azaldır 5. canlandır 6. qızardır
A) 1, 4, 6 B) 2, 6 C) 1, 3, 4
D) 2, 3, 5 E) 2, 5

18. Cümlələrin birində iki leksik, bir qrammatik şəkilçili söz var:
A) Haraya gedirsiniz?
B) Kitabxanaçı məktəbdədir.
C) Oxucular yazıçıya sual verdilər.
D) Atam balıqçıdır, dənizdə işləyir.
E) Müəllimlik onun peşəsidir.

19. Tərkibində iki leksik, bir qrammatik şəkilçi olan sözü müəyyən edin.
A) körfəzdəyik B) oxundu C) göstərilmişdir
D) nəvazişlidir E) söndürüldü

20. Tərkibində iki leksik, bir qrammatik şəkilçi olan sözü müəyyən edin.
A) deyilmişdir B) fikirlidir C) meşədəyik
D) işıqlandırır E) zənginləşdi

21. İsimlərin birində üç leksik şəkilçi işlənmişdir:
A) döyüşçülərimizdən B) biçinçilikdən
C) dinləyicilərinə D) çökəkliklərdən
E) çəkilişimiz

22. Tərkibində üç leksik və iki qrammatik şəkilçi olan sözlər sırasını müəyyən edin.
A) sayğısızlıqdan, nəzarətçilərimizdən
B) solğunlaşmamışdır, bərkidilməlidirsə
C) maldarlıqdakılardan, köçürtdürmüşdür
D) səhvsizdir, utancaqdır
E) yazıçılıqdan, müdafiəçidirlər

23. Hansı sözdə yalnız bir leksik şəkilçi işlənib?
A) qarşılaşdıq B) salamlaşdıq
C) bağlanmışdı D) üzləşdik E) asanlaşdırdıq

24. Daha çox leksik şəkilçisi olan sözü müəyyən edin.
A) qəlbimizdəkiləri
B) biçinçiliyin
C) evinizdəkilərdən
D) məhsuldarlıq
E) təmizkarlıqdan

Camscanner ilə skan edilib

25. Hansı bənd leksik şəkilçili sözlərdən ibarətdir?
A) oxuyur, tikir B) maşına, evdən
C) evdar, vətəndaş D) kəkliklər, dəftərdən
E) sürətimiz, gözəldir

26. Hansı nümunədə omonim şəkilçilər vardır?
A) gördüyümüz rəssam – ağacları sulamaq
B) kütləvi qırğın – tibbi yardım
C) səhərin açılması – maşınların səsi
D) Evə gəlmişdir– həyətdə gəzdirmək
E) dəyim tərzi – geyim kolleksiyası

27. Bir cür yazılan şəkilçilər olan bəndi müəyyən edin.
A) -ın, -dan, -a, -da B) -çı, -lıq, -maq, -ası
C) -lar, -ma, -kı, -dakı D) -keş, -i(-vi), -gil, -daş
E) -ıl, -ıb, -anda, -araq

28. Tərkibində həm leksik, həm də qrammatik şəkilçilər olan sözləri müəyyən edin.
A) sancı, duzlu, doqquz
B) meydança, yaxşılıq, bağban
C) pislik, ailəvi,evdar
D) yazıçılarımız, məclisdəkilər, məktəblidən
E) məktəbdədir, sözlərimizdən, yolunuzda

29. Bunlardan biri yalnız qrammatik şəkilçi kimi işlənir:
A) -ın^4 B) -ma^2 C) -dı^4 D) -sız^4 E) -dır^4

30. Bu şəkilçilərdən biri həm isim düzəldən şəkilçi, həm də şəxs şəkilçisi kimi çıxış edə bilir:
A) -ma^2 B) -sın^4 C) -aq^2 D) -tı^4 E) -ış^4

31. Bu şəkilçilərdən biri həm sifət düzəldən şəkilçi, həm də şəxs şəkilçisi kimi işlənə bilir:
A) -ıq^4 B) -lı^4 C) -ıcı^4 D) -ağan^2 E) -sız^4

32. Hansı bənddəki sözlərin hamısına ön şəkilçi artırmaq mümkündür?
A) mərd, razı, normal, savad
B) xoş, torpaq, hava, yer
C) vəfa, elm, termin, biçmək
D) rahat, yarpaq, boru, stəkan
E) məlum, piyalə, gözəl, dalğa

33. Hansı cümlələrdə leksik şəkilçili söz işlənmişdir?
1. Ətirli çiçəklərdən bir dəstə bağladım.
2. Nərgizləri dibçəyə qoyub sinədolusu nəfəs aldım.
3. Zərifə ilə görüşümüz sonrakı günə qaldı.
4. Yerin tərkində gizli sirlər yatır.
5. Dünənki hadisə məni çox sarsıtdı.
A) 1, 3, 4 B) 1, 3, 5 C) 1, 2, 3
D) 2, 4, 5 E) 3, 4, 5

34. Nümunədəki leksik şəkilçili sözlər hansı nitq hissəsinə aiddir?
Orda olsaydım əgər,
Deyərdim:Ay həkimlər,
Siz o vurğun ürəyi,
Xəstə, yorğun ürəyi
Elektrik lentinə
Çəkməyin ...
A) feili sifət B) isim C) zərf
D) sifət E) feili bağlama

35. Hansı sözlərdə *-dan*^{2} leksik şəkilçidir?
1. qəsddən 2. ucadan 3. çoxdan 4. hərdən
5. əzələdən 6. hamıdan
A) 2, 3, 4 B) 1, 2, 3, 6 C) 3, 4, 5, 6
D) 1, 2, 5 E) 2, 4, 6

36. Hansı sözlərdə iki leksik şəkilçi işlənib?
1. çalışma 2. göndəriş 3. canlanma
4. qurulandı 5. sancaq 6. çəkiliş
A) 1, 2, 5 B) 1, 3, 4 C) 2, 3, 6
D) 4, 5, 6 E) 3, 4, 6

37. İki cür yazılan şəkilçilərin cərgəsini müəyyən edin
A) -ma, -iyyət, -stan, -ban
B) -la, -dakı, -laş, -lan C) -lıq, -dar, -daş, -ma
D) -ça, -sız, -ım, -ın E) -ağan, -qan, -aq, -az

38. Hansı cərgədəki sözlərin tərkibində iki leksik şəkilçi vardır?
A) vurğunluq, döngədəki, çəkisiz
B) qəhrəmanlıq, gülçülük, ovlaqda
C) qumsallıq, sənətkarın, bağçılıqdan
D) yoldaşda, kitabxana, sürətli
E) tapşırıq, əkinçilik, çalışqanların

39. Hansı cərgədəki sözlərin tərkibində bir leksik şəkilçi vardır?
A) yaxınlıq, azğınlaşmaq, inciklik
B) yarğandakı, vurğunluq, çoxaldılmaq
C) sarsıntılı, dinləyici, azğınlıq
D) göndərilmək, uçurmaq, inanclar
E) mədəni, evdarlıq, burulğan

40. Hansı misralarda ön şəkilçili söz vardır?
Bivəfanın, müxənnətin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim. (Aşıq Ələsgər)
A) II, IV B) I, IV C) II, III
D) III, IV E) I, III

41. Hansı cərgədəki işarələnmiş sözlərdə omonim şəkilçilər işlənmişdir?
A) <u>elmi</u> əsər – <u>zehni</u> iş
B) <u>sınıq</u> qol – Gölə <u>baxırıq</u>.
C) quşların <u>səsi</u> – onun <u>ailəsi</u>
D) Atam bir azdan <u>gələsidir</u>. – Uşaq <u>yatıbdır</u>.
E) mənim <u>kitabım</u> – <u>Oxumağımı</u> bəyəndilər.

42. Hansı cərgədəki işarələnmiş sözlərdə omonim şəkilçilər işlənmişdir?
A) <u>görməli</u> yerlər – <u>oxunmalı</u> kitab
B) <u>həvəslə</u> çalışmaq – zavodda <u>işləmək</u>.
C) məktub <u>yazdırmaq</u> – döşəməni <u>sildirmək</u>.
D) <u>tarixi</u> hadisə – <u>zehni</u> iş
E) <u>illik</u> plan – <u>yazlıq</u> taxıl

Camscanner ilə skan edilib

43. Hansı bənddə altından xətt çəkilmiş şəkilçilər omonimdir?
A) Atların qaç*ış*ı maraqlıdır. – Körpələrin bax*ış*ı məsumdur
B) Səp*in* başlandı. – Ək*in* yeri şumlandı.
C) Şəkli divardan qop*ar* – Darıxma, tez qayıd*ar*.
D) Dərs*i* oxu. – Kitab*ı* al.
E) Dairə*vi* masada toplaşdıq. – Ailə*vi* dostluq davam edir.

44. "*Mənim bölməm*" ifadəsinin tərkibindəki şəkilçilərin növü hansı bənddə düzgün ardıcıllıqla verilib?
A) mənsubiyyət, leksik, hal
B) hal, leksik, mənsubiyyət
C) leksik, mənsubiyyət, hal
D) leksik, hal, mənsubiyyət
E) hal, mənsubiyyət, leksik

45. "*Bizim nəğməkarımız*" ifadəsinin tərkibindəki şəkilçilərin növü hansı bənddə düzgün ardıcıllıqla verilib?
A) hal, leksik, mənsubiyyət
B) mənsubiyyət, leksik, hal
C) leksik, mənsubiyyət, hal
D) leksik, hal, mənsubiyyət
E) hal, mənsubiyyət, leksik

46. "*-ıq*^{4}" şəkilçisinin işlənmə məqamlarından biri ***səhv*** verilmişdir:
A) Feildən sifət düzəldən şəkilçidir.
B) Feildən isim düzəldən şəkilçidir.
C) Feili sifət şəkilçisidir.
D) Xəbərlik şəkilçisidir.
E) Feillərə məxsus I şəxs cəm şəkilçidir.

47. "*-ı*^{4}" şəkilçisinin işlənmə məqamlarından biri ***səhv*** verilmişdir:
A) İsimdən sifət düzəldən şəkilçidir.
B) Feil düzəldən şəkilçidir.
C) Təsirlik hal şəkilçisidir.
D) Feildən isim düzəldən şəkilçidir.
E) Feili sifət şəkilçisidir.

48. "*Yaşadır bu sevgi, bu istək məni*" (R. Rəhimli) misrasında aşağıdakı şəkilçilərdən biri ***yoxdur***:
A) feildən isim düzəldən şəkilçi
B) icbar növ şəkilçisi
C) zaman şəkilçisi
D) təsirlik hal şəkilçisi
E) isimdən feil düzəldən şəkilçi

49. "*Get, azğınları, satqınları qandır ...*" (H. Cavid) misrasında aşağıdakı şəkilçilərdən biri ***yoxdur***:
A) icbar növ şəkilçisi
B) təsirlik hal şəkilçisi
C) cəm şəkilçisi
D) feildən feil düzəldən şəkilçi
E) feildən sifət düzəldən şəkilçi

50. "*Bibimgildəkindən*" sözündəki şəkilçilərin düzgün ardıcıllığını müəyyən edin.
A) qrammatik, qrammatik, leksik, qrammatik
B) leksik, qrammatik, leksik, qrammatik
C) leksik, leksik, qrammatik
D) qrammatik, leksik, leksik, qrammatik.
E) leksik, leksik, qrammatik, qrammatik

51. Qrammatik şəkilçilərlə bağlı fikirlərdən biri ***səhvdir***:
A) Söz birləşmələri və cümlələrdə sözləri bir-birinə bağlamağa xidmət edir.
B) İsmin hal, mənsubiyyət, cəm şəkilçiləri qrammatik şəkilçilərdir.
C) Qrammatik şəkilçilər sözün formasını dəyişdirir.
D) Qrammatik şəkilçilər sözün leksik mənasını dəyişir.
E) Bəzən qrammatik şəkilçilər leksik şəkilçilərdən əvvəl də işlənə bilir.

52. Leksik şəkilçilərlə bağlı fikirlərdən biri ***səhvdir***:
A) Ön şəkilçilər də leksik şəkilçilərdir.
B) Leksik şəkilçilər yeni mənalı söz yaradır.
C) Leksik şəkilçilər cümlədə sözləri bir-birinə bağlamağa xidmət edir.
D) Leksik şəkilçilər söz yaradıcılığında iştirak edir.
E) Leksik şəkilçilər 1, 2 və 4 cür yazılır.

53. Hansı şəkilçilər feildən həm feil, həm isim yaradır?
1. -dır^4 2. -ar^2 3. -lan^2
4. -ış^4 5. -ın^4 6. -aq^2
A) 2, 4, 5, 6 B) 1, 3, 6 C) 3, 4, 5
D) 1, 2, 3, 6 E) 2, 4, 5

54. Xəbərlik şəkilçiləri ilə bağlı ***səhv*** fikri müəyyənləşdirin.
A) İki və dörd cür yazılır.
B) Başqa şəkilçilərlə omonimlik yaratmır.
C) Bütün əsas nitq hissələrinə artırıla bilir.
D) Qoşmalarla işlənə bilir.
E) Vurğu qəbul etmir.

55. Hansı bənddə işarələnmiş sözlərin şəkilçiləri omonimdir?
A) quşların nəğməsi – körpənin dayəsi
B) yataq otağı – Gəl filmə baxaq.
C) hərbi təlim – kütləvi hal
D) Məktub çatmalıdır. – Babam gələcəkdir.
E) Kitabını itirmə. – Oynamağını bəyəndilər.

56. Hansı bənddə eyni cür yazılan şəkilçilər müxtəlif funksiya daşıyır?
A) illik plan – yazlıq taxıl
B) görməli yerlər – oxunmalı kitab
C) Məktubu yazdır. – Döşəməni sildir.
D) tarixi hadisə – mülki geyim
E) Səpin gecikir. – Bir az tez gəlin.

Camscanner ilə skan edilib

57. Yalnız leksik şəkilçilər olan bəndi müəyyən edin.
A) -a^2, -lı^4, -san^2, -lıq^4
B) -ın^4, -çı^4, -ım^4, -lar^2
C) -sız^4, -lıq^4, -çı^4, -dakı^2
D) -dan^2, -lı^4, -sınız^4, -da^2
E) -ımız^4, -ış^4, -ın^4, -lar^2

58. Yalnız qrammatik şəkilçilər olan bəndi müəyyən edin.
A) -acaq^2, -an^2, -a^2, -lı^4
B) -dır^4, -lı^4, -lıq^4, -çı^4
C) -dan^2, -daş, -ın^4, -ış^4
D) -sız^4, -mış^4, -aq^2, -sı^4
E) -sınız^4, -lar^2, -dı^4, -sı^4

59. Yalnız qrammatik şəkilçilər olan bəndi müəyyən edin.
A) -dığım^4, -lar^2, -ıb^4, -ımız^4
B) -ca^2, -lar^2, -ın^4, -lı^4
C) -dakı^2, -dı^4, -sız^4, -li^4
D) -lıq^4, -lar^2, -dan^2, -lı^4
E) -çı^4, -dan^2, -san^2, -acaq^2

60. *"-la"* ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Leksik şəkilçi kimi zərf yarada bilir.
2. *"Atamla"* sözündə *"-la"* tərzi-hərəkət zərfi düzəltmişdir.
3. *"Nənəmlə danışdım"* cümləsində *"-lə"* bağlayıcıdır.
4. *"Raufla Nüsrət bu gün dayımla şəhərə getdilər"* nümunəsində birinci *"-la"* bağlayıcı, ikinci *"-la"* qoşmadır.
5. Feillərin yaranmasında iştirak edir.

61. Hansı sözlərdə ön şəkilçi işlənmişdir?
1 2 3 4
Bişərəf və nadürüst adamdan qaç, namuslu adamın sözünə qiymət ver.

62. *-ın*^{4} şəkilçisini hansı sözlərdə həm leksik, həm də qrammatik şəkilçi kimi düşünmək olar?
1. sərin 2. biçin 3. səpin
4. dözün 5. qalın 6. yığın

Sözün başlanğıc forması

1. Başlanğıc formada verilmiş sözləri müəyyən edin.
A) boğçadakı, gölməçə, düşərgə
B) yaşıllaşır, dostluq, əməllər
C) meşəlikdir, şirkətdə, məktəb
D) çiçəkləndi, başlamaq, fərəhlənir
E) yazılmış, çalış, gətirdi

2. *"Meydançadakılar"* sözünün başlanğıc forması hansı cavabda düzgün göstərilmişdir?
A) meydança-dakılar B) meydan-çadakılar
C) meydançadakı-lar D) meydançadakılar
E) meydançada-kılar

3. *"Xalamgildəkini"* sözünün başlanğıc formasını müəyyən edin.
A) xalam B) xalamgildəki C) xalamgil
D) xala E) xalamgildə

4. İsmin hansı halında olan söz, adətən, başlanğıc forma sayılır?
A) çıxışlıq B) yiyəlik C) yönlük
D) yerlik E) adlıq

5. Başlanğıc forması ***səhv*** göstərilmiş söz:
A) hazırla, yırsan
B) danla, mırlar
C) təmizlə, nir
D) uşaqlığ, ım
E) mənəviyyat,

6. Sözlərdən birində başlanğıc forma düzgün deyil:
A) susa-maq B) yazıçı-lardan C) qırım
D) mərdlik-də E) dağ-ıntı

7. Başlanğıc formada olan sözləri müəyyən edin.
1. ovçuluq 2. buruqları 3. zavodların
4. bağbanın 5. qardaşlıq 6. məktəblilərə
7. güldandakı 8. evdarlıq
A) 1, 5, 6, 7 B) 2, 3, 4, 5 C) 1, 4, 5, 6
D) 1, 5, 7, 8 E) 2, 3, 4, 8

8. Sözlərdən birinin başlanğıc forması düzgün ***göstərilməmişdir***:
A) pərdələn-mişdir
B) irəlilə-məkdədir
C) qışqır-tıya
D) uzunçuluq
E) yaylaq-larda

9. Başlanğıc forması kök və 2 leksik şəkilçidən ibarət olan söz hansıdır?
A) döyüşçülər
B) yaxşılaşdırıldı
C) sərhədçilərimiz
D) meşəlikdə
E) tarladakılar

10. Hansı sözün kökü ***səhv***, başlanğıc forması düzgün göstərilmişdir?
A) apartdırıldı - (apar-kök, apartdırıl-başlanğıc forma)
B) namünasibdir - (namünasib-kök, namünasib-başlanğıc forma)
C) qarışıqlıq - (qar-kök, qarışıq-başlanğıc forma)
D) süründürməçilik - (sür-kök, süründürmə-başlanğıc forma)
E) doğmalarımız - (doğma-kök, doğmalar-başlanğıc forma)

Camscanner ilə skan edilib

11. Hansı sözün kökü düzgün, başlanğıc forması *səhv* göstərilmişdir?
A) dəyişilmişdir – (dəyişil-kök, dəyişilmiş-başlanğıc forma)
B) işıqlandırılmışdır – (işıq-kök, işıqlandırıl-başlanğıc forma)
C) görüntülərdəki – (görüntü-kök, görüntülərdəki-başlanğıc forma)
D) qovuşanlar – (qov-kök, qovuşan-başlanğıc forma)
E) narahatlıqdan – (rahat-kök, narahat-başlanğıc forma)

12. Fikirlərdən biri ***səhvdir***:
A) Sözün başlanğıc forması onun leksik mənasını ifadə edir.
B) Adlıq halda olan isimlər həmişə başlanğıc formada olur.
C) Sadə sözlərdə sözün kökü ilə başlanğıc forması eynidir.
D) Leksik şəkilçidən sonra gələn qrammatik şəkilçi başlanğıc formaya daxil edilmir.
E) Fellərin başlanğıc forması onların qrammatik şəkilçiyə qədərki hissəsidir.

13. Həm kökü, həm başlanğıc forması "*qop*" olan feil hansıdır?
A) qoparmalıdır B) qoparársa C) qoparár
D) qopármış E) qopármamışam

14. Hansı sözün başlanğıc forması düzgün, kökü *səhv* göstərilib?
A) dağılmışdı B) ayrılmışdı
C) çağırışçılar D) yağlamışdı
E) bağlamışdı

15. Başlanğıc formada olan sözləri müəyyən edin.
1. güldandakı 2. düşərgəmiz
3. tapşırıq 4. halallaşdı
5. yaradıcılıq 6. böyüdülmüş

16. Başlanğıc formada olan sözləri müəyyən edin.
1. alarkən 2. yüngüllük 3. anbardar
4. çiyələk 5. kitablar 6. müəlliməm

17. "*Yanmaq*" sözündən yaranmış eyniköklü sözləri müəyyənləşdirin.
1. yanaq 2. yanıq 3. yanakı
4. yanaş(maq) 5. yanğın 6. yandır(maq)

18. "*Yarmaq*" sözündən yaranmış eyniköklü sözləri müəyyənləşdirin.
1. yara 2. yarış 3. yarğan
4. yaraş(maq) 5. yarıl(maq) 6. yarat(maq)

Eyniköklü sözlər

1. Hansı söz digərləri ilə eyniköklü ***deyil***?
A) otar(maq) B) otlu C) otla(maq)
D) otdakı E) otlardan

2. Eyniköklü sözlərdən ibarət olan sıranı müəyyənləşdirin.
A) gülçü, güllük, güldan, gülüstan
B) ələk, əlcək, əlvan, əldəki
C) daraq, darlıq, daramaq, darısqal
D) dərin, dərmək, dərə, dərələr
E) bağ, bağça, bağdan, bağban

3. Eyniköklü sözlərin sırasını tamamlayın.
çoxalmaq, çoxluq, çoxlu, ...
A) çoxumuz B) çoxdur C) çoxu
D) çoxları E) çoxdankı

4. Eyniköklü feillər hansı cərgədədir?
A) daraşmaq, daralmaq B) dincəlmək, dinləmək
C) dinmək, dindirmək D) qatılmaq, qatlamaq
E) dillənmək, dilləşmək

5. Eyniköklü feillər hansı cərgədədir?
A) qarımaq, qarğımaq
B) daranmaq, daralmaq
C) döyülmək, döşəmək
D) sıxılmaq, sıxlaşmaq
E) dartılmaq, dartınmaq

6. Eyniköklü sözləri müəyyən edin.
A) gülçü, gülüş, gülümsə(mək)
B) qorxu, qoruq, qorxaq
C) bölgə, bölük, bölüş(mək)
D) yarış, yara, yarğan
E) sərgi, sərin, səril(mək)

7. Hansı sözlər eyniköklü ***deyil***?
A) daşlıq, daşla(maq), daşsız
B) gülçü, gülüstan, güllü
C) dilçi, dilimiz, dilsiz
D) yerli, yersiz, yerləş(mək)
E) ağlıq, ağar(maq), ağartı

8. Hansı sözlər eyniköklü ***deyil***?
A) yarıl(maq), yarğan
B) gülçü, güllərimiz
C) işlək, işsiz
D) əməkdaş, əməkçi
E) tozlu, tozanaq

9. Eyniköklü sözlər hansılardır?
1. qurğu 2. qurğuşun 3. qurşun
4. qurucu 5. qurtuluş 6. quraqlıq
7. qurum
A) 2, 4, 6 B) 2, 3, 7 C) 1, 3, 5
D) 1, 4, 7 E) 1, 5, 6

Camscanner ilə skan edilib

10. Eyniköklü sözlər sırasını müəyyən edin.
A) evcik, evlərdəki, evdar
B) qaşıqsız, qaşıqla, qaşıqdan
C) daşlı, daşma, daşqın
D) qəribsəmək, qəriblik, qəribdir
E) sevsə, sevərsə, sevgi

11. Eyniköklü sözlər sırasını müəyyən edin.
A) dəftərçə, dəftərlər, dəftərin
B) dağlıq, dağda, dağıntı
C) gözlük, gözcük, gözləmək
D) bağımız, bağlardakı bağla(maq)
E) işlərimiz, işlədik, işçilər

12. Eyniköklü sözlərdən ibarət olan sıranı müəyyən edin.
A) qızğın, qızdırıcı, qızılı
B) ovçu, ovlaq, ovuntu
C) üzgü, üzsüz, üzüntü
D) qırıq, qırğın, qırıcı
E) sürücü, sürgün, sürücümüz

13. Eyniköklü sözlər sırasını müəyyən edin.
A) bağban, bağlamaq, bağça
B) ovçu, ovlaq, ovdakı
C) yeknəsəq, yekəxana, yekrəng
D) güləş, güldan, gülüş
E) yaşarmaq, yaşıd, yaşamaq

14. Eyniköklü sözləri müəyyən edin.

1. dəyənək	2. dəyişik	3. dəyirman
4. dəyişkən	5. dəyirmi	6. dəyərli

A) 2, 3, 5 B) 2, 4 C) 1, 2
D) 3, 4, 6 E) 1, 5, 6

15. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) sulamaq, susamaq, sulanmaq
B) susuz, sudakı, sularımız
C) düzəngah, düzlük, düzgün
D) qaralmaq, qarmaq, qaralamaq
E) ağaclıq, ağacdakı, ağacımız

16. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) güləş, güldan, gülüş
B) bağban, bağlamaq, bağır(maq)
C) yeknəsəq, yekəxana, yekrəng
D) qurucu, qurğu, qurulu
E) yaşlı, yaşa(maq), yaşmaq

17. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) aldı, alır, alıcı
B) gülüş, gülümsəmək, güləyən
C) ürəkli, ürəyimiz, üreksiz
D) qurucu, quruluq, quraqlıq
E) yağış, yağıntı, yağmadı

18. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) daraq, darlıq, daramaq
B) dərin, dərmək, dərdim
C) ələk, əlcək, əlvan
D) döyüşçü, döydür(mək), döyül(mək)
E) bağımsız, bağlı, bağırtı

19. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) dinlə, dinsiz, dindar
B) yaraq, yarış, yardım
C) kəskin, kəsik, kəsil(mək)
D) danla, danış, danlaq
E) bilici, bilik, biləк

20. Eyniköklü ***olmayan*** sözləri müəyyən edin.
A) əsəbi, əsəbiləş(mək), əsəbilik
B) hörük, hörgü, hörül(mək)
C) ələk, ələkçi, əlcək
D) gülməli, gülümsə(mək), gülməmək
E) yazı, yazıçı, yazıl(maq)

21. Eyniköklü ***olmayan*** sözləri müəyyən edin.
A) yazış(maq), yazdır(maq), yazıçı
B) bilik, bilici, biləк
C) sulu, susuz, sula(maq)
D) işçi, işsiz, işlə(mək)
E) daşlı, daşsız, daşla(maq)

22. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) gözlük, gözəl, gözlər
B) bəzək, bəzənmiş, bəzədil(mək)
C) yaşlı, yaşıllıq, yaşlanmaq
D) əlcək, ələk, əlvan
E) sarıqlı, sarsıntı, sarğı

23. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) yaşlı, yaşa(maq), yaşantı
B) yarğan, yarış, yaralı
C) üzgün, üzsüz, üzgüçü
D) yaşlı, yaşıl, yaşarmaq
E) yazlıq, yazılı, yazıçı

24. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) kağızdır, kağızlar, kağızımız
B) bənövşə, bənövşənin, bənövşədən
C) torpaqsız, torpağın, torpaqlamaq
D) ovçu, ovlaq, ovla(maq)
E) yeriş, yeriniz, yerişiniz

25. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) dolu, dolğun, doldur(maq)
B) gözlük, gözəl, gözləmək
C) bağça, bağırtı, bağlamaq
D) ovlaq, ovuc, ovdan
E) gülüş, güllə, güllük

26. Müxtəlif nitq hissələrinə aid olan eyniköklü sözləri müəyyən edin.
A) bağban, bağça, bağlıq
B) gülçü, güldan, gülüstan
C) xətsiz, xətkeş, xətlə(mək)
D) döyün(mək), döyül(mək), döydür(mək)
E) daşlı, daşsız, daşdakı

CamScanner ile skan edilib

27. Eyni nitq hissəsinə aid olan eyniköklü sözləri müəyyən edin.
A) qorxaq, qorxunc, qorxulu
B) qaçqın, qaçış, qaçağan
C) birlik, birləş, birinci
D) təmizlik, təmizlə, natəmiz
E) bağlı, bağla, bağsız

28. Hansı cümlədə fərqləndirilmiş sözü digərləri ilə eyniköklü hesab etmək ***olmaz***?
A) Meşənin arası, çal qayalığın ayağı iki yana *yarılmışdı.* (S. Rəhimov)
B) Ey həmdəmim, səni qanə qərq eylər,
Gəl tərpətmə *yaralanmış* könlümü.
(M.V. Vidadi)
C) Düşmənin möhkəmləndirilmiş müdafiə xəttini *yardığım* üçün mükafatlandırılmışam.
D) Qəhrəman səhərə yaxın daş yolun altındakı qayanın *yarığına* girib uzandı.
E) Su axınlarının əmələ gətirdiyi *yarğanlar* kənd təsərrüfatına böyük ziyan vurur.

29. *Sıxıntı* və *sıxlaşmaq* sözlərinin kökünün hansı nitq hissəsinə aid olduğunu ardıcıllıqla müəyyən edin.
A) sifət, sifət B) feil, feil C) feil, sifət
D) sifət, feil E) feil, zərf

30. *Sıxılmaq* və *sıxlıq* sözlərinin kökünün hansı nitq hissəsinə aid olduğunu ardıcıllıqla müəyyənləşdirin.
A) feil, feil B) feil, sifət C) sifət, sifət
D) sifət, feil E) feil, zərf

31. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) natəmiz, təmizləmək, təmizlik
B) xeyir, xeyirxah, xeyirdən
C) yaylaq, yaylamaq, yayılmaq
D) daşsız, daşdakı, daşqın
E) sıxlaşmaq, sıxılmaq, sıxıntı

32. Eyniköklü sözlər cərgəsini müəyyən edin.
A) yarış, yarılmaq, yarğan
B) sıxıcı, sıxlaşmaq, sıxlıq
C) ovçu, ovlaq, ovdur
D) atıl(maq), atış(maq), atıcı
E) qızğın, qızdırıcı, qızmalı

33. Eyniköklü sözlərdir:
A) üzgü, üzük, üzlü
B) yağış, yağmur, yağdı
C) çökək, çöküntü, çökəklik
D) yazan, yazı, yazıçı
E) başçı, başla, başımız

34. Eyniköklü sözlər ***deyil***:
A) bağlanış, bağban, bağımız
B) çökək, çökəklik, çöküntü
C) yağış, yağmur, yağıntı
D) sancı, sancaq, sancıl(maq)
E) anlayış, anlaşma, anlaş(maq)

35. Eyniköklü sözləri müəyyən edin.
A) yazır, yazdı, yazmışdır
B) gözlə(mək), gözsüz, gözlü
C) əlcək, əlcəksiz, əldən
D) bağım, bağımız, bağban
E) qələmin, qələmə, qələmdə

36. Eyniköklü sözləri müəyyən edin.
A) qırçı, qırğın, qırğı
B) daşlı, daşla, daşqın
C) otlaq, otlu, otsuz
D) quru, qurulamaq, qurtarmaq
E) enli, ensiz, eniş

37. Uyğunluğu müəyyən edin.
"Gül" feilindən yaranır:
1. eyniköklü sözlər
2. eyni sözün müxtəlif formaları
a. -ən b. -üstan c. -üş
d. -dür e. -məli
A) 1 – c, e; 2 – a, d B) 1 – a, d; 2 – c, e
C) 1 – d, e; 2 – b, c D) 1 – a, c; 2 – b, d
E) 1 – c, d; 2 – a, e

38. Hansı cümlədə işarələnmiş söz digərləri ilə eyniköklü ***deyil***?
A) <u>*Bəzək*</u> əşyaları olan dükanı gəzdim.
B) <u>*Bəzən*</u> hər şey səndən asılı olmayaraq dəyişir.
C) <u>*Bəzənib*</u> evdə xanım kimi oturmaq onun adəti idi.
D) Otağa <u>*bəzəkli*</u> xalılar döşənmişdi.
E) Gəlini <u>*bəzəndirib*</u> əl-ayağına xına qoyardılar.

39. *"Ov"* ismindən hansı şəkilçilərlə eyniköklü söz düzəlir?



40. *"Yol"* ismindən hansı şəkilçilərlə eyniköklü sözlər düzəlir?



41. Eyniköklü sözləri müəyyənləşdirin.
1. qışlaq 2. qışqırmaq 3. qışdakı
4. qışqırtı 5. qışlamaq

Camscanner ilə skan edilib

42. Eyniköklü sözləri müəyyənləşdirin.
1. dağdakı 2. dağlıq 3. dağlarımız
4. dağılmaq 5. Dağıstan

43. Hansı şəkilçilərdən eyniköklü sözlər *yaranmır*?



44. *Yarıq, yaralı, yarğan, yarılmaq* sözləri haqqında doğru fikirləri müəyyən edin.
1. Eyniköklü sözlərdir.
2. Sözlərin kökü isimlə omonimdir.
3. Sözlərin dördü də feildən düzəlmişdir.
4. Sözlər morfoloji üsulla yaranmışdır.
5. Bu sözlər kök və 1 leksik şəkilçidən ibarətdir.

45. *Yarıq, yaralı, yarğan, yara* sözləri haqqında doğru ***olmayan*** fikirləri müəyyən edin.
1. "*Yar*" ismindən yaranmış eyniköklü sözlərdir.
2. Sözlərin kökü omonimdir.
3. Sözlərin dördü də feildən düzəlmişdir.
4. Sözlər morfoloji üsulla yaranmışdır.
5. Sözlərin hamısı kök və 1 leksik şəkilçidən ibarətdir.

46. "*Sıx*" feilinə hansı şəkilçiləri artırmaqla eyniköklü sözlər yaratmaq olar?
1. -ıl^4 2. -lıq^4 3. -ıntı^4
4. -dır^4 5. -laş^2

47. "*Sıx*" sifətinə hansı şəkilçiləri artırmaqla eyniköklü sözlər yaratmaq olar?
1. -ıl^4 2. -lıq^4 3. -ıntı^4
4. -dır^4 5. -laş^2

48. Eyniköklü sözləri müəyyən edin.



Sözün quruluşca növləri

1. Biri düzəltmə sözdür:
A) gündüz B) qoyun C) işgəncə
D) çiyin E) əyləncə

2. Biri sadə sözdür:
A) tanış B) baxış C) naxış
D) oxunuş E) bildiriş

3. Biri düzəltmə söz ***deyil***:
A) sarıq B) soyuq C) yanaq
D) qoruq E) yamaq

4. Biri düzəltmə söz ***deyil***:
A) dəyənək B) tozanaq C) boğanaq
D) biçənək E) çilçıraq

5. Hansı söz digərləri ilə eyniköklü ***deyil***?
A) bilik B) bildirki C) biləyən
D) bildir(mək) E) bilici

6. Biri düzəltmə sözdür:
A) yarış B) bildiriş C) qarış
D) balış E) yoxuş

7. Biri quruluşca sadədir:
A) dəvəquşu B) əlbir C) çilingər
D) misgər E) ucaboy

8. Biri quruluşca sadədir:
A) dülgər B) istiot C) kəklikotu
D) zərgər E) dəvəquşu

9. Hansı sözlər mürəkkəb söz yaradarkən bitişik yazılmalı idi?
A) odlu alovlu B) dəvə quşu C) toy büsat
D) qəmli qəmli E) gecə gündüz

10. Hansı sözlər mürəkkəb söz yaradarkən bitişik yazılmalı idi?
A) yır yığış B) gec tez C) az az
D) söz söhbət E) başı bəlalı

11. Biri mürəkkəb söz ***deyil***:
A) əlbir B) qardaş C) qaragilə
D) xəmiraşı E) addımbaşı

12. Biri mürəkkəb söz ***deyil***:
A) dilucu B) ədəbiyyatşünas
C) oyundankənar D) bayramqabağı
E) gülləbatmaz

13. Biri sadə sözdür:
A) yağıntı B) tikinti C) gəzinti
D) qazıntı E) dağıntı

14. Biri sadə sözdür:
A) ürkək B) qorxaq C) çolaq
D) qırıq E) sökük

Cəfərov İlqar Əkbər oğlu

15. Biri düzəltmə sözdür:
A) gərək B) ürək C) dilək
D) bilək E) çevik

16. Biri düzəltmə söz ***deyil***:
A) əzgin B) ölgün C) tutqun
D) kəsik E) miskin

17. Biri mürəkkəb sözdür:
A) çayxana B) mətnşünas C) evdar
D) gözütox E) sirdaş

18. Biri mürəkkəb sözdür.
A) vətəndaş B) tamahkar C) xəstəxana
D) alqış E) acgöz

19. Düzəltmə sözlər cərgəsini müəyyən edin.
A) dinləmək, danışmaq, qırış(maq)
B) dülgər, çilingər, zərgər
C) gülərüz, ibrətamiz, barış(maq)
D) balaca, xırdaca, zorbaca
E) dindar, nasaz, laməkan

20. Düzəltmə sözlər cərgəsini müəyyən edin.
A) yarış, çalış(maq), barış(maq)
B) yorğan, kölgə, qaldır(maq)
C) eniş, yoxuş, saral(maq)
D) lüğəvi, mədəni, əşyəvi
E) ötkəm, nurani, yarğan

21. Düzəltmə sözlər cərgəsini müəyyən edin.
A) udlaq, titrək, keçid
B) yırğala(maq), güzgü, qaraltı
C) soyad, qızar(maq), sevinc
D) darğa, qoçaq, yoxsul
E) ötkün, tanış, qızıl

22. İki sadə sözdən əmələ gəlmiş mürəkkəb sözü müəyyən edin.
A) boşqab B) başıaçıq C) üçtelli
D) çoxmənalı E) istiqanlı

23. Hansı cümlə yalnız düzəltmə sözlərdən ibarətdir?
A) Külək yağışı ətrafa səpələyirdi.
B) Hünərli insanlar xoşbəxtliyə layiqdirlər.
C) Sərgidə maraqlı nümunələr toplanmışdı.
D) Canlı yayım çoxdan başlamışdı.
E) Mərdlik və dözüm hər kəsin işi deyil.

24. Hansı misralarda düzəltmə sözlər işlənmişdir?
Xəbər verin yaxınıma, yadıma,
Bir udumluq su çiləsin oduma.
Ana Təbriz elə düşüb yadıma,
Qol uzalı, əl titrəkdir, eloğlu! (Hüseyn Arif)
A) II, IV B) II, III C) I, III
D) I, IV E) III, IV

25. Mürəkkəb sözlərdən ibarət olan bəndi müəyyən edin.
A) bağban, şad olmaq, bağlı-bağatlı
B) otuz səkkiz, vətəndaş, qaragilə
C) bəstəboy, qeyri-adi, xəstəxana
D) musiqişünas, əməkdar, üzüsulu
E) az-maz, ağlı-qaralı, anbaan

26. Nümunələrdən biri mürəkkəb söz ***deyil***:
A) Koroğlu B) yarımada C) Elxan
D) anbardar E) nüfuzedici

27. Hansı söz quruluşca mürəkkəb ***deyil***?
A) istiot B) soyqırımı C) dələduz
D) bəstəboy E) aypara

28. Nümunələrdən biri mürəkkəb söz ***deyil***:
A) daşyonan B) qaçaqaç C) yolayrıcı
D) yanbayan E) badımcan

29. Sözlərdən biri quruluşca sadədir:
A) zülmkar B) peşəkar C) səhlənkar
D) həvəskar E) sənətkar

30. Mürəkkəb sözlərdən ibarət olan bəndi müəyyən edin.
A) vətəndaş, ədəbiyyatşunas, vətənpərvər
B) qardaş, soydaş, böyürtkən
C) ucaboy, ayaqqabı, enlikürək
D) Azərbaycan, Özbəkistan, Dağıstan
E) Məmmədzadə, qardaşımgil, xalamgil

31. Hansı söz quruluşca sadədir?
A) naxoş B) namus C) naümid
D) namərd E) nalayiq

32. Biri mürəkkəb söz ***deyil***:
A) qaragilə B) ayaqyalın C) böyürtkən
D) xəmiraşı E) addımbaşı

33. Tərəfləri isimdən ibarət olan mürəkkəb sözləri müəyyənləşdirin.
A) Çənlibel, Daşdəmir, Banuçiçək, "Uzundərə"
B) ayaqqabı, kəklikotu, qolbağı, dəvədabanı
C) Məmmədəli, dilişirin, beşaçılan, yerkökü
D) Qurbanəli, yadelli, ağcaqanad, qırxayaq
E) köhnəfikirli, üçbucaq, qovhaqov, üzüsulu

34. Sözlərdən biri quruluşca sadədir:
A) qızarmaq B) gəzinti C) qazıntı
D) yağıntı E) tikinti

35. Yalnız düzəltmə sözlərdən ibarət olan bəndi müəyyən edin.
A) meşələr, düzənlik, dəliqanlı, güldan
B) oxucu, məktəbli, səkkiz, meşəbəyi
C) qiraətxana, duzlu, meydan, çalışmaq
D) əkinçi, evdar, təmizlik, gözəlləşmək
E) veriliş, on birinci, elmli, qonşudan

36. Cərgələrin birindəki sinonim sözlərdən birincisi sadə, ikincisi isə düzəltmədir:
A) doğru-düzgün B) qol-imza
C) gözlük-eynək D) nazlı-işvəli
E) zorla-güclə

Qarışıqlar üçün skan edin

37. Hansı cərgədə antonim sözlərin hər ikisi quruluşca düzəltmədir?
A) daxili-xarici B) ağıllı-axmaq
C) küsmək-barışmaq D) asan-çətin
E) danmaq-boynuna almaq

38. *Dava-dərman, yorğan-döşək, oğul-uşaq* mürəkkəb sözləri hansı yolla yaranmışdır?
A) müxtəlif mənalı sözlərin birləşməsi ilə
B) əks mənalı sözlərin iştirakı ilə
C) ayrılıqda işlənə bilməyən sözlərin iştirakı ilə
D) mənsubiyyət şəkilçili ismin kömәyi ilə
E) yaxın mənalı sözlərin iştirakı ilə

39. *Ətirşah, qaymaqçiçəyi, dəvədabanı* mürəkkəb sözləri hansı yolla yaranmışdır?
A) müxtəlif mənalı sözlərin birləşməsi ilə
B) yaxın mənalı sözlərin iştirakı ilə
C) əks mənalı sözlərin iştirakı ilə
D) eyni sözün təkrarı ilə
E) ayrılıqda işlənə bilməyən sözlərin iştirakı ilə

40. "-l" şəkilçisi artırmaqla düzələn sözlər cərgəsini müəyyən edin.
A) baxıl, yazıl, çəkil B) saral, daral, genəl
C) qocal, ucal, qaral D) dikəl, diril, saral
E) sarıl, tutul, büzül

41. *Vidadinin oğlu əlcəyini itirmişdi* cümləsindəki leksik şəkilçilər hansı nitq hissələrinə artırılmışdır?
1. sifətə 2. ismə 3. zərfə
4. feilə 5. əvəzliyə
A) 3, 5 B) 1, 4 C) 2, 5 D) 1, 3 E) 2, 4

42. *Həyətdəki bitkilər göz oxşayırdı* cümləsindəki leksik şəkilçilər hansı nitq hissələrinə artırılmışdır?
1. sifətə 2. ismə 3. zərfə
4. feilə 5. əvəzliyə
A) 1, 4 B) 2, 4 C) 3, 5 D) 1, 5 E) 2, 5

43. Düzəltmə sözlərdən ibarət cərgəni müəyyənləşdirin.
A) kövrək, sınaq, açıq B) dağıntı, sarışın, əkin
C) çökək, Gəncəvi, çürük
D) saral, uşaq, qaçaq E) oxu, çəki, yazı

44. Düzəltmə sözlərdən ibarət cərgəni müəyyən edin.
A) namus, düzənlik, çirkin
B) qiraətxana, meydan, çalışmaq
C) oxucu, səkkiz, meşəbəyi
D) süpürgə, qazanc, yaşayış
E) veriliş, elmli, qonşudan

45. *-kar, -gər, -dar* şəkilçiləri ilə düzəlmiş sifətlər hansı cərgədə verilmişdir?
A) füsunkar, dülgər, xəzinədar
B) itaətkar, çilingər, anbardar
C) davakar, hiyləgər, məhsuldar
D) zülmkar, zərgər, hesabdar
E) sehrkar, misgər, quldar

46. *-kar, -gər, -dar* şəkilçiləri ilə düzəlmiş isimlər hansı cərgədə verilmişdir?
A) peşəkar, dülgər, əməkdar
B) peşəkar, hiyləgər, məhsuldar
C) sehrkar, çilingər, maldar
D) zülmkar, misgər, maldar
E) sənətkar, zərgər, hesabdar

47. Nümunədə işlənmiş düzəltmə sözləri müəyyən et
Azadlıq alınar, yaddan umulmaz,
Azadlıq verilməz ərməğan təki. (B. Vahabzadə)
A) azadlıq, alınar, umulmaz, verilməz
B) azadlıq, alınar, verilməz, ərməğan
C) ərməğan, təki, yaddan, verilməz
D) yaddan, alınar, azadlıq, ərməğan
E) umulmaz, verilməz, alınar, yaddan

48. Biri sadə sözdür:
A) inanc B) narınc C) tıxac
D) güvənc E) qazanc

49. Biri sadə sözdür:
A) əzgin B) duruş C) sıxıntı
D) qarış E) narahat

50. Nöqtələrin yerinə hansı şəkilçi əlavə etməklə, feildən sifət düzəltmək olar?
döyüş...
A) -çü B) -kən C) -dəki D) -süz E) -lə

51. Nöqtələrin yerinə hansı şəkilçini əlavə etməklə feildən feil düzəltmək olar?
sarı...
A) -mtıl B) -t C) -şın D) -maq E) -lıq

52. Birinci tərəfi qeyri-müəyyən yiyəlik hallı, ikinci tərəfi mənsubiyyət şəkilçili mürəkkəb sözlərin cərgəsini müəyyən edin.
A) qəlbiqara, başısoyuq
B) suyuşirin, acıdil
C) qaradinməz, əliəyri
D) dəvədabanı, bağayarpağı
E) dikbaş, dəymədüşər

53. Birinci tərəfi qeyri-müəyyən yiyəlik hallı, ikinci tərəfi mənsubiyyət şəkilçili mürəkkəb sözlərin cərgəsini müəyyən edin.
A) hacıleylək, səsyazma
B) sözdəyişdirici, həyatsevər
C) Qonaqkənd, Göyçay
D) çobanyastığı, zəncirotu
E) sarıköynək, itburnu

54. Nümunələrin birində yaxınmənalı sözlərin birləşməsindən əmələ gəlmiş mürəkkəb söz işlənmişdir:
A) Küçələrdə gediş-gəliş kəsilmişdi.
B) Gözləriniz aydın, ellər, obalar,
Bahar gül taxtına çıxmağa gəlir. (S. Vurğun)
C) İri gövdəli palıd ağacları baş-başa vermişdi.
D) Qaraca Çoban qoyun-quzunu bir yerə topladı.
E) Qab-qacaq hələ də stolun üstündə idi.

CamScanner ile skan edilib

55. Verilən sözlər içərisində hansı nitq hissəsinə aid düzəltmə söz *yoxdur*?
qaxınc, istedadlı, anlamaq, minlərlə, bərkdən
A) ismə B) sifətə C) feilə
D) zərfə E) saya

56. Verilən sözlər içərisində hansı nitq hissəsinə aid düzəltmə söz vardır?
ülgüc, çılğın, endirmək, iki, yuxarı
A) zərfə B) sifətə C) ismə
D) feilə E) saya

57. Kökü eyni nitq hissəsi olan düzəltmə sözlər sırasını müəyyən edin.
A) aşıq, aşxana, aşırmaq
B) daşlı, daşqın, daşlar
C) qalıq, qalsın, qalaq
D) sözləşmək, söylən, söylət
E) xeyirli, xeyirxah, xeyirsiz

58. Mürəkkəb sözlərdən biri iki düzəltmə sözdən əmələ gəlib:
A) şirindilli B) enlikürəkli C) bəstəboy
D) sözübütöv E) üzügülər

59. İsimlərdən sifət düzəldən *-i* (*-vi*) şəkilçisi hansı sözə artırıldıqda söz kökü ***dəyişmir***?
A) inqilab B) dünya C) xalq
D) əşya E) kimya

60. Əmələgəlmə üsuluna görə digərlərindən fərqlənən mürəkkəb sözlər cərgəsini müəyyən edin.
A) Qonaqkənd, üzüyola
B) sözdəyişdirici, gözübağlı
C) qaçaqaç, qovhaqov
D) hacıleylək, qanunverici
E) sarıköynək, itburnu

61. Mürəkkəb söz hansıdır?
A) Qız qalası B) 28 May C) Kəlağayı
D) Həsənzadə E) ağacdələn

62. "*Səs-səmir*" mürəkkəb sözü hansı yolla yaranmışdır?
A) ayrılıqda leksik mənası olmayan sözlərin köməyi ilə
B) əks mənalı sözlərin köməyi ilə
C) yaxın mənalı sözlərin köməyi ilə
D) mənsubiyyət şəkilçili ismin iştirakı ilə
E) müxtəlif mənalı sözlərin birləşməsi ilə

63. *Qızılgül, qırxayaq, günəbaxan* mürəkkəb sözləri hansı yolla əmələ gəlmişdir?
A) yaxın mənalı sözlərin birləşməsi ilə
B) əks mənalı sözlərin birləşməsi ilə
C) iki müxtəlif mənalı sözün birləşməsi ilə
D) eyni sözün təkrarı ilə
E) müstəqil leksik mənası olmayan iki sözün birləşməsi ilə

64. Düzəltmə sözlər olan bəndi müəyyən edin.
A) dilucu, istiqanlı, kəndli
B) böyürtkən, qarğı, qızarmaq
C) dairəvi, çəhrayı, həzin
D) bağban, sevgi, sayğac
E) dağıntı, narınc, sarsıntı

65. Düzəltmə sözlərdən yaranmış düzəltmə sözləri müəyyən edin.
A) kəsərli, arxayınlıq, ağaclıq
B) soyuqluq, sədaqətli, çəmənlik
C) dinləyici, şabalıdı, açıldı
D) süpürgəçi, şərabçılıq, düşüncəsiz
E) dumanlı, susuzluq, daralmaq

66. Hansılar sadə sözlərdir?
1. bürkü 2. seçki 3. əski
4. ölçü 5. tülkü 6. içki
A) 2, 4, 6 B) 2, 3, 5 C) 1, 3, 6
D) 1, 3, 5 E) 1, 2, 5

67. Düzəltmə sözlərdən ibarət olan bəndi müəyyən edin.
A) qıpqırmızı, ədəbiyyat, torpaq
B) kitabın, evdə, birbaşa
C) topdağıtmaz, ikimərtəbəli, qaraltı
D) çiyələk, mürəkkəb, anlamaq
E) tıxac, döngə, belləmək

68. Düzəltmə sözlərdən ibarət olan bəndi müəyyən edin.
A) almaq, alasıyam, almalıyam
B) dinləmək, ağlamaq, gözləmək
C) güləşmək, barışmaq, gələcək
D) bağça, boyaq, yazıçılıq
E) kitab, kitaba, kitabı

69. Düzəltmə sözlərdən ibarət olan bəndi müəyyən edin.
A) istedad, qabiliyyət, həvəs
B) günəbaxan, susuz, tarla
C) yazı, ölçü, sancı
D) əlüzyuyan, qaratoyuq, incəbel
E) cəsur, igidlik, mərdlik

70. Düzəltmə sözlərdən ibarət olan bəndi müəyyən edin.
A) əzik, azğın, ağıllı
B) çovğun, təpə, istilik
C) qəşəng, yaraşıqlı, istiqanlı
D) yataq, təmiz, ucalıq
E) qoruq, bulaq, qıraq

71. İki düzəltmə sözün birləşməsindən yaranan mürəkkəb sözləri müəyyən edin.
A) dəvədabanı, suyuşirin, gözüyaşlı
B) əliəyri, sözübütöv, şirindilli
C) girdəsifət, qaraqaş, uzunsaçlı
D) açıqqəlbli, soyuqqanlı, enlikürəkli
E) dalbadal, gözütox, üzügülər

72. Kökü feil, başlanğıc forması sifət olan söz hansıdır?
A) yaylıqdan B) daraqda C) bacarıqlar
D) qarışıqdır E) yağıntının

Qarışıqlıq ilə Skan Edilib

73. Kökü feil, başlanğıc forması isim olan söz hansıdır?
A) sağaldım B) işləklikdən C) oxucudakı
D) qorxuludur E) qapaqda

74. Saat əqrəbinin istiqamətində sözə ardıcıllıqla şəkilçilər artırılsa, hansı variantda feildən düzəlmiş isim alınar?



A) 1 B) 3 C) 2 D) 4 E) 5

75. Saat əqrəbinin istiqamətində sözə ardıcıllıqla şəkilçilər artırılsa, hansı variantda feildən düzələn sifət alınar?



A) 1 B) 3 C) 2 D) 5 E) 4

76. Sözlərdən birinin kökü feil ***deyil***:
A) düzülüş B) düzgün C) düzlük
D) düzmək E) düzülmək

77. Sözlərdən birinin kökü feil ***deyil***:
A) sıxıntı B) sıxlıq C) sıxıcı
D) sıxışdırmaq E) sıxılmaq

78. Hər üç söz üçün ortaq cəhət ola bilən fikri müəyyən edin.

qorxudan
qorxudur
qorxutmaq

A) Feildən düzələn feil kimi təhlil etmək olar.
B) Təsriflənməyən feil kimi təhlil etmək olar.
C) İki leksik şəkilçili söz kimi təhlil etmək olar.
D) Feildən düzələn isim kimi təhlil etmək olar.
E) İsimdən düzələn söz kimi təhlil etmək olar.

79. *Gör...dü* sözündə nöqtələrin yerinə hansı şəkilçi yazılsa, düzəltmə söz ***alınmaz***?
A) -ün B) -müş C) -ül D) -üş E) -dür

80. Altından xətt çəkilmiş sözlərdən biri quruluşuna görə digərlərindən fərqlidir:
A) Dost, tanışdır <u>ətrafım</u>.
B) Hər şey bir <u>qırpımda</u> həll olundu.
C) Şairin <u>duyum</u> hissi güclü olmalıdır.
D) <u>Geyim</u> səliqəli olmalıdır.
E) Bütün <u>qurumlar</u> rəhbəri müdafiə etdilər.

81. Hansı bənddə isimdən düzələn, lakin kökü isim ***olmayan*** düzəltmə sözlər verilmişdir?
A) üzümçülük, insanlıq
B) bitkiçilik, qoruqçu
C) döyüntü, çöküntü
D) görünüş, bildiriş
E) dilçilik, hiyləgərlik

82. Hansı bənddə həm isimdən düzələn, həm də kökü isim olan düzəltmə sözlər verilmişdir?
A) balıqçılıq, ədəbiyyatşünaslıq
B) bitkiçilik, üzgüçülük
C) çoxaltma, bozartma
D) insafsızlıq, geriləmə
E) tikinti, döyüntü

83. Uyğunluğu müəyyən edin.
1. Feildən düzəlmiş sifətdir.
2. İki leksik şəkilçisi vardır, sifətdən düzəlmiş isimdir.
3. Feildən düzəlmiş isimdir.
4. Kökü feil, özü isimdən düzəlmiş isimdir.
5. Saydan düzəlmiş feildir.

a. yanğın
b. döşəkçə
c. üzgün
d. çoxalmaq
e. düzgünlük

A) 1 – c; 2 – e; 3 – a; 4 – b; 5 – d
B) 1 – c; 2 – b; 3 – a; 4 – d; 5 – e
C) 1 – e; 2 – b; 3 – a; 4 – c; 5 – d
D) 1 – a; 2 – c; 3 – e; 4 – b; 5 – d
E) 1 – a; 2 – e; 3 – b ; 4 – d; 5 – c

84. Hansı sözləri həm sadə, həm də düzəltmə kimi düşünmək olar?
1. gəlir 2. səpir 3. barış
4. köçür 5. danla 6. dindir

85. Hansı sözləri həm sadə, həm də düzəltmə kimi düşünmək olar?
1. bitir 2. bezdir 3. qaldır
4. yondur 5. yanacaq 6. dağdır

Camscanner ilə skan edilib

İsim

Konkret və mücərrəd isimlər. Tək və cəm isimlər. Ümumi və xüsusi isimlər

1. İsimlərdən ibarət olan bəndi müəyyən edin.
A) dastan, çəmən, qarğıdalı, Bakı
B) axşam, dünənki, xeyli, qurğuşun
C) oxumaq, dəmirçi, kağız, şirin
D) ördək, danışmaq, vətəndaş, gülüş
E) meşəlik, uca, beşlik, axtarmaq

2. Mücərrəd mənalı isimləri müəyyən edin.
A) mənlik, başlıq, gözlük, çürüntü
B) gurultu, xışıltı, yaxşılıq, sevgi
C) baxış, qovurma, soyutma, süzmə
D) çalğı, daraq, meşəlik, odunluq
E) dostluq, əmimgil, yoldaş, arabaçı

3. Mücərrəd mənalı düzəltmə isimləri müəyyən edin.
A) soyutma, dondurma, süzmə
B) daraq, yataq, kəsək
C) gözəllik, qavrayış, üzüntü
D) daşlıq, meşəlik, üzümlük
E) yaylaq, otlaq, qışlaq

4. *Hara*? sualına cavab verən isimləri müəyyən edin.
A) şagird, məktəb, sinif
B) daş, ev, otaq, mənzil
C) dərzi, bərbər, usta
D) şəhər, kənd, qəsəbə, sahil
E) qızıl, parlaq, işıqlı

5. Hansı cərgədəki sözlər toplu isimlərdir?
A) çiçək, lüğət B) çay, dəniz C) kənd, şəhər
D) sürü, camaat E) meşə, ağac

6. Hansı cərgədəki sözlər toplu isimlərdir?
A) şəhər, kənd B) əhali, respublika
C) dəniz, çay D) meşə, üzümlük
E) qoşun, alay

7. Mücərrəd mənalı düzəltmə isimləri müəyyən edin.
A) duyğu, sevgi, qorxu
B) bolluq, yuxulu, tələbəlik
C) məna, məqsəd, istək
D) mərhəmət, sədaqət, şadlıq
E) gözəllik, sadəlik, meşəlik

8. Mücərrəd məna bildirən düzəltmə isimləri müəyyən edin.
A) çəmənlik, kölgəlik B) pislik, yaxşılıq
C) kədərli, həyəcanlı D) üzümçü, gözətçi
E) yoldaş, sirdaş

9. Mücərrəd mənalı düzəltmə isimləri müəyyən edin.
A) işlək, əmanətçi, baxış
B) gurultulu, əkinçi, ortaqlıq
C) qavrayış, insanlıq, duyğu
D) çığırtı, ovçu, xəyalpərvər
E) sevinc, yoldaş, qapıçı

10. Saydan düzəlmiş mücərrəd mənalı ismi müəyyən edin.
A) azlıq B) yaxşılıq C) doğruluq
D) bağırtı E) çöküntü

11. Hansı cümlə ümumi isimlə başlanır?
A) Sarayevoda olimpiada keçirilmişdir.
B) Saranın qiymətləri qənaətbəxşdir.
C) Saraya fəxri təqaüd verildi.
D) Saraya qəsəbə statusu verildi.
E) Saraya təzə avadanlıq alındı.

12. Hansı cümlə xüsusi isimlə başlanır?
A) Yerdən ot dizə qədər qalxmışdır.
B) Yerdən götürdüyüm karandaş Sevilin idi.
C) Yerdən çox yer var.
D) Yerdən uzaqlaşan kosmik gəmi görünməz oldu.
E) Yerini heç kimə vermə.

13. Mücərrəd məna bildirən düzəltmə isimlər cərgəsini müəyyən edin.
A) arzu, xəyal, ruh, əhval
B) gurultu, səadət, atlı, təşəbbüs
C) başçı, əkinçi, vətəndaş, mələk
D) sevgi, yaxşılıq, anlayış, şadlıq
E) ağıl, müəllimlik, meydança, yaşıllıq

14. Mücərrəd mənalı düzəltmə isimləri müəyyənləşdirin.
A) kədərli, həyəcanlı B) çəmənlik, bağlıq
C) duyğu, birlik D) üzümçü, gözətçi
E) yoldaş, qardaş

15. Mücərrəd məna bildirən düzəltmə isimləri müəyyən edin.
A) vətəndaş, təpəcik B) başçı, əkinçi
C) meşəlik, güllük D) sevincli, maraqlı
E) mənlik, anlayış

16. Cümlələrdən birində mücərrəd mənalı isim işlənib:
A) Yaylaqlar gözəl görünür.
B) Aydının iki bacısı, bir qardaşı var.
C) Çalışqan şagird ata-anasının üzünü ağ edər.
D) Dünyanı gözəllik xilas edəcək.
E) İlxı örüşdə otlayırdı.

17. Cümlələrin birində mücərrəd mənalı isim işlənib:
A) Sözün də su kimi lətafəti var. (Nizami)
B) Selcanın bir dayısı, bir əmisi var.
C) Pambıqçılar bol məhsul topladılar.
D) Qışlaqlarda su boldur.
E) Yazda çaylar tez-tez daşır.

18. Mücərrəd mənalı isimləri müəyyən edin.
1. fikir, anlayış 2. çoxluq, sevgi
3. əmək, süzmə 4. gözlük, yaylaq
5. dostluq, əkinçi
A) 4, 5 B) 1, 5 C) 2, 3 D) 3, 4 E) 1, 2

Camscanner ilə skan edilib

19. Mücərrəd mənalı isimləri müəyyən edin.
1. yaxşılıq, meşəlik 2. yataq, baxış
3. bilik, duyğu 4. yuxu, xəyal
5. xalamgil, çətir
A) 2, 4 B) 3, 4 C) 1, 3 D) 2, 5 E) 1, 5

20. İsimlərdən biri həm konkret, həm də mücərrəd məna ifadə edə bilir:
A) dostluq B) nəfəslik C) analıq
D) insanlıq E) igidlik

21. İsimlərdən biri həm konkret, həm də mücərrəd məna ifadə edə bilir:
A) qumluq B) meşəlik C) mərdlik
D) tezlik E) atalıq

22. Mücərrəd mənalı düzəltmə isimlər cərgəsini müəyyən edin.
A) hesabdar, soyutma, güllük
B) yorğunluq, boşluq, üzüntü
C) insanlıq, üzümlük, çəmənlik
D) dostluq, düzənlik, qazıntı
E) düzəngah, çəmənlik, qardaşlıq

23. Mücərrəd mənalı düzəltmə isimlər cərgəsini müəyyən edin.
A) bolluq, yuxulu, tələbəlik
B) duyğusuz, dadlı, sevinc
C) duyum, güvənc, üzümçülük
D) məna, məqsəd, istək
E) gözəllik, sadəlik, meşəlik

24. Mücərrəd mənalı ismi müəyyən edin.
A) sənəd B) gözlük C) çəmənlik
D) qaxınc E) dərə

25. Mücərrəd mənalı ismi müəyyən edin.
A) xətkeş B) ələk C) nisgil
D) misgər E) satıcı

26. Toplu isimləri müəyyən edin.
1 2 3 4 5 6 7 8 9
Çiçək, camaat, yoldaşlıq, nəxır, təpə, göl, millət, torpaq, kol
A) 2, 3, 4, 6 B) 2, 4, 7 C) 1, 3, 7, 9
D) 5, 6, 8, 9 E) 1, 5, 8

İsmin quruluşca növləri

1. Düzəltmə isimlərdən biri isimdən yaranıb:
A) azadlıq B) sabitlik C) sənədləşmə
D) çağırış E) xəzinədar

2. İsimlərdən biri sifətdən ***düzəlməmişdir:***
A) gözəllik B) doğruluq C) sadəlik
D) gəlinlik E) mehribanlıq

3. İsimlərdən biri sifətdən ***düzəlməmişdir:***
A) sərbəstlik B) düzlük C) sərinlik
D) gərginlik E) bacılıq

4. Hansı cümlələrdə feildən düzəlmiş isim işlənmişdir?
1. Dünən yeni sərgiyə baxış keçirildi.
2. Göyərti insanlar üçün faydalıdır.
3. Əməkdaşlar salona toplaşdılar.
4. Müfəttiş dəftərçəyə qeydlər edirdi.
5. Vurğu fonetik hadisədir.
A) 2, 4 B) 1, 4 C) 1, 2, 3
D) 3, 4, 5 E) 1, 2, 5

5. Mürəkkəb isimləri müəyyən edin.
A) Qırxbulaq, Fındıqlı dərəsi, dan ulduzu
B) taxıl biçini, at arabası, Dəmirçioğlu
C) Əhmədin yuxusu, beşdaş, gözaltı
D) yazı-pozu, Miranşah, evin kiçiyi
E) ağcaqanad, bağayarpağı, ördəkburun

6. Yalnız sadə isimlərdən ibarət olan bəndi müəyyən edin.
A) yarpaq, daraq, külək, dəyənək
B) qaraltı, göyərti, hənirti, təpik
C) kitab, ölkə, ürək, barmaq
D) sürü, sarğı, qayğı, çəki
E) kürü, sərgi, çatı, çapıq

7. Hansı söz mürəkkəb isim ***deyil***?
A) gəlhagəl B) vurhavur C) basabas
D) dalbadal E) qaçaqaç

8. Düzəltmə isimlər cərgəsini müəyyən edin.
A) balaca, qaçağan, dəmirçi
B) dağlıq, qurucu, kəskin
C) köməkçi, dadlı, qabaqcıl
D) qızğın, meşəlik, alma
E) gözəllik, otlaq, təmirçi

9. Feildən düzələn isimləri müəyyən edin.
A) yaylaq, meydança, işçi
B) çöküntü, balıqçı, düzlük
C) doğruluq, birlik, elçilik
D) başlıq, güldan, Dağıstan
E) vurğu, baxış, yanğın

10. Mürəkkəb isimləri müəyyən edin.
A) çalıb-oynamaq, açıb-ağartmaq, daxil olmaq
B) qarlı-boranlı, çoxmərtəbəli, ürəyəyatan
C) yavaş-yavaş, dilucu, ora-bura
D) quşüzümü, daş-qaş, qol-budaq
E) yeddi-səkkiz, bir qədər, azdan-çoxdan

11. Feildən düzələn ismi müəyyən edin.
A) birlik B) yaşıllıq C) sancı
D) kəskinlik E) düzlük

12. Feildən düzələn isimləri müəyyən edin.
A) bitki, basqın, anlayış
B) yaxşılıq, bərklik, saflıq
C) Gülüstan, Dağıstan, meşəlik
D) güldan, dənizçi, bəstəkar
E) bağça, yoldaş, meydança

13. Sifətdən düzəlmiş isimləri müəyyən edin.
A) yüzlük, onluq, çoxluq
B) şadlıq, təmizlik, zəiflik
C) dostluq, tanışlıq, qardaşlıq
D) birlik, gündəlik, hakimlik
E) dərzilik, ustalıq, mühəndislik

14. Feil köklərinə artırılan *-qı* (*-ki, -qu, -kü*) şəkilçisi hansı nitq hissəsi əmələ gətirər?
A) zərf B) sifət C) isim
D) əvəzlik E) feil

15. Feildən düzələn isimlərin cərgəsini müəyyən edin.
A) qoruq, daraq, daşqın, sürgün
B) qalaq, çolaq, bilək, ürək
C) duyuq, yazıq, oyuq, çıxıq
D) dərslik, keçid, açar, süpürgə
E) yaxşılıq, sevgi, düşüncə, gözlük

16. İsimdən düzələn isimləri müəyyən edin.
A) meşəlik, yaxşılıq B) meydança, təmizlik
C) yataq, evdar D) güllük, çaylaq
E) daşlıq, dinləyici

17. İsimdən düzələn isimləri müəyyən edin.
A) süzgəc, yataq B) dağlıq, döşəkçə
C) asılqan, evdar D) saflıq, uşaqcığaz
E) döngə, yapışqan

18. Feildən düzələn isimlərin cərgəsini müəyyən edin.
A) yaraşıq, gəzinti
B) vurğunluq, durğunluq
C) qaçqınlıq, gərginlik
D) dağıntı, baxış
E) taqqıltı, xışıltı

19. Feildən düzələn isimlərin cərgəsini müəyyən edin.
A) qorxu, döşəkçə B) hörgü, çıxış
C) oxucu, ovçu D) güllük, yaylaq
E) düzlük, açıqlıq

20. Məntiqi ardıcıllığı tamamlayın.
1. sərtlik 2. pərişanlıq
3. gənclik 4. ...
A) güllük B) kişilik C) bədiilik
D) beşlik E) günlük

21. Klasteri tamamlayın.



A) Mücərrəd isimlərdir.
B) Feildən düzəlmiş isimlərdir.
C) İsimdən düzəlmiş isimlərdir.
D) Tərkibində bir leksik şəkilçi işlənmişdir.
E) Cəm şəkilçisi qəbul etsələr, toplu ismə çevrilərlər.

22. Feildən düzələn isimləri müəyyən edin.
I cızıq II Artıq III Qoruq
IV yozum V sönük VI uçuq
A) I, III, IV B) II, IV, V C) III, V, VI
D) I, II, III E) I, V, VI

23. Feildən düzəlmiş isim hansı cümlədədir?
A) Kəskin söz qılıncdan itidir.
B) O, görkəmli alimdir.
C) Qorxaq kölgəsindən ürkər.
D) Yağışlı havadan əsər-əlamət qalmamışdı.
E) Çəki daşları tərəzinin yanında idi.

24. Feildən düzəlmiş isim hansı cümlədədir?
A) Tutqun hava yavaş-yavaş açılırdı.
B) Hərbi təlim uğurla başa çatdı.
C) Qorxaq hər şeyi dörd görər.
D) Bilikli şagirdlər ikinci tura buraxıldılar.
E) Ölçü vahidləri düzgün təyin edilmişdir.

25. Feillərdən düzələn isimləri müəyyən edin.
1. tapşırıq 2. yanğın 3. üzlük
4. alçaqlıq 5. başlıq 6. dözüm

26. Feillərdən düzələn isimləri müəyyən edin.
1. daraq 2. əzik 3. qurğu
4. basqın 5. uçuq 6. satqın

27. Düzəltmə isimləri müəyyən edin.
1. bilək 2. döşək 3. öskürək
4. ələk 5. qorxaq 6. ürkək
7. dayaq

28. Düzəltmə isimləri müəyyən edin.
1. yığıncaq 2. əlcək 3. utancaq
4. oyuncaq 5. yelləncək 6. sevincək

29. Hansı isimlərin kökü feil olsa da, feildən ***düzəlməyib***?
1. deyingənlik 2. görünüş 3. döyüşçü
4. sürücülük 5. düzülüş 6. soyuducu

30. Hansı cümlələrdə ardıcıl olaraq quruluşca sadə, düzəltmə, mürəkkəb isimlər verilib?
1. Bu sözdən sonra döşəkcələri düzdü və qohum-qardaşa əyləşməyi təklif etdi.
2. Eyvanda oturub əlcək toxuya-toxuya bu get-gəl barədə fikirləşirdi.
3. Quyu qazıldıqca mədənçilər daha da həvəslənir, can-başla çalışırdılar.
4. Göydə parlaq ay nur saçır, dənizdə isə gümüşü dalğacıqlar bərq vururdu.
5. Qoca əli ilə qənddanı itələdi və bəzəkli vazadakı noğul-nabatdan bir neçəsini götürdü.

Camscanner ile skan edilib

31. Hansı cümlələrdə ardıcıl olaraq quruluşca sadə, düzəltmə, mürəkkəb isimlər verilmişdir?
1. Sazdan pərdə-pərdə süzülən çalğı dağ-dərəni bürümüşdü.
2. Dağın ətəyindəki çəmənlikdə bitən çobanyastıqları göz oxşayırdı.
3. Əlisəfa toya ən yaxın qohum-qardaşını, dost-tanışını çağırmışdı.
4. Mədəniyyət sarayı yeni tikilən kitabxana ilə yan-yana idi.
5. Alı dəmirçixananın qabağında dost-tanışı ilə söhbət edirdi.

32. Tərkibində həm sadə, həm də mürəkkəb isim işlənmiş cümlələri müəyyən edin.
1. Hazırcavab adam söz tapmaqda çətinlik çəkməz.
2. Münəvvərin mülayim təbiəti, canıyananlığı onu hamıya sevdirmişdi.
3. Meşənin sonunda çır-çırpıdan ocaq qalayıb göbələk bişirdilər.
4. Uşaqlar meşəbəyini axtarmağa başladılar.
5. Ana həsrətli və mehriban baxışlarını oğlunun üzündən ayırmırdı.

33. Hansı cümlələrdə ismin quruluşca hər üç növünə aid nümunə var?
1. Yaxınlıqdakı günəbaxan tarlası ətrafa xüsusi gözəllik verirdi.
2. Dağıntının altında qalmış maşın toz-torpaqdan görünməz olmuşdu.
3. Ərşad üçatılanı çiyninə keçirib atın belinə qalxaraq qamışlığa tərəf çapdı.
4. Yolçular kol-kosa, daşlara, qaranlıq və kölgəli yerlərə nəzər salaraq irəliləyirdilər.
5. Dünənki yarış ata-anasının Cavada inamını daha da artırdı.

34. Tərkibində adlıq halda sadə, təsirlik halda düzəltmə isimlərin işləndiyi cümlələri müəyyənləşdirin.
1. Yaşıdları arasında igidliyi ilə seçilən Anar hamının sevimlisi idi.
2. O nəhəng qara buludu görürsənmi, özü ilə mütləq çovğun gətirəcək.
3. Qız əlindəki iri bağlamanı yerə qoyub sevincək bacısını qucaqladı.
4. Bayram günlərində insanlar dostu, tanışı ziyarət edir.
5. Mühəndislər qazıntını həyata keçirən işçiləri tezliklə oradan uzaqlaşdırdılar.

35. Hansı cümlədə sadə, düzəltmə və mürəkkəb isim işlənmişdir?
1. Azadlıq anadır, dünya işıqdır,
Göydələnlər şəhərə bir yaraşıqdır.
2. Bu gün şadlığımı çalsın, çağırsın,
Bülbülün mahnısı, Qurbanın tarı.
(M. Müşfiq)
3. Bir gözəldir bu Qarabağ
Təbiətin qucağında
Gözəlliyin, məhəbbətin
Ən səfalı bir çağında.
(M. Müşfiq)
4. Saatları kim yaratdı? Neçin yaratdı?
Bu ölçüylə kim dünyada murada çatdı?
(B. Vahabzadə)

İsmin mənsubiyyətə görə dəyişməsi

1. Cümlələrdən birində mənsubiyyət şəkilçili isim işlənmişdir:
A) Gənclər yarışa hazırlaşırlar.
B) O vaxtdan xasiyyəti dəyişməmişdi.
C) Buzovlar talada otlayırdı.
D) Kütlə meydana tərəf axışırdı.
E) Selcan narları səbətə yığırdı.

2. Sözlərin birində I şəxs təkinin mənsubiyyət şəkilçisi işlənmişdir:
A) torpağım B) yardım C) müəllim
D) yurdumuz E) tələbəyəm

3. Sözlərdən biri mənsubiyyət şəkilçisi qəbul etmişdir:
A) mənim B) həkiməm C) sözüm
D) yazıram E) qorxuludur

4. Hansı sözdə ikinci şəxsin cəminə aid mənsubiyyət şəkilçisi işlənmişdir?
A) şagirdi B) gəldiniz C) müəllimsiniz
D) qardaşımız E) kitabınız

5. Mənsubiyyətə görə dəyişmə baxımından biri fərqlənir:
A) şüşə B) tale C) nalə
D) meyvə E) macəra

6. Hansı birləşmənin tərkibində mənsubiyyət şəkilçili isim var?
A) evi tikmək, döşəməni silmək
B) insan taleyi, xalq mənafeyi
C) sürməyi şal, xurmayı saç
D) tarixi bilmək, misi əritmək
E) əxlaqi dəyərlər, hüquqi dövlət

7. Hansı nümunədəki isim mənsubiyyət şəkilçilidir?
A) şagirddir B) alimsən C) anam
D) mühəndisəm E) atasınız

8. Cümlələrin hansında mənsubiyyət şəkilçili söz var?
A) Dostluğu qiymətləndirmək gərəkdir.
B) Düşmən təslim olmayanda onu məhv edirlər.
C) Vətəni qorumaq hamının müqəddəs borcudur.
D) Sülhü qorumaq lazımdır.
E) Maldarlığı və taxılçılığı inkişaf etdirməliyik.

Camscanner ile skan edilib

9. III şəxs cəmin mənsubiyyət şəkilçisini qəbul etmiş söz hansı cərgədədir?
A) onların kitabları B) Əlişin işi
C) kitabın cildi D) onun kitabı
E) uşaqları qarşılamaq

10. Verilənlərdən hansı birinci şəxs təkinin mənsubiyyət şəkilçisidir?
A) -ım[4] B) -ın[4] C) -ı[4] D) -am[2] E) -ıq[4]

11. I şəxs cəm mənsubiyyət şəkilçisi qəbul etmiş sözü müəyyən edin.
A) kitabların üzü B) gəlirik
C) onun kitabları D) sənin kitabların
E) məktəbimiz

12. Hansı bənddə mənsubiyyət şəkilçili iki söz işlənib?
A) Həyat qaliblərindir.
B) Gələcək bizim nəslindir.
C) Kəhər at onunkudur.
D) Azadlığın öz əlindədir.
E) Bu qoşun bizim deyil.

13. Mənsubiyyət şəkilçili isimlər hansı halda işlənən əvəzlik və ya isimlə əlaqəyə girir?
A) çıxışlıq B) adlıq C) yönlük
D) təsirlik E) yiyəlik

14. Mənsubiyyət şəkilçili sözlər hansı bənddədir?
A) armudu stəkan, gümüşü saç
B) həyati əsər, zehni iş
C) onun zehni, şairin həyatı
D) həyatı öyrənmək, zehni möhkəmləndirmək
E) sancı hiss etmək, dolu yağanda

15. *-ı*[4] hansı cümlədə mənsubiyyət şəkilçisidir?
A) Evi dağılmış, ocağı söndürülmüşdü.
B) Adam yaxşını qoyub pisi götürməz.
C) Sizi çoxdan arzulayırdıq.
D) Yol şərti işarələrlə göstərilmişdir.
E) O, məktəbi bu il bitirəcək.

16. Hansı sözdə birinci şəxsin təkinə aid mənsubiyyət şəkilçisi işlənmişdir?
A) gəlirəm B) balacayam C) mənim
D) obam E) ustadam

17. Hansı sözdə ikinci şəxsin təkinə aid mənsubiyyət şəkilçisi işlənmişdir?
A) sənin B) bağban C) yazasan
D) çantan E) quşüzümü

18. Mənsubiyyət şəkilçisi qəbul edərkən isimlərdən biri ümumi qaydadan kənara çıxır:
A) mənşə B) əlaqə C) külçə
D) məqalə E) ənənə

19. Mənsubiyyət şəkilçisi qəbul edərkən isimlərdən biri ümumi qaydadan kənara çıxır:
A) mövqe B) quyu C) məcra
D) töhfə E) qələbə

20. Əşyanın hansı şəxsə aidliyini bildirən şəkilçi necə adlanır?
A) zaman şəkilçisi B) hal şəkilçisi
C) mənsubiyyət şəkilçisi D) şəxs-xəbərlik şəkilçisi
E) cəm şəkilçisi

21. Cümlələrin birində *-i* şəkilçisi mənsubiyyət şəkilçisidir və ismə artırılıb:
A) Pisi pis, əyrini əyri, düzü həmvar yazım.
B) Düşüncələri alt-üst olmuşdu.
C) Səni çoxdan gözləyirdim.
D) Əsgərlərdən hansısa asta-asta zümzümə edirdi.
E) Daxili təmizlik və vicdani saflıq insan üçün böyük məziyyətdir.

22. Altından xətt çəkilmiş sözlərin yalnız birində *-ı*[4] mənsubiyyət şəkilçisidir və ismə artırılıb:
A) Doğru <u>yalanı</u> kəsəcək.
B) Heç kəs bilmədi ki, <u>evi</u> nədən yanıb.
C) <u>Şərti</u> şumda kəsək.
D) Sizlərdən <u>biri</u> danışmalıdır.
E) <u>Cavabı</u> tez göndərmək lazımdır.

23. Hansı cümlələrdə həm mənsubiyyət, həm də təsirlik hal şəkilçisi vardır?
I Nuriyyənin bacısı oxumağı çox sevir.
II Vətənimi sevirəm.
III Vətəni sevməyən insan olmaz.
A) yalnız I B) yalnız II C) yalnız III
D) I və II E) I və III

24. Hansı cümlələrdə mənsubiyyət şəkilçisi qəbul etmiş iki söz işlənmişdir?
I Vaqifin qardaşı kitabını bizə bağışladı.
II Vaqifin qardaşı bizə məktəbi göstərdi.
III Vaqifin qardaşı fəxrimizdir.
A) yalnız III B) yalnız II C) I və III
D) I və II E) yalnız I

25. Birində I şəxsin mənsubiyyət şəkilçisi həm "*-ım*", həm də "*-m*" kimi düşünülə bilər:
A) yazım B) sazım C) nazım
D) anım E) başım

26. Hansı cümlədə mənsubiyyət şəkilçisi qəbul etmiş iki söz var?
A) İmtahan günü yaxınlaşırdı.
B) Dağ çayında üzmək çətin idi.
C) Maşının arxa tərəfində oturmuşdum.
D) Arzunu mükafatlandıranı alqışladılar.
E) Səni gözləməkdən gözlərimin kökü saraldı.

27. Hansı cümlədə mənsubiyyət şəkilçisi qəbul etmiş iki söz var?
A) Gözüm səndən su içmir.
B) Namərdlərin xəyanətinin cəzası böyük olacaq.
C) Onun dostluğunu qiymətləndirmək gərəkdir.
D) Sülhü qorumağı bacarmaq lazımdır.
E) Maldarlığı və taxılçılığı inkişaf etdirməliyik.

Cəfərov Elnur tərəfindən skan edilib

28. Hansı cümlədə həm mənsubiyyət, həm də təsirlik hal şəkilçisi qəbul etmiş söz işlənmişdir?
A) Mən əlimə qələm aldım.
B) Xalqı yaxşı tanıyırdı.
C) O, əlindəki kitabı vərəqlədi.
D) Biz "Ədəbiyyat" qəzetini müntəzəm alırıq.
E) Qələmi yaxşı yazırdı.

29. Hansı cümlədə həm mənsubiyyət, həm də təsirlik hal şəkilçisi qəbul etmiş söz işlənmişdir?
A) O, "Koroğlu" dastanını oxuyub bitirdi.
B) Oxumağı hamımıza xoş gəldi.
C) Uşaqlardan biri bizə tərəf boylanırdı.
D) Sədrin özü çıxış etdi.
E) Adamların bəzisi ayaq üstə dayanmışdı.

30. İsimlərdən birində işarələnmiş şəkilçi bütün məqamlarda mənsubiyyət şəkilçisidir:
A) zehni B) sinfi C) şəklin
D) oğlun E) ömrün

31. İsimlərdən birində işarələnmiş şəkilçi bütün məqamlarda mənsubiyyət şəkilçisidir:
A) fikri B) nəslin C) çiynin
D) səbrin E) ömrü

32. Cümlələrin birində mənsubiyyət şəkilçili isim şəxsinə görə fərqlənir:
A) Ayağı var, qaça bilmir,
Qanadı var, uça bilmir.
B) Məqsədimizi dostlara çatdıranda hamı sevindi.
C) Şagirdin kitabı evdə qalmışdı.
D) Usta avtomobilin təkərini dəyişdi.
E) Şagirdlərin maraq dolu baxışları müəllimə zillənmişdi.

33. Hansı cümlədə altından xətt çəkilmiş mənsubiyyət şəkilçili ismi iki şəxsdə düşünmək olar?
A) Yaradıcılığı S.Vurğunu sevdirən ən başlıca amildir.
B) Dostum kitabını dünən məktəbdən alıb.
C) Arzumuz ən yüksək nəticəni əldə etməkdir.
D) Eviniz meydandan bir-neçə tin uzaqda idi.
E) Sualları çox çətin və məntqli idi.

34. Hansı cümlədə *"yol"* ismi mənsubiyyət şəkilçisi qəbul ***etməmişdir***?
A) Yolu xeyli vaxtdır, burdan düşmürdü.
B) İki ildir ki, sel yolu dağıdıb.
C) Həyat yolu hamı üçün eyni dərəcədə rahat olmur.
D) Avtomobil yolları hər il təmir edilir.
E) Mənim yolum mübarizədir, hədəfim qələbədir!

35. Hansı cümlədə mənsubiyyət şəkilçisi qəbul etmiş isim adlıq haldadır?
A) Sərgilənən əşyaların hamısında usta məharəti görürdüm.
B) Axşamüstü dostlarımıza baş çəkməliyik.
C) Kəndin həyətlərində mal yemlənirdi. (M. Cəlal)
D) Sonanın xalçası, doğrudan da, bir tamaşa idi. (M. Cəlal)
E) Bu otaqda dərs ləvazimatları saxlayırdılar.

36. Hansı cümlədə mənsubiyyət şəkilçisi qəbul etmiş isim adlıq haldadır?
A) Bir azdan kəndin kənarında tüfəng səsi eşitdim. (İ. Şıxlı)
B) Mərdan ayağını tirin üstünə qoyub səkiyə hoppandı. (M. Cəlal)
C) Onların çoxu buna bənzər hadisələr görmüş, yə da eşitmişdi.
D) "Cənnət anaların ayaqları altındadır".
E) Ağaməcid ağlayan kimi qohumları tökülüb gəlmişdi. (M. Cəlal)

37. Doğru ***olmayan*** fikri müəyyən edin.
A) Mənsubiyyət şəkilçisi qəbul etmiş isim bütün cümlə üzvü vəzifəsində çıxış edir.
B) *"Kitabı"* sözünü yerinə görə ismin iki halında işlənən söz kimi düşünmək olar.
C) I və II şəxslərdə mənsubiyyət şəkilçisi yalnız insana aiddir.
D) Mənsubiyyət şəkliçili sözlər işlənmiş cümlələrd hökmən yiyəlik hallı söz işlənməlidir.
E) Şəxs əvəzliyi mənsubiyyət şəkilçisi qəbul etmir.

38. Sual işarəsinin yerinə uyğun gələn fikirləri müəyyə edin.



1. Sözün formasını dəyişir.
2. Sözün həm formasını, həm də məzmununu dəyişdirir.
3. İsmin bütün hallarında olan sözlərlə işlənə bilir.
4. Əşyanın hansı şəxsə aid olduğunu bildirir.
5. Həmişə 4 cür yazılır.
6. İsmə aid qrammatik şəkilçilərdir.

A) 1, 6 B) 1, 2, 3 C) 4, 5
D) 2, 5, 6 E) 3, 4

39. Mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri müəyyən edin.

"C. Məmmədquluzadə "Molla Nəsrəddin" jurnalının
1
səhifələrində dini fanatizmi tənqid etmiş,cəhalətin
2 3 4 5
acı nəticələrini göstərmişdir".
6

40. *"Dəyirmançı Güllünün gözünün qabağında ağacın birini də kəsdi"* (Mövlud Süleymanlı) cümləsində işarələnmiş sözlərdən hansılar mənsubiyyət şəkilçisi qəbul etmişdir?

41. İşarələnmiş sözlərdən hansılar mənsubiyyət şəkilçisi qəbul etmişdir?

Seyr elə hüsnünü göydə durnanın,
Qayada kəkliyin, göldə sonanın.
Aynabənd otaqda gəlin anamın
Şirin layla səsi şeir deyilmi?!

(H. Arif)

42. Üstündə rəqəm yazılmış sözlərin hansında həm mənsubiyyət, həm də hal şəkilçisi işlənmişdir?

Dolaşma sıldırım sal qayalıqda,
Daşlar ayağını əzər, maralım!
Gəl səni bəsləyim gözümün üstdə,
Etmə aşiqindən həzər, maralım!

(M. Müşfiq)

43. Üstündə rəqəm yazılmış sözlərin hansında həm mənsubiyyət, həm də hal şəkilçisi işlənmişdir?

Ay mənim əzizlərim,
sizə nə var kı?!
Siz mənim qəlbimdə yaşayırsınız,
mən də tənələrin ağzında,
baxışların altında. (F. Qoca)

44. Nümunədə nömrələnmiş isimlərdən hansılar həm hal, həm də mənsubiyyət şəkilçili isimdir?

"Birdən Turalın qolunun üstündəki ov şahini havaya qalxdı, uçdu və meşənin qalın yerində bir ağacın üstünə qondu". (Anar)

45. Nümunədəki nömrələnmiş isimlərdən hansılar həm hal, həm də mənsubiyyət şəkilçili isimdir?

"Küçənin girişində, zavod binasının sol tərəfindəki kiçik daxmada bir neçə adam var idi".

46. *"Bilqeys xanımın özündən kiçik bacısı İstanbulda oxumaq istəyini əmisi oğluna yazdığı məktubunda bildirdi"*

cümləsindəki mənsubiyyət şəkilçili isimləri müəyyən edin.

47. Hansı cümlələrdə mənsubiyyət şəkilçisi qəbul etmiş iki söz işlənmişdir?

1. Cənnət anaların ayaqları altındadır.
2. Elin gözü tərəzidir.
3. Şirin söz can arzusu, acı söz baş ağrısı.
4. Yarışın qalibi kimi bayrağı Firudin qaldırdı.

48. Hansı cümlələrdə eyni sözdə həm mənsubiyyət, həm də təsirlik hal şəkilçisi vardır?

1. Ana son məktubunu yazdı.
2. El qədrini bilənlər ömrünü bada verməz.
3. Elin sözü əvvəl-axır düz olar.
4. Həyatın mənası faydalı iş görməkdədir.

49. Verilmiş nümunədə mənsubiyyət şəkilçili isimləri müəyyən edin.

Mən bir yüksəlişin[1] sevdasındayam[2],
Siniflər[3] döyüşü[4] dünyasındayam[5].
İnsanı, zəhməti[6] qiymətləndirən,
Yaxşı adamların sırasındayam[7].

(M. Müşfiq)

İsmin hallanması

1. Altından xətt çəkilmiş sözlərdən hansı təsirlik halda işlənmişdir?

A) Olmaya, uşağı korluq çəkir?
B) Onun saçları qızılı rəngə çalır.
C) Deyəsən, qardaş-bacısı gəlib.
D) Misi gümüşə çevirmək olmaz.
E) Kitabı çoxdan çap olunub.

2. Hansı cümlədə *-dan*[2] çıxışlıq halın şəkilçisidir?

A) Nailə qəfildən qışqırdı.
B) Hərdən bizə də gələrsən.
C) Döyüşdən bir xəbər yoxdur.
D) Çaydan çox səliqə ilə sürtülmüşdü.
E) Səni çoxdan gözləyirəm.

3. *"Nə xoşdur ellərin şirin avazı,*
Güldü ölkəmizin çiçəkli yazı,
Şairin qələmi, aşığın sazı.
Bülbülü mat qoyan dillər bizdədir".

nümunəsində altından xətt çəkilmiş sözlərdən yalnız biri təsirlik haldadır:

A) avazı B) yazı C) qələmi
D) sazı E) bülbülü

Cəmiyyətlər üçün skan edilib

4. *-dan* şəkilçisi ilə işlənmiş hansı söz isimdir?
A) yanğından B) çoxdan C) altıdan
D) yağlıdan E) ondan

5. Nümunədəki "*dost*" isminin hansı hallarda işləndiyini müəyyən edin.
El sözüdür: – Dost dostuna tən gərək,
Tən olmasa, bəri başdan gen gərək.
A) təsirlik, yerlik B) yönlük, yerlik
C) yiyəlik, təsirlik D) adlıq, yönlük
E) adlıq, yiyəlik

6. Yerlik halda olan isim *harada*? sualına cavab verəndə hansı cümlə üzvü olur?
A) mübtəda B) xəbər C) tamamlıq
D) təyin E) zərflik

7. Hansı cümlədə qeyri-müəyyən təsirlik halda olan isim işlənmişdir?
A) Məhsul yığılanda görüşərik.
B) Göyün üzü buludsuz idi.
C) Kitab yazmaq çətin və əziyyətli işdir.
D) Döyüş vaxtı cəsarət əsas şərtdir.
E) Hirsi çoxdan soyumuşdu.

8. Hansı cümlə çıxışlıq halda olan isimlə başlanır?
A) Əvvəldən bilsəydim, gəlməzdim.
B) Oyundan hamı razı qaldı.
C) Güldan stolun üstündə idi.
D) Hərdən gəlib məni görərdi.
E) Kimdən soruşdum, demədi.

9. "*Biz sülh tərəfdarıyıq*" cümləsində "*sülh*" sözü ismin hansı halındadır?
A) çıxışlıq B) adlıq C) yönlük
D) təsirlik E) yiyəlik

10. Hansı cümlədə yönlük halda olan isim vardır?
A) Yüz dəfə zirvəyə baxmaqdansa, bir dəfə zirvədən bax.
B) Yüz il ansan da onu xatirətək, o vəfasız qayıdıb gəlməyəcək.
C) Bir həftədən sonra vuruşmağa gedənlərin sayı xeyli artdı.
D) Qızım, sənə deyirəm, gəlinim, eşit. (Atalar sözü)
E) Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram.
(X.R. Ulutürk)

11. Hansı cümlədə çıxışlıq halda olan isim vardır?
A) Hərdən biz tərəflərə də gəlin.
B) Yaxşını yamandan ayırmalıyıq.
C) Beş altıdan azdır.
D) Sözü qorxmadan demək lazımdır.
E) Səlim bağdan dünən gəlib.

12. "*Yol*" ismi hansı cümlədə təsirlik halda işlənmişdir?
A) Sel yolu korlamışdı.
B) Kəndin iki yolu var idi.
C) Biz kəndə dağ yolu ilə gəldik.
D) Görünən maşın yolu idi.
E) Yolları burada ayrılırdı.

13. İsmin hansı halı özündən sonra mənsubiyyət şəkilçili söz tələb edir və onunla birlikdə cümlənin bir üzvü yerində işlənir?
A) yönlük B) adlıq C) yiyəlik
D) təsirlik E) yerlik

14. İsmin qeyri-müəyyənlik ifadə edə bilən halları hansılardır?
A) təsirlik və yerlik B) adlıq və yiyəlik
C) yönlük və təsirlik D) yiyəlik və təsirlik
E) yerlik və çıxışlıq

15. "*Məktub*" sözü hansı cümlədə təsirlik haldadır?
A) Mən ona bir məktub göndərdim.
B) Məktub hələ dostuma çatmamışdır.
C) Bu, Etibarın son məktubudur.
D) Dostumun cavab məktubu mənə gec çatdı.
E) Məktubun məzmununu sənə danışmışdım.

16. Nümunədəki yiyəlik halda olan sözləri müəyyən edin.
Bir əlində yaz günəşi, birində bahar,
Neçə bayram qarşılayır bizim nəsillər.
A) yaz, bizim B) bayram, bizim
C) əlində, birində D) əlində, bizim
E) birində, bizim

17. *Kitab* sözü aşağıdakı cümlələrin hansında adlıq haldadır?
A) Dostuma bir kitab bağışladım.
B) Biz kitab mağazasına getdik.
C) Sirac mağazadan kitab aldı.
D) O, kitab həvəskarıdır?
E) İnsanın ən yaxın dostu kitabdır.

18. Birləşmələrin birində birinci tərəf yiyəlik halda olan mənsubiyyət şəkilçili isimdir:
A) oxumağımın xeyri
B) qəlbin incəliyi
C) ürəyimin arzusu
D) uşaqların üçü
E) birisinin yazdığı

19. "*Neft*" sözünün təsirlik halda işləndiyi cümlə hansıdır?
A) Bakı nadir neft istehsal edir.
B) Neft Daşlarında işləmək fədakarlıqdır.
C) Respublikamızdan xaricə xeyli neft daşınır.
D) Azərbaycan nefti çoxlarına dinclik vermir.
E) Azərbaycanın əsas sərvəti neftdir.

20. Aşağıdakı cümlələrin birində *qələm* sözü adlıq haldadır:
A) Onun *qələminin* rəngi bənövşəyidir.
B) *Qələmin* qiyməti çox baha idi.
C) Mən mağazadan *qələm* aldım.
D) *Qələm* sahibi hər sözü ölçüb-biçməlidir.
E) *Qələmin* yaxşı yazır.

Cəmi 20 sual

21. *"Mənim əlim"* söz birləşməsinin tərəflərinin qəbul etdiyi *-im* şəkilçiləri bir-birindən nə ilə fərqlənir?
A) Hər iki tərəfdəki mənsubiyyət şəkilçisidir.
B) Birinci tərəfdəki mənsubiyyət, ikinci tərəfdəki hal şəkilçisidir.
C) Birinci leksik, ikinci qrammatikdir.
D) Hər iki tərəfdəki hal şəkilçisidir.
E) Birinci tərəfdəki hal, ikinci tərəfdəki mənsubiyyət şəkilçisidir.

22. Hansı cümlədə *"kitab"* sözü təsirlik haldadır?
A) Dostum kitab həvəskarıdır.
B) Kitab bilik mənbəyidir.
C) Kitabı evdə qalıb.
D) Bu, maraqlı kitabdır.
E) Çox kitab oxumaq insanın məlumatını artırır.

23. *"Kitab"* sözü hansı cümlədə adlıq haldadır?
A) Kitabın cildi göydür.
B) Kitabın məndədir.
C) Dediklərimi kitab səhifələrindən oxumuşam.
D) Mənə kitab ver.
E) Bu cild həmin kitabındır.

24. Cümlələrdən hansında isim həm mənsubiyyət, həm də yiyəlik hal şəkilçisini qəbul etmişdir?
1. Arxın dibi görünür.
2. Dəniz suyunun səviyyəsi artır.
3. Üzümün şişi çəkilibdir.
4. Narın giləsi şirindir.
A) 1, 4 B) 2, 4 C) 2, 3 D) 3, 4 E) 1, 3

25. Cümlələrdən birində qeyri-müəyyənlik bildirən təsirlik halda olan söz işlənmişdir:
A) Axır dəniz kimi yaşıl zəmilər,
Gül gülü çağırır, sünbül sünbülü.
B) Rövşən çöldə oynadığı vaxt yerdən bir daş tapmışdı.
C) Alı kişi əhvalatı oğluna danışdı.
D) Onlar dəmir yolunu keçməli idilər.
E) Piyadalar düşmən səngərinə yaxınlaşdılar.

26. *"Ev"* ismi hansı cümlədə adlıq haldadır?
A) Kəndimizin evləri çiy kərpicdəndir.
B) Ustalar kənddə ev tikirlər.
C) Evləri təmir etməyə başlamışıq.
D) Dostum evini dəyişdirir.
E) Evin divarları nəmdir.

27. *Qaldırsın başını göylərə sarı*
Geniş tarlalarda <u>dərz</u> tayaları.
Nümunədə altından xətt çəkilmiş söz ismin hansı halındadır?
A) çıxışlıq B) adlıq C) təsirlik
D) yönlük E) yiyəlik

28. *Baxdıqca düşmənin gözü qaralsın,*
<u>Xəzan</u> yarpağıtək üzü saralsın.
Nümunədə altından xətt çəkilmiş söz ismin hansı halındadır?
A) təsirlik B) adlıq C) yiyəlik
D) yerlik E) yönlük

29. Hansı birləşmədə təsirlik hallı söz işlənmişdir?
A) şabalıdı yarpaqlar B) Xəzər dənizi
C) elmi fəaliyyət D) gözəlliyi duymaq
E) ürəyi döyünən

30. Təsirlik hallı söz hansı birləşmədə işlənmişdir?
A) zehni iş B) Baykal gölü
C) həyati əsər D) yaxşılığı qiymətləndirmək
E) vətənin azadlığı

31. Qeyri-müəyyən yiyəlik hallı isimlərdən birini müəyyən yiyəlik hala çevirmək ***olmur.***
A) qala qapısı B) Sabir üslubu
C) dost gəlişi D) Azadlıq prospekti
E) meyvə şirəsi

32. Qeyri-müəyyən yiyəlik hallı isimlərdən birini müəyyən yiyəlik hala çevirmək ***olmur.***
A) Gənclik metrosu B) şair ilhamı
C) düşmən gözü D) qala divarı
E) Füzuli üslubu

33. Hansı cümlə yiyəlik halda olan isimlə başlanır?
A) Fikrin mənə aydındır.
B) Gülün ətri otağı bürümüşdü.
C) Pisin əzablarını birgə çəkməliyik.
D) Sənin sözlərinə şərikəm.
E) Gülün, danışın, balalar!

34. Hansı cümlə yerlik halda olan isimlə başlanır?
A) Onda sən hələ balaca olardın.
B) Səndə maraqlı kitablar var?
C) Zərf də əsas nitq hissəsidir.
D) Bölgədə vəziyyət sabitdir.
E) İçəridə adam çox idi.

35. *"Xəstəxananın <u>həkim</u> və tibb bacılarının siyahısı"* birləşməsində altından xətt çəkilmiş sözün hansı halda olduğunu və buraxılmış şəkilçiləri müəyyən edin.
A) Təsirlik haldadır; cəm, mənsubiyyət, hal
B) Yiyəlik haldadır; cəm və hal
C) Adlıq haldadır; cəm, mənsubiyyət
D) Adlıq haldadır; mənsubiyyət, cəm
E) Yiyəlik haldadır; cəm, mənsubiyyət, hal

36. *"Azərbaycanın <u>şair</u> və yazıçılarının portretləri"* birləşməsində altından xətt çəkilmiş sözün hansı halda olduğunu və buraxılmış şəkilçiləri müəyyən edin.
A) Yiyəlik haldadır; cəm, mənsubiyyət, hal
B) Yiyəlik haldadır; cəm, hal
C) Adlıq haldadır; cəm, mənsubiyyət, hal
D) Adlıq haldadır; mənsubiyyət, hal
E) Təsirlik haldadır; cəm, mənsubiyyət

37. "*Uşaqların doyunca çörək yeyər, paltar geyərlər*" (M. İbrahimov) cümləsində işarələnmiş isimlər hansı haldadır?
A) yönlük B) adlıq C) yiyəlik
D) təsirlik E) çıxışlıq

38. "*Biz Təbrizdən gül toxumu gətirdik, uşaqlara hədiyyə aldıq*" cümləsində işarələnmiş isimlər hansı haldadır?
A) təsirlik B) yiyəlik C) çıxışlıq
D) adlıq E) yönlük

39. Sonu "q" ilə bitən isimlər hallandıqda hansı hallarda *q-ğ* əvəzlənməsi baş verir?
1. yiyəlik 2. yönlük 3. təsirlik
4. yerlik 5. çıxışlıq
A) 1, 2, 3 B) 2, 4 C) 3, 5
D) 1, 3, 4 E) 1, 2, 5

40. Sonu "k" ilə bitən isimlər hallandıqda hansı hallarda *k-y* əvəzlənməsi baş verir?
1. yiyəlik 2. yönlük 3. təsirlik
4. yerlik 5. çıxışlıq
A) 4, 5 B) 1, 2, 3 C) 1, 5
D) 2, 3, 5 E) 2, 4

41. Hansı cümlələrdə mənsubiyyət şəkilçili isim işlənmişdir?
1. Xınalıq kəndinin camaatı şadyanalıq edirdi.
2. Artıq kəndə yeni yol çəkilirdi.
3. Yolun çəkilişi asan başa gəlmədi.
4. Doğma yurdumuza sevgi verək.
5. Kəndin təcrübəli gəncləri işə cəlb olundular.
A) 2, 4, 5 B) 1, 3, 5 C) 2, 3, 4
D) 1, 2, 5 E) 1, 3, 4

42. Cümlələrdən hansında *-da* (*-də*) yerlik hal şəkilçisidir?
A) Mən (də) bu gün sənlə getmək istəyirəm.
B) Bir deyil, beş deyil onlar həyat(da),
Bəlkə də, milyonu artıq aşıblar.
C) Bəlkə, bu yerlərə bir (də) gəlmədim,
Duman, salamat qal, dağ, salamat qal!
D) Sözdən düzgün istifadə olunan(da) məna da aydın olur.
E) Mən onu gün(də) görürəm.

43. Qeyri-müəyyən yiyəlik halda olan isim hansı cümlələrdədir?
1. Bəxtin qarası heç kəsə nəsib olmasın.
2. Başqasının eybini görüb öz eybindən əl çəkən adam nə xoşbəxtdir!
3. Bizi sıxan, əzən torpaq həsrətidir.
4. Cənnət anaların ayaqları altındadır.
5. Yazıçı əsərini yenicə tamamlamışdı.
A) 4, 5 B) 1, 3 C) 2, 3, 5
D) 3, 4 E) 1, 2, 5

44. İşarələnmiş sözlərdən ikisi adlıq haldadır:
1. Ömim bu gün qayıdacaq.
2. Xalq şairi şöhrət və titul üçün çalışmamalıdır.
3. Vasif yaxşı tələbədir.
4. Sabahkı məruzə üçün xeyli material topladılar.
5. Dünya bizim hamımızındır.
A) 4, 5 B) 1, 2 C) 1, 3 D) 2, 5 E) 3, 4

45. Hansı cərgədə altından xətt çəkilmiş sözlərin hər ikisi təsirlik haldadır?
A) Şahinin modeli yarışda birinci yeri tutdu.
B) Bir azdan avtobus gələcək, uşaqlar yola düşəcək.
C) Seyran göyərçin gördümü, dayanacaq, gözlərini göyə zilləyib duracaq.
D) Ayaqları sözünə baxmadı, çamadanı yerə qoydu.
E) Gözünü açanda gördü ki, dostları ətrafında dayanıb.

46. Hansı bənddə işarələnmiş isimlər yiyəlik haldadır?
I Nağılların çox maraqlı idi, baba.
II Şəklin arxasında yazı var idi.
III Rəngin niyə ağardı?
IV Nağılın bu yeri qızcığazı qorxutdu.
V Şəklin divarda asılmışdı.
A) III, IV B) I, V C) I, III
D) II, V E) II, IV

47. "*Uşaq*" ismi hansı cümlələrdə təsirlik haldadır?
I Uşağı dəcəldir.
II Uşağı axtarıram.
III Uşağı çoxdur.
IV Uşağı çağırırsan.
V Uşağı böyüyür.
A) II, IV B) I, IV, V C) II, III, V
D) I, III E) II, V

48. Sonu samitlə bitən isimlərdə yiyəlik hal şəkilçisi hansı qrammatik şəkilçi ilə formaca oxşardır?
A) indiki zaman şəkilçisi ilə
B) təsirlik halın şəkilçisi ilə
C) yönlük halın şəkilçisi ilə
D) III şəxs təkinin mənsubiyyət şəkilçisi ilə
E) II şəxs təkinin mənsubiyyət şəkilçisi ilə

49. *"Vaqif, sabah məni yola sal gedim,*
Torpaq evciyimi ziyarət edim.
Ordadır dünyanın zövqü, ləzzəti,
Sən də öz boynundan at bu minnəti,
Kəndimizə qayıt!..." (S. Vurğun)
nümunəsində işarələnmiş sözlərin ikisi adlıq haldadır:
A) evciyimi, minnəti
B) məni, evciyimi
C) zövqü, ləzzəti
D) məni, ləzzəti
E) zövqü, minnəti

50. *Bahar fəsli, yaz ayları gələndə,*
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar (Aşıq Ələsgər)
nümunəsində işarələnmiş sözlərin ikisi təsirlik halda *deyil*:
A) bahar, ayları
B) yoxsulu, şahı
C) ərbabı, yoxsulu
D) şahı, ayları
E) bahar, ərbabı

51. *"Mənim belələrindən – yuxarılardan xəbərim yox idi; həyatın bərkində, boşunda bişməmişdim"* cümləsindəki isimlərin hansı halda olduğunu müəyyən edin.
A) üç yiyəlik, iki yerlik, iki çıxışlıq hal
B) bir yiyəlik, iki yerlik, iki çıxışlıq hal
C) iki yiyəlik, iki yerlik, iki çıxışlıq hal
D) bir adlıq, üç yiyəlik, iki yerlik, bir çıxışlıq hal
E) bir adlıq, bir yiyəlik hal

52. *"Sənin bu rəqs havasından xoşun gəlir"* cümləsindəki isimlərin hansı halda olduğunu müəyyən edin.
A) üç yiyəlik, bir təsirlik, bir çıxışlıq hal
B) iki yiyəlik, bir çıxışlıq hal
C) bir yiyəlik, bir təsirlik, bir çıxışlıq hal
D) üç yiyəlik, bir çıxışlıq hal
E) bir yiyəlik, bir çıxışlıq hal

53. Yönlük hal, əsasən, hərəkətin istiqamətini və ya çatılacaq son nöqtəni bildirir. Hansı cümlədə işarələnmiş sözə bu izahı aid etmək ***olmaz***?
A) Qonşumuz *kəndə* getməyi xoşlayır.
B) Əlaçıların şəklini şərəf *lövhəsinə* vurdular.
C) Keçən yayda *dənizə* çox getmişdik.
D) Diyircəkli qələmi əlli *qəpiyə* aldım.
E) Maşın *bazara* yaxınlaşdı.

54. Yönlük hal, əsasən, hərəkətin istiqamətini və ya çatılacaq son nöqtəni bildirir. Hansı cümlədə işarələnmiş sözə bu izahı aid etmək ***olmaz***?
A) *Gəmiyə* mindik.
B) *Səhərə* az qalırdı.
C) *Limana* çatdıq.
D) O, çörəyi *ikiyə* böldü.
E) Maşın *dağa* qalxırdı.

55. *"Şair"* sözü hansı nümunədə təsirlik haldadır?
A) M. Müşfiq incə duyğular şairidir.
B) "Qəlb şairi" Füzulini çox sevirəm.
C) Şair sözü, əlbəttə, yalandır. (Füzuli)
D) B. Vahabzadə xalq şairidir.
E) Şairi Hələbdə qətlə yetirdilər.

56. *"Evləri"* sözü hansı nümunədə adlıq haldadır?
A) Bu evləri hamı bəyənirdi.
B) Köhnə evləri sökürdülər.
C) Evləri təmir edəcəklər.
D) Evləri var, xana-xana ...
E) Sakinlər tezliklə yuxarıdakı evləri tərk edəcəklər.

57. *"Şəhər"* sözü hansı cümlədə adlıq haldadır?
A) Şəhər yerində yaşamaq çətinləşir.
B) Bakı şəhəri günbəgün gözəlləşir.
C) Susuz səhrada yeni şəhər saldılar.
D) Belə gözəl şəhər görməmişəm.
E) Bu şəhəri hamı bəyənir.

58. *"Dövlət"* sözü hansı cümlədə adlıq haldadır?
A) Dövləti hamımız qorumalıyıq.
B) Dövləti başından aşır.
C) Hüquqi dövlət qurmalıyıq.
D) Dövlət rəhbərləri tribunaya qalxdılar.
E) Dövlətə kömək etmək hər vətəndaşın borcudur.

59. Nümunədə işarələnmiş sözlər ismin hansı halındadır?
Gəl, ey mehri-məhəbbətim,
Üzün məndən niyə döndü?
Ağzı şəkər, ləbi qəndim,
Üzün məndən niyə döndü? (Aşıq Ələsgər)
A) adlıq, yiyəlik, təsirlik
B) adlıq, yiyəlik
C) yalnız yiyəlik
D) yiyəlik, təsirlik
E) yalnız adlıq

60. Nümunədə işarələnmiş sözlər ismin hansı halındadır?
Yanaqların güldü, solmaz,
Oxlasan, yaram sağalmaz.
Qaşın cəllad, gözün almaz,
Bağrımı kəsə tellərin. (Aşıq Ələsgər)
A) adlıq, yiyəlik
B) yalnız yiyəlik
C) yalnız adlıq
D) yiyəlik, təsirlik
E) adlıq, yiyəlik, təsirlik

61. İşarələnmiş sözlərin hansında təsirlik hal şəkilçisi işlənmişdir?
A) Dükan sahibi *alıcıları* hörmətlə qarşıladı.
B) Komandirin *əmri* yerinə yetirildi.
C) Azadlıq *meydanı* adamla dolu idi.
D) Arzunun *niyyəti* həkim olmaq idi.
E) Sərhəd *gözətçisi* olmaq şərəfli işdir.

62. İşarələnmiş sözlərin hansında təsirlik hal şəkilçisi işlənmişdir?
A) Rəisin qəbul *otağı* geniş və işıqlı idi.
B) Dovşanın *gümanı* ayaqlarına gələr.
C) Dünya *malı* dünyada qalacaq.
D) Çoban var, *sürünü* aparıb gətirər, çoban var, otarıb gətirər.
E) Bu gün əmanət *bankı* bağlı idi.

63. *"Saçın ucun hörməzlər"* nümunəsində işarələnmiş söz ismin hansı halındadır?
A) adlıq
B) müəyyən yiyəlik
C) təsirlik
D) qeyri-müəyyən yiyəlik
E) yönlük

Cəmiyyətlər üçün Sərhədsiz Təhsil

64. *"Əyil dəsmalın götür,*
Mən götürsəm, söz olar" nümunəsində işarələnmiş söz ismin hansı halındadır?
A) müəyyən yiyəlik B) təsirlik C) adlıq
D) qeyri-müəyyən yiyəlik E) yönlük

65. Nümunədə işarələnmiş sözlər ismin hansı halındadır?
Dağ döşündə bənövşə,
Qoymaram bağrı bişə.
Yar yolunda ağlamaq
Mənə olubdur peşə. (Bayatı)
A) adlıq, yönlük B) yiyəlik, yönlük
C) adlıq, yiyəlik D) yiyəlik, yerlik
E) adlıq, yerlik

66. Nümunədəki işarələnmiş sözlər ismin hansı halındadır?
Bu gün ayın üçüdür,
Girmə, bostan içidir.
Dodaqların bal-şəkər,
Dilin badam içidir. (Bayatı)
A) yiyəlik, yerlik B) yiyəlik, yönlük
C) təsirlik, yiyəlik D) adlıq, yiyəlik
E) adlıq, təsirlik

67. Hansı cümlədə təsirlik halda olan söz ***yoxdur***?
A) İlqar yaxşı köynək axtarırdı.
B) Leyla bağdan gül dərdi.
C) Söhbəti çox maraqlı idi.
D) Bütün günü küçəni gəzdik.
E) Nəyi axtardığı məlum deyildi.

68. Hansı cümlədə yiyəlik halda olan söz ***yoxdur***?
A) Kitab Azadındır, apar özünə ver.
B) Dünən fizika dərsi çox maraqlı keçdi.
C) Bizim kəndimiz dağlar qoynunda yerləşir.
D) Kənddəki qonşun da gələcəkmi?
E) Dünya malı dünyada qalmaz.

69. Uyğunluğu müəyyən edin.
Cümlələrdəki işarələnmiş isimlər:
1. Adlıq haldadır.
2. Yiyəlik haldadır.
3. Təsirlik haldadır.

a. ***Çörək*** ətri heç zaman azalmasın.
b. El bir olsa, ***dağ*** oynadar yerindən. (A. Tufarqanlı)
c. Babadağ ən uca ***dağdır***.
d. 17 Noyabr Milli ***Dirçəliş*** Günüdür.
e. ***Səsin*** mənə çox tanışdır.
A) 1 – c; 2 – d, e; 3 – a, b
B) 1 – a, d; 2 – c, e; 3 – b
C) 1 – b; 2 – a, e; 3 – c, d
D) 1 – c, e; 2 – a, d; 3 – b
E) 1 – d, e; 2 – b, c; 3 – a

70. Uyğunluğu müəyyən edin.
Cümlələrdəki işarələnmiş isimlər:
1. Adlıq haldadır.
2. Yiyəlik haldadır.
3. Təsirlik haldadır.

a. ***Çörək*** zavodları heç zaman dayanmasın.
b. Söz bir olsa, zərbi ***kərən*** sındırar. (A. Tufarqanlı)
c. Ağac gövdəsinin kəsilmiş və yonulmamış yoğun hissəsi ***kərən*** adlanır.
d. 15 İyun Milli ***Qurtuluş*** Günüdür.
e. ***Sözün*** mənə yaman təsir etdi.
A) 1 – d, e; 2 – b, c; 3 – a
B) 1 – a, d; 2 – c, e; 3 – b
C) 1 – c; 2 – d, e; 3 – a, b
D) 1 – b; 2 – a, e; 3 – c, d
E) 1 – c, e; 2 – a, d; 3 – b

71. Hansı cümlədə mənsubiyyət şəkilçisi qəbul etmiş söz adlıq haldadır?
A) O, Baharın başına gələni ehtiyatla danışdı. (Mir Cəlal)
B) Sonanın xalçası, doğrudan da, bir tamaşa idi. (Mir Cəlal)
C) Kəndin həyətlərində mal yemlənirdi. (Mir Cəlal)
D) Bahar üçün ən çətin iş cütə minmək idi. (Mir Cəlal)
E) Həyətin kənar tərəfini sulayıb süpürmüşdü. (Mir Cəlal)

72. Hansı cümlədə mənsubiyyət şəkilçisi qəbul edib çıxışlıq halda olan söz var?
A) Sona xalçanı çəkib aradan yığdı. (Mir Cəlal)
B) Mərdan ayağını tirin üstünə qoyub səkiyə hoppandı. (Mir Cəlal)
C) Onların çoxu buna bənzər hadisələr görmüş, ya da eşitmişdi.
D) Cahandar ağa oğlunun yaxasından yapışıb qapı itələdi. (İ. Şıxlı)
E) Ağaməcid ağlayan kimi adamları, qohum-əqrəbası tökülüb gəlmişdi. (Mir Cəlal)

73. Qeyri-müəyyən təsirlik halda olan isim hansı cümlədədir?
A) Orada əhvalatı öyrəndikdən sonra nökəri Əzizlə ata minib öz yurduna qayıtdı. (İ. Qutqaşınlı)
B) Şəbnəm hər iki qızı üçün şəkilli kitab aldı.
C) İndi söz yox, kənardan baxan Xudayar bəyi məzəmmət eləyir. (C. Məmmədquluzadə)
D) Hələ siz Xudayar bəyi yaxşı tanımırsınız. (C. Məmmədquluzadə)
E) Zeynəb qızlarının hər ikisini qucağına aldı. (C. Məmmədquluzadə)

Cəmiyyətlər tərəfindən skan edilib

74. Altından xətt çəkilmiş isimlərin hallarını ardıcıllıqla müəyyən edin.
Məhsul yığımından sonra gənclər şəhərə təzə nübar meyvə apardılar.
A) adlıq, çıxışlıq, yönlük, yiyəlik
B) adlıq, çıxışlıq, yönlük, təsirlik
C) adlıq, çıxışlıq, yönlük, adlıq
D) yiyəlik, çıxışlıq, yönlük, adlıq
E) yiyəlik, çıxışlıq, yönlük, təsirlik

75. Sillogizmi necə tamamlamaq olar?
1. Qeyri-müəyyən təsirlik və qeyri-müəyyən yiyəlik halda olan söz nə? sualına cavab verir.
2. Adlıq halda olan sözlər də nə? sualına cavab verir.
3. .....
A) Adlıq, yiyəlik və təsirlik halda olan isimlər ismə məxsus bütün qrammatik şəkilçiləri qəbul edir.
B) Adlıq, yiyəlik və təsirlik hal eyni cümlə üzvü olur.
C) Adlıq halda olan sözlər də qeyri-müəyyən ola bilər
D) Yiyəlik və təsirlik hallar müəyyən və qeyri müəyyən olur.
E) Nə? sualına cavab verən bütün sözlər adlıq halda deyil.

76. Cümlələrdən biri təsirlik halda olan isimlə başlayır:
A) Kitabı hələ də məndədir.
B) Yaxşıları tanımaq olmur.
C) Gözlərimi qan eylədiyin nədəndir?
D) Qan yaddaşı unudulmur, yaddan çıxmır.
E) Dediklərini direktora çatdırarıq.

77. *Mən **işığam** – qaranlığın **qənimi**,*
*Mən **insanam**,*
daşıyıram qəlbimdə
dünyaların sevincini,
***qəmini**.* (R. Rza)
Nümunədə fərqləndirilmiş sözlər ismin hansı halındadır?
A) yiyəlik, təsirlik B) adlıq, təsirlik
C) adlıq, yiyəlik D) adlıq, yiyəlik, təsirlik
E) adlıq, yiyəlik, yönlük

78. Hansı cümlədə isimlərin hamısı eyni halda işlənmişdir?
A) Mən bir müddət dostumun evində yaşadım.
B) Sonanın xalçası, doğrudan da, bir tamaşa idi.
C) Onun əlləri işləməkdən daş kimi bərkimişdi.
D) Azaflı dil açdı söz baharından,
Xəstə şəfa umar dağlar qarından. (M. Azaflı)
E) Diləyim budur ki, hər gecə, hər gün
Sənin qələmindən inci tökülsün. (S. Vurğun)

79. Hansı cümlədəki isimlərin hamısı eyni halda işlənmişdir?
A) Dostumun atası həmin zavodda direktor işləyirdi.
B) Heydərbaba, kəkliklərin uçanda,
Kol dibindən dovşan qalxıb qaçanda.
(M. Şəhriyar)
C) Deyirlər ki, ana duası tez qəbul olunur.
D) Yoluma gül səpən tərif yanından
Saymazca keçməyi bacarmalıyam! (M. Araz)
E) Bahar üçün ən çətin iş o idi ki, ağası razı qalsın.

80. Hansı cümlədə ismin bütün hallarında olan sözlər işlənmişdir?
A) Dünyanın sirrini hələ də bəşər övladı tam öyrənə bilməmişdir.
B) Şəhərdən xəstəni görməyə gələn sakinlərin hamısı otaqda əyləşmişdi.
C) Səhradan yorğun gələn səyyahlar yollarına davam etmədilər.
D) Hamıdan əvvəl Fərid işin mahiyyətini öyrənə bilmişdir.
E) Külək ac qurd kimi ulayır, şaxta qılınc kimi kəsirdi.

81. Hansı cümlələrdəki isimlərin hamısı eyni halda ***deyil***?
1. Qaz idarəsi üçün yeni bina tikildi.
2. Pəncərə şüşəsi çox şəffaf idi.
3. Əlləri qar kimi ağ idi.
4. Vüsalla Seymur Xalid qədər işlədilər.
5. Murad özü üçün qələm aldı.
6. Mənim qardaşım tələbədir.
A) 1, 3, 5 B) 1, 3, 6 C) 3, 4, 6
D) 2, 4, 5 E) 1, 2, 5

82. Hansı cümlələrdəki ismi həm adlıq, həm də təsirlik halda hesab etmək olar?
1. İndi xörək bişir.
2. Əlbəttə, sərnişin də gözləyir.
3. Asif, məqaləni diqqətlə oxu.
4. Əsəri bəyənildi.
5. Küçədəki oğlan səsləyir.
6. Uşaq bağçasını təmir etdilər.
A) 2, 4, 5 B) 3, 4, 6 C) 1, 2, 6
D) 1, 2, 5 E) 1, 3, 5

83. Yiyəlik və təsirlik halların ortaq cəhətlərini müəyyən edin.
1. Hər ikisi təsriflənən feillə əlaqəyə girə bilir.
2. Qoşmalarla işlənə bilirlər.
3. Qeyri-müəyyən forması var.
4. Şəkilçiləri məsdərlərə və şəxs əvəzliklərinə qoşula bilir.
5. Ayrılıqda cümlənin xəbəri ola bilir.
A) 3, 4 B) 4, 5 C) 1, 2, 3 D) 3, 5 E) 1, 2, 4

84. Nümunələrdə *bağ* isminin hansı hallarda işləndiyini müəyyən edin.
Qonşu paxıl olmasa, bağ çəpəri neylər.
Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.
A) qeyri-müəyyən təsirlik, yiyəlik, adlıq
B) adlıq, yönlük, qeyri-müəyyən təsirlik
C) adlıq, yönlük
D) qeyri-müəyyən yiyəlik, yönlük, adlıq
E) qeyri-müəyyən yiyəlik, çıxışlıq, qeyri-müəyyən təsirlik

CamScanner ile skan edilib

85. İsmin halları ilə bağlı düzgün fikirləri müəyyənləşdirin.
1. Sonu samitlə bitən sözlərə qoşulan hal şəkilçiləri omonimdir.
2. İsmin bütün hallarında olan sözlər cümlənin xəbəri ola bilir.
3. Təsirlik və yerlik haldan başqa, bütün hallar qoşmalarla işlənə bilir.
4. Yönlük və çıxışlıq halda olan isimlər məzmunca bir-birinin əksidir.
5. Yönlük və çıxışlıq halda olan bütün sözlərdə şəkilçilərin yazılışı və tələffüzü fərqlənir.

A) 1, 2, 4 B) 2, 4, 5 C) 1, 3, 5
D) 1, 3, 4 E) 2, 3, 5

86. İsmin halları ilə bağlı ***səhv*** fikirləri müəyyənləşdirin.
1. Sonu samitlə bitən sözlərə qoşulan hal şəkilçiləri omonimdir.
2. İsmin bütün hallarında olan sözlər cümlənin xəbəri ola bilir.
3. Təsirlik və yerlik haldan başqa, bütün hallar qoşmalarla işlənə bilir.
4. Yönlük və çıxışlıq halda olan isimlər məzmunca bir-birinin əksidir.
5. Yönlük və çıxışlıq halda olan bütün sözlərdə şəkilçilərin yazılışı və tələffüzü fərqlənir.

A) 3, 5 B) 1, 3, 4 C) 2, 5
D) 1, 2, 4 E) 2, 3

87. Nümunədə nömrələnmiş sözlərdən hansılar adlıq haldadır?

Füzuli[1] yurdunun[2] qəm[3] səsidir[4] bu,
Pərişan[5] bir elin[6] naləsidir bu. (S. Vurğun)

88. Nümunədə nömrələnmiş sözlərdən hansılar adlıq haldadır?

Xeyr! O[1], Vaqifdir[2], vəcdə gələrək
Bəzən qamçılayır[3] zəmanəsini,
Allah[4] da çox sevir[5] şeirin[6] səsini. (S. Vurğun)

89. Yiyəlik halda olan sözlər hansı cümlələrdədir?
1. Durun gedək Xəlilgilə.
2. Fikrim sizə aydın oldumu?
3. Mənim qardaşım mühəndisdir.
4. İstiqlal küçəsi şəhərin mərkəzindədir.
5. Qıvrım saçları ona çox yaraşırdı.

90. Altından xətt çəkilmiş isimlərdən hansı yiyəlik haldadır?
1. Cavabın xoşuma gəlmədi, oğlum.
2. Dost gəlişi bayram olar.
3. Rəngin niyə ağardı?
4. Əsərin bu yeri çox maraqlı idi.
5. Şəklin məndə qalmışdı.

91. *"Kəndlər"* sözü hansı cümlədə təsirlik haldadır?
1. Kəndləri səfalı idi.
2. Kəndləri qazla təmin etmək lazımdır.
3. Kəndlər abadlaşdırıldı.
4. Uzaqdan kəndlər görünür.
5. Muğan düzündə yeni kəndlər salırıq.

92. Nümunədə nömrələnmiş sözlərdən hansılar adlıq haldadır?

Bu dilin[1] sözləri[2] də sənin[3] üçün ana[4] südünün[5] müqəddəsliyi[6] qədər əziz olmalıdır.

93. Nümunədə nömrələnmiş sözlərdən hansılar adlıq haldadır?

Könlüm[1] qaranquştək[2] uçub qoynuna[3],
Gəzir hər yamacı[4], hər yalı[5], yaylaq[6]! (Aşıq Ələsgər)

94. Adlıq halda olan sözləri müəyyən edin.

Mən[1] də meydan[2] ariyəm, sən[3] də bir kişi,
Mərdliklə seçilir hər mərdin[4] işi[5]. (S.Vurğun)

95. Adlıq halda olan isimləri müəyyən edin.

"İgidlik[1] güləşdə[2] üstünlük[3] qazanmaqda deyil; igid[4] o adamdır ki, qəzəblənən vaxt özünü[5] ələ ala bilsin[6]".

96. Nömrələnmiş sözlərdən hansılar adlıq halda olan isimdir?

Nağıllar[1] və təmsillər[2] ictimai yaralara[3] qarşı
kəskin mübarizə[4] vasitəsidir[5], xalqımızın
mənəvi[6] sərvətidir[7].

97. Nömrələnmiş sözlərdən hansılar adlıq halda olan isimdir?

"Ana[1] bizim şərəfimizdir[2], onun məhəbbəti[3] sonsuzdur.
İnsanın[4] bütün gözəl cəhətləri günəş[5] şüasından[6] və ana[7] südündən[8] yaranmışdır[9]".

98. İsmin adlıq halı ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Adlıq halın yalnız *"kim?"* və *"nə?"* sualları vardır.
2. Adlıq halda olan söz xəbər ola bilir.
3. Adlıq halda işlənən isimlə qeyri-müəyyən təsirlik halda işlənən isim cümlədə eyni vəzifəni daşıyır.
4. Adlıq halda olan sözlər qoşmalarla işlənir.
5. Lüğətlərdə isimlər adlıq hal formasında verilir.

99. İşarələnmiş isimlərdən hansılar adlıq haldadır?

Ölməgərəm, yandım eşq ataşında,
Gözüm qaldı kirpiyində, qaşında.
Qəzdir məzarımı çeşmə başında,
Sal sinəm üstünnən yol, incimərəm.
(Aşıq Ələsgər)

100. İşarələnmiş isimlərdən hansılar adlıq haldadır?

Dolandı zəmanə, döndü qərinə,
Şairlər od tökdü yenə dilindən.
Vurğunun o həsrət nəğmələrinə
Şəhriyar səs verdi Təbriz elindən.
(B. Vahabzadə)

101. Yalnız mənsubiyyət şəkilçisi qəbul edərkən saiti düşən sözlərin işləndiyi cümlələri müəyyən edin.
1. Ana təmkinlə fikrini izah etdi.
2. Bir saitdən ibarət hecanı yeni sətrə keçirmək olmaz.
3. Xəfif külək əsdiyindən Əli pencəyi çiyninə saldı.
4. Bahar fəsli gələndə hər tərəf yaşıl dona bürünür.
5. Şah qəzəbindən onun boynunu vurdurmaq istəyirdi.

102. Nümunədəki təsirlik hallı isimləri müəyyən edin.
Ordu komandanlığı hərbi mütəxəssislər hazırlayır, yerlərə müvafiq qüvvələr və təlimçilər göndərir, döyüş mövqeyini möhkəmləndirirdilər.

103. Hansı cümlələr təsirlik halda olan isimlə başlayır?
1. Sözləri mənə keçmiş günləri xatırladırdı.
2. Körpələri təzə palataya köçürdülər.
3. Qardaşı bizi kəndin girişində qarşıladı.
4. Fikirlərimi bölüşməyə səmimi dostlarım var.
5. Evləri diqqətlə nəzərdən keçirdilər.

104. Hansı cümlələr təsirlik halda olan isimlə başlayır?
1. Qəzetləri səliqə ilə stolun üstünə düzmüşdülər.
2. Gözəlləri vəfalıdır bu yurdun.
3. Baxışları ciddi və qürurlu idi.
4. Qalibləri mühakimə etmirlər.
5. Məktəbliləri qələbə münasibəti ilə təbrik etdilər.

105. Təsirlik halda işlənmiş isimlə başlayan cümlələri müəyyənləşdirin.
1. Kitabları ali məktəbə hazırlaşanda çox işimə yaradı.
2. Fikri hələ də dostlarının yanında idi.
3. Məktəbliləri yarışa çağırmışdılar.
4. Gəncləri yığıncağa dəvət etmişdilər.
5. Divarı indi Əli rəngləyir.

106. Təsirlik halda olan isimlə başlayan cümlələri müəyyənləşdirin.
1. Dediklərini Nərimana çatdıraram.
2. Yaxşıları vaxtında qiymətləndirmək lazımdır.
3. Sözü mənə bərk təsir etdi.
4. Quşu quş ilə tutarlar.
5. Qaydaları ona başa salaram.

107. Təsirlik halda olan isimlə başlayan cümlələri müəyyənləşdirin.
1. Bağları mənim çox xoşuma gəldi.
2. Başı oğlunun xeyir işinə qarışmışdı.
3. Xəstələri təzə palataya köçürdülər.
4. Sualları bir-bir nəzərdən keçirdi.
5. Yazılarımı Kamilə göstərə bilməmişdim.

108. Təsirlik halda olan isimlə başlayan cümlələri müəyyən edin.
1. Tarixi əsərləri məktəblilər yaxşı mənimsəməlidir.
2. Narahatlığı sözə başlayana qədər çəkdi.
3. Əhvalatı bizə Musa danışmışdı.
4. Gözləri hələ də dostunu axtarırdı.
5. Kitabı dostuma verdim.

109. Üstündə rəqəm yazılmış isimlərdən hansılar adlıq haldadır?

Sapı[1] dərziyə ver, zəri[2] zərgərə,
Qiymətdə su[3] hara, simuzər hara!
Suya bənzəsə də, anlayanlara
Zərdən qiymətlidir tər[4] bu dünyada.
(B. Vahabzadə)

110. Tünd-qara hərflərlə yazılmış isimlərdən hansılar yiyəlik haldadır?
1. ***Əsərin*** məzmunu çox maraqlı idi.
2. ***Evin*** çoxdan tikildiyi sənəddə qeyd olunub.
3. ***Telefonun*** evdə qalıb.
4. ***Sənin*** çox güclü yaddaşın var.
5. ***Şəklin*** divardan asılmışdı.

111. Eyler-Venn diaqramına görə ***yanlış*** olanları müəyyən edin.



Camscanner ile skan edilib

112. İsmin hallarına aid fikirlərdən hansılar ***səhvdir***?
1. Hal şəkilçilərinin hamısı omonimdir və ahəng qanununa tabedir.
2. 6 hal şəkilçisinin hamısı millidir və qrammatikdir.
3. Yiyəlik halda olan söz ayrılıqda zərflik və tamamlıq olmur.
4. Hal şəkilçili bütün sözlər cümlə üzvü kimi işlənə bilir.
5. Yiyəlik halda olan söz xəbər yerində işlənə bilmir.

113. İsmin hallarına aid düzgün fikirləri müəyyən edin.
1. Hal şəkilçilərinin hamısı omonimdir və ahəngə tabedir.
2. Altı hala aid şəkilçilərin hamısı millidir, qrammatikdir.
3. Yiyəlik halda olan söz ayrılıqda tamamlıq olur.
4. İsmin bütün hallarında olan sözlər müstəqil şəkildə cümlə üzvü ola bilir.
5. Yiyəlik halda olan söz xəbər yerində işlənə bilmir.

114. İsimlərin hansı halları hal şəkilçisi də nəzərə alınmaqla 4 qrammatik şəkilçi ilə işlənə bilər?
1. adlıq, yiyəlik
2. müəyyən yiyəlik, yönlük
3. adlıq, yönlük
4. təsirlik, yiyəlik
5. yerlik, çıxışlıq

115. İsmə aid 4 müxtəlif qrammatik şəkilçi ilə işlənə ***bilməyən*** halları hansıdır?
1. adlıq
2. yiyəlik
3. yönlük
4. təsirlik
5. yerlik
6. çıxışlıq

116. İsmin halları ilə bağlı verilmiş hansı fikirlər ***səhvdir***?
1. Qeyri-müəyyən yiyəlik hal müstəqil şəkildə heç bir cümlə üzvü vəzifəsində çıxış etmir.
2. Yönlük, yerlik, çıxışlıq hallarda olan sözlər cümlədə tamamlıq, yer zərfliyi, ismi xəbər vəzifəsində işlənə bilir.
3. İsmin bütün hallarında işlənən sözlər mənsubiyyət şəkilçisi ilə işlənə bilir.
4. İsmin bütün hallarında isimlər xəbərlik şəkilçisi qəbul edə bilər.
5. Adlıq hallı söz mənsubiyyət və şəxs şəkilçisi qəbul etmir.

117. Uyğunluğu müəyyən edin.

1. Düzdür
2. Səhvdir

a. *"Əhali" və "camaat" ismindən başqa, bütün isimlər cəmlənə bilir.*
b. *İsmin iki halı müəyyən və qeyri-müəyyənlik bildirir.*
c. *Yiyəlik hallı söz işlənmiş cümlədə mənsubiyyət şəkilçili söz olmaya da bilər.*
d. *Təsirlik halda olan söz ya tamamlıq, ya da ismi xəbər olur.*
e. *Qeyri-müəyyən yiyəlik halda söz işlənmiş cümlədə, bir qayda olaraq, həmişə mənsubiyyət şəkilçili söz işlənməlidir.*

118. Verilmiş cümlələrdə ismin hallarının işlənmə ardıcıllığını müəyyən edin.
Dünya... əliboş gəlib, əliboş da gedəcəyik.
Dünya... bir pislik qalır, bir də yaxşılıq.
Dünya... gözəllik xilas edəcək.
Dünya... işlərini bilmək olmaz.
Dünya... xəbəri yoxdur.
Dünya... öz mehvərində fırlanır.

1. Adlıq	2. Yiyəlik	3. Yönlük
4. Yerlik	5. Təsirlik	6. Çıxışlıq

119. Altından xətt çəkilmiş sözlərin ismin hansı halında olmasına görə işlənmə ardıcıllığını müəyyənləşdirin.
1. adlıq 2. yiyəlik 3. təsirlik
Sözün də su kimi lətafəti var ...
El bir olsa, dağ oynadar yerindən ...
Sözün dillər əzbəri, məclislər yaraşığıdır.

120. Halların sıralanma qaydasını nəzərə alaraq, aşağıdakı cümlələrdə "Azərbaycan" sözünün işlənmə ardıcıllığını müəyyən edin.
1. Azərbaycanda azsaylı xalqların nümayəndələri çox rahat şəraitdə ömür sürürlər.
2. Azərbaycanımız hər zaman yeraltı və yerüstü sərvətlərinə görə diqqət mərkəzindədir.
3. Müxtəlif bölgələrimizdə istirahət etmək üçün hər il Azərbaycana minlərlə turist gəlir.
4. Mənfur düşmənin azğın hərəkəti bütün Azərbaycanı ayağa qaldırmışdı.
5. Müasir gənclərimiz hər zaman Azərbaycanımızın haqq səsini dünyaya çatdırmalıdırlar.

121. Halların sıralanma qaydasını nəzərə alaraq, aşağıdakı cümlələrdə "Qarabağ" sözünün işlənmə ardıcıllığını müəyyən edin.

1. Qarabağın işğaldan azad olunduğu gün Qələbə bayramımız oldu!
2. Neçə-neçə görkəmli şair və yazıçılarımız Qarabağda doğulub, boya-başa çatmışlar.
3. Ən böyük arzum Qarabağı qarış-qarış gəzmək, çoxillik həsrətə son qoymaqdır.
4. Gözəlliklər məskəni olan Qarabağ öz igid oğullarının sayəsində azad olundu.
5. Qarabağa gedən yol milli mübarizədən keçirdi.

İsimlərin yazılışı və tələffüzü

1. Hansı sözdə çıxışlıq hal şəkilçisi yazılışından fərqli tələffüz olunur?
A) üfüqdən B) montyordan C) yadından
D) gəmidən E) dəftərdən

2. Hansı sıradakı bütün isimlər çıxışlıq hal şəkilçisi qəbul etdikdə hal şəkilçisinin yazılışı ilə tələffüzü fərqlənir?
A) çəmən, qələm, vətən, oğlan
B) meydan, gözlük, biçin, corab
C) əkin, məktəb, səpin, uşaq, ana
D) söz, alma, armud, üzüm
E) anam, bacı, ata, qohum

3. *"Məktəbimizin həyətində qəşəng bir söyüd ağacı bitib"* cümləsində isimlərin hansı halda işləndiyini ardıcıllıqla müəyyən edin.
A) yiyəlik, adlıq, yiyəlik, təsirlik
B) adlıq, yiyəlik, adlıq, təsirlik
C) yiyəlik, yerlik, yiyəlik, adlıq
D) yiyəlik, yerlik, adlıq, təsirlik
E) təsirlik, yönlük, yiyəlik, adlıq

4. Bu sözlərdən birinə saitlə başlanan hal şəkilçisi artırdıqda söz kökünün son hecasındakı sait ***düşmür***:
A) fikir B) burun C) sinif
D) ömür E) cisim

5. İsmin hansı hallarında *"fikir"* sözü son saitini itirir?
A) yiyəlik, yönlük, təsirlik
B) yönlük, təsirlik, çıxışlıq
C) təsirlik, yerlik, çıxışlıq
D) yönlük, yerlik, çıxışlıq
E) yiyəlik, yerlik, çıxışlıq

6. Yalnız mənsubiyyət şəkilçisi artırılarkən ikinci hecasındakı saiti düşən sözlərdən ibarət bəndi müəyyən edin.
A) ağıl, sinif, sətir, qisim
B) qisim, alın, qoyun, səbir
C) boyun, abır, isim, sətir
D) ağız, burun, oğul, beyin
E) burun, alın, fikir, cisim

7. Hansı cərgədəki bütün sözlərə saitlə başlanan hal və ya mənsubiyyət şəkilçisi qoşulduqda söz kökünün ikinci hecasındakı sait düşür?
A) sinif, boyun, əsil, qurum
B) isim, fikir, şəkil, fəsil
C) şəkil, cisim, nağıl, ağıl
D) çiyin, oğul, noğul, daxıl
E) taxıl, paxıl, beyin, alın

8. Hansı isimdə bitişdirici samit işlənib?
A) əlcəyin B) körpülərin C) küləyə
D) çörəyin E) körpünün

9. Bitişdirici samitli isimlərin cərgəsini müəyyən edin.
A) əminin, dəftərdə, kitabımız
B) çəmənin, lələyin, duymasa
C) əmisi, suya, mənbəyi
D) gələsi, dayanmasa, anlaması
E) gözətçidən, meşəbəyi, vaqona

10. *"Polad"* sözünə bu şəkilçilərdən birini artırdıqda kökün son samiti kar tələffüz olunur:
A) -ımız B) -ın C) -a D) -ı E) -da

11. Hansı cərgədəki bütün sözlərdə cəm şəkilçisi fərqli tələffüz olunur?
A) dostlar, ölkələr, məktəblər
B) adamlar, insanlar, bağlar
C) həyətlər, qazlar, ulduzlar
D) axşamlar, gecələr, gündüzlər
E) şəhərlər, siniflər, bayraqlar

12. Tələffüz formasında verilmiş sözlərdən yalnız birində çıxışlıq hal şəkilçisi vardır:
A) Palaza bürün, [elnən] sürün.
B) Müğənni çox [ürəx'nən] oxuyurdu.
C) Onun [vətənnən] çıxdığı düz beş ildir.
D) [Birdən] güclü külək başladı.
E) Arxı [hopbammadan] "hop" demə.

13. *"Söyüddən bağ saldım, peyvəst eylədim, Almasın, heyvasın, narın görmədim"* misralarında tələffüz şəklində verilmiş *almasın, heyvasın, narın* sözləri ismin hansı halındadır?
A) təsirlik B) yiyəlik C) adlıq
D) yönlük E) çıxışlıq

14. Nümunələrdən birinə hal şəkilçisi yox, yalnız mənsubiyyət şəkilçisi artırdıqda söz kökünün son hecasındakı qapalı sait düşür:
A) ətir B) sətir C) zehin
D) beyin E) cisim

15. Nümunələrdən birinə hal şəkilçisi yox, yalnız mənsubiyyət şəkilçisi artırdıqda söz kökünün son hecasındakı qapalı sait düşür:
A) ömür B) çiyin C) qədir
D) sətir E) səbir

Cəmiyyətlər üçün əlaqə

16. Mürəkkəb isimlərdən hansının yazılışında ***səhvə*** yol verilmişdir?
A) qaçaqaç B) cızmaqara C) tərzi-hərəkət
D) soyqırımı E) dərə-təpə

17. Mürəkkəb isimlərdən hansının yazılışında ***səhvə*** yol verilmişdir?
A) giley-guzar B) vitse-admiral
C) əks-hücum D) kin-küdurət
E) əmin-amanlıq

18. İsimlərdən birinə saitlə başlayan şəkilçi artırıldıqda ikinci hecadakı sait ***düşmür***:
A) ətir B) fəsil C) ömür
D) şərik E) səbir

19. İsimlərdən birinə saitlə başlanan şəkilçi artırdıqda ikinci hecadakı sait ***düşmür***:
A) ətir B) isim C) nağıl D) nəsil E) şəkil

20. Sözlərdən birinə saitlə başlanan şəkilçi artırdıqda ikinci hecadakı sait ***düşmür***:
A) ətir B) cisim C) sinif
D) fəsil E) paxıl

21. İsmin hansı hallarında "*şəkil*" sözünün son hecasının saiti düşür?
A) yönlük, təsirlik, yerlik
B) yönlük, yerlik, çıxışlıq
C) yiyəlik, yönlük, təsirlik
D) təsirlik, yerlik, çıxışlıq
E) yiyəlik, təsirlik, çıxışlıq

22. İsmin hansı hallarında "*fəsil*" sözünün son hecasının saiti düşür?
A) təsirlik, yerlik, çıxışlıq
B) yönlük, yerlik, çıxışlıq
C) yönlük, təsirlik, yerlik
D) yiyəlik, yönlük, təsirlik
E) yiyəlik, təsirlik, çıxışlıq

23. Bu sözlərdən birinə saitlə başlanan hal şəkilçisi artırdıqda söz kökünün son hecasındakı sait ***düşmür***:
A) cisim B) sətir C) şəkil
D) ömür E) çiyin

24. Mənsubiyyət şəkilçisi qəbul edərkən isimlərdən biri ümumi qaydadan kənara çıxır:
A) əmtəə B) məna C) çanta
D) su E) quyu

25. Mürəkkəb isimlərin hər ikisinin ***səhv*** yazıldığı cərgəni müəyyən edin.
A) qab-qacaq, sözsöhbət
B) tozsoran, çör-çöp
C) əlüzyuyan, dedi-qodu
D) gör-götür, vur-havur
E) kəmkəsir, foto albom

26. Cümlələrdən birində xüsusi isimlərin yazılışında ***səhvə*** yol verilmişdir:
A) Araza gözüm düşüb,
Üstünə izim düşüb ...
B) XVII əsr Azərbaycan ədəbiyyatının intibah dövrüdür.
C) Elm təsdiq edir ki, yer günəş ətrafında fırlanır.
D) Məktəblilər Nizami adına muzeyi ziyarət etdilər.
E) Xalqımız Novruzu təntənə ilə qeyd edir.

27. Cümlələrdən birində xüsusi isimlərin yazılışında ***səhvə*** yol verilmişdir:
A) Bir atı var – alapaça,
Aman verməz qırat qaça! ("Koroğlu" dastanı)
B) Arazam, Kürə bəndəm,
Bülbüləm, gülə bəndəm.
C) "Badamlı", "İstisu" mineral suları insan üçün çox faydalıdır.
D) Elm təsdiq edir ki, Yer Günəş ətrafında fırlanır.
E) Ədəbiyyatımızda Füzuli bir məktəb yaratmışdır.

28. Cümlələrdən birində "*oğul*" isminin kökündəki "*ğ*" hərfi ***düşməməlidir***:
A) Oğlu bu il məktəbi qurtarır.
B) Oğlum universitetdə oxuyur.
C) Oğlun yaman dəcəldir.
D) Oğlumuz bizə qələbə gətirər.
E) Oğlun yaxşısı baş ucalığıdır.

29. Cümlələrdən birində "*ağıl*" isminin kökündəki "*ı*" hərfi ***düşməməlidir***:
A) Ağlım kəsəndən onu həmişə belə görmüşəm.
B) Ağlınız bizi heyran etmişdi.
C) Ağlı, kamalı başında idi.
D) İnsan hər bir işdə ağlı özünə yardımçı seçməlidir.
E) Bu işdən ağlım bir şey kəsmir.

30. Fərqli bitişdirici samit qəbul edən isimləri müəyyən edin.
A) tale, su
B) ailə, bacı
C) çiçək, külək
D) alça, meyvə
E) qınaq, çıraq

31. Hallanarkən sözlərdən hansında bitişdirici samitlərdən istifadə olunur?
1. kitab 2. dərə 3. portret
4. alma 5. meşə 6. çinar
7. qaya 8. günəş
A) 1, 5, 6, 7 B) 3, 4, 8 C) 1, 2, 3, 8
D) 3, 4, 6 E) 2, 4, 5, 7

32. Hansı sözə ancaq mənsubiyyət şəkilçisi artırıldıqda son hecadakı sait düşür?
A) nəsil B) oğul C) fikir D) zehin E) ətir

33. Hansı cərgədəki isimlərin hamısına saitlə başlayan hər cür şəkilçi artırdıqda ikinci hecadakı sait düşür?
A) alın, Qədir, cisim, abır
B) sətir, oğul, boyun, cisim, qoyun
C) oğul, fikir, əsil, qədir
D) fəsil, ətir, ömür, sinif, fikir
E) səbir, sinif, ağız, ağıl

34. Sonu *a, ə* saitləri ilə bitən isimlərdə hansı halda həmin saitlər qapalı saitlər kimi tələffüz olunur?
A) çıxışlıq halda
B) yiyəlik halda
C) adlıq halda
D) təsirlik halda
E) yönlük halda

35. Cümlələrdən birində *oğul* isminin kökündəki *u* hərfi ***düşməməlidir***:
A) Oğlumuz, şükür, ağıllanıbdır.
B) Oğlun yaman dəcəldir.
C) Oğlun pisi-yaxşısı olmur.
D) Oğlum universitetdə oxuyur.
E) Onun oğlu bu il məktəbi qurtarır.

36. Saitlə başlanan şəkilçi artırılanda son saiti düşən ikihecalı sözlər cərgəsini müəyyən edin.
A) nəsil, fəsil, ətir
B) cahil, cisim, şəkil
C) sətir, ahıl, cisim
D) isim, təhsil, fikir
E) ömür, sinif, kömür

37. Sonu eynicinsli qoşa samitlə bitən sözlər hallandıqda ismin hansı hallarında səs düşümü baş verir?
A) yiyəlik, yönlük
B) yönlük, təsirlik
C) yerlik, çıxışlıq
D) adlıq, təsirlik
E) adlıq, yiyəlik

38. Sözlərdən birinə saitlə başlanan şəkilçi artırdıqda ikinci hecadakı sait düşmür:
A) şəkil
B) sinif
C) nəsil
D) nağıl
E) eyib

39. *Sinif* sözünə aşağıdakılardan hansı şəkilçi qoşulduqda söz kökünün son saiti düşür?
A) -də B) -in C) -siz D) -lər E) -dən

40. İsimlərdən birinə saitlə başlayan şəkilçi artırıldıqda ikinci hecadakı sait ***düşmür***:
A) fikir
B) ömür
C) üfüq
D) şəkil
E) səbir

41. Hansı sözlərə hal yox, ancaq mənsubiyyət şəkilçisi artırdıqda ikinci hecadakı sait düşür?
1. boyun 2. alın 3. səbir 4. beyin
5. ətir 6. abır 7. burun 8. oğul
A) 2, 3, 5, 6
B) 1, 2, 4, 7, 8
C) 2, 3, 4, 5
D) 1, 4, 6, 8
E) 1, 3, 5, 6, 8

42. Üstündə hansı rəqəm yazılmış sözlər hal yox, ancaq mənsubiyyət şəkilçisi qəbul edərkən ikinci hecadakı sait səsi itirir?
1 2 3 4 5 6 7 8 9
isim, ağız, çiyin, şəkil, nəsil, beyin, səbir, ömür, qəbir
A) 2, 7, 9
B) 1, 4, 5
C) 6, 7, 8
D) 2, 3, 6
E) 1, 3, 5

43. Hansı cərgədəki sözlərin hamısında sözün kökünə saitlə başlanan hal və mənsubiyyət şəkilçisi artırıldıqda kökün son saiti düşür?
A) ətir, nəsil, fikir, sinif
B) beyin, ömür, zehin, abır
C) boyun, şəkil, sinif, çiyin
D) ağıl, oğul, fəsil, xətir
E) qədir, oğul, ağıl, alın

44. Hansı misrada bir söz kökdəki saitini itirmişdir? Səbəbi müəyyənləşdirin.
Üç aylıq qonaqdır bahar bizlərə,
Gəl, belə boynunu bükmə, bənövşə.
Hər səhər qəmlənib yaşıl düzlərə
Gözünün yaşını tökmə, bənövşə.
A) birinci; hal şəkilçisi qəbul etdiyinə görə
B) ikinci; mənsubiyyət şəkilçisi qəbul etdiyi üçün
C) üçüncü; hal şəkilçisi qəbul etdiyinə görə
D) dördüncü; mənsubiyyətə görə dəyişdiyi üçün
E) ikinci; hal şəkilçisi qəbul etdiyinə görə

45. Hansı cümlələrdə *beyin* sözünün kökündə *i* saiti ***yazılmamalıdır***?
1. Beyinin möcüzələri hamını təəccübləndirir.
2. Beyinin yaxşı işləyir.
3. Beyinləri çox inkişaf edib.
4. Bunları beyinimdən çıxara bilmirəm.
A) 2, 3 B) 2, 4 C) 1, 3 D) 3, 4 E) 1, 4

46. Tələffüz formasında verilmiş hansı sözü yalnız çıxışlıq hal şəkilçili söz kimi düşünmək ***olmaz***?
A) Yer üzündə [insannan] ali varlıq yoxdur.
B) Vüqar [İlhamnan] iki yaş böyükdür.
C) [Qardaşımnan] ötrü canımı verərəm.
D) [Dostumnan] kitab aldım.
E) Mən Vüqarın [qolunnan] tutdum.

47. Hansı sözlər yiyəlik hal şəkilçisi qəbul etsə, ikihecalı söz kimi qalacaq?
1. oğul 2. çiyin 3. şəkil
4. qayın 5. ətir 6. eyib

Cəmiyyətin inkişafı üçün

İsmin morfoloji xüsusiyyətləri. İsmin cümlədə rolu

1. "*Taxılçılıq rayonu*" birləşməsində asılı sözlə bağlı ***səhvi*** müəyyənləşdirin.
A) Ümumi isimdir.
B) İsimdir, *nə?* sualına cavab verir.
C) Adlıq haldadır, təkdədir.
D) Düzəltmə isimdir.
E) Mücərrəd isimdir.

2. "*Araz çayı*" birləşməsində asılı sözlə bağlı ***səhvi*** müəyyən edin.
A) Xüsusi isimdir.
B) Quruluşuna görə sadədir.
C) Adlıq haldadır.
D) Konkret isimdir.
E) Təkdədir.

3. *Sənətkarlıq nümunəsi* birləşməsinin asılı tərəfi ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Təkdədir.
B) Quruluşca düzəltmədir.
C) Mücərrəd isimdir.
D) Qeyri-müəyyən yiyəlik haldadır.
E) Xüsusi isimdir.

4. *Millətin tarixi* birləşməsinin asılı tərəfi ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Toplu isimdir.
B) Mənsubiyyət şəkilçisi qəbul edib.
C) Yiyəlik haldadır.
D) Ümumi isimdir.
E) Quruluşca sadədir.

5. "*Vətən bizlərindir*", – *söylədi babam*"
cümləsində altından xətt çəkilmiş sözün təhlilindəki ***səhvi*** müəyyənləşdirin.
A) Vurğusu son hecaya düşməyib.
B) Şəxs əvəzliyidir.
C) Cümlənin xəbəridir.
D) Cəm şəkilçisi qəbul etmişdir.
E) Adlıq haldadır.

6. "*Onun sevincinin səbəbi aydın idi*" cümləsində altından xətt çəkilmiş isimlə bağlı ***səhvi*** müəyyən edin.
A) Ümumi isimdir. B) Yiyəlik haldadır.
C) Düzəltmədir. D) Konkretdir.
E) Mənsubiyyət şəkilçisi qəbul etmişdir.

7. *Yaxşılıq insana bir sənət olsun,*
Dünya başdan-başa qoy cənnət olsun. (S. Vurğun)
Cümlədə işarələnmiş sözlə bağlı ***səhvi*** müəyyən edin.
A) Konkret isimdir. B) Adlıq haldadır.
C) Quruluşca düzəltmədir. D) Kökü sifətdir.
E) Cümlədə mübtəda vəzifəsindədir.

8. Çıxışlıq halda olan isimlər hansı cümlə üzvü vəzifəsində işlənə bilər?
A) təyin və zərflik B) tamamlıq və təyin
C) tamamlıq və zərflik D) mübtəda və xəbər
E) ancaq zərflik

9. Təsirlik halda olan isim hansı cümlə üzvü ola bilir?
A) tamamlıq B) təyin C) bütün cümlə üzvləri
D) mübtəda E) xəbər

10. Altından xətt çəkilmiş sözlər nə sayılmalıdır?
Ceyrana bənzər qaçışın,
Addımla, qurban qoluna!..
Tərlana bənzər uçuşun,
Əl çatmaz ipək yalına!
A) zərf B) feili sifət C) feili bağlama
D) sifət E) isim

11. İsim hansı cümlə üzvləri vəzifəsində işlənə bilir?
A) xəbər B) tamamlıq C) təyin
D) bütün cümlə üzvləri E) mübtəda

12. İsmin hansı halında olan sözlər cümlənin xəbəri ola ***bilmir***?
A) adlıq hal B) yiyəlik hal C) yönlük hal
D) təsirlik hal E) yerlik hal

13. "*O, Əhməd bəyin itmiş oğlu, Zöhrə isə qızıdır*" (C. Cabbarlı) cümləsində hansı şəkilçi ixtisar edilmişdir?
A) hal B) mənsubiyyət C) zaman
D) xəbərlik E) cəm

14. "*Nə tüfəngə çaxmaqdır, nə sünbəyə toxmaq*" nümunəsində hansı şəkilçi ixtisar edilmişdir?
A) zaman B) xəbərlik C) mənsubiyyət
D) cəm E) hal

15. Ümumi qrammatik mənasına görə biri digərlərindən fərqlənir:
A) kamil B) kamillik C) mükəmməl
D) dərrakəli E) bitkin

16. Ümumi qrammatik mənasına görə biri digərlərindən fərqlənir:
A) müdrik B) aylıq C) həftəlik
D) tarixilik E) sillabik

17. Adlıq haldakı sözün *hara?* sualına da cavab verdiyi cümlə üzvü:
A) səbəb zərfliyi B) xəbər C) tamamlıq
D) təyin E) mübtəda

18. *Gözəllik ondur, doqquzu dondur.* (Atalar sözü) nümunəsində altından xətt çəkilmiş sözlə bağlı ***səhvi*** müəyyən edin.
A) Sifətdir.
B) Adlıq haldadır.
C) Düzəltmə sözdür.
D) Mücərrəd mənalıdır.
E) Cümlədə mübtəda vəzifəsindədir.

19. *"Şəhər rəisi şeiri oxuyub məmnun halda Xaqaniyə baxdı"* (M. İsmayılov) nümunəsində xüsusi ismin hansı cümlə üzvü olduğunu müəyyən edin.
A) tamamlıq B) xəbər C) təyin
D) mübtəda E) zərflik

20. *"Baş vəzir Axsitanı şahlıq taxtının yanına gətirdi"* (M. İsmayılov) nümunəsində xüsusi ismin hansı cümlə olduğunu müəyyən edin.
A) zərflik B) mübtəda C) təyin
D) tamamlıq E) xəbər

21. Cümlələrdən birində isim ***yoxdur:***
A) Sözü düz olanın özü də düz olar.
B) Xəstə sınıq şöbəsinə müraciət etdi.
C) Yaxşını yamandan seçmək lazımdır.
D) Yaxşı iş üz ağardar.
E) Görüntü aldadıcı da ola bilir.

22. Cümlələrdən birində isim ***yoxdur:***
A) Qəhrəmanlar unudulmurlar.
B) Yaxşılığa yaxşılıq hər kişinin işidir.
C) Yamanlığa yaxşılıq ər kişinin işidir.
D) Çalış öz xalqının işinə yara.
E) Ən böyük biclik düzlükdür.

23. Verilən qrammatik şəkilçilər ismə hansı ardıcıllıqla artırılır?
1. hal 2. cəm 3. mənsubiyyət
A) 3, 1, 2 B) 2, 1, 3 C) 1, 3, 2
D) 2, 3, 1 E) 1, 2, 3

24. Verilənlərdən hansı nəticə ola ***bilməz***?

Səbəb	***Nəticə***
İsim sifətin xüsusiyyətini daşıyır.	.....

A) Morfoloji cəhətdən isim olaraq qalır.
B) Sifətin suallarına cavab verir
C) Başqa bir sözə aid olub onun təyininə çevrilir.
D) Cümlədə xitab kimi işlənə bilmir.
E) Dərəcə əlaməti qazanır.

25. Sual işarəsinin yerində yazıla bilər:



A) fədakar B) gözəllik C) əliaçıqlıq
D) dağıntı E) fikirlər

26. *"Təyyarə görəndə biz uşaq kimi sevinərdik"* cümləsindəki isimlərin xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Hər ikisi ümumi isimdir.
B) Hər ikisi adlıq haldadır.
C) Hər ikisi konkret isimdir.
D) Hər ikisi quruluşca sadədir.
E) Birinci isim feillə bağlıdır.

27. *"Düşüncə"* isminin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Feildən düzələn isimdir.
B) Düzəltmədir.
C) Mücərrəd mənalıdır.
D) Tərkibində bir şəkilçi var.
E) Sözün kökü "düş" feilidir.

28. *"Məktəblilərimizdəndir"* sözündə qrammatik şəkilçilər hansı ardıcıllıqla verilmişdir?
A) hal, kəmiyyət, mənsubiyyət, xəbərlik(şəxs) şəkilçisi
B) kəmiyyət, mənsubiyyət, hal, xəbərlik(şəxs) şəkilçisi
C) xəbərlik(şəxs), kəmiyyət, hal, mənsubiyyət şəkilçisi
D) mənsubiyyət, hal, kəmiyyət, xəbərlik(şəxs) şəkilçisi
E) kəmiyyət, xəbərlik(şəxs), hal, mənsubiyyət şəkilçisi

29. Biri ümumi qrammatik mənasına görə digərlərindən fərqlənir:
A) ütülü B) tozlu C) günəşli
D) kəndli E) üzrlü

30. Biri ümumi qrammatik mənasına görə digərlərindən fərqlənir:
A) hünərli B) maraqlı C) görkəmli
D) məktəbli E) ürəkli

31. Altından xətt çəkilmiş şəkilçilərin növlərini işlənmə ardıcıllığı ilə müəyyənləşdirin.
Düzdə zəmi qalxır, evdə səməni,
Süfrəsi qonaqlı baharım mənim. (İsgəndər Coşqun)
A) xəbərlik, mənsubiyyət, hal
B) hal, hal, mənsubiyyət
C) mənsubiyyət, hal, hal
D) mənsubiyyət, mənsubiyyət, hal
E) mənsubiyyət, xəbərlik, mənsubiyyət

32. Altından xətt çəkilmiş şəkilçilərin növlərini işlənmə ardıcıllığı ilə müəyyənləşdirin.
Ələsgərəm, şad olmadım dünyada
Səni gördüm dərdim oldu ziyada. (Aşıq Ələsgər)
A) xəbərlik, hal, mənsubiyyət
B) mənsubiyyət, şəxs, mənsubiyyət
C) hal, şəxs, mənsubiyyət
D) hal, zaman, mənsubiyyət
E) mənsubiyyət, zaman, hal

33. *"Elin gücü – selin gücü"* cümləsində buraxılmış şəkilçinin adı nədir?
A) xəbərlik (şəxs) B) zaman C) hal
D) cəm E) mənsubiyyət

34. *"Sən də onlardan biri"* cümləsində buraxılmış şəkilçinin adı nədir?
A) cəm B) zaman C) hal
D) xəbərlik (şəxs) E) mənsubiyyət

35. Nümunədə altından xətt çəkilmiş sözlərlə bağlı ***səhvi*** müəyyənləşdirin.
Yar gülü <u>telə</u> bağlar,
<u>Kəmərin</u> belə bağlar.
A) Hər ikisi sadə isimdir.
B) Biri yönlük, biri adlıq haldadır.
C) Hər ikisi konkret isimdir.
D) Biri mənsubiyyət şəkilçisi ilə işlənib.
E) Hər ikisi təkdədir.

36. Nümunədə altından xətt çəkilmiş sözlərlə bağlı ***səhvi*** müəyyən edin.
Mərmər <u>abidələr</u>, tökmə heykəllər
<u>Bəzəkdir</u> hər böyük, kiçik şəhərə. (S. Vurğun)
A) Hər iki sözün kökü isimdir.
B) Birinci cəm, ikinci isə tək isimdir.
C) Hər ikisi adlıq haldadır.
D) Hər ikisi ümumi isimdir.
E) Biri sadə, digəri isə düzəltmədir.

37. *"Gələn bəzirgandı, gedən xocadı"* (Xəstə Qasım) nümunəsində ümumi isimlər hansı şəkilçi ilə işlənmişdir?
A) zaman şəkilçisi B) xəbərlik şəkilçisi
C) hal şəkilçisi D) mənsubiyyət şəkilçisi
E) leksik şəkilçi

38. Xüsusi isim hansı şəkilçi ilə işlənmişdir?
Ələsgərdi mənim adım,
Aləmi yandırır odum.
(Aşıq Ələsgər)
A) zaman şəkilçisi B) xəbərlik şəkilçisi
C) mənsubiyyət şəkilçisi D) leksik şəkilçi
E) hal şəkilçisi

39. *"Sənin əkinin"* söz birləşməsində *"-in"* şəkilçiləri hansı bənddə düzgün izah olunub?
A) I – hal şəkilçisi, II – mənsubiyyət, III – şəxs sonluğu
B) I – mənsubiyyət, II – feildən isim düzəldən şəkilçi, III – hal şəkilçisi
C) I – hal şəkilçisi, II – mənsubiyyət, III – feildən isim düzəldən şəkilçi
D) I – hal şəkilçisi, II – feildən isim düzəldən şəkilçi, III – mənsubiyyət şəkilçisi
E) I – feildən isim düzəldən şəkilçi, II – hal şəkilçisi, III – mənsubiyyət şəkilçisi

40. Sonu samitlə bitən isimlərdə təsirlik hal şəkilçisi hansı qrammatik şəkilçi ilə formaca oxşardır?
A) felin qayıdış növünün şəkilçisi ilə
B) yiyəlik hal şəkilçisi ilə
C) III şəxs xəbərlik şəkilçisi ilə
D) gələcək zaman şəkilçisi ilə
E) III şəxs tək mənsubiyyət şəkilçisi ilə

41. Sonu samitlə bitən isimlərdə yiyəlik hal şəkilçisi hansı qrammatik şəkilçi ilə formaca oxşardır?
A) III şəxs tək mənsubiyyət şəkilçisi ilə
B) yönlük hal şəkilçisi ilə
C) təsirlik hal şəkilçisi ilə
D) II şəxs tək mənsubiyyət şəkilçisi ilə
E) indiki zaman şəkilçisi ilə

42. İsimlərdə şəkilçi ardıcıllığı baxımından ***uyğunsuzluğu*** müəyyən edin.
A) yönlük hal + xəbərlik şəkilçisi
B) cəm şəkilçisi + mənsubiyyət şəkilçisi
C) təsirlik hal + xəbərlik şəkilçisi
D) mənsubiyyət şəkilçisi + yiyəlik hal
E) yiyəlik hal + xəbərlik şəkilçisi

43. İsimlərdə şəkilçi ardıcıllığı baxımından uyğunluğu müəyyən edin.
A) təsirlik hal + xəbərlik şəkilçisi
B) mənsubiyyət şəkilçisi + cəm şəkilçisi
C) xəbərlik şəkilçisi + çıxışlıq hal
D) yönlük hal + mənsubiyyət şəkilçisi
E) yiyəlik hal + xəbərlik şəkilçisi

44. Qeyri-müəyyən yiyəlik halda olan söz hansı nitq hissəsindən düzəlmişdir?
Gözəllik duyğusu ucaldır hər kəsi,
Duyub düşünməyə çağırır bizi.
A) sifətdən B) isimdən C) zərfdən
D) feildən E) əvəzlikdən

45. Hansı cümlədə altından xətt çəkilmiş söz isim ***deyil***?
A) Mənim <u>dünənkilərdən</u> xəbərim yoxdur.
B) Atası uşağa <u>yun</u> əlcək almışdı.
C) <u>Torpaq</u> yol qəsəbəyə qədər uzanırdı.
D) Biz <u>dəmir</u> borularla kəndimizə su çəkmişdik.
E) Onun <u>gözəlliyi</u> hamını valeh edirdi.

46. Üzərində rəqəm yazılmış sözlərlə bağlı doğru fikirdir:
Gülüşündə güllər açdı könlümüz,
Gözəl dünya, gözəllərin var olsun!
Vurğunu da, yorğunu da biz olduq,
Gözəl dünya gözəllərin var olsun!
A) 3 isimdir, saitlə başlanan hal şəkilçi artırıldığına görə son saitini itirmişdir.
B) Hamısı ad bildirmir.
C) 4 və 5 təsirlik hal şəkilçisi qəbul etmiş mücərrəd mənalı isimlərdir.
D) 2 konkret isimdir, təsirlik haldadır.
E) 1 isimdən düzəlmiş, mənsubiyyət şəkilçisi qəbul etmiş isimdir.

47. İsmə aid bütün qrammatik şəkilçiləri qəbul edə ***bilməyən*** sözləri müəyyənləşdirin.
A) qızıl, gümüş B) ilxı, naxır
C) kitabxana, insan D) ayaqqabı, günəbaxan
E) dəmirçilik, əhali

48. *"Əmim bağçada bir neçə armud ağacı əkmişdi"* cümləsindəki isimlərlə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Mənsubiyyət şəkilçili isimlər quruluşca sadədir.
B) Eyni halda olan isim yoxdur.
C) Hal şəkilçili iki isim var.
D) Qeyri-müəyyən yiyəlik halda işlənən söz vardır.
E) Adlıq halda olan isim mənsubiyyət şəkilçisi ilə işlənmişdir.

49. Hansı fikirlə klasteri tamamlamaq ***olmaz***?

İsim
- Cümlənin bütün üzvü ola bilir
- Əsasən, mübtəda və tamamlıq olur

A) Təsirlik halda olan isimlər bütün qrammatik şəkilçiləri qəbul etmir.
B) İsimlərə artırılan qrammatik şəkilçilər müəyyən ardıcıllıqla artırılmalıdır.
C) Mürəkkəb isimlər bitişik, defislə və ayrı yazıla bilər.
D) İnsan anlayışı bildirən isimlər nə? sualına da cavab verə bilər.
E) Düzəltmə isimlər adlardan və feillərdən düzəlir.

50. Hansı nümunədə ayrı-ayrılıqda ismin cəm, hal, mənsubiyyət və xəbərlik şəkilçilərini qəbul etmiş sözlər vardır?
A) İnsandır məhəbbətin sevinci, qəmi,
Anadır yaraları, atadır məlhəmi. (Sədi)
B) Dünyada ən gözəl şah əsərləri
Yaratdı zəhmətin cəsur əlləri. (M. Şəhriyar)
C) Bəxtiyarsan, əgər çəkdiyin əmək
Cahan bağçasına versə bir çiçək. (H. Cavid)
D) Ağıllı adamlar, yaxşı adamlar!
Bilik kitabdadır, axtarsan əgər.(Ə. Cami)
E) Bəli, inan ki sən, ölümüm belə,
Coşqun nəğmələrdə qərar tutacaq! (M. Cəlil)

51. Nümunədəki isimlərlə bağlı ***səhvi*** müəyyən edin.
Azadlıq səhərini həsrət ilə anmısan,
İstiqlal vuruşunda ocaq olub yanmısan,
Üçrəngli bayrağını qanınla qazanmısan.
Yaşa, ey Vətən oğlu, bu torpaq üçün yaşa,
Bu millət üçün yaşa, bu torpaq üçün yaşa.
(Zəlimxan Yaqub)
A) Dördüncü misradakı ismin biri yiyəlik, ikisi adlıq haldadır.
B) Birinci misradakı isimlərin biri yiyəlik, biri təsirlik, digəri adlıq haldadır.
C) Üçüncü misradakı isimlərin biri təsirlik, digəri yiyəlik haldadır.
D) İkinci misradakı isimlərin biri yiyəlik, biri yerlik haldadır.
E) Beşinci misradakı isimlərin hər ikisi də adlıq haldadır.

52. Nümunədəki isimlərlə bağlı ***səhvi*** müəyyən edin.
Ovçu, insaf elə, keçmə bu düzdən,
O çöllər qızını ayırma bizdən.
Qoyma, ağrı keçə ürəyimizdən,
Qıyma, öz qanına boyana ceyran,
Nə gözəl yaraşır Muğana ceyran. (S. Vurğun)
A) Beşinci misradakı isimlərdən biri yönlük, digəri adlıq haldadır.
B) Birinci misradakı isimlərdən biri adlıq, digəri çıxışlıq haldadır.
C) İkinci misradakı isimlərdən biri yiyəlik, digəri təsirlik haldadır.
D) Dördüncü misradakı isimlərdən biri yönlük, digəri adlıq haldadır.
E) Üçüncü misradakı isimlərdən biri adlıq, digəri yerlik haldadır.

53. Nümunədəki isimlərlə bağlı ***səhvi*** müəyyən edin.
Coşan qəlbin hər kinini, hər nifrətini
Gen dərələr, uca dağlar duya bilərmi?
Əli qanlı bir dünyanın cinayətini
Yağan yağış, axan sular yuya bilərmi? (N. Xəzri)
A) İsimlərin biri düzəltmədir.
B) Nümunədə mənsubiyyət şəkilçili üç isim həm də hal şəkilçisi qəbul edib.
C) Üçüncü misradakı isimlərdən ikisi təsirlik, biri yiyəlik haldadır.
D) İkinci misradakı isimlər adlıq haldadır.
E) Birinci misradakı isimlərin biri yiyəlik, ikisi təsirlik haldadır.

54. Nümunədəki isimlərin xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
Çayların başında süzən sonalar,
Qəlbi dağlar kimi böyük analar
Mənim qismətimə düşmüş azəldən,
Tarixlər zövq alır yaradan əldən. (S. Vurğun)
A) Üçüncü misrada mənsubiyyət şəkilçili söz yönlük haldadır.
B) Birinci misradakı isimlərdən biri adlıq, biri yiyəlik, digəri yerlik haldadır.
C) Nümunədə işlənən bütün isimlər sadədir.
D) Nümunədə mənsubiyyət şəkilçili iki isim həm də hal şəkilçisi qəbul etmişdir.
E) İkinci misradakı isimlərdən biri təsirlik, ikisi adlıq haldadır.

55. *"Hər gün mənə "sabahımsan" deyərdin,*
Dünəninəm, daha məni gözləmə".
Altından xətt çəkilmiş sözlər haqqında hansı fikir ***səhvdir***?
A) Həm sadə, həm də düzəltmə olanı var.
B) Biri təsirlik halda işlənib.
C) Biri yönlük halda işlənib.
D) İkisi müxtəlif şəxsə aid mənsubiyyət şəkilçisi qəbul edib.
E) İkisinin tərkibində xəbərlik şəkilçisi işlənib.

CamScanner ile skan edilib

56. ***Səhv*** fikri müəyyənləşdirin.
A) İsimlərin hamısı cəm şəkilçisi qəbul edə bilmir.
B) Adlıq və təsirlik halda olan söz ismə məxsus bütün qrammatik şəkilçiləri eyni zamanda qəbul edə bilmir.
C) İsmin bütün halları qoşmalarla işlənə bilmir.
D) İsimlər müxtəlif nitq hissələrindən düzələ bilər.
E) Adlıq halda olan söz cümlədə yalnız mübtəda və ismi xəbər vəzifəsində çıxış edir.

57. Cümlələrin birində feildən düzələn isim təsirlik haldadır:
A) Direktorun yeni tapşırığı onu narahat edirdi.
B) Məktəbimizdə xalq yazıçısı ilə görüş keçirildi.
C) Günorta poçt işçisi evə bir bağlama gətirdi.
D) Sahədə çalışan xeyli əkinçi gördük.
E) Qırıcıları havaya qaldırmaq vaxtı çatmışdı.

58. "*Güllünün inadkarlığı*" birləşməsindəki əsas tərəflə bağlı düzgün fikirləri müəyyənləşdirin.
1. Sifətdən düzəlmişdir.
2. Konkret isimdir.
3. Kökü isimdir.
4. Kök, 3 leksik, 1 qrammatik şəkilçidən ibarətdir .
5. Üçüncü şəxsin təkinin mənsubiyyət şəkilçisi qəbul etmişdir.

59. "*Keçmişdəkilərin günahsızlığı*" birləşməsindəki əsas tərəflə bağlı düzgün fikirləri müəyyən edin.
1. Sifətdən düzəlmişdir.
2. ⊓∧∧∧⌒ sxeminə uyğundur.
3. Mücərrəd mənalı, ümumi isimdir.
4. Kökü isimdir.
5. Təsirlik hal şəkilçisi qəbul etmişdir.

60. Doğru fikirləri müəyyən edin.
1. Tərkibində təsirlik halda söz işlənən cümlə yalnız mübtəda və xəbərdən ibarət ola bilər.
2. İnsan anlayışı bildirən isimlər də cümlədə nə? sualına cavab verə bilər.
3. Yalnız adlıq halda olan isimlər *nə?* sualına cavab verir.
4. Mənsubiyyət şəkilçili söz təyin vəzifəsində işlənə bilir.

61. Üzərində rəqəm yazılmış hansı sözlərdə həm hal, həm də mənsubiyyət şəkilçisi var?
Əyilib uşağın[1] üzündən[2] öpdü. Oğlan da qoltuğacını[3] buraxıb iki əli[4] ilə onun[5] boynunu[6] qucaqladı.

62. *"Şəhər"* isminə şəkilçilər hansı ardıcıllıqla qoşula bilər?
1. -li leksik şəkilçisi
2. Cəm şəkilçisi
3. Mənsubiyyət şəkilçisi
4. Hal şəkilçisi
5. Şəxs şəkilçisi

63. Nümunədəki isimlərə aid ***səhv*** fikirləri müəyyənləşdirin.
Koroğluyam, gəzdiyimi tapardım,
Qayalar <u>başında</u> qala yapardım,
Ağ <u>sürüdən</u> əmlik quzu qapardım,
Yeyib qurdlarınla ulaşım, dağlar. ("Koroğlu" dastanı)
1. Adlıq halda olan isimlərin hamısı xəbər və tamamlıq yerində işlənmişdir.
2. Adlıq halda olan isimlərdən ikisi 4-cü misradadır.
3. İsimlərin hamısında vurğu son hecadadır və onlardan yalnız biri mürəkkəbdir.
4. Altından xətt çəkilmiş isimlərin tərkibində omonim şəkilçi vardır.
5. İsimlərdən ikisi zərflik vəzifəsindədir.

64. Nümunədəki isimlərin xüsusiyyətlərinə aid düzgün fikirləri müəyyənləşdirin.
Koroğluyam, gəzdiyimi tapardım,
Qayalar <u>başında</u> qala yapardım,
Ağ <u>sürüdən</u> əmlik quzu qapardım,
Yeyib qurdlarınla ulaşım, dağlar. ("Koroğlu" dastanı)
1. Adlıq halda olan isimlərin hamısı xəbər və tamamlıq yerində işlənmişdir.
2. Adlıq halda olan isimlərdən ikisi 4-cü misradadır.
3. İsimlərin hamısında vurğu son hecadadır və onlardan yalnız biri mürəkkəbdir.
4. Altından xətt çəkilmiş isimlərin tərkibində omonim şəkilçi vardır.
5. İsimlərdən ikisi zərflik roluna işlənmişdir.

65. Cümlədəki fərqləndirilmiş isimlə bağlı doğru fikirləri müəyyən edin.
<u>Qazıntıları</u> həyata keçirən dəstə oradan uzaqlaşdı.
1. Quruluşca düzəltmədir.
2. Mənsubiyyət şəkilçisi ilə işlənib.
3. Hal şəkilçisi ilə işlənib.
4. Feildən düzəlib.
5. Xüsusi isimdir.

66. Altından xətt çəkilmiş isimlər üçün ortaq ***olmayan*** cəhətləri müəyyənləşdirin.
<u>Qazıntıları</u> həyata keçirən dəstə oradan uzaqlaşdı.
<u>Dağıntıları</u> yaradan səbəbləri aradan qaldırmaq lazımdır.
1. Quruluşca düzəltmədirlər.
2. Mənsubiyyət şəkilçisi ilə işlənib.
3. Hal şəkilçisi ilə işlənib.
4. Feildən düzəlib.
5. Təsriflənməyən feillə əlaqələniblər.
6. Ümumi isimdirlər.

67. Hansı məqamda isimlərdə cəm şəkilçisindən bilavasitə sonra xəbərlik şəkilçisi işlənə bilər?
1. fonetik norma pozulduqda
2. hal şəkilçisi işlənmədikdə
3. mənsubiyyət şəkilçisi işlənmədikdə
4. yalnız I şəxsin xəbərlik şəkilçisi işləndikdə

CamScanner ile skan edilib

68. Düzgün fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*
1. "Kitabın" sözü yerinə görə adlıq və yiyəlik halda olan söz kimi düşünülə bilər.	3. Yiyəlik halda olan söz cümlənin xəbəri ola bilir.
2. İsimdən başqa, digər nitq hissələrinin qrammatik şəkilçisi olmur.	4. Bütün isimlər cəm şəkilçisi qəbul edir.

69. Nümunədəki isimlərlə bağlı düzgün fikirləri müəyyən edin.

Rəssam, sevgilimin rəsmini gəl çək,
Sevgilim gözəldir, sən də gözəl çək.
Nazına gələndə fırçadan əl çək,
Qoy onun nazını mən özüm çəkim... (M.Müşfiq)

1. Altından xətt çəkilmiş söz həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul edib.
2. Bütün misralarda mənsubiyyət şəkliçili söz var.
3. Şeirdə ismin bütün hallarında olan söz var.
4. Birinci misrada adlıq halda olan söz mübtədadır.
5. Çıxışlıaq halda olsan isim yer zərfliyi vəzifəsində işlənib.

70. Nümunədəki isimlərlə bağlı ***səhvləri*** müəyyənləşdirin.

Göyə baxın, dan ulduzu doğanda,
İşıqlanın, nur zülməti boğanda,
Haqqın nuru yağış kimi yağanda
Torpaq olun, ey Allahı sevənlər! (Z. Yaqub)

1. *göyə* - sadə, yönlük halda olan isimdir.
2. *dan, nur* – qeyri-müəyyən yiyəlik halda olan isimlərdir.
3. *ulduzu, nuru* – mənsubiyyət şəkilçili, adlıq halda olan isimlərdir.
4. *yağış* – feildən düzələn düzəltmə isimdir.
5. *zülməti* – adlıq hallı mənsubiyyət şəkilçisi qəbul etmiş isimdir.

71. Uyğunluğu müəyyən edin.

1. isim + cəm şəkilçisi
2. isim + cəm şəkilçisi + yerlik hal şəkilçisi
3. isim + cəm şəkilçisi + şəxs şəkilçisi

a. Zərflik vəzifəsində işlənə bilər.
b. Tamamlıq vəzifəsində işlənə bilər.
c. İsmi xəbər vəzifəsində işlənə bilər.
d. Mübtəda vəzifəsində işlənə bilər.
e. Feili xəbər vəzifəsində işlənə bilər.

72. Uyğunluğu müəyyən edin.

1. Mənsubiyyət şəkilçili iki isim işlənib.
2. Şəxs şəkilçisi qəbul etmiş isim işlənib.
3. Hal şəkilçisi qəbul etmiş iki isim işlənib.

a. İki ildən artıqdır ki, mən mühəndisəm.
b. Kiçik təpəni aşdıqdan sonra kəndə çatdıq.
c. Fikirlərini gənclərə çatdırmaq onun əsas məqsədi idi.
d. Oynamağı hər kəsin alqışına səbəb oldu.
e. Bunu da bilirəm ki, sən yaxşı insansan.

73. Eyler-Venn diaqramına əsasən isimlərlə bağlı uyğunluğu müəyyən edin.



a. Ümumi isimdir.
b. Mücərrəddir.
c. Adlıq halda olduğunu əminliklə söyləmək olar.
d. Qəbul etdiyi şəkilçinin təsirlik hal, yoxsa mənsubiyyət şəkilçisi olduğunu ancaq cümlə və ya birləşmə daxilində müəyyən etmək mümkündür.
e. Söz kökünün ikinci hecasındakı sait düşmüşdür.

74. Eyler-Venn diaqramına əsasən isimlərlə bağlı uyğun bəndləri müəyyən edin.



a. Ümumi isimdir.
b. Qəbul etdiyi şəkilçinin hal, yoxsa mənsubiyyət şəkilçisi olduğunu ancaq birləşmə və ya cümlə daxilində müəyyən etmək mümkündür.
c. Yerinə görə düzəltmə söz hesab etmək olar.
d. Ancaq isim kimi düşünülə bilər.
e. Söz kökünün ikinci hecasındakı sait düşmüşdür.

75. Verilən isimlərlə bağlı uyğunluğu müəyyən edin.

1. çiyni
2. fikri

a. Saitlə başlanan hal və ya mənsubiyyət şəkilçisi qəbul etdiyi üçün ikinci hecasındakı saitini itirmiş söz kimi düşünülə bilər.
b. III şəxsin mənsubiyyət şəkilçisi qəbul etdiyini əminliklə söyləmək olar.
c. Məqamına görə sifət kimi də işlənə bilir.
d. Yalnız adlıq halda olan söz kimi düşünmək olar.
e. Quruluşca düzəltmə isim kimi düşünmək olar.

76. Verilmiş isimlərlə bağlı uyğunluğu müəyyən edin.

1. zehni
2. boynu

a. Saitlə başlanan hal və ya mənsubiyyət şəkilçisi qəbul etdiyi üçün ikinci hecasındakı saitini itirmiş söz kimi düşünülə bilər.
b. III şəxsin mənsubiyyət şəkilçisi qəbul etdiyini əminliklə söyləmək olar.
c. Yalnız adlıq halda olan söz kimi düşünmək olar.
d. Məqamına görə sifət kimi də işlənə bilər.

CamScanner ile skan edilib

Sifət

Sifət və onun quruluşca növləri

1. Biri düzəltmə sifətdir:
A) ictimai B) sivri C) dağınıq
D) irsi E) didərgin

2. Biri mürəkkəb sifət ***deyil***:
A) ağzıbağlı B) enişli-yoxuşlu
C) gəlimli-gedimli D) tələm-tələsik
E) gözüqıpıq

3. Birində sifət işlənmişdir:
A) O, əyninə dəri palto geyinmişdi.
B) Maşınımız torpaq yolla hərəkət edirdi.
C) Pəncərədən küçəyə gur işıq yayılırdı.
D) Gümüş kəmər ona yaraşırdı.
E) Ana yun şalı çiyninə saldı.

4. Birində sifət ***işlənməmişdir***?
A) Həyatın çətin anları da çox olur.
B) Hər təzə binanın pəncərəsindən
Yolları bəzəyən işıq süzülür.
C) Həyatda maraqlı hadisələr çoxdur.
D) Düzgünlük əsl insani keyfiyyətlərdəndir.
E) O, dəri çəkmələrini silib-parıldatdı.

5. Hansı sifət düzəltmə ***deyil***?
A) rəngli B) açıqürəkli C) böyük
D) savadlı E) uçuq

6. Feildən düzələn sifəti müəyyən edin.
A) böyük B) yağış C) tapşırıq
D) qurğu E) səpki

7. Feildən düzələn sifəti müəyyən edin.
A) basqın B) sürgün C) yaraq
D) yanğın E) sürüşkən

8. Düzəltmə sifətlərdən birinin kökü zərfdir:
A) dünənki B) cəfakeş C) uçuq
D) qarışıq E) dağlıq

9. Düzəltmə sifətlərdən birinin kökü zərfdir:
A) əzik B) yorğun C) sürətli
D) əvvəlki E) zarafatcıl

10. İki düzəltmə sifətin köməyi ilə əmələ gələn mürəkkəb sifəti müəyyən edin.
A) irili-xırdalı B) istiqanlı C) ikimərtəbəli
D) sözübütöv E) hazırcavab

11. İki düzəltmə sifətdən yaranan mürəkkəb sifəti müəyyən edin.
A) şirin-şirin B) sınıqqəlbli C) istiqanlı
D) üçtelli E) stolüstü

12. Sadə say və düzəltmə sifətin köməyi ilə əmələ gələn mürəkkəb sifəti müəyyən edin.
A) şirindil B) ucaboylu C) qanıqara
D) acgöz E) üçrəngli

13. Sadə say və düzəltmə sifətin köməyi ilə əmələ gələn mürəkkəb sifəti müəyyən edin.
A) alnıaçıq B) açıqürəkli C) dəliqanlı
D) gözütox E) üçbucaqlı

14. Cümlələrdən birində sifət məcazi mənada işlənib:
A) Ağ çiçək dostluq əlamətidir.
B) Tərləyəndə soyuq su içmək ziyandır.
C) Qara qoç Məlikməmmədi oradan uzaqlaşdırdı.
("Məlikməmməd" nağılı)
D) Ətrafda gözəl bir mənzərə yaranmışdı.
E) Dərin fikirlərə qərq olmuş yazıq
Dincəlmək istəyir burda azacıq. (S. Vurğun)

15. Birləşmələrdən birində sifət məcazi mənada işlənib:
A) dərin quyu B) şirin çörək
C) iti bıçaq D) soyuq münasibət
E) dolu vedrə

16. Birləşmələrdən birində sifət məcazi mənada işlənib:
A) şirin söhbət B) şirin nar C) sərin su
D) ağır zənbil E) dolu çanta

17. Sözlərdən biri düzəltmə sifət ***deyil***:
A) tibbi (yardım) B) elmi (əsər)
C) riyazi (qabiliyyət) D) badamı (gözlər)
E) gümüşü (saç)

18. Sinonim sifətlərin cərgəsini müəyyən edin.
A) hündür, böyük, enli
B) maraqlı, məzəli, bədii
C) qəmli, qüssəli, kədərli
D) sevimli, hörmətli, bilikli
E) düşünən, fikirləşən, bilən

19. Hansı birləşmənin birinci tərəfi sifət ***deyil***?
A) sınıq körpü B) möhkəm divar
C) gümüş qaşıq D) ağıllı məsləhət
E) zoğalı rəng

20. Antonim sifətlərin cərgəsini müəyyən edin.
1. acgöz-gözütox, xəstə-sağlam
2. möhkəm-bərk, güzgü-ayna
3. yaşlı-qoca, nazik-incə
4. qoca-cavan, isti-soyuq
5. yaşıl-qara, böyük-kiçik
A) 1, 3 B) 2, 4 C) 3, 5 D) 1, 4 E) 2, 5

21. İsimdən düzəlmiş sifətlərdən ibarət cərgəni müəyyən edin.
A) qırıq, kəsik, əzik
B) yağsız, duzlu, söhbətcil
C) gərgin, satqın, əzgin
D) kəsici, qurucu, üzücü
E) qorxulu, gözəllik, rəsmi

22. Mürəkkəb sifətlərdən biri mənsubiyyət şəkilçisinin köməyi ilə düzəlmişdir:
A) bölük-bölük B) təkhecalı C) uzunsaçlı
D) hazırcavab E) şəhərlərarası

23. Mürəkkəb sifətlərdən biri mənsubiyyət şəkilçisinin köməyi ilə düzəlmişdir:
A) həyatsevər B) girdəsifət C) sözübütöv
D) çoxsaylı E) gülərüz

24. Bu sifətlərdən biri ümumi məna qrupundan kənara çıxır:
A) bənövşəyi B) sürməyi C) armudu
D) şabalıdı E) innabı

25. Quruluşca sadə sifətlərdən ibarət cərgəni müəyyən edin.
A) əzik, uçuq, bulaşıq B) ürkək, parlaq, çürük
C) incik, dolaşıq, qarışıq D) titrək, soyuq, solğun
E) qıvraq, seyrək, kövrək

26. Düzəltmə sifətlərdən birinin kökü zərfdir:
A) əzik B) yorğun C) küləkli
D) bayaqkı E) zarafatcıl

27. "*-i*" şəkilçisi hansı cümlədə sifət düzəltmişdir?
A) *Vətəni* sevməyən insan olmaz.
B) Qorxudan *əlləri* əsir, *dili* söz tutmurdu.
C) Bu əhvalatın *tarixi* çox qədimdir.
D) *Tarixi* abidələrimizi qorumaq hamımızın borcudur.
E) *Tarixi* saxtalaşdırmaq düşmən işidir.

28. Hansı cərgə feildən düzələn sifətlərdən ibarətdir?
A) yanğın, sürgün, basqın
B) azğın, durğun, bitkin C) ilkin, qırğın, yorğun
D) silgi, sərgi, vurğu E) bilik, tapşırıq, yanıq

29. Hansı cərgədəki sifətlər quruluşca sadədir?
A) kəsik, dairəvi, xurmayı
B) böyük, tibbi, kütləvi
C) soyuq, elmi, sıravi
D) sınıq, xarici, badamı
E) yumşaq, bədii, mədəni

30. Hansı nümunədə altından xətt çəkilmiş söz sifət *deyil*?
A) gümüş qolbaq B) sərt xasiyyət
C) qoca kişi D) cavan oğlan
E) məcazi məna

31. Feildən düzələn sifətləri müəyyən edin.
A) danışan, baxdığım, yazılmış
B) deyiləcək, görəcəyim, alınası
C) yaşıllıq, gözəllik, dirilik
D) qabaqcıl, təmizlik, bəyaz
E) əzgin, sönük, qızdırıcı

32. Düzəltmə sözlərin təkrarı ilə əmələ gələn mürəkkəb sifətləri müəyyən edin.
A) uzun-uzadı (söhbət), əyri-üyrü (yol)
B) xırda-xırda (cücələr), dəstə-dəstə (uşaqlar)
C) şirin-şirin (meyvələr), uzun-uzun (yollar)
D) böyük-böyük (binalar), dadlı-dadlı (meyvələr)
E) sərin-sərin (bulaqlar), kələ-kötür (cığır)

33. Feildən düzəlmiş sifətlər cərgəsini müəyyən edin.
A) güləyən, azğın, coşqun
B) baxılan, danışılan, soyuqlamış
C) tutqunlaşmış, keçici, görüləcək
D) baxılası, küsəyən, görülən
E) yazılası, sürüşkən, gecikmiş

34. Düzəltmə sifətlər cərgəsini müəyyən edin.
A) gülən, üstüörtülü, böyük
B) dəcəl, pinti, xoşbəxt
C) zülmət, dilişirin, qaragöz
D) seyrək, gödək, lovğa
E) söhbətcil, küsəyən, çalışqan

35. Nümunələrdən biri isimdən düzələn sifət ***deyil***:
A) şərti B) insani C) otsuz
D) qəhvəyi E) yandırıcı

36. Düzəltmə sifətləri müəyyən edin.
A) oxuyan, deyən B) inqilabi, meşəlik
C) ütülü, otsuz D) zəhmətkeşlik, evdarlıq
E) oxumalı, aldığı

37. İsimdən düzələn sifətlər cərgəsini müəyyən edin.
A) qaçağan, düzgün, bitkin
B) kəsik, qaldırıcı, vurğun
C) elmsiz, işcil, haşiyəli
D) çalışqan, üzgün, oynağan
E) sınıq, tutqun, itkin

38. Düzəltmə sifətlərdən ibarət cərgə hansıdır?
A) ütülü, duzlu, gümüşü
B) balaca, öldürücü, dəcəl
C) bərkdən, uzunluq, sakit
D) közərən, daşlı, yaddaş
E) daşqın, sözsüz, avara

39. Feildən düzələn sifətlərin verildiyi cərgəni müəyyən edin.
A) kiçik, zəngin, dünənki, qabaqcıl
B) zarafatcıl, rəngli, mənəvi, əqli
C) məzmunsuz, duyğusuz, küçədəki, mənzərəli
D) bitkin, çalışqan, sönük, yorucu
E) saf, təmizkar, əxlaqlı, bəyaz

40. Cərgələrin birində yalnız isimdən düzələn sifətlər verilmişdir:
A) dünənki, qabaqcıl, kəskin
B) işıqlı, sözsüz, qorxunc
C) balaca, öldürücü, normal
D) ənənəvi, qayğılı, gümüşü
E) ağlağan, buruq, düzgün

41. İsimdən düzələn sifətlər cərgəsini müəyyən edin.
A) duzlu, zarafatcıl, simsiz
B) solğun, əzik, sulu
C) evdar, qırıcı, uçuq
D) təmiz, çalışqan, maraqlı
E) qabaqcıl, ötkün, sönük

CamScanner ile skan edilib

42. İsimlə sifətin köməyi ilə düzələn mürəkkəb sifətlər cərgəsini müəyyən edin.
A) tünd-mavi, elmi-fantastik
B) ala-yarımçıq, yaşıl-qırmızı
C) dilişirin, qəlbitəmiz
D) çoxmərtəbəli, xoşqədəm
E) qaraqaş, şirindilli

43. Feildən düzələn sifətləri müəyyən edin.
A) mehriban, hündür, geniş
B) təmiz, işıqlı, soyuq
C) böyük, həvəskar, çoxlu
D) azğın, yandırıcı, bitkin
E) kiçik, uca, naxışlı

44. Sifətlərdən biri düzəltmə ***deyil***:
A) qiyabi B) əxlaqi C) tərbiyəvi
D) bildirki E) qabaqcıl

45. Sifətlərdən biri düzəltmə ***deyil***:
A) xarici B) ani C) çəhrayı
D) kütləvi E) şərti

46. Bunlardan birinin kökü sifətdir:
A) qurğu B) qurutmaq C) qurucu
D) quruluq E) qurum

47. Bunlardan birinin kökü sifətdir:
A) düzgün B) düzəlmək C) düzülüş
D) düzüm E) düzdürmək

48. Biri qrammatik mənasına görə digərlərindən fərqlidir:
A) yekəxana B) çayxana C) kitabxana
D) xəstəxana E) yeməkxana

49. Biri ümumi qrammatik mənasına görə digərlərindən fərqlidir:
A) soydaş B) yaddaş C) əməkdaş
D) sirdaş E) çağdaş

50. Biri qrammatik mənasına görə digərlərindən fərqlidir:
A) kəndli B) yerli C) şəhərli
D) Həsənli E) məktəbli

51. Hansı cümlədə iki düzəltmə sifət işlənmişdir?
A) Böyüklər kiçiklərə qayğı göstərməlidirlər.
B) Elmi mübahisələrdə dəqiq olmaq lazımdır.
C) Yamanlığa yaxşılıq nər kişinin işidir.
D) Eyvandakı qız yanıqlı səslə oxuyurdu.
E) Gənclik fədakarlıq göstərməyə qadirdir.

52. Hansı cümlədə iki düzəltmə sifət işlənmişdir?
A) Ucaboylu oğlan cəsarətlə çıxış etdi.
B) Eyvandakı rəngbərəng güllər göz oxşayırdı.
C) Dağüstü parkda çoxlu adam var idi.
D) Evlərindəki qədimi əşyalar babasından qalma idi.
E) Bu gün gənclər həmişəkindən daha qayğılı görünürdülər.

53. Cümlələrin birində *"düz"* sözü sifətdir:
A) Murad maşını *düz* evin qarşısında saxladı.
B) *Düz* söz söyləməyi sevərdi.
C) Əyri oturaq, *düz* danışaq.
D) Yenə əlvan don geyinib
Mil *düzü*, Muğan *düzü*...
E) Stolun üstünə təzə qablardan *düz*.

54. Hansı cümlə ancaq sifətlərdən ibarətdir?
A) Həmin körpələr qocaların sevimlisidir.
B) Cəsarət, şücaət igidlərə xasdır.
C) Kəndimizdəki gümrah qocalar indiki cavanlardan işgüzardırlar.
D) Sərin sulu bulaqlardakı şəffaflıq buradakı əsrarəngiz gözəlliyi artırır.
E) Tünd-yaşıl zolaqlı pərdələrin hamısı keyfiyyətli idi.

55. Nitq hissələrinə aidlik baxımından sxemi tamamlayan bilən sözü müəyyən edin.



A) minik B) buruq C) hörük
D) bilik E) vuruq

56. Sxemə uyğun olan bəndi müəyyən edin.

A) böyüklü-kiçikli, irili-xırdalı, ağlı-qaralı
B) üçtelli, istiqanlı, açıqürəkli
C) dilucu, bayramsayağı, üzüsulu
D) güllü-çiçəkli, gözəl-göyçək, bağlı-bağçalı
E) bəstəboy, göygöz, şirindil

57. Sxemə uyğun olan bəndi müəyyən edin.



A) dördbucaqlı, üçtelli, beşguşəli
B) gözübağlı, ürəyəyatan, əməksevər
C) ikimərtəbə, beşillik, seçkiqabağı
D) dikbaş, kəsiksaç, xoşrəftar
E) uzaqgörən, sözükeçən, şəfaverici

CamScanner ile skan edilib

58. Cümlələrdən birində sadə və mürəkkəb sifət var:
A) Sonanın təzə, güllü donu var.
B) Duzlu xörəyi heç kəs yemədi.
C) Stolüstü lampa yanırdı.
D) Qarışıq mallar mağazanın içərisinə dolduruldu.
E) Ağsaçlı qadın yumşaq kresloda oturdu.

59. Cümlələrdən birində düzəltmə və mürəkkəb sifət var:
A) Qayğıkeş ana kələ-kötür yolda uşağını qucağından yerə qoymurdu.
B) Üzügülər və mehriban nənəmi çox sevirəm.
C) Məktəblərarası yarış başlandı.
D) Qupquru budaqlar doğranır, balaca həyət təmizlənirdi.
E) Qızılgülün xoş ətri otağa dolurdu.

60. İki düzəltmə sifətin köməyi ilə yaranan mürəkkəb sifətlər cərgəsini müəyyən edin.
A) rayonlararası, stolüstü, uzunsaçlı
B) bölük-bölük, üçtelli, qaradinməz
C) açıqqəlbli, soyuqqanlı, böyükürəkli
D) çoxhecalı, qaradinməz, əyri-üyrü
E) istiqanlı, sərin-sərin, hazırcavab

61. Sözlərdən biri isimdən düzələn sifətdir:
A) uçuq B) vurğulu C) qarışıq
D) döyüşkən E) düzgün

62. İki sadə sözün köməyi ilə əmələ gələn sifət:
A) sınıqqəlbli B) acıdil C) dadlı-dadlı
D) qəlbisınıq E) ağlı-qaralı

63. I tərəfi mənsubiyyət şəkilçili isim, II tərəfi düzəltmə sifətdən ibarət olan mürəkkəb sifətlər cərgəsini müəyyən edin.
A) bığburma, qolugüclü, gözüaçıq
B) burmasaçlı, arzuolunmaz, açıqürəkli
C) ağzıbütöv, gözüqıpıq, sarıdonlu
D) açıqürəkli, dilişirin, əlçatmaz
E) çoxmərtəbəli, şəfaverici, sinəsidağlı

64. "*Ürəyiaçıq*" mürəkkəb sifətinin tərkib hissələrini müəyyən edin.
A) mənsubiyyət şəkilçili isim və sadə sifət
B) təsirlik hal şəkilçili isim və düzəltmə sifət
C) mənsubiyyət şəkilçili isim və düzəltmə sifət
D) təsirlik hal şəkilçili isim və sadə sifət
E) mənsubiyyət şəkilçili isim və düzəltmə zərf

65. Hansı cümlədə iki düzəltmə sifət işlənmişdir?
A) Soyuq və tənəli baxışlarla məni süzdü.
B) Yamanlığa yaxşılıq nər kişinin işidir.
C) Böyüklər kiçiklərə qayğı göstərməlidirlər.
D) Elmi mübahisələrdə dəqiq olmaq lazımdır.
E) Gənclik fədakarlıq göstərməyə qadirdir.

66. Sözlərdən hansılar feildən düzələn sifətlərdir?
1. duyğu 2. kəskin 3. qarışıq
4. seçki 5. duzlu 6. düzgün
7. sürüşkən
A) 1, 5, 6 B) 2, 3, 6, 7 C) 1, 3, 7
D) 2, 4, 5, 7 E) 3, 4, 5

67. Sifətlərdən biri keyfiyyət bildirir:
A) innabı B) zoğalı C) qəhvəyi
D) narıncı E) qayğıkeş

68. Sifətlərdən biri keyfiyyət bildirir:
A) sürməyi B) palıdı C) gümüşü
D) innabı E) möhkəm

69. "*-i*" şəkilçisi hansı cümlədə sifət düzəltmişdir?
A) Yaxşını qoyub *pisi* danışmaq günahdır.
B) Ürəkdən sevirik *şeiri, sənəti.*
C) *İşləri* vaxtında təhvil vermək lazım idi.
D) Sizin sözünüzün *kəsəri* azdır.
E) Bu əsər *tarixi* hadisələri əks etdirir.

70. Düzəltmə sifət işlənmiş cümləni müəyyənləşdirin.
A) Yaxşılıq insanın əsl keyfiyyəti olmalıdır.
B) Hamı içəridəkilərdən yeni xəbər gözləyirdi.
C) O sənin haqqında yaxşı danışırdı.
D) Qala uzaqdan daha aydın görünürdü.
E) Gəzməli yerlərimiz çoxdur.

71. Düzəltmə sifət işlənmiş cümləni müəyyənləşdirin.
A) Gözəllik ondur, doqquzu dondur.
B) Qonaqlar dünənkilərdən danışırdılar.
C) Tarixilik bu əsərin əsas xüsusiyyətidir.
D) Xeyirxahlıq savabdır.
E) Hamıdan doğru danışmaq tələb olunur.

72. Düzəltmə sifət işlənmiş cümləni müəyyənləşdirin.
A) Yetişmiş meyvələri səbətə yığdılar.
B) Qocalara hörmət et, sən də qocalacaqsan.
C) Xalqımız hər zaman əzabkeşlərə qayğı göstərib.
D) Bədbinlik uğursuzluğa yol açır.
E) Onun xoşbəxtliyinə hamı həsəd aparırdı.

73. Düzəltmə sifət işlənmiş cümləni müəyyənləşdirin.
A) Mühəndis Kamal idarəyə daxil oldu.
B) Qaldırdıqları məsələlər hamının ürəyincə oldu.
C) Dünyanı gözəllik xilas edəcək.
D) Yağış küçədəkiləri evlərə dönməyə məcbur etdi.
E) O, əməksevər olduğu kimi həm də istiqanlı adamdır.

74. Düzəltmə sifət işlənmiş cümləni müəyyənləşdirin.
A) Asifin atası ucaboylu adamdır.
B) Görüləcək işlər müəyyənləşdirildi.
C) Yaxşılıq insanın əsas keyfiyyəti olmalıdır.
D) Evdəkilər qonaqların gələcəyini bilmirdilər.
E) İnsanı düzlük hər zaman uca edir.

75. Düzəltmə sifət işlənmiş cümləni müəyyənləşdirin.
A) Məktəblilər yarışa hazırlaşırdılar.
B) Vəziyyət indi çox gərgin idi.
C) Yıxılan ağaca balta vuran çox olar.
D) Kərim təəccüblə gələnlərə baxdı.
E) İstiqanlı adama hamı hörmət edir.

Cəfərov İlqar Sabir oğlu

76. Hansı cümlələrdə ardıcıl olaraq sadə, düzəltmə və mürəkkəb sifətlər işlənib?

1. Meydanın o biri tərəfində ağ kəlağayılı xanım-xatın qadınlar oturmuşdular.
2. Qiymətli paltarlar geyinmiş iki yüz atlının başında bir qırmızı libaslı şəxs gəlirdi.
3. Gənc əlindəki rəngbərəng çiçəklərdən hörülmüş çələngi Əsliyə bağışladı.
4. Yaşıl çəmənə xalı kimi sərilmiş qıpqırmızı lalələr göz oxşayırdı.
5. O, sakit görkəmi, yorğun çöhrəsi ilə qaradinməz adam təsiri bağışlayırdı.

A) 2, 3, 5 B) 1, 2, 4 C) 2, 4, 5
D) 1, 3, 5 E) 1, 3, 4

77. Hansı cümlələrdə ardıcıl olaraq sadə, düzəltmə və mürəkkəb sifətlərdən istifadə olunub?

1. İgid bir dəfə ölər, qorxaq min dəfə.
2. Gənc qız iyrənc qurbağanın yanında yaşanacaq qəm-qüssəli həyatını düşünürdü.
3. Köhnə, uçuq, birmərtəbəli binanın sakinləri mənzillərini tərk etmək istəmirdilər.
4. Ağıllı və zəhmətkeş insan həyatın nəbzini tutmağı bacarır.
5. Babasının mülayim, qayğıkeş rəftarı, duzlu-məzəli söhbətləri Əlini daha çox cəlb edirdi.

A) 2, 3, 5 B) 1, 3, 5 C) 1, 2, 4
D) 1, 4, 5 E) 2, 3, 4

78. Sifətlərin düzgün izahına əsasən uyğunluğu müəyyənləşdirin.

nikbin	formanın həmahəngliyi, müntəzəmliyi, ifadəliliyi ilə əlaqədar olan
novator	həyatdan razı, ümidli, gələcəyə inanan, gələcəyi yaxşı görən
plastik	yeni, mütərəqqi fikirlər, üsullar irəli sürən və həyata keçirən adam

A) B) C)

D) E)

79. Hansı misralarda düzəltmə sifət işlənmişdir?

Dövranın gərdişi belədir, belə
Bu dünya əzəldən yaman dünyadı.
Güclünü qaldırar çiyinlərinə,
Gücsüzü çiynindən atan dünyadı. (B. Vahabzadə)

A) I, II B) II, III C) II, IV
D) I, III E) III, IV

80. Hansı sırada feildən düzəlmiş sifətlər verilmişdir?

A) qırıq, sınıq, soyuq
B) qaçaq, döşək, dayaq
C) oxunan, görüləcək, keçmiş
D) yazılmış, süzgün, sevinc
E) gəncləş, ölgün, vurğun

81. Cümlələrin birində *-i* isimdən sifət düzəldən şəkilçi *deyil*:

A) Səlim şəhərə mülki paltarda gəlmişdi.
B) Qətran Təbrizi klassik Azərbaycan şairidir.
C) Bu, tarixi bir gündür.
D) O, bir neçə elmi əsər yazmışdır.
E) Əsər inqilabi ruhda yazılmışdır.

82. Cümlələrin birində *-i* isimdən sifət düzəldən şəkilçidir:

A) Əsərin *əhəmiyyəti* böyükdür.
B) *Kimi* soruşduğunu dedi.
C) "Nadir şah" əsəri ədəbiyyatımızda ilk *tarixi* faciədir.
D) *Səni* gördüm, əl götürdüm dünyadan.
(Aşıq Ələsgər)
E) Axşamüstü qoy uzaqdan
Havalansın Xanın *səsi*,
Qarabağın şikəstəsi! (S. Vurğun)

83. Hansı cümlələrdə həm sadə, həm də düzəltmə sifət vardır?

1. Bəlkə, ... onun böyük, rəsmi məclislərə çıxmaq üçün üzü yoxdur?
2. Çiçəklərin,
Böcəklərin
Adlarını yazır alim
Ölü dildə.
3. Mən azadam, mən xoşbəxtəm,
Deyir natiq yad dilində.
4. Elə bil ki güzgü kimi hamar, şəffaf royalın var, dili yoxdur.
5. Hansı dilə ölü deyək?
– Kiçik, yoxsul komalarda
dustaq olan bir diləmi? (X.R. Ulutürk)

A) 1, 3, 4 B) 1, 5 C) 1, 2, 3 D) 2, 3, 4 E) 4, 5

84. Hansı nümunələrdə həm sadə, həm də düzəltmə sifət vardır?

1. Uzaq üfüqlərə göz gəzdirməkdən
Az qala kor oldum, ey dan ulduzu! (C. Cabbarlı)
2. Bülbültək sevmişəm qönçə çağını,
Almalı, heyvalı bağça-bağını. (M. Məhzun)
3. Fitnə törətmə, ey fitnəkar cavan,
Fitnədir elləri dərdlərə salan. (Ə. Xaqani)
4. Körpələr heç zaman anası olmadan yatmaz.
5. Suda rəngli bir yağış!
Yağırdı qızıl yağış, yağırdı gümüş yağış,
Qara yağış, boz yağış ... (Ə. Kərim)

A) 1, 2, 5 B) 2, 4 C) 3, 5 D) 1, 4, 5 E) 3, 4

Camscanner ilə skan edilib

85. Hansı nümunədə altından xətt çəkilmiş ifadə əşyanın əlamətini bildirən sözdür?
1. Gözəl görünmək çoxlarının arzusu idi.
2. Mahnını yenə bu gözəl oxudu.
3. Buralar gözəllər yurdu hesab olunur.
4. Atın gözəl yerişi hamının diqqətini cəlb etdi.
5. Gözəl danışanlar dəyərincə qiymətləndirildi.

86. Feildən düzələn sifətləri müəyyən edin.
1. qorxaq 2. döşək 3. parlaq
4. qoruq 5. dirək 6. ürkək

87. İsimdən düzələn sifətləri müəyyən edin:
1. əhatəli 2. zarafatcıl 3. yaxşılıq
4. namərd 5. badamı 6. gözəllik

88. Hansılar sifətdir?
1. məlum 2. saxsı 3. dolğun
4. işlənmiş 5. dəqiq 6. tez

89. Sifətləri müəyyən edin.
1. xüsusi 2. nəfs 3. ictimai
4. yaxşılıq 5. ibtidai 6. sevinc

90. Mürəkkəb sifətin işləndiyi cümlələri müəyyənləşdirin.
1. Bizim qəsəbəmiz əvvəllər bomboz olan bir yerdə yerləşmişdir.
2. Çoxmərtəbəli hündür binaların damları dümağ qarla örtülmüşdü.
3. Pəncərəyə açıq-mavi tüldən pərdə tutulmuşdu.
4. Dumduru suyun üzündə xırda balıqlar aydınca görünürdü.
5. Yolun kənarı tünd-qırmızı rəngdə elektrik lampaları ilə bəzədilmişdi.

91. Hansı nümunələrdə həm sadə, həm də düzəltmə sifət işlənmişdir?
1. Bu kiçik binada dörd-beş məktəbli yaşayırdı.
2. Cəlilin döşündəki kiçik ulduz enli sinəsinə çox yaraşırdı.
3. Sonrakı peşmançılıq fayda verməz.
4. Azğın düşmən öz mənfur əməllərindən əl çəkmək istəmirdi.
5. Sonsuz boşluqlara qədər baş alıb gedən meşəyə baxdıqca qoca palıdın ürəyi dağa dönürdü.(İ. Şıxlı)
6. Qışın şaxtalı günlərindən biri idi.

92. Hansı nümunələrdə həm sadə, həm də düzəltmə sifət işlənmişdir?
1. Onların evi çox mənzərəli alçaq təpənin üstündə idi.
2. Gecənin yarısı qəribə bir gurultu onu yuxudan oyatdı.
3. Ortadakı lampa ətrafa zəif işıq saçır, buxarıdakı odunlar yanaraq evə xoş bir istilik yayırdı.
4. Bugünkü sərgiyə kütləvi baxış keçirildi.
5. Onun qıvrım və şabalıdı saçları çöhrəsinə gözəllik verirdi.
6. O, çayı ancaq armudu stəkanda içməyə adət etmişdi.

93. Feildən düzələn sifətlərin işləndiyi cümlələri müəyyən edin.
1. Atın məni tank altına
Qundaqdakı bir körpəni xilas edim... (M. Araz)
2. Qara geyimli qadın diqqəti daha çox cəlb edirdi.
3. İnsan insan kimi daha böyükdür,
Baş əyir, and içir ana torpağa (M. Araz).
4. Gözümüz götürmür doğma qardaşı
Bizdə başqasına bir həsəd də yox...
5. Dumanlıdı boz şəhərin toz çalmalı qalası
Sənli evdə könül yaram tez sağalır, çox sağ ol!
(A. Laçınlı)

94. İsimdən düzələn sifətlərin işləndiyi cümlələri müəyyən edin.
1. Həqiqət ölüdür, yalan dipdiri
Əyrilik işləyib qana, iliyə. (B. Vahabzadə)
2. Al-yaşıl geyinmiş uca dağların,
Qartallı qoynundan uzaqlaşmışam. (S. Vurğun)
3. İnsan insan kimi daha böyükdür,
Baş əyir, and içir ana torpağa. (M. Araz)
4. Gözümüz götürmür doğma qardaşı
Bizdə başqasına bir həsəd də yox...
5. Dumanlıdı boz şəhərin toz çalmalı qalası
Sənli evdə könül yaram tez sağalır, çox sağ ol!
(A. Laçınlı)

95. Həm düzəltmə, həm də mürəkkəb sifət işlənmiş cümlələri müəyyən edin.
1. Biz qarlı-çovğunlu bir qış axşamı kənddəki evimizə baş çəkdik.
2. Evin qabağındakı qollu-budaqlı yasəmən ağacında bir quş yuva qurmuşdu.
3. Yolun kənarındakı çeşmədən dumduru su axırdı.
4. Səmada topa-topa ağ buludlar ayın donuq işığı altında yuxuya dalmışdı.
5. Günəş gömgöy səmanın sonsuzluğu içində aram-aram yüksəlirdi.
6. Daşlı-kəsəkli yolun kənarında kiçik təpələr gözə dəyirdi.

96. Həm sadə, həm də düzəltmə sifətin işləndiyi cümlələri müəyyən edin.
1. Yorğun bir halda meşənin ortasındakı kiçik talaya gəlib çıxdı.
2. Dağınıq düşüncələr böyük işləri görməyə mane olur.
3. Belə miskin görkəmlə səni sevməzlər.
4. Möhtəşəm Bakı gecələrini dalğalı Xəzər daha da gözəlləşdirir.
5. Yeni salınmış parkda əlvan çiçəklər göz oxşayırdı.
6. Bayramqabağı özünə kostyum almış, olduqca səliqəli geyinmişdi.

Qaraçuxa nəşriyyatı

97. Hansı cümlələrdə sadə, düzəltmə, mürəkkəb sifətlərin ardıcıllığı var?
1. Gənc qadın unlu əllərini silə-silə xoşbəxt təbəssümlə bizi içəri dəvət etdi.
2. Bu gün göylər daha mavi, axışan buludlar sirli-sehrli idi.
3. İsti günlərdə yoluxucu xəstəliklərdən bu şəfaverici otlarla müalicə olunurlar.
4. Yumşaq döşəkçəyə dirsəklənib səmadakı tala-tala buludları seyr edirdi.
5. Dəmir darvazanın girəcəyində əli silahlı şişpapaq keşikçilər gəzişirdilər.

98. Kökü feil olan, lakin feildən ***düzəlməyən*** sifətlər hansı cümlələrdədir?
1. Axtardığımız məlumatı internetdə tapa bildik.
2. Gecikənlər ikinci sıraya düzülsünlər.
3. Döyüşdəki igidliyinə görə onu mükafatlandırdılar.
4. Əmim qorxulu nağılları böyük həvəslə danışırdı.
5. Aramızda satqınlara yer yoxdur.

99. Kökü feil olan, lakin feildən ***düzəlməyən*** sifətlər hansı cümlələrdədir?
1. Bacarıqsız sərkərdə ordunu irəli apara bilməz.
2. İçəridə gərgin mübahisə gedirdi.
3. Sıxıntılı günlərimiz artıq arxada qaldı.
4. İşləməyən dəzgahları yağlamaq lazımdır.
5. Yaşar yorğunluqdan ayağa qalxa bilmədi.

Sifətin müqayisə dərəcələri

1. Azaltma dərəcəsində olan sifət hansıdır?
A) açıq-aşkar B) gömgöy C) sapsarı
D) uzunsov E) meydança

2. Çoxaltma dərəcəsində olan sifət hansıdır?
A) dosdoğma B) tünd çay C) açıq-sarı
D) çoxmərtəbəli E) ağtəhər

3. Hansı sifət azaltma dərəcəsindədir?
A) tünd-qara B) dümdüz C) kiçik
D) qupquru E) sarımtıl

4. Adi dərəcədə olan sifəti müəyyən edin.
A) enli B) sarımtıl C) dəlisov
D) tünd-yaşıl E) xırdaca

5. Azaltma dərəcəsində olan sifəti müəyyən edin.
A) bapbalaca B) dümdüz C) dəlisov
D) ağappaq E) gömgöy

6. Adi dərəcədə olan sifəti müəyyən edin.
A) yamyaşıl B) açıq-qırmızı C) sapsarı
D) dümağ E) gözəl

7. Hansı cümlədəki sifət çoxaltma dərəcəsindədir?
A) Çoxmərtəbəli hündür binaların damları qarla örtülmüşdü.
B) Xəfif duman sezilirdi.
C) Göyün üzü tərtəmiz və buludsuz idi.
D) Dəlisov uşaqlıq çağları uzaqda qalmışdı.
E) O, əyninə açıq-sarı rəngli köynək geymişdi.

8. Hansı cümlələrdəki sifət çoxaltma dərəcəsindədir?
1. Günəşli gündüzlər sizə yar olsun.
2. Bu il yaz tez gəldiyindən ağaclar yamyaşıl yarpaqlarla örtülmüşdür.
3. Günəşin sarımtıl şəfəqləri yumşaq-yumşaq yer üzünə tökülürdü.
4. Sabah ömründə ən əziz bir gün olmalı idi.
5. Talış dağlarını örtən qalın meşələri yaşıl yarpaqla örtmüşdü.
A) 3, 5 B) 1, 3 C) 1, 2 D) 2, 4 E) 4, 5

9. Azaltma dərəcəsində olan sifət işlənmiş cümləni müəyyən edin.
A) Arabir havaya atılan fişənglər sarımtıl işıq saçırdı.
B) Dişləri həmişə ağappaq və təmiz olardı.
C) Gölün sahilində bir bağça var.
D) Meydança zəif işıqlandırılmışdı.
E) Dumduru suyu olan göldə xırdaca balıqlar üzürdü.

10. Hansı cümlədəki sifət azaltma dərəcəsindədir?
A) O, qısaca bir nitq söylədi.
B) Qarşıda yaşıl geyinmiş uca dağlar görünürdü.
C) Otaq o qədər də təmiz deyildi.
D) Hənifə açıq-qırmızı paltarını geydi.
E) Onun dümağ paltarı var.

11. Azaltma dərəcəsində olan sifətləri müəyyən edin.
A) qırmızı, ağımtraq, bapbalaca
B) balaca, nazik, kövrək
C) ağılsız, yağsız, açıq-qara
D) uzunsov, göyümtül, açıq-sarı
E) qısa, arıq, qırmızımtıl

12. Çoxaltma dərəcəli sifətlərin sırasını müəyyən edin.
A) gömgöy, qapqara, açıq-sarı
B) ağappaq, tərtəmiz, yaxşıca
C) sapsarı, yaşıl, bozumtul
D) uzunsov, ağımtraq, qırmızımtıl
E) dümağ, yamyaşıl, ağımtıl

13. Azaltma dərəcəsində olan sifətləri müəyyən edin.
A) bolluca, tünd-yaşıl, göyümtül
B) uzunsov, sarımtıl, qırmızımtraq
C) kiçik, cavan, körpə
D) şirintəhər, qapqara, sarımtıl
E) lap gözəl, daha yaxşı, qıpqırmızı

14. Hansı sözlər sifətin çoxaltma dərəcəsindədir?
A) qoca, qarışıq
B) uzun, uca
C) yekəpər, hündürboy
D) gödəkcə, meydança
E) bapbalaca, kiçikcə

Camscanner ilə skan edilib

15. Hansı ədatlar sifətin çoxaltma dərəcəsinin yaranmasında iştirak edir?
A) ən, lap, daha
B) ən, lap, məhz
C) yalnız, ancaq, təkcə
D) məgər, yəni, bəs
E) lap, daha, elə

16. Ardıcıllığı tamamlayın.



A) ağımtıl
B) möhkəm
C) xırdaca
D) açıq-yaşıl
E) sapsarı

17. Hər üçü azaltma dərəcəsində olan sifətdir:
A) qırmızı, ağımtraq, şirintəhər
B) açıq-sarı, nazik, kövrək
C) ağılsız, yağsız, açıq-qara
D) sarışın, ağımsov, göyümtül
E) daha qısa, lap arıq, ağımtıl

18. Hər üçü azaltma dərəcəsində olan sifətdir:
A) kiçik, cavan, körpə
B) bolluca, tünd-yaşıl, uzunsov
C) göyümtül, qaraşın, sarımtraq
D) şirintəhər, qapqara, sarımtıl
E) lap gözəl, daha yaxşı, qıpqırmızı

19. Cümlələrdən birində sifətin dərəcələrinin hər üçünə aid nümunə var:
A) Kiçik səhv böyük planları, ən ümdə arzuları məhv edə bilər.
B) Sərin bulaqlar, yamyaşıl meşələr, gur şəlalələr turistlərin diqqətini bu bölgəyə yönəltmişdi.
C) Həyətyanı sahədəki gözəl, rəngbərəng güllər, çiçəklər insanı valeh edirdi.
D) Lampanın zəif, sarımtıl işığında hərfləri aydın görmək çətin idi.
E) Şərqiyyə xanımın qara gözləri, qıpqırmızı yanaqları, sarımtıl saçları var idi.

20. Cümlələrdən birində sifətin dərəcələrinin üçünə də aid nümunə var:
A) Olduqca qəzəbli olan ayı bu balaca qızın dalınca qəzəblə qaçırdı.
B) Qapqara üzüm, sarı limon və qırmızımtıl almaları çox sevirdik.
C) İri, zorba palıd ağacı da, kiçik fidanlar da həyətə xüsusi gözəllik verirdi.
D) Dadlı meyvələr, cürbəcür salatlar, milli mətbəximiz, ən tanınmış müğənnilər qonaqları razı salmışdı.
E) Meşəli dağlarla əhatə olunmuş bu balaca rayon turistləri valeh edirdi.

21. Əsasən, adi dərəcədə işlənən sifətləri müəyyən edin.
1. dünənki
2. doğma
3. illik
4. çiy
5. yarımçıq
6. tibbi
A) 1, 3, 6
B) 2, 4, 5
C) 1, 3, 4, 5
D) 1, 2, 4, 6
E) 2, 5, 6

22. Müqayisə dərəcələrinə görə cümlədəki sifətlərin sayını müəyyən edin.
"Xəstə açıq pəncərədən otağa dolan gül ətirli sərin havanı acgözlüklə ciyərlərinə çəkdi, gözlərini ağappaq tavana zilləyib xəyala daldı".
A) 2 adi, 1 azaltma
B) 3 adi, 1 azaltma
C) 4 adi, 1 çoxaltma
D) 3 adi, 2 çoxaltma
E) 2 adi, 2 çoxaltma

23. Verilmiş nümunələrdəki sifətin dərəcələrinin işlənmə ardıcıllığını müəyyən edin.
• Üfüqlə birləşmiş kimi görünən dağların başı üstündə qara buludlar dolaşırdı.
• O, dümdüz yolda yeriməsinə baxmayaraq daşlar ayağının altından qaçır, ayağı sürüşürdü.
• Kürün bozumtul suları qabarır, ləpələr sahili döyəcləyirdi.
1. adi dərəcə
2. azaltma dərəcəsi
3. çoxaltma dərəcəsi

24. Azaltma dərəcəsində olan sifətləri müəyyən edin.
1. qarayanız
2. qaraşın
3. lap qara
4. çox maraqlı
5. möhtəşəm

Sifətin isim kimi işlənə bilməsi. Sifətlərin yazılışı

1. Hansı cümlədə sifət ismin xüsusiyyətlərini daşıyır?
A) Atam nikbin adamdır.
B) Ağıllı oyunçu uduzmaz.
C) Körpə bizə baxıb gülümsəyirdi.
D) Doğru söz acı olar.
E) Ehtiyatlı insan ac qalmaz.

2. İsmin xüsusiyyətini daşıyan sifət hansı cümlədə işlənmişdir?
A) Qoca kişi sakitcə oturmuşdu.
B) Çoxdan çox pay düşər, azdan az.
C) Yıxılana balta çalan çox olar.
D) Böyüklərə hörmət hamının borcudur.
E) Cavan müğənni zil səslə oxuyurdu.

CamScanner ile skan edilib

3. Hansı cümlədə sifət ismin xüsusiyyətini daşıyır?
A) Yaxşı adam yaxşı işlər görər.
B) İgid ölər, adı qalar.
C) İgid əsgərlər mühasirəni yardılar.
D) Gənc oğlan köməyə gəldi.
E) İsti külək adamın üzünü yandırırdı.

4. İsmin xüsusiyyətlərini daşıyan sifət hansı cümlədə işlənmişdir?
A) Su kiçiyindir, yol böyüyün.
B) Gözəl günlərimiz hələ öndədir.
C) Pis əməldən uzaq ol.
D) Ağbirçək qadın qəmli baxışlarla onu süzdü.
E) Cavan oğlan bu sözlərdən bərk sarsıldı.

5. Sifət hansı cümlədə ismin xüsusiyyətlərini daşıyır?
A) Qənirə bugünkü libasda daha gözəl görünürdü.
B) Məmməd bəy dəmir dəbilqəni başından götürdü.
C) Bu gözəl qız qoşunun sərkərdəsi imiş.
D) O, əvvəlki əməllərinə görə xəcalət çəkirdi.
E) Gözəl görünər, çirkin bürünər.

6. Cümlələrdən birində sifət ismin xüsusiyyətini daşıyır:
A) Kiçik uşaqlar gəzməyi çox sevirlər.
B) O lap qoca kişilər kimi danışırdı.
C) Yaşlı professor içəri daxil oldu.
D) Novruz bayramında bütün küsülülər barışırlar.
E) İgid əsgərlər mərdliklə vuruşurlar.

7. Cümlələrin birində sifət ismin xüsusiyyətini daşıyır:
A) Söylədiklərin doğru olmalıdır.
B) Allah dürüstlərin daimi yardımçısıdır.
C) Ən böyük ərdəm düzlükdür.
D) Düzlük yaxşılığa aparır.
E) Həyat insanları tərbiyə edib doğru yola yönəldir.

8. Hansı cümlədə ismin xüsusiyyətlərini daşıyan sifət işlənmişdir?
A) Yaxşı iş üz ağardar.
B) O, əsəbi halda cavab verirdi.
C) Xəstə baş həkimin sözünü diqqətlə dinləyirdi.
D) Soyuq havada isti çay adama ləzzət verir.
E) Cavan oğlan dostlarını görüb sevindi.

9. Cümlələrdən birində "*özgə*" sözü ismin xüsusiyyətlərini daşıyır:
A) Kəndə özgə bir adamın gəlməsindən söhbət gedirdi.
B) Zəhmətdən özgə bir vərdişim yoxdur.
C) Ananın bu xalçadan özgə bir şeyə gümanı gəlmirdi.
D) Özgələri torpağımızdan qov, əsgər!
E) Özgə adamın kölgəsinə sığınma.

10. ***Səhv*** yazılmış sifəti müəyyən edin.
A) süzgün B) küsgün C) əzgin
D) solğun E) kəskin

11. Hansı sifətin yazılışında ***səhvə*** yol verilib?
A) yaxşıca B) yaşılımtıl C) açıqsarı
D) gödərək E) göyümtül

12. Sifətlərdən birinin yazılışında ***səhvə*** yol verilmişdir:
A) tünd-qırmızı B) ala-yarımçıq C) açıq-sarı
D) kəmşirin E) qara-təhər

13. Sifətlərdən birinin yazılışı ***səhvdir***:
A) yaşıl-təhər B) ala-seyrək C) əkiz
D) əşyəvi E) açıq-qara

14. "*Qorxaq*" sifəti hansı cümlədə ismin xüsusiyyətlərini daşıyır?
A) Səngəri qoyub qaçanlar qorxaq düşmənlər idi.
B) Bəlkə, bundan da qorxaq?
C) Qorxaq dost adamı darda qoyar.
D) Cəmil uşaqlıqdan qorxaqdır.
E) İgid bir dəfə, qorxaq isə min dəfə ölər.

15. Cümlənin birində sifət ismin xüsusiyyətlərini daşıyır:
A) Buludlu səma idi onun dalğın baxışı.
B) Bütün həvəskarları bu dərnəyə toplamalıyıq.
C) Zəhmətkeş babalarımız Novruzda əkin-biçin işlərinə ciddi hazırlaşmışlar.
D) Gənc müğənni həvəslə oxuyurdu.
E) Yalan söz üz qızardar.

16. Hansı cümlədə sifət ismin xüsusiyyətlərini daşıyır?
A) Ağı qaradan seçməyin vaxtı çatıb.
B) Dünyagörmüş, qoca və mahir bir ovçu uşaqlara şirin nağıllar danışırdı.
C) Bağçanın ağ çiçəkləri nəzəri cəlb edirdi.
D) Gecədən düşmüş şeh ağappaq pambıq kolları üzərində gümüşü rəngə çalırdı.
E) Avtobus irəlilədikcə uca, yaraşıqlı binalar arxada qalırdı.

17. Hansı cümlədə ismin xüsusiyyətlərini daşıyan sifət tamamlıq vəzifəsindədir?
A) Onun hərəkəti zaldakıları təəccübləndirdi.
B) Könüllülər sabah yola düşəcəklər.
C) Bağdakı səliqə-sahman göz oxşayırdı.
D) Qalib gələnlər bizim igidlərdir.
E) Alışqan stolun üstündədir.

18. İsmin xüsusiyyətlərini daşıyan sifət haqqındakı fikirlərdən biri ***səhvdir***:
A) İsmin suallarına cavab verir.
B) Cəm şəkilçisi qəbul edir.
C) Hallana bilir.
D) Əşya və ya şəxs bildirir.
E) Cümlədə təyin olur.

19. Hansı cümlələrdə ismin xüsusiyyətlərini daşıyan sifət işlənib?
1. Su kiçiyin, yol böyüyündür.
2. Mərdi qova-qova namərd etməzlər.
3. Mərd oğulun qəhrin çəkər mərd ana.
4. Namərdi özümə mən dost eylədim...
5. Cavan oğlan irəliyə baxırdı.
A) 2, 4, 5 B) 1, 2, 4 C) 1, 3, 5
D) 1, 2, 3 E) 1, 4, 5

20. Sifət ismin xüsusiyyətlərini daşıyarkən özünü göstərən əlamətlərdən biri ***yanlışdır***:
A) Hallanır.
B) Mənsubiyyətə görə dəyişir.
C) Cümlədə mübtəda, tamamlıq olur.
D) Cəmlənir.
E) *Necə? nə cür? hansı?* suallarından birinə cavab verir.

21. Cərgələrdən birindəki sifətlərin hamısının yazılışı ***səhvdir***:
A) çökük, əzik, solğun
B) əzgin, uçuq, böyük
C) süzgün, vurğun, bölük
D) kəsgin, sürüşgən, itgin
E) dəstxətt, gicitgən, giçkah

Sifətin morfoloji xüsusiyyətləri. Sifətin cümlədə rolu

1. Biri sifətin xüsusiyyəti ***deyil***?
A) Cümlədə təyin və xəbər vəzifəsində işlənmək.
B) Müqayisə dərəcələrinə malik olmaq.
C) Hallanmaq.
D) *Necə? nə cür? hansı?* suallarından birinə cavab vermək.
E) Əşyanın əlamətini bildirmək.

2. Hansı cümlədə altından xətt çəkilmiş söz sifətdir?
A) <u>Qumral</u> saçları ona xüsusi yaraşıq verirdi.
B) O, <u>duz</u> mədənində işləyir.
C) <u>Polad</u> borulara neft vuruldu.
D) Kənddə <u>daş</u> binalar çoxdur.
E) Uşağa <u>dəri</u> çanta aldım.

3. Cümlələrdən birində sifətə yalnız *hansı*? sualını vermək olar:
A) Yaxşı şagird yaxşı oxuyar.
B) Bacarıqlı uşağı hamı sevir.
C) Yalan söz üz qızardar.
D) Bu çox maraqlı əsərdir.
E) Sabahkı görüşdə sənə də söz veriləcək.

4. Hansı fikir ***səhvdir***?
A) Sifətin azaltma dərəcəsini əmələ gətirmək üçün "açıq" sözündən də istifadə edilir.
B) "Xırdaca" sözü azaltma dərəcəsindədir.
C) Sifət cümlənin xəbəri kimi işlənə bilir.
D) Feildən sifət düzəltmək olur.
E) İşlənmə yerinə görə sifət saya oxşayır.

5. "*Afaq məsuliyyətli və çalışqan idi*" cümləsində sifətlər hansı cümlə üzvü kimi işlənmişdir?
A) mübtəda B) xəbər C) təyin
D) tamamlıq E) zərflik

6. "*Nəriman ürəyiaçıq və səmimidir*" cümləsindəki sifətlər hansı cümlə üzvü kimi işlənmişdir?
A) mübtəda B) xəbər C) təyin
D) tamamlıq E) zərflik

7. "*Ürəyiaçıq adam*" birləşməsindəki I sözün izahına aid ***səhvi*** müəyyən edin.
A) İki düzəltmə sözün köməyi ilə yaranıb.
B) Mürəkkəbdir.
C) *Necə? nə cür?* suallarından birinə cavab verir.
D) Keyfiyyət bildirir.
E) İkinci tərəfi feildən düzəlmişdir.

8. "*Gözütox adam*" birləşməsindəki I sözün izahına aid ***səhvi*** müəyyən edin.
A) Birinci tərəfi təsirlik hal şəkilçili isimdir.
B) Mürəkkəb sifətdir.
C) *Necə? nə cür?* suallarından birinə cavab verir.
D) Keyfiyyət bildirir.
E) İkinci tərəfi sadə sözdür.

9. "*Bağçadakı güllər*" birləşməsindəki I sözün izahına aid ***səhvi*** müəyyənləşdirin.
A) İsimdən düzələn sifətdir.
B) Üç leksik şəkilçi qəbul edib.
C) *Hansı?* sualına cavab verir.
D) Düzəltmə sifətdir.
E) "*Bağ*" sözün köküdür.

10. "*Çoxdankı hadisə*" birləşməsində I tərəfin izahına aid ***səhvi*** müəyyən edin.
A) Düzəltmə sifətdir.
B) Saydan düzəlib.
C) *Hansı?* sualına cavab verir.
D) Adi dərəcədədir.
E) İki leksik şəkilçi qəbul edib.

11. "*Bu, <u>dünənki</u> söhbətin davamıdır*" nümunəsində altından xətt çəkilmiş sözün qrammatik təhlili ilə bağlı fikirlərdən biri ***səhvdir***:
A) Zaman zərfidir.
B) ⌐⌐^ sxeminə uyğundur.
C) İsmə aiddir.
D) Sintaktik vəzifəsi təyindir.
E) *Hansı?* sualına cavab verir.

12. "*Ağırtərpənişli*" sifətinin xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Birinci tərəfi sadə sifətdir.
B) İkinci tərəfi feildən düzəlmiş sifətdir.
C) Müxtəlif mənalı sözlərin köməyi ilə əmələ gəlmişdir.
D) *Tələsmədən iş görən* adam mənasında işlənir.
E) Adi dərəcədədir.

13. Hansı cərgədə sifət təyin vəzifəsində işlənmişdir?
A) Zaldakılar sakit oturmuşdular.
B) O daha bacarıqlıdır.
C) Xainləri heç kim bağışlamaz.
D) Asif savadlı tələbədir.
E) Biz fədakarlarla fəxr edirik.

CamScanner ile skan edilib

14. Sifətin aşağıda göstərilən cəhətlərindən biri saya aid edilə ***bilməz***:
A) cümlədə, əsasən, təyin olması
B) isimdən əvvəl işlənməsi
C) ismə aid şəkilçilər qəbul etməsi
D) isimlə bağlı olması
E) isimlərdən və feillərdən düzəlməsi

15. Sifətlərin cümlədəki rolunu müəyyən edin.
Xeyirxah əməllər, nəcib işlər heç vaxt unudulmaz.
A) mübtəda
B) təyin, tamamlıq
C) tamamlıq
D) mübtəda, tamamlıq
E) təyin

16. "*Gözütox adamdan xoşum gəlir*" cümləsində sifətlə bağlı ***səhvi*** müəyyənləşdirin.
A) Mənasına görə keyfiyyət bildirən sifətdir.
B) Birinci tərəfi mənsubiyyət şəkilçili isim, ikinci tərəfi sadə sifətdir.
C) Bir düzəltmə, bir sadə sözün köməyi ilə əmələ gəlmişdir.
D) İki müxtəlif mənalı sözün birləşməsindən əmələ gəlib.
E) Quruluşuna görə mürəkkəbdir.

17. Cümlələrin birində sadə sifət xəbər vəzifəsindədir:
A) Bu yollar kələ-kötürdür.
B) Havalar soyuqdur.
C) Mən sənin qələbə çalmağına şadam.
D) O xeyirxahdır.
E) Bu kitab çox maraqlıdır.

18. Cümlələrin birində düzəltmə sifət xəbər vəzifəsindədir:
A) Bu məsələdə sən haqlısan.
B) Həyat gündən-günə gözəlləşir.
C) Bu gün hava çox yaxşıdır.
D) Dediklərin doğrudur.
E) Bu görüş rəsmidir.

19. Hansı cümlədə sifət təyin vəzifəsindədir?
A) Döyüşçülər cəsarətlə hücuma keçdilər.
B) Oğlanın üzü, əlləri qapqara, saçı isə qıvrım idi.
C) O necə də polad biləklidir.
D) Ortalığa gümüşü camlarda şərbət gətirdilər.
E) Aşpaz taxta qaşıqları şaqqıldada-şaqqıldada oxumağa başladı.

20. Hansı cümlədə sifət təyin vəzifəsindədir?
A) Ehtiyat igidin yaraşığıdır. (Atalar sözü)
B) Çox soyuq su içmək xəstəliyə səbəb ola bilər.
C) Məktəbli qız çox hazırcavab idi.
D) Ədibin yeni romanı tarixi mövzuya həsr olunmuşdur.
E) Yamanlar yaxşını həmişə danır.

21. "*Daxili təmizlik və vicdani saflıq insan üçün böyük vüqardır*" cümləsində işarələnmiş sözlərlə bağlı ***səhvi*** müəyyənləşdirin.
A) Hər ikisi düzəltmədir.
B) Hər ikisi sifətdir.
C) Hər ikisi isimdən düzəlmişdir.
D) Hər ikisi adi dərəcədədir.
E) Hər ikisi ismə aiddir.

22. Nümunədəki sifətlər haqqında verilənlərdən biri ***yanlışdır***:
Od kimi istiqanlı, seltək dəliqanlıyam.
Həyat qədər qədiməm
Torpaq qədər şanlıyam (B. Vahabzadə)
A) Quruluşca sadə, düzəltmə və mürəkkəbdir.
B) Hamısı xəbər vəzifəsindədir.
C) I misradakı sifətlər sinonimdir.
D) Hamısı keyfiyyət bildirir.
E) Hamısı adi dərəcədədir.

23. Sifət haqqında verilənlərdən biri doğrudur:
A) "Kiçik", "körpə" sözləri azaltma dərəcəsindədir.
B) Çoxaltma dərəcəsində "tünd" sözü sifətə bitişik, "düm" isə defislə yazılır.
C) "Şəhərdəki", "indiki" tipli sifətlər sualına görə digərlərindən fərqlənir.
D) "Zorbaca" çoxaltma, "xırdaca" isə azaltma dərəcəsindədir.
E) Dərəcə əlamətləri *m, p, r, s* samitlərinin artırılması ilə formalaşan sifətlərdə vurğu sonuncu hecaya düşür.

24. Sifət haqqında verilənlərdən biri ***səhvdir***:
A) "Açıq", "ala" sözləri ilə sifət arasında defis işarəsi qoyulur.
B) Sadə sifətlərin hamısı bütün müqayisə dərəcələrində işlənə bilir.
C) Adi dərəcənin şəkli əlaməti yoxdur.
D) "Təhər" və "kəm" sözləri sifətə bitişik yazılır.
E) "Yağlı" və "yağsız" sözləri sifətin adi dərəcəsindədir.

25. Sual işarəsinin yerinə yazılası söz hansı cümlədədir?



A) Körpələrə qayğı lazımdır.
B) Yaralılar hospitalda müalicə olundular.
C) Sarışın qız bağçaya yaxınlaşdı.
D) Gözəl görünər, çirkin bürünər.
E) Yaşlıları gülərüzlə qarşıladıq.

26. Cümlələrdəki sifətlərin sintaktik vəzifəsini ardıcıllıqla müəyyən edin.
1. Onun yazdığı məktublardan bixəbər idi.
2. Qardaşım Arif qoçaq oğlandır.
3. Balacalar bağçanın həyətində həvəslə oynayırdılar.

A) xəbər, zərflik, təyin
B) təyin, təyin, mübtəda
C) xəbər, zərflik, mübtəda
D) təyin, xəbər, zərflik
E) xəbər, təyin, mübtəda

27. *"Gah sağa, gah sola üz döndərərək Bizi çox çaşdırır dolaşıq yollar"* nümunəsindəki *"dolaşıq"* sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.

A) *Necə? nə cür? hansı?* suallarından birinə cavab verir.
B) Düzəltmə sözdür.
C) Feildən düzəlmişdir.
D) Sözdə həm qrammatik, həm də leksik şəkilçi işlənmişdir.
E) Adi dərəcədədir.

28. Nümunədəki sifətlərin təhlili ilə bağlı ***səhvi*** müəyyən edin.

Gülüzlü çəmənlər, şehli çiçəklər,
Ey həyat aşiqi canlı ürəklər!
Bizim eşqimizin hökmü gözəldir,
Yaşamaq şirindir, həyat gözəldir. (S. Vurğun)

A) İsimdən yaranmışdır.
B) Birinci misradakı mürəkkəb sifət sadə və düzəltmə sözün birləşməsindən yaranmışdır.
C) Nümunədə düzəltmə sifətlər işlənmişdir.
D) Sonuncu misradakı sifətlər ismin xüsusiyyətlərini daşıyır.
E) Hamısı adi dərəcədədir.

29. Nümunədəki sifətlərin təhlili ilə bağlı ***səhvi*** müəyyən edin.

Gülüzlü çəmənlər, şehli çiçəklər,
Ey həyat aşiqi canlı ürəklər!
Bizim eşqimizin hökmü gözəldir,
Yaşamaq şirindir, həyat gözəldir. (S. Vurğun)

A) Birinci və ikinci misradakı sifətlər ismin xüsusiyyətlərini daşıyır.
B) I misrada sadə və düzəltmə sözün birləşməsindən yaranan mürəkkəb sifət işlənmişdir.
C) Nümunədəki düzəltmə sifətlər isimdən yaranmışdır.
D) Xəbərlər sifətlə ifadə olunmuşdur.
E) Nümunədə üç sadə sifət işlənmişdir.

30. Nümunədəki sifətlərlə bağlı ***səhv*** fikir hansıdır?

Dağların zirvəsi ağa bürünür,
Yaşıl quzeylərdən duman sürünür,
Qəlbimdən bu yerə yollar görünür.
Gör necə qovuşur, yollara yollar,
Siz nə gözəlsiniz, yollar, a yollar. (N. Xəzri)

A) Birinci və beşinci misralardakı sifətlər ismin xüsusiyyətlərini daşıyır.
B) Nümunədə üç sifət işlənmişdir.
C) Birinci misradakı sifət cümlənin tamamlığıdır.
D) Birinci və ikinci misralardakı sifətlər əlamət bildirir.
E) Beşinci misradakı sifət xəbərlik (şəxs) şəkilçisi qəbul etmişdir.

31. Nümunədə işlənmiş sifətlərlə bağlı doğru fikir hansıdır?

Dağların zirvəsi ağa bürünür,
Yaşıl quzeylərdən duman sürünür,
Qəlbimdən bu yerə yollar görünür.
Gör necə qovuşur yollara yollar?!
Siz nə gözəlsiniz, yollar, a yollar?! (N. Xəzri)

A) Nümunədə üç sifət işlənmişdir.
B) Beşinci misradakı sifət mənsubiyyət şəkilçisi qəbul etmişdir.
C) Birinci və ikinci misradakı sifətlər ismin hal şəkilçiləri ilə işlənmişdir.
D) Birinci misradakı sifət vasitəsiz tamamlıqdır.
E) Nümunədəki sifətlərdən biri çoxaltma dərəcəsindədir.

32. Nümunədəki sifətlərə aid ***səhv*** fikri müəyyənləşdirin.

Səfalı dağların, yaşıl bağların
Dərdlərə dəvadır, cənnət guşədir.
Çağlayan çayların, buz bulaqların,
Gözəl təbiətdən bir nişanədir.

A) Sifətlərin heç biri ismə aid şəkilçi qəbul etməyib.
B) Mürəkkəb sifət işlənməyib.
C) Sifətlərin hamısı adi dərəcədədir.
D) Üç misrada sifət işlənib.
E) Bütün sifətlər təyin vəzifəsindədir.

33. Nümunədəki sifətlərə aid ***səhv*** fikri müəyyənləşdirin.

Barış canındakı zəhərli dərdlə,
İyrənmə özündən, ilan balası.
Bəlkə də, ən acı həqiqət elə
Sənsən yer üzündə, ilan balası.

A) Sifətlərdən biri çoxaltma dərəcəsindədir.
B) Mürəkkəb sifət işlənməyib.
C) Üç düzəltmə sifət işlənib.
D) Sifətlərin heç biri ismə aid şəkilçi qəbul etməyib.
E) Bütün sifətlər təyin vəzifəsindədir.

34. Nümunədəki sifətlərlə bağlı doğru fikirləri müəyyən edin.

Əlvan buludların şiş dağlarında,
Qızarır yenə də günəş nar kimi.
Yanır ağacların yarpaqlarında
Qızılı şəfəqlər bir fanar kimi. (B. Vahabzadə)

1. Nümunədə üç sifət işlənmişdir.
2. Hamısı quruluşuna görə sadədir.
3. Hamısı rəng bildirir.
4. Hamısı adi dərəcədədir.
5. Hamısı ismi izah edir.

Cəlilzadəli ilə Sakit Əsmin

35. Nümunədəki sifətlərlə bağlı doğru fikirləri müəyyənləşdirin.
Neçə yoxuşlu, yallı,
Qızılquşlu, marallı,
Qarağatlı, zoğallı,
Şamlı, qovaqlı yollar. (H. Arif)
1. Bütün misralarında düzəltmə sifət işlənmişdir.
2. Sifətlərdən biri feildən düzəlmişdir.
3. Sifətlər adi dərəcədədir.
4. Bütün sifətlər həmcins təyin vəzifəsindədir.
5. "*Qızılquşlu, qarağatlı*" mürəkkəb sifətlərdir.

36. Nümunədəki sifətlərlə bağlı doğru fikirləri müəyyənləşdirin.
Təpədə boz kürəkli,
Çəməndə göy ətəkli,
Düşmənə daş-kəsəkli,
Dosta maraqlı yollar. (H. Arif)
1. Üçüncü misrada düzəltmə sifət işlənməmişdir.
2. Birinci və ikinci misralarda rəng bildirən sifət işlənmişdir.
3. Sifətlər adi dərəcədədir.
4. Bütün sifətlər həmcins xəbər vəzifəsindədir.
5. Birinci misrada işlənmiş sifət feildən düzəlmişdir.

37. Uyğunluğu müəyyən edin.
"*Açıq*" sözü yerinə görə ... (Defis buraxılmışdır.)
1. azaltma dərəcəsi yaradır.
2. müstəqil cümlə üzvüdür.
3. feili birləşmənin asılı tərəfidir.

a. Açıq pəncərədən qızılgüllərin bihuşedici ətri otağa yayılırdı.
b. Açıq bənövşəyi çiçəklər göz oxşayırdı.
c. Açıq saçları üzünə dağılmışdı.
d. Sərvər açıq danışmağı sevərdi.
e. Çoxdan aldığı açıq şabalıdı rəngli köynəyi anasına göstərdi.

38. Uyğunluğu müəyyən edin.
1. Sifət cümlənin mübtədasıdır.
2. Sifət tamamlıq vəzifəsindədir.
3. Sifət təyin vəzifəsindədir.

a. Palataya köçürülən xəstə həkim müayinəsindən keçdi.
b. İncidir tənbəli, sevmir qorxağı,
Dünyaya səs salıb Ağbaba dağı. (Aşıq Heydər)
c. Yoxsul arpa tapar, saxlamağa yer tapmaz. (Atalar sözü)
d. Bu qoca dünyanın şahidiyəm mən...
Kölgəmdə dincəlir hər gəlib-gedən. (S. Vurğun)
e. Dadsız şorbaya duz da kar eləməz (Atalar sözü)

Say

Sayın quruluşca növləri. Sayın mənaca növləri

1. Qeyri-müəyyənlik bildirən miqdar saylarını müəyyən edin.
A) beşdə iki, on dörd, az
B) beş, xeyli, ikidə bir
C) minlərlə, az, xeyli
D) on, yüz, yüzlərcə
E) beşinci, iki min, çox

2. Müəyyənlik bildirən miqdar saylarını müəyyən edin.
A) beş, otuz, əlli, min
B) az, xeyli, çox, on
C) bir, iki, üç, az-çox
D) beşdə bir, iki, yüz əlli
E) çox, bir qədər, min, yüz

3. Qeyri-müəyyən miqdar sayı ***işlənməyən*** cümləni müəyyən edin.
A) İclasda çoxlu adam iştirak edirdi.
B) Məktəbli kostyumları üçün bir sıra parça nümunələri seçildi.
C) Həm yaşlılar, həm də uşaqlar onu çox sevirdilər.
D) Minlərlə adam gözünü vertolyota zilləmişdi.
E) Bir sıra məsələlər həll olunmamış qaldı.

4. Sıra saylarından ibarət olan cərgəni müəyyən edin.
A) yeddi, yetmiş, axırıncı
B) birinci, onuncu, on üçüncü
C) filanıncı, azacıq, yüzlərlə
D) doqquz, qırx, iyirmi bir
E) əvvəlinci, sonuncu, bir-bir

5. Hansı cərgədə müəyyən miqdar sayı ***yoxdur***?
A) səkkiz, on bir
B) on, yetmiş
C) birinci, altı
D) çox, bir
E) xeyli, yüzlərlə

6. "*Ay dolandı, il keçdi, Cəfər kişinin böyük oğlu Ələsgər* 12-13 *yaşına çatdı*" cümləsində işlənmişdir.
A) sıra sayı
B) kəsr sayı
C) qeyri-müəyyən miqdar sayı
D) müəyyən miqdar sayı
E) miqdar zərfi

7. "*Qalanın tikintisinə başladılar və tezliklə onun ikidə bir hissəsini tikib qurtardılar*" cümləsində işlənmişdir:
A) sıra sayı
B) qeyri-müəyyən miqdar sayı
C) müəyyən miqdar sayı
D) kəsr sayı
E) miqdar zərfi

8. "*Bir <u>damcı</u> dərman içsən, yaxşı olarsan*" cümləsində altından xətt çəkilmiş söz adlanır:
A) qoşma
B) sifət
C) say
D) bağlayıcı
E) numerativ söz

CamScanner ile skan edilib

9. *Az, çox, xeyli, yüzlərcə* sözləri sayın mənaca hansı növünə aiddir?
A) həm miqdar, həm sıra sayları
B) müəyyən miqdar sayları
C) kəsr sayları
D) sıra sayları
E) qeyri-müəyyən miqdar sayları

10. Hansı cümlədə qeyri-müəyyən miqdar sayı işlənib?
A) Onlarla adam intizarla onu gözləyirdi.
B) Bizimki onlarla tutmaz.
C) Onlarla ehtiyatlı olmaq lazımdır.
D) Biri əyilib Kərimə nəsə dedi.
E) Çoxdan ondan xəbərim yoxdur.

11. Cərgələrdən biri qeyri-müəyyən miqdar saylarından ibarətdir:
A) on iki, əlli, yüz
B) üçdə bir, birinci, çox
C) xeyli, bir qədər, beş-altı
D) çoxlu, iyirmi, az
E) altı, beşdə üç, yüzlərlə

12. Yalnız biri saydır:
A) minlərlə
B) azlıq
C) çoxluq
D) birgə
E) üçlük

13. Yalnız biri say kimi işlənə bilər:
A) çox
B) çoxluq
C) çoxalmaq
D) azlıq
E) azdan-çoxdan

14. Hansı cərgədə sıra sayı ***yoxdur***?
A) iyirmi, beşdə bir, çox
B) xeyli, ikinci, on
C) yüz, altıncı, onlarca
D) üç, az, beşinci
E) onlarla, dördüncü, yüz

15. Cümlələrdən birində qeyri-müəyyən miqdar sayı işlənib:
A) Yeddi gün, yeddi gecə yol getdilər.
B) Biri cavab vermək istədi.
C) Yaman çox gözlədim.
D) Çox adam buna inanmırdı.
E) Birincilər ilk zəngi maraqla gözləyirdilər.

16. Biri say ***deyil***:
A) çoxlu
B) çoxdankı
C) bir sıra
D) çox
E) çoxluca

17. Hansı cərgədə qeyri-müəyyən miqdar sayı ***yoxdur***?
A) altı, yüzlərcə, on bir
B) onlarca, minlərcə, üç-dörd
C) beş, üçdə bir, az
D) yüz, yetmiş beş, bir qədər
E) dördüncü, beşdə bir, on altı

18. Biri say ***deyil***:
A) beşinci
B) çoxluq
C) üç-dörd
D) beşdə bir
E) xeyli

19. Hansı saylar düzəltmədir?
1. onuncu
2. yüzlərlə
3. onlarca
4. üçdə bir
5. xeyli
A) 1, 2, 3
B) 1, 2, 5
C) 2, 3, 4
D) 1, 4
E) 3, 5

20. Hansılar say ***deyil***?
1. yeddilik
2. yeddinci
3. birdəfəlik
4. birgə
5. onunla
6. azacıq
A) 2, 4, 5
B) 1, 2, 3, 5
C) 1, 3, 4, 5
D) 3, 5, 6
E) 4, 5, 6

21. Qeyri-müəyyən miqdar sayı hansı cümlədə işlənmişdir?
A) Beşincilər daha səylə çalışırlar.
B) Bu gün, deyəsən, çox işləmisən.
C) İş saat 8-də başlanır.
D) Siz xeyli danışdınız.
E) Onun çox işlərdən xəbəri yoxdur.

22. Qeyri-müəyyən miqdar saylarından ibarət cərgəni müəyyən edin.
A) çoxlu, səkkiz, az
B) beşinci, onlarla, üçdə bir
C) bir neçə, çox, xeyli
D) dörddə üç, bir tam onda beş, ikidə bir
E) xeyli, yeddinci, yüzlərcə

23. Hansı cümlədə qeyri-müəyyən miqdar sayı işlənmişdir?
A) Səkkiz dördə qalıqsız bölünür.
B) Üçüncü sinif yarışlarda fərqləndi.
C) Mən bu gün xeyli yorulmuşam.
D) Kurslara xeyli dinləyici yazılmışdı.
E) Bizə on kitab lazımdır.

24. Müəyyən miqdar saylarından ibarət olan cərgəni müəyyən edin.
A) xeyli, minlərcə, çoxlu
B) yüz min, on doqquz, iyirmi
C) on-on iki, beş-altı
D) xeyli, az-çox, bir qədər
E) minlərlə, yüzlərlə, onlarla

25. Qeyri-müəyyənlik bildirən sayları müəyyən edin.
1. ikinci
2. əvvəlinci
3. bir neçə
4. birə-beş
5. bir-bir
6. bir sıra
7. çoxlu
A) 1, 3, 5
B) 1, 2, 3
C) 4, 6, 7
D) 2, 3, 5
E) 3, 6, 7

26. Qeyri-müəyyənlik bildirən sayları müəyyən edin.
1. birə-min
2. beşinci
3. azacıq
4. yetmiş
5. yüzlərcə
6. üçdə iki
7. axırıncı
8. on-on beş
A) 2, 5, 7
B) 1, 4, 8
C) 3, 5, 8
D) 4, 6, 7
E) 1, 3, 6

27. Hansı saylar əşyanın sayını dəqiq müəyyən edir?
1. beş-altı
2. bir qədər
3. on beş
4. min beş yüz əlli
5. milyon
6. beşinci
7. yüzlərcə
A) 1, 2, 3
B) 3, 4, 5
C) 4, 5, 7
D) 2, 6, 7
E) 1, 6, 7

28. Hansı saylar düzəltmədir?
1. onuncu
2. yüzlərlə
3. onlarca
4. üçdə bir
5. on ikinci
A) 2, 3, 4
B) 1, 2, 4
C) 1, 2, 3
D) 1, 5
E) 4, 5

Cəlilçaylı İlə Sual Cavab

29. Hansı saylar düzəltmədir?
1. minlərcə 2. yeddinci 3. on doqquzuncu
4. xeyli 5. onlarla
A) 2, 4, 5 B) 1, 2, 5 C) 2, 3
D) 1, 3 E) 4, 5

30. Yalnız birindən sonra numerativ söz işlətmək mümkündür:
A) azacıq B) bir çox C) çoxlu
D) üç-dörd E) xeyli

31. Miqdar sayının işləndiyi cümlə:
A) Dünən hava çox soyumuşdu.
B) Minlərlə göz ona dikilmişdi.
C) Onlarla ehtiyatlı olmaq lazımdır.
D) Biri çoxdan bizə göz qoyurdu.
E) Çoxdan ondan xəbərim yoxdur.

32. Cümlələrin birində qeyri-müəyyən miqdar sayı işlənib:
A) Gələnlərin çoxu öz qohumları idi.
B) Birisi cavab vermək istədi.
C) Yaman çox danışırdın.
D) Sərgidə çox gözəl rəsmlər var.
E) Birincilər həvəslə çıxış edirdilər.

33. Say ***işlənməmiş*** cümlə hansıdır?
A) Ora xeyli adam gəlmişdi.
B) Azacıq aşım, ağrımaz başım.
C) Yeddicə günün içində kişi qocalmışdı.
D) Həyətdə bircə adam var idi.
E) Bir mən bilirəm, sən nələr çəkirsən.

34. Say işlənmiş cümlə hansıdır?
A) Biz bu gün xeyli çalışdıq.
B) Sən bizdən neçə kitab almısan?
C) Bircə sənə inanıram, qardaş.
D) Müharibədə xeyli döyüş texnikası istifadə olundu.
E) Onlar salona bir-bir daxil oldular.

35. Hansı cümlədə qeyri-müəyyən miqdar sayı işlənib?
A) Bir dön bizim Bakıya bax.
B) Bacım çox çalışır, uğurları xeyli artırdı.
C) Toplantıda bir sıra məsələlərə aydınlıq gətirildi.
D) Beş üçdən böyükdür.
E) Həmin gün ancaq ikicə balıq tuta bilmişdi.

36. Hansı cümlədə qeyri-müəyyən miqdar sayı işlənib?
A) Yığıncaqda bir çox məsələlər müzakirə edildi.
B) Sən nə qədər oxumusan?
C) Onun işi indi birə-beş artıb.
D) Arxa cərgələrdəki uşaqlar iki-iki əyləşmişdilər.
E) Beşincilər konsertdə mahnı oxudular.

37. Hansı cümlədə say işlənmişdir?
A) Bəziləri məni şübhələndirir.
B) Həsən neçənci sırada əyləşib?
C) Beşincilər yarışın qalibi oldular.
D) Bircə ona inanıram.
E) Çox danışmaq adamı yorur.

38. Qeyri-müəyyən miqdar sayı işlənmiş cümləni müəyyən edin.
A) Çox bilib az danışmaq insanın yaraşığıdır.
B) Qəsəbədə yeni bir beşmərtəbəli bina tikildi.
C) Bacım bu il səkkizinci sinfə keçdi.
D) Torpağa bir az gübrə səpdilər.
E) Bir buğda əkməsən, min buğda biçməzsən.

39. Hansı cümlədə qeyri-müəyyən miqdar sayı işlənmişdir?
A) Uşaqlar divarı bir az rəngləyib istirahət etdilər.
B) Onlar bir qədər gedəndən sonra gözəl seyrəngaha çatdılar.
C) Çoxdan görə bilmədiyi dostu ilə bu gün Cıdır düzündə qarşılaşdı.
D) Bu məsələni onlarla məsləhətləşmək istədim.
E) Şərq ölkələrinin bir çox həkimləri bitkilərin müalicəvi əhəmiyyətini qeyd etmişlər.

40. Sayın bu növü *"hansı?"* sualına cavab verə bilir:
A) sıra sayı
B) qeyri-müəyyən miqdar sayı
C) kəsr sayı
D) müəyyən miqdar sayı
E) qeyri-müəyyən miqdar və kəsr sayları

41. Qeyri-müəyyən miqdar sayı işlənmiş cümləni müəyyən edin.
A) Əvvəlinci sıralar tutulmuşdu.
B) O, xeyli çalışıb çətinliyi aradan qaldırdı.
C) Çox danışmaq adamı hörmətdən salar.
D) O, bir az fikrə getdi.
E) Meydana minlərlə adam toplaşmışdı.

42. Hansı cümlədə qeyri-müəyyən miqdar sayı işlənmişdir?
A) Bir çox işlərdən xəbərim var.
B) Bu gün çox işləmisən.
C) İş saat 8-də başlanır.
D) Siz xeyli danışdınız.
E) Beşincilər daha səylə çalışırlar.

43. Hansı cümlədə qeyri-müəyyən miqdar sayı işlənmişdir?
A) Bizə on kitab lazımdır.
B) Onların dedikləri tezliklə nəzərə alınacaq.
C) Üçüncü sinif yarışlarda çox fərqləndi.
D) Mən bu gün xeyli yorulmuşam.
E) Liseyə qəbul olmaq üçün ərizə verənlərin sayı çoxdur.

44. Hansı cümlədə say işlənmişdir?
A) Qohumlar məclisə birgə getdilər.
B) Bizim dağlarda dərman bitkiləri çoxdur.
C) Onunla bu barədə danışmaq çətin bir iş deyil.
D) Sıradakı əsgərləri bir-bir saydılar.
E) Qatar stansiyada çox dayandı.

Cəlilzadəlilər ilə Sakit Gülüş

45. Hansı cümlədə say işlənmişdir?
A) Biri dediyini digəri qəbul etmirdi.
B) Torpaqlarımızın azadlığı naminə birləşməliyik.
C) Biz birlikdə daha güclü olarıq.
D) Yığıncağa gələnlər çoxdur.
E) Hava birdən-birə sərtləşdi.

46. Nümunələrdəki sayların məna növünü nəzərə alaraq, ardıcıllığı müəyyən edin.
• Bir çox insanlar bu əsəri bəyənmir.
• Məsələnin həllini on adamdan soruşdum.
• Tədbirdə birincilər də fəal iştirak etdilər.
1. Sıra sayı
2. Müəyyən miqdar sayı
3. Qeyri-müəyyən miqdar sayı
A) 2, 1, 3 B) 3, 1, 2 C) 1, 2, 3
D) 3, 2, 1 E) 2, 3, 1

47. Hansı cümlədə say işlənmişdir?
A) Rüstəm kişinin sərt xasiyyətindən bircə Nəcəf qorxub susmadı. (M. İbrahimov)
B) Baba, sən bu gün çox yoruldun. (Ə. Məmmədxanlı)
C) Bu vəziyyətdə maşının salonuna əyilib Əli ilə bir xeyli danışdı. (X. Hüseyni)
D) Bizi istəməyənlər çoxdur, ay Yarməmməd. (M. İbrahimov)
E) Rüstəm dayından az yazmayıblar ha. (M. İbrahimov)

48. Hansı cümlələrdə say qeyri-müəyyənlik bildirir?
1. Nöqsanları düzəltmək üçün xeyli əmək sərf olundu.
2. Yaxşı əsər oxucuya çox təsir edir.
3. Çoxlu kitab oxu ki, dünyagörüşün artsın.
4. Bu sözü səndən dəfələrlə eşitmişik.
5. Məhsulu toplamaq üçün bizə az vaxt verilmişdi.

49. Qeyri-müəyyən miqdar sayı işlənmiş cümlələri seçin.
1. Bu il nəşriyyatda xeyli kitab çap olunmuşdur.
2. Müəllim bu işdə mənə çox kömək etdi.
3. İndi çoxlu odun topla ki, qışda əziyyət çəkməyəsən.
4. Biz bu mövzunun üzərində xeyli işlədik.
5. Bu işi görmək üçün bizə çox vaxt lazım olacaq.

50. Quruluşca sadə, düzəltmə və mürəkkəb sayların ardıcıllıqla verildiyi cümlələri müəyyən edin.
1. Səkkiz igid onlarca düşmənin qarşısını üç-dörd gün saxlamalı idi.
2. Səksən min əsgəri olan şahzadə birinci dəfə beş-altı mühafizəçi ilə yola düşdü.
3. Karvanın birinə şahzadə, ikincisinə isə üç-dörd atlı nəzarət edirdi.
4. Əhməd paşa müxtəlif dövrlərdə üç dəfə vəzirlik etmiş, vəzirliyə başladıqdan on bir il sonra yorulduğunu hiss etmişdi.

Sayın morfoloji xüsusiyyətləri. Sayın isim kimi işlənə bilməsi. Sayların yazılışı

1. Biri numerativ sözlərlə işlənə ***bilmir***:
A) on B) beş-altı C) yüzlərlə
D) üç-dörd E) səkkiz

2. Biri numerativ sözlərlə işlənə ***bilmir***:
A) iyirmi B) beş-altı C) otuz
D) minlərlə E) doqquz

3. Klasterə əsasən nöqtələrin yerinə yazıla biləcək fikirləri müəyyən edin.

Müəyyən miqdar sayıdır.	
1.	Özündən sonra gələn isim cəm şəkilçisi qəbul etmir.
	2. .....

A) 1. birinci; 2. Əsasən, təkdə olan isimlə işlənir.
B) 1. ikilik; 2. Cümlə üzvü kimi, əsasən, təyin olur.
C) 1. tək; 2. Köməkçi nitq hissəsi kimi də işlənə bilir.
D) 1. beş; 2. Bəzən cümlənin feili xəbəri olur.
E) 1. səksən; 2. Numerativ sözlərlə işlənə bilir.

4. "*Bu qəribə hadisədən artıq xeyli keçmişdi*" cümləsində əsas nitq hissələrindən hansı ***işlənməmişdir***?
A) zərf B) say C) sifət
D) əvəzlik E) isim, feil

5. Hansı cümlədə numerativ söz düzgün ***işlədilməmişdir***?
A) İçəri 5 nəfər kişi girdi.
B) Onun 2 dənə qardaşı var.
C) Bizim 3 dənə qələmimiz var.
D) Arif 2 cüt ayaqqabı aldı.
E) Atası İlqara 1 dəst kostyum aldı.

6. Qeyri-müəyyən miqdar saylarından biri numerativ sözlərlə işlənə bilir:
A) çox B) on-on beş C) onlarla
D) bir sıra E) onlarca

7. Hansı cümlədə say işlənmişdir?
A) Qardaşım xeyli danışdı.
B) Çox bil, az danış.
C) Az adam tapılar ki, ədalətin tərəfində olmasın.
D) Az ye, həmişə ye.
E) Onlar bir azdan yola düşəcəklər.

8. Sayların qrammatik mənası hansı cərgədə düzgün göstərilib?
A) Hərəkətin miqdarını bildirir.
B) Əşyanın əlamət və keyfiyyətini bildirir.
C) Əşyanın adını bildirir.
D) Əşyanın miqdar və sırasını bildirir.
E) Əlamətin miqdarını bildirir.

9. Sayın əsas sintaktik vəzifəsi nədir?
A) xəbər B) təyin C) tamamlıq
D) mübtəda E) zərflik

10. Numerativ sözlər cərgəsini müəyyən edin.
A) ədəb, ədəd, baş, kotan
B) ətək, daş, qədər, dəfə
C) dəst, qram, fərd, kərə
D) əmək, litr, cüt, dəstə
E) baş, cüt, nəfər, ədəd

11. Hansı saydan sonra gələn isim cəm şəkilçisi qəbul edə bilir?
A) onuncu B) bir neçə C) bir qədər
D) xeyli E) bir

12. İsmin yerində işlənə bilən sayın xüsusiyyəti kimi göstərilənlərdən biri ***səhvdir***:
A) Hallana bilir.
B) Mənsubiyyət şəkilçisi qəbul edir.
C) Cəmlənə bilir.
D) Cümlədə təyin olur.
E) Mübtəda və tamamlıq olur.

13. Cümlələrdən hansında numerativ söz düzgün ***işlədilməmişdir***?
A) Dünən bizə bir nəfər gəlmişdi.
B) Naxırdan beş baş inək yox olmuşdu.
C) O, beş cüt əlcək aldı.
D) Gözüm bir dənə kostyumu yaman tutmuşdu.
E) Onun üçün indi bir parça çörək vacib idi.

14. Hansı cümlədə sayın yazılışında ***səhvə*** yol verilmişdir?
A) N. Gəncəvi XII-ci əsrdə yaşamışdır.
B) "Koroğlu" dastanı XVII əsrdə yaranmışdır.
C) Biz zalda səkkizinci sırada əyləşmişdik.
D) Doxsanıncı illərdə azadlıq hərəkatı genişləndi.
E) Saat 6-da məktəbdə olmalıyıq.

15. Hansı sayların yazılışında ***səhvə*** yol verilib?
A) əlli bir, iyirmi altı B) səksən, doxsan
C) milyon, milyard D) yetmiş, yeddi
E) on dört, əllaltı

16. Hansı cümlədə sayın yazılışında səhvə yol ***verilməmişdir***?
A) Yaşı çoxdan səysəni keçmişdi.
B) Evin qarşısında yüzlərcən adam dayanmışdı.
C) Səksən səkkizinci ildə azadlıq hərəkatı gücləndi.
D) Altımış illiyi keçən il qeyd edildi.
E) 1943-üncü ildə cəbhədə rastlaşmışdılar.

17. Yalnız birindən sonra numerativ söz işlənə bilər:
A) xeyli B) beş-altı C) bir az
D) bir qədər E) bir sıra

18. Verilmiş saylardan biri numerativ sözlərlə işlənə bilir:
A) çox B) bir sıra C) bir-iki
D) az E) xeyli

19. Say və zərf kimi işlənə bilən sözləri müəyyən edin.
1. bir neçə 2. bir qədər 3. bir çox
4. çoxlu 5. azacıq
A) 1, 3, 4 B) 1, 2, 3 C) 2, 4, 5
D) 3, 4, 5 E) 1, 2, 5

20. Hansı cümlədə say işlənmişdir?
A) Bircə o, tez gələydi.
B) Sinifdə neçə şagird var?
C) Biri sənə söz desə, cavab vermə.
D) Onuncular müəllimlərini alqışladılar.
E) Biz bu məsələni xeyli araşdırdıq.

21. Hansı cümlədə say işlənmişdir?
A) Salonda adam çoxaldı.
B) Kərim, sən nə qədər kitab aldın?
C) Burada heyva, nar çoxdur.
D) Azlıq çoxluğa tabedir.
E) Onlar dağ yolu ilə xeyli getdilər.

22. Hansı cümlədə say işlənmişdir?
A) Mənziliniz neçənci mərtəbədədir?
B) Beşincilərə yarışda mükafat verdilər.
C) Əsgərlər iki-iki düzülmüşdülər.
D) Sən bu gün az danışdın.
E) İşimiz birə-beş artıb.

23. Hansı cümlədə say işlənmişdir?
A) O neçə kitab istəyib?
B) Mənim bu barədə məlumatım azdır.
C) Birinə söz deyirsən, peşman olursan.
D) Kərim bir qədər susdu, sonra ayağa qalxdı.
E) Bir de görüm, bu nə işdir?

24. Hansı cümlədə say işlənmişdir?
A) Ovçu gördüklərini bir-bir danışdı.
B) Sən neçə pozuntu halı müşahidə etdin?
C) Onuncular tədbirdə fəal iştirak etdilər.
D) Bircə bu iş görülməyib.
E) Birincisi, yol böyüyün, suç kiçiyindir.

25. Saylara aid cədvəli tamamlayın.

Yazılışı ilə deyilişi fərqlənir	Sətirdən sətrə keçilmir	Yazılışı ilə deyilişi fərqlənmir
on beş	2	əlli
1	dörd	3 .....
minlərlə	iki	milyon

A) 1 – beş-altı, 2 – çox, 3 – əlli altı
B) 1 – səkkizinci, 2 – bir az, 3 – minlərlə
C) 1 – onlarca, 2 – beş, 3 – on beş
D) 1 – doqquz, 2 – otuz, 3 – yeddi
E) 1 – yüzlərcə, 2 – xeyli, 3 – doqquz

26. Hansı cümlədə qeyri-müəyyən miqdar sayı ilə isim arasında numerativ söz işlədilə bilər?
A) Biz bağda xeyli ağac əkdik.
B) O qədər kitabı necə oxumusunuz?
C) Bir çox məsələlər həll olunmamış qalmışdı.
D) Bir sıra müəllimlər mükafat aldılar.
E) Beş-altı tələbə bir yerə toplaşıb söhbət edirdi.

Camscanner ilə skan edilib

27. Hansı cümlədə qeyri-müəyyən miqdar sayı ilə isim arasında numerativ söz işlədilə bilər?
A) Yolun sol tərəfində çoxlu ağac var idi.
B) Biz bir çox məsələləri araşdırdıq.
C) İdarənin həyətinə yüzlərlə işçi yığılmışdı.
D) Sənə bu işdə altı-yeddi köməkçi lazımdır.
E) Rayonda bir sıra mədəni tədbirlər də keçirildi.

28. "*Onuncuların yaxşı oxuması hamını sevindirir*" cümləsində altından xətt çəkilmiş sözün qrammatik xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Söz birləşməsinin I tərəfi kimi işlənib.
B) İsmə aid şəkilçilər qəbul etmişdir.
C) Quruluşca düzəltmədir.
D) Sıra sayıdır.
E) III şəxsin cəmini bildirən mənsubiyyət şəkilçisi ilə işlənmişdir.

29. Cümlələrdən birində say ismin yerində işlənmişdir:
A) Min milyondan çox kiçikdir.
B) Beşinci yük maşını keçəndən sonra yol açıldı.
C) Daşdəmirin qapısına xeyli adam yığılmışdı.
D) Birinin dediyini o biri təsdiq edirdi.
E) Mən rəfdən iki kitab götürdüm.

30. Hansı cümlədə say ismə aid şəkilçi qəbul edib?
A) Birincilər hamıdan tez gəlmişdilər.
B) "Molla Nəsrəddin" jurnalı 1906-cı ildə nəşrə başlamışdır.
C) Beşinci sinif yarışda qalib gəldi.
D) Bir saat altmış dəqiqədən ibarətdir.
E) Ondakı kitablar köhnədir.

31. Cümlələrdən birində say ismə aid şəkilçilər qəbul edib:
A) Evimiz üçüncü mərtəbədədir.
B) Bir həftədə yeddi gün var.
C) Birinciləri mükafatlandırdılar.
D) Yüz gün yaraq, bir gün gərək.
E) Meydana yüzlərlə adam toplaşmışdı.

32. Hansı cümlədə sıra sayı təyin vəzifəsində işlənmişdir?
A) Mükafat birincilərə verildi.
B) Beşincilər irəli çıxdılar.
C) Öndə dayananlar birincilərdir.
D) O, beşinciləri sıraya düzdü.
E) İkinci komanda qalib gəldi.

33. Qoşalıq bildirmək üçün hansı numerativ sözlərdən istifadə olunur?
1. ədəd 2. cüt 3. baş
4. dənə 5. dəst 6. nəfər
A) 4, 6 B) 1, 3 C) 3, 5 D) 2, 5 E) 1, 4

34. Hansı cümlədəki say həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul etmişdir?
A) Birincilərin nümayəndəsi kimdir?
B) Bu yarışda birinciliyi onuncularımız qazandılar.
C) Bir vaxtlar iyirminin əvəzinə "iki on" işlədilmişdir.
D) Qırxıncı illərdə ədəbiyyatımız xeyli inkişaf etmişdi.
E) Uşaqlardan ikisinin valideyni iclasa gəlməmişdi.

35. Hansı cərgədə sifətlə sayın oxşar cəhəti ***səhv*** verilib?
A) Hər ikisi əşyanı eyni cəhətdən izah edir.
B) Hər ikisi isimlə bağlı olur.
C) Hər ikisi cümlədə, əsasən, təyin olur.
D) İkisi də *hansı?* sualına cavab verə bilər.
E) İkisi də ismə aid şəkilçilər qəbul edə bilir.

36. Sıra saylarının yazılışında ***səhvə*** yol verilmişdir:
1. XX-inci əsr 2. 3-üncü cərgə 3. 2-ci dərs
4. V sinif 5. 9-ncu bina
A) 2, 4, 5 B) 2, 3, 5 C) 1, 3, 4
D) 1, 2, 3 E) 1, 2, 5

37. Sıra saylarının yazılışında ***səhvə*** yol verilmişdir:
1. 5-inci gün 2. 5-ci otaq 3. V əsr
4. V-nci sinif 5. V-ci əsr
A) 2, 4, 5 B) 2, 3, 5 C) 1, 3, 4
D) 1, 4, 5 E) 1, 2, 4

38. Sayla bağlı fikirlərdən biri ***səhvdir***:
A) Bəzi miqdar saylarından sonra gələn isimlər cəmdə işlənə bilmir.
B) Düzəltmə sayların yaranmasında saylarla birlikdə başqa nitq hissələri də fəal iştirak edir.
C) "Bir çox" sayından sonra gələn isimlər cəmdə işlənir.
D) Sıra sayları quruluşca sadə olmur.
E) Saylar, əsasən, cümlənin təyini olur.

39. "*Bir çox tələbələr*" birləşməsində sayın yerinə bunlardan hansı yazıla bilər?
A) bir sıra B) bir qədər C) az
D) xeyli E) bir neçə

40. "*Bir sıra abituriyentlər*" birləşməsində sayın yerinə bunlardan hansı yazıla bilər?
A) xeyli B) bir qədər C) az
D) bir çox E) bir neçə

41. "*Bir*" sözü hansı cümlədə say kimi işlənib?
A) Bir qədər gözlədikdən sonra yenidən evə qayıtdıq.
B) Məncə, bu yerlərdə yaxşı bir yaşıllıq salmaq olar.
C) Qoy bir atası gəlsin, sonra kömək edərik.
D) Biri dünəndən zəng edib səni soruşurdu.
E) Əgər bircə dəqiqə səbir etsən, hər şey yaxşı olacaq.

42. "*Bir*" sözünün say kimi işləndiyi cümləni müəyyən edin.
A) Xahiş edirəm, sən bir onu başa salasan.
B) Məncə, bircə saat onu gözləsək, gəlib çıxacaq.
C) Qoy bir səhər açılsın, sonra yolumuza davam edərik.
D) Biri mənə nə baş verdiyini izah etsin.
E) Bir vaxtlar mən də buralarda yaşayırdım.

CamScanner ile skan edilib

43. Cümlələrdən birində say ilə isim arasında numerativ söz işlənə bilər:
A) Həsənin çoxlu dostları var.
B) Çox adamın bu işdən xəbəri yox idi.
C) Bir sıra məsələlərdə o, bizimlə razılaşırdı.
D) Bizim də bu işdən az-çox məlumatımız var.
E) İclasda doxsan müəllim iştirak edirdi.

44. Sual işarəsinin yerinə yazıla biləcək sayı müəyyənləşdirin.



A) az B) xeyli C) az-çox D) üçdə bir E) iki

45. Sayla bağlı düzgün fikri müəyyən edin.
A) Sayların omonimliyi yoxdur.
B) Müəyyən miqdar sayları quruluşca sadə, düzəltmə və mürəkkəb olur.
C) Müəyyən miqdar sayları ismin yerində işlənə bilmir.
D) Saylar cümlədə yalnız təyin olur.
E) Sıra saylarından sonra gələn isimlər cəm şəkilçisi qəbul edə bilər.

46. Sıra saylarına aid düzgün fikirlər hansılardır?
1. Müəyyən və qeyri-müəyyən miqdar saylarından düzəlir.
2. Əsasən, *neçənci?* sualına cavab verir.
3. İsmin yerində işlənə bilmir.
4. Kökü saitlə bitən saylara -ıncı şəkilçisi qoşulduqda şəkilçinin ilk saiti düşür.
5. Sıra saylarından sonra gələn isimlər bəzən cəm şəkilçisi qəbul edir.
A) 2, 3, 4 B) 1, 3, 5 C) 1, 2, 3 D) 1, 4, 5 E) 2, 4, 5

47. Hansı nümunələrdə numerativ söz düzgün ***işlədilməyib***?
1. üç bağlama kağız 2. beş göz cədvəl
3. bir qoşun söz 4. dörd yeşik konfet
5. bir sürü səbəb 6. bir damcı su

48. Klasteri tamamlayın.



1. min 2. iki 3. on 4. az 5. beş

49. Hansılar numerativ söz kimi işlənə bilər?
1. maşın 2. hünər 3. pəncərə 4. qapı
5. işıq 6. dənə 7. damcı 8. stəkan

50. Hansı nümunədə *"bir"* sözü say kimi işlənmişdir?
1. *Sarayda hökm edir ədalı bir xan,*
Qan, qarğış tökülür qaşqabağından. (S. Vurğun)
2. *Bir vətən həsrəti – bir ulu nisgil,*
Vətənsiz yaşamaq yaşamaq deyil (B. Vahabzadə)
3. *...Getsəm də, bu dünyadan sözlü, soraqlı,*
Bənzətmə bir şirin xəyala məni
Məhəbbət yetirib kamala məni.
4. *Artıq bu sözlərin nə mənası var?*
Başımda bir köhnə qəm havası var. (S. Vurğun)
5. *Salam olsun şövkətüzə, elüzə*
Mənim də bir adım gəlsin dilizə. (M. Şəhriyar)
6. *Yetirdi özünü min ilin başı,*
Ömrüm bir əsrlə durdu yanaşı. (Z. Yaqub)

51. Sual işarəsinin yerinə yazıla biləcək sayları müəyyənləşdirin.



1. çox 2. bir 3. yeddi 4. bir sıra 5. iki

52. Verilmiş cümlədə nöqtələrin yerinə hansı saylar yazılsa, cümlədə qrammatik səhv ***olmaz***?
Tural məktəbdə özünə ... dost tapmışdı.
1. çox 2. xeyli 3. bir çox
4. bir neçə 5. bir sıra

53. Hansı cümlələrdə rəqəmlə yazılmış say sözlə yazılsa, mənsubiyyət şəkilçisi əlavə olunar?
1. Orxanın rəsm əsəri yarışda 1-ci yeri tutdu.
2. Biz ayın 5-nə qədər işləri qurtarmalıyıq.
3. Düşərgədə turistlərin sayı 55-ə çatmışdı.
4. Uşaqların 2-də idman paltarı yox idi.
5. Biz 7-ci sırada əyləşdik.

54. Hansı cümlələrdə sözlə yazılmış say rəqəmlə yazılsa, şəkilçilərdən biri ***yazılmayacaq***?
1. Vaqifin rəsm əsəri yarışda birinci oldu.
2. Biz ayın beşinə qədər işləri qurtarmalıyıq.
3. Düşərgədə turistlərin sayı əlli beşi keçmişdi.
4. Esselərin ikisində ardıcıllıq yox idi.
5. Onuncular yarışda fəal iştirak etdilər.

55. Uyğunluğu müəyyən edin.
Bu saylardan sonra gələn isimlər ... .

1. həmişə cəmdə olur	a. beşinci, onuncu
2. həm təkdə, həm cəmdə ola bilir	b. çox, onlarla
3. həmişə təkdə olur	c. bir çox, bir sıra
	d. əlli altı, iyirmi iki
	e. xeyli, beş-altı

Camscanner ile skan edilib

Əvəzlik

Əvəzliyin quruluşca növləri. Əvəzliyin mənaca növləri

1. *"Mən də bilirəm, nəçiyəm, nəyəm"* (M. Araz) cümləsində əvəzliyin hansı məna növü işlənib?
A) işarə, təyini B) şəxs, sual
C) şəxs, təyini D) işarə, qeyri-müəyyən
E) qeyri-müəyyən, sual

2. *"Belə məsələlər hamını yaman yorub"* cümləsində əvəzliyin hansı məna növləri işlənib?
A) sual, işarə B) təyini, qeyri-müəyyən
C) təyini, şəxs D) işarə, qeyri-müəyyən
E) şəxs, sual

3. *"O adam öz taleyindən nigarandır"* nümunəsində əvəzliyin hansı məna növləri işlənmişdir?
A) qeyri-müəyyən, təyini B) işarə, şəxs
C) işarə, təyini D) şəxs, təyini
E) şəxs, sual

4. Sual əvəzliyinin köməyi ilə yaranan sual cümləsi hansıdır?
A) Samir kənddə yaşayır ki?
B) Sən məndən küsmüsənmi?
C) Niyə bizə gəlmirsən?
D) Məgər o sənինlə getməyəcək?
E) Bəs bu gün imtahana hazırlaşmayacaqsan?

5. Sual əvəzliyinin köməyi ilə yaranan sual cümləsi hansıdır?
A) Qonaqlar yatıblar ki?
B) Məgər o, düz danışır?
C) Sabah işə gedəcəksənmi?
D) Elnur məktəbdən nə vaxt qayıdıb?
E) Bəs sabahkı tədbirə hazırlaşmayacağıq?

6. Təyini əvəzliklərdən ibarət cərgəni müəyyən edin.
A) mən, o, siz, belə B) elə, belə, həmin, bu
C) hər kəs, hər şey, kim isə
D) biri, o, filan, elə E) hər, bütün, filan, öz, eyni

7. Qeyri-müəyyən əvəzlik işlənmiş cümləni müəyyən edin.
A) Hər gülün, çiçəyin öz ətri var.
B) Onun kitabı məndə qalmışdı.
C) Kimsə zümzümə edirdi.
D) Kimi istəyirsən, çağır.
E) Özüm bu barədə söhbət açmadım.

8. İşarə əvəzliklərindən ibarət cərgəni müəyyən edin.
A) birisi, kimsə, nə isə, kimisi
B) hərə, hər kəs, bəzisi, bəziləri
C) hər, öz, bütün, hamı
D) mən, sən, o, biz, siz
E) elə, belə, bu, o, həmin

9. Yalnız qeyri-müəyyən əvəzliklərdən ibarət cərgəni müəyyən edin.
A) hərə, birisi, bəzisi, kimsə
B) öz, hər, bütün, həmin
C) bu, o, elələri, filan
D) elə, belə, filankəs, həmin
E) neçənci, kim, nə, hara

10. Nümunədə əvəzliyin mənaca hansı növü işlənmişdir?
Hamı uca tutsun insan adını,
Qoy qəlbiqaralar yanıb-qaralsın.
A) qeyri-müəyyən B) işarə C) şəxs
D) təyini E) sual

11. Hansı cümlədə qeyri-müəyyən əvəzlik işlənmişdir?
A) Özünü çox yorma.
B) Özü etiraf etdi ki, Bakıdandır.
C) Onun özü də bu məsələdən xəbərdardır.
D) Meyvələrin hamısı öz bağımızdandır.
E) Sən də çox əsəbiləşmə.

12. Hansı cümlələrdə qeyri-müəyyən əvəzlik işlənmişdir?
1. Heç kəs o zaman bizi başa düşmədi.
2. Hər kənddə iki məktəb binası tikilmişdir.
3. Səhər açılanda hamı Azadlıq meydanına tələsirdi.
4. Özüm bu hadisələrin şahidi olmuşam.
5. Hərə öz gördüyündən söhbət açardı.
A) 1, 2, 5 B) 1, 3, 5 C) 2, 3, 4
D) 1, 2, 4 E) 3, 4, 5

13. Biri əvəzlik ***deyil***:
A) kimsə B) bir sıra C) bəziləri
D) biri E) heç kəs

14. Nümunədəki işarə və şəxs əvəzliklərini müəyyən edin.
Yenə o bağ olaydı,
yenə yığışaraq siz
O bağa köçəydiniz.
Biz də muradımızca
fələkdən kam alaydıq...
Sizə qonşu olaydıq.
A) 1 işarə, 2 şəxs əvəzliyi
B) 2 işarə, 3 şəxs əvəzliyi
C) 2 işarə, 2 şəxs əvəzliyi
D) 3 işarə, 2 şəxs əvəzliyi
E) 3 işarə, 1 şəxs əvəzliyi

15. *Bu şövqü kim mənim ruhuma yaydı?* (M. Müşfiq) Nümunədəki əvəzliklərin məna növlərinin işlənmə ardıcıllığını müəyyən edin.
A) işarə, qeyri-müəyyən
B) şəxs, təyini, sual
C) işarə, sual, şəxs
D) şəxs, sual, qeyri-müəyyən
E) işarə, şəxs, sual

CamScanner ile skan edilib

16. *Bəs haradadır bu yurdun öz sahibləri?*
(B. Vahabzadə)
Nümunədəki əvəzliklərin məna növlərinin işlənmə ardıcıllığını müəyyən edin.
A) işarə, təyini, şəxs B) qeyri-müəyyən, işarə, şəxs
C) işarə, şəxs, sual D) sual, işarə, təyini
E) sual, şəxs, qeyri-müəyyən

17. Biri fərqlidir:
A) bundan B) kimdən C) hərdən
D) səndən E) hərədən

18. Məntiqi baxımdan nöqtələrin yerinə hansı cümlə yazıla bilər.



A) "Gün var əsrə bərabər" (Ç. Aytmatov)
B) "Sizsiz" (Anar)
C) "Əbədiyyət" (İ. Hüseynov)
D) "Onu bağışlamaq olarmı?" (M. Təhmasib)
E) "Kimdir müqəssir?" (Ə. Haqverdiyev)

19. Hansı cümlədə qeyri-müəyyən əvəzlik işlənib?
A) Onlar müstəqillik yolunu seçmişdilər.
B) Kim bu işdən xəbərdardır?
C) Heç kəs həmin günləri xatırlamırdı.
D) Xoşbəxtlik hər insanın haqqıdır.
E) Bütün işləri özü görürdü.

20. Əşyanı ümumi şəkildə müəyyən etmək üçün işlənən əvəzliklər nə adlanır?
A) qeyri-müəyyən əvəzliklər
B) şəxs əvəzlikləri C) təyini əvəzliklər
D) işarə əvəzlikləri E) sual əvəzlikləri

21. *O gecə bütün daxmalarda hamı oğlanın həcvini təkrar edirdi.* (İ. Hüseynov)
Nümunədə əvəzliyin mənaca növlərini və sayını müəyyənləşdirin.
A) 1 işarə, 1 təyini, 1 qeyri-müəyyən
B) 1 şəxs, 1 işarə, 1 qeyri-müəyyən
C) 1 işarə, 2 təyini
D) 2 qeyri-müəyyən, 1 işarə
E) 1 təyini, 1 şəxs, 1 qeyri-müəyyən

22. *Öz adına layiq işlər gör ki, sən*
Axırda utanma xəcalətindən. (N. Gəncəvi)
Nümunədə əvəzliyin hansı məna növləri işlənmişdir?
A) təyini, şəxs B) şəxs, işarə
C) təyini, qeyri-müəyyən D) işarə, təyini
E) qeyri-müəyyən, sual

23. Nümunədə əvəzliyin hansı məna növləri işlənmişdir?
Öz balaca xilqətiylə hər bir insan
Bir dünyadır bu dünyada, yaxşı baxsan.
(B. Vahabzadə)
A) şəxs, qeyri-müəyyən B) şəxs, işarə
C) qeyri-müəyyən, təyini D) təyini, şəxs
E) təyini, işarə

24. Hansı cümlələrdə işarə əvəzlikləri sifəti əvəz etmişdir?
1. Belə təhsil ocaqlarının sayı artmaqdadır.
2. Sən sualları belə hazırlamalısan.
3. Elə baxırsan ki, sanki məni ilk dəfə görürsən.
4. Elə yazıları "əla" qiymətləndirmək olar.
A) 1, 3 B) 3, 4 C) 1, 2 D) 2, 3 E) 1, 4

25. Şəxs əvəzlikləri ilə bağlı doğru fikirləri müəyyənləşdirin.
1. Şəxsə və kəmiyyətə görə dəyişir.
2. Şəxs əvəzlikləri yalnız insan anlayışı bildirmir.
3. İsim kimi hallana bilir.
4. Mənsubiyyətə görə dəyişir.
5. Əsasən, sifəti əvəz edir.
A) 1, 3, 5 B) 2, 3, 4 C) 2, 4, 5
D) 1, 4, 5 E) 1, 2, 3

26. Şəxs əvəzlikləri ilə bağlı ***səhv*** fikirləri müəyyənləşdirin.
1. Şəxsə və kəmiyyətə görə dəyişir.
2. Mənsubiyyətə görə dəyişir.
3. Əsasən cümlənin təyini olur.
4. Üçüncü şəxsi bildirən əvəzliklər bəzən heyvan və cansız əşyalara da aid olur.
5. Omonimlik xüsusiyyətinə malik olmur.
A) 2, 3, 5 B) 1, 2, 4 C) 3, 4, 5
D) 1, 4, 5 E) 1, 2, 3

27. "*Məni qanadının üstünə götür,*
Ahunu gördüyün o yerə yetir.
Toru dişlərimlə doğrayım, didim,
Ahunu o tordan tez xilas edim."
Bəyəndi tədbiri bütün yoldaşlar,
Bu işə ürəkdən şad oldu onlar. (Q. Zakir)
Nümunədəki əvəzlikləri müəyyən edin.
A) 1 şəxs; 3 təyini; 1 işarə əvəzliyi
B) 2 şəxs; 1 təyini; 2 işarə əvəzliyi
C) 1 işarə; 1 təyini; 3 şəxs əvəzliyi
D) 2 təyini; 1 şəxs; 2 işarə əvəzliyi
E) 1 təyini; 2 şəxs; 3 işarə əvəzliyi

28. *Deyirəm ki, uzaq yollarda susuzluq çəkən*
Bir insanın yollarında bulaq olaydım.
Bütün məslək dostlarımın bu dünyada mən
Hər qəminə, nəşəsinə ortaq olaydım. (S. Vurğun)
Nümunədə işlənmiş əvəzliklərin məna növünü və sayını müəyyən edin.
A) 1 qeyri-müəyyən, 1 işarə, 1 şəxs
B) 2 təyini, 1 işarə, 1 şəxs
C) 1 təyini, 1 işarə, 1 şəxs
D) 1 sual, 1 işarə, 1 şəxs
E) 1 təyini, 2 işarə, 1 şəxs

Camscanner ile skan edilib

1. Nümunələrin birində təyini əvəzlik işlənmişdir:
A) Vətəndə bir bağ saldım,
Hər nə əkdik, gül bitdi.
B) Şadlıqda hər kəs gülər,
İgidsənsə, qəmdə gül.
C) Gülməlisən, məzəsən,
Hər çiçəkdən təzəsən.
D) Budur gəlir cüt bacı, qadan alım.
E) Necə ki mən dözürəm,
Heç kəs dözməz bu dağa.

2. Nümunələrin birində qeyri-müəyyən əvəzlik işlənmişdir:
A) Biri yol gedir bizdən qabaqda...
B) Kim bilir, neçədir dünyanın yaşı?
C) Hər yetənə salam verib dost demə.
D) Gəzdim dağı, aranı,
Cənnət gördüm buranı.
E) Kimi aldadırsan, ay zalım oğlu...

11. Hansı cümlədə "o" həm işarə, həm də şəxs əvəzliyi kimi düşünülə bilər?
A) O məktəbin binası üç il bundan əvvəl tikilmişdir.
B) Mən çağırdım, o eşitmədi.
C) O mənimlə üç ildir ki, zavodda işləyir.
D) O əsər həm yeni, həm də maraqlıdır.
E) O heykəlin qarşısında fikrə getmişdi.

12. Hansı cümlədəki "o" həm işarə, həm də şəxs əvəzliyi kimi düşünülə bilər?
A) Bir ayda o necə də qaralmış və kökəlmişdi.
B) O geniş eyvanda ətrafı seyr edir.
C) O da gün batan kimi bazarı tərk edir, hara isə tələsirdi.
D) O bizim uşaqların hamısından böyük idi.
E) O heykəl böyük Sabirə qoyulmuş abidədir.

13. Nöqtələrin yerinə uyğun olan əvəzliklərin düzgün ardıcıllığını müəyyən edin.
1. Axır çərşənbədə ... tonqal başına yığılır.
2. ... adama ... vətəni əzizdir.
3. ... unudulmur, ... yaddan çıxmır.
A) onlar, biri, hərə, heç kim, nəsə
B) kimsə, bütün, öz, hər nə, hər şey
C) heç kim, hamı, öz, heç nə, hər
D) hamı, hər, öz, heç kim, heç nə
E) hamı, biz, bütün, heç kim, heç nə

14. Nöqtələrin yerinə uyğun olan əvəzliklərin düzgün ardıcıllığını müəyyən edin.
1. ... vətən qarşısında ... borcunu verməlidir.
2. ... sualın cavabını ... bilmirdi.
3. Qapının ağzında ... dayanmışdı.
A) hər şey, kim, özüm, həmin, o
B) hamı, öz, bu, heç kim, kimsə
C) özüm, kimsə, heç kim, öz, hər kəs
D) hər, öz, heç kim, hamı, bu
E) heç kim, hamı, öz, kimsə, hərə

35. Hal şəkilçili əvəzliklərin məna növünə görə düzgün ardıcıllığını müəyyən edin.
- *Qaraca çoban onun toz qaldırıb getdiyi yollara baxdı.*
- *Beyrək özü içəri girmək istədi.*
- *Qazanın obasında hələ heç kəsin heç nədən xəbəri yox idi.*
- *Bunu görən Qaraca çoban sapanda əl atdı.*
- *Kim at çapacaq, kim ox atacaq?*

1. qeyri-müəyyən əvəzlik
2. şəxs əvəzliyi
3. təyini əvəzlik
4. işarə əvəzliyi
5. sual əvəzliyi

A) 2, 1, 4 B) 4, 3, 1, 2, 5 C) 2, 3, 1, 4
D) 4, 1, 2, 5 E) 1, 3, 5

36. Hal şəkilçili əvəzliklərin məna növünə görə düzgün ardıcıllığını müəyyən edin.
- *Bayburanın oğlu quldurların üzərinə hücuma keçir, onlara qalib gəlir.*
- *Qazan xan bundan xəbərsiz oğlunun dayandığı yerə gəlir.*
- *Kim bu gənci qınadı, kim haqq qazandırdı?*
- *Hər iki gənc döyüş meydanına atılır, düşmənə qalib gəlir*
- *Dirsə xanın oğlunun buğanı yerə yıxması hamının təəccübünə səbəb oldu.*

1. işarə əvəzliyi
2. şəxs əvəzliyi
3. qeyri-müəyyən əvəzlik
4. təyini əvəzlik
5. sual əvəzliyi

A) 1, 3, 4 B) 2, 1, 5, 4 C) 3, 1, 5, 4, 2
D) 2, 5, 4, 3 E) 2, 1, 3

37. Nümunələrdəki əvəzliyin mənaca ***işlənməyən*** növünü müəyyən edin.
- O torpaqda məhsul bol olacaq.
- Hər qaranlıq gecənin bir işıqlı səhəri olur.
- Niyə hamını özün kimi bilirsən?

A) şəxs B) sual C) işarə
D) qeyri-müəyyən E) təyini

38. Hansı cümlədə əşyanı ümumi şəkildə təyin edən əvəzlik işlənmişdir?
A) Biri sazı elə çalır,
Biri sazı belə çalır,
Biri də sazı, elə-belə, çalır. (F. Sadıq)
B) O, key, bu, key,
O key bu keyə deyir:
-Okey! Okey! (F. Sadıq)
C) Hər parıldayanı güzgü bilmə.
D) Mənim bu günümdə gələsən, Nəbi!
Qazamat dalını dələsən, Nəbi!
E) Hara gedir bu cocuqlar, aman, bu boyda, bu boyda?! (M.Ə. Sabir)

CamScanner ile skan edilib

39. Cümlələrin birində "kimsə" əvəzliyi "heç kim" mənasındadır:
A) Kimsə açmaz qapımı badi-səbadan qeyri.
(M. Füzuli)
B) Kimsə səni axtarır.
C) Hər kimsənin var kimsəsi.
D) Kimsə bu işi görməlidir.
E) Kimsə mənə zəng etmişdi, tanımadım.

40. Tərkibində sual əvəzliyi olan hansı cümlə cavab tələb ***etmir***? (Durğu işarələri buraxılmışdır)
A) Bədən ruhun libasına necə bənzəyir
B) Nə vaxtdan insanlıq tarixi düşüncə tarixi hesab olunur
C) Hansı işin, nəticənin mükafatı olduğunu hər kəs bilməlidir
D) İnsanların sirrini saxlamaq niyə böyüklük əlamətidir
E) Hər bir müdrikliyin əsasını nə təşkil edir

41. Əvəzlikdən düzələn sözlərin işləndiyi cümlələri müəyyən edin.
1. Bu sahələr çoxdan özəlləşdirilibdir.
2. Beşinci sinif şagirdləri bütünlüklə deyilənlərə riayət etdilər.
3. Sübhan indi də kimliyini gizlədib aradan çıxmağa çalışırdı.
4. Kimsəsizlik Məmmədin tale yükü idi.
5. Bu torpaqları mənimsəmək üçün çox əlləşmişdi.
A) 2, 4 B) 1, 3, 5 C) 2, 5
D) 3, 5 E) 1, 2, 4

42. Hansı cümlədə əşyanı ümumi şəkildə təyin edən əvəzlik vardır?
A) O mənimlə üç ildir ki, zavodda işləyir, amma kimsə ondan narazı qalmayıb.
B) Kimi maraqlı söhbətlər edir, kimi isə keçmişdən danışırdı.
C) Bu səyahətdən bütün uşaqlar razı qalmışdı.
D) Qonaqlıq zamanı hər şey süfrəyə vaxtında verildi.
E) Heç kim tədbirin belə tez qurtaracağını gözləmirdi.

43. Hansı cümlədə əşyanı ümumi şəkildə təyin edən əvəzlik vardır?
A) Şənlik davam edir, hər həyətdə bayram tonqalları alovlanırdı.
B) Künc tərəfdə oturmuş adam nə isə danışdığı üçün hamı ona diqqətlə qulaq asırdı.
C) Kim isə yavaşcadan içini çəkə-çəkə ağlayırdı.
D) Tədbirdən sonra hərə bir tərəfə yollandı.
E) Hər kəs gördüyü işlərdən danışır, heç kim söhbətdən kənarda qalmaq istəmirdi.

44. Əvəzliyin bütün məna növlərinin işləndiyi cümləni müəyyən edin.
A) Mənim özümün bu işlə nə qədər məşğul olduğumu hamı bilirmi?
B) Vəziyyət elə gətirdi ki, yenə öz kəndimizə qayıtmalı oldum.
C) Bəzi uşaqlar bu meydançaya yığışar, onlar öz aralarında yarış keçirərdilər.
D) Bu baxışlar bizi daha yaxşı işləməyə ruhlandırardı.
E) Bu bütün həyatı boyu heç kəsdən təmənna ummayan sənətkarımız Əbülhəsən idi.

45. Üzərində rəqəm yazılmış hansı sözlər əvəzlikdir?
Sən[1] orda[2] pıçılda, eşidim səni[3],
Özgəsi[4] çağırsa, onda[5] karam mən[6].
(N. Həsənzadə)

46. Hansı cümlələrdə sual əvəzliyi işlənib?
1. Kim vağzala tələsirdi?
2. Salon ulduz kimi parlayırdımı?
3. Qatar nə vaxt keçdi?
4. Bəs mən danışmalıyam?
5. Onlar hansı binaya köçdülər?

47. Hansı cümlələrdə təyini əvəzlik işlənib?
1. Hər çiçəyin öz ətri var.
2. Hərə bir tərəfə dağılışdı.
3. Bütün günü işlədik.
4. Hamı kəndin mərkəzinə toplaşmışdı.
5. Filankəsin qızı filan oynasın...(M.P. Vaqif)

48. Hansı cümlələrdə qeyri-müəyyən əvəzlik işlənmişdir?
1. Amma elələri də var ki, bu peşəni sevmir.
2. Belə getsə, vay halımıza!
3. Biri səhv addım atdımı, onu təkrarlamayın.
4. Nələr olmur bu dünyada?!
5. Onun nə isə yazdığını gördünüzmü?

49. Nümunədəki əvəzliklərin məna növlərini müəyyən edin.
Daha ürkmür adamdan
Bu şəhərin quşları.
Hərə öz işindədir,
Baxan yox quşa sarı. (Ağası Aydın)
1. İşarə 2. Sual 3. Qeyri-müəyyən
4. Şəxs 5. Təyini

50. Nümunədəki əvəzliklərin məna növlərini müəyyən edin.
"*O bilirdi ki, hər dərdə dərman tapmaq hər kəsin işi deyil.*"
1. İşarə 2. Təyini 3. Sual
4. Şəxs 5. Qeyri-müəyyən

51. Məntiqə əsasən klasteri tamamlayın.



1. o 2. bütün 3. bu
4. elə 5. filan 6. həmin

CamScanner ile skan edilib

2. Fərqləndirilmiş sözlərdən əvəzlik ***olmayanı*** müəyyən edin.
1. Bizdən başqa onun <u>kimi</u> var ki?
2. Onun <u>kimi</u> insanlar az tapılır.
3. <u>Hərə</u> işini bir şəkildə qurmağa çalışırdı. (M. Şəhriyar)
4. Şeirlərdən <u>biri</u>, xüsusilə xoşuma gəldi.
5. <u>Biri</u> səndən yaman gileyli danışırdı.

3. Hansı nümunələrdə əvəzlikdən düzələn söz ***işlənməmişdir?***
1. Sənsizlik qəlbimi sıxır, tez qayıt.
2. Heç kimin özəl həyatına qarışmaq olmaz.
3. Hərdən onu parkda şahmat oynayan görürəm.
4. Onluq mismarlardan bir neçəsini mənə verdi.
5. Mənim bu dünyada öz aləmim var,
Sənlə sevincim var, sənsiz qəmim var. (N. Həsənzadə)

4. Hansı cümlələrdə *kimsə* əvəzliyi *heç kim* əvəzliyinin sinonimi kimi çıxış edib?
1. Kimsə qapının arasında dayanıb qonaqları dinləyirdi.
2. Kimsə dəstəyi götürərək ev sahibinin məşğul olduğunu söylədi.
3. Qapı açılanda kimsə eyvanda göründü.
4. Kimsə məni aldada bilməz.
5. Müharibədən sonra o kənddə kimsə qalmamışdı.

5. Uyğunluğu müəyyən edin.

1. Quruluşca yalnız sadə olan əvəzliklər	a. şəxs əvəzliyi
2. Quruluşca hər üç növdə olan əvəzliklər	b. qeyri-müəyyən əvəzliklər
	c. işarə əvəzliyi
	d. sual əvəzliyi
	e. təyini əvəzlik

6. Verilmiş nümunələrdə altından xətt çəkilmiş sözlər əsasında Eyler-Venn diaqramına aid uyğunluğu müəyyən edin.
I – <u>Nə qədər</u> çalışsan da, keçmişi dəyişə bilməzsən, amma gələcək öz əlindədir. (V. Hüqo)
II – <u>Elə</u> danış, desinlər:
"Əsli, kökü olandır". (Aşıq Alı)



a. Əvəzlikdir.
b. Zərfdir.
c. Aid olduğu məna növü bütün əsas nitq hissələrini əvəz edə bilir.
d. Cümlədə kəmiyyət zərfliyi vəzifəsindədir.
e. Aid olduğu məna növünə aid sözlərin hamısı quruluşca ancaq sadə olur.

O, bu əvəzliklərindən sonra vergülün qoyulması

1. Hansı cümlədə "o" əvəzliyindən sonra qoyulmuş vergül işarəsi doğru ***deyil***?
A) O, oxumalı idi.
B) O, məğrur bir vəziyyət aldı.
C) O, atamın yaxın dostudur.
D) O, səyahətdən yorulmayıb.
E) O, 19-cu dəstənin fəxridir.

2. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül işarəsindən istifadə edilə də bilər, edilməyə də bilər?
A) O bağda işləyirdi.
B) O kitabı mənə ver.
C) O gün sən gəlməmişdin.
D) Mən səndən o qələmi istəyirdim.
E) O hətta qonaqlara da məhəl qoymadı.

3. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül işarəsindən istifadə edilə də bilər, edilməyə də bilər?
A) O gün uşaqlar da gəlmişdilər.
B) O səni çoxmu sevindirdi?
C) O da eyvanda dayanıb bizə baxırdı.
D) O yaşıl meydança uşaqlar üçün düzəldilib.
E) O şairin yeni şeirlərini bloknota yazdı.

4. "O" əvəzliyindən sonra qoyulmuş vergül işarəsi hansı bənddə doğrudur?
A) O, şənbə gecəsi, o, qətl günü
Mümkünə döndərdik çox namümkünü.
(B. Vahabzadə)
B) Artıq o, günlər geridə qalmışdır.
C) O, həyatın bərkini, boşunu görmüş adamdır.
D) O, da çox çalışırdı.
E) Sabah o, getməlidir.

5. Hansı cümlədə "bu" əvəzliyindən sonra vergül ***olmamalıdır***?
A) Bu, gün onunla danışacağam.
B) Bu, testlər toplusudur.
C) Bu, deyəsən, onlardandır.
D) Bu, kollektivin iş planıdır.
E) Bu, maraqlı əsərdir.

6. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər?
A) O da bizim kimi həvəslə çalışır.
B) O həm də gözəl qarmon çalır.
C) O universitetdə oxuyuram.
D) O binanın qarşısında dayanıb məni gözləyirdi.
E) O ki yaxşı şagirddir.

7. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər?
A) O heç dəyişməyib.
B) O kəndə getdi.
C) O qalxıb qapıya tərəf getdi.
D) O adamı yaxşı tanıyırıq.
E) O illəri geri qaytara bilməzsən.

CamScanner ile skan edilib

8. Cümlələrin birində vergül düzgün ***qoyulmamışdır***:
A) Bu, çox xeyirxah insandır.
B) Bu, müəllimin kitabıdır.
C) O, gəlməyəcək.
D) O, maraqlı rəvayətləri toplayır.
E) Bu, 20 saylı məktəbin şagirdidir.

9. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül ***qoyulmamalıdır***?
A) O, gözəl mahnıları ilə hamının qəlbini oxşayır.
B) O, həmişə sadə adamlarla görüşməyi sevərdi.
C) Yenə o, gələcək, vəziyyət düzələcək.
D) O, gözəl bir insan idi.
E) O, diqqətlə ətrafı gözdən keçirdi.

10. Cümlələrdən hansında "o" əvəzliyindən sonra vergül qoyula bilər?
A) O günü illərin əlindən aldıq.
B) O da Kərəm deyəni deyirdi.
C) O unutdu elə bil
Dərdini də büsbütün. (B. Vahabzadə)
D) O meşədə tufan yıxmış qoca bir palıd ağacının üstündə oturub oxuyurdu.
E) Qaytarsan o sözləri,
Sözsüz bir lal olarsan. (Ə. Kərim)

11. Hansı cümlədə "bu" əvəzliyindən sonra vergül qoyula bilər?
A) Bu artıq and yerimizə çevrilmiş Şəhidlər xiyabanıdır.
B) Bu böyük istiqlal peyğəmbərinin son vida sözləri idi.
C) Bu həm də çağırış idi.
D) Bu dünya bir qızıl kuzəyə bənzər.
E) Mən bu yoldan dönən deyiləm.

12. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül ***qoyulmamalıdır?***
A) O yaxşı ad qazanıb.
B) O uşaq bağçasında işləyir.
C) O mahir ovçudur.
D) O gözəl sənətkardır.
E) Bu gün o getməlidir.

13. Durğu işarəsinin ***səhv*** işləndiyi cümlələri müəyyənləşdirin.
1. Gülçin, dərslərini hazırla.
2. O, getmir.
3. Bu, mənim kitabımdır.
4. O, nə dinir, nə danışırdı.
5. Bu, güman ki, düz deyil.
A) 2, 5 B) 3, 4, 5 C) 1, 5
D) 1, 2, 3 E) 2, 3, 4

14. "O" əvəzliyindən sonra qoyulmuş vergül işarəsi hansı cümlədə doğrudur?
A) O, ağacları məktəblilər əkmişlər.
B) O, ağaclara qulluq etməyi çox sevir.
C) O, məktəb yarışda qalib gəldi.
D) O, şagird hamının sevimlisidir.
E) O, hadisədən sonra çox sarsılmışam.

15. Hansı nümunələrdə mübtəda vəzifəsində işlənən "o", "bu" işarə əvəzliklərindən sonra vergül səhv qoyulmuşdur?
1. O, həmişə səliqəli geyinir.
2. Bu, yaddaqalan hadisədir.
3. Bu, yazıçının təzə kitabıdır.
4. O, suvaqçıdır.
5. O, gülürdü.
6. Bu, ancaq mənə inanır.
A) 1, 2, 3 B) 3, 4, 5 C) 4, 5
D) 1, 2, 6 E) 5, 6

16. "Bu" əvəzliyindən sonra qoyulmuş vergül işarəsi hansı cümlədə düzgündür?
A) Bu, oxumalı, siz də qulaq asmalısınız.
B) Bu, da mənim gözüm üstə.
C) Bu, dünya, doğrudan da, bir bilməcədir.
D) Yox, yox! Bu, borcumdur, borcumdur mənim.
E) Bu, gecə qorxulu bir yuxu gördüm.

17. *O, əlbəttə, gələcək* cümləsində "o" əvəzliyindən sonra nə üçün vergül qoyulmuşdur?
A) xəbərlə uzlaşma əlaqəsində olduğu üçün
B) şəxs əvəzliyi olduğu üçün
C) cümlənin mübtədası olduğu üçün
D) özündən sonra modal söz işləndiyi üçün
E) şəxs əvəzliyini işarə əvəzliyindən fərqləndirmək üçün

18. "O" əvəzliyindən sonra qoyulmuş vergül işarəsi hansı cümlədə doğru ***deyil***?
A) O, gələcək.
B) O, məğrur bir vəziyyət aldı.
C) O, dostluqda dəyanətlidir.
D) O, səyahətdən yorulmamışdır.
E) O, 19-cu dəstənin fəxridir.

19. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyula da bilər?
A) O gün gələcək.
B) O da bizim günümüzdədir.
C) O işləmir, oxuyur.
D) O artıq düzəlir.
E) O işi xoşlamırdı.

20. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyulmalıdır?
A) O hasarı aşmaq olmaz.
B) O kağızı oxuyan Səməd dərhal köməkçisini çağırdı.
C) O ağıllı, bilikli və vətənini ürəkdən sevən bir insandır.
D) O da haqlıdır.
E) O gəlincə biz getdik.

CamScanner ile skan edilib

21. Hansı cümlədə "bu" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər?
A) Bu adamdan yalnız pislik gözləyirdik.
B) Bu ikili insana niyə inanmalıyam? (B. Vahabzadə)
C) Bu baxışlar məsələni həll etdi.
D) Bu dünyanın oduna gərək yana sənətkar. (B. Vahabzadə)
E) Bu hüquqi dövlətin bizə bəxş etdiyi hüququymuş, bilmədik. (B. Vahabzadə)

22. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyulmalıdır?
A) O ki məni görməmiş axı o vaxtdan bəri. (B. Vahabzadə)
B) O ayaq dəyməyən yaşıl gədikdə
Hər yolçu özünə özü yol açır. (B. Vahabzadə)
C) O sərtliklə bu incəlik
Bir muğamda yanaşıdır. (B. Vahabzadə)
D) O sonsuz səbrinin kasasıyam mən. (B. Vahabzadə)
E) O xalqının üsyan deyən səsidir. (B. Vahabzadə)

23. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyulmalıdır?
A) O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namümkünü. (B. Vahabzadə)
B) Artıq o günlər geridə qalmışdır.
C) O heyrət və çaşqınlıqla üzümə baxdı.
D) O ancaq sənə inanır.
E) Qaytarsan o yerişi, yerindəcə qalarsan. (Ə. Kərim)

24. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül ***qoyulmamalıdır***?
A) O, təkrar çarpayıya uzandı. (İ. Hüseynov)
B) O, xainin dişlərini sındırmadınmı? (M. İbrahimov)
C) O, mahir ovçudur.
D) O, sakit və fikirli idi. (M. İbrahimov)
E) İlk günlər o, tamam bir ümidsizlik içinə düşdü. (M. İbrahimov)

25. Hansı nümunədə "o" əvəzliyindən sonra vergül ***qoyulmamalıdır***?
A) O, sirdaş axtarırdı.
B) O, torpaq istədi səndən bir qarış. (B. Vahabzadə)
C) O, sirri yenə də gizli saxladı.
D) O, qaçır dar döngələrdə. (B. Vahabzadə)
E) O, daxilən sonsuz bir tələş və həyəcan içində idi. (M. İbrahimov)

26. Hansı nümunədə "o" əvəzliyindən sonra vergül ***qoyulmamalıdır***?
A) O, həsrətlə baxdı körpəyə. (B. Vahabzadə)
B) O, qara damda dünyaya gəlmişik. (İ. Hüseynov)
C) O, qızın acıqlı olduğunu əvvəlcədən sezmişdi. (M. İbrahimov)
D) O, bacısından beş yaş böyük idi. (İ. Hüseynov)
E) O, diqqətlə ətrafı gözdən keçirdi.

27. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül işlənə də bilər, işlənməyə də bilər?
A) Universiteti bitirəndən bəri o məktəbdə işləyir.
B) Uşaqlıqdan bəri o ən çox şəkil çəkməyi xoşlayır.
C) Səyahətə gedəcəyimizi o bizə çoxdan söz verib.
D) O da məlumdur ki, rəqib güclüdür.
E) O fikirləşir, problemi necə həll edəcəyini bilmirdi.

28. Cümlələrdən birində "o" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər:
A) O məsələni həll edə bilməmişəm.
B) O kaş səni sevindirsin.
C) O avtobusla gedərsiniz.
D) O qızı yamanca danladı.
E) O oxuyarkən dincəlir.

29. Hansı cümlələrdə "o", "bu" əvəzliklərindən sonra durğu işarələri düzgün ***qoyulmamışdır***?
1. Bu, ömür kitabımdır.
2. O, yerlərin meşələri çox səfalıdır.
3. Hələ o, günləri xeyli xatırlayacaqsan.
4. O, alnına qaldırdığı eynəyini çıxardı.
5. Bu, müəllim IV kursda mühazirə oxuyacaqdır.

A) 2, 4 B) 2, 3, 5 C) 3, 4, 5
D) 1, 2, 3 E) 1, 4

30. Nümunələrin birində vergül düzgün ***qoyulmamışdır***:
A) O, şəxsi mənfəəti üçün çox çalışdı.
B) O, biri ağsaqqalın da saqqalı tərpəndi. (M. Süleymanlı)
C) Yaxşı, biri Bəkirdir, bəs biri kimdir? (M. Süleymanlı)
D) O, yəqin ki, qardaşının yolunu gözləyirdi. (İ. Hüseynov)
E) Anam cümə günü samovar odlayar, ocaq qalardı. (M. Araz)

31. Hansı cümlədə vergül düzgün ***qoyulmamışdır***?
A) Bu, dostumun bağışladığı kitabdır.
B) Hə, dayıoğlu, işlər necədir? (İ. Hüseynov)
C) Bu dəfə o, doğrudan da, qalxmadı. (İ. Hüseynov)
D) Bu, qadın sizin yoldaşınız deyilmi? (İ. Hüseynov)
E) Bu, Oruca məhkəmədə on beş il həbs cəzası kəsilən günü baş verdi. (İ. Hüseynov)

32. Hansı nümunədə "o" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər?
A) O bağa gedirdi.
B) O bunu bilmədi, bilməz heç zaman! (B. Vahabzadə)
C) O həsrətlə baxdı körpəyə. (B. Vahabzadə)
D) Mən səndən o qələmi istəyirdim.
E) O ağlıqda bir qəribə aydınlıq da vardı.

CamScanner ile skan edilib

33. Hansı nümunədə "bu" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər?
A) Bu gün istidir.
B) Bu görülən işləri bəyəndi.
C) Bu da bizim ən müqəddəs arzumuzdur.
D) Bu qatar Təbrizə gedir, gözünüz aydın!
E) Bu ki bizim yerlimizdir!...

34. Hansı cümlədə vergül düzgün qoyulmuşdur?
A) O, əhvalatı mən eşitmişəm. (İ. Hüseynov)
B) Nailə o, vaxtdan qayıtmadı. (İ. Hüseynov)
C) O, kitab oxuyurdu. (İ. Hüseynov)
D) O, nə yaxşı gəldi.
E) O, biri otağa yüyürdüm. (İ. Hüseynov)

35. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər? (Durğu işarələri buraxılmışdır.)
A) O bina bu il istifadəyə verilib.
B) Mən çağırdım, o eşitmədi.
C) O mənimlə üç ildir ki, zavodda işləyir.
D) O dərnəyin üzvüdür.
E) O məktəbin binası üç il bundan əvvəl tikilmişdir.

36. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər? (Durğu işarələri buraxılmışdır.)
A) O durandan sonra hara isə tələsir.
B) Bir ayda o necə də qaralmış və kökəlmişdi.
C) O kitabı vərəqlədi.
D) O buradakı uşaqların hamısından böyük idi.
E) O əsərlər bizim üçün çox qiymətlidir.

37. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər?
A) Yox, yox! O uda bilməz
Bu təhqiri, bu dərdi. (B. Vahabzadə)
B) O binanın qabağında dayandı.
C) O büllur çeşməsindən
Nur içib feyz alalar. (B. Vahabzadə)
D) Nədir o mənalı, dərin baxışlar? (S. Rüstəm)
E) O dayandı, döyükdü,
Səndələdi yerində. (B. Vahabzadə)

38. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər?
A) O nağılı çox maraqla danışardı.
B) O yenə də yem gətirmək üçün yuvasından aralandı.
C) O deyəsən, bizi başa düşmədi.
D) O bunu yaxşı bilirdi.
E) O bu qaçışıyla özündən qaçır. (B. Vahabzadə)

39. Hansı nümunələrdə "o" əvəzliyindən sonra vergül işarəsindən istifadə qaydası düzgündür?
1. O, şam kimi yanır. 2. O, şam da tək yanır.
3. O, bayram şamıdır. 4. O, da şamtək yanır.
A) 1, 3 B) 1, 4 C) 1, 2 D) 2, 4 E) 2, 3

40. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül ola da bilər, olmaya da bilər?
A) O məktəbdə qardaşım oxuyub.
B) O bizimlə meşəyə getmişdi.
C) O oxuyarkən kənardan heç nə eşitmir.
D) O ki yaxşı oxuyurdu.
E) O söhbətə çox həvəslə başladı.

41. Hansı nümunədəki "o" əvəzliyini həm şəxs, həm də işarə əvəzliyi kimi düşünmək olar? (Durğu işarələri buraxılmışdır)
A) O adamla illərdir ki, dostluq edirəm.
B) O heç kimlə məsləhətləşmədən getmişdi.
C) O məktəbdə hamının sevimlisi idi.
D) O yanı taxta, bu yanı taxta,
Şahqulu bəy otaqda. (Tapmaca)
E) O qələmi mən kiçik bacıma almışam.

42. Hansı cümlədə "o", "bu" əvəzliyindən sonra vergülün qoyulmasında ***səhv*** var?
A) O, həqiqətən, bilikli şagirddir.
B) O, on birinci sinfi bu il qurtaracaq.
C) O, üç bacının böyüyüdür.
D) Bu, ailənin mehribanlığı başqalarına da nümunədir.
E) Bu, indicə çəkdiyim rəsmlərdən biridir.

43. Hansı cümlədə mübtəda vəzifəsində işlənən "o" əvəzliyindən sonra vergül qoyulmalıdır?
A) O bir söz dedimi, heç bir zaman unutmaz. (C. Cabbarlı)
B) O ancaq sənə inanır.
C) O gəlib çatanda hava qaralırdı.
D) O çayı keçmək üçün yaxınlıqdakı qayıqdan istifadə etdim.
E) O həmin adamdır.

44. Hansı cümlədə mübtəda vəzifəsində işlənən "bu" əvəzliyindən sonra vergül qoyulmalıdır?
A) Bu indi çox yaxşı tikir.
B) Bu yalnız qonaqlar üçün hazırlanıb.
C) Bu kəndin axşamları həmişə sərin olur.
D) Bu sənin üçün aldığım kitabdır.
E) Bu tələbənin sözləri məni düşündürdü.

45. Hansı cümlədə "o" əvəzliyindən sonra vergül qoyula da bilər, qoyulmaya da bilər?
A) O artıq bizi çox narahat edir.
B) O meşəyə doğru qaçırdı.
C) O təbii ki bunu bilirdi.
D) O günləri Solmaz tez-tez xatırlayır.
E) O ən yaxın dostumdur.

46. Durğu işarəsinin ***səhv*** işləndiyi cümlələri müəyyən edin.
1. Bu, keçmiş sədrdir, lap dilənçi kökündədir ki. (M. İbrahimov)
2. Bu, zalım fələk onların başına nə gətirdi, ana? (M. İbrahimov)
3. Bu, dildədir yüz abidə, min abidə. (X. Rza)
4. Bu, axı nə müsibətdir bizim başımıza gəldi? (M. İbrahimov)
5. Bu, güman ki, düz deyil.

CamScanner ile skan edilib

7. Durğu işarəsinin ***səhv*** işləndiyi misraları müəyyən edin.
1. Dəxi kim qaldı, xudaya, bu, vilayətdə mənə?!
(M.Ə. Sabir)
2. O, həsrətlə baxdı körpəyə. (B. Vahabzadə)
3. Çəkdi o, yerlərə çəmən, çay məni. (Ə. Rza)
4. O, torpaq istədi səndən bir qarış. (B. Vahabzadə)
5. Ovçu, insaf elə, keçmə bu, düzdən (S. Vurğun)

Əvəzliyin cümlədə rolu

1. Şəxs əvəzlikləri və qeyri-müəyyən əvəzliklər, əsasən, hansı cümlə üzvləri vəzifəsində işlənir?
A) mübtəda və tamamlıq B) təyin və tamamlıq
C) zərflik və təyin D) xəbər və zərflik
E) tamamlıq və zərflik

2. İşarə əvəzliklərinin əsas sintaktik vəzifəsi:
A) zərflik B) xitab C) tamamlıq
D) təyin E) mübtəda

3. Cümlələrdən hansında qeyri-müəyyən əvəzlik mübtəda vəzifəsindədir?
A) Sənə deyiləcək sözlərim çoxdur.
B) Onu dinlədikcə keçmiş günlər gözlərim önünə gəlirdi.
C) Bəziləri bu işin məsuliyyətini dərk etmirlər.
D) Elələrinin dərsi vaxtında verilməlidir.
E) Sənə dost desəm, dilim qurusun.

4. Hansı cümlədə əvəzlik təyin vəzifəsindədir?
A) Sizin yazılarınız diqqətlə yoxlanıldı.
B) Mənim fikrimə hamı şərik çıxdı.
C) Bizim sözümüz qətidir.
D) Həmin günləri unuda bilmirəm.
E) Onların işi çətinə düşüb.

5. Əvəzlik hansı cümlə üzvü vəzifəsində işlənmişdir?
Bütün tələbələr imtahana yaxşı hazırlaşıblar.
A) xəbər B) təyin C) tamamlıq
D) mübtəda E) zərflik

6. Biri hal şəkilçisi qəbul edərək cümlədə yer zərfliyi ola bilər:
A) sən B) biz C) hər kəs
D) kim isə E) eyni

7. Biri hal şəkilçisi qəbul edərək cümlədə yer zərfliyi ola bilər:
A) siz B) sən C) hər kəs D) mən E) bəzi

8. Biri hal şəkilçisi qəbul edərək cümlədə yer zərfliyi ola bilər:
A) sən B) onlar C) kim isə
D) mən E) biri

9. Nümunələrin birində işarə əvəzliyi ismi əvəz edir, mübtədadır:
A) Bu məhz xalqın azadlığa çağırış səsidir.
B) Bu hisslər onu rahat buraxmırdı.
C) Belə adamlardan uzaq olmaq lazımdır.
D) Xəlil Rza ancaq belə şeirlər yaza bilərdi.
E) Belələrinə nə deyəsən?

10. Hansı cümlədə işarə əvəzliyi feillə əlaqələnmişdir?
A) Belə xətti olan azdır.
B) Belə işlərin səmərəsi çox olur.
C) Belə söz-söhbətdən sonra o razılaşmaz.
D) O heç vaxt belə danışmazdı.
E) Dostum belə məni anlamırdı.

11. Hansı cümlədə işarə əvəzliyi isimlə əlaqələnmişdir?
A) Biz sizinlə elə razılaşmamışdıq.
B) Otağı elə təmizləməyin.
C) Elə hamımızın istəyi budur.
D) Sən də elə hazırlaşmalısan.
E) Elə işlər gör ki, peşman olmayasan.

12. Nöqtələrin yerinə uyğun gələn ifadəni müəyyən edin.
O, ...
A) kimdir? B) buradadır C) oxumayıb
D) da şairdir E) yer gözəldir

13. "O", "bu" əvəzliklərinin təyin vəzifəsində işləndiyi cümlələri müəyyən edin.
1. Bu ömür kitabımdır.
2. O cənnətin irmaqları "Allah" deyir.
3. O sənlə açıq danışmalıdır.
4. Demə o dostumdur, bu düşmənimdir.
5. Bu oğlan sizi görmək istəyir.
A) 4, 5 B) 2, 3 C) 3, 4 D) 2, 5 E) 1, 2

14. "Belə" sözü hansı cümlədə əvəzlik ***deyildir***?
A) Belə etsən, peşman olmazsan.
B) Belə hadisələrə az təsadüf olunur.
C) Dostları belə ona salam vermirdilər.
D) Özünü belə fitnəkarlardan qoru.
E) Onun iş qaydası belədir.

15. "Elə" sözü hansı cümlədə əvəzlikdir?
A) Elə o da bizim dostumuzdur.
B) Elə insanlara ehtiyacımız çoxdur.
C) Müəllimin tapşırdıqlarını elə.
D) Elə hamınız bir-birinizin tayısınız.
E) Elə, obaya xəyanət edənin cəzası böyükdür.

16. Hansı cümlədə işarə əvəzliyi təyin vəzifəsindədir?
A) Gələn odur.
B) Bunlara çox dedim, az eşitdilər.
C) Məsələ haqda mənim fikrim belədir.
D) Yoxlamanın nəticəsi də bunu təsdiq etdi.
E) Həmin kitab çox maraqlıdır.

17. Birində "o" əvəzliyini həm mübtəda, həm də təyin kimi düşünmək olar:
A) Həsən müəllim xəyalən tez-tez o doğma yerlərə gedərdi.
B) Əvvəllər Gülnara o qədər də inanmırdım.
C) O heç dumanlı dağları, aranı gəzməmişdi.
D) O tərəflər bizim oylağımız idi.
E) Yuxusunda da o meşələri, dağları görərdi.

CamScanner ile skan edilib

18. Birində "o" əvəzliyini həm mübtəda, həm də təyin kimi düşünmək olar:
A) O yerlərin mənzərəsi ürəkaçandır.
B) O gözəl qızı tanıyıram.
C) Şəkillərdə o doğma yerlərin mənzərəsinə həsrətlə tamaşa edərdi.
D) Mən o qızı axtarırdım.
E) Bizim o göllərdə çöl quşları çox idi.

19. Nümunədəki əvəzliklər haqqında fikirlərdən hansı ***yanlışdır***?
Özünü bilməyən bilməz kimsəni,
Əyriyə əyilər, düzə əyilməz.
Şahidim, vəkilim, hakimim mən,
Qaçmaq mümkünmüdür bu məhkəmədən?
(B. Vahabzadə)
A) Şəxs əvəzliyi adlıq haldadır.
B) Əvəzliklərdən biri həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul etmişdir.
C) Əvəzliklərin hamısı ismi əvəz etmişdir.
D) Qeyri-müəyyən əvəzlik tamamlıq vəzifəsindədir.
E) Şəxs əvəzliyi baş üzv vəzifəsində işlənib.

20. Əvəzliklərdən biri yalnız bir cümlə üzvü kimi işlənə bilir:
A) hara B) necə C) nə qədər
D) kim E) hər

21. Mənsubiyyət və hal şəkilçili qeyri-müəyyən əvəzliyin işləndiyi nümunələri müəyyən edin.
1. Hərənizin qapısında beş-altı inək, on-on beş qoyun var.
2. Onların xəbərini kimsədən ala bilmədik.
3. Hər kəs gələcək taleyini özü müəyyən etməlidir.
4. Bəzilərinin danışmağa mənəvi haqqı yoxdur.
5. Hamımızdan iş tələb olunur.
A) 2, 4 B) 2, 3 C) 1, 3, 5
D) 1, 4, 5 E) 1, 3, 4

22. Hansı cümlədə əvəzliyi həm tamamlıq, həm də zərflik kimi düşünmək olar?
A) Sizdən qayıdanda çox gec idi.
B) Onlara xəbər verin ki, gecikməsinlər.
C) Bu kitablardan onlarda da var.
D) Yaxşı xidmətə görə onlardan razı qaldılar.
E) Gündə bizə ərzaq gətirirdilər.

23. Hansı cümlələrdə qeyri-müəyyən əvəzlik mübtəda vəzifəsində işlənmişdir?
1. Kimsə burada açıq danışmaqdan çəkinməsin.
2. Hər kəsi dindirsən, sənə Koroğludan danışacaq.
3. Heç kəs unudulmur, heç nə yaddan çıxmır.
4. Heç kimi bu hadisəyə görə günahlandırmadılar.
5. Hərə közü öz qabağına çəkir.
6. Neçə gündür ki, birinin yolunu gözləyirəm.

24. Hansı cümlələrdə "o", "bu" əvəzlikləri təyin vəzifəsində işlənmişdir? (Bəzi durğu işarələri buraxılmışdır.)
1. Bu ömür kitabımdır.
2. O illər arxada qaldı, baba.
3. O sənin lə gizli söhbət etməlidir.
4. Demə o dostumdur, bu düşmənimdir.
5. Bu vətən kimindir?
6. O insanı unutmaq mümkünmü?

25. Nümunələrdə işlənmiş əvəzliklərə əsasən Eyler-Venn diaqramına aid uyğunluğu müəyyən edin.
Sənsiz necə dözüm qəmə, möhnətə? *Özümü öldürrəm, düşsən qürbətə.*



a. Zərfi əvəz etmişdir.
b. Mənsubiyyət şəkilçisi qəbul edib.
c. Quruluşuna görə sadədir.
d. Hallanmışdır.
e. Şəxs əvəzliyidir.

26. Uyğunluğu müəyyən edin.
1. Qeyri-müəyyən əvəzliyin mübtəda vəzifəsində işləndiyi cümlə
2. Qeyri-müəyyən əvəzliyin tamamlıq vəzifəsində işləndiyi cümlə
3. İşarə əvəzliyinin xəbər vəzifəsində işləndiyi cümlə
a. Kiməsə minnət qoymaq artıq işdir.
b. Bu işdə heç kimi günahlandırmıram.
c. Qarşılamağa heç kim gəlməmişdi, çox narahat idi.
d. Məsələnin əsas mahiyyəti budur.
e. Hər şeydən danışanlar heç nə bilməyənlərdir.

Əvəzliyin morfoloji xüsusiyyətləri

1. Həm insana, həm digər canlılara, həm də cansız əşyalara aid olan şəxs əvəzliyi hansıdır?
A) I şəxs tək, III şəxs cəm
B) I şəxs cəm, II şəxs tək C) II şəxs tək
D) II şəxs cəm E) III şəxs tək və cəm

2. Hansı cərgədəki əvəzliklər birbaşa hallana ***bilmir***?
A) öz, hər B) heç kim, heç nə
C) biri, bəziləri D) onlar, hamı E) hansı, nə

3. Hansı cümlədə işarə əvəzliyi ismin yerində işlənmişdir?
A) Elə yaz ki, oxuna bilsin.
B) O ağac bəzək ağacıdır.
C) Elə kitab ələ düşməz.
D) Bu uşaq əlaçıdır.
E) Bunu diqqətlə oxuyun.

4. Hansı sırada söz birləşmələrinin birinci tərəfi əvəzliklə ifadə olunmuşdur?
A) bu kitab, həmin ev, gedilməli yol
B) hansı tələbə, neçə otaq, gələn qonaqlar
C) bu kitab, deyilən sözlər, həmin ev
D) hansı otaq, neçə tələbə, bu kitab
E) neçə tələbə, oxunmuş kitablar, bu kitab

CamScanner ile skan edilib

Hansı əvəzliklər mənsubiyyət şəkilçisi ilə işlənə *bilmir*?
A) öz, heç nə B) hara, kim C) kimsə, nə
D) o, bu E) heç kim, mən

Hansı cümlədə işarə əvəzliyi ismin yerində işlənmişdir?
A) Bunu özümə götürürəm.
B) O uşaq əlaçıdır.
C) Belə günləri unutmaq olmaz.
D) Bu çiçək dağlarda bitir.
E) Haqqında danışdığım bu oğlandır.

Hansı cümlədə işarə əvəzliyi sifətin yerində işlənmişdir?
A) Ona nə dedilərsə, xəfif bir təbəssüm nazik dodaqlarını tərpətdi.
B) Əslinə baxsan, o gəlməyindən narazı deyildi.
C) Mən gələn il üçüncü kursda oxuyacağam.
D) Bu söhbətlər anamı darıxdırırdı.
E) Elə sürücü də maşını çox sürətlə sürürdü.

Hansı əvəzliklər mənsubiyyət şəkilçisi qəbul edə *bilmir*?
A) hərə, heç kim B) hamı, heç kəs
C) bəzi, biri D) kim, öz
E) kim isə, həmin

Hansı nümunədə əvəzlik zərfi əvəz edib?
A) Həmin əhvalat bizi təəccübləndirdi.
B) Bəziləri toplaşırlar.
C) Belə danışırlar.
D) Elə söhbətlər bizi narahat edirdi.
E) Özüm işimi vaxtında gördüm.

10. Nümunədə əvəzliklər hansı nitq hissələrini əvəz etmişdir?
Mən meydan əriyəm, sən də bir kişi,
Mərdliklə seçilir hər mərdin işi.
A) isim, sifət B) sifət, zərf C) zərf, isim
D) say, sifət E) isim, say

11. Sifətin yerində işlənmiş əvəzlik hansı cümlədədir?
A) Elə deyin ki, qətiyyən inciməsin.
B) Elə hamı mən deyəni deyir.
C) Elə tələbə var ki, kitabxanadan çıxmır, elə hey oxuyur, öyrənir.
D) Elə danışır ki, guya heç nədən xəbəri yoxdur.
E) Elə bilirdim ki, məktəb illərinin sonu olmayacaq.

12. Nümunədəki əvəzlik hansı nitq hissəsinin yerində işlənmişdir?
Kimsə təkbaşına dünyanı udmaz,
Yalqız bir insanın şahlığı tutmaz. (N. Gəncəvi)
A) say B) sifət C) isim D) feil E) zərf

13. Əlamətlərdən biri şəxs əvəzliklərinə aid ola *bilməz*:
A) mənsubiyyətə görə dəyişməsi
B) təkdə və cəmdə olması
C) cümlənin mübtədası, tamamlığı, xəbəri olması
D) hallanması
E) xəbərlik (şəxs) şəkilçisi qəbul etməsi

14. "*Bu bizim ən müqəddəs vəzifəmizdir*" nümunəsində "bu" işarə əvəzliyi hansı nitq hissəsini əvəz etmişdir?
A) əvəzliyin B) sifətin C) ismin
D) zərfin E) sayın

15. "*Vətən kimlərindir?*" – *soruşdu oğlum* nümunəsində altından xətt çəkilmiş sözlə bağlı ***səhvi*** müəyyənləşdirin.
A) Cəm şəkilçisi qəbul etmişdir.
B) Sual əvəzliyidir.
C) Cümlənin xəbəridir.
D) Mənsubiyyət şəkilçilidir.
E) İsmi əvəz etmişdir.

16. "*Bu vətən bizimdir*" nümunəsində altından xətt çəkilmiş sözlə bağlı ***səhvi*** müəyyənləşdirin.
A) Mənsubiyyət şəkilçisi qəbul etmişdir.
B) Şəxs əvəzliyidir. C) Cümlənin xəbəridir.
D) İsmi əvəz etmişdir. E) Yiyəlik haldadır.

17. Hansı cərgədəki əvəzliklər hallana ***bilməz***?
A) öz, filan B) onlar, hamı C) hamı, hərə
D) biri, kimi E) nə, kim

18. Hansı cərgədəki əvəzliklər hallana ***bilmir***?
A) heç kim, heç nə B) biri, hamı C) hər, filan
D) özüm, özü E) kim, nə

19. Hansı cümlədə əvəzlik sifəti əvəz etmişdir?
A) Mənim də istədiyim odur.
B) Bu hər kəsin yaddaşına həkk olunan hadisə idi.
C) Mən bunu çoxdan demişdim.
D) Bu əməliyyat çoxdan aparılmalı idi.
E) Elə o da məsələdən xəbərdar idi.

20. Hansı cümlədə əvəzlik sifəti əvəz etmişdir?
A) Elə danışmaq lazımdır ki, gecikən olmasın.
B) Elə danışır ki, guya heç nədən xəbəri yoxdur.
C) Elə mən də onu deyirəm.
D) Elə söz var ki, demək olmur.
E) Elə bilirdim ki, məktəb illərini asanlıqla unudacağam.

21. Hansı şəxs əvəzliyi haqqında danışılanı bildirir?
A) I şəxs tək, III şəxs cəm
B) III şəxs tək və cəm
C) I şəxs cəm, II şəxs tək
D) II şəxs tək, I şəxs cəm
E) II şəxs cəm, I şəxs tək

22. Əvəzliklərin birində hal şəkilçisi ***yoxdur***:
A) sizə B) birinə C) hamıda
D) hərə E) hər nədən

CamScanner ile skan edilib

23. *Bu dünyanı mən təcrübə eylədim,*
Namərd birdir, onda iki ad olmaz. (Aşıq Ələsgər)
Nümunədəki əvəzliklər ardıcıl olaraq hansı nitq hissəsini əvəz etmişdir?
A) isim, isim, zərf B) sifət, isim, zərf
C) isim, isim, isim D) sifət, isim, isim
E) sifət, isim, sifət

24. Zərfi əvəz etmiş işarə əvəzliyi hansı cümlədə işlənib?
A) Elə görüşlərin sayı birdi, ikidi?
B) Belə gündə insana arxa durmaq lazımdır.
C) Belələrini çox görmüşük, ay bala!
D) Müəllimlər belə bu işə təəccüb etdilər.
E) Belə işləsək, axşama işi qurtararıq.

25. Həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul etmiş əvəzlik hansı cümlədə işlənib?
1. Özündən soruş, desin.
2. Kimsədən soruşmazdı.
3. Beləsini qovmaq lazımdır.
4. Özünlə aparsan yaxşı olar.
5. Hərəsi bir söz deyirdi.
A) 3, 5 B) 1, 3 C) 1, 2, 4
D) 1, 5 E) 2, 3, 4

26. Qeyri-müəyyən əvəzliklərdən biri bütün şəxslər üzrə mənsubiyyət şəkilçisi qəbul edə bilir:
A) bir neçəsi B) hər şey C) hər biri
D) kim isə E) hamı

27. *O qansız cəllada bunlar gərəkdir,*
Onun yalanları axdı hər yerə (B. Vahabzadə)
nümunəsindəki əvəzliklər hansı nitq hissələrini əvəz etmişdir?
A) zərfi və ismi B) ismi və sayı
C) sifəti və zərfi D) sifəti və ismi
E) sayı və sifəti

28. "*Mən öz biliyi sayəsində böyük ixtiralara imza atan onlarla alim tanıyıram*" cümləsindəki əvəzliklər hansı nitq hissəsini əvəz etmişdir?
A) sayı və sifəti B) ismi və zərfi
C) ismi və sifəti D) ismi və sayı
E) zərfi və sifəti

29. Hansı sırada söz birləşmələrinin hamısının birinci tərəfi əvəzliklə ifadə olunmuşdur?
A) hər adam, bu kitab, yazılan məqalə
B) həmin ada, bir neçə kitab, filanıncı ev
C) elə məktəb, eyni fikir, bütün insanlar
D) bəzən oxuyan, elə danışan, neçə kitab
E) həmin ev, bu qanun, özgə fikir

30. Cümlələrdəki əvəzliklərin hallarının müvafiq ardıcıllığını müəyyən edin.
1. Heç kəsin əməyini itirmək olmaz.
2. Qohumun kimdir? – Ən yaxın qonşum.
3. Dumanda heç nə görmək olmurdu.
4. Heç nədən qorxmaq lazım deyil.
5. Kitabım kimdədir?
A) yiyəlik, adlıq, təsirlik, çıxışlıq, yerlik
B) adlıq, yiyəlik, təsirlik, çıxışlıq, yerlik
C) yerlik, təsirlik, yiyəlik, adlıq, çıxışlıq
D) adlıq, yiyəlik, çıxışlıq, yerlik, təsirlik
E) yiyəlik, adlıq, adlıq, yerlik, adlıq

31. Cümlələrdəki əvəzliklərin hallarının müvafiq ardıcıllığını müəyyən edin.
1. Heç kəsin zəhmətini danmaq olmaz.
2. Tənbəl kimdir? – İşini vaxtında görməyən.
3. Qaranlıqda heç nə görmək olmurdu.
4. Heç kimdən incimək lazım deyil.
5. Elin gücü nədədir?
A) yiyəlik, adlıq, adlıq, yerlik, adlıq
B) adlıq, yiyəlik, təsirlik, çıxışlıq, yerlik
C) yerlik, təsirlik, yiyəlik, adlıq, çıxışlıq
D) adlıq, yiyəlik, çıxışlıq, yerlik, təsirlik
E) yiyəlik, adlıq, təsirlik, çıxışlıq, yerlik

32. Nümunələrdən birində "nə" əvəzlikdir:
A) Nə gözəl yaraşır Muğana ceyran! (S. Vurğun)
B) İndi nə gəzməli havadır ...
C) Bu nə gözəl baladır!
D) Orxan nə yatır, nə dincəlirdi.
E) Ana, bu işə sən nə deyirsən?

33. Hansı cümlədə "elə" əvəzliyi sifəti əvəz etmişdir?
A) Elə danışır ki, dinləməkdən doymaq olmur.
B) Elə ol ki, nəsildə hamı səndən ibrət alsın.
C) Elə yaz ki, səhvin olmasın.
D) Bizə elə sürücü lazımdır ki, yolu yaxşı tanısın.
E) Elə işlə ki, sənə baxıb həvəsə gəlsin.

34. Hansı cümlədə altından xətt çəkilmiş sözü həm əvəzlik, həm də say kimi düşünmək olar?
A) Onlarla insan tərəddüd içində idi.
B) Adam onlarla iftixar hissi keçirirdi.
C) Biz onlarla heç razılaşa bilmədik.
D) Onlarla görüşəndə rahat oluram.
E) Onlarla adam iftixar hissi keçirirdi.

35. Sual işarəsinin yerinə qoyula biləcək sözü müəyyən edin.



A) zərf B) isim C) sifət
D) say E) əvəzlik

36. *Hamı dindi, can oldu,*
Mən dinəndə qan oldu.
Nümunədəki əvəzliklərlə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Eyni məna növündədir.
B) Sualları eynidir. C) Quruluşca sadədir.
D) İsmi əvəz etmişdir. E) Hallana bilir.

CamScanner ile skan edilib

37. Nümunədəki əvəzliklər haqqında hansı fikir *səhvdir*?

Sən mənim könlümü sındırdın nahaq,
Gedəndə özünü sındırmadın heç.
Neçə məktubumu yandırdın, ancaq
Ümid ulduzumu yandırmadın heç. (Ə. Nəcəfxanlı)

A) Əvəzliklərin hamısı ismi əvəz etmişdir.
B) Əvəzliyin mənaca üç növünə aid nümunə işlənmişdir.
C) Əvəzliklərin hamısı quruluşca sadədir.
D) Hal şəkilçisi qəbul etmiş əvəzliklər müstəqil şəkildə cümlə üzvü deyil.
E) Əvəzliklərdən biri mübtəda vəzifəsindədir.

38. Ardıcıl olaraq isim, sifət, zərfi əvəz edən əvəzliklərin işləndiyi nümunəni müəyyən edin.

A) Səni məndən soruşsalar nə deyim?
B) Mən bu tamaşadan necə əl çəkim? (M. Müşfiq)
C) Onlar bizlə müqayisədə necə adamlardır?
D) Başəriyyəti dəyişdirmək istəyən hər kəs özünü dəyişmək istəmir. (L.N. Tolstoy)
E) Mən səni heç kəsdən soruşammıram. (Ə. Nəcəfxanlı)

39. Mənsubiyyət və hal şəkilçili əvəzliyin işləndiyi nümunəni müəyyənləşdirin.

A) Üçündən biri odunu yarmalıdır.
B) Məsələnin hamımıza aidiyyəti var.
C) Hamıdan əvvəl Nazim müəllim dilləndi.
D) Cəmşid kişi hər kəsin hörmət etdiyi ləyaqətli bir insandır.
E) İndi tədbirə başqasını çağırdılar.

40. Mənsubiyyət və hal şəkilçili əvəzliyin işləndiyi nümunəni müəyyənləşdirin.

A) Kimsə Bəxtiyarı çağırdı.
B) Heç kəsin qəlbinə toxunmayın.
C) Başqasının işinə qarışmaq olmaz.
D) Hər kəs xoşladığı yeməkləri sifariş verdi.
E) Hərəmizə müxtəlif tapşırıqlar verilmişdi.

41. Nümunələrdən birində mənsubiyyət və hal şəkilçili qeyri-müəyyən əvəzlik işlədilmişdir:

A) Özünüzü ələ alın, xanım, hər şey yaxşı olacaqdır.
B) Məsələ ilə bağlı hamınızdan cavab tələb olunur.
C) Eləsini təyin edin ki, işçilərlə yola getsin.
D) Birisi qapını bərk-bərk döyürdü.
E) Məndən soruşma, "niyə"sini özündən soruş.

42. Nümunələrdən birində mənsubiyyət və hal şəkilçili qeyri-müəyyən əvəzlik işlədilmişdir:

A) Dərsi yaxşı öyrənməsəniz, özünüzü günahkar bilin.
B) Kimsənin qanunu pozmağa haqqı yoxdur.
C) Hərənizdən bir söz eşidir, birinizdən dəqiq bir fikir öyrənə bilmirik.
D) Kimisi də ortada yeyib qıraqda gəzir.
E) Hər kəsin arzusu yüksək bal toplamaqdır.

43. *Heç kimsə gəlib soruşdumu ki, necə yaşayırsan?* Nümunədəki əvəzliklərlə bağlı ***yanlış*** fikri müəyyən edin.

A) "Heç" və "kimsə" sözləri mürəkkəb əvəzlik yaradıb.
B) Qeyri-müəyyən və sual əvəzlikləri işlənmişdir.
C) Əvəzliklər ismi və zərfi əvəz edib.
D) Bu əvəzliklərin oxşar cəhəti var.
E) Biri mübtəda, digəri isə zərflik vəzifəsində işlənmişdir.

44. *Olsan öz haqqının köləsi belə,*
Əri öz içində, öləzi belə.
Ondan inciyənin beləsi belə,
Mən belə dünyanın nəyindən küsüm? (M. Araz)
Nümunədəki əvəzliklər haqqında hansı fikir ***səhvdir***?

A) 3-cü misrada ismi əvəz edən iki əvəzlik işlənmişdir.
B) İlk 2 misradakı "belə" sözləri işarə əvəzliyidir.
C) Nümunədə həm sifəti, həm zərfi əvəz edən işarə əvəzliyi işlənmişdir.
D) Əvəzliyin məna növlərindən birinə aid nümunə yoxdur.
E) 4-cü misradakı əvəzliklərdən biri müstəqil şəkildə cümlə üzvü deyil.

45. Hansı nümunələrdə "elə" əvəzliyi zərfi əvəz etmişdir?

1. Qüdrət elə bilirdi ki, bu yüksək təpələri onun ordusu ala bilər.
2. Elə bu vaxt səngərə bir yaralı gətirdilər.
3. Cəbhə həyatında elə sükutla qarşılanacağını gözləmirdi.
4. Elə yazır ki, oxumaq olmur.

46. Klasteri tamamlayın.

Şəxs əvəzlikləri
1. İsmi əvəz edir.
2.
3.

1. Hər üç şəxsin təkində və cəmində işlənə bilir.
2. Hallanır.
3. Mənsubiyyətə görə dəyişir.
4. III şəxs əvəzlikləri yalnız insana aiddir.

47. Fərqləndirilmiş sözlərdən əvəzlik olanı müəyyən edin.

1. Nə düşünürsən?
2. Nə ətdir, nə də balıq
3. Nə yaxşı gəldin, məni intizarda qoymadın.
4. Necə qıyım ev-eşiyə,
Yaralı könlüm üşüyə? ("Koroğlu" dastanından)
5. Necə gözəl günlərimiz vardı.

CamScanner ile skan edilib

48. Hansı nümunələrdə fərqləndirilmiş söz əvəzlikdir?
1. Elə sən də onun kimi danışırsan.
2. Neyləyim, sən elə, mən də beləyəm.
3. Divanın üzlüyünü yamamaq üçün biz almışam.
4. Paraya dəymə, bütünü kəsmə, doğra, doyunca ye. (Atalar sözü)
5. Onda mən balaca uşaq idim.
6. Mənim bir neçə kitabım onda qalmışdı.

49. *Niyə yaşayıram mən, niyə sənsiz?*
Nə yerə baxıram, nə göyə sənsiz.
Mən ki kor olmuşam hər şeyə sənsiz.
Kor gözün üstündə qaşı neylərəm? (B. Vahabzadə)
Nümunədəki əvəzliklər haqqında hansı fikirlər ***səhvdir***?
1. "Mən" şəxs əvəzliyidir.
2. "Nə" sual əvəzliyidir.
3. "Neylərəm" sual əvəzliyidir.
4. "Sənsiz" şəkilçi qəbul etmiş şəxs əvəzliyidir.
5. "Hər" təyini əvəzlikdir.
6. "Hər şey" qeyri-müəyyən əvəzlikdir.

50. Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyənləşdirin.

51. *"Sən mənim gəldiyimdən necə xəbər tutdun?"* cümləsində işlənən əvəzliklərlə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Əvəzliklərdən biri mənsubiyyətə görə dəyişib.
2. Həm ismi, həm də zərfi əvəz edən əvəzlik var.
3. Hamısı quruluşca sadədir.
4. Əvəzliklərdən biri zərflik vəzifəsindədir.
5. Bütün əvəzliklər adlıq haldadır.

52. *Araqçının məndədir,*
Sərmişəm, çəməndədir.
Dünya gözələ dönsə,
Mənim gözüm səndədir.
Bayatıda işlənən əvəzliklərlə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Bütün əvəzliklər şəxs əvəzliyidir.
2. Hamısı hal şəkilçisi ilə işlənmişdir.
3. Mənsubiyyət şəkilçili əvəzlik var.
4. Xəbər vəzifəsində olanları var.
5. I şəxsin təkində olan əvəzlik tamamlıq vəzifəsindədir.

53. Həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul etmiş əvəzlik hansı cümlələrdə işlənib?
1. Özünüzdən nümunələr söyləyin, uşaqlar.
2. Kimsədən bunları soruşmazdı.
3. Eləsinə fikir vermə, bala.
4. Özünlə aparsan, yaxşı olar.
5. Hərəsi bir söz deyirdi.
6. Belələrindən yaxşılıq gözləmə.

54. Həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul etmiş əvəzlik hansı cümlələrdə işlənib?
1. Sən özünə əmin deyilsən.
2. Bunları hamıya deyə bilərsən.
3. Beləsini vaxtında qiymətləndirmək lazımdır.
4. Elələrinə ehtiramla yanaşırlar.
5. Onun kimsədən qorxusu yoxdur.
6. Sizin arxa-dayaq saydığınız bunlardırmı?

55. Mənsubiyyət və hal şəkilçili işarə əvəzliyinin işləndiyi nümunələri müəyyənləşdirin.
1. Sizinkilər hələ gəlib çıxmayıblar.
2. "Sapı özümüzdən olan baltalar"ı ifşa etsək, elələrinə dərs olar.
3. Belələrinə şərait yaratmaq lazımdır ki, istedadını nümayiş etdirə bilsin.
4. Heç kim ruhdan düşməsin, özünü itirməsin.
5. Sən də bizimlə gedərsənmi, bacı?

56. Mənsubiyyət və hal şəkilçili qeyri-müəyyən əvəzliyin işləndiyi nümunələri müəyyənləşdirin.
1. Dedilər ki, heç nəyə toxunmaq olmaz.
2. Bu sual uşaqların hamısına verilə bilər.
3. Dövlətimizin daha da qüdrətlənməsi üçün hər birimiz çalışmalıyıq.
4. Mən sizin hərənizə bir tapşırıq verəcəyəm.
5. Eləsinin cavabını vaxtında verərlər.

57. İşarə əvəzlikləri ilə bağlı ***yanlış*** fikirləri müəyyənləşdirin.
1. *Həmin* əvəzliyi sifəti əvəz edə bilir.
2. "*Bu mənə tanış gəlir*" cümləsində işarə əvəzliyi sifəti əvəz edib.
3. *Bu* əvəzliyi *hansı?* sualına cavab verəndə ondan sonra vergül qoyulmur.
4. "*Elə mən də sən deyəni deyirəm*" cümləsində işarə əvəzliyi yoxdur.
5. "*Kərimzadə sabah ora gedəcək*" cümləsində altından xətt çəkilmiş söz işarə əvəzliyidir.

CamScanner ile skan edilib

8. İşarə əvəzlikləri ilə bağlı doğru fikirləri müəyyənləşdirin.

1. *"Bura Vətəndir, Gülü bitəndir..."* nümunəsində altından xətt çəkilmiş söz işarə əvəzliyidir.
2. *Həmin* əvəzliyi, əsasən, sifəti əvəz edir.
3. *O* əvəzliyi *hansı* sualına cavab verəndə ondan sonra vergül qoyulmur.
4. *"Elə biz də sizinlə həmfikirik"* cümləsində işarə əvəzliyi işlənmişdir.
5. *"Bu mənə tanış gəlir"* cümləsində işarə əvəzliyi sifəti əvəz etmişdir.

9. Eyler-Venn diaqramına əsasən düzgün fikirləri müəyyən edin.



1. I şəxsi bildirən əvəzlikdir.
2. Yiyəlik halda -in şəkilçisi qəbul edir.
3. Omonimliyi var.
4. Həm *kim?* həm də *nə?* sualına cavab verir.
5. Həm insana, həm də digər canlı və cansız varlıqlara aid ola bilər.
6. Əvəzliyin iki növünə aiddir.

10. Klasteri tamamlaya bilən fikirləri müəyyən edin.



1. Əvəz etdiyi əsas nitq hissəsinin bir çox xüsusiyyətlərinə malik olur.
2. Əvəzliyi əvəz edə bilmir.
3. Bitişik, defislə və ayrı yazıla bilir.
4. Bütün nitq hissələrini əvəz edir.
5. Özünəməxsus sualı yoxdur.

61. *Mən səni görəndən bəri*
Sinəm olub qəm dəftəri.
Öldür Aşıq Ələsgəri,
Özün günahkar ol, yaylaq.
Nümunədəki əvəzliklər haqqında hansı fikirlər ***yanlışdır***?

1. Üç əvəzlik işlənmişdir.
2. Əvəzliyin iki məna növü işlənmişdir.
3. Əvəzliklərdən ikisi ismi, biri sifəti əvəz etmişdir.
4. Əvəzliklərdən ikisi mübtəda, biri tamamlıqdır.
5. Əvəzliklərdən yalnız biri müstəqil cümlə üzvüdür.

62. Eyler-Venn diaqramında yol verilmiş *sahə*lərə müəyyən edin.



63. Eyler-Venn diaqramına əsasən müqayisə edin.



a. İsmi əvəz edir.
b. Mənsubiyyətə görə dəyişə bilənləri də var.
c. Cümlədə mübtəda və tamamlıq ola bilir.
d. Qoşmalarda işlənə bilir.
e. Quruluşca yalnız sadə olur.

64. Eyler-Venn diaqramına əsasən cümlələrdə işlənmiş əvəzlikləri müqayisə edin.

I *Hər kəs gəlib buğanı məğlub etsə, demək ki, əsl qəhrəmandır.*
II *Hər bölgənin özünəməxsus adət-ənənəsi var.*



a. İsmə aid olur, onu ümumi şəkildə təyin edir.
b. Qeyri-müəyyən şəxsi bildirir.
c. Quruluşca sadədir.
d. Təyin vəzifəsindədir.
e. Əvəz etdiyi nitq hissəsinin sualına cavab verir və onun funksiyalarını daşıyır.

Feil

Feilin quruluşca növləri

1. Sadə feillər cərgəsini müəyyən edin.
A) əymək, göndərmək, çalışmaq
B) enmək, düşünmək, görülmək
C) diləmək, söyləmək, düşürmək
D) dincəlmək, dərdləşmək, dinləmək
E) darıxmaq, darılmaq, dartınmaq

2. Sadə feillər cərgəsini müəyyən edin.
A) alçalmaq, barışmaq, yarışmaq
B) yazışmaq, küsüşmək, soruşmaq
C) oturtmaq, bərkitmək, ulaşmaq
D) didişmək, boğuşmaq, ağlaşmaq
E) bozarmaq, göyərmək, qaralmaq

3. Hansı cümlədə feildən düzələn feil işlənmişdir?
A) O bu görüşdən xeyli şadlandı.
B) Arif bu barədə heç fikirləşməmişdi.
C) Kəndin kənarında qoyunlar mələşirdi.
D) Səkinəni görəndə Gülzarın rəngi ağardı.
E) Gözümdə saralır sünbülün dəni...

4. Hansı sıra feildən düzəlmiş feillərdən ibarətdir?
A) ağarmaq, azalmaq
B) gizləmək, sözləşmək
C) bozarmaq, başlanmaq
D) yazılmaq, tutdurmaq
E) hallanmaq, hirslənmək

5. Hansı cərgə isimdən düzəlmiş feillərdən ibarətdir?
A) qızarmaq, saralmaq
B) belləmək, ruhlanmaq
C) yollanmaq, göyərmək
D) düzəlmək, genəlmək
E) görüşmək, çağırmaq

6. Sifətdən düzəlmiş feillər cərgəsini müəyyən edin.
A) yazışmaq, tutulmaq
B) bozarmaq, açıqlamaq
C) yuxulamaq, yaşlanmaq
D) kədərlənmək, üzləmək
E) şübhələnmək, hesablaşmaq

7. Sadə feillərdən ibarət cərgəni müəyyən edin.
A) söyləmək, başlamaq, səsləmək, bələmək, gizləmək
B) işləmək, tuşlamaq, gizləmək, söyləmək, sulamaq
C) söyləmək, saxlamaq, dinləmək, bələmək, gizləmək
D) gözləmək, saxlamaq, dinləmək, bəsləmək, bələmək
E) izləmək, gizləmək, səsləmək, gözləmək, saxlamaq

8. "Rəqəmlərdə çoxalmaq və azalmaq, cisimlərdə genişlənmə və sıxılmaq qanuni haldır" cümləsində hansı sözlər başqa nitq hissəsindən düzəlmiş feildir?
A) 1, 4 B) 2, 3, 4 C) 3, 4, 5
D) 2, 5 E) 1, 2, 3

9. "*Atılıb-düşmək, yazıb-pozmaq, gəlib-getmək*" mürəkkəb feilləri hansı yolla əmələ gəlib?
A) omonim feillərin birləşməsi ilə
B) antonim feillərin birləşməsi ilə
C) müxtəlifmənalı feillərin birləşməsi ilə
D) sinonim feillərin birləşməsi ilə
E) tərəfləri məcazi məna ifadə edən sözlərin birləşməsi ilə

10. Nümunələrin birində feil sxeminə uyğundur:
A) O, əsəri bitirdi.
B) At suyu acgözlüklə içirdi.
C) Yenə uzaqlara köçürsən.
D) Deyəsən, səhərlər qaçırsan.
E) Atam tez-tez səfərə çıxırdı.

11. Düzəltmə feillər sırasını müəyyən edin.
A) duzlamaq, dağılmaq, gülümsəmək
B) köçürmək, sildirmək, danışmaq
C) qışqırmaq, baxdırmaq, ağlamaq
D) söndürmək, alçalmaq, gülüşmək
E) aşırmaq, susdurmaq, oturtmaq

12. Hər üçü düzəltmə feildir:
A) bozarmaq, yaşarmaq, dinləmək
B) oxutmaq, aparmaq, süzdürmək
C) görüşmək, yazışmaq, gəlmək
D) yatırmaq, uçurmaq, artırmaq
E) yoxlatmaq, axtarmaq, baxışmaq

13. Hansı cümlələrdə sadə feil işlənmişdir?
1. Maşını saxlayıb fikirlərini anlada bilmişdi.
2. Gülzar sevinclə atılıb-düşür, deyib-gülürdü.
3. Elanı oxuyanlar təşəkkür etdilər.
4. Mərkəzdən təşrif buyuranlar bizimlə də tanış oldular.
5. Onu anladıqca təəssüflənirdim.

14. Hansı cümlələrdə altından xətt çəkilmiş ifadə mürəkkəb feil ***deyil***?
1. Mən bu kəndi alınmaz qala bilirəm.
2. Yurdun hər guşəsində istədiyim qədər qala bilərəm.
3. Ömrünün hər gününü şeir qoşa-qoşa yaşayıb.
4. Atlar çəmənlikdə qoşa-qoşa otlayırdı.
5. Yayda bu romanı dönə-dönə oxumuşam.
6. O, geriyə dönə-dönə hərəkəti nizamlamağa çalışırdı.

CamScanner ile skan edilib

15. İki leksik şəkilçisi olan feilləri müəyyən edin.

1. darandım
2. yandırıldı
3. bağlanıb
4. yəhərləndi
5. vidalaşdı
6. görüşdü
7. böyütdü
8. qarşılandı

16. İki leksik şəkilçisi olan feilləri müəyyən edin.

1. danladım
2. təmizlətdim
3. təzələndi
4. salamlaşdı
5. yoxlandı
6. baxıldı

17. "*Oxudun*" sözünün quruluşca sadə olduğunu nəzərə alaraq, doğru fikirləri müəyyən edin.

1. Feilin xəbər şəklində işlənib.
2. İcbar növdədir.
3. Vurğusu 3-cü hecadadır.
4. *Oxutmaq, oxuyucu, oxudulan* sözləri ilə eyniköklüdür.
5. Feilin əmr şəklində işlənib.

18. Feildən düzələn feilləri müəyyən edin.



19. Feildən feil düzəldə bilər:



20. Doğru fikirləri müəyyən edin.



21. Doğru fikirləri müəyyən edin.

Feilin qrammatik məna növləri

1. Feillərdən biri qayıdış növdədir:

A) öyrənmək B) oxunmaq C) bürünmək
D) tikilmək E) çalınmaq

2. Feillərdən biri icbar növdədir:

A) yandırmaq B) barışdırmaq
C) sökdürmək D) çaxnaşdırmaq
E) söndürmək

3. Qarşılıq-birgəlik növdə olan feil hansı cümlənin tərkibindədir?

A) Qonaqlar bu barədə danışmadılar.
B) Dostları Cəmilin qolundan bərk-bərk yapışmışdılar.
C) Bəziləri vəziyyətdən istifadə edib aləmi qarışdırırlar.
D) Ruhum təzələnir, məst olur ürək. (Aşıq Ələsgər)
E) Mələşmir sürülər, kişnəmir atlar. (Aşıq Ələsgər)

4. Məchul növdə olan feil hansı cümlənin tərkibindədir?

A) Sonalar yerişi ondan öyrənib. (Aşıq Ələsgər)
B) Açılsın gülün, nərgizin,
Təzə mürguzar ol, yaylaq. (Aşıq Ələsgər)
C) Nə göyçək görünür üzündə xalın. (Aşıq Ələsgər)
D) Seyr etmir köysündə türfə gözəllər,
Sancılmır buxağa güllərin, dağlar. (Aşıq Ələsgər)
E) Mələşmir sürülər, kişnəmir atlar,
Niyə pərişandı halların, dağlar?! (Aşıq Ələsgər)

5. Feillərdən birindən məchul, icbar və qarşılıq-birgəlik növlərdə olan feil yaratmaq mümkündür:

A) bilmək B) oxumaq C) güləşmək
D) döymək E) dinləmək

6. Feillərdən birindən məchul, icbar və qarşılıq-birgəlik növlərdə olan feil yaratmaq mümkündür:

A) dayanmaq B) eşitmək C) işləmək
D) üfürmək E) yazmaq

7. İcbar növdə olan feil hansı cümlənin tərkibindədir?

A) O, bağının məhsulunu bazarda satdırardı.
B) Həm sevgi bəsləyir, həm can yandırır.
C) Sönük duyğuları işıqlandırır.
D) Öldür Aşıq Ələsgəri, özün günahkar ol, yaylaq.
E) Kosa tamaşaçıları güldürür, uşaqları əyləndirirdi.

Qaraçuxalı nəşriyyatı

8. Hansı sıradakı feillərdən biri subyekt tələb edir, digəri isə tələb ***etmir***?
A) əməl edildi, yazıldı
B) yuyundu, yuyuldu
C) dilləndi, deyindi
D) tikildi, görüldü
E) baxıldı, deyildi

9. Hansı cərgədə feillərdən biri qayıdış, digəri məchul növdədir?
A) baxıldı, sürüldü
B) yazıldı, yazışdı
C) göndərildi, dərildi
D) döyündü, döyüldü
E) oxundu, çatdırıldı

10. Feillərdən biri icbar növdə ***deyil***:
A) qazdırtdım
B) yazdırtdım
C) sildirtdim
D) ağartdım
E) əkdirtdim

11. Hansı cümlədə məlum növdə olan feil işlənib?
A) Zirzəmidə köhnə çap maşınları saxlanırdı.
B) Tez bir zamanda çadırlar quruldu.
C) Mən sənin dilinə dəymirəm, cəllad!
Gəl sən də bu ana dilimə dəymə. (S. Rüstəm)
D) Əmr olundu ki, sənədlər yoxlanılsın.
E) Bir mən deyiləm ki, hüsnünə heyran,
Şöhrətin yayılıb hər yana, ceyran. (S. Vurğun)

12. Hansı feil məchul və qayıdış növlərdə fərqli şəkilçi qəbul edir?
A) bürü(mək)
B) dara(maq)
C) bəzə(mək)
D) tut(maq)
E) de(mək)

13. Məlum növdə olan feillər sırasını müəyyən edin.
A) ayılmaq, qışqırmaq, qazanmaq
B) qaralmaq, sarılmaq, yarılmaq
C) oynatmaq, yudurtmaq, sevdirmək
D) alovlanmaq, sağalmaq, asılmaq
E) yığışmaq, oturmaq, bürüşmək

14. Altından xətt çəkilmiş sözlərə əsasən verilmiş fikirlərlə nümunələr arasında uyğunluğu müəyyən edin.
1. Cümlənin mübtədası yoxdur və hərəkətin subyekti məlum deyil.
2. Cümlənin mübtədası var, lakin hərəkətin subyekti məlum deyil.
3. Subyekt hərəkəti öz üzərində icra edir.
4. Subyekt hərəkəti başqasına icra etdirir.
5. Hərəkət bir neçə subyekt tərəfindən icra olunur.
a. Qəflətən qapı <u>açıldı</u>.
b. Uzun ayrılıqdan sonra dostlar <u>görüşdülər</u>.
c. Atam həyətdə su quyusu <u>qazdırdı</u>.
d. Xəbərdarlıqdan sonra qaydalara <u>əməl edildi</u>.
e. Günortaya yaxın buludlar dağıldı, hava <u>açıldı</u>.
A) 1 – e; 2 – c; 3 – d; 4 – b; 5 – a
B) 1 – b; 2 – e; 3 – a; 4 – c; 5 – d
C) 1 – c; 2 – a; 3 – e; 4 – d; 5 – b
D) 1 – d; 2 – a; 3 – e; 4 – c; 5 – b
E) 1 – a; 2 – e; 3 – c; 4 – d; 5 – b

15. Altından xətt çəkilmiş feilləri nəzərə almaqla uyğunluğu müəyyən edin.
1. Cümlənin mübtədası yoxdur və hərəkətin subyekti məlum deyil.
2. Cümlənin mübtədası var, lakin hərəkətin subyekti məlum deyil.
3. Subyekt hərəkəti öz üzərində icra edir.
4. Subyekt hərəkəti başqasına icra etdirir.
5. Hərəkət bir neçə subyekt tərəfindən icra olunur.
a. Səməni xoşbəxtlik gətirən amil kimi həmişə <u>tərənnüm edilmişdir</u>.
b. Tyan-Şan dağları ətəyində ərəb ordusu ilə Çin ordusu <u>görüşdü</u>.
c. Aynur müəllim şagirdlərinə peyzaj <u>çəkdirdi</u>.
d. Burada verilən bütün göstərişlərə <u>əməl edilib</u>.
e. Yazın orta ayı olduğundan təbiət yaşıl dona <u>bürünmüşdü</u>.
A) 1 – e; 2 – d; 3 – c; 4 – a; 5 – b
B) 1 – a; 2 – c; 3 – b; 4 – e; 5 – d
C) 1 – d; 2 – b; 3 – e; 4 – c; 5 – a
D) 1 – d; 2 – a; 3 – e; 4 – c; 5 – b
E) 1 – c; 2 – a; 3 – e; 4 – d; 5 – b

16. *"Oğlan tələsə-tələsə gedir, arabir arxaya baxır, sonra sürətini daha da artırırdı"* cümləsindəki feillər hansı qrammatik məna növündədir?
A) məlum
B) məchul
C) qayıdış
D) icbar
E) qarşılıq-birgəlik

17. Məlum növdə olan feillərdən ibarət cərgəni müəyyən edin.
A) qocaldı, barışdı, dağıldı
B) yazıldı, qarşılandı, bayıra atıldı
C) udqundu, tutuldu, düşündü
D) yarışdı, döyüşdü, sözləşdilər
E) yudurtdu, doğratdı, nallatdı

18. Hansı cümlənin feili qayıdış növdədir?
A) Mən dünənki söhbəti davam etdirdim.
B) Sizin təkliflərinizə əməl edilir.
C) Onun bu təklifi xüsusilə nəzərə alındı.
D) Qapı birdən-birə taybatay açıldı.
E) Dan yeri yenicə sökülürdü.

19. Qayıdış və icbar növ feillər işlənmiş cərgəni müəyyən edin.
A) yazılmaq, açılmaq, baxdırmaq, çalışmaq
B) döyünmək, geyinmək, sildirmək, əkdirmək
C) baxılmaq, alınmaq, baxmaq, üzülmək
D) çalışmaq, yazışmaq, gəzdirmək, yazdırmaq
E) aldırmaq, alışmaq, vuruşmaq, dondurmaq

20. İcbar və qarşılıq növ feillər işlənmiş cərgəni müəyyən edin.
A) gülüşmək, doluşmaq, uzaqlaşmaq, söndürmək
B) görüşmək, döyüşmək, yazılmaq, yandırtmaq
C) yudurtmaq, düzdürmək, görüşmək, yazışmaq
D) silinmək, yuyunmaq, aldırmaq, qorunmaq
E) bölmək, vurmaq, görüşdürmək, söndürmək

Camscanner ilə skan edilib

21. Birgəlik feillər cərgəsini müəyyən edin.
A) yazılmaq, qurulmaq, çalınmaq
B) mələşmək, dağılışmaq, hürüşmək
C) geyinmək, soyunmaq, yuyunmaq
D) sildirmək, oturtdurmaq, güldürmək
E) didişmək, deyişmək, bağlaşmaq

22. Hansı cümlədəki feil məchul növdədir?
A) Hamının nəzəri səhnədəkilərə dikilmişdi.
B) Ocaq alovlandı.
C) Bu il səpin vaxtında keçirildi.
D) Qocaldır insanı, qocaldır zaman.
E) Duman dağlardan çəkildi.

23. Məchul və qarşılıq-birgəlik növdə olan feillər cərgəsini müəyyən edin.
A) oxutdurmaq, süzmək, itirmək, yandırmaq
B) söykənmək, açılmaq, görünmək, dilləşmək
C) burulmaq, durulmaq, danışmaq, çalışmaq
D) döyülmək, alınmaq, vuruşmaq, yazışmaq
E) yazdırmaq, aldırmaq, ağlatmaq, büzmək

24. İcbar növdə olan feillərin cərgəsini müəyyən edin.
A) yazdırmaq, sildirmək, qazdırmaq
B) döyüşürük, yandırdı, gülüşmək
C) gülüşdük, geyindi, düzülür
D) yandırmaq, sındırmaq, dondurmaq
E) çatdırmaq, başladı, açılır

25. Nöqtələrin yerinə hansı söz əlavə olunsa, altından xətt çəkilmiş söz qayıdış feil olar?
... bəzəndi
1. Validə 2. Otaq
3. Oxuyan 4. Aktrisa 5. Səhnə
A) 1, 2 B) 3, 5 C) 2, 4
D) 2, 3, 5 E) 1, 3, 4

26. Birgəlik növdə olan feil hansı cümlədədir?
A) Analarının getmək istədiyini görən körpələr yenə ağlaşdılar.
B) Məktəblilər xarici dostları ilə yazışırlar.
C) Əsgərlər səhərəcən vuruşdular.
D) Dostlar görüşdülər.
E) Qonaqlar ağbirçək qadınla qucaqlaşdılar.

27. Hansı cümlədə feillər məchul, məlum və qayıdış növdədir?
A) Divar dibində qalın döşəklər qoyulmuş, rəflərə isə çini qablar düzülmüşdü.
B) Qazlar uçub onlara yaxın gələrkən oxlar yaylarından ayrıldı, vıyıltı ilə yuxarı uçdu.
C) Gündüz yağan yağış gecə qara çevrildi, hər tərəf ağ örtüyə büründü.
D) Əsgər yıxıldı, başındakı dəbilqə yerə düşdü.
E) Qapılar, pəncərələr taybatay açılır, gələn dəstəyə maraqla baxan adamların başı görünürdü.

28. Hansı cümlədə feillərin hər ikisi icbar növdədir?
A) Biz bu binanı tikdirdik ki, özümüzdən sonra iz qalsın.
B) Bir azdan işıqları yandırıb şən musiqi sədaları altında rəqs etməyə başladılar.
C) Şiddətli külək əsəndə meşədəki ağaclar yırğalanır, bəziləri sınıb yıxılırdı.
D) O, kəndə yol çəkdirdi, biz isə açılışa gedə bilmədik.
E) Musa adamları cəld bayıra çıxartdırdı, qapını da arxadan bərk-bərk bağlatdırdı.

29. Feillərdən birini işlənmə yerinə görə həm qayıdış, həm məchul növ kimi düşünmək mümkündür:
A) dartışmaq B) qazılmaq C) yazılmaq
D) atılmaq E) oxunmaq

30. Hansı nümunədə hərəkətin subyekti təsriflənən feilə aid ***deyil***?
A) Elm bütün qapıları açar.
B) Ağılla yaşanan həyatın sonu xoşbəxtliklə bitir.
C) Həyat bir kölgəyə bənzəyir.
D) Pis əxlaq yaraya oxşayır.
E) Körpü onu keçənindir.

31. İcbar növdə olan feillər sırasını müəyyən edin.
A) bildirdi, görürdü, unutdu
B) qazdırdı, biçdirdi, yudurtdu
C) oturtdu, güldürdü, sildirdi
D) açdırdı, bağlatdırdı, düzüldü
E) bəzətdirdi, gətirdi, itirdi

32. Məchul növdə olan feilləri müəyyən edin.
A) eşitdi, çapıldı, uçuruldu
B) yıxıldı, sevindi, yoruldu
C) deyildi, tapıldı, görüldü
D) açıldı, yuyundu, şadlandı
E) qızardı, bozardı, göründü

33. Hansı cərgədəki feillərə *-dır*^{4} şəkilçisini artırdıqda icbar növdə olan feil ***düzəlmir***?
A) pozmaq, səpmək, açmaq
B) sınmaq, yanmaq, sönmək
C) tikmək, qazmaq, çəkmək
D) silmək, almaq, demək
E) yazmaq, döymək, oxutmaq

34. Eyler-Venn diaqramına əsasən sual işarəsinin yerinə uyğundur:



A) məlum növ B) birgəlik növ E) qayıdış növ
C) qarşılıq növ D) məchul növ

Cəmcəmiyyət ilə skan edilib

35. Nöqtələrin yerinə hansı ifadə əlavə olunsa, ilk söz həm hərəkətin obyekti, həm də subyekti kimi düşünülə bilər?
O, həyətdə ...
A) güldü B) ayaq saxladı C) darandı
D) danışacaq E) fikirləşir

36. Qrammatik məna növünə görə fərqli feil işlənmiş cümləni müəyyən edin.
A) Bütün mülkü dövlətə təhvil verilsin.
B) Bu bitki növünə ölkəmizdə də təsadüf olunur.
C) Bir azdan çay stəkanları paylandı.
D) Qapılar bərk-bərk bağlandı.
E) Onun haqqında mərkəzi qəzetlərdə də məqalələr çap olunurdu.

37. Qrammatik məna növünə görə fərqli feil işlənmiş cümləni müəyyən edin.
A) İki gün sonra hər tərəf yoxlanıldı.
B) Uşaqlar quyunun başında yuyunurdular.
C) Yaralı zabit səngərə yıxıldı.
D) Xanım tez kənara çəkildi.
E) Həyəcandan ürəyi tez-tez döyünürdü.

38. Məlum növdə olan təsriflənən feil hansı cümlədədir?
A) Otağın pəncərəsini taybatay açdırdı.
B) Gecədən yağan yağış səhərə yaxın kəsildi.
C) Gizlədilmiş silahlar həyətdən tapıldı.
D) Jurnalistlərin bütün suallarına dəqiq cavab verir.
E) Külək əsdikcə güllərin xoş ətri ətrafa yayılırdı.

39. Hansı feil məchul və qayıdış növlərdə eyni şəkilçi qəbul edir?
A) döy(mək) B) bəzə(mək) C) de(mək)
D) yu(maq) E) gey(mək)

40. Feilin qrammatik məna növlərindən birinə aid şəkilçilərin eyni bir sözdə işləndiyi nümunəni müəyyən edin.
A) Rəssamlar İttifaqı məşhur sənətkarın rəsmini hazırlatdırmışdı.
B) Ev-muzey özündə bütün eksponatları cəmləşdirməlidir.
C) Biz ona ürək sözlərimizi deyəsi idik.
D) Dərsdən sonra bizə gəlin.
E) Əmim hər sözə əhəmiyyət verməzdi.

41. Nümunədəki feillərin qrammatik məna növünün ardıcıllığını müəyyən edin.
Yoldaşları ilə ayaqlaşmaq, işi vaxtında başa çatdırmaq ona mümkünsüz görünürdü.
A) birgəlik, icbar, qayıdış
B) məlum, məlum, qayıdış
C) məlum, icbar, məchul
D) məlum, məchul, icbar
E) qarşılıq, məlum, məlum

42. Hansı cümlələrdə məchul feil işlənib?
1. Burada keçən il yonca əkilmişdir.
2. Ümumi iclasın qərarı bizə oxundu.
3. Bağımızdakı güllər təzə açılmışdı.
4. Düşmənin işğal etdiyi torpaqlar yenidən geri alındı.
5. Duman dağlardan çəkildi.
A) 2, 3 B) 1, 2, 4 C) 3, 4, 5
D) 1, 5 E) 2, 5

43. Cümlələrin hansında feil qarşılıq-birgəlik növdədir?
1. Rəfiqələr bir-birini salamladılar.
2. Rəfiqələr salamlaşdılar.
3. Rəfiqələr salamlaşmadılar.
4. Qonaqlar məktəblilərlə vidalaşdılar.
A) 2 və 4 B) 2 və 3 C) 3 və 4
D) 1 və 2 E) 1 və 3

44. Feilin qrammatik məna növlərinə görə məntiqi ardıcıllığı gözləməklə sıranı tamamlayan sözü müəyyən edin.
danışıldı, dostlaşdılar, tikdirdik, göründü, ...
A) dalaşdılar B) oxuyardıq C) gəlməlidirlər
D) dillənsin E) gözəlləşir

45. Feilin qrammatik məna növlərinə görə məntiqi ardıcıllığı gözləməklə sıranı tamamlayan sözü müəyyən edin.
deyildi, oynayardı, qarşılaşdılar, qazdırdı, ...
A) çalışdı B) vidalaşdı C) oxundu
D) geyindi E) pozdurdu

46. İcbar növdə olan feillərin işləndiyi cümlələri müəyyən edin.
1. Lampanı yandır. 2. Uşaqları öyrət.
3. Lövhəni sildir. 4. Məktubu yazdırt.
5. Qərara alınır.

47. Məlum növdə ***olmayan*** feillərin işləndiyi cümlələri müəyyən edin.
1. Gün çıxdı. 2. Səhər açıldı.
3. Yarpaq saraldı. 4. Duman çəkildi.
5. Uşaq dərsini oxudu. 6. Hava qaraldı.

48. Məchul feil işlənmiş cümlələri müəyyən edin.
1. Gavalılar sulandı, gilas, ərik yetişdi.
2. Fermer təsərrüfatına məxsus olan sahələr suvarıldı.
3. Yağış suyu həyətin ortasında gölləndi.
4. Bütün otaqlar səliqə ilə yığışdırılmışdı.
5. Bu qarışıq zamanda çoxları varlandı.

49. İcbar feil işlənmiş cümlələri müəyyən edin.
1. Adil əmim içəri daxil olan kimi bizə acıqlandı və böyrü üstə düşmüş stulu qaldırdı.
2. Xalam özünə təzə köynək toxudurdu.
3. İdarənin bütün sənədlərini yoxlatdırdılar.
4. Yusif içəri keçib işıqları yandırdı.
5. Hökmdar müqəssiri tapdırdı.

Camscanner ile skan edilib

50. Hansı feillər icbar növdədir?
1 2 3 4 5
qaldırmaq, pozdurmaq, söndürmək, qazdırmaq, sındırmaq

51. Hansı feillər icbar növdədir?
1 2 3 4 5
güldürmək, sildirmək, dondurmaq, sökdürmək, yandırmaq

52. Hansı cümlələrdə qarşılıq-birgəlik növə aid feil işlənmişdir?
1. Dostlar xudahafizləşdilər.
2. Küsülülər barışdılar.
3. Biz onunla tez-tez görüşürük.
4. Onlar vətən uğrunda vuruşublar.
5. Qəriblə Qumru mehribancasına salamlaşdılar.

53. Hansı cümlədə həm qayıdış, həm də məchul növdə olan feil işlənmişdir?
1. Yaşıllıqlar məhv edilir, su get-gedə çəkilirdi.
2. Dan yeri sökülür, səhər açılırdı.
3. Əli baltalılar ayaq saxlasın,
Yaşını kəsənlər başını kəsər.
(S. Vurğun)
4. Yaradılan tabloda nar rənginin müxtəlif çalarları görünür və hamını heyrətə gətirəcək bir vəziyyət alınırdı.

54. Düzgün fikirləri müəyyən edin.
1. "*Hallandı*" feilinin kökü və başlanğıc forması eyni deyil.
2. Təsriflənən feillər də təsriflənməyən feillər kimi tərkib yarada bilər.
3. Məlum növdə olan feillər quruluşca sadə, düzəltmə və mürəkkəb ola bilər.
4. "*Atıldı*" feilini həm məchul, həm də qayıdış növ kimi düşünmək olar.
5. "*Çataq*" sözü feilin yalnız bir şəkli kimi düşünülə bilər.

55. Feillərin qrammatik məna növlərinə görə işlənmə ardıcıllığını müəyyən edin.
Dağların dumanı, çəni çəkilir.
Yenə də fikirləri qarışmışdı.
Bu il xeyli taxıl əkilmişdir.
Yazıların çoxunu pozdurdular.
1. məchul növ 2. qayıdış növ
3. icbar növ 4. məlum növ

56. Feillərin qrammatik məna növlərinə görə işlənmə ardıcıllığını müəyyən edin.
• *Dan yeri yenicə sökülürdü.*
• *İdmançılar daha inamla güləşirdilər.*
• *Artıq köhnə binalar sökülür.*
• *Yeni binanın özülünü dərin qazdırdılar.*
1. məchul növ 2. qayıdış növ
3. icbar növ 4. məlum növ

Feilin şəkilləri. Feilin zamanları. Təsdiq və inkar feillər

1. Nümunədəki şəxsə görə dəyişən (təsriflənən) feillər hansı şəkillərdədir?
Getsin cəhənnəmə hər qara maşın,
Ağlamaq öyrənmə, dik olsun başın.
Ağlasan, qəlbinə axsın göz yaşın;
Kimsə hiss etməsin,
Kimsə görməsin. (N. Kəsəmənli)
A) xəbər, əmr B) əmr, lazım C) arzu, vacib
D) əmr, şərt E) şərt, lazım

2. Nümunədəki şəxsə görə dəyişən (təsriflənən) feillər hansı şəkillərdədir?
Füzuli eşidib tutsaydı xəbər,
Məcnuna gizlincə nəsə deyərdi.
Kərəmin gözünə dəysəydi əgər,
Əsli yox, bəlkə də, Həcər deyərdi. (H. Arif)
A) şərt, xəbər B) əmr, vacib C) arzu, lazım
D) xəbər, əmr E) şərt, lazım

3. *Gedim, həyətdəki quyudan su gətirim, gülləri sulayım.* (C. Cabbarlı) cümləsindəki feillərin şəklini müəyyən edin.
A) arzu şəkli B) xəbər şəkli C) əmr şəkli
D) lazım şəkli E) vacib şəkli

4. Hansı feil lazım şəklindədir?
A) gəldi B) oxuyasınız C) öyrənməliyəm
D) biləsiniz E) gələsiyəm

5. Şərt şəklində işlənmiş feil hansıdır?
A) yanılsa B) səpilibsə C) işləyirdisə
D) gələrsə E) bağlandısa

6. Şərt şəklində işlənmiş feil hansıdır?
A) qurtararsa B) oxuyubsa C) axtarırsa
D) yanaşılsa E) yollandısa

7. "*Oxuyasınız*" sözü feilin hansı şəklindədir?
A) şərt B) lazım C) vacib
D) xəbər E) arzu

8. Birində *imiş* köməkçi sözü (hissəciyi) feilin lazım şəklinə artırılıb:
A) baxası imiş B) baxacaqmış C) baxsa imiş
D) baxırmış E) baxmalı imiş

9. Xəbəri feilin indiki zamanında olan cümləni müəyyən edin.
A) Sənə görə gedib evin istisində oturum?
B) Baladadaşın əl-ayağı sözünə baxmırdı.
C) Qurbağaların qurultusu aləmi başına götürmüşdü.
D) Keçdim artıq gülə-gülə mən ələmdən nəşəyə.
(S. Rüstəm)
E) Bülbül zar-zar ağlar çəməndən ayrı. (S. Rüstəm)

Camscanner ile skan edilib

10. Uyğunluğu müəyyən edin.
1. keçmiş zamanda işlənmiş feil olan cümlə
2. indiki zamanda işlənmiş feil olan cümlə
3. gələcək zamanda işlənmiş feil olan cümlə

a. Nüsrət dayı uzun illər idi ki, neft mədənində usta köməkçisi kimi çalışırdı.
b. Axşamdan qurduğu saatın zənginə oyanan Mələk xoş ovqatla yataqdan qalxdı.
c. Tarix yazanlar nöqtəni, adətən, qələmlə qoyurlar.
d. Bir vaxtlar o da bu ocağa tez-tez gələrdi.
e. Gecədən xeyli keçmiş, bütün şəhər yatmışdı.

A) 1 – c, e; 2 – d; 3 – a, b
B) 1 – a, d; 2 – b, c; 3 – e
C) 1 – b, e; 2 – a, c; 3 – d
D) 1 – b, d; 2 – a, c; 3 – e
E) 1 – a, b; 2 – e; 3 – c, d

11. Gələcək zamanda olan feillər cərgəsini müəyyən edin.
A) yazasıdır, pozar, gülməz
B) gəlməz, oxuyar, baxar, qalmaz
C) olacaqdı, gəldi, oxuyur, bilər
D) deyər, dəyir, gördü, sürər
E) dinləyərdi, söyləyirmiş, aldanır, dözməz

12. Keçmiş zamanda ***olmayan*** feillər cərgəsini müəyyən edin.
A) ölçübdür, biçibdir, çıxdı, getdi
B) güldülər, gördülər, bildilər, bilib
C) alacaqmışsan, gəlirsənmiş, oxuyurmuş, dərəcəkmiş
D) sevdinsə, gəlmişdir, bilmişdir, görmüşsən
E) pozmuşsan, görmüşdür, oxumuşam, bilməmişəm

13. Feilin hansı şəklinin inkarında "*deyil*" sözündən istifadə olunur?
A) xəbər B) əmr C) şərt
D) lazım E) arzu

14. *Bu dəhşət yadımdan çıxası deyil* nümunəsindəki feilin şəklini müəyyən edin.
A) xəbər B) şərt C) vacib
D) lazım E) arzu

15. Feillərdən yalnız biri III şəxs şəkilçisi ilə işlənmişdir:
A) O ağacda bir quş yuva salıbdır.
B) Çıxdınız qarşıma, dəstə gözəllər.
C) Sizi gördüm, çaşdı ağlım, kamalım.
D) Bəzənib nazənin, al-əlvan geyib.
E) İnsaflar azalıb, mürvət gödəlib.

16. Hansı cümlədə arzu şəklində olan feil ***işlənməmişdir***?
A) Lazımdı ki, qərib könlün alasan.
B) Alırsan canımı, al, incimərəm.
C) Bəlkə, canım bu azarı çəkməyə.
D) İnsan payız ölə, yazda dirilə.
E) Arif ola, eyham ilə söz qana.

17. "Gəzmək" feili II şəxsin cəmində, indiki zamanda işlənsə, hansı şəkilçilərdən istifadə ***olunmaz***?
1 -sınız^4 2 -ıq^4 3. -ır^4 4. -ıb^4 5. -san^2
A) 1, 2, 5 B) 2, 4, 5 C) 1, 3, 5
D) 2, 3, 4 E) 1, 3, 4

18. Cümlələrdən birinin xəbəri feilin lazım şəklindədir
A) Gərək bundan sonra heç nəyi unutmayasınız.
B) Hamı metronun girişində gözləsin.
C) Taxıl tezliklə biçilməlidir.
D) Qonaqları gərək sən qarşılayasan.
E) Sənədlər bu gün təsdiq olunasıdır.

19. Hansı cümlədə məlum növdə olan təsriflənən feil işlənmişdir?
A) Otağın pəncərəsi taybatay açıldı.
B) Gecədən yağan yağış səhərə yaxın kəsildi.
C) Gizlədilmiş silahlar tapıldı.
D) Verilən tapşırıqların öhdəsindən gəlmişdik.
E) Külək əsdikcə güllərin xoş ətri ətrafa yayılırdı.

20. Hansı cümlədə şərt şəklində olan feil var?
A) Oxumaq işıqdırsa, savadsızlıq zülmətdir.
B) Bal tutarsa, barmaq yalar.
C) Bizə gələcəksənsə, vaxtında gəl.
D) Göz görməsə, könül sevməz.
E) Anlayanla daş daşı, anlamazla yemə aşı.

21. Hansı cümlədə xəbər şəklində olan feil var?
A) Oğul, səndə bir nişanə olmalıdır.
B) Sən də bu hadisənin şahidi ol.
C) Dünya çoxlarını yola salasıdır.
D) Həyat, mənə dərd göstərmə.
E) Tamahkarı yalançı aldadar.

22. Hansı cümlədə feil arzu şəklində ***deyil***?
A) Yaz olanda bu yaylaqda olasan.
B) Saat kimi meyli haqqa dolana,
Naməhrəmdən şərm eləyə, utana. (Aşıq Ələsgər)
C) Çağırılan yerə ar eləmə, çağırılmayan yeri dar eləmə!
D) Payız ötə, yaz gələ.
E) Hər açılan səhərindən yarıyasan.

23. Bəndlərdən birində xəbər şəklində işlənmiş feil var
A) Aman, ovçu, vurma məni,
Mən bu dağın maralıyam. (Xalq mahnısından)
B) Kamil ovçu itirəndə maralı
Kəsilər aramı, səbri, qərarı...(Aşıq Ələsgər)
C) Gələn əmim oğlu Mərdandır.
D) Nə gözəldir nar çiçəyi!
E) Məndə Məcnundan füzun aşiqlik istedadı var...
(M. Füzuli)

24. "*isə*" köməkçi sözünü (hissəciyini) qəbul ***etmir***.
A) vacib şəkli B) arzu şəkli
C) -ar^2 şəkilçili gələcək zaman D) lazım şəkli
E) -acaq^2 şəkilçili gələcək zaman

Camscanner ilə skan edilib

25. Hansı cərgədəki feillərdə zaman şəkilçisi düzgün göstərilmişdir?
A) vuruşdu, döyüşdü
B) bilinirsə, qazılacaq
C) yazılmışam, görübsən
D) barışardı, köçürürmüş
E) döyüşərmiş, məsləhətləşirdi

26. Hansı cərgədəki feillərdə zaman şəkilçisi düzgün müəyyən edilmişdir?
A) dəyişərdim, vuruşurmuş
B) yazdırsa, gətirdi
C) almazdım, qoparardıq
D) çalışardıq, döyüşsün
E) yazılacaq, alırıq

27. Hansı cümlədə feil III şəxs şəkilçisi ilə işlənmişdir?
A) Dost bizə qonaq gəlibdir.
B) Məktublar əzik-üzük, məktublar bezdi, gəldi.
C) Sizi gördüm, sevincim aşdı, daşdı.
D) Təbiət yenə də al-əlvan geyib.
E) Toy-bayramdır bu dünyanın əzabı.

28. Hansı cümlədə feil III şəxs şəkilçisi ilə işlənmişdir?
A) İnsanı hər yerdə zaman yaşadır.
B) O bu məlumatı çoxdan almışdır.
C) Sənəm, özünə təzə kofta aldır.
D) Bu evin görkəmi çox gözəldir.
E) Allahlar əyəni qılınc düzəldir.

29. "*Siz deməsəydiniz, mən hadisədən xəbərsiz qalardım*" cümləsində fərqləndirilmiş sözün qrammatik forması ilə bağlı doğru fikirdir:
A) Feilin şərt şəkli keçmiş zaman şəkilçisi -di[4] ilə işlənib.
B) Feilin xəbər şəklidədir.
C) Feili bağlamadır.
D) Feilin arzu şəkli *idi* köməkçi sözü ilə (hissəciyi ilə) işlənib.
E) Feilin şərt şəkli *idi* köməkçi sözü ilə (hissəciyi ilə) işlənib.

30. Nümunədəki feillər hansı şəkillərdədir?
Ağlasan, ağlaram, gülsən, gülərəm,
Yaşasan, yaşaram, ölsən, ölərəm,
Varımı sənlə yarı bölərəm ...
Gəl bir də üzündən öpüm, Təbrizim!
Başına gül-çiçək səpim Təbrizim! (S. Rüstəm)
A) əmr, xəbər, vacib
B) şərt, xəbər, əmr
C) arzu, əmr
D) lazım, arzu
E) arzu, xəbər, şərt

31. Hansı nümunədə şəxsə görə dəyişməyən feil işlənmişdir?
A) İnanın ki, bu gün sizə gələsi idik.
B) Görünür, deyiləsi sözü çoxdur.
C) Tədbir bu günlərdə başlamalıdır.
D) İmtahanlardan sonra şəhərdə qalasıyam.
E) Mən bir də o yerə getmərəm.

32. Hansı cümlədə şəxsə görə dəyişən feil işlənmişdir?
A) Qara çəkməli qız bacımdır.
B) Mən hər şeyi ona deməliyəm.
C) Hədiyyə verəcəyim qutu evdədir.
D) Təzə aldığım köynəyin qolları büzməlidir.
E) "Sudan gələn sürməli qız" xalq mahnısıdır.

33. *Həmin gün məktəbdə şeir müsabiqəsi keçirilirdi* cümləsindəki feilin izahı ilə bağlı ***səhv*** fikir hansıdır?
A) Üçüncü şəxsin təkindədir.
B) Təsdiqdədir.
C) Quruluşca düzəltmədir.
D) Xəbər şəklindədir.
E) Məchul növdə, keçmiş zamandadır.

34. Cümlələrdən birində təsriflənən feil vacib şəklindədir:
A) O özünü qızdırmalı adamlar kimi aparırdı.
B) Almalı, heyvalı bağlar bizimdir.
C) Onun niyyətindən xəbər tutmalıyam.
D) Leylanın donu büzməlidir.
E) "Çəkməli pişik" əsəri uşaqların xoşuna gəldi.

35. Hansı cümlədə feil əmr şəklindədir?
A) Oyan, qoç Koroğlum, oyan.
B) Dünya düzəlmir ki, düzəlmir, baba.
C) Ata, Qarabağa gedirəm yenə.
D) Göyçə dedim, yaralarım göynədi.
E) Bu günün dərdini sən çəkməlisən.

36. Keçmiş zamanda işlənmiş feil hansı misradadır?
Dərd dərədi, dərə mindi,
Çəyirtkələr dəvə mindi.
Dovşanlıq ki dəbə mindi,
Göy talaya əlik qalxmaz. (M. Araz)
A) ikinci və üçüncü
B) birinci və ikinci
C) üçüncü və dördüncü
D) birinci və dördüncü
E) birinci və üçüncü

37. Hansı cümlənin xəbəri keçmiş zamanda olan feillə ifadə olunmuşdur?
A) Elmin qapıları hamının üzünə açıqdır.
B) Düşmənlərə torpağımıza ayaq basmağa imkan verilməyəcək.
C) Öz əlinlə qalamışdın bu ocağı,
İndi ona çovğun, külək gərək deyil.
D) Çırpınırdın, Qara dəniz,
Baxıb türkün bayrağına. (Ə. Cavad)
E) Novruz bayramına ciddi hazırlıq görülürdü.

Camscanner ile skan edilib

38. Cümlənin xəbəri feilin hansı şəklində olan sözlə ifadə olunmuşdur?
Azərbaycan vətəndaşları sahibkarlıq hüququ üçün dövlət aktı almalıdırlar.
A) arzu B) vacib C) lazım
D) şərt E) əmr

39. Nümunədə altından xətt çəkilmiş feilin hansı şəkildə olduğunu müəyyən edin.
"Üzərliksən, havasan,
Min bir dərdə davasan.
Balama kəc baxanın
Gözlərini ovasan".
A) lazım B) xəbər C) arzu
D) vacib E) əmr

40. Nümunədə fərqləndirilmiş sözlər feilin hansı şəklindədir?
"Laylay, quzum, laylay, gözüm, yatsana,
Rahat olub bir azca boy atsana".
A) xəbər B) lazım C) arzu
D) əmr E) şərt

41. Feillərdən birini həm keçmiş zaman, həm də indiki zamanda düşünmək olar:
A) qurulurdu B) uçurdu C) danışdırdı
D) görürdü E) aparırdı

42. Hansı cümlənin xəbəri keçmiş zamanda işlənmiş feillə ifadə olunmuşdur?
A) Dadaş kişi çox maraqlı adam imiş.
B) Onlar Vətən uğrunda vuruşurdular.
C) O, Bakı Dövlət Universitetində oxuyurmuş.
D) Anamın saçları çoxdan ağarıbdır.
E) Tez-tez ora gedib-gəlirmiş.

43. Şərt şəklində olan feillərdən ibarət cərgəni müəyyən edin.
A) öyrənmişsə, gedəcəksə, qorumalıdırsa
B) düzəldilsə, aparsa, qorunsa
C) yazsa, pozacaqsa, öyrənəcəksə
D) gəlsə, aparırsa, saxlayacaqsa
E) təmizləsə, yazmalıdırsa, işləsə

44. Keçmiş zamanda olan feillər cərgəsini müəyyən edin.
A) alırdı, yazardı, danışacaqdı
B) gətirdi, apardı, götürdü
C) alırmış, gedərmiş, aparardı
D) aldısa, alardı, almalıdır
E) almışsa, görmürsə, yazmışsa

45. Təsriflənən feillərdən biri keçmiş zamandadır:
A) Hər sözü sərrast atılmış güllə imiş.
B) Bəzi məsələlərə də diqqət yetiriləcəkmiş.
C) Dost dar gündə tanınarmış.
D) Sizə nazirlikdən zəng edirmişlər.
E) Bu hörməti sən özün qazanmışsan.

46. Feil şəkillərindən hansılarda III şəxsin təkində şəkilçisi ***işlənmir***?
1. lazım 2. vacib 3. əmr 4. arzu 5. şərt
A) 2, 3, 4 B) 1, 3, 5 C) 4, 5
D) 2, 3 E) 1, 2, 4

47. Feilin hansı zamanlarında heç vaxt III şəxsin təkində şəxs şəkilçisi ***işlənmir***?
1. indiki
2. *-dı*[4] şəkilçili keçmiş
3. *-ıb*[4] şəkilçili keçmiş
4. *-acaq*[2] şəkilçili gələcək
5. *-ar*[2] şəkilçili gələcək

zamanda

A) 1, 3, 4 B) 2, 3 C) 1, 4, 5 D) 1, 2, 5 E) 3, 5

48. Fərqləndirilmiş hansı söz şərt şəklindədir?
A) Bizə gələcəksənsə, vaxtında gəl.
B) Sirkə tünd olsa, öz qabını çatladar.
C) İndi onlara gedirsən?
D) Anlayanla daş daşı, anlamazla yemə aşı.
E) Bal tutan barmaq yalar.

49. Feillərdən birini həm keçmiş zaman, həm də indiki zamanda düşünmək mümkündür:
A) qudurdu B) yandırdı C) bitirdi
D) aparardı E) silirdi

50. *-ma* (*-mə*) inkar şəkilçisinə aid edilmiş fikirlərdən biri ***yanlışdır***:
A) Feilin lazım şəkli ilə işlənə bilmir.
B) Qrammatik şəkilçidir.
C) İndiki zamanda işlənərkən öz saitini itirir.
D) Yalnız feillərə qoşulur.
E) Feillərdən isim də əmələ gətirə bilir.

51. Mətndə feilin hansı şəkilləri işlənmişdir?
"İşdə sənə nə deyiblər, deyiblər,
Evə gəldin, danış bir az, gül bir az". (N. Həsənzadə)
A) əmr, arzu B) vacib və xəbər
C) şərt və lazım D) xəbər və əmr
E) xəbər, arzu və şərt

52. Bəndin neçənci misralarında xəbər şəklində olan feil var?
Badi-səba, söylə mənim yarıma,
Gözəllər çıxıbdır seyranə, gəlsin.
Təğafül etməsin, işrət çağıdır,
İçilir hər yerdə peymanə, gəlsin. (Q. Zakir)
A) III, IV B) I, III C) II, III D) I, IV E) II, IV

53. Bəndlərdən birində xəbər şəklinə aid feil ***yoxdur***:
A) Biz onunla tanış olduq bir yaz səhəri. (R. Rza)
B) Bilirik, dünyaya biz nəyə gəldik ...
(B. Vahabzadə)
C) Güvə dəymiş dəri.
Uzunqıç corabların kilkə yun kələfləri. (R. Rza)
D) Ey sözündən əmin, özündən razı,
Yalanı söylədin kimin adından... (B. Vahabzadə)
E) Yalvarma, yalvarma o cəllada sən,
Hələ baş əyməmiş bu böyük vətən. (S. Vurğun)

CamScanner ile skan edilib

54. Nümunədəki feillər hansı şəkildədir?
Oxu, tar, oxu, tar!
Səni kim umudar? (M. Müşfiq)
A) əmr, xəbər B) əmr, arzu C) xəbər, arzu
D) əmr, arzu E) yalnız əmr

55. Nümunədəki feillər hansı şəkildədir?
Qoy əysin başını vüqarlı dağlar,
Matəmi başladı böyük bir elin... (B. Vahabzadə)
A) xəbər, arzu B) lazım, arzu C) əmr, xəbər
D) əmr, vacib E) xəbər, şərt

56. Hansı sözdə fərqləndirilmiş hissəni həm şərt şəklinin şəkilçisi, həm də *isə* köməkçi sözü (hissəciyi) kimi fikirləşmək olar?
A) gedirsə B) qaçırsa C) aparsa
D) düşünsə E) yazırsa

57. "*Yazılmayacaqdır*" sözündə şəkilçilərin ardıcıllığını müəyyən edin.
A) inkar, növ, zaman, şəxs
B) növ, inkar, şəxs, zaman
C) inkar, zaman, şəxs, növ
D) növ, inkar, zaman, şəxs
E) növ, zaman, şəxs, inkar

58. Arzu şəklində olan feilləri müəyyən edin.
1 2 3 4 5 6
gələk; baxaq; biləк; sevək; alaq; üzək
A) 2, 3, 4 B) 1, 2, 5 C) 3, 4, 6
D) 1, 5, 6 E) 2, 3, 6

59. Əmr şəklində olan feilləri müəyyən edin.
1 2 3 4 5 6
gələk; baxaq; biləк; sevək; alaq; üzək
A) 2, 3, 4 B) 3, 4, 5 C) 1, 5, 6
D) 2, 3, 6 E) 1, 2, 5

60. Nümunədəki feillərlə bağlı doğru fikri müəyyən edin.
Kitab da vardır ki, onun sözləri
Düzülmüş şəfəqli ulduzlar kimi!
Ondakı hər fikrin açıq gözləri
Parlayır günəşli gündüzlər kimi. (S. Vurğun)
A) Hər iki feil qayıdış növdədir.
B) Biri təsriflənən, digəri təsriflənməyəndir.
C) Biri *imiş* köməkçi sözü (hissəciyi) ilə işlənib.
D) Hər iki feil xəbər şəklindədir.
E) Hər iki feil indiki zamandadır.

61. Nümunədə təsriflənən feillərin düzgün ardıcıllığını müəyyən edin.
Başına döndüyüm gül üzlü pəri,
Adətdir, dərərlər yaz bənövşəni.
Ağ nazik əlinlə bir dəstə bağla,
Tər buxaq altından düz bənövşəni.
A) xəbər, əmr, xəbər B) arzu, əmr, əmr
C) lazım, xəbər, əmr D) xəbər, əmr, əmr
E) arzu, xəbər, xəbər

62. Nümunədə feilin hansı şəkilləri işlənmişdir?
Nə bu ocaq közərəsi, sönəsi,
Nə o günlər bir də geri dönəsi... .
Qəm eləmə, qəlbimin bir dənəsi,
Bu dünyanın qara daşı göyərməz. (M. Yaqub)
A) arzu, əmr, şərt
B) əmr, vacib, şərt
C) xəbər, arzu, lazım
D) lazım, əmr, xəbər
E) vacib, lazım, xəbər

63. Nümunədəki feillərin şəkillərini müəyyən edin.
Yağı düşmən yer istəsə, Koroğluya əl etməli,
Şər Əhriman nur istəsə, gözlərini kor etməli. (S. Vurğun)
A) şərt, vacib B) əmr, lazım C) şərt, əmr
D) vacib, əmr E) lazım, şərt

64. Feilin hansı zamanlarında işlədilən söz III şəxsin təkində *-dır*[4] şəkilçisi qəbul edir?
A) *-ar*[2] şəkilçili gələcək və *–dı*[4] şəkilçili keçmiş zamanda
B) indiki və *-ar*[2] şəkilçili gələcək zamanda
C) indiki və *-acaq*[2] şəkilçili gələcək zamanda
D) indiki və *-mış*[4] şəkilçili keçmiş zamanda
E) *-ıb*[4], *-mış*[4] şəkilçili keçmiş və *-acaq*[2] şəkilçili gələcək zamanda

65. Hansı cümlələrdə feilin şərt şəkli işlənmişdir?
1. Sən yollar boyu səfərdəsənsə,
Zamanın boyunca səfərdəyəm mən.
2. Sən lap aşıqsanmış ki, ay bibi!
3. Hər şeyi qəlbimə salmasam, ana,
Şeirim könüllərə yol tapa bilməz.
4. Lazım olan nə iş varsa, hamısını görmüşdü.
5. Əgər sinəmizlə cəbhə yarmasaq,
Son yerimiz qara uçurum olacaq.
A) 3, 5 B) 2, 3, 4 C) 2, 4, 5
D) 1, 2, 3 E) 1, 5

66. Feillərdən birini həm əmr, həm də arzu şəkli kimi düşünmək olar:
A) tanıdım B) vuruşdu C) savaşdıq
D) yorulmur E) çalışaq

67. Hansı cümlədə arzu şəklində olan feil işlənib?
A) Fələk büsatını pozar, a dağlar.
B) Aktyorlar hazır olan kimi yola düşərsiniz.
C) Gərək deyilənə qulaq asasan.
D) Qanun qarşısında bütün insanlar bərabər olmalıdır.
E) Var olsun azad yurdun azad oğulları!

Camscanner ile skan edilib

68. Sxemdəki hansı sözlərin yeri dəyişdirilsə, yol verilmiş ***səhv*** aradan qalxar?

Feilin iki müxtəlif şəklində başa düşülən sözlər	*Feilin bir şəklində başa düşülən sözlər*
1. içir 2. köçürdü 3. başladım	4. yazdım 5. bitirsə 6. qopararsa

A) 2 ↔ 5 B) 2 ↔ 6 C) 1 ↔ 5
D) 3 ↔ 6 E) 2 ↔ 4

69. Təsriflənmə cəhətdən biri fərqli düşünülə bilər:
A) Sevinc getməlidir. B) Uşaq yatmalıdır.
C) Müəllim bilməlidir. D) Dostum gəlməlidir.
E) Çay içməlidir.

70. "*Desəm, inciyərlər, deməsəm, ölləm*" nümunəsində feilin hansı şəkillərinə aid nümunələr işlənmişdir?
1. əmr
2. xəbər
3. arzu
4. lazım
5. şərt

71. *Yaz* feili aşağıdakı şəkilçilərdən hansıları qəbul etdikdən sonra şəxsə görə dəyişə bilər?
1. -anda[2]
2. -ır[4]
3. -dı[4]
4. -maq[2]
5. -araq[2]
6. -dır[4]

72. Feilin hansı şəkillərində III şəxsin təkində şəxs şəkilçisi işlənir?
1. lazım 2. vacib 3. əmr 4. arzu 5. şərt

73. Nümunədəki feillərin şəklini müəyyən edin.
Gəzib dolansam da cümlə mahalı,
Mən səndə tapmışam əqlü kəmalı. (M. Məhzun)
1. şərt 2. xəbər 3. arzu
4. vacib 5. lazım

74. Nümunədəki feillərin şəklini müəyyən edin.
Çalış, az dostluq et, etsən də əgər,
Dostluqda möhkəm ol, sözdə mötəbər.
(Xaqani Şirvani)
1. şərt 2. xəbər 3. əmr
4. vacib 5. lazım

75. Hansı sözlər feilin arzu şəklinin yaranmasında iştirak edə bilir?
1. deyəsən 2. kaş 3. doğrusu
4. gərək 5. barı 6. ehtimal ki

76. Hansı cümlələrdə feilin şərt şəklində olan sözü işlənib?
1. Sən layiqli vətəndaş kimi böyüyürsənsə, mən sevinirəm.
2. Sən lap aşıqsanmış ki, ay bibi!
3. Səni sevəcəyəm, sən sevməsən də.
4. Lazım olan nə iş varsa, hamısını görmüşdü.
5. Əlbir olsaydıq, düşmənə qalib gələrdik.

77. Hansı cümlələrdə şərt şəklində olan feil işlənib?
1. Oxumasa, qiymət almayacaq.
2. Əgər adamsansa, sev adamları.
3. O, indi gəlirsə, gözləyək.
4. Orxan yaxşı tələbədirsə, biz ona kömək etməliyik.
5. El bir olsa, dağ oynadar yerindən.

78. Hansı feillər şəxsə və kəmiyyətə görə dəyişir?
1. qarşılasa 2. oxuduqca 3. görünəcək
4. vurulmaq 5. yazar 6. görüşə
7. gedərkən

79. Hansı feillər şəxsə və kəmiyyətə görə ***dəyişmir***?
1. əkəcək 2. gələrkən 3. bitirmək 4. bəstə
5. yazırdı 6. bilsə 7. görüncə

80. Hansı nümunələrdə əmr şəklində olan feil var?
1. Gəlsənə bir çay içəsən!
2. Məktəbliləri səyahətə aparmalıyıq.
3. Öldür Aşıq Ələsgəri,
Özün günahkar ol, yaylaq!
4. Kitabı mənə ver.

İdi, imiş, isə köməkçi sözləri (hissəcikləri) və yazılışı

1. Sözlərin birində iki köməkçi söz (hissəcik) işlənmişdir:
A) gələcəklərsə B) oxuyacaqsa C) gəldisə
D) bilirmişsə E) gətirərsə

2. Birində *imiş* köməkçi sözü (hissəciyi) arzu şəklinə artırılıb:
A) alacaqmış B) almalı imiş C) ala imiş
D) alsa imiş E) alırmış

3. Hansı cərgədə təsriflənən feil köməkçi söz (hissəcik) ilə ***işlənməyib***?
A) İşi vaxtında başa çatdırmalıydı.
B) Mübarizəni dayandırası olacaqdı.
C) Burada yerdən su çıxırmış.
D) Orada dağ döşündə bir yer vardı.
E) Gediləsi yol müəyyən edildi.

4. "*İsə*" köməkçi sözü (hissəciyi) feilin hansı şəkillərinə artırıla ***bilmir***?
A) əmr, arzu, şərt B) əmr, xəbər, arzu
C) lazım, vacib, şərt D) xəbər, lazım, vacib
E) əmr, vacib, xəbər

Cəmiyyətimiz tərəfindən skan edilib

di" köməkçi sözü (hissəciyi) isim, sifət, say və əvəzliklərə artırıldıqda həmin nitq hissələri hansı cümlə üzvü vəzifəsində olur?
A) tamamlıq B) mübtəda C) ismi xəbər
D) feili xəbər E) zərflik

İmiş" köməkçi sözü (hissəciyi) isim, sifət, say və əvəzliklərə artırıldıqda həmin nitq hissələri hansı cümlə üzvü vəzifəsində olur?
A) zərflik B) mübtəda C) ismi xəbər
D) təyin E) feili xəbər

İdi" köməkçi sözü (hissəciyi) feilin hansı şəkilləri ilə ***işlənmir***?
A) xəbər şəklinin keçmiş, indiki və gələcək zamanları ilə
B) lazım və vacib şəkilləri ilə
C) arzu və şərt şəkilləri ilə
D) əmr şəkli və xəbər şəklinin -dı[4] şəkilçili keçmiş zamanı
E) lazım və arzu şəkilləri ilə

"*İmiş*" köməkçi sözü (hissəciyi) feilin hansı şəkilləri ilə ***işlənmir***?
A) arzu şəkli və -mış[4] şəkilçili keçmiş zaman ilə
B) lazım və vacib şəkilləri ilə
C) vacib və şərt şəkilləri ilə
D) şərt və arzu şəkilləri ilə
E) əmr şəkli və xəbər şəklinin -dı[4] şəkilçili keçmiş zamanı ilə

. Hansı sıradakı bütün sözlər "*idi*" və ya "*isə*" köməkçi sözü (hissəciyi) ilə işlənmişdir?
A) aparsa, alacaqdı, apararmış
B) gəlmişdi, baxırmış, gəlməsə
C) qaçdı, baxmışsa, qaçmasa
D) görsə, görmürmüş, görmürsə
E) qopdusa, uzaqlaşmışdı, almırdı

10. Xəbərlərdən birində indiki zaman *idi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
A) Rəssam belə əsərləri dəyərləndirirdi.
B) O, çoxdan gəlmişdi.
C) Bu işləri mütləq görməlidir.
D) O məni evədək ötürdü.
E) Sizə çatası kitabları bu gün gətirdim.

11. Xəbərlərdən birində keçmiş zaman *imiş* köməkçi sözü (hissəciyi) ilə işlənib:
A) O, hər şeyin düzünü deyərmiş.
B) Məzahir kişi cavan oğlan kimi geyinərmiş.
C) Bu barədə anasından soruşacaqmış.
D) Aygün onun işlərinə heyran qalırmış.
E) Hər yerdə qəribə naxış salıbmış.

12. "*Siz orada <u>olmasaydınız</u>, qan dizə çıxardı*" cümləsində altından xətt çəkilmiş söz qrammatik formasına görə nədir?
A) Köməkçi sözlə (hissəciklə) işlənmiş lazım şəklində olan sözdür.
B) Feili bağlamadır.
C) Köməkçi sözlə (hissəciklə) işlənmiş arzu şəklində olan sözdür.
D) Köməkçi sözlə (hissəciklə) işlənmiş şərt şəklində olan sözdür.
E) Feilin xəbər şəklindədir.

13. Nümunələrin birində köməkçi söz (hissəcik) keçmiş zamana artırılıb:
A) Həmişə öz sözünü deməyə çalışardı.
B) Əhməd Mərdəkanda bağ da alıbmış.
C) Onun maşını var imiş?
D) Nazlı dərslərini çoxdan hazırlamışdır.
E) Nadir sabah yola düşəsi imiş.

14. Hansı cərgə *"isə"* köməkçi sözü (hissəciyi) ilə işlənmiş feillərdən ibarətdir?
A) yüyürsə, işləyəsiyəm, dinləsə
B) baxırsansa, almalıyamsa, gedilsə
C) ağartmışsansa, eşitdiksə, gələrsə
D) qaçırsansa, oxunsa, pozdursa
E) görsələr, susamışdı, yazacaqlarsa

15. Hansı cərgə *"isə"* köməkçi sözü (hissəciyi) ilə işlənmiş feillərdən ibarətdir?
A) gəlmişsənsə, yatsan, otursan
B) işləyiriksə, ələyərsənsə, yazasıdırsa
C) öyrənsəm, bilsək, görsən
D) aldımsa, deyirsənsə, düşünsən
E) baxırsa, qəribsəmişəm, tapşırarsa

16. *"İsə"* köməkçi sözü (hissəciyi) haqqında fikirlərdən biri doğru ***deyil***:
A) *"İsə"* köməkçi sözü (hissəciyi) feilin arzu şəklinə də artırıla bilir.
B) *"İsə"* köməkçi sözü (hissəciyi) həm *"idi"*, həm də *"imiş"* köməkçi sözü (hissəciyi) ilə işlənmiş feillərə qoşula bilir.
C) Feilin şərt şəkli ilə işlənmir.
D) -dı[4] şəkilçili keçmiş zamanda olan feil *"isə"* köməkçi sözü (hissəciyi) ilə işlənə bilir.
E) *"İsə"* köməkçi sözü (hissəciyi) feillərə şəkil və şəxs şəkilçilərindən sonra qoşulur.

17. *"İsə"* hissəciyi haqqında fikirlərdən biri doğrudur:
A) *"İsə"* köməkçi sözü (hissəciyi) -dı[4] şəkilçili keçmiş zamanla işlənə bilmir.
B) *"İsə"* köməkçi sözü (hissəciyi) feilin arzu şəklinə də artırıla bilir.
C) *"İsə"* köməkçi sözü (hissəciyi) həm *"idi"*, həm də *"imiş"* hissəciyi ilə işlənmiş feillərə qoşula bilir.
D) Feilin şərt şəklinə artırıla bilir.
E) *"İsə"* köməkçi sözü (hissəciyi) şəxs şəkilçisindən əvvəl işlənir.

CamScanner ile skan edilib

18. Hansı sözdə fərqləndirilmiş hissəni həm şərt şəklinin şəkilçisi, həm də *isə* köməkçi sözü (hissəciyi) kimi fikirləşmək olar?
A) köçürsə B) keçərsə C) baxırsa
D) eşidirsə E) sataşsa

19. "*İmiş*" köməkçi sözü (hissəciyi) ilə işlənmiş feilləri müəyyən edin.
1. gətirmişik 2. itirirmişsən
3. itiribmiş 4. gətirərmişlər
5. itirmişdi 6. gətirmişdir

20. Klasteri tamamlayan fikirləri müəyyən edin.

	əmr şəklinə
"*idi*" köməkçi sözü (hissəciyi) qoşulmur	

1. -dı[4] şəkilçili keçmiş zamana 2. feili sifətə
3. feili bağlamaya 4. məsdərə
5. -ar[2] şəkilçili gələcək zamana

21. Klasteri tamamlayan fikirləri müəyyən edin.

	arzu şəklinə
"*isə*" köməkçi sözü (hissəciyi) qoşula bilmir	

1. şərt şəklinə 2. -dı[4] şəkilçili keçmiş zamana
3. lazım şəklinə 4. feili bağlamaya
5. vacib şəklinə

Feilin morfoloji xüsusiyyətləri

1. "*Bərkitmək*" sözü ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Təsdiqdədir. B) Düzəltmədir.
C) Xəbər şəklindədir. D) Məlum növdədir.
E) Məsdərdir.

2. "*Otarardı*" sözü ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Təsdiqdədir. B) Düzəltmə feildir.
C) Gələcək zamandadır. D) Xəbər şəklindədir.
E) Qayıdış növdədir.

3. *"Kürün sahilində yeni kəndlər salınmışdı"* cümləsindəki feillə bağlı ***səhvi*** müəyyən edin.
A) Düzəltmədir.
B) Təsdiqdədir.
C) Qayıdış növdədir.
D) Keçmiş zamandadır.
E) *idi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.

4. *"Yaxınlaşmışdıq"* feili ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Sözdə iki leksik şəkilçi işlənmişdir.
B) I şəxsin cəmində işlənib.
C) Təsdiqdədir.
D) *-mış* keçmiş zaman şəkilçisidir.
E) *-dı "idi"* köməkçi sözünün (hissəciyinin) ixtisarıdır.

5. *"Közərən ocaqlar"* birləşməsində I tərəfin izahı ilə bağlı düzgün fikirləri müəyyənləşdirin.
1. Təsriflənməyən feildir.
2. Keçmiş zaman mənalıdır.
3. Xəbər şəklindədir.
4. Qayıdış növdədir.
5. Təsdiqdədir.
6. Düzəltmə feildir.
A) 2, 3, 5 B) 1, 4, 5 C) 1, 2, 3
D) 1, 5, 6 E) 3, 4, 6

6. *"Qazanılmış manat"* birləşməsində I tərəfin izahındakı ***səhvləri*** müəyyən edin.
1. Təsriflənməyən feildir.
2. Quruluşuna görə düzəltmədir.
3. Sözün kökü ilə başlanğıc forması fərqli nitq hissəsidir.
4. Qarşılıq növdədir.
5. "*Qaz*" sözün köküdür.
6. Feili sifətdir.
A) 3, 4, 5 B) 1, 3, 6 C) 2, 4, 6
D) 1, 3, 5 E) 2, 4, 5

7. *"Bu gün hava tez qaraldı"* cümləsində altından xətt çəkilmiş sözün təhlili ilə bağlı fikirlərdən biri ***səhvdir***:
A) Xəbər şəklindədir.
B) Sifətdən düzəlmişdir.
C) Qayıdış növdədir.
D) ⌐^^ sxeminə uyğundur.
E) Quruluşuna görə düzəltmədir.

8. *"Oxutdurmuşdur"* feilinin təhlilindəki ***səhvi*** müəyyən edin.
A) ⌐^^⌒⌒ sxeminə uyğundur.
B) Feildən düzəlmiş feildir.
C) Məlum növdədir.
D) Keçmiş zamandadır.
E) Sözün sonundakı *-dur* şəkilçisi şəxs sonluğudur.

9. "*Dindirilmişdi*" feilinin təhlilindəki ***səhvi*** müəyyənləşdirin.
A) Sözün kökü feildir.
B) Qayıdış növdədir.
C) Xəbər şəklindədir.
D) *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
E) Təsdiqdədir.

10. *"Bu gün yazılan məktub vaxtında çatdırıldı"* cümləsində təsriflənən feillə bağlı ***səhvi*** müəyyən edin.
A) Xəbər şəklindədir.
B) III şəxsin təkindədir.
C) Quruluşca düzəltmədir.
D) Keçmiş zamandadır.
E) İcbar növdədir.

Camscanner ile skan edilib

11. *"Səhərdən yağan qar hər tərəfi ağ örpəyə bürümüşdü"* cümləsində xəbər vəzifəsində işlənən feilin təhlilindəki ***səhvi*** müəyyənləşdirin.
A) Sadə feildir.
B) Köməkçi sözlə (hissəciklə) işlənmişdir.
C) Qayıdış növdədir.
D) Təsdiqdədir.
E) Xəbər şəklindədir.

12. *"Təzə ev tikmək üçün bağa hörgü daşı tökdürmüşdü"* cümləsində təsriflənən feilin təhlilindəki ***səhvi*** müəyyən edin.
A) Təsdiqdədir.
B) Məlum növdədir.
C) Köməkçi sözlə (hissəciklə) işlənmişdir.
D) Keçmiş zamandadır.
E) Üçüncü şəxsin təkindədir.

13. *"Köçürmüşdü"* feili ilə bağlı ***səhv*** fikir hansıdır?
A) Keçmiş zamandadır.
B) Xəbər şəklindədir.
C) *-ür* leksik şəkilçidir.
D) Təsriflənəndir, III şəxsin təkindədir.
E) Qarşılıq növdədir.

14. *"Artırılsın"* sözü ilə bağlı ***səhv*** fikir hansıdır?
A) Əmr şəklindədir.
B) Kökü feildir.
C) Başlanğıc forması feildir.
D) ⌐⌒⌒ sxeminə uyğundur.
E) *-ıl* məchul növün şəkilçisidir.

15. Nümunədəki təsriflənən feillər haqqında fikirlərdən biri ***səhvdir***:
Həci xala çayda paltar yuyardı,
Məmmədsadıq damlarını suvardı,
Heç bilməzdik dağdı, daşdı, divardı. (M. Şəhriyar)
A) Xəbər şəklindədir.
B) İkisi təsdiqdə, biri isə inkardadır.
C) I və III şəxsə aiddir.
D) "*İdi*" köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
E) Keçmiş zamandadır.

16. Nümunədəki təsriflənən feillər haqqında fikirlərdən biri ***səhvdir***:
Məlik Niyaz vərəndilin salardı,
Atın çapıb qıyqacıdan çalardı,
Qırğı təkin gədik başın alardı. (M. Şəhriyar)
A) 3-cü şəxsin təkindədir.
B) Təsdiqdədir.
C) Keçmiş zamandadır.
D) Məlum növdədir.
E) Xəbər şəklindədir.

17. *"Təki müharibə olmasın"* cümləsində altından xətt çəkilmiş sözün izahı ilə bağlı fikirlərdən biri doğrudur:
A) Qayıdış növdədir.
B) II şəxsin təkindədir.
C) Təsdiqdədir.
D) "-sın" leksik şəkilçidir.
E) Əmr şəklindədir.

18. Cümlələrin birində *"düz"* sözü feildir:
A) Az getdi, uz getdi, dərə, təpə, düz getdi.
B) Təhməz baba, bu ata at çatmaz, sən onun yəhər-yüyənino inci, mirvari düz.
C) Balaca Güllü gəlib düz anasının böyründəcə oturdu.
D) Atalar düz deyib ki, ağıl yaşda deyil, başdadır.
E) Mən düz sözdən heç vaxt incimərəm.

19. *"Oturdu, gətirərəm"* feilləri ilə bağlı doğru fikri müəyyən edin.
A) Biri məlum, biri icbar növdədir.
B) Biri xəbər, digəri arzu şəklindədir.
C) Hər ikisi xəbər şəklindədir.
D) *Oturdu* – keçmiş zamanda, *gətirərəm* – indiki zamandadır.
E) Hər ikisi üçüncü şəxsdə işlənib.

20. *"Dözmüşəm, dözərəm"* feilləri ilə bağlı doğru fikri müəyyən edin.
A) Hər ikisi üçüncü şəxsdə işlənib.
B) Biri xəbər, digəri arzu şəklindədir.
C) Hər ikisi qayıdış növdədir.
D) *Dözmüşəm* – keçmiş zamanda, *dözərəm* – indiki zamandadır.
E) Hər ikisi xəbər şəklindədir.

21. *"Eşq ilə torpaq da, göy də bəzəndi"* cümləsindəki feil haqqında düzgün fikri müəyyən edin.
A) Quruluşca sadədir, məchul növdədir, *idi* köməkçi sözü ilə işlənmişdir.
B) Quruluşca düzəltmədir, qayıdış növdədir, keçmiş zamandadır.
C) Düzəltmə feildir, keçmiş zamandadır, məchul növdədir.
D) Sadədir, arzu şəklində, keçmiş zamandadır.
E) Düzəltmədir, qayıdış növdədir, idi köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.

22. *"Şamlar səliqə ilə xonçaya düzülmüşdü"* cümləsindəki feillə bağlı ***səhvi*** müəyyənləşdirin.
A) Sifətdən əmələ gəlmişdir.
B) Təsdiqdədir.
C) Düzəltmə feildir.
D) Məchul növdədir.
E) *idi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.

23. *"Körpənin yanağı qızarmışdı"* cümləsindəki feilin xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Keçmiş zamandadır.
B) Təsdiqdədir.
C) Məlum növdədir.
D) Düzəltmədir.
E) *İdi* köməkçi sözünün (hissəciyinin) ixtisarı ilə işlənmişdir.

Cəmi 2 dəqiqə ilə sınaq edilib

24. "*Mən onu çətinliklə inandırdım*" cümləsindəki feilin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Keçmiş zamandadır. B) Təsdiqdədir.
C) Feildən düzəlmişdir. D) Xəbər şəklindədir.
E) İcbar növdədir.

25. "*Qarşılamışdım*" feilinin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Qarışılıq növdədir.
B) Xəbər şəklindədir.
C) Birinci şəxsin təkindədir.
D) Düzəltmədir.
E) Keçmiş zamandadır.

26. "*Ötüşürdülər*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) III şəxsin cəmindədir.
B) Keçmiş zamandadır. C) Təsdiqdədir.
D) Düzəltmədir. E) Xəbər şəklindədir.

27. "*Çadır qurulmuşdu*" cümləsində feilin xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) *-muş* keçmiş zamanın şəkilçisidir.
B) Təsdiqdədir.
C) Məchul növdədir.
D) Quruluşca sadədir.
E) *-du* ünsürü *idi* köməkçi sözünün (hissəciyinin) qısa formasıdır.

28. "*Söykənmişdi*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Sadədir.
B) *-miş* keçmiş zaman şəkilçisidir.
C) *-di* ünsürü *idi* köməkçi sözünün (hissəciyinin) qısa formasıdır.
D) Feildən düzəlmişdir.
E) Təsdiqdədir.

29. "*Güləşmişdi*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Təsdiqdədir, III şəxsin təkindədir.
B) *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
C) Keçmiş zamandadır.
D) Xəbər şəklindədir.
E) Düzəltmə feildir.

30. "*Uşaq tək qaldığı üçün <u>sıxılırdı</u>*" cümləsində fərqləndirilmiş feilin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Sifətdən düzəlmiş feildir.
B) Təsdiqdədir. C) Qayıdış növdədir.
D) Xəbər şəklindədir. E) Düzəltmə feilidir.

31. "*Aparılmışdır*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Təsdiqdədir. B) Düzəltmə feildir.
C) Qayıdış növdədir. D) Xəbər şəklindədir.
E) Keçmiş zamandadır.

32. "*Dilləndirdi*" feilinin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Təsdiqdədir.
B) Xəbər şəklində, keçmiş zamandadır.
C) Məlum növdədir, III şəxsin təkindədir.
D) Düzəltmə feildir, *-lən*, *-dir* leksik şəkilçilərdir.
E) İcbar növdədir.

33. "*Göndərilmədi*" feilinin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvləri*** müəyyən edin.
1. Məchul növdədir.
2. III şəxsin təkindədir.
3. Quruluşuna görə sadədir.
4. Təsdiqdədir.
5. Keçmiş zamandadır.
6. *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
A) 1, 3, 4 B) 3, 4, 6 C) 2, 4, 5
D) 2, 3, 6 E) 2, 4, 6

34. "*Yandırılacaq*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) *-ıl* məchul növün şəkilçisidir.
B) Sözün kökü feildir.
C) Düzəltmə sözdür.
D) *-dır* icbar növün şəkilçisidir.
E) *-acaq* gələcək zaman şəkilçisidir.

35. "*Ağlaşdıq*" feilinin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Məlum növdədir. B) Təsdiqdədir.
C) Düzəltmə feildir. D) Keçmiş zamandadır.
E) Xəbər şəklindədir.

36. "*Biçinçilər taxılın içində <u>qatarlaşmışdılar</u>*" cümləsində altından xətt çəkilmiş sözün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Xəbər şəklindədir.
B) Təsdiqdədir.
C) Məchul növdədir.
D) Düzəltmə feildir, isimdən düzəlib.
E) Üçüncü şəxsin cəmindədir.

37. "*Lövhə tərtəmiz <u>silinmişdi</u>*" cümləsində altından xətt çəkilmiş sözün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) *-di* şəxs şəkilçisidir. B) Düzəltmə feildir.
C) Məchul növdədir. D) Təsdiq feildir.
E) Xəbər şəklindədir.

38. "*Bağlamışdım*" feilinin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Məlum növdədir.
B) Təsdiq feildir.
C) Xəbər şəklində *imiş* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
D) Quruluşca düzəltmə feildir.
E) Keçmiş zaman şəkilçilidir.

CamScanner ile skan edilib

39. "*Tərifləməzdim*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) İsimdən düzəlmiş feildir.
B) İnkardadır.
C) Xəbər şəklindədir.
D) Keçmiş zamanda, I şəxsin təkindədir.
E) Məlum növdədir.

40. "*Yaxşılaşıbdır*" feilinin morfoloji xüsusiyyətləri ilə bağlı düzgün fikirləri müəyyən edin.
1. Feilin təsriflənməyən formasındadır.
2. Keçmiş zamandadır.
3. Xəbər şəklindədir, təsdiqdədir.
4. Qarşılıq-birgəlik növdədir.
5. Feili bağlamadır.
6. Sifətdən düzəlmiş feildir.
A) 2, 3, 5 B) 1, 4, 5 C) 1, 2, 5
D) 2, 3, 6 E) 3, 4, 6

41. "*Məktubu vaxtında çatdırmışdım*" cümləsindəki feilin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvləri*** müəyyən edin.
1. Təsdiqdədir.
2. İcbar növdədir.
3. Tərkibində iki leksik şəkilçi var.
4. I şəxsin təkindədir.
5. Xəbər şəklində *idi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
6. Düzəltmə feildir.
A) 2, 3 B) 2, 4, 6 C) 3, 5
D) 1, 5, 6 E) 1, 5

42. "*Yazmalıyammış*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) *-malı* – feilin vacib şəklinin şəkilçisidir.
B) *-mış* – feilin keçmiş zaman şəkilçisidir.
C) *-am* – şəxs şəkilçisidir.
D) *Yaz* – sözün kökü, feildir.
E) Məlum növdədir.

43. "*Yaşatmalıyıq*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Düzəltmə feildir.
B) Sözün kökü "yaş" sifətidir.
C) Təsdiqdədir.
D) Vacib şəklindədir.
E) Məlum növdədir.

44. "*Belələrinə çox təsadüf edilir*" cümləsindəki feilin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) İndiki zamandadır. B) Mürəkkəb feildir.
C) Məlum növdədir. D) Xəbər şəklindədir.
E) III şəxsin təkindədir.

45. "*Məktub <u>oxunubdur</u>*" cümləsində altından xətt çəkilmiş sözün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) *-n* – qayıdış növ şəkilçisidir.
B) *oxu* – sözün köküdür.
C) *-ub* – keçmiş zaman şəkilçisidir.
D) *-dur* – şəxs şəkilçisidir.
E) Təsdiq feildir.

46. "*Oxuyurdu*" feilinin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Xəbər şəklindədir.
B) Təsdiq feildir.
C) Üçüncü şəxsin təkindədir.
D) Keçmiş zamandadır.
E) Məlum növdədir.

47. "*Bilirsənsə*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Sadədir.
B) *-ir* – indiki zaman şəkilçisidir.
C) *-sən* – şəxs şəkilçisidir.
D) *-sə* – şərt şəklinin şəkilçisidir.
E) Təsdiqdədir.

48. "*Eşitdim*" və "*eşitdirdim*" feilləri haqqındakı fikirlərdən biri ***səhvdir***:
A) Hər ikisi cümlənin feili xəbəri olur.
B) *eşitdim* – sadə, *eşitdirdim* – düzəltmədir.
C) Hər ikisi eyni şəxsdədir.
D) *"İdi"* köməkçi sözü (hissəciyi) ilə işlənib.
E) Hər ikisi təsriflənəndir.

49. "*Yaşatdım*" və "*yaşatdırdım*" feilləri haqqında fikirlərdən biri ***səhvdir***:
A) Hər ikisi təsriflənəndir.
B) Hər ikisi düzəltmədir.
C) Hər ikisi keçmiş zamandadır.
D) Hər ikisi cümlənin feili xəbəridir.
E) Hər ikisi məlum növdədir.

50. "*Təəssüfləndirirdi*" sözü ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Feildən düzələn feildir.
B) İcbar növdədir.
C) Xəbər şəklində, indiki zamandadır.
D) Düzəltmə feildir, *-lən*, *-dir* leksik şəkilçilərdir.
E) III şəxsin təkindədir.

51. "*Düzəltmişdim*" sözü ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Düzəltmə feildir, təsdiqdədir.
B) Sözdə bir leksik şəkilçi işlənmişdir.
C) Xəbər şəklində, keçmiş zamandadır.
D) Məlum növdədir.
E) Feildən düzəlmiş feildir.

52. "*Yuyundu*" və "*yuyuldu*" feilləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Hər ikisi məchul növdədir.
B) Quruluşca düzəltmədir.
C) Hər ikisi feilin xəbər şəklindədir.
D) Hər ikisi təsdiqdədir.
E) Hər ikisi keçmiş zamandadır.

Cəmiyyətlər üçün sərbəst istifadə

53. "*Bağlamışdım*" və "*bağlanmışdı*" feilləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Hər ikisi məlum növdədir.
B) Quruluşca düzəltmədir.
C) Xəbər şəklindədir.
D) *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
E) *-mış* keçmiş zaman şəkilçisidir.

54. *"Təmizləməzdim"*, *"təmizlənməzdi"* feilləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Hər ikisi inkardadır.
B) Kökü sifət olan feillərdir.
C) Hər ikisi məlum növdədir.
D) Xəbər şəklindədir.
E) *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənmişlər.

55. *"H. Zərdabinin zəngin ictimai-siyasi fəaliyyəti hələ lazımınca öyrənilməmişdir"* cümləsində feilin izahındakı ***səhvi*** müəyyən edin.
A) III şəxsin təkindədir.
B) Məchul növdədir, inkardadır.
C) Bir leksik, üç qrammatik şəkilçisi var.
D) Keçmiş zamandadır.
E) Düzəltmə feildir, qayıdış növdədir.

56. *"Anasının axırıncı sözləri onu ayıltdı"* (Ə. Haqverdiyev) cümləsində feilin izahındakı ***səhvi*** müəyyən edin.
A) Düzəltmə feildir.
B) İndiki zamandadır.
C) Təsdiqdədir.
D) III şəxsin təkindədir.
E) Məlum növdədir.

57. *"Gözəl saçları kəsdirməzlər"* cümləsindəki feilin izahındakı ***səhvi*** müəyyənləşdirin.
A) İcbar növdədir.
B) Tərkibində iki qrammatik şəkilçi vardır.
C) İnkardadır.
D) Gələcək zamandadır.
E) Xəbər şəklindədir.

58. "*O, son zamanlar xeyli düzəlmişdi*" cümləsindəki feillə bağlı ***səhvi*** müəyyən edin.
A) Keçmiş zamandadır.
B) Xəbər şəklindədir.
C) Məlum növdədir.
D) Feildən düzəlmiş feildir.
E) *-dı*^{4} "*idi*" köməkçi sözünün (hissəciyinin) qısaldılmış formasıdır.

59. "*Bildirilməmişdi*" feilinin izahındakı ***səhvi*** müəyyən edin.
A) Təsriflənən feildir.
B) Düzəltmə feildir, məchul növdədir.
C) *-dır* leksik şəkilçidir.
D) Feildən düzəlmişdir.
E) *-mə* inkar, *-di* zaman şəkilçisidir.

60. *"Təkbaşına <u>yuruşarıqsa</u>, həyatı dəyişdirə bilmərik"* cümləsindəki altından xətt çəkilmiş sözün təhlilindəki ***səhvi*** müəyyən edin.
A) Təsdiqdədir. B) Qarşılıq növdədir.
C) Şərt şəklindədir.
D) Gələcək zamandadır. E) Feildən yaranmışdır.

61. *"Belə <u>oxumaqla</u> o heç nəyə nail olmayacaq"* cümləsində altından xətt çəkilmiş sözün təhlilindəki ***səhvi*** müəyyənləşdirin.
A) Təsdiqdədir.
B) Məlum növdədir.
C) Tərkib yarada bilməmişdir.
D) "*İlə*" qoşması ilə işlənib.
E) Məsdərdir.

62. *O, meyvə <u>yeməlidir</u>* cümləsində işarələnmiş sözlə bağlı doğru fikri müəyyən edin.
A) Sifətin sualına cavab verir.
B) Vacib şəklində olan feildir.
C) Feili sifətdir, cümlənin ismi xəbəridir.
D) Əşyanın keyfiyyətini bildirir.
E) Məchul növdə, təsdiqdə olan feildir.

63. Nümunədəki feillərlə bağlı ***səhv*** fikri müəyyən edin.
El kəsib qarşımı burdaca sordu:
– Gözdən yaş çıxarmı, ürək yanmasa? (M. Müşfiq)
A) Xəbər və şərt şəklindədir.
B) Həm təsdiq, həm inkarda olanı vardır.
C) Hamısı quruluşca sadədir.
D) Hamısı təsriflənən feillərdir.
E) Məlum növdədir.

64. "*Atılırdı*", "*düzülərdi*", "*sıxılmaz*" feillərinin üçünə də aid olan xüsusiyyəti müəyyən edin.
A) Müxtəlif şəxslərdədir.
B) Hamısı həm məchul, həm də qayıdış növdə işlənə bilir.
C) Hər üçü eyni zamandadır.
D) Quruluşca sadə feillərdir.
E) Feilin müxtəlif şəkillərindədir.

65. İşarələnmiş feillərlə bağlı klasteri tamamlayın.

Bir yandan boşalır, bir yandan <u>dolur</u>, Sirrini <u>verməyir</u> sirdaşa dünya (S.Vurğun)	Sadə, təsriflənən feillərdir. Xəbər şəklindədir.

A) Quruluşca düzəltmədir.
B) Müxtəlif zamanlardadır.
C) Məlum növdədir.
D) Təsdiqdədir.
E) Şəxs şəkilçisi ixtisar olunub.

66. Hansı fikir verilmiş cümləni tamamlaya bilər?
Tərkibində -ıl^4 *şəkilçisi olan feil ...*
A) məsdər ola bilmir.
B) məlum növdədir. C) feildən düzələn feildir.
D) sadə feildir. E) həmişə inkarda olur.

Cəlilov Cəlil Əhməd oğlu

67. Hansı fikir verilmiş cümləni tamamlaya bilər?
Tərkibində -ış[4] şəkliçisi olan feil …
A) həmişə təsdiqdə olur.
B) məlum növdədir.
C) ancaq təsriflənən feil olur.
D) sadə feildir.
E) feildən düzələn feildir.

68. "*Düzdük*", "*düzdürdük*" feillərinə aid ***səhv*** fikri müəyyən edin.
A) Birinci sözün kökü sifət, ikinci sözün kökü isə feildir.
B) Birinci feil məlum növdə, I şəxsin cəmindədir.
C) İkinci feil icbar növdə, təsdiqdədir.
D) İkinci feilin tərkibində həm leksik, həm də qrammatik şəkilçi vardır.
E) Hər iki feil xəbər şəklindədir.

69. "*Göründü*" və "*görüldü*" feilləri haqqındakı fikirlərdən biri ***səhvdir***:
A) Hər ikisi feilin xəbər şəklindədir.
B) Hər ikisi təsdiqdədir, quruluşca düzəltmədir.
C) Hər ikisi məchul növdədir.
D) Hər ikisi cümlənin feili xəbəri olur.
E) Hər ikisi keçmiş zamandadır.

70. "*Döyünür*" və "*döyülür*" feilləri haqqındakı fikirlərdən biri ***səhvdir***:
A) Hər ikisi təsdiqdədir, quruluşca düzəltmədir.
B) Hər ikisi qayıdış növdədir.
C) Hər ikisi feilin xəbər şəklindədir.
D) Hər ikisi cümlənin feili xəbəridir.
E) Hər ikisi indiki zamandadır.

71. Nümunədəki feillərlə bağlı doğru fikri müəyyən edin.
Durnalar keçirdi şəhərin üstdən.
Şəhər gecəsində durna harayı.
Küçələr, binalar oyandı səsdən.
Şəhərdən ilk dəfə durna gedirdi. (F. Qoca)
A) Feillərin hamısı "*idi*" köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
B) Bütün feillər keçmiş zamandadır.
C) Bütün feillər məlum növdədir.
D) Quruluşuna görə sadə, düzəltmə, mürəkkəb feillər işlənmişdir.
E) Feillərdən biri təsriflənməyəndir.

72. *"Tabloda gözəl təbiət mənzərəsi canlandırılmışdı"* cümləsindəki feillə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Məchul növdə, təsdiqdədir.
2. Qayıdış növdədir.
3. III şəxsin təkində, keçmiş zamandadır.
4. Xəbər şəklinə "*idi*" köməkçi sözü (hissəciyi) artırılıb.
5. Tərkibində 4 leksik, 2 qrammatik şəkilçi var.
6. Həm *"idi"*, həm də *"imiş"* köməkçi sözləri (hissəcikləri) ilə işlənmişdir.
A) 1, 3, 4 B) 2, 5, 6 C) 1, 3, 5, 6
D) 1, 2, 4, 5 E) 2, 3, 6

73. "*Qaçırmışdıq*" sözündəki şəkilçilərin düzgün ardıcıllığını müəyyən edin.
1. şəxs şəkilçisi
2. feildən feil düzəldən şəkilçi
3. keçmiş zaman şəkilçisi
4. "*idi*" hissəciyinin qısaldılmış şəkli
5. indiki zaman şəkilçisi
A) 2, 1, 4, 3 B) 5, 3, 4, 2 C) 2, 3, 5, 1
D) 2, 3, 4, 1 E) 5, 3, 4, 1

74. "*Yazdırmamışam*" sözündəki şəkilçilərin düzgün ardıcıllığını müəyyən edin.
1. şəxs şəkilçisi
2. feilin inkarlıq şəkilçisi
3. keçmiş zaman şəkilçisi
4. feilin icbar növünün şəkilçisi
A) 4, 3, 1, 2 B) 3, 1, 4, 2 C) 1, 2, 4, 3
D) 4, 2, 3, 1 E) 2, 4, 3, 1

75. *Oxuyacaqdısa, öyrənmişdinsə, bilirdilərsə* feilləri üçün ortaq olan fikri müəyyən edin.
A) Şərt şəklində, 2-ci şəxsin təkində və 3-cü şəxsin cəmində olan feillərdir.
B) Keçmiş zamanda, 3-cü şəxsin təkində olan feillərdir.
C) Hamısı qayıdış növdə, 2-ci və 3-cü şəxsin təkindədir.
D) Təsdiqdə, 3-cü şəxsin cəmində olan feillərdir.
E) Sadə, xəbər şəklində olan feillərdir.

76. Cümlələrdəki feillərlə bağlı fikirlərdən biri doğrudur:
1. *Ana körpəsini qucağında yatırdı.*
2. *Uşaq beşiyində mışıl-mışıl yatırdı.*
A) Birincisi düzəltmə, ikincisi sadədir.
B) Hər ikisi keçmiş zamandadır.
C) Hər ikisi "*idi*" köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
D) Biri məlum, digəri isə qayıdış növdədir.
E) Hər ikisinin başlanğıc forması "*yat*" feilidir.

77. Cümlələrdəki feillərlə bağlı fikirlərdən biri doğrudur:
1. *Kəmalə şeiri kitabdan köçürdü.*
2. *Qonşumuz bu gün şəhərə köçürdü.*
A) Hər ikisinin başlanğıc forması "*köç*" feilidir.
B) Hər iki feil keçmiş zamandadır.
C) Hər iki feil "*idi*" köməkçi sözü (hissəciyi) ilə işlənib.
D) Biri məlum, digəri isə qayıdış növdədir.
E) Biri düzəltmə, digəri sadədir.

Camscanner ilə skan edilib

78. Nöqtələrin yerinə uyğun gələn sözü müəyyən edin.

... → Feildən düzəlib.
→ Qayıdış növdədir.
→ İndiki zamandadır.
→ İdi köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
→ Şəxs şəkilçisi ilə işlənə bilir.

A) deyinirdi B) pozulardısa C) yazılırsa
D) deyilirdi E) azaldılırmış

79. Nöqtələrin yerinə uyğun gələn sözü müəyyən edin.

... → Feildən düzəlib.
→ Məchul növdədir.
→ İndiki zamandadır.
→ İdi köməkçi sözü (hissəciyi ilə) işlənmişdir.
→ III şəxsin təkindədir.

A) azalırdı B) satılardısa C) qazılırsan
D) deyinirdi E) yazılırdı

80. *Bu məktubu da oxudun* cümləsindəki feillə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Həm sadə, həm düzəltmə feil kimi düşünmək olar.
2. Yalnız ikinci şəxsin təkinə aid etmək olar.
3. Feilin iki şəkli kimi düşünülə bilər.
4. Şəxs şəkilçili söz hesab etmək olmaz.
5. Feilin bir qrammatik məna növünə aid ola bilər.

A) 1, 4 B) 1, 3, 5 C) 2, 4, 5
D) 2, 3 E) 3, 4

81. Eyler-Venn diaqramına əsasən sual işarəsinin yerində yazmaq ***olmaz***:



A) İnkar feillərdir.
B) Sadə feillərdir.
C) 3 qrammatik şəkilçisi vardır.
D) Xəbər şəklindədir.
E) Şəxs sonluqları (şəkilçiləri) qəbul edib.

82. Eyler-Venn diaqramında hansı rəqəmlərə uyğun fikirlərin yeri dəyişdirilsə, altından xətt çəkilmiş sözlərlə bağlı yol verilmiş ***səhvlər*** düzələr?

Sən nəyə <u>yaradın</u>? *Yeni əsərlər <u>yaradın</u>.*



A) 1↔5 B) 2↔3 C) 3↔5
D) 2↔4 E) 1↔4

83. Verilən cümlələrdəki fərqləndirilmiş sözlərin hər ikisi üçün ortaq cəhəti müəyyən edin.
I *Mən də bu kitabı dünən* ***oxudum.***
II *İcazə verin, yeni hekayənizi uşaqlara* ***oxudum.***
A) Aid olduğu şəklin xüsusi şəkilçisi yoxdur.
B) Feildən düzələn düzəltmə feildir.
C) Əmr şəklindədir.
D) Hərəkətin keçmişdə baş verdiyini bildirir.
E) Sadə feildir.

84. *Açılırdı, tutulardı, sıxılmaz* feillərinə aid ortaq fikri müəyyən edin.
A) Hər üçü eyni zamandadır.
B) Hər üçü təsdiqdədir.
C) Həm məchul, həm də qayıdış növdə işlənə bilir.
D) Quruluşuna görə sadə feillərdir.
E) Söz kökləri omonimdir.

85. *Anlayırdı, didilərmiş, qarşılaşarsa* feillərinin üçünə də aid olan xüsusiyyəti müəyyən edin.
A) Təsriflənməyən formadadır.
B) Quruluşca sadə feillərdir.
C) Eyni zamana aid şəkilçi ilə işlənmişdir.
D) Eyni qrammatik məna növünə aiddir.
E) Hər üçü köməkçi sözlərlə (hissəciklərlə) işlənib.

86. Feillə bağlı düzgün fikirləri müəyyən edin.
1. Dilimizdəki mürəkkəb feillərin əksəriyyəti bitişik yazılır.
2. Zaman şəkilçisi qəbul etmiş feillər xəbər şəklində olur.
3. Bütün təsriflənən feillərin inkarı *-ma*^{2} şəkilçisi vasitəsilə düzəlir.
4. İnkar şəkilçi -ma^2 feilin kökünə, yaxud başlanğıc formasına artırılır.
5. Feilin qrammatik məna növlərinin şəkilçiləri leksik şəkilçilərdir.

A) 1, 2, 3 B) 2, 4, 5 C) 1, 3, 5
D) 2, 3, 4 E) 1, 4, 5

87. Feillə bağlı düzgün fikirləri müəyyən edin.
1. Feilin təsriflənməyən formalarının hamısı ismin yerində işlənə bilər.
2. Məchul növ feillərdə obyekt subyekt məqamında işlənir.
3. Lüğətlərdə feillər məsdər şəklində verilir.
4. Bütün feili sifət şəkilçiləri omonimdir.
5. Feilin qrammatik məna növlərini əmələ gətirən şəkilçilər leksikdir.

A) 2, 3, 4 B) 1, 3, 5 C) 1, 4, 5
D) 2, 3, 5 E) 1, 2, 4

Cəmiyyətdə ən sevimli

Feillə bağlı ***səhv*** fikirləri müəyyən edin.
1. Əmr şəklinin xüsusi şəkilçisi vardır.
2. Feildən feil düzəldən şəkilçilər daha çox dördvariantlı olur.
3. Lüğətlərdə feillər məsdər şəklində verilir.
4. Bütün feili sifət şəkilçiləri omonimdir.
5. Feilin qrammatik məna növlərini əmələ gətirən bütün şəkilçilər leksikdir.

A) 1, 2 B) 2, 4 C) 1, 3, 5
D) 3, 4, 5 E) 1, 4

. "*Məktublaşırdılar*" və "*salamlaşırdılar*" feillərinin müqayisəsi ilə bağlı ***səhv*** cavabı müəyyən edin.
A) Birinci feil isimdən, ikincisi feildən düzəlmişdir.
B) İkisi də xəbər şəklindədir.
C) *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
D) Eyni qrammatik məna növündədir.
E) İkisində də qarşılıqlı hərəkət məzmunu var.

). "*Ruhlandırdı*" və "*qarşılanırdı*" feilləri haqqında düzgün fikirləri müəyyənləşdirin.
1. Birincisi məlum, ikincisi məchul növdədir.
2. İkisi də feildən düzəlib.
3. İkisi də keçmiş zamandadır.
4. *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
5. İkisində də iki leksik şəkilçi vardır.

A) 2, 3, 5 B) 2, 4, 5 C) 2, 3, 4
D) 1, 2, 5 E) 1, 3, 5

)1. Vurğusu ikinci hecaya düşən "*qaraldın*" sözünün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvləri*** müəyyən edin.
1. Kök, 1 leksik, 2 qrammatik şəkilçisi vardır.
2. Keçmiş zamandadır.
3. Feildən düzəlmişdir.
4. Təsriflənən feildir.
5. İcbar növdədir.

A) 1, 3, 4 B) 1, 2, 5 C) 2, 3, 5
D) 1, 2, 4 E) 3, 4, 5

92. *Sevgim mübarizə, sevgilim həyat,*
Yəhərlənmiş mana qanadlı bir at. (M. Müşfiq)
Nümunədəki feillə bağlı düzgün fikirləri müəyyən edin.
1. III şəxs sonluğu ixtisar olunmuşdur.
2. Bir leksik şəkilçisi vardır.
3. Keçmiş zamandadır.
4. Düzəltmə feildir.
5. Qayıdış növdədir.
6. Xəbər şəklindədir.

93. Nümunədəki feillə bağlı düzgün fikirləri müəyyən edin.
Bir qədər çaydan uzaq od qalamış dağda çoban.
1. III şəxs sonluğu ixtisar olunmuşdur.
2. "*İmiş*" köməkçi sözünün ixtisarı ilə işlənmişdir.
3. Keçmiş zamandadır.
4. Feili sifətdir.
5. Məlum növdədir.

94. Tərkibində zaman şəkilçisi olan feillərin hamısına aiddir:
1. Xəbər şəklindədir.
2. Quruluşca düzəltmədir.
3. *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.
4. Təsriflənən feildir.

95. *"Səhvləri aşkar edib bir-bir düzəldin"* cümləsində işlənmiş təsriflənən feillə bağlı düzgün fikirləri müəyyən edin.
1. II şəxsin təkindədir.
2. Feildən düzəlmişdir.
3. Keçmiş zamandadır.
4. Əmr şəklindədir.
5. Bir leksik, iki qrammatik şəkilçili sözdür.

96. *"Yanğın təhlükəsi olduğundan dünən bütün uşaqları qonşu binaya köçürdük"* cümləsindəki işlənmiş təsriflənən feillə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Düzəltmə feildir.
2. *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənib.
3. Keçmiş zamandadır
4. Məlum növdədir.
5. Əmr şəklindədir.

97. Klasteri tamamlaya bilən fikirləri müəyyən edin.



1. tərkibinə görə iki cür təhlil oluna bilər.
2. hərəkətin icrasının vacibliyini bildirir.
3. "kaş" və "gəl" ədatları ilə işləndikdə müxtəlif qrammatik şəkil ifadə edir.
4. yerinə görə iki şəxsə aid nümunə kimi düşünülə bilər.

98. "*O güldü kağıza qol çəkən zaman,*
Qıydı ürəklərin hicran səsinə". (B. Vahabzadə)
Nümunədəki təsriflənən feillərlə bağlı hansı fikirlər ***səhvdir***?
1. Biri sadə, o biri düzəltmədir.
2. Hər ikisi qarşılıq-birgəlik növdədir.
3. Hər ikisi xəbər şəklindədir.
4. Omonimdir.
5. Hər ikisi cümlənin feili xəbəridir.

99. *"Qaçırsa"* feili ilə bağlı hansı fikirlər düzgündür?
1. Quruluşca düzəltmədir.
2. Zaman şəkilçisi qəbul etmişdir.
3. Feilin şərt şəklindədir.
4. Feilin kökü ilə başlanğıc forması eynidir.
5. "İsə" köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.

Camscanner ilə skan edilib

100. *"Köçürsə"* feili ilə bağlı hansı fikirlər düzgündür?
1. Quruluşca sadədir.
2. Feilin şərt şəklindədir.
3. Feilin kökü ilə başlanğıc forması fərqlidir.
4. Zaman şəkilçisi qəbul etmişdir.
5. "İsə" köməkçi sözü (hissəciyi) ilə işlənmişdir.

101. *Cəmil baxışımdan məni sizə oxşadır* nümunəsi əsasında klasteri tamamlayan fikirləri müəyyən edin.

hərəkətin danışılan anda baş verdiyini bildirilir.

Cümlədəki feil:

1. Tərkibi ⌐⌒⌒.
2. Qrammatik şəkilçisiz işlənsə, sözdə cingiltili samit olmaz.
3. İcbar növdə olan feildir.
4. Altından xətt çəkilmiş hissə iki şəkilçidən ibarətdir.
5. Yönəldən subyekti yoxdur.

102. Vurğunu nəzərə almaqla verilmiş feillə bağlı klasteri tamamlayan düzgün fikirləri müəyyən edin.

başlanğıc forması "ötür"məkdir.

Ötürdü

1. İndiki zamandadır.
2. 1 leksik, 1 qrammatik şəkilçisi vardır.
3. Keçmiş zamandadır.
4. Quruluşca sadə feildir.
5. Köməkçi sözlə (hissəciklə) işlənməyib.

103. Vurğunu nəzərə almaqla verilmiş feillə bağlı klasteri tamamlayan düzgün fikirləri müəyyən edin.

Başlanğıc forması "qopar"maqdır.

Qopardı'

1. Gələcək zamandadır.
2. "İdi" köməkçi sözü (hissəciyi) ilə işlənib.
3. Düzəltmə feildir.
4. Keçmiş zamandadır.
5. 1 leksik, 1 qrammatik şəkilçisi vardır.

104. Nümunədəki feillərin hər birində işlənmişdir:
Pəncərələr yenicə örtülmüş, qış tədarükü görülmüşdü.
1. zaman şəkilçisi
2. şəxs şəkilçisi
3. feil düzəldən şəkilçi
4. inkarlıq şəkilçisi
5. köməkçi söz (hissəcik)

105. Nümunədəki feillərdə **işlənməmişdir:**
Külək qarı səpələr, Bəxtiyar!
Ağ geyinib təpələr, Bəxtiyar!
1. xəbərlik şəkilçisi
2. növ şəkilçisi
3. inkar şəkilçisi
4. feili bağlama şəkilçisi
5. zaman şəkilçisi
6. leksik şəkilçi

106. Nümunədə işlənmiş feillərlə bağlı düzgün fikirləri müəyyən edin.
Büsbütün yorulub gücdən düşərkən
Bir ulduz parladı uzaq üfüqdən!
Bu görünən səndin, artıq gəldin sən,
Axır səni buldum, ey dan ulduzu!
(C. Cabbarlı)
1. Məlum növdə olan feil vardır.
2. Qayıdış növdə olan feil vardır.
3. Məchul növdə olan feil vardır.
4. Sadə feil işlənib.
5. Təsriflənməyən feillərin hamısına aid nümunə işlənib.

107. Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən edin.



108. Nümunədə işlənmiş feillərlə bağlı düzgün fikirləri müəyyənləşdirin.
Bu günümdən uzaqlaşan
ulu babam!
Ayağa dur!
Dəfn etdiyim məsələnin
Baş daşına
Bir təəssüf xatirəsi yazıb yondur...
(M. Araz)
1. Həm təsriflənən, həm də təsriflənməyən feillər işlənmişdir.
2. *Uzaqlaşan* indiki zaman mənalı, məlum növdə olan, düzəltmə feili sifətdir.
3. Əmr şəklində olan üç feil işlənmişdir.
4. *Yazıb* keçmiş zamanda işlənmiş sadə feildir.
5. *Dəfn etdiyim* mürəkkəb, keçmiş zaman mənalı feili sifətdir.

Qafiyyə.az

109. Eyler-Venn diaqramına əsasən cümlələrdəki fərqləndirilmiş feillərlə bağlı uyğunluğu müəyyən edin.

*Anam yemək **bişirdi**.* *Yemək sobanın üzərində **bişirdi**.*



a. *İdi* köməkçi sözü (hissəciyi) ilə işlənib.
b. Xəbər şəklindədir.
c. Quruluşca düzəltmədir.
d. Məlum növdədir.
e. İndiki zamandadır.

110. Eyler-Venn diaqramına əsasən verilmiş feilləri müqayisə edərək uyğunlaşdırın.

salamlaşdıq vidalaşdıq



a. Feildən düzəlmişdir.
b. Məlum növdədir.
c. Sözün kökü isimdir.
d. Xəbər şəklindədir.
e. Bir leksik, iki qrammatik şəkilçili sözdür.

111. Nümunələrdəki feillərlə bağlı verilmiş fikirləri Eyler-Venn diaqramına uyğunlaşdırın.

I – *Dağlar, düzənlər yaşıllaşdı.*
II – *Məktəbin bağı çır-çırpıdan təmizləndi.*



a. İki leksik şəkilçi qəbul etmişdir.
b. Hərəkəti icra edən qrammatik cəhətdən məlum deyil.
c. Xəbər şəklindədir.
d. Sifətdən düzəlmişdir.
e. Məlum növdədir.

112. Cümlələrdəki feillərə əsasən verilmiş fikirləri Eyler-Venn diaqramına uyğunlaşdırın.

I *Körpələr əzizlənir.*
II *Vətənimiz gündən-günə gözəlləşir.*



a. Məlum növdədir.
b. Xəbər şəklindədir.
c. Sifətdən düzəlmişdir.
d. Hərəkəti icra edən qrammatik cəhətdən məlum deyil.
e. İki leksik şəkilçi qəbul etmişdir.

113. Nümunələrdəki fərqləndirilmiş sözlərin morfoloji izahı ilə bağlı uyğunluğu müəyyən edin.

1. Dünən gödəkçəmi qayığın deşiyinə ***tıxadım***.
2. Əgər bu əşyalar sənə gələcəkdə lazım olmayacaqsa, ***tulladım***.
3. Mən ***atılmış*** bəndəyəm,
Gil təndirdə kündəyəm. (Y. Moranküllü)

a. Tərkibindəki qrammatik şəkilçi zaman şəkilçisi ilə omonimdir.
b. Xəbər şəklindədir.
c. İcbar növdədir.
d. Məchul növdədir.
e. İki leksik şəkilçi işlənib.

114. Eyler-Venn diaqramına əsasən nömrələnmiş feillərlə bağlı uyğunluğu müəyyən edin.

Köhnə tanışlartək qucaqlaşdılar[1],
Mehriban görüşüb vidalaşdılar[2].
(Musa Yaqub)



a. Qarşılıq növdədir.
b. Təsriflənəndir.
c. Feildən düzələn feildir.
d. Feilin xəbər şəklindədir.
e. Məlum növdədir.

115. Eyler-Venn diaqramına əsasən verilmiş feillərlə bağlı uyğunluğu müəyyən edin.

Dağılmaq *Yarılmaq*



a. Məlum növdədir.
b. Sadə feildir.
c. Feildən düzəlmiş feildir.
d. Təsdiqdədir.
e. Zaman bildirmir.

Camscanner ilə skan edilib

116. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin.



a. Feildən düzələn feildir
b. Qayıdış növdə işlənə bilir.
c. 1 leksik, 1 qrammatik şəkilçisi var.
d. Məlum növdədir.
e. Təsriflənməyən formadadır.

117. Eyler-Venn diaqramına əsasən cümlələrdə fərqləndirilmiş feillərlə bağlı uyğunluğu müəyyən edin.

I. *Qoy köynəyimi* ***ütülədim.***
II. *Səhər paltarları yudum, köynəyimi* ***ütülədim.***



a. Xəbər şəklindədir.
b. Sözün kökü isimdir.
c. Düzəltmə sözdür, feildən düzəlmişdir.
d. İki leksik, bir qrammatik şəkilçili sözdür.
e. Keçmiş zamandadır.

118. Eyler-Venn diaqramına əsasən verilmiş feillərlə bağlı uyğunluğu müəyyən edin.



a. Həm indiki, həm də keçmiş zamanda olan feil kimi düşünmək olar.
b. I şəxsin təkindədir.
c. Yalnız sadə feil kimi düşünülə bilər.
d. Məlum növdədir.
e. Yalnız *"İndiki zamanda, idi köməkçi sözü (hissəciyi) ilə işlənmişdir"* kimi izah oluna bilir.

119. *"Bildirilməlidirsə"* sözündəki şəkilçiləri düzgün ardıcıllıqla müəyyən edin.
1. feildən feil düzəldən şəkilçi
2. vacib şəklinin şəkilçisi
3. məchul növün şəkilçisi
4. "*isə*" köməkçi sözünün (hissəciyinin) qısaldılmış şəkli
5. şəxs şəkilçisi

120. *"Baxdırılmalıdırsa"* sözündəki şəkilçiləri düzgün ardıcıllıqla müəyyən edin.
1. feildən feil düzəldən şəkilçi
2. vacib şəklinin şəkilçisi
3. məchul növün şəkilçisi
4. "*isə*" köməkçi sözünün (hissəciyinin) qısaldılmış şəkli
5. şəxs şəkilçisi

121. "*İşlənmirdi*" feilindəki şəkilçilərin işlənmə ardıcıllığını müəyyən edin.
1. növ şəkilçisi
2. inkarlıq
3. zaman şəkilçisi
4. leksik şəkilçi
5. köməkçi sözün (hissəciyin) şəkilçiləşmiş forması

122. "*Başlanmırdı*" feilindəki şəkilçilərin işlənmə ardıcıllığını müəyyən edin.
1. növ şəkilçisi
2. inkar şəkilçisi
3. zaman şəkilçisi
4. leksik şəkilçi
5. köməkçi sözün (hissəciyin) şəkilçiləşmiş forması

123. "*Keçirilməlidirsə*" sözündəki şəkilçilərin düzgün ardıcıllığını müəyyən edin.
1. *"isə"* köməkçi sözünün (hissəciyinin) qısaldılmış şəkli
2. feildən feil düzəldən şəkilçi
3. məchul növün şəkilçisi
4. vacib şəklinin şəkilçisi
5. şəxs şəkilçisi

124. "*Uçurmurduq*" sözündəki şəkilçilərin düzgün ardıcıllığını müəyyən edin.
1. *"idi"* köməkçi sözünün (hissəciyinin) qısaldılmış şəkli
2. şəxs şəkilçisi
3. inkar şəkilçisi
4. zaman şəkilçisi
5. feildən feil düzəldən şəkilçi

Feilin təsriflənməyən formaları

Məsdər

Hansı cümlələrdə məsdər işlənmişdir?
1. Yaxşılıq etmək insanlıq borcumuzdur.
2. Nümunəvi uşaqlar ön cərgədə oturmuşdular.
3. Məktubu oxuyarkən gözləri dolurdu.
4. Yaşamaq üçün yaratmalıyıq.
5. Yolu keçəndə kömək istədi.

A) 4, 5 B) 1, 2 C) 3, 5 D) 1, 4 E) 2, 3

Məsdər işlənmiş cümləni müəyyən edin.
A) Yemək dostundan uzaq ol.
B) Əmək insanı ucaldar.
C) Demək, evi tapmadınız?
D) Uşaq yazmağı yenicə öyrənirdi.
E) Dadaş qardaşına kömək etdi.

"*Atam təhsil almağı çox yüksək qiymətləndirir*" cümləsində məsdər ismin hansı halındadır?
A) yönlük B) yiyəlik C) təsirlik
D) yerlik E) adlıq

Cümlələrdən birində məsdər işlənmişdir:
A) Həmin adam tezliklə təslim oldu.
B) Meydana minlərlə adam toplaşdı.
C) İndi gedəcəyim yeri heç vaxt görməmişdim.
D) Qərib-qərib, qəmgin-qəmgin ötərsiz.
(M.V. Vidadi)
E) Yaşamaq, yaratmaq həyatın mənasıdır.

Nümunədə işlənmiş məsdər hansı cümlə üzvüdür?
Oxumaq asandır, anlamaq çətin.
A) mübtəda B) tamamlıq C) zərflik
D) təyin E) xəbər

Cümlələrdən birində məsdər xəbər vəzifəsindədir:
A) Mətni oxumaq Gülnara tapşırılıb.
B) Özümü oxuculara nişan vermək istəyirəm.
C) Ceyhunənin arzusu oxumaqdır.
D) Bu gün də külək yavaşımaq bilmədi.
E) Səngimək bilməyən külək bizi yorurdu.

Hansı cümlədəki feillərin hamısı məsdər formasındadır?
A) Yaşamağı bacarmaq hər damcı ilhama 99 damcı tər qatmaqdır.
B) Nə danışırsan, yoldaş İbrahimov, mən bununla razılaşmaq istəmirəm.
C) Qorxmaz maşından çıxıb uşaqlarla görüşmək istədi.
D) Ramiz işləməkdən yorulmur.
E) Bu kənddə yaşamaq çox adamın ürəyindən keçir.

8. Hansı cümlədə məsdər mənsubiyyətə görə dəyişmişdir?
A) Rəisdən sonra hamı çıxış etmək istəyirdi.
B) Açıq havada gəzməyin faydası çoxdur.
C) Ərəb əlifbası ilə yazmağı qardaşımdan öyrənmişəm.
D) Onun bu məclisə gəlməyi çoxlarını sevindirdi .
E) Balaca Əli qiraətlə oxumağı çox sevirdi.

9. Cümlələrin birində məsdər mənsubiyyətə görə dəyişib:
A) Öyrənmək heç vaxt gec deyil.
B) Qəhrəmanlıqla ölmək əbədi yaşamaqdır.
C) Kəndə getməyinin səbəbi vardır.
D) Bütün suallara düzgün cavab verməyi bəziləri bacarır.
E) Yaşamağı, yaratmağı əsl insanlardan öyrənirik.

10. Altından xətt çəkilmiş sözlərin biri məsdərdir:
A) İldırımın <u>çaxmağı</u> çox çəkdi.
B) Balıq vedrəsinin yanındakı <u>qarmağı</u> mən almışam.
C) Nənəm həmişə tikişlə məşğul olanda <u>oymaq</u> taxır.
D) Dosta <u>kömək</u> vacibdir.
E) Onun gicgahında <u>mərcimək</u> boyda xalı vardı.

11. Həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul edən məsdərin işləndiyi cümlələri müəyyən edin.
1. Ora getməkdən yorulmuşam.
2. İşləməyindən belə görünür ki, zəhmətkeş adamdır.
3. Belə gözəl yazmağı kimdən öyrənmisən?
4. Oxumağına söz ola bilməz.
5. Sizin bu haqda dediyiniz fikir mənə təəccüblü gəlir.

A) 3, 5 B) 2, 4 C) 1, 2 D) 2, 5 E) 3, 4

12. Məsdər hansı cümlədə mənsubiyyətə görə dəyişib?
A) Oxumağı, yazmağı ilk dəfə anamdan öyrənmişəm.
B) Bizim dövrümüzdə oxumağa böyük həvəs var idi.
C) O, şeir oxumaqdan yorulmurdu.
D) Bu sözdən sonra heç kəs dillənmək istəmədi.
E) Bizim yaxşı oxumağımız müəllimi çox sevindirdi.

13. Hansı cümlədə məsdər mənsubiyyətə görə dəyişib?
A) Onda oxumaq həvəsi çox güclüdür.
B) Sən oxumağa, öyrənməyə gəlmisən, bala.
C) Oxumaqdan, öyrənməkdən hələ zərər çəkən olmayıb.
D) Sənin oxumağın tələbi ödəmir.
E) Gül-çiçəyə qulluq etməyi çox sevirəm.

Camscanner ilə skan edilib

14. Məsdər haqqında verilən fikirlərdən biri ***səhvdir***:
A) Cümlənin mübtədası, tamamlığı, xəbəri və zərfliyi ola bilir.
B) Hallana bilir.
C) Həm feilin, həm də ismin xüsusiyyətlərinə malikdir.
D) Mənsubiyyətə görə dəyişir.
E) Bütün şəxslər üzrə xəbərlik (şəxs) şəkilçisi qəbul edir.

15. Məsdər hansı nitq hissələrinin xüsusiyyətlərinə malikdir və daha çox hansı cümlə üzvləri vəzifəsində işlənə bilir?
A) sifət, zərf; mübtəda, zərflik
B) feil, isim; mübtəda, tamamlıq
C) feil, zərf; mübtəda, zərflik, xəbər
D) isim, sifət; tamamlıq, təyin
E) feil, sifət; təyin, xəbər

16. Həm hal, həm də mənsubiyyət şəkilçisi qəbul etmiş məsdər işlənən cümlələri müəyyən edin.
1. Görüşməyimizdən bir həftə keçmişdi.
2. Oxuduğumuzun mənasını anlamalıyıq.
3. O, yaxşı oxumağımız üçün heç nəyi əsirgəmirdi.
4. Deməyindən belə çıxırdı ki, əhvalatdan xəbəri yoxdur.
A) 1, 2 B) 1, 4 C) 2, 4 D) 1, 3 E) 3, 4

17. Məsdərin isimlə ortaq xüsusiyyətlərinə daxil ***deyildir***:
A) Hallana bilir.
B) Mənsubiyyət şəkilçisi qəbul edir.
C) Təsdiq və inkarda olur.
D) Cümlədə mübtəda və tamamlıq ola bilir.
E) Nə? sualına cavab verir.

18. Məsdər haqqındakı fikirlərdən biri ***yanlışdır***:
A) Hallanır və mənsubiyyətə görə dəyişir.
B) Təsdiqdə və inkarda olur.
C) Qoşmalarla işlənə bilmir.
D) Həm feilin, həm də ismin xüsusiyyətlərini daşıyır.
E) Üçüncü şəxsin xəbərlik (şəxs) şəkilçisini qəbul edir.

19. Həm feilin, həm də ismin xüsusiyyətlərinə malik olan sözlər daha çox hansı cümlə üzvləri kimi işlənir?
A) zərflik, tamamlıq, təyin
B) təyin, zərflik, mübtəda
C) təyin, mübtəda, xəbər
D) mübtəda, tamamlıq, xəbər
E) mübtəda, təyin, tamamlıq

20. Məsdərlə bağlı doğru fikri müəyyənləşdirin.
A) Bütün şəxslərin xəbərlik (şəxs) şəkilçisini qəbul edərək ismi xəbər olur.
B) Bütün şəxslərə aid mənsubiyyət şəkilçisi qəbul edə bilir.
C) Qoşmalarla işləndikdə səbəb zərfliyi olur.
D) Feili birləşmələrdə yalnız əsas tərəf kimi işlənə bilir.
E) İsmin bütün hallarında işlənə bilmir.

21. Məsdərlə bağlı ***səhv*** fikri müəyyənləşdirin.
A) İsim qoşmalarla işləndiyi halda, məsdər qoşmalarla işlənə bilmir.
B) Həm feilin, həm də ismin xüsusiyyətlərinə malikdir.
C) Cümlənin məqsəd zərfliyi ola bilir.
D) İsim kimi hallanır və mənsubiyyətə görə dəyişir.
E) Cümlənin ismi xəbəri olur.

22. Məsdərlə bağlı ***səhv*** fikri müəyyənləşdirin.
A) Feli birləşmələrin əsas və asılı tərəfi kimi çıxış edə bilir.
B) Qoşmalarla işlənə bilir.
C) Bütün hal şəkilçilərini qəbul edib ismi xəbər olur.
D) II və III növ təyini söz birləşmələrində tərəflərdən biri kimi çıxış edə bilir.
E) Yalnız III şəxsin xəbərlik (şəxs) şəkilçisini qəbul edir.

23. Hansı cümlədə məsdər həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul edib?
A) Sənin gəlməyin məni sevindirdi.
B) Tez-tez qarmağını suya atsa da, balıq ovlaya bilmədi.
C) Qardaşımın köməyindən sonra işlərim qaydasına düşdü.
D) Dostluğu qiymətləndirməyi gərək bacarasan.
E) Müğənninin oxumağından həzz alırdım.

24. Məsdərlə ismin ortaq xüsusiyyətləridir:
1. Ümumi və xüsusi olur.
2. Qoşmalarla işlənir.
3. Bütün şəxslər üzrə xəbərlik şəkilçilərini qəbul edir.
4. Mənsubiyyətə görə dəyişir.
5. Təkdə və cəmdə olur.
6. Hallanır.

25. Məsdərin isimlə ortaq ***olmayan*** xüsusiyyətləridir:
1. Ümumi və xüsusi olur.
2. Qoşmalarla işlənir.
3. Bütün şəxslər üzrə xəbərlik şəkilçilərini qəbul edir.
4. Mənsubiyyətə görə dəyişir.
5. Təkdə və cəmdə olur.
6. Hallanır.

26. Hansı cümlələrdə məsdər tamamlıq vəzifəsindədir?
1. Doğma şəhərimi vəsf etmək üçün şeirlər yazıram.
2. Şair yazmaqdan zövq alırdı.
3. Oxumağa, işləməyə, yaratmağa meyilli idi.
4. Zəhmət çəkib tər tökənləri dəyərləndirmək lazımdır.
5. Oxumaq, təhsil almaq gözəl arzudur.

CamScanner ilə skan edilib

Feili sifət

Biri feilin ***təsriflənməyən*** formasındadır:
A) yaşayacaqdır B) oxusa C) gəlmişdir
D) dinləyən E) başa düşəsidir

Feili sifət şəkilçilərindən ibarət cərgə hansıdır?
A) -mış^4,-malı^2, -an^2, -ası^2 B) -maq^2, -mış^4, -an^2
C) -dır^4, -ır^4, -a^2 D) -sa^2, -ma^2, -lı^4
E) -dıqda^4, -sız^4, -madan^2

Feili sifət işlənmiş cərgəni müəyyən edin.
A) əkilməli ağaclar, aldıqları cavab, görünən ulduz
B) təmiz paltar, gözəl qız, qarışıq yol
C) qızıl söz, beşmərtəbəli bina, düz yol
D) sevimli uşaq, buzlu su, dərin göl
E) qapının dəstəyi, stolun üstü, dağınıq fikir

Yatmışları kimsə oyatmasın cümləsindəki feili sifət hansı cümlə üzvüdür?
A) tamamlıq B) xəbər C) mübtəda
D) təyin E) zərflik

"*Közərən ocaq*" birləşməsində I tərəfin izahına aid ***səhvi*** müəyyən edin.
A) Feili sifətdir.
B) Məlum növdədir.
C) Feildən düzəlmiş feildir.
D) Təsdiqdədir.
E) İndiki zaman mənasını bildirir.

Hansı cümlədə feili sifət işlənmişdir?
A) Hər ilin mart ayında soyqırım qurbanları anılır.
B) Bayaq şeir söyləyəndə xüsusi istedad var.
C) Tərtər çayı! Nə zamandan,
Hansı çılğın bir tufandan
Qaynayışın başlar sənin? (M. Müşfiq)
D) Ürək kövrəkləşir sən oxuyanda,
Sən də dinləsəydin mən oxuyanda. (M. Müşfiq)
E) Deyingən adamla bir məclisdə oturma.

İndiki zaman mənalı feili sifətlər hansı sırada işlənmişdir?
A) sevilən kitablar, əkilmiş çiçəklər
B) əzbərlənmiş şeirlər, gördüyüm film
C) güləyən oğlan, deyinən qarı
D) dəriləcək meyvə, yazılası məktub
E) açılan sirr, gizlədilən məktub

Hansı cümlədə feili sifətlə ifadə olunmuş xəbər var?
A) Ehtiyatlı ol, yol olduqca sürüşkəndir.
B) Bundan ehtiyatlı ol, yazandır.
C) Bu uşaq çox ağlağandır.
D) O, yaman deyingəndir.
E) Uşaq mütləq meyvə yeməlidir.

"*Tikiləcək binaların layihəsini indidən hazırlamaq lazımdır*" cümləsindəki feili sifətin qrammatik xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Gələcək zaman məzmunu ifadə edir.
B) Məchul növdədir.
C) Təyin vəzifəsindədir.
D) *Hansı*? sualına cavab verir.
E) Sadədir.

10. Nümunədə feili sifət hansı cümlə üzvü vəzifəsində işlənmişdir?
"Mən aşiqəm mərd ola,
Sevən gərək mərd ola ..."
A) zərflik B) təyin C) xəbər
D) mübtəda E) tamamlıq

11. Gələcək zaman məzmunlu feili sifətlərin cərgəsini müəyyən edin.
A) deyiləsi söz, yuduğum dəsmal, gedəcəyim yer
B) oxuyan qız, olmuş hadisə, deyiləcək söz
C) yazdığım məktub, deyəcəyim söz, təmir olunmuş mənzil
D) alınası məktub, baxılacaq məsələ, yeyilməli meyvə
E) açılan gül, çalınacaq saz, qurumuş meyvə

12. Feili sifətlərdən ibarət cərgələri müəyyən edin.
1. qırıcı, üzücü, atıcı
2. qırdığı, üzdüyüm, gətirdiyimiz
3. qızğın, üzgün, azğın
4. qıran, üzən, baxan
5. uçuq, sökük, batıq
A) 1, 3 B) 2, 4 C) 2, 5 D) 1, 5 E) 3, 5

13. Cümlədəki feili sifət tərkibini müəyyən edin.
Onun yeri hər bahar qızıl lalələrlə örtülən bir düzənlik oldu.
A) qızıl lalələrlə örtülən
B) hər bahar qızıl lalələrlə örtülən
C) örtülən
D) lalələrlə örtülən
E) hər bahar örtülən

14. Hansı cümlədə feili sifət işlənmişdir?
A) Qız çiçəklərə heyran-heyran baxırdı.
B) Ana, məndən nigaran qalma.
C) Uşaqlar həyəcan içində idilər.
D) Oğul, hünərinə arxalanmadan irəli getmək olmaz.
E) Yanan şamlar xonçaya xüsusi bir gözəllik verirdi.

15. Hansı cümlədə feili sifət tamamlıq vəzifəsindədir?
A) Yatmış körpələri oyatdılar.
B) Gələn qonaqları içəri dəvət etdilər.
C) Gecikənləri danladılar.
D) Açılmış güllər necə də gözəldir!
E) Bu, yarışda qalib gələn oğlandır.

16. Hansı cümlədə feili sifət mübtəda vəzifəsindədir?
A) Yarışda birinci yer tutan şagirdlərə mükafat verdilər.
B) Görüləsi işlərimiz çoxdur.
C) Gələnlər onuncu sinif şagirdləridir.
D) Yeni tikilmiş evlər daşdandır.
E) Qabaq sırada oturan oğlan Turaldır.

Camscanner ilə skan edilib

17. Nümunədəki feilin təsriflənməyən forması ilə bağlı ***səhv*** fikri müəyyən edin.
Aldada bilməmiş dünyanın varı
Bir məslək eşqilə yaşayanları. (S. Vurğun)
A) İsimləşib.
B) Düzəltmədir.
C) Hər iki misrada feili sifət işlənmişdir.
D) Tamamlıq vəzifəsində işlənib.
E) Tərkib əmələ gətirib.

18. Feili sifətlərdə feilə xas əlamətləri müəyyən edin.
1. Zaman məzmunu bildirir.
2. Əşyanın əlamətini bildirir.
3. *Necə? nə cür? hansı?* suallarına cavab verir.
4. Qrammatik məna növlərində olur.
5. Təsdiq və inkarda olur.
6. Cümlədə təyin vəzifəsində işlənir.
A) 1, 4, 5 B) 2, 3, 6 C) 1, 2, 4
D) 3, 5, 6 E) 4, 5, 6

19. Feili sifətlərdə sifətə xas əlamətləri müəyyən edin.
1. Növ bildirir.
2. Aid olduğu ismin əvvəlində gəlir.
3. *Necə? nə cür? hansı?* suallarına cavab olur.
4. İsimləşə bilir.
5. Zaman məzmunlu olur.
A) 3, 4, 5 B) 2, 4, 5 C) 1, 2, 4
D) 1, 3, 5 E) 2, 3, 4

20. Feili sifətin sifətlə ortaq əlamətlərinə aid ***deyildir***:
A) Cümlədə, əsasən, təyin vəzifəsində işlənir.
B) Əşyanın əlamətini bildirir.
C) Tərkib əmələ gətirir.
D) Aid olduğu ismin əvvəlində işlənir.
E) Mübtəda, tamamlıq vəzifəsində işlənə bilir.

21. Hansı cümlədə feili sifət hallanmışdır?
A) Bu bayramda bütün küsülüləri barışdırdıq.
B) Hamı onun təzə yazdığı kitabdan danışır.
C) Çoxlu görüləsi işlərimiz vardır.
D) Bildiklərimin hamısını ona ətraflı danışdım.
E) Bu güllər tez açılandır.

22. Feili sifətlə feildən düzələn sifətin ortaq cəhətləri kimi götürülə ***bilməz***:
A) Həm feilin, həm də sifətin xüsusiyyətlərini daşıyır.
B) Aid olduğu isimdən əvvəl gəlir.
C) Əlamət bildirir.
D) Cümlədə, əsasən, [illegible]

24. Hansı cümlədə feili sifət tamamlıq vəzifəsində işlənib?
A) Söylədikləri maraqlı idi.
B) Həyatın yazılmamış qanunları var.
C) Dahilərin dedikləri nəticə çıxarmaq üçündür.
D) Yatmışları razı deyiləm kimsə oyatsın. (M.Ə. Sabir)
E) Yaranmış vəziyyətdən hamı narahat idi.

25. Hansı cümlədə feili sifət tamamlıq vəzifəsində işlənib?
A) Bilmədiyin sözü heç vaxt dilinə gətirmə.
B) Sənə edilən yaxşılıqları unutma.
C) Vətən onu qoruyan, ona xidmət edənlərindir.
D) Deyilənə inanma, gördüyünə inan.
E) Yazdıqların inkaredilməz həqiqətdir.

26. "*Görəsən, camaatın nəzərlərinin dikildiyi yerlərdə nələr baş verir?*" cümləsindəki feili sifətə aid fikirlərdən biri ***səhvdir***:
A) Mənsubiyyətlə işlənən -dıq[4] şəkilçisi ilə düzəlmişdir.
B) Təsdiqdədir.
C) Keçmiş zaman mənalıdır.
D) Məchul növdədir.
E) Tərkib əmələ gətirmişdir.

27. Nümunədəki feili sifətə aid fikirlərdən biri ***səhvdir***
Arının qəhrin çəkməyən
Balın qədrini nə bilər? ("Koroğlu" dastanından)
A) İnkardadır.
B) Gələcək zaman mənalı feili sifətdir.
C) -an[2] şəkilçisi ilə düzəlmişdir.
D) Məlum növdədir.
E) Tərkib əmələ gətirmişdir.

28. Nümunələrdən birində feili sifət zərflik vəzifəsindədir:
A) Mənzilə çatan oğlan müəllimini anasına təqdim etdi.
B) Əldən qalan əlli il qalar.
C) Sürünmək üçün yarananlar uça bilməzlər.
D) Bayrağa and içən əsgər andını doğrultmuşdu.
E) Həcər xanımı həyət-bacada çalışan gördüm.

29. Nümunələrdən birində feili sifət zərflik vəzifəsindədir:
A) Firudini qapıda dayanan gördüm.

Camscanner ilə skan edilib

12. Altından xətt çəkilmiş sözlər nitq hissəsi baxımından nədir?
Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qap-bacanı döyəndə,
Qurd keçinin şəngülüsün yeyəndə,
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb, ondan sonra solaydım. (M. Şəhriyar)
A) feili sifət B) zaman zərfi
C) tərzi-hərəkət zərfi D) feili bağlama
E) yerlik halda olan isim

13. Altından xətt çəkilmiş sözlər nitq hissəsi baxımından nədir?
Alçaq yerdən duman qalxar
Dağı dolana-dolana.
Göy üzünü bulud alar
Mahı dolana-dolana. (Qurbani)
A) isim B) zərf C) sifət
D) feili sifət E) feili bağlama

14. "*Vaqif məktəbə çatar-çatmaz zəng çalındı*" cümləsində altından xətt çəkilmiş söz nitq hissəsi baxımından nədir?
A) zərf B) feli sifət C) məsdər
D) təsriflənən feil E) feli bağlama

15. Hansı cümlədə birləşmənin tərkibindəki feili bağlama hərəkətin icra tərzini ***bildirmir***?
A) Əsirdi durmadan birbaşa yellər,
Döyürdü bağrını dağ-daşa sellər. (S. Vurğun)
B) Gücsüzük, bir heçik sən də, mən də tək,
Vətənə güvənib olduq Vətəndaş. (B. Vahabzadə)
C) Bu torpaqda dərindən kök salaraq
Hər tərəfə uzatmışam qolumu. (R. Rza)
D) Telli isə ona fikir vermədən
Pək maraqlı bir hekayə oxuyur. (M. Müşfiq)
E) Üzün şəfəqlənir mən ah çəkincə,
Çünki od qızarır rüzgar əsincə. (M. Müşfiq)

16. Hansı cümlədə feili bağlama işlənmişdir?
A) Yaman yeyənin olsun, yaman deyənin olmasın.
B) Yola çıxan adamın ardınca su atıblar ki, yolu uğurlu olsun.
C) Böyüdükcə həyatın mənasını daha yaxşı başa düşürsən.
D) Sözünün üstündə durmamaq yalan danışmağa bərabərdir.
E) Gördüyün yuxunu suya danış ki, xeyir tapasan.

17. Hansı cümlədə *-ıb*^{4} feili bağlama şəkilçisi ***deyil***?
A) Həkim xəstəni müayinə edib resept yazdı.
B) Rövşən məktubu çıxarıb Zaura göstərdi.
C) O, işlərini qurtarıb yavaş-yavaş qapıya tərəf getdi.
D) Gülnar lövhəni təmizləyib yerinə keçdi.
E) Bu əşyalar çox köhnəlib, atılmalıdır.

18. Hansı cümlədə *-ıb*^{4} feili bağlama şəkilçisi ***deyil***?
A) O bəzənib toya getdi.
B) O, kürsüyə yaxınlaşıb sözə başladı.
C) Nadir qaçıb evdən uzaqlaşdı və gözdən itdi.
D) O, evə bizdən bir az əvvəl gəlib və yatıb.
E) O, atasından utanıb gizləndi.

19. Cümlələrin birində "*-ıb*" feili bağlama şəkilçisi kimi ***işlənməmişdir***:
A) Bu dağlardan mərd də keçib, namərd də.
B) Həyatın çətinliklərinə dözüb nəyəsə nail olduqda özünü çox xoşbəxt sanırsan.
C) Qardaşım ali məktəbi bitirib əsgərliyə getdi.
D) Dönüb geri baxanda gördü ki, bir dəstə atlı ildırım kimi gəlir.
E) Nahardan sonra uzanıb bir qədər dincəldilər.

20. "*Sizin sənədlərə baxılanda mən orada olmamışam*" cümləsindəki altından xətt çəkilmiş sözün morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyən edin.
A) Feili bağlamadır. B) Zaman mənası bildirir.
C) Şəxssiz növdədir. D) Məlum növdədir.
E) Quruluşca düzəltmədir.

21. Cümlələrdən birində feili bağlama işlənmişdir:
A) Əsl qüvvət söylənəcək fikirdədir.
B) Atəş kəsiləndə hər tərəfə qaranlıq çökdü.
C) Oğlu gələndən sonra Məsmə xalanın sevinci yerə-göyə sığmırdı.
D) Heç gözləmədiyi halda uşaq dərhal cavab verdi.
E) Bu söhbət saçları ağappaq ağarmış Səkinə anam kövrəltdi.

22. Cümlələrin birində feili bağlama ***işlənməmişdir***:
A) Nənə səliqə ilə doğranmış çörəyi süfrəyə gətirdi.
B) Yağış kəsilməyincə mağaradan çıxmadıq.
C) Buludlar çəkilər-çəkilməz dağı boz duman bürüdü.
D) O, ətrafa baxa-baxa yola çıxdı.
E) Evə yaxınlaşanda nəbzi daha həyəcanla vurmağa başladı.

23. Feili bağlama işlənmiş cümlələri müəyyən edin.
1. Yaxşı oxuyanlar uğur qazanır.
2. Düşündükcə beyni dumanlanırdı.
3. Qürbətdə xan olunca,
Vətənində dilən gəz.
4. Ayrılanda gözləri doldu.
5. Közərən ocaq gözətçinin yaxında olduğundan xəbər verirdi.
A) 1, 5 B) 3, 4, 5 C) 2, 3, 4
D) 2, 3, 5 E) 1, 2

24. Feili bağlamaya aid fikirlərdən biri ***səhvdir***:
A) Əsasən zərflik və feili xəbər olur.
B) Hərəkətin tərzini, zamanını bildirir.
C) Bütün növlərdə işlənə bilir.
D) Hərəkətin səbəbini bildirir.
E) Təsdiq və inkarda olur.

Camscanner ilə skan edilib

25. Feili bağlamaya aid fikirlərdən biri ***səhvdir***:
A) Cümlənin zərfliyi olur.
B) Feilin və zərfin xüsusiyyətlərinə malikdir.
C) Feili birləşmə əmələ gətirir.
D) Qoşmalarla işlənə bilir.
E) Feilin müəyyən qrammatik məna növündə işlənə bilir.

26. Hansı cümlədə feili bağlama ***yoxdur***?
A) O, Tahirin qolundan tutub ustanın yanına apardı.
B) Cəmil kəndə gedib, o, axşam qayıdacaq.
C) Mən də uşaqlara qoşulub ayağa qalxdım.
D) Uşaq yaş otların üstündə sürüşüb yıxıldı.
E) Onun xəstələndiyini eşidib çox narahat oldum.

27. Feili bağlamaya aid fikirlərdən biri ***səhvdir***:
A) Felin müəyyən qrammatik məna növündə olur.
B) Təsdiq və inkarda olur.
C) Hərəkətin tərzini, səbəbini, zamanını bildirir.
D) Bəzən cümlənin mübtədası və tamamlığı olur.
E) Zərfin müəyyən xüsusiyyətlərini daşıyır.

28. Feili bağlamaya aid fikirlərdən biri ***səhvdir***:
A) Təsriflənən feillər kimi təsdiq və inkarda olur.
B) Hərəkətin tərzini, səbəbini, məqsədini, bəzən də yerini və kəmiyyətini bildirir.
C) Tərkib əmələ gətirdiyi sözlərlə birlikdə cümlənin bir üzvü olur.
D) Zərflik vəzifəsində çıxış edir.
E) Felin müəyyən qrammatik məna növündə olur.

29. Hansı cümlədə feili bağlama ***yoxdur***?
A) Onlar qabaq-qabağa əyləşmişdilər.
B) Oğlundan məktub almayan ana yollara baxa-baxa qalmışdır.
C) Gəzə-gəzə dolaşırdı o, vətən çöllərində.
D) Bilə-bilə danışmadı, susdu bir an qəhrəman.
E) Sevə-sevə danışırdı vətən gözəlliyindən.

30. Hansı cümlədə feili bağlama ***yoxdur***?
A) Oynaya-oynaya məclisə girdi.
B) Arabanı qoşa-qoşa mahnı oxuyurdu.
C) Onun üzünə baxa-baxa qalmışdı.
D) Dama-dama göl olar.
E) Uşaqlar qoşa-qoşa oturmuşdular.

31. Hansı cümlədə feili bağlama ***yoxdur***?
A) O danışdıqca rahatlaşırdı.
B) Uşaqlar gülə-gülə oyunlarını davam etdirdilər.
C) Aslan gedərkən qardaşını da özü ilə apardı.
D) İbrahim üzə-üzə o biri sahilə çatdı.
E) Qoşunlar təmas xəttində üz-üzə dayandılar.

32. Hansı cümlədə feili bağlama tərzi-hərəkət zərfliyi vəzifəsində işlənmişdir?
A) Biz kəndə çatanda Xədicə ilə qarşılaşdıq.
B) Ev sahibi sevinə-sevinə bizi otağa dəvət etdi.
C) Səttarxan Təbrizə gələndən sonra heç yana çıxmamışdı.
D) Çox bilib az danışmaq müdriklərə xasdır.
E) Qaranlıq düşdükcə külək güclənirdi.

33. Verilən tələblərin hamısına uyğun gələn sözü müəyyən edin.
•*Feili bağlamadır.*
•*Məchul növdədir.*
•*Tərz mənası bildirir.*
A) utana-utana
B) dağıla-dağıla
C) döyünə-döyünə
D) döyülə-döyülə
E) danışa-danışa

34. Verilən tələblərin hamısına uyğun gələn sözü müəyyən edin.
•Feili bağlamadır.
•Məchul növdədir.
•Tərz mənası bildirir.
A) tanına-tanına
B) sevinə-sevinə
C) deyinə-deyinə
D) yazdıra-yazdıra
E) boylana-boylana

35. Verilmiş xüsusiyyətlərə uyğun cavabı müəyyən edin.
1. Tərkib əmələ gətirir.
2. Yalnız bir cümlə üzvü yerində çıxış edir.
3. Hərəkəti müxtəlif cəhətdən izah edir.
A) məsdərə B) sifətə C) feili sifətə
D) feili bağlamaya E) ismə

36. Sual işarəsinin yerinə yazıla bilən söz hansı cümlədə işlənib?



A) Hamı sevincək dayanmışdı.
B) Ana çırağı yandırıb evi işıqlandırdı.
C) Bahar yaxınlaşdıqca təbiət canlanır.
D) Həyəcanı sözə başlayana kimi çəkirdi.
E) Uşaqlar bizi dinləmədən öz planlarını açıqladılar.

Camscanner ilə skan edilib

37. Sual işarəsinin yerinə yazıla bilən söz hansı cümlədə işlənib?



A) Uşaq küncə sıxılıb ağlayırdı.
B) Hava işıqlananda biz yatağımızdan qalxdıq.
C) Müəllim içəri girincə uşaqlar ayağa qalxdılar.
D) Bu gün dayanmadan qar yağır.
E) Fazil dünən bizə gəlmişdi.

38. Hansı cümlələrdə feili bağlama tərkibi işlənmişdir?
1. Göydə ulduz dənə-dənə,
Saydım onu dönə-dönə. (N. Kəsəmənli)
2. Məhkəmə bitəndən sonra qərar icra ediləcək.
3. İnsanda inam yaratdıqda ağır xəstəliyi belə müalicə etmək mümkündür.
4. Həyat tərzi dəyişdikcə insanın dəqiq vaxt ölçülərinə tələbatı artır.
5. Hava qaralmamış aşırımdan keçməliyik.

39. Aşağıdakı cümlədə işlənmiş təsriflənməyən feillə bağlı ***səhvləri*** müəyyənləşdirin.
"Qoy bu məktubu yazdırmadan evə getməsin".
1. Quruluşuna görə düzəltmədir.
2. Əsas feili şərt baxımından izah edən feili bağlamadır.
3. Feili sifətdir.
4. Məlum növdədir.
5. Tərkib yaratmışdır.
6. Vacib şəklindədir.

40. Aşağıdakı cümlədə işlənmiş təsriflənməyən feillə bağlı ***səhvləri*** müəyyənləşdirin.
"Ağsaqqal sözünü dinləmədən işə başlama".
1. Əsas feili şərt baxımından izah edən feili bağlamadır.
2. Quruluşuna görə düzəltmədir.
3. Feili sifətdir.
4. Məlum növdədir.
5. Vacib şəklindədir.
6. Tərkib yaratmışdır.

41. Cümlədə işlənən feili bağlamaya aid düzgün fikirləri seçin.
Belələrinə diqqətlə yanaşılanda sevinirəm.
1. Quruluşuna görə düzəltmədir.
2. Əsas hərəkətin zamanını bildirir.
3. Şəxssiz növdədir.
4. Sözün kökü "yanaş"(maq) feilidir.
5. Tərkib yaratmamışdır.
6. Kök, 3 leksik, 1 qrammatik şəkilçi sxeminə uyğundur.

42. Cümlədə işlənən feili bağlamaya aid ***səhv*** fikirləri seçin.
Belələrinə diqqətlə yanaşılanda sevinirəm.
1. Quruluşuna görə düzəltmədir.
2. Əsas hərəkətin zamanını bildirir.
3. Qayıdış növdədir.
4. Sözün kökü "yanaş"(maq) feilidir.
5. Tərkib yaratmışdır.
6. Kök, 3 leksik, 1 qrammatik şəkilçi sxeminə uyğundur.

Feilin təsriflənməyən formaları (ümumi məsələlər)

1. *"Hava get-gedə saflaşanda sürü cığırda göründü"* cümləsindəki təsriflənməyən feilin morfoloji xüsusiyyətləri ilə bağlı ***səhvi*** müəyyənləşdirin.
A) Təsdiqdədir.
B) Qarşılıq-birgəlik növdədir.
C) Sifətdən düzəlmiş feildir.
D) *-anda* feili bağlama şəkilçisidir.
E) Hərəkətin zamanını bildirir.

2. Feilin təsriflənməyən formalarına aid nümunələr verilmiş cərgəni müəyyən edin.
A) yazdır, baxır, yazsan, dinləyir
B) sevmək, yazılasıyam, bildi, gələr
C) bax, gördü, sevər, yazdın
D) yazıram, bölün, alqışlayıram, fərəhlənir
E) oxumaq, yazanda, yazılan, alınmaq

3. *-malı*^{2} omonim şəkilçi kimi aşağıdakılardan hansıların yaranmasında iştirak edir?
A) feilin vacib şəkli və feili sifətin
B) feilin lazım və şərt şəkillərinin
C) feilin vacib şəkli və feili bağlamanın
D) feili sifət və feili bağlamanın
E) feilin lazım şəkli və feili sifətin

4. *-ası*^{2} omonim şəkilçi kimi aşağıdakılardan hansıların yaranmasında iştirak edir?
A) feilin lazım və şərt şəkillərinin
B) feilin lazım şəkli və feili sifətin
C) feilin vacib şəkli və feili sifətin
D) feili sifət və feili bağlamanın
E) feilin vacib şəkli və feili bağlamanın

CamScanner ile skan edilib

5. Təsriflənməyən feillərin işlənmə ardıcıllığını müəyyən edin.
• feili sifət
• feili bağlama
• məsdər
1. Əcnəbi turistlər Şəkidə görməli yerləri gəzdilər.
2. Baxdıqca dağlara, dərələrə mən,
Qəribə fikirlər başıma gəlir. (M. Araz)
3. Nə gözəl yaraşır insana gülmək. (M. Müşfiq)
A) 1, 2, 3 B) 2, 3, 1 C) 1, 3, 2
D) 3, 2, 1 E) 2, 1, 3

6. Təsriflənməyən feillərin işlənmə ardıcıllığını müəyyən edin.
• feili sifət
• feili bağlama
• məsdər
1. Sən olan dünyaya qurban olaram. (N. Həsənzadə)
2. Bəzi insanların eybi danışdıqca üzə çıxır.
3. Sən bütün dünyaya dəyərsən, inan,
Dünya yaşamağa dəyər, nə yaxşı! (N. Həsənzadə)
A) 2, 3, 1 B) 1, 3, 2 C) 2, 1, 3
D) 1, 2, 3 E) 3, 2, 1

7. Ardıcıllığı müəyyən edin.
- feili sifət
- feili bağlama
- məsdər
1. Zalımlar olan qəsrə gör neyləyəcək dövran.
(Ə. Xaqani)
2. Qaranqu axşam olanda qayğılı çoban. ("Kitabi-Dədə Qorqud")
3. Yaşamaq yanmaqdır, yanasan gərək ...
(B. Vahabzadə)
A) 2, 3, 1 B) 1, 3, 2 C) 1, 2, 3
D) 3, 2, 1 E) 2, 1, 3

8. Ardıcıllığı müəyyən edin.
- məsdər
- feili bağlama
- feili sifət
1. Hər mərəz çarəsini eyləmək asandı, təbib,
Mərəzi-eşqə nə tədbir, nə fərmanın var?
(S.Ə. Şirvani)
2. Qadir Tanrı verməyincə ər bayımaz. (Dədə Qorqud)
3. Hanı məni gül qoynunda doğuran? (A. İldırım)
A) 3, 2, 1 B) 1, 3, 2 C) 2, 3, 1
D) 1, 2, 3 E) 2, 1, 3

9. Hansı xüsusiyyət feilin təsriflənməyən formalarının üçünə də aiddir?
A) iki nitq hissəsinin əlamətlərini daşımaq
B) cümlənin baş üzvləri vəzifəsində işlənə bilmək
C) zaman anlayışı bildirmək
D) cümlənin ismi xəbəri vəzifəsində işlənə bilmək
E) hallanmaq və mənsubiyyətə görə dəyişmək

10. "*Sizin sənədlərə baxılanda mən orada olmamışam*" cümləsində təsriflənməyən feillə bağlı ***səhvi*** müəyyən edin.
A) Feili bağlamadır.
B) Sözdə bir leksik, iki qrammatik şəkilçi var.
C) Təsdiqdədir.
D) Şəxssiz növdədir.
E) Quruluşca düzəltmədir.

11. "*Tikiləcək paltarın ölçüsü hələ götürülməmişdi*" cümləsində təsriflənməyən feilin izahındakı ***səhvi*** müəyyən edin.
A) İki leksik şəkilçi ilə işlənmişdir.
B) Düzəltmə feildir.
C) Məchul növdədir.
D) Feili sifətdir.
E) Təsdiqdədir.

12. Feilin təsriflənməyən formalarına əsasən ardıcıllığı müəyyən edin.
• feili sifət
• feili bağlama
• məsdər
1. Bu dünya nərdivandır, qalxanda mehribandır.
(N. Həsənzadə)
2. Dedi: "Ay axmaq, çığırmaqla əlimdən olmaz qurtarmaq!"
(Ə. Əlibəyli)
3. Nərgiz gələn qonaqları mehribanlıqla qarşıladı.
A) 3, 1, 2 B) 1, 3, 2 C) 2, 1, 3
D) 1, 2, 3 E) 3, 2, 1

13. Cümlələrin birində feil həm təsriflənən, həm təsriflənməyən kimi düşünülə bilər: (Durğu işarələri buraxılmışdır.)
A) O almanı budaqdan üzməlidir.
B) O kəndə gedəsidir.
C) O alma yeməlidir.
D) Bu qablar masaya düzülməlidir.
E) Bu yeni yolla kəndə gedəsidir.

14. Feilin təsriflənməyən formaları ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Müxtəlif cümlə üzvləri ola bilər.
2. Feilin bütün şəkillərinin üzərinə *–maq*^{2} şəkilçisi artırmaqla məsdər yaratmaq olar.
3. Feili birləşmələrin əsas və asılı tərəfi kimi çıxış edir.
4. Feilin təsriflənməyən formalarının şəkilçiləri omonim ola bilmir.
5. Feili bağlama cümlədə tərzi-hərəkət, zaman və səbəb zərfliyi ola bilir.
A) 1, 3, 4 B) 2, 4, 5 C) 2, 3, 5
D) 1, 2, 4 E) 1, 3, 5

Camscanner ilə skan edilib

15. Nümunədə işlənmiş feillərin təhlilindəki ***səhvi*** müəyyən edin.
Usta Zeynal bunu eşitdikdə dəzgahın dalından qalxıb, orada dayanan Mirzənin boynunu qucaqlayıb üzündən öpdü.
A) Feili bağlamalardan biri başqa feili bağlamadan asılıdır.
B) Feilin təsriflənməyən 2 formasından istifadə edilib.
C) Təsriflənməyən feillərin hamısı eyni quruluşdadır.
D) *Qucaqlayıb* və *qalxıb* sözlərindəki qrammatik şəkilçi yerinə görə omonim şəkilçi ola bilər.
E) Feili bağlamalar zaman və tərz bildirir.

16. Təsriflənməyən feillərin üçünə də aid olan ortaq cəhətlər sırasında verilə ***bilməz***:
1. Hər üçü söz birləşmələrində həm əsas, həm də asılı tərəf kimi iştirak edə bilir.
2. Qoşmalarla işlənərək zərflik ola bilir.
3. Üçü də cümlənin tamamlığı ola bilir.
4. İsmin yerində işlənə bilir.
5. Feilin qrammatik məna növlərinə görə dəyişə bilir.
6. İki nitq hissəsinin xüsusiyyətlərini daşıyır.

A) 1, 3, 4 B) 1, 3, 5 C) 1, 4, 6
D) 2, 3, 4 E) 2, 5, 6

17. Feilin təsriflənməyən formalarının heç birinə aid ***deyil***:
1. Şəxsə və kəmiyyətə görə dəyişməsi
2. Cümlədə feili xəbər kimi işlənməsi
3. Ətrafına söz toplayaraq tərkib əmələ gətirməsi
4. İnkar formasının həm şəkilçi, həm sözlə yarana bilməsi
5. Feilin qrammatik məna növlərində olması

18. Feilin təsriflənməyən formalarının hamısına aiddir:
1. Təsdiq və inkar olması
2. Zamana və şəxsə görə dəyişməsi
3. Tərkib əmələ gətirərək cümlə üzvü olması
4. Mənsubiyyətə görə dəyişməsi
5. Feilin qrammatik məna növlərində olması

19. Nümunədəki feilin təsriflənməyən formalarına aid olan sözlər haqqında doğru fikirləri müəyyən edin.
İşləməkdən yorulan adamlar evə qayıdanda dincəlmək üçün çinar ağacının altında oturardılar.
1. Feilin təsriflənməyən formalarının hər üçünə aid nümunə var.
2. Bütün təsriflənməyən formalar məlum növdədir.
3. "*İşləməkdən*" məsdəri feili sifət tərkibinin asılı tərəfi kimi çıxış edir.
4. Feili bağlama əsas hərəkətin zamanını bildirir.
5. Cümlədə işlənən məsdərlər tərkib yaratmışdır.
6. Təsriflənməyən formaların hamısı quruluşca düzəltmədir.

20. Nümunədə feilin təsriflənməyən formalarına aid olan sözlər haqqında ***səhv*** fikirləri müəyyən edin.
İşləməkdən yorulan adamlar evə qayıdanda dincəlmək üçün çinar ağacının altında oturardılar.
1. Feilin hər üç təsriflənməyən növünə aid nümunə var.
2. Bütün təsriflənməyən formalar məlum növdədir.
3. "İşləməkdən" məsdəri feili sifətin asılı tərəfi kimi çıxış edir.
4. Feili bağlama əsas hərəkətin zamanını bildirir.
5. Cümlədə işlənən məsdərlər tərkib yaratmışdır.
6. Təsriflənməyən formaların hamısı quruluşca düzəltmədir.

21. Cümlələrdəki təsriflənməyən feillər haqqında düzgün fikirləri müəyyən edin.
Hər şeylə təchiz edilmiş işçilər tikinti sahibi ilə söhbətləşərək sabah yeni iş yerində toplaşmağı qərara aldılar. Stula söykənən tikinti sahibi isə tikdirəcəyi bina üçün istifadə ediləsi materialların adını sadalayırdı.
1. Məsdər mənsubiyyətə görə dəyişib.
2. Quruluşca növlərinə görə sadə və mürəkkəbdir.
3. Bütün formalarına aid nümunə var.
4. Feili sifətin zamana görə hər növünə aid nümunə var.
5. Bütün formalar ismin xüsusiyyətini daşıyır.

22. Qayıdış növdə olan təsriflənməyən feilin işləndiyi cümlələri müəyyən edin.
1. Bu sözlərdən ruhlanan gənc meydana atıldı.
2. Uzaqdan sahilin göründüyünü dedilər, dənizçilər sevindilər.
3. Göyün üzündəki buludlar çəkildi, günəşin şüaları yenə hər tərəfi oxşadı.
4. Çiçəklər açıldıqca çəmənlik bəzəkli xalçanı xatırladırdı.
5. Ağır işdə çalışan Səməd yorulduqda həmişə bu ağacın kölgəsində dincələrdi.

23. Qayıdış növdə olan təsriflənməyən feilin işləndiyi cümlələri müəyyən edin.
1. Bağ-bağça sulandıqca ətraf yaşıllığa bürünürdü.
2. Əyninə boz palto geyinən Fərhad indi daha ciddi görünürdü.
3. Ətrafı yorğan kimi bürüyən duman çəkildikcə dağ öz əzəməti ilə baxanları valeh edirdi.
4. Bu ehtiramdan həvəslənən mühəndis layihəsini tez bitirdi.
5. Həyəcandan tutulan Səməd bir qədər sonra sözünə davam etdi.

24. Uyğunluğu müəyyən edin.
1. feili sifət tərkibli cümlə
2. feili bağlama tərkibli cümlə
3. məsdər tərkibli cümlə

a. Dünəndən bəri fikirləşdiklərim mənə rahatlıq vermirdi.
b. Çıxış edənlər çox həyəcanlı idilər.
c. Dolaşıq yollar uzandıqca səbrimiz tükənir, taqətdən düşürdük.
d. İnsanlara yaxşılıq etmək hər kəsin mənəvi borcudur.
e. Qonşumuz küsəyən Aysel rəfiqəsinin bu sözündən də incidi.

25. Uyğunluğu müəyyən edin.
1. Tamamlıq feili sifətlə ifadə olunub.
2. Hərəkətin səbəbini bildirən feili bağlama işlənib.
3. Tamamlıq məsdərlə ifadə olunub.

a. Qorxub yaxınlıqdakı ilk ağaca dırmaşdı.
b. Keçənə güzəşt deyərlər.
c. Suala fikirləşmədən cavab verən uğur qazanmaz.
d. Oxumağa bizim ölkədə həmişə dəyər verilib.
e. Dostlar gün çıxar-çıxmaz dənizə çimməyə getdilər.

26. Uyğunluğu müəyyən edin.
1. Məsdərə aid olmayan əlamət var.
2. Feili sifətə aid olmayan əlamət var.

a. Mixi yazıları ilk dəfə oxumaq alman aliminə nəsib olmuşdur.
b. Tələbələrin oxumaqlarına icazə verildi.
c. Məmməd Qumrunu darvazaya söykənmiş gördü, yaxın gəldi.
d. Əsgərlərimiz sərhədlərimizi qorumaq kimi vəzifənin öhdəsindən ləyaqətlə gəlirlər.
e. Öyrənmək heç zaman gec deyil.

27. Uyğunluğu göstərin.
1. məsdər
2. feili sifət
3. feili bağlama

a. Zakirtək yanmağa eşq atəşinə
Cürəti var isə, pərvanə gəlsin. (Q. Zakir)
b. Gül camalın görüb düşsün torpağa. (Q. Zakir)
c. Saymasan, el özü unudar səni. (N. Həsənzadə)
d. Xudaya, insanın halı yamandır,
Nələr çəkdiyimiz sənə əyandır. (S. Vurğun)
e. Yalvarma, yalvarma o cəllada sən,
Hələ baş əyməmiş bu böyük vətən. (S. Vurğun)

28. Uyğunluğu müəyyən edin.
1. məsdər
2. feili sifət
3. feili bağlama

a. Yenə qılıncını çəkdi üstümə
Qurbanı olduğum o ala gözlər. (S.Vurğun)
b. Yaxşılar yamana can versələr də,
Yamanlar yaxşını danıb həmişə. (B.Vahabzadə)
c. Qadir Tanrı verməyincə ər bayımaz. (Dədə Qorqud)
d. Xəstə Qasım cananına can deyə. (Xəstə Qasım)
e. Bu böyük fatehin sərgüzəştindən
Bir vərəq yazmaqla bitirərdim mən. (Nizami)

29. Uyğunluğu müəyyən edin.
1. məsdər
2. feili sifət
3. feili bağlama

a. Üzündə gördüyüm nə intizardır?
Qəlbində Vaqifin sirrimi vardır? (S. Vurğun)
b. Hər gecə biliyə qapı açmadan,
Başımı yastığa qoymadım bir an. (N. Gəncəvi)
c. Yenə yada düşdü bizim sənəmlər.
Getməyin binası, hayıf ki, yoxdur! (M.P. Vaqif)
d. Əsrlər boyunca vuruşduq, ancaq
Sarsıda bilmədik hökmünü bir gün.
(B. Vahabzadə)
e. Bağlı qapıların odur açarı,
Onun adı aşmış hər bir hasarı. (N. Gəncəvi)

30. Nümunədə təsriflənməyən feildəki şəkilçilərin ardıcıllığını müəyyən edin.
Tikinti işləri planlaşdırılarkən yerin strukturu nəzərə alınmayıb.
1. isimdən feil düzəldən şəkilçi
2. feili bağlama şəkilçisi
3. məchul növ şəkilçisi
4. feildən feil yaradan şəkilçi

31. Nümunədə təsriflənməyən feildəki şəkilçilərin ardıcıllığını müəyyən edin.
Lövhə işıqlandırıldıqca hər şey aydın seçilirdi.
1. isimdən feil düzəldən
2. feili bağlama
3. məchul növ
4. feildən feil yaradan

Camscanner ilə skan edilib

32. Nöqtələrin yerinə artırılacaq "*geyin(mək)*" feilinin verilənlərə görə işlənmə ardıcıllığını müəyyən edin.
- *Hər gün səliqə ilə ... uşağı görəndə çox sevinirdi.*
- *Fərid paltosunu ... üçün qapıdakı asılqana tərəf yönəldi.*
- *Baba ayaqqabısını ... tələsik balkona çıxdı.*
- *Qonaqlar ... biz də ayağa qalxmışdıq.*

1. feili sifət tərkibi
2. hərəkətin tərzini bildirən feili bağlama tərkibi
3. məsdər tərkibi
4. hərəkətin zamanını bildirən feili bağlama tərkibi

33. Nöqtələrin yerinə artırılacaq "*deyil(mək)*" feilinin verilənlərə görə işlənmə ardıcıllığını müəyyən edin.
- *Atalar tərəfindən ... söz əsrlərdən yadigardır.*
- *Qızım, söz ... diqqətlə qulaq as.*
- *Bu barədə təkrar-təkrar ... uşağı yormuşdu.*
- *Təkliflərlə bağlı fikirlər ... veriliş davam etdirildi.*

1. feili sifət tərkibi
2. hərəkətin tərzini bildirən feili bağlama tərkibi
3. məsdər tərkibi
4. hərəkətin zamanını bildirən feili bağlama tərkibi

34. Təsriflənməyən feillərin qrammatik məna növlərinə görə işlənmə ardıcıllığını müəyyənləşdirin.

1. məchul növ
2. qayıdış növ
3. məlum növ
4. icbar növ

- *Qürbət görməyəndə vətənin qədri bilinməz.*
- *Məhsul yığımı zamanı ağacı kəsdirmək günah sayılır.*
- *Döyüşə atılan əsgərlərimiz düşməni məhv etdilər.*
- *Məktub yazılaraq sahibinə çatdırıldı.*

35. Təsriflənməyən feillərin qrammatik məna növlərinə görə işlənmə ardıcıllığını müəyyən edin.
- *Vətənini sevməyən adam sevilməz.*
- *Qoca məktubu oxutmaq üçün nəvəsini səslədi.*
- *Tutulan hava yağışdan xəbər verirdi.*
- *Quyu qazılaraq təhvil alındı.*

1. məchul növ
2. qayıdış növ
3. məlum növ
4. icbar növ

36. Nöqtələrin yerinə artırılacaq "*bilmək*" feilinin verilənlərə əsasən işlənmə ardıcıllığını müəyyənləşdirin.
- *Onu sürgünə aparanda fürsət tapıb yoldaşına məktub yaza ... .*
- *Riyaziyyat fənnini yaxşı ... onun üzünə hər yerdə qapıları açdı.*
- *Çox ... adamı danışığından sezmək olar.*
- *O, əhvalatın məğzini ... çox narahat oldu.*

1. mürəkkəb feilin bir hissəsi
2. feili sifət
3. feili bağlama
4. məsdər

37. Nöqtələrin yerinə artırılacaq "*qayıtmaq*" feilinin verilənlərə əsasən işlənmə ardıcıllığını müəyyən edin.
- *Qoca şair neçə illərdən sonra doğma elinə ... bildi.*
- *O, yenidən kəndə ... fikrindədir.*
- *Vətənə xidmətdən ... övladlarını görəndə çox sevindi.*
- *O, müəssisəyə ... işdən çıxarıldığını bildi.*

1. mürəkkəb feilin bir hissəsi
2. feili sifət
3. feili bağlama
4. məsdər

38. Nöqtələrin yerinə artırılacaq "*açmaq*" feilinin verilənlərə əsasən işlənmə ardıcıllığını müəyyənləşdirin.
- *O, hər dəfə qapını ... həyətə boylanırdı.*
- *Pəncərəni ... qızı tanıyıram.*
- *Qapını ... heç ağlına gəlmədi.*
- *Mən bu sözün mənasını ... bilmirəm.*

1. mürəkkəb feilin tərkib hissəsi
2. feili sifət
3. feili bağlama
4. məsdər

39. Nöqtələrin yerinə artırılacaq "*görmək*" feilinin verilənlərə əsasən işlənmə ardıcıllığını müəyyənləşdirin.
- *Uşaq anasını ... sevincindən ağladı.*
- *Anar dünən ... hadisəni heç kimə danışmadı.*
- *Bu gözəlliyi ... hər kəsə nəsib olmur.*
- *Mən onu bu dəfə yaxşı ... bilmədim.*

1. mürəkkəb feilin tərkib hissəsi
2. feili bağlama
3. feili sifət
4. məsdər

Zərf

Zərfin quruluşca növləri. Zərfin mənaca növləri. Zərflərin yazılışı

1. *"Bayaq Rüstəm kişi Şirzada çəpəki baxmışdı"* cümləsində zərfin məna növlərini müəyyən edin.
A) yer, zaman B) zaman, kəmiyyət
C) zaman, tərzi-hərəkət D) kəmiyyət, yer
E) kəmiyyət, tərzi-hərəkət

2. *"Axşam o, məlumatı diqqətlə oxudu"* cümləsində zərfin məna növlərini müəyyənləşdirin.
A) zaman, tərzi-hərəkət B) zaman, yer
C) yer, tərzi-hərəkət D) kəmiyyət, yer
E) zaman, kəmiyyət

3. Hansı söz zərf ***deyil***?
A) üzbəüz B) yanbayan C) qaçaqaç
D) dalbadal E) taybatay

4. Verilmiş cümlələrdə zərfin mənaca hansı növləri ***işlənməmişdir***?
1. Səbuhi tələsik yuxarı mərtəbəyə qalxdı.
2. Qoca güclə qapını açıb içəri girdi.
A) kəmiyyət, zaman B) tərzi-hərəkət, yer
C) kəmiyyət, yer D) yer, zaman
E) zaman, tərzi-hərəkət

5. Verilmiş cümlələrdə zərfin mənaca hansı növləri ***işlənməmişdir***?
1. Hər axşam aşağıdan gələn musiqi səsi ətrafa yayılırdı.
2. Dağın ətəyi yazda gül-çiçəyə bürünər, ora gələnləri valeh edərdi.
A) yer, zaman B) tərzi-hərəkət, yer
C) kəmiyyət, yer D) kəmiyyət, tərzi-hərəkət
E) zaman, kəmiyyət

6. Hansı cümlələrdə zərf işlənmişdir?
1. Biz dayanmadan işləyirdik.
2. Asif kişi gülə-gülə nəvəsinə baxırdı.
3. Mən şəhərə getməliyəm.
4. İş dərhal həll olunub.
5. Sən bu gün çox yorulmusan.
A) 2, 3, 4 B) 1, 5 C) 1, 3, 4
D) 2, 3, 5 E) 4, 5

7. Düzəltmə zərfləri müəyyən edin.
1. çəpəki 2. qələmlə 3. çoxdan
4. yenidən 5. aşağıda 6. hərdənbir
A) 3, 5, 6 B) 1, 2, 3 C) 2, 4, 5
D) 4, 5, 6 E) 1, 3, 4

8. Biri zərf ***deyil***:
A) birbaşa B) göz-gözə C) gəzə-gəzə
D) üzbəüz E) taybatay

9. Nöqtələrin yerinə yazıla bilən zərf hansı cümlədə işlənib?

A) Rüstəm kişi Şirzada çəpəki nəzər saldı.
B) Əhməd kişi çox çalışqan adamdır.
C) Onlar dayanmadan işləyirdilər.
D) Uşaq şeiri həvəslə söyləyirdi.
E) Bu hadisə çoxdan olmuşdu.

10. Quruluşca düzəltmə tərzi-hərəkət zərfi hansı cümlədə işlənmişdir?
A) Getdikcə taqətdən düşür, sözlərini güclə deyə bilirdi.
B) Cahandar xanla Ziyad xan xeyli mübahisə etdilər.
C) Hər tərəf xüsusi aparatlarla yoxlanılırdı.
D) Dostlar telefonla əlaqə saxlayırdılar.
E) Nənəm kənddə tək yaşayır.

11. Cümlədə zərfin mənaca növlərindən hansına aid nümunə ***yoxdur***?
İrəli çıxıb, bir qədər susdu və heyrətdən donmuş bu adamları qəzəblə süzdü.
1. tərzi-hərəkət zərfinə
2. yer zərfinə
3. kəmiyyət zərfinə
4. zaman zərfinə
A) 1, 4 B) 2 C) 4 D) 1, 3 E) 2, 3

12. Hansı cümlədə yaxınmənalı sözlərlə yaranan zərf işlənmişdir?
A) Əvvəl-axır mən deyənə razı olacaqsan.
B) Günortalar güllü-çiçəkli bağçamızda dincəlirəm.
C) Axşam-sabah, çeşmə, sənin başına
Bilirsənmi necə canlar dolanır? (Aşıq Ələsgər)
D) O, məqsədinə çatmaq üçün gecə-gündüz çalışırdı.
E) Çiçək evdən səssiz-səmirsiz çıxdı.

13. Mürəkkəb zərflərdən ibarət nümunələrdir:
A) kənddən qayıdanda, qabaq-qabağa, üz-göz olmaq
B) sadəlövhcəsinə, xoşbəxt, qaçaqaç
C) basabas, qaça-qaça, vurhavur
D) bayramsayağı, özü də bilmədən, hiss etmədən
E) birə-beş, üzbəüz, günorta

14. Cümlələrdən birində zaman zərfi işlənmişdir:
A) Bu xəbəri Əhməd elə o gün Cahandar ağaya çatdırdı.
B) Çərkəz alışqanı yandırarkən barmaqlarının titrədiyini gördü.
C) O, qəsdən aradakı məsafəni qısaltdı.
D) Atası yay aylarında furqonla Ağsudan, Şamaxıdan yaylaqlara adam daşıyardı.
E) Araya çökən sükut xeyli çəkdi.

Camscanner ile skan edilib

15. Yer zərfi olan cümləni müəyyən edin.
A) Biz yolun yarısından geri döndük.
B) Qağayılar ləpələrin üstündə uçuşurdular.
C) Uşaqlar ağacların kölgəsində oynayırdılar.
D) Gəmi limandan aralandı.
E) Biz dəniz kənarına getdik.

16. Hansı cümlədə mürəkkəb zərf ***işlənməmişdir***?
A) Murad evdən axşamüstü çıxdı.
B) Bulağın dupduru suyu səhər-axşam dərəyə tökülürdü.
C) O, məqsədinə çatmaq üçün gecə-gündüz çalışırdı.
D) O bu əsər üzərində çox həvəslə işləyirdi.
E) Əvvəl-axır mən deyənə gələcəksən.

17. Hansı cümlədə mürəkkəb zərf ***işlənməmişdir***?
A) Səyyah dənizin içində gecə-gündüz yanan təbii ocaqlardan heyrətlə danışırdı.
B) Qəzetlər səliqəsiz, yəni alt-üst yığılmışdı.
C) Bu yerləri addım-addım gəzmək istəyirdik.
D) ...Gecə-gündüz taraz olur. (A. Səhhət)
E) O, asta-asta danışırdı.

18. ***Səhv*** yazılmış zərfləri müəyyənləşdirin.
1. tədricən 2. bayram-sayağı 3. birbaşa
4. təkbətək 5. xayincəsinə 6. sırağagün
A) 2, 5, 6 B) 3, 5 C) 1, 4, 5
D) 1, 4, 6 E) 2, 3

19. Hansı zərflərin yazılışı ***səhvdir***?
1. ara-bir 2. yanbayan 3. qəhramancasına
4. ora-bura 5. ara-sıra 6. dahiyana
7. astadan
A) 1, 3, 6 B) 3, 4, 5 C) 1, 6, 7
D) 2, 4, 7 E) 2, 3, 5

20. Hansı zərflərin yazılışı düzgündür?
1. qəflətən 2. dostyanə 3. addım-başı
4. arabir 5. birbaşa 6. üzbəüz
A) 1, 2, 4 B) 1, 4, 5, 6 C) 1, 3, 6
D) 2, 3, 5, 6 E) 2, 4, 5

21. Hansı cümlədə mürəkkəb zərf ***işlənməmişdir***?
A) Mən bu barədə az-maz danışmışdım.
B) Kitablar rəflərdə yan-yana düzülmüşdü.
C) Gülzar bu xəbəri eşidər-eşitməz susdu.
D) Çiçək evdən səssiz-səmirsiz çıxdı.
E) Dostları ilə dilucu salamlaşdı.

22. Hansı cümlədə mürəkkəb zərf ***işlənməmişdir***?
A) Qələbəyə addım-addım yaxınlaşırıq.
B) O, utandığından asta-asta danışırdı.
C) Batır yavaş-yavaş düşmənin səsi. (H.K Sanılı)
D) Hərdən kəndin üzərindən yanıqlı-yanıqlı çığıran durna qatarı uçurdu. (Ə. Məmmədxanlı)
E) Uşaq sevinə-sevinə anasını qucaqladı.

23. Hansı cümlədə düzəltmə zərf ***işlənməmişdir***?
A) Qışda dağlar ağ geyinər, yaz qara (Aşıq Ələsgər)
B) O, ucadan danışmağa adət etmişdir.
C) Döyüş bölgəsinə gecikmədən çatmalısan.
D) Dostlar yanakı dayanıb ətrafı seyr edirdilər.
E) İmtahanlarımı müvəffəqiyyətlə verdim.

24. Müxtəlif mənalı sözlərin birləşməsindən əmələ gələn mürəkkəb zərfləri müəyyən edin.
A) birə-beş, əvvəl-axır B) dilucu, gecəyarı
C) ilbəil, dalbadal D) başdan-ayağa, evbəev
E) ara-sıra, yan-yana

25. Müxtəlif mənalı sözlərin birləşməsindən əmələ gələn mürəkkəb zərfləri müəyyən edin.
A) arabir, əlüstü
B) yanbayan, günbəgün
C) azdan-çoxdan, hərdən-birdən
D) yan-yörə, ara-sıra
E) başdan-binadan, üzbəüz

26. *Diqqətlə otağa göz gəzdirdi, sonra içəriyə daxil oldu, bir qədər dincəldi* cümləsində zərfin mənaca növlərini ardıcıllıqla müəyyən edin.
A) zaman, zaman, yer, tərzi-hərəkət
B) tərzi-hərəkət, zaman, yer, kəmiyyət
C) tərzi-hərəkət, yer, kəmiyyət
D) yer, zaman, tərzi-hərəkət
E) tərzi-hərəkət, yer, zaman, yer

27. *Sağa-sola boylandı, bir az düşündü, cəsarətlə irəliyə atıldı* cümləsində zərfin mənaca növlərini ardıcıllıqla müəyyən edin.
A) tərzi-hərəkət, yer, kəmiyyət, yer
B) tərzi-hərəkət, kəmiyyət, tərzi-hərəkət
C) yer, kəmiyyət, yer, tərzi-hərəkət
D) kəmiyyət, tərzi-hərəkət, yer
E) yer, kəmiyyət, tərzi-hərəkət, yer

28. Hansı cümlədə müxtəlif məna növlərinə aid zərflər işlənmişdir?
A) Bayaq dalaşan oğlanlar indi gülüşürdülər.
B) Dünən əsən külək səngimək bilmir, axşamüstü şəhəri cənginə alıb uçururdu.
C) Səbinə yaxşı bilirdi ki, elm öyrənmək həmişə mümkün olmayacaq.
D) Murad qaça-qaça özünü Elcana yetirdi və birlikdə yola düşdülər.
E) İmran almanca səlis danışır.

29. Hansı düzəltmə zərflər sifətdən yaranmışdır?
A) yavaşdan, sevincək, aralıqda
B) çəpəki, igidcəsinə, hiyləgərcəsinə
C) hərarətlə, diqqətlə, heyrətlə
D) hərdən, birdən, çoxdan
E) gündə, ayda, ildə

Camscanner ile skan edilib

CamScanner ile Skan edilmiş

44. "*Zəng vurulandan sonra da xeyli oturdum, yazı işlərini diqqətlə yoxladım*" cümləsində işlənən zərflərin mənaca növlərinin ardıcıllığını müəyyən edin.
A) kəmiyyət, tərzi-hərəkət
B) zaman, yer
C) zaman, kəmiyyət, tərzi-hərəkət
D) tərzi-hərəkət, kəmiyyət
E) yer, kəmiyyət, zaman

45. "*Qapını açandan sonra yavaşca içəriyə boylandı, salamlaşdı və oğlunu xəbər aldı*" cümləsində işlənən zərflərin mənaca növlərinin ardıcıllığını müəyyən edin.
A) tərzi-hərəkət, yer
B) yer, zaman
C) zaman, tərzi-hərəkət, yer
D) tərzi-hərəkət, zaman
E) zaman, yer, kəmiyyət

46. Tərkibində kəmiyyət zərfi olan cümləni müəyyən edin.
A) Sevil bu barədə çoxdan düşünürdü.
B) Azlıq çoxluğa tabedir.
C) Az danışmaq insanın bəzəyidir.
D) Onlar bazardan xeyli meyvə aldılar.
E) Bu aşdan doyunca ye.

47. Tərkibində zaman və tərzi-hərəkət zərfləri olan cümləni müəyyən edin.
A) Futbol həm yaşlılar, həm də uşaqlar arasında çox yayılmışdır.
B) Axşamüstü çobanlar sürünü otara-otara gətirirdilər.
C) Anbaan artan xəzri göz açmağa imkan vermirdi.
D) İllər beləcə bir-birini əvəz edirdi.
E) Dünən sizin yolunuzu səbirsizliklə gözləyirdik.

48. Tərkibində zaman və tərzi-hərəkət zərfləri olan cümləni müəyyənləşdirin.
A) Biz xəzəllərin üstü ilə tələsmədən addımlayırdıq.
B) Gecə körpə qəfildən oyandı.
C) Gənc xəfifcə gülərək cavab verdi.
D) Həmişə mən bunları görə-görə susurdum.
E) Yağış axşam çox yağmamışdı.

49. Cümlələrdən birində zaman, tərzi-hərəkət və yer zərfləri işlədilmişdir:
A) Dünəndən bəri yağan yağış yenicə kəsmişdi.
B) Dünən futbolçularımız cəsarətlə oynayaraq xal hesabı ilə irəli çıxdılar.
C) Qəfil hadisədən özünü itirmiş Gülər nənənin köməyinə qonşular dərhal gəldilər.
D) Səhər hamı Şəhidlər xiyabanına gedərək öz vətəndaşlıq borcunu yerinə yetirdi.
E) Artıq həyəcanlı anlar geridə qaldı, hamı yavaş-yavaş sakitləşdi.

50. Cümlələrdən birində yer, tərzi-hərəkət və zaman zərfləri işlədilmişdir:
A) Gecə bərk tufan qopdu və çürük ağacları kökündən qopardı.
B) Uşaqlar məharətlə rəqs edir, musiqiçiləri daha da şövqə gətirirdilər.
C) Qabaqda tanklar yan-yana düzülərək hərdənbir düşmənə cavab atəşi açırdı.
D) Bu gün şəhər əhalisi təmtəraqla Qız qalasının qarşısına toplaşmışdı.
E) Kəmalə xanım dünəndən yır-yığış edir, səhərki qonaqlığa ciddi hazırlaşırdı.

51. Hansı cümlədə iki sadə zaman zərfi işlənmişdir?
A) Birdən-birə gurultu ilə gələn sel bənd-bərəni dərhal yıxdı, qarşısına keçəni süpürləyib apardı.
B) Gecəyarısı başlayan şiddətli tufan səhərəyaxın qapımızdakı çinar ağacını kökündən qopartdı.
C) Uzaqdan görünən çinar ağacları kəndə xüsusi bir gözəllik verirdi.
D) Dünən başlayan yağış səhər də kəsmək bilmədi.
E) İçəridə uşaqlar dərs oxuyur, hərdən də sual-cavab edirdilər.

52. Hansı cümlədə iki sadə zaman zərfi işlənmişdir?
A) Axşam yarımçıq qoyduğum işi indi bitirməliyəm.
B) Bayramsayağı bəzənmiş şəhər gözəl görünürdü.
C) Dünənki söhbət yenidən gündəmə gətirildi.
D) Birdən-birə hava tutuldu, güclü yağış yağdı.
E) Aşağıdakı binalar yeni təhvil verilib.

53. Nümunələrin birində yer zərfi feili sifətə aiddir:
A) Dağların zirvəsində ağaran qar günəşin şəfəqləri altında bərq vururdu.
B) O, ürəyindən keçən sözləri dilinə gətirmədən yuxarı qalxdı.
C) Meşəni yandıran şəxsləri məsuliyyətə cəlb etdilər.
D) Aşağıdakı otaqda hay-küy salan adamları çətinliklə sakitləşdirdik.
E) İçəri daxil olan müəllimi uşaqlar sevinclə qarşıladılar.

54. Hansı cümlədə *-dan*^{2} zərf düzəldən şəkilçi ***deyil***?
A) Çoxdan unutmuşam kin-küdurəti.
B) Onun şəhərdən qayıtdığı bir neçə gün olardı.
C) O, əlini uşağın çiyninə qoyub astadan soruşdu.
D) Yolunu azmış su yenidən kəndə tərəf axmağa başladı.
E) Hərdən yağış, hərdən qar yağırdı.

55. Hansı cümlədə *-dan*^{2} zərf düzəldən şəkilçi ***deyil***?
A) Az keçmədi ki, evin qapısı yenidən döyüldü.
B) O, anasının üzünə baxıb dərindən köks ötürdü.
C) Külək qəfildən güclənməyə başladı.
D) O, ucadan mahnı oxumağı sevirdi.
E) Xeyli vaxt olardı ki, o, kənddən uzaqlaşmışdı.

Camscanner ilə skan edilib

56. Tərkibində tərzi-hərəkət və yer zərfi olan cümləni müəyyənləşdirin.
A) Yazda uşaqlar məktəbin həyətində ağac əkdilər.
B) Böyüklərə qarşı həmişə diqqətli və qayğıkeş olun.
C) Eldar Nyu-Yorkda yaşayan Harri ilə tez-tez məktublaşırdı.
D) Evin ağsaqqalı gələnləri hörmətlə qarşılayır, içəridə oturdurdu.
E) O, mənə baxa-baxa içəri daxil oldu.

57. Düzəltmə kəmiyyət zərfinin işləndiyi cümləni müəyyən edin.
A) Sədaqət Pərişanı çəpəki süzdü.
B) Hüseyn başqa uşaqlardan fərqli olaraq, xeyli meyvə dərmişdi.
C) Usta bir qədər düşünüb oradan uzaqlaşdı.
D) Bir neçə aydan sonra xəstə tamamilə sağalmışdı.
E) Pərviz qonaqlarla dilucu salamlaşdı.

58. Nümunələrin birində zərf ***işlənməmişdir***:
A) Bağa gələnlərin maşınları kiçik meydançada yanbayan dayanmışdı.
B) "Koroğlu" metrosunun qarşısındakı xiyabanda rəngbərəng çiçəklər göz oxşayırdı.
C) Bu dəfə atəş səsləri dalbadal eşidildi.
D) Təhsilə marağı olanların sayı günbəgün artırdı.
E) Azərbaycan iqtisadi göstəricilərinə görə ilbəil güclənir.

59. Cümlələrin birində *-da*[2] şəkilçisi zərf ***düzəltməmişdir***:
A) Kənddə görünən qülləni almanlar inşa etmişdilər.
B) Məsələləri birlikdə həll etməyiniz daha məsləhətlidir.
C) Fərid gündə əmisigilə gedərdi.
D) Yayda havaların birdən-birə dəyişməsi planları alt-üst etdi.
E) Fikrət hamı ilə təklikdə danışırdı.

60. Tərkibində düzəltmə zərf olan cümləni müəyyənləşdirin.
A) Daimi iş yeri olmadığından sabaha inamı da yox idi.
B) Babam bağımızda işləməkdən yorulmazdı.
C) Hava birdən-birə soyumağa başlamışdı.
D) O hadisədən sonra Fərrux hərdən qocaya baş çəkirdi.
E) Samirə dalğın baxışlarla oğlanı süzüb otaqdan çıxdı.

61. Hansı cümlədə sadə, düzəltmə və mürəkkəb zərf işlənmişdir?
A) Dünən anam diqqətlə məsələni mənə birbəbir anlatdı.
B) Çoxdan gözlədiyimiz qar artıq tez-tez yağmağa başlamışdı.
C) Yazda futbol yarışlarına ara-sıra qatılacağam.
D) İgidlər cəsarətlə döyüşür, hər gün qələbə xəbəri alırdıq.
E) Onunla üzbəüz dayanıb söhbət etmək həmişə cəsarət tələb edirdi.

62. Hansı nümunədə zərf ***yoxdur***?
A) Ölkənin şöhrəti yüksələn zaman
Vüqarla dayanır qalaları da. (F. Qoca)
B) Gecə ürəyimi alıb sinəmdən
Məşəltək tutaram başımın üstə. (F. Qoca)
C) Təki ürəyimdə bayramım olsun,
Bahara çevrilər payız da, qış da. (F. Qoca)
D) Həmişə başını uca görmüşük
Torpağa hörmətlə baş əyənlərin. (F. Qoca)
E) Adam bolluğunda boğuluram hərdən,
Qaçmaq istəyirəm kənddən, şəhərdən. (F. Qoca)

63. Düzəltmə zərf işlənmiş cümlələri müəyyən edin.
1. Qəsddən üç gün keçirdi.
2. O, qəsdən bərkdən danışırdı ki, diqqəti cəlb etsin.
3. Sədaqətlə birlikdə yazdığımız musiqini hamı bəyəndi.
4. Qəhrəmanlıqla döyüşmək əsgərin şərəf işi olmalıdır.
5. Mən bunları təzə öyrənmişəm.
A) 1, 2, 5 B) 2, 3, 4 C) 2, 3, 5
D) 1, 3 E) 1, 4

64. Modal sözlü cümlələrdən birinin tərkibində zaman, tərzi-hərəkət və kəmiyyət zərfi işlədilmişdir:
A) Əlbəttə, əsgərlərimiz dünən cəsarətlə döyüşdüklərinə görə ruh yüksəkliyi xeyli artmışdı.
B) Axır ki, nənəmiz dünən gəlib çıxdı, bizi bağrına basaraq xeyir-dua verdi.
C) "Azərbaycan dili və ədəbiyyatı" jurnalı müəllim ordusunun elmi-metodiki cəhətdən peşəkarlığının daha da artmasına kömək edir.
D) Doğrudan da, əvəzsiz rəssam Səttar Bəhlulzadə həmişə hörmətlə yad ediləcəkdir.
E) Görkəmli alimimiz Ə. Dəmirçizadə, həqiqətən, Azərbaycan dilçiliyinə yeniliklər gətirərək onu xeyli zənginləşmişdir.

65. Modal sözlü cümlələrdən birinin tərkibində zaman, kəmiyyət və tərzi-hərəkət zərfi işlənmişdir:
A) Sanki kimsə bu xəbərləri dərhal sənə çatdırır, yenə bizi üz-üzə qoyur.
B) Belə ki, bu gün Aysu həvəslə işləmiş, bir az yorulmuşdu.
C) Doğrudur, Gülənbər xala azacıq duruxdu, birdən Zəminəni tanıyıb gülümsədi.
D) Məhəmmədəli kişi, həqiqətən, Allah adamı idi, ona görə camaat da həmişə onun xətrini çox istəyirdi.
E) Şübhəsiz, Aysel indi də xeyli işləyərək tapşırıqları dürüst yerinə yetirir.

Camscanner ilə skan edilib

66. Zərfin quruluşca hər üç növünə aid nümunə hansı cümlədədir?

A) Bu ilğımların altında dünən getdiyi yolu bu gün geri döndü.

B) Çoxdan rus teatrında çalışan aktrisa indi birdən-birə səhnədə Azərbaycan dilində danışırdı.

C) İllərlə görmədiyim dostum indi təəccüblə mənə baxırdı.

D) Axşam olanda bütün ailə süfrə başına toplaşar, sevinclə şam edərdilər.

E) Gündən-günə hiss edirdim ki, Ziya mənimlə ehtiyatla danışır.

67. Nümunələrdən birində müxtəlif mənalı sözlərdən əmələ gələn mürəkkəb tərzi-hərəkət zərfləri işlənmişdir:

A) Gecəyarısı başlayan külək səhərəyaxın kəsdi və hava yavaş-yavaş açılmağa başladı.

B) Srağagündən yağan yağış dünən axşamüstü kəsdi.

C) Birdən-birə gurultu ilə gələn sel dərhal bənd-bəranı yıxıb dağıtdı.

D) O, asta-asta içəri girib, gözucu otaqdakıları süzdü.

E) Kərim kişi atüstü dərəyə yaxınlaşdı və çayın kənarındakı qonaqlarla dilucu salamlaşdı.

68. Zərfin bütün məna növlərinə aid nümunələr işlənmiş cümləni müəyyən edin.

A) Biz irəli gedib hər tərəfi ehtiyatla nəzərdən keçirdik.

B) Azad əvvəlcə müəllimə baxdı, sonra astaca sağa dönərək otaqdan çıxdı.

C) Səlim cəld otaqdan çıxdı, sonra bir az fikirləşib geri döndü.

D) Uşaqlar bağdan bir az meyvə dərib yavaş-yavaş oradan uzaqlaşdılar.

E) Arabir yağış yağanda yuxarıdan bir az su axır, evdəkiləri çox narahat edirdi.

69. Zərfin bütün məna növləri işlənmiş cümləni müəyyən edin.

A) Nahardan sonra uzanıb bir qədər dincəldilər və sabahkı işlər barədə söhbət etdilər.

B) Sənəm əvvəl geyinib evdən çıxdı, sonra yavaş-yavaş sahilə endi.

C) Anam hər gün tezdən durar, astaca həyətə enər, səhər yeməyi üçün hazırlıq görərdi.

D) Dönüb geri baxanda gördü ki, bir dəstə atlı ildırım kimi gəlir.

E) O, indi az və astadan danışır, içəridə oturanlara nəzarət edirdi.

70. Nümunələrin birində zərfin bütün məna növləri işlənmişdir:

A) Niyə gəldik üz-üzə,
Səmtiniz ki başqa-başqadır. (N. Kəsəmənli)

B) Pristav kazakları burada ağaca sarıyan adamları indi tez tapıb tutacağına, qabağına qatıb həbsxanaya aparacağına çox inanmışdı. (İ. Şıxlı)

C) Sayrışan işıq topası tədricən düzüm-düzüm cərgələnir, sanki indicə ətrafı nura qərq edəcəkdi. (S. Əhmədov)

D) Beləcə böyüdük bir zaman biz də
Bizimlə yatacaq daşdan xəbərsiz...
(N. Kəsəmənli)

E) Fikrimiz, qəlbimiz versin əl-ələ,
Biz nə görmüşük ki, dünyada hələ. (F. Qoca)

71. Zərfin məna və quruluşca növlərini nəzərə almaqla soldan sağa cədvəli tamamlayın.

təkrar	...	xeyli
...	gündə	dəfələrlə
atüstü	anbaan	...

A) asta, inişil, az-çox

B) türkcə, srağagün, birə-beş

C) cismən, bildir, addımbaşı

D) irəli, ildə, günbəgün

E) arabir, səlis, az-maz

72. Düzəltmə zərfləri müəyyən edin.

1. qəfildən 2. kənddən 3. hərdənbir
4. igidcəsinə 5. şairanə 6. söhbətcil

73. Düzəltmə zərfləri müəyyən edin.

1. əvvəlki 2. çoxdan 3. addımbaşı
4. qaraşın 5. qəhrəmancasına 6. qəflətən

74. Tərzi-hərəkət zərfi işlənmiş cümlələri müəyyənləşdirin.

1. O, körpəsini məhəbbətlə süzdü.
2. Əhməd gülə-gülə otağa daxil oldu.
3. Hava gözlənilmədən dəyişdi.
4. Mehparə qonşusu ilə dilucu salamlaşdı.
5. Hərdənbir bizə gəlir.

75. Düzəltmə zərf işlənmiş cümlələri müəyyən edin.

1. Hamı qəsddən danışırdı.
2. Firəngiz danışa-danışa paltosunu geyindi.
3. Qocalar yanakı oturmuşdular.
4. Əzablara mərdliklə sinə gərdik.
5. Mən bunları indi öyrənmişəm.

76. Düzəltmə zərfləri müəyyən edin.

1. məncə 2. bilməcə 3. latınca
4. gəlincə 5. mehribancasına 6. ustalıqla

77. Hansı sözlər zərfdir?

1. sağa-sola 2. baxa-baxa
3. gülə-gülə 4. yan-yana
5. uzaqdan-uzağa 6. çatar-çatmaz

Camscanner ile skan edilib

78. Hansı sözlər zərfdir?
1. ora-bura
2. sinifdən sinfə
3. yana-yana
4. ara-sıra
5. için-için
6. gedər-gəlməz

79. Hansı cümlələrdə zərfin quruluşca hər üç növünə aid nümunə verilmişdir?
1. Sağa-sola vurnuxan at birdən qulaqlarını şəklədi və irəliyə dartındı.
2. Buludların arasından ara-sıra bərq vuran ulduzlar sanki yerdə öz sahibini axtarırdı.
3. Anası ilə üzbəüz oturub mehribanlıqla söhbət etməsi uzaqdan aydın görünürdü.
4. O, dizin-dizin sürünərək çarpayının yuxarı tərəfinə gəldi.
5. Addımbaşı saxlanılan avtomobillər sərhədçilər tərəfindən dəfələrlə yoxlandıqdan sonra tez ehtiyat yola keçirilirdi.

80. Mürəkkəb zərfləri müəyyənləşdirin.
1. diz-dizə
2. qaçaqaç
3. gülə-gülə
4. vurhavur
5. ilbəil
6. oğrun-oğrun

81. *"Ora"* sözü ardıcıl olaraq, hansı şəkilçiləri qəbul etdikdən sonra yenə zərf olaraq qalır?
1. *– dakı*
2. *– da*
3. *– lıq*
4. *– lar*

82. Verilmiş nümunədə zərfin mənaca hansı növləri işlənmişdir?
O, yenə də təbiətinə sadiq idi. Təsadüfən gəlib çıxdığı bir kəndli komasında da səhərə qədər oxuyur, sonra aramla yoluna davam edirdi.
(Ə. Məmmədxanlı)
1. zaman
2. tərzi-hərəkət
3. kəmiyyət
4. yer

83. Düzəltmə zərf işlənmiş cümlələri müəyyən edin.
1. Gündə dayanma, kölgəyə keç.
2. Ev sahibi otağa girəndə qonaq telefonla danışırdı.
3. Yayda buraların havası çox isti olur.
4. Tələbə adını qazanan Fatimə balaca uşaq kimi sevinirdi.
5. Mahmud içəri daxil olub ehtiyatla küncdəki stulda əyləşdi.

84. Mürəkkəb zərf işlənmiş cümlələri müəyyən edin.
1. Usta yenə gülə-gülə yeni işçini tərifləyirdi.
2. Kitablar rəfdə yan-yana düzülmüşdü.
3. Rüstəm kişi əlləri əsə-əsə tüfəngini təmizləyirdi.
4. Pişik ovuna doğru asta-asta yaxınlaşırdı.
5. Ağacdan bir qədər alma dərdik.

85. Nömrələnmiş hansı sözlər zərfdir?
Yağışdan əvvəl[1] dənizdə[2] hava sakit[3] görünürdü. Sabir şəhərə gələndə[4] xeyli[5] danışardıq. Kənddən[6] qayıdanda yolun kənarındakı təzə evlərə diqqətlə[7] baxardım.

86. Verilmiş cümlələrdəki zərflərlə bağlı doğru fikirləri müəyyən edin.
I Sərvər çoxdan açılmamış kitab şkafının açarını burdu.
II Əjdər onun ayaq səslərinin eşidilmədiyini görüb yavaşca geri döndü.
III Sara xatun hirslə dönüb ağır-ağır alaçıqdan çıxdı.

I	*II*	*III*
1. Quruluşca düzəltmədir. 2. Kəmiyyət zərfidir, təsriflənməyən feilə aiddir.	3. Cümlədəki tərzi-hərəkət zərfi digər bir zərfi izah edir. 4. Sadə yer zərfi təsriflənən feilə aid olub, cümlədə zərflik vəzifəsində işlənib.	5. Cümlədəki tərzi-hərəkət zərflərindən biri düzəltmə, digəri isə mürəkkəbdir. 6. Hər iki zərf cümlədə müstəqil cümlə üzvü vəzifəsində işlənib.

87. Uyğunluğu müəyyənləşdirin.
Hansı cümlədə zərflər:
1. Hərəkətin necə icra olunduğunu bildirir?
2. Hərəkətin nə zaman icra olunduğunu bildirir?
3. Hərəkətin harada icra olunduğunu bildirir?

a. Sürətli danışıq fikrin anlaşılmasını çətinləşdirir.
b. O bizdən xeyli irəlidə gedirdi.
c. Səhər açılanda yola düşdük.
d. Yağış birdən-birə gücləndi.
e. Yazda hər tərəf yaşıl dona bürünür.

88. Uyğunluğu müəyyənləşdirin.
Hansı cümlədə zərflər:
1. Hərəkətin necə icra olunduğunu bildirir?
2. Hərəkətin nə zaman icra olunduğunu bildirir?
3. Hərəkətin harada icra olunduğunu bildirir?

a. Köç yavaş-yavaş yaylağa qalxırdı.
b. Axşam yeli qızın saçlarını üzünə dağıtmışdı.
c. İrəlidə palıd meşəsi görünürdü.
d. Qışda dağlar ağ donunu geyinir.
e. İrəlidəki körpü dağılmış, keçilməz olmuşdu.

Camscanner ile skan edilib

Zərfin cümlədə rolu. Zərfin morfoloji xüsusiyyətləri

1. Cümlələrin birində zərf ***işlənməmişdir***:
A) Şirin həyəcanla onun üzünə baxdı.
B) Qara buludlar göy üzündə çaxnaşırdı.
C) Uşaq təzəcə dil açmışdı.
D) Əhməd onu çəpəki süzdü.
E) Kamal bir qədər ayaq saxladı, sonra yoluna davam etdi.

2. Biri zərf ***deyil***:
A) qəfildən (qışqırmaq) B) bərkdən (danışmaq)
C) bilmədən (çığırmaq) D) birdən (hoppanmaq)
E) ucadan (gülmək)

3. Biri zərfdir:
A) azdan-çoxdan B) oxumadan
C) görər-görməz D) baxa-baxa
E) hirslənmədən

4. Hansı cümlədə zərf işlənmişdir?
A) Bakı bağlarının gözəlliyinə söz yoxdur.
B) Xəstənin halı birdən-birə dəyişdi.
C) Uşaqlar bağda istirahət edirlər.
D) Konsertdə qabaq cərgədəki yerlər boş idi.
E) Qonşumuzun kiçik oğlu Türkiyədə təhsil alır.

5. Cümlələrin birində zərf ***işlənməmişdir***:
A) Çəmənlər əlvan çiçəklərə bürünmüşdü.
B) Mələk təəccüblə qaşlarını çatdı.
C) Uşaq bir az da irəli gəldi.
D) Dostlar yanaşı dayanmışdılar.
E) Kamal dərhal ayağa qalxdı.

6. Hansı cümlədə "*düz*" sözü zərf kimi ***işlənməyib***?
A) Ancaq Natiq düz deyir.
B) Sən düz danışmadın.
C) Oğlum, sözü düz oxu.
D) Düz yol gedən yorulmaz.
E) Diqqətli ol, düz yaz.

7. Hansı cümlədə "*düz*" sözü zərf kimi ***işlənməyib***?
A) Bu gün hamı cavabları düz yazmışdı.
B) Mətni yalnız Elçin düz oxuyur.
C) Sən həmişə düz danışırsan.
D) Düz sözə zaval yoxdur.
E) Stulda həmişə düz otururlar.

8. Hansı cümlədə zərf ***yoxdur***?
A) Tamaşaçılar yeni zalda oturmuşdular.
B) İrəlidə bir yük maşını göründü.
C) Axşam yağış yağmış, həyətdə gölməçə yaranmışdı.
D) Gələnlər ingiliscə danışırdılar.
E) Ana xeyli düşündü, çıxış yolu tapmadı.

9. Hansı cümlədə zərf ***yoxdur***?
A) Mən səni gördükcə gözlərim gülər. (S. Vurğun)
B) Müəllim təəccüblə uşağa baxdı.
C) Körpə güclə, divardan tuta-tuta yeriyirdi.
D) Xəlvətcə məşkinə su doldurub Şər,
Dürr kimi saxladı, vermədi xəbər. (N. Gəncəvi)
E) Əsmər xala astadan danışırdı.

10. Hansı cümlədə zərf ***yoxdur***?
A) Qoca güclə dayanmışdı.
B) Qoca çətinliklə danışırdı.
C) Qoca təəccüblə mənə baxırdı.
D) Qoca ehtiyatla ətrafa diqqət yetirdi.
E) Qoca ağacla yeriyirdi.

11. Cümlələrin birində zərf ***işlənməmişdir***:
A) Elçin şəhərdə yaşayır.
B) Axşam televizorda yaxşı veriliş olacaq.
C) Sözü deməzdən qabaq yaxşı-yaxşı fikirləş.
D) Az danış, mənalı danış.
E) Hərdənbir görüşürük.

12. "Əvvəl" sözü hansı cümlədə zərfdir?
A) Hər şeydən əvvəl, dərsə fikir verin.
B) O, müharibədən əvvəl müəllim işləyirdi.
C) Dərsini əvvəl oxu, sonra istirahət edərsən.
D) Mən səndən əvvəl gəlmişdim.
E) Yola çıxmazdan əvvəl maşınları bir daha yoxlayın.

13. Hansı sözlər həm zərf, həm də sifət kimi işlənə bilir?
1. iti 2. qəflətən 3. cəld
4. açıq 5. cəsarətlə 6. birdən
A) 2, 5, 6 B) 1, 3, 5 C) 1, 3, 4
D) 2, 4, 6 E) 3, 5, 6

14. Cümlələrdən birində eyni sözün təkrarından yaranmış zərf ***işlənməmişdir***:
A) İsmayıl dayəsi Səkinənin danışdığı nağılları tez-tez yada salırdı.
B) Nənəsinin danışdığı şirin-şirin nağıllar onun uşaqlıq dünyasının bəzəyi idi.
C) O, sazda oxunan el mahnılarının sözlərini misra-misra yaddaşına hopdurmuşdu.
D) Küçələrdə yığılan qarın üstündə qarğalar asta-asta gəzişirdi.
E) Adamlar ya piyada, ya da at qoşulmuş furqonlarda rahat-rahat küçələrdən keçirdilər.

15. Cümlələrdən birində eyni ismin təkrarından yaranmış zərf işlənmişdir:
A) Böyük bir ayı arxa pəncələri üstündə yavaş-yavaş suya girdi.
B) Uşaqlıqda tez-tez xəstələndiyi üçün arzusu həkim olmaq idi.
C) Dəstə meşənin dərinliklərinə çatanda addım-addım irəliləməyə başladı.
D) Körpə yuxuda şirin-şirin gülümsəyirdi.
E) Xəfif-xəfif əsən külək sanki onun saçları ilə oynayırdı.

CamScanner ile skan edilib

16. Hansı nümunədə zərf işlənmişdir?
A) Mən bunları görə-görə susa bilməzdim.
B) Uşaq yıxıla-yıxıla böyüyər.
C) Otaqdan otağa keçmək məni yorur.
D) Şirin-şirin nəğmələrimiz, mahnılarımız xalqın hafizəsində yaşayır.
E) Uşaq ora-bura boylanırdı.

17. Hansı cümlədə zərf ***işlənməmişdir***?
A) Uşaq oyuncaqla oynayır.
B) Sözü zarafatla deyərlər.
C) Maşın sürətlə gedirdi.
D) O, həyəcanla danışır.
E) Uşaq deyilənləri diqqətlə dinləyirdi.

18. Zərfin feili bağlamaya aid olduğu nümunə hansıdır?
A) cəsarətlə danışan
B) yuxarı qalxdıqca
C) torpağı sevdikcə
D) məktəbdən gələrkən
E) aşağı boylanan

19. Zərfin feili bağlamaya aid olduğu nümunə hansıdır?
A) qəsdən gecikmək
B) tək-tək oxuyan
C) içəri girər-girməz
D) ağlaya-ağlaya danışaraq
E) soyuqdan titrəmək

20. Hansı cümlədə zərf ***işlənməmişdir***?
A) Qəfil görünən qayıq hamının sevincinə səbəb oldu.
B) O, astaca qapını açıb içəri daxil oldu.
C) İstirahətimizi kənddə keçirməyi qərara aldıq.
D) Biz birlikdə bu işin öhdəsindən gələ bilərik.
E) Gec-tez hər kəs öz cəzasına çatacaq.

21. Hansı cümlədə zərf işlənmişdir?
A) Anam şəhərdə qalmaq istəmir, kəndə getməyə tələsirdi.
B) Ah, mən gündən-günə bu gözəlləşən,
İşıqlı dünyadan necə əl çəkim ?! (M. Müşfiq)
C) Qoca nəfəsini dərmək üçün dayandı və bizə baxdı.
D) O, anasını görməkdən ötrü kəndə gəlmişdi.
E) Mən o evdə yaşamağa alışmışam.

22. Nümunədə altından xətt çəkilmiş söz morfoloji baxımdan nədir?
Yağış yağdı <u>gilə-gilə</u>,
Ayaqqabım batdı gilə. (F. Sadıq)
A) sifət B) feli bağlama
C) feli sifət D) feli bağlama tərkibi E) zərf

23. Nümunədə altından xətt çəkilmiş söz morfoloji baxımdan nədir?
Mən onu <u>arabir</u> xatırlayıram.
A) zərf B) sifət C) isim
D) say E) əvəzlik

24. İşarələnmiş sözlər hansı nitq hissəsinə aiddir?
Əzizim <u>kəlmə-kəlmə</u>,
Sözün de <u>kəlmə-kəlmə</u>.
Oturaq xəlvət evdə,
Danışaq <u>kəlmə-kəlmə</u>. (Bayatı)
A) zərf, feili bağlama B) feili bağlama
C) feili sifət D) zərf
E) feili sifət, feili bağlama

25. İşarələnmiş sözlər hansı nitq hissəsinə aiddir?
Əzizim gündə dara,
Zülfünü <u>gündə</u> dara.
Bülbülü güldən ötrü,
Çəkdilər <u>gündə</u> dara. (Bayatı)
A) feili sifət, feili bağlama
B) feili bağlama C) feili sifət
D) zərf, feili bağlama E) zərf

26. Cümlələrdən birində *"düz"* sözü zərf kimi işlənmişdir:
A) Kəklik xanım şamları güzgünün qarşısına düzdü.
B) Dağlarla əhatə edilmiş bu düz maralların məskənidir.
C) Maşın evimizin düz qabağında dayandı.
D) Nailə, gəl əyri oturaq, düz danışaq.
E) Düz yol insanı həmişə xoşbəxtliyə çatdırar.

27. Zərflərin birində ismə məxsus əlamət var:
A) Sonralar bu haqda çox danışılacaq.
B) Qapı qəflətən döyüldü.
C) Bura dünyanın hər yerindən turistlər gəlir.
D) İndi düşünüləsi və qərar veriləsi məsələlər çoxdur.
E) Atəş səsləri kəndin yaxınlığında dalbadal eşidilirdi.

28. Hansı cümlədə zərf ismə məxsus şəkilçi qəbul etmişdir?
A) Onlar stolun ətrafında üzbəüz oturmuşdular.
B) Müğənni "Rast" muğamını həvəslə oxudu.
C) O, şəhərdəki xoş xatirələri haqqında sevinclə danışırdı.
D) Yavaş-yavaş payız qışa çevrilir, bacaların tüstüsü qalınlaşırdı.
E) Bu günün işini sabaha qoyma.

29. "Zərf hərəkətə aid olduğu kimi, digər nitq hissəsinə də aid olub, onu müxtəlif cəhətdən izah edir" hökmünü təsdiq edən cümləni müəyyən edin.
A) Meydanın qərb tərəfindən bulud kimi toz qalxdı.
B) Güclü yağışa düşdüyü üçün uşağın paltarı tamamilə yaş idi.
C) İndi təəssüflə bildirirəm ki, boş vaxtımız yoxdur.
D) Az danışıb mənalı danışmaq, çox danışıb mənasız danışmaqdan yaxşıdır.
E) Uşaq yuxarıdan anasına əl edirdi.

Camscanner ilə skan edilib

30. *"Əhməd yavaş-yavaş qapıya yaxınlaşdı"* cümləsində altından xətt çəkilmiş sözün qrammatik xüsusiyyətləri ilə bağlı ***səhv*** müəyyən edin.
A) Təsriflənən feillə əlaqəyə girib.
B) Eyni sözün təkrarı ilə yaranmışdır.
C) Tərzi-hərəkət zərfidir, *necə?* sualına cavab verir.
D) Quruluşca mürəkkəb zərfdir.
E) Cümlənin təyinidir.

31. Bir nümunədə zərf *hansı?* sualına cavab verir:
A) Yuxarı dairələrdə bu hadisəyə elə də əhəmiyyət verilmədi.
B) Günlər sürətlə ötüb-keçirdi.
C) Əvvəllər o belə qayğılı görünməzdi.
D) Təyyarə getdikcə yuxarı qalxırdı.
E) Tez-tez danışan oğlan qonşumuzdur.

32. Hansı cümlədə zərf feili sifətə aiddir?
A) Çox istəyən azdan da qalar.
B) Az danışmaq onun adətidir.
C) Əla oxuyaraq məqsədinə nail oldu.
D) O, iclasda çox danışdı.
E) Qapı qəfildən açılanda hamı dönüb baxdı.

33. *"Yaxşı yazmağı yaxşı yazan müəllifləri oxumaqla öyrənmək olar"* cümləsindəki *"yaxşı"* sözü hansı nitq hissəsidir?
A) əvəzlik
B) sifət
C) isimləşmiş sifət
D) modal söz
E) zərf

34. Hansı cümlədə iki zərf işlənmişdir?
A) Qoyunlar birdən-birə geri döndü və mələşə-mələşə təpəni üzüyuxarı dırmaşdılar.
B) Həmid sakitcə dayanıb söhbətin necə qurtaracağını gözləyirdi.
C) Nihad indicə qaça-qaça Fikrətə çatdı.
D) Nərgiz bilirdi ki, indi bu barədə danışmaq gecdir.
E) Atalar deyib ki, özgə atına minən tez düşər.

35. Hansı cümlədə iki zərf işlənmişdir?
A) Aydın onu çəpəki süzərək gülə-gülə dilləndi.
B) Əkbərgil axşam gəldilər və gün çıxanda getdilər.
C) Müəllim siyahıdakıları tələsmədən adbaad oxudu.
D) İbrahim heç bir sənədə ötəri baxmazdı, hamısını bir-bir, diqqətlə nəzərdən keçirəndən sonra imzalayardı.
E) Çox çəkmədi ki, Mirzə Süleyman yanaşı oturduğu oğlanla söhbətə başladı.

36. *Üzüyuxarı, üzüaşağı* sözləri üçün ortaq cəhətdir:
1. quruluş
2. sual
3. feili birləşmənin tərkib hissəsi ola bilməmək
4. ismə aid qrammatik şəkilçidən istifadə
5. daha çox əşya ilə bağlılıq
6. ikinci dərəcəli üzv yerində çıxış etməmək
A) 3, 6 B) 2, 4, 6 C) 1, 3, 5
D) 1, 2, 4 E) 4, 5

37. Hansı nümunədə zərf ***işlənməmişdir?***
A) Şimal tərəfdən qəflətən güclü külək başladı.
B) Hər kəsin dediyinə kor-koranə inanmaq cahillikdir.
C) Kəndə çatmağa azca qalmış maşınımızın yanacağı qurtardı.
D) Onun belə danışığı ətrafdakılarda şübhə doğururdu.
E) Bura Vətəndir, Vətən!

38. Hansı nümunədə zərf ***işlənməmişdir?***
A) O, dəhlizdə var-gəl edərək astaca nəsə danışırdı.
B) Elə çalışmaqla müsbət bir nəticə əldə edə bilməzsən.
C) Atasını görəndə qeyri-ixtiyari ayağa qalxdı.
D) Lal-dinməz dayanmaq, yalanlara şərik olmaq istəmədi.
E) Oyunun sonuna azca qalmış komandamız bir top da vurdu.

39. Hansı cümlədə zərf təyin vəzifəsindədir?
A) Yayda Xınalığa, oradan da "Heydər zirvəsi"nə qalxdım.
B) Bizi məktəbin yuxarı sinif şagirdləri qarşıladılar.
C) Meşəyə çatanda güclü yağış yağmağa başladı.
D) Yuxarı mərtəbələrdə təmir başlamamışdı.
E) Lerikin sıldırımlı yolları mənə Şuşanı xatırladı.

40. Hansı cümlədə zərf təyin vəzifəsindədir?
A) Turistlər Basqalın qədim əşyalarına heyrətlə baxırdılar.
B) Çayın yuxarı sahillərində əkin yerləri yox idi.
C) Arif testləri diqqətlə nəzərdən keçirir, düzgün cavabları qeyd edirdi.
D) Cahandar ağanı aşağı kəndlərdə hamı tanıyırdı.
E) Mən yayda Qubada olarkən Xınalığa da baş çəkdim.

41. Hansı cümlədə zərf mübtəda vəzifəsindədir?
A) Ayağın hara, başın da ora.
B) Ora çox baxma, bizdən şübhələnərlər.
C) Ora çatanda bizə xəbər verməyi unutmayın.
D) Ora gedən yol dağlardan keçirdi.
E) Ora minalardan yenicə təmizlənmiş ərazidir.

42. Hansı cümlədə zərf mübtəda vəzifəsindədir?
A) Uşaqlar, bura çox yerdən səfalıdır.
B) Bura gələndə onunla rastlaşdım.
C) Bura gəlməkdə məqsədin nədir, Hacı?
D) Bütün günü ora-bura qaçır, heç dincəlmir.
E) Buradakılar yad adam deyil, qorxma.

Camscanner ilə skan edilib

43. Hansı cümlədə iki zərf işlənmişdir?
A) Kəndbəkənd gəzə-gəzə, nəhayət, on iki gündən sonra gəlib şəhərə çatdılar.
B) Nəhayət, günorta qaldırıcı kran yükü ağır-ağır çəkib yuxarı qaldırdı.
C) Gecə Qırat Koroğlunun hənirini duyan kimi dərhal qulaqlarını şəklədi.
D) Əsgərlər marş oxuya-oxuya irəliyə doğru addımlayırdılar.
E) Birdən Səid hövlnak ayağa qalxıb tələşlə dostuna baxdı.

44. Eyler-Venn diaqramına əsasən cümlələrdə fərqləndirilmiş sözlərlə bağlı uyğunluğu müəyyən edin.

I

Nənə nəvələrini başına yığıb ***asta-asta*** nağıl danışırdı.

II

Rüstəm kişi atı arabaya ***qoşa-qoşa*** Cəlalı səslədi.



a. Tərz mənası bildirir.
b. İki nitq hissəsinin xüsusiyyətini daşıyır.
c. Tərkib əmələ gətirmişdir.
d. Sifətlə ifadə olunub, zərflik vəzifəsindədir.
e. Zərfdir.
A) 1 – a; 2 – b, c; 3 – d, e
B) 1 – e; 2 – b, c; 3 – a
C) 1 – b, c; 2 – d, e; 3 – a
D) 1 – e; 2 – a, c; 3 – b
E) 1 – a; 2 – b, e; 3 – c

45. Zərf haqqında ***yanlış*** fikri müəyyən edin.
A) Kəmiyyət zərfləri hərəkətin kəmiyyətini və dərəcəsini bildirir.
B) Bəzi sözlər cümlədəki yerindən asılı olaraq, zərf və əvəzlik kimi işlənə bilir.
C) Zərf cümlədə hərəkətə aid olmaya da bilər.
D) Mürəkkəb zərflər bitişik, defislə və ayrı yazılır.
E) Zərf, adətən, feildən əvvəl işlənir.

46. Verilən tələblərin üçünə də uyğun gələn zərfin işləndiyi cümləni müəyyən edin.
– Quruluşca sadə zərfdir.
– Hərəkətin kəmiyyətini bildirir.
– Cümlədəki yerindən asılı olaraq, digər nitq hissəsi kimi də işlənə bilir.
A) Natəvan məntəqəyə hamıdan sonra gəlib çıxdı.
B) Kəndimizin səhəri də axşamları kimi əsrarəngiz olur.
C) Məclisə xeyli adam gəlmişdi.
D) Çayın üstündən körpü salmaq barədə çox danışmışdılar.
E) Yayda bu ərazidə quraqlıq olur.

47. Zərf haqqında hansı fikir ***səhvdir***?
A) Zərflər həm təsriflənən, həm də təsriflənməyən fellərə aid olur.
B) Kəmiyyət zərfləri "*nə qədər?*", "*neçə?*" suallarına cavab verir.
C) Təsirlik halda işlənən yer zərfləri cümlədə zərflik ola bilmir.
D) *-casına*^{2} zərf düzəldən şəkilçidir.
E) *Səhər, axşam* sözləri həm zərf, həm də isim kimi işlənir.

48. Zərf haqqında hansı fikir doğrudur?
A) Feillərə, bəzən də digər əsas nitq hissələrinə aid ola bilir.
B) Cümlə üzvü kimi təyin ola bilmir.
C) Dilimizdə ayrı yazılan mürəkkəb zərflər işlənmir.
D) İsmə aid heç bir şəkilçini qəbul etmir.
E) Düzəltmə zərflər ancaq zərfin özündən əmələ gəlir.

49. Nöqtələrin yerinə yazıla bilən zərf hansı cümlədə işlənib?



A) Uşaq başına gələnləri həvəslə danışırdı.
B) Əhməd kişi çox çalışqan adamdır.
C) Rüstəm kişi bizə mehribancasına nəzər saldı.
D) Onlar axşamacan işləyirdilər.
E) Bu hadisə çoxdan olmuşdu.

50. Hansı cümlədə iki zərf işlənmişdir?
A) Gün batar-batmaz İlkin tək-tənha çayın sahilinə getdi.
B) Rövşən tələşlə atasının üzünə baxdı və qorxa-qorxa nəsə soruşmaq istədi.
C) Artıq tikintidə daş işləri tamamilə qurtarmışdı.
D) Nurlan indi başa düşdü ki, bu barədə danışmaq tezdir.
E) Qaça-qaça gələn uşaq birdən yerə yıxıldı.

51. Hansı cümlədə iki zərf işlənmişdir?
A) Aygül zümzümə edə-edə otaqları yığışdırır, tez-tez mətbəxə baş çəkirdi.
B) Nihad elə danışırdı ki, sanki tamamilə bu işdən xəbərsizdir.
C) Uşaqlar hərdənbir yaxınlıqdakı meşəyə gedərdilər.
D) Birdən Əsmər cəld ayağa qalxıb tələm-tələsik otaqdan çıxdı.
E) Uzaqdan arabir maşın səsi eşidilirdi.

Camscanner ilə skan edilib

52. Hansı cümlədə iki zərf işlənmişdir?
A) Süsən nənə illərdən bəri saxladığı mücrünü məmnuniyyətlə nəvəsinə cehiz verdi.
B) Şiddətli külək arabir pəncərəni zərblə şaqqıldadırdı.
C) Yağış anbaan güclənir, adamlar qaça-qaça daldalanmağa yer axtarırdılar.
D) Artıq indi Ceyhun rusca yaxşı danışırdı.
E) Sənan gedəndən sonra Abbas oturub xeyli işlədi.

53. Hansı cümlədə iki zərf işlənmişdir?
A) İt birdən hürdüyü üçün uşaq qorxdu və ağlaya-ağlaya anasına tərəf qaçdı.
B) İçəri girəndə hamının nəzərini qapı ilə üzbəüz asılmış şəkil cəlb edirdi.
C) Fəhlələr elə çalışırdılar ki, planı birə-iki yerinə yetirsinlər.
D) Bayaq sakitcə dayanan uşaqlar danışa-danışa içəri keçdilər.
E) Axşamüstü çobanlar sürüləri örüşdən gətirərdilər.

54. Zərf haqqında fikirlərdən biri ***səhvdir***:
A) *Dostcasına, heyrətlə, qəsdən* zərflərində şəkilçi vurğu qəbul etmir.
B) Zərflər cümlədə hərəkətə aid olduğu kimi, digər əsas nitq hissələrinə də aid ola bilir.
C) Zərflər ismi birləşmənin əsas tərəfi kimi çıxış edə bilmir.
D) *Açıq, gözəl, cəld* zərfləri sifət kimi də işlənə bilir.
E) *Gecə, gündüz* zərfləri isim kimi də işlənə bilir.

55. Təsriflənməyən feili izah edən zərf hansı cümlədədir?
A) Yayda Maral Rəhmanzadə Çalbayır dağlarında qonaq olardı.
B) Aslan yavaş-yavaş irəli gedir, arabir geri baxırdı.
C) Savalanın qarı yayda diş göynədərdi.
D) Otağa astaca girdiyi üçün atası oyanmadı.
E) Kəndə gələndə dostları ilə hökmən görüşərdi.

56. Hansı cümlədə zərf işlənmişdir?
A) Onunla dərsdən sonra görüşməliyik.
B) Qoy uzansın gecə, geciksin səhər. (S. Vurğun)
C) Samir gülə-gülə mənə yaxınlaşdı.
D) Az ye, az danış, vermə bir kimsəyə əziyyət. (N. Gəncəvi)
E) Onun maraqlı həyat hekayəsi var.

57. Hansı cümlədə zərf işlənmişdir?
A) İsti olduğundan yata bilmədilər.
B) Ədədləri çoxdan aza doğru düzün.
C) Çox alışıb çox yanmayın. (S. Vurğun)
D) Səhər küləyi üzümüzü oxşayır, bizi məst edirdi.
E) Mərdi qova-qova namərd eləməzlər.

58. Verilən tələblərin üçünə də uyğun gələn zərfin işləndiyi cümləni müəyyən edin.
– Quruluşca sadə zərfdir.
– Hərəkətin icra edildiyi zamanı bildirir.
– Cümlədəki yerindən asılı olaraq, digər nitq hissəsi kimi də işlənə bilir.
A) Aylı-ulduzlu bir gecə idi.
B) Yeni işçini çox tərifləyirdilər.
C) Günorta hava isti idi.
D) Kəndə qayıdandan sonra hamı ilə mehriban rəftar edirdi.
E) Axşam Hafiz babanın yubileyinə gedəcəyik.

59. Hansı cümlələrdə zərf işlənmişdir?
1. Yay vaxtı onlar bu səfalı kəndə gəlib dincəlirdilər.
2. O, sevincək evlərinə doğru yeriyir, asta-asta nəğmə deyirdi.
3. Tarixi doğru-dürüst yazmaq üçün gərək vicdanın səsini dinləyəsən.
4. Böyük dura-dura kiçik danışmaz.
5. Hər tərəf başdan-başa gül-çiçəklə bəzənmişdi.

60. Hansı cümlədə zərf işlənmişdir?
1. Oqtay şairanə danışır, bədii cümlələr işlədirdi.
2. Bağda hava sərin idi.
3. Zeynəb hirslənərək qışqırdı və ayağa qalxdı.
4. Konsertdə orta cərgədəki yerlər boş idi.
5. Biz qəsdən dillənmədik, işin sonunu gözlədik.

61. Hansı cümlələrdə zərf işlənmişdir?
1. Gecə düşdü, ulduzlar sayrışdı.
2. İpək tellərini səhər küləyi oynadırdı.
3. Sabaha mənzilə çatmalıyıq.
4. Axşam yelinə qarışan oynaq bir musiqi onu diksindirdi.
5. Səhərlər kənddə olmağın öz ləzzəti var.

62. *"Ənvər yeməyini tez-tez yeyir, sanki bu saat burnu tərk etmək istəyirdi"* cümləsində işlənmiş zərflə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Zərflərin hamısı zərflik vəzifəsindədir.
2. Ardıcıl olaraq tərzi-hərəkət, zaman və yer zərfləri işlənmişdir.
3. Zərflərdən ikisi quruluşca mürəkkəb, biri sadədir.
4. Yer zərfi təsirlik hal şəkilçisi qəbul edib.
5. Zərflərdən ikisi feilə, biri ismə aiddir.

CamScanner ile skan edilib

63. Zərflə bağlı doğru fikirləri müəyyən edin.
1. Cümlədə feillə bağlı olur və həmişə feilin yanında işlənir.
2. Məsdər, feili sifət, feili bağlamaya da aid ola bilər.
3. Zərf düzəldən *-la*^{2} və *-casına*^{2} şəkilçiləri vurğu qəbul etmir.
4. Cümlə üzvü kimi yalnız zərflik ola bilir.
5. *Axşam, səhər, günorta* sözləri həm isim, həm də zərf kimi işlənə bilər.

64. Zərflə bağlı doğru fikirləri müəyyənləşdirin.
1. Cümlədə feilin təsriflənməyən formalarının heç birinə aid olmur.
2. Əsasən feillə bağlı olsa da, feilin yanında işlənməyə də bilər.
3. Zərf düzəldən şəkilçilər arasında alınma şəkilçilər də var.
4. Mürəkkəb zərflər yalnız *-ba*^{2} bitişdiricisi ilə işləndikdə bitişik yazılır.
5. *İti, cəld, möhkəm* sözləri həm zərf, həm də sifət kimi işlənə bilir.

65. Hansı nümunələrdə işarələnmiş sözlər zərfdir?
1. Bu söz üzə vurulan şillə kimi səsləndi.
2. Üzə-üzə sahilə çatdılar.
3. Bir axşam biz yenə üz-üzə oturmuşduq.
4. Üzbəüz oturub problemləri müzakirə etmək lazımdır.
5. O, şıltaq ləpələrin qoynunda üzərək gözdən itdi.

66. Hansı nümunələrdə işarələnmiş sözlər zərfdir?
1. Ocaqdakı sonuncu kösövlər də *yana-yana* külə döndü.
2. Mən bunları sənə ürəkdən *yanaraq* deyirəm.
3. Bağdakı oturacaqların birində *yanbayan* oturdular.
4. *Yan-yana* addımladıq həyat yolunda.
5. Son tapşırıqlarını verib *yan* otağa keçdi.

67. Zərflə bağlı doğru fikirləri müəyyən edin.
1. Bütün cümlə üzvləri vəzifəsində işlənə bilir.
2. Digər nitq hissələrindən fərqli olaraq, ismin xüsusiyyətini daşıya bilmir.
3. Zaman zərfləri həmişə hərəkətə aid olur.
4. Həm təsriflənən, həm də təsriflənməyən feillərə aid ola bilir.
5. Köməkçi nitq hissələrindən qoşma və ədat ilə omonimlik yarada bilir.
6. Bütün düzəltmə zərflər zərfin özündən yaranır.

68. Hansı cümlələrdə zərf ***işlənməmişdir***?
1. "Koroğlu" xalqımızın tarixi-qəhrəmanlıq eposudur.
2. Leyla anasının yanına qaçaraq sevincək dilləndi.
3. Gözüm görə-görə qocalır anam.
4. Bu xəbəri eşidər-eşitməz kəndə üz tutdu.
5. Arif suallara həvəslə cavab verdi.

69. Hansı cümlədə zərf ***işlənməmişdir***?
1. "Koroğlu" şifahi xalq yaradıcılığının ən dəyərli nümunələrindən biridir.
2. Ata handan-hana başını qaldırıb oğluna baxdı.
3. Əhməd düşünə-düşünə otaqdan çıxdı, bağçaya tərəf qaçdı.
4. Dərzi paltarı tikə-tikə zümzümə edirdi.
5. Əsgərlər düşmənlə məharətlə vuruşurdular.

Buraxılış imtahanlarının modelinə uyğun mətn tapşırıqları (9-illik)

Yanğın

Qatar stansiyada nəfəsini dərib dayandı. **1.** Gündüz vaqondan yerə tullandı. O, əsgər çəkməsinin bağlarını bərkitdi və iri addımlarla yola düzəldi. **2.** Stansiyanın qarşısında həmişə avtobusların dayandığı meydan indi boş idi. Birdən cingiltili gülüş səsləri Gündüzü diksindirdi. Stansiya nəzarətçisindən kəndlərinə gedən avtobusun olub-olmayacağını soruşdu. ▲Növbəti avtobus günortadan sonra olacaqdı.

Göydən od tökülürdü. Gündüz bir kölgəlik tapmaq ümidilə qəsəbənin küçələrini dolaşmağa başladı. **3.** Qırmızı kirəmitli evlərdən birinin qarşısındakı kölgəlikdə bir skamya gözünə dəydi. O, skamyada əyləşdi. Ətrafda səssizlik idi, elə bil hamı istidən qaçıb gizlənmişdi. Gündüzü mürgü tutdu.

4. 12-13 yaşlarında iki qız ucadan gülə-gülə qarşıdakı evin küçə qapısının ağzına qədər gəldi. Qısamüddətli söhbətdən sonra qızlardan biri hörüklərini oynada-oynada küçənin aşağısına doğru getdi. İkinci qız isə çantasından açar çıxardı və qapını açaraq həyətə girdi.

Səslər kəsilən kimi Gündüzü yenidən yuxu apardı. Birdən partlayış səsi onu oturduğu yerdən sıçramağa məcbur etdi. Bayaq qız girən evin pəncərələrindən tüstü çıxırdı. Gündüz bir göz qırpımında ... . Evin qapısı bağlı idi, ancaq şüşələri sınıb tökülmüş pəncərələrin birindən içəri girmək çətin olmadı. **5.** Hər yan od tutub yanır, tüstüdən nəfəs almaq olmurdu. Partlayışın **qaynağı**, deyəsən, mətbəxdəki qaz balonu idi. Gündüz qızı mətbəxin döşəməsində tapdı. Onu qucağına alıb qapıdan çıxdı.

Üz-gözündəki, qollarındakı yanıq yerlərinin ağrısına baxmayaraq, Gündüz xəstəxananın həyətində qaranlıqda var-gəl edirdi. Hər an yanğının pəncəsindən aldığı qızdan xəbər gözləyirdi. Bir azdan həkim çıxdı. O, qızın vəziyyətinin yaxşı olduğunu söylədi. Bayaqdan heç bir müdaxiləyə icazə verməyən Gündüz yalnız bundan sonra razılıq verdi ki, onun da yaralarına baxsınlar. Artıq sanki ağrıları da azalmışdı.

1. Mətndə əvvəlində rəqəm yazılmış hansı cümlələrdə bütün sözlər həqiqi mənada ***işlənməmişdir***?

A) 2, 4 B) 2, 5 C) 1, 3, 4
D) 1, 3, 5 E) 3, 4, 5

2. Mətndəki ▲ işarəsinin yerinə hansı cümlələr əlavə edilsə, məzmun ardıcıllığı pozular?

1. Əvvəlki avtobus yarım saat əvvəl yola düşmüşdü.
2. Bu gün bütün avtobus reysləri ləğv edilmişdi.
3. Nəzarətçi bu haqda heç nə bilmədiyini dedi.
4. Vaxta hələ çox qalmışdı.
5. Günün ikinci yarısı yola düşən avtobus axşamüstü kəndə çatdı.

A) 2, 4 B) 1, 3, 5 C) 1, 3, 4
D) 2, 3, 5 E) 1, 2

3. Mətndə tünd-qara hərflərlə verilmiş sözün mənasına uyğun ifadənin işləndiyi cümləni müəyyən edin.

A) Bu dərədə bir neçə məşhur çeşmə var.
B) Çayın mənsəbi dağın ətəyindəki göldür.
C) Borular bir-birinə metalı əritmə yolu ilə birləşdirilir.
D) Otağın işıq mənbəyi damdakı kiçik baca idi.
E) Qədim əlyazmalarda tarixin sirləri gizlənir.

4. Mətnin məzmunu ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Gündüz ilk dəfə gəldiyi qəsəbənin görməli yerləri ilə maraqlanırdı.
2. Partlayış səsinə gələnlərdən heç kim içəri girməyə cəsarət etmirdi.
3. Gündüz küçə qapısının ağzında söhbət edən qızları tanımırdı.
4. Partlayışın dalğasından kölgəlikdə dincələn Gündüz də yaralanır.
5. Gündüz kəndlərinə yola düşən avtobusa çata bilmir.

A) 3, 4 B) 1, 4 C) 3, 5
D) 1, 2, 3 E) 2, 4, 5

5. Mətnə aid doğru plan bəndlərini müəyyən edin.

1. Gündüzün verdiyi şad xəbər.
2. Sərinlik axtarışında.
3. Əvvəlcədən hiss edilən təhlükə.
4. Partlayışın səbəbi.
5. Xilaskarın narahatlığı.
6. Qızların tərəddüdü.

A) 1, 4, 5 B) 2, 4, 5 C) 1, 2, 5
D) 2, 3, 6 E) 3, 4, 6

6. Mətnin sonuncu abzası, əslində, iki abzasdan ibarətdir. İkinci abzasın başladığı cümlə hansı ifadə ilə başlayır?

A) O B) Bir azdan C) Bayaqdan
D) Hər an E) Artıq

7. Mətnə əsasən klasteri tamamlayan fikirləri müəyyən edin.



1. fədakardır 2. qənaətcildir
3. zəhmlidir 4. rəhmlidir
5. çevikdir

A) 2, 4, 5 B) 1, 3, 5 C) 1, 4, 5
D) 1, 2, 3 E) 2, 3, 4

8. Mətnin giriş hissəsindəki hansı sözlə başlayan cümlə çıxarılaraq əsas hissəyə artırılsa, məzmun ardıcıllığı bərpa olunar?

A) Stansiyanın B) O C) Birdən
D) Gündüz E) Növbəti

CamScanner ile skan edilib

9. Mətndə nöqtələrin yerinə uyğun gələn fikir yazmaqla cümləni tamamlayın.

10. Mətnə əsasən cədvəli doldurun.

Səbəb	*Nəticə*
Gündüz qəsəbənin küçələrini dolaşır.	
	Gündüz həkim müayinəsinə razı olur.

Qamışlıq pişiyi

Mən Qafqaza ekspedisiyaya gedərkən oradan bir neçə nadir heyvan gətirmək barədə rəhbərlikdən ● tapşırıq aldım. Mənim canlı qamışlıq pişiyini ələ keçirmək cəhdim dəfələrlə uğursuzluqla nəticələndi. Gah heyvan tələyə düşmürdü, gah da tutduğum heyvanı salamat saxlamaq mümkün olmurdu. Bir fevral səhəri məni dostlarım – kənd uşaqları yuxudan oyatdı. Onlar bir-birinin sözünü kəsə-kəsə xəbər verdilər ki, qonşumuzun tələsinə vəhşi pişik düşüb.

Mən tələsik özümü ora çatdırdım. Adamlar yığılıb maraqla yerdə uzanmış böyük qamışlıq pişiyinə ▲ tamaşa edirdilər. Yırtıcının pəncəsi tələdə sıxılmışdı. Kimsə ona yaxınlaşmağa cəhd edəndə o dəqiqə ■ tüklərini qabardır, irəli atılmağa hazırlaşırdı. Amma tələnin yerə bərkidilmiş gödək zənciri onu dartıb yerə sərirdi. Onun pəncəsini qıracağından qorxduğum üçün tez gödəkcəmi çıxarıb heyvana tərəf getdim. O, yenə dartınıb yerə sərilərkən fürsətdən istifadə edərək gödəkcəni pişiyin üstünə atdım. Bütün ağırlığımla onun üzərinə yıxıldım. Heyvanı bağladıq. Mən ehtiyatla onun ayağını tələdən çıxardım, yarasına yod sürtüb bağladım. Sonra heyvanı qəfəsə saldıq.

Pişik qəfəsdə özünü qəribə aparırdı: qəfəsin bir küncündə hərəkətsiz vəziyyətdə uzanıb qalır, yeməyə toxunmurdu. Özünü elə aparırdı ki, sanki ətrafdakı insanları görmür. Üç gün beləcə keçdi. Mən onun acından öləcəyindən qorxaraq qəfəsə diri bir toyuq saldım. Toyuq əvvəlcə təhlükəli qəfəs qonşusundan qorxaraq özünü qəfəsin kənarlarına çırpdı, sonra sakitləşdi. Hətta bir az keçəndən sonra onun uzanmış pişiyin belində gəzdiyini gördük.

İki gündən sonra pişik öldü, ölümə məhkum edilmiş və qorxu hissi keçirən toyuq isə sağ-salamat azadlığa çıxdı. Belə bir qənimət əlimizdən çıxdığı üçün çox təəssüfləndik, amma nə etmək olar?! Görünür, azadlığının əlindən alınması ilə **barışmaq** onun üçün çətin oldu.

11. Mətnə əsasən müəyyən edin.

Doğrudur	*Yanlışdır*
1. İlin bir neçə fəslində baş verən hadisələrdən danışılır.	3. Bütün tapşırıqlar uğurlu sonluqla nəticələnir.
2. Qamışlıq pişiyi nadir heyvan hesab edilir.	4. Vəhşi heyvanlar da müəyyən hərəkətlərə reaksiya verə bilir.

A) 3, 4 B) 1, 3 C) 2, 3 D) 2, 4 E) 1, 2

12. Hansı ifadə mətndə üzərində işarə qoyulmuş sözü kontekstə görə əvəz edə *bilməz*?

●→ 1. göstəriş
■→ 2. tullanmağa
■→ 3. qaçmağa
▲→ 4. toxunmuşdu
▲→ 5. bükülmüşdü

A) 1, 4 B) 2, 3 C) 3, 4 D) 1, 5 E) 2, 5

13. Hansı nümunənin tərkibində altından xətt çəkilmiş söz və onun mənası mətndə tünd-qara hərflərlə yazılmış sözlə uyğundur?

A) O da taleyi ilə <u>barışmaq</u> qərarına gəlmişdi – məzaci mənada
B) Körpə uşaqlar tez küsüb tez <u>barışırlar</u> – məzaci mənada
C) Elə dalaş ki, <u>barışmağa</u> yer olsun – həqiqi mənada
D) Münaqişə tərəfləri <u>barışanda</u> söz-söhbət olmur – həqiqi mənada
E) Bayram vaxtı küsənlər də <u>barışırlar</u> – həqiqi mənada

14. Nöqtələrin yerinə hansı ifadə əlavə olunsa, mətnin məzmununa tam uyğun fikir alınar?

..... öz hərəkətləri ilə "Heyvana da mərhəmət göstərərlər" deyiminin doğruluğunu təsdiq edir.

A) Pişik B) Hadisəni danışan C) Qonşu
D) Uşaqlar E) Rəhbərlik

15. Mətnin həm əsas, həm də nəticə hissəsinə aiddir:

A) mehribanlıq B) qorxu C) aclıq
D) nikbinlik E) cəsarət

16. Mətndə kursivlə yazılmış hissə iki abzasdan ibarətdir. İkinci abzasın ilk sözünü yazmaqla həmin abzasların sərhədini müəyyən edin.

A) Hətta B) Özünü C) Toyuq D) Üç E) Mən

17. Mətnin nəticə hissəsini davam etdirə bilən cümləni müəyyən edin.

A) Yəqin, ona görə də buna dözə bilmədi.
B) Azadlıq üçün yaş ən vacib şərtlərdəndir.
C) Yaşlılar mübarizə aparmağı bacarmırlar.
D) Görünür, o, toyuqla bir qəfəsdə yaşamağa hazır deyildi.
E) Azadlıq vəhşi heyvanların həyatının mənasını təşkil edir.

18. Mətnə əsasən Eyler-Venn diaqramındakı uyğun fikirləri müəyyən edin.



1. Daha tədbirli hərəkət edir.
2. Ümidsizdir.
3. Çalışqandırlar.
4. Məsuliyyətlidir.
5. Yaxşılıq etməyə çalışır.

A) 2, 3 B) 1, 4 C) 2, 5 D) 3, 4 E) 1, 5

19. Mətnə əsasən müəyyən edin və əsaslandırın.
"Azadlığının məhdudlaşdırılmasına yalnız insan dözmür" (✓)

☐ Doğrudur
☐ Yanlışdır
Çünki

20. Mətnin sonuncu cümləsində yanaşı işlənən hansı sözlər birlikdə məcazi məna ifadə edir? Həmin sözləri müəyyən edib yazın.

Cəfər kişi

I Gecəyarı kəndə hay düşdü ki, Cəfər kişinin tövləsi *yanır*[1]. Böyüklərin dediyinə görə, Cəfər kişi ağacdan və palçıqdan olan tövləni sonradan *yurd saldığı*[2] bu kənddə öz əlləri ilə tikmişdi.

II Kənd ayağa qalxmış, Cəfər kişinin həyətinə qaçmış, hərə bir tərəfdən köməkləşərək yanğını söndürməyə çalışmışdı. ▲ Kimi quyudan su çəkir, kimi vedrə götürüb köməyə qaçır, kimi su daşıyır, kimi də yaba ilə otları kənara itələyib alovdan qurtarmağa çalışırdı. ● İstilər vaxtından tez *düşdüyündən*[3] bu səhər Cəfər kişinin oğlu heyvanları qabağına qatıb yaylağa yollanmışdı.

III O, aclığın, yoxluğun və itkinin nə olduğunu hər kəsdən daha çox bilirdi. ■ Daha *böyük*[4] ağrıları hiss eləmişdi. İki müharibə görmüşdü. Bunlardan biri onun uşaqlıq çağlarına düşsə də, ikincidə – Qarabağ müharibəsində yaşı *keçməsinə*[5] baxmayaraq, özü iştirak etmiş, vətənin müdafiəsi üçün ön cəbhədə vuruşmuşdu.

IV Cəfər kişi əlləri qoynunda sakitcə dayanmış, olanları kənardan seyr edirdi. Hətta elə bil yanğının alovunda qızınır, havanın soyuqluğunu hiss etmirdi.

V Nəhayət, müharibə bitmiş, ...

VI Cəfər kişi tez-tez örüşə çıxıb biz uşaqlarla birgə mal-qara otarardı. Hərdən sakitlik olanda bir ağac kölgəsi tapıb bizimlə birgə oturar, həm o dövrün çətinliklərindən, həm də özünün və yoldaşlarının həyat yolunda göstərdiyi rəşadətdən danışardı. Yaşadıqlarını onun qədər **orijinal** şəkildə anlada bilən çox az adam vardı. Biz uşaqlara həmin dövrlər bir daha təkrarlanmayacaq sirli bir hekayə kimi gələrdi.

VII İndi bütün bu məhrumiyyətləri görmüş Cəfər kişi üçün kiçik tövləsinin yanması adi hadisə idi. Çox demiş, yoxluğun, aclığın və itkinliyin ən böyüyü vətəndir və ən böyük itki sevdiklərinin olduğu məkan itirməkdir.

21. Üzərində rəqəm qoyulmuş sözlərdən biri məcazilik və ya həqiqilik baxımından digərlərindən fərqlənir.
A) 1 B) 2 C) 3 D) 4 E) 5

22. Mətndəki hansı hadisələri təsadüf hesab etmək olar?
A) Cəfər kişinin təmkinli davranması
B) Kəndlilərin tövləni söndürməyə çalışması
C) Mal-qaranın ziyan çəkməməsi
D) Cəfər kişinin odlu-alovlu müharibə yollarından keçməsi
E) Tövlənin çox köhnə olması

23. Mətndə tünd-qara hərflərlə verilmiş sözü əvəz edə bilər:
1. özünəməxsus 2. qeyri-adi 3. təvazökar
4. bəsit 5. təəccüblü
A) 2, 5 B) 1, 4 C) 3, 4 D) 1, 2 E) 3, 5

24. *"Cəfər kişinin vətən sevgisi danılmazdır"* fikrini mətnin hansı abzasları ilə əsaslandırmaq olar?
A) II, IV, VII B) I, IV, VI C) III, VII
D) III, V, VI E) I, II

25. Mətndə nöqtələrin yerinə artırıla bilən ən uyğun nümunəni müəyyən edin.
A) özü ilə bütün ümidləri və arzuları aparmışdı.
B) Cəfər kişi də öz elinə-obasına qayıtmışdı.
C) insanlar yağışdan çıxıb yağmura düşmüşdü.
D) Cəfər kişi bütün olanları unutmuşdu.
E) insanların qayğıları çoxalmışdı.

26. Mətndə çərçivədə verilmiş sözün mənasını müəyyən edin.
1. igidlik 2. qabiliyyət 3. şücaət
4. mətinlik 5. dəyanət
A) 2, 5 B) 2, 4 C) 3, 5 D) 1, 4 E) 1, 3

27. Mətnin neçənci abzası III abzasdan əvvələ keçirilsə, tərkib hissələr arasında əlaqə bərpa olunar?
A) VII B) I C) V D) IV E) VI

28. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Səbəb	*Nəticə*
Cəfər kişinin oğlu heyvanları dağa aparmışdı.	1. Cəfər kişinin tövləsi yanmışdı. 2. Daha böyük itki baş verməmişdi.
3. İki müharibə görmüşdü. 4. Daha böyük ağrıların, itkilərin şahidi olmuşdu. 5. Yaşadıqlarını onun qədər orijinal şəkildə anlada bilən çox az adam vardı.	Cəfər kişi təmkinli, dözümlü idi. Hər şeyi sakit qarşılaya bilirdi.

A) 1, 3, 4 B) 1, 2, 5 C) 2, 3, 4
D) 2, 3, 5 E) 1, 4, 5

CamScanner ile skan edilib

29. *Elə dayaq olanı el darda qoymaz* atalar sözünü mətnin məzmunu ilə əlaqələndirib fikrinizi yazın.

30. Mətndə altından xətt çəkilmiş cümlədəki fərziyyənin ***yanlış*** olduğunu əvvəlində işarə qoyulmuş hansı cümlədəki fikirlə təsdiqləmək olar? Sxem əsasında müəyyən edib seçiminizi əsaslandırın. (✓)

▲ ☐
● ☐
■ ☐

Xilas edilməli həyat

I Uşaqlıqdan su hövzələrinə qarşı qorxum vardı. Atam tez-tez mənə deyirdi:

– Bir oğlan üçün üzməyi öyrənmək çox vacibdir.

II O məni özü ilə tez-tez çimərliyə, hovuza aparsa da, üzməyi əməlli-başlı öyrənə bilməmişdim. *Əngin*[1] dənizin sahilinə gəldimmi, dalğalar sanki məni xəyal aləminə çəkib aparar, hər kəs deyib-gülüb əylənərkən mən oturduğum yerdə qalar, bir də geri qayıtmaq zamanı çatanda özümə gələrdim. Düşünürdüm ki, heç bir qüvvə məni vahiməyə salan o müdhiş sulara girməyə məcbur edə bilməz.

III Ancaq bir gün ... . Tələbə dostlarımla gəzintiyə getdiyim park çayın *ağzında*[2] yerləşirdi. Burada insanlar həm istirahət edir, həm də çayın sahilindəki *kiçik*[3] çimərlikdə çimib sərinlənirdilər. Mən isə təkcə oturub düşüncələrə dalmışdım. Birdən başımı qaldıranda kiçik bir uşağın suda *çapaladığını*[4] gördüm. Burada məndən başqa biri yox idi, hətta xilasedici avadanlıqlar da gözə *dəymirdi*[5] və elə bu an ona kömək edən olmasa, iş-işdən keçəcəkdi.

IV Çayın dərinliyindən xəbərim yox idi və üzməyi də, demək olar ki, bacarmırdım. Suyun qorxunc *görüntüsü*[6] gözlərimi qaraldırdı. Bir az da yaxınlaşıb uşağın olduğu yerə baxanda gözlərim böyüdü. Onun körpə qolları nahaq yerə suyun üzərində özünə dayaq axtarmağa çalışırdı. Bu an duydum ki, ömür boyu özümü bağışlamayacağım bir şey ola bilər və nə olur-olsun, hətta onu və özümü xilas edə bilməsəm belə, suya atılmalıyam. Belə də etdim və nəhayət, ona **çatdım**. Onunla suda nə qədər çapaladığımızı, sonra necə xilas olduğumuzu xatırlamıram. Bir o yadımdadır ki, başımıza gələnləri heç kim görməmişdi və ikimiz də sahildəki qumların üstündə taqətsiz uzanıb səmaya baxırdıq.

V Bir neçə dəqiqə keçdi. O, kövrək səslə mənə dedi:

– Çox sağ olun ki, həyatımı xilas etdiniz. Siz özünüz də yaxşı üzə bilmirdiniz.

Mənsə ürəkli bir şəkildə:

– Hər şey qaydasındadır, balaca, narahat olma. Sənin həyatından qiymətli heç nə yoxdur.

31. Mətndə üzərində rəqəm yazılmış hansı sözlər məcazi mənada işlənmişdir?

A) 1, 2 B) 2, 5 C) 3, 4, 6
D) 1, 3, 6 E) 4, 5

32. Mətnə əsasən cədvəldəki düzgün fikirləri müəyyən edin.

	Səbəb	*Nəticə*
1.	Uşağın onu köməyə çağırmasından təsirləndi.	Oğlan çaya atıldı.
2.	Çayın dərin olub-olmadığı məlum deyildi.	
3.	Qorxusuna qalib gəlməyi bacardı.	
4.	Uşağı xilas etmək vacib idi.	
5.	Mütəmadi olaraq üzməyi öyrənməyə gedirdi.	

A) 1, 2 B) 2, 5 C) 3, 5 D) 1, 4 E) 3, 4

33. Mətndə tünd-qara hərflərlə verilmiş sözün mətndəki mənasını müəyyən edin.

A) nəzərdə tutulan yerə yetişmək
B) bir şeyin zamanı gəlmək C) başa düşmək
D) tay ola bilmək E) kifayət etmək

34. Mətnə aid hansı plan bəndləri doğrudur?

1. Uşağın valideynlərinin təlaşı.
2. Tövsiyə. 3. Oğlanın biganəliyi.
4. Nasaz avadanlıqlar. 5. Dəyərli həyat.

A) 4, 5 B) 1, 2 C) 3, 4 D) 1, 3 E) 2, 5

35. Mətnə əsasən klasterdəki ***yanlış*** fikirləri müəyyən edin.

Oğlan	1. təhlükəli vəziyyətlə üzləşir.
	2. həssaslıq göstərir.
	3. çayda çimməkdən zövq alır.
	4. etdiyi işə görə peşman olur.
	5. dostlarla söhbətdən ilham alır.

A) 2, 3, 5 B) 2, 4 C) 3, 4, 5
D) 1, 4 E) 1, 3, 5

36. *"Həyatda elə vəziyyətə düşə bilərsən ki, məhz bu bacarıq sənə gərək olar"* cümləsi ilə mətnin neçənci abzasını genişləndirmək olar?

A) V B) II C) III D) IV E) I

37. Mətndə hansı hadisələr təsadüfi baş vermişdir?

A) Oğlanın uşağın boğulmağını görməsi.
B) Tələbə dostlarla gəzinti.
C) Atanın oğluna məsləhəti.
D) Parkın çayın yanında yerləşməsi.
E) Oğlanın suya atılmağı.

38. Mətndə nöqtələrin yerinə hansı fikir əlavə olunsa, məzmun ardıcıllığı ***pozulmaz***?

A) üzməyi öyrənməyə cəhd etdim
B) olanlar məni səbirsizləndirdi
C) bu hadisə məni təşvişə saldı
D) həyatımı dəyişən bir hadisə oldu
E) yenə çay kənarında gəzirdik

39. Mətnə əsasən cədvəlin birinci hissəsindəki fikri əsaslandıran faktlar yazın.

Fikir	*Faktlar*
Çimərlikdə təhlükəsizlik tədbirlərinin səviyyəsi aşağı idi.	1. 2.

40. *"İnsanın nəyə qadir olduğu ekstremal hallarda ortaya çıxır"* fikrini mətndəki uyğun obrazla əlaqələndirib fikrinizi yazın.

Qızılgül qönçəsi

Müəllim işlədiyim kənd məktəbində qonşuluqda yaşayan bir qoca bağban – Əmir baba hər bazar ertəsi öz bağından bir qızılgül qönçəsi *kəsib*[1] mənə verirdi. Özü təhsil almasa belə, bu nurani qoca elmin, təhsilin *qiymətini*[2] yaxşı anlayırdı. Hər qarşılaşanda xeyir-duasını da əskik etməzdi. Doğma şəhərimdən bu ucqar dağ kəndinə gəlib hansı çətinliklərlə qarşılaşdığımı, şagirdlərin dərsdən yayınmaması üçün etdiyim cəhdləri, necə həsrət *çəkdiyimi*[3] və hər şeyə rəğmən buranı tərk edib getmək istəmədiyimi bilirdi. Tədris etdiyim fizika fənninə böyük həvəs göstərən bu uşaqların ümidlərini *qıra*[4] bilməzdim. Əmir baba hər dəfə gülü *verib*[5] elə təşəkkür edirdi ki, sanki bu kənddə gördüyüm işi, yəni uşaqlara verdiyim təhsil (I)*müqabilində* hər xahişimi yerinə yetirməyə hazır idi. Amma indi əlindən gələn yalnız bu idi – bir qönçə hədiyyə etmək və ürək dolusu ..... .

Heç vaxt övladı olmayan və tək-tənha yaşayan bu kişi necə bütün kənd uşaqlarına (II)*riqqət göstərirdi*, necə bu qədər dərin düşünə bilirdi, anlamırdım. Axı uzaqda deyil, ətrafında oğullu-uşaqlı ailə başçılarının çoxu övladını məktəbdən yayındırır, hətta qız uşaqlarına müəyyən yaş həddindən sonra məktəbə getməyi belə qadağan edirdi.

Əmir baba isə belə hallarda təəssüflə başını yırğalayırdı: "Elmdən heç kimə ziyan gəlməyib, bala", – deyir, nəsihətləri ilə valideynlərə təsir etməyə çalışırdı. Bilirdim, Əmir babanın əlində olsa idi, bu uşaqlara valideynlərinin verə bilmədikləri xoşbəxtliyi verərdi. Onları balaca daxmalara həbs etməz, günəşi, səmanı, bağındakı bütün gülləri və azadlığı bəxş edərdi. Hələlik isə bu uşaqların taleyi Əmir babanın əlində deyildi. Onların taleyi az-çox mənim əlimdə idi. Buna görə də Əmir babanın edəcəyi ən böyük yaxşılıq hər bazar ertəsi mənə böyük (III)*etimad göstərdiyini* bildirmək idi.

41. Mətndəki əsas fikri ifadə edir:
A) İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır. (M.S. Ordubadi)
B) Böyük insanlar yarımçıq iş görmürlər. (X.M. Viland)
C) Elmin və təhsilin dəyərini bilən insanlar ətrafındakıları nicata çatdıra bilərlər. (H. B.Vəli)
D) İnsanlar təhsil üçün yox, təhsil insanlar üçündür və o, insanların konkret ehtiyaclarına uyğunlaşdırılmalıdır. (Əbu Turxan)
E) Bütün elmlərin açarı sual işarəsidir. (O. Balzak)

42. Mətndə üzərində rəqəm yazılmış hansı sözlər məcazi mənada işlənib?
A) 1, 3, 4 B) 1, 2 C) 1, 5 D) 2, 4, 5 E) 2, 3, 4

43. Mətndə əvvəlində Roma rəqəmi yazılmış ifadələrin şərhi əsasında uyğunluğu müəyyən edin.
I
II
III
a. *Nəvaziş etmək* mənasındadır.
b. *Əvəzində* anlamındadır.
c. *Qarşı tərəf* deməkdir.
d. *İnanmaq* deməkdir.
e. *Arzusunda olmaq* mənasındadır.
A) I – a, c; II – d; III – b, e
B) I – c, e; II – a, b; III – d
C) I – b; II – a; III – d
D) I – b, d; II – c; III – a
E) I – b; II – e; III – a

44. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Mətndəki problem	*Problemin həlli*
Uşaqların təhsildən yayındırılması.	1. Qız uşaqlarına məktəbə getməyin qadağan edilməməsi. 2. Əmir babanın bağında qızılgül yetişdirməsi. 3. Əmir babanın valideynləri fikrindən daşındırmağa çalışması. 4. Valideynlərin qadağalarının aradan qaldırılması. 5. Müəllimin şagirdlərin dərsdən yayınmaması üçün cəhd etməsi.

A) 1, 4 B) 1, 2 C) 3, 5 D) 2, 5 E) 3, 4

45. Mətndə çərçivə daxilində verilmiş ifadənin kontekstə görə qarşılığı hansı cümlədə işlənmişdir?
A) Mənə *verilən* bu həyata görə həmişə şükür edirəm.
B) Müəllimə xoş arzularımızdan *bəhs etdik*.
C) Mən bu paltarı ona *yaraşdırırdım*.
D) Hər gün dərsə gedəndə anam bizi *tərifləyər*, gözəl sözlər söyləyərdi.
E) Nəsihət *dinləmək* insanı doğru yola yönəldər.

46. Mətnin giriş hissəsinə aid planın bəndinə aid edilə bilər:
A) Qız uşaqlarına münasibət. B) Peşmanlıq hissi.
C) Çətinliklərə qarşı dəyanət. D) Valideyn səhvi.
E) Müəllimin cavablandırmadığı suallar.

47. Mətndə nöqtələrin yerinə hansı ifadəni artırmaq mümkündür?
A) minnətdarlığını bildirmək B) özünü öymək
C) təəssüfünü bildirmək D) göstəriş vermək
E) şikayət etmək

CamScanner ile skan edilib

48. Mətndə müəllimin qarşısına çıxan çətinliklərdir:
1. öz evindən uzaqda yaşaması
2. tədris etdiyi fənnin çətin qavranılması
3. valideynlərin öz övladlarının təhsilinə münasibəti
4. tənha qocaya yardım edə bilməməsi

A) 1, 2 B) 2, 3 C) 1, 4 D) 1, 3 E) 3, 4

49. Mətnə əsasən hər hissəyə ən azı bir fikir yazmaqla Eyler-Venn diaqramını doldurun.



50. *"Hər bir vətəndaşın təhsil almaq hüququ vardır"* faktı kənddəki valideynlərin hərəkətləri ilə ziddiyyət təşkil edir. Bu faktla ziddiyyət yaradan fikrin ifadə olunduğu cümləni mətndən müəyyən edib yazın və seçiminizi əsaslandırın.

Təqaüd

◆*Zöhrab diqqətlə dostuna baxırdı. Hələ nurludur gözləri, hələ gümrahdır səsi. Muxtar mədənlərdə işləyəndə də, böyük vəzifələrdə olanda da təşəxxüsdən uzaq olmuş, hər kəslə təvazökarcasına davranmışdı. O heç vaxt jurnalist dostu Zöhrabın suallarını cavabsız qoymamışdı. Jurnalistlər kütləyə təsir etmək, onları maarifləndirmək gücünə malikdirlər. İndi təqaüdə çıxmış dostunun evinə gələn Zöhrab adəti üzrə sual verməkdən özünü saxlaya bilmədi:*

– Muxtar, qocalığa təslim olub[1] təqaüdə çıxdın?

– Səncə, yataqdan qalxa bilməyəndə istirahətə çıxarlar? Onda daha nə istirahət oldu bu?

■ *Muxtar yoxsul[2] ailədə doğulmuş, kasıblığın hər üzünü görmüşdü. Uşaqlıqdan mədənlərdə işləmiş, lakin təhsilini də yarımçıq qoymamış, pillə-pillə irəliləmişdi. Bir zamanlar onun adı bütün ölkədə dillərdə gəzirdi. Ən çətin sahələrə onu göndərmişdilər, o da bütün gücü ilə işləmiş, bir çox yeni təşəbbüslərin müəllifi olmuşdu.*

– Hələ xeyli vaxt işləyə bilərdin, – Zöhrab dedi.

– Yerimizi cavanlar gözləyirlər, – Muxtar cavab verdi və bir anlığa düşündü ki, bu fikir nə qədər doğru olsa da, işdən getməsi üçün başqa amillərin də rolu olmuşdur. – Ay Zöhrab, ay mənim qəzetçi dostum, beynin də yorulan vaxtı olur, adamın hər eyhamdan inciyən vaxtı da çatır, nadanlar əlindən baş götürüb qaçmaq istəyi də olur.

Muxtar Zöhrabın susduğunu görüb davam elədi:

✚ *– Bəlkə mən hissiyyata qapılıram. Mənim bir direktorum vardı, çox alicənab insan idi. Ürəyə dəyməklə, şəxsiyyətə toxunmaqla insan ləyaqətini alçaltmazdı. Onunla işləyəndə adamın ruhu incimirdi. Onu böyütdülər, yerinə başqası gəldi. Gülə-gülə ..... . Dili bir an dinc durmadı: "Xoşu gəlməyən getsin", "Siz kimsiniz, mənə yol göstərirsiniz?" Dostum, dünyagörmüş adamsan, belələrinə nə etmək olar?*

Zöhrab söhbətin mövzusunu dəyişdi:

● *– Evdə darıxmırsan ki?*

– Qətiyyən.

– Yanına gəlib-gedən olur?

– Lap əvvəlki kimi. Sağ olsun yoldaşlar, unutmurlar.

▲ *Bu vaxt qapı açıldı. Otaq şən səslərlə doldu. Uşaqlar özlərini babalarının üstünə atdılar. Bayaqdan Muxtarın üzündə dolaşan həyəcan, yorğunluq əlamətləri bir an içində əriyib[3] getdi.*

51. Mətnə əsasən Muxtar obrazı ilə bağlı doğru fikirləri müəyyən edin.
1. Məsuliyyətli mütəxəssis olmuşdur.
2. Ədalətsizcəsinə işdən çıxarıldığına görə işlədiyi müəssisədən incikdir.
3. Təqaüdə çıxdığı üçün sevinc hissi keçirir.
4. İnsanlarla münasibətdə nəcib xüsusiyyətləri ilə seçilir.
5. Öz bacarığı sayəsində yüksək mövqeyə çata bilmişdir.

A) 1, 4, 5 B) 2, 3 C) 1, 3, 5
D) 1, 3, 4 E) 2, 4

52. Mətndə nöqtələrin yerinə hansı fikirlər yazılsa, məzmun ardıcıllığı ***pozulmaz***?
1. kollektivin rəğbətini qazandı
2. ürəklərə dağ çəkdi
3. nə qədər adamın çörəyinə bais oldu
4. çox evlər yıxdı
5. işçilərin qəlbinə yol tapdı

A) 1, 3, 5 B) 1, 3, 4 C) 2, 3, 4
D) 1, 2, 5 E) 2, 4, 5

53. Mətndə çərçivəyə alınmış ifadənin mənasına uyğun sözün işləndiyi cümlələri müəyyən edin.
1. Təbiətindəki lovğalıq Poladı insanlardan uzaqlaşdırırdı.
2. Bu açıq rişxəndi başa düşmək çətin deyildi.
3. Hər şeyə yuxarıdan baxan gözlərində təkəbbür vardı.
4. Sadəlik insan təbiətindəki ən gözəl cəhətlərdəndir.
5. Etibarsızlığı onu hamıya düşmən etmişdi.

A) 2, 4 B) 2, 3 C) 1, 5 D) 4, 5 E) 1, 3

54. Mətnə əsasən ***yanlış*** fikri müəyyən edin.
A) Zöhrab və Muxtar eyni redaksiyada işləyirdilər.
B) Muxtarın müxtəlif vəzifələrdə işləməyi onun insani münasibətlərinə təsir etməmişdi.
C) Muxtarın yoldaşları ilə əlaqəsi davam edirdi.
D) Zöhrab dostunun hələ də işini davam etdirmək gücündə olduğunu düşünürdü.
E) Muxtar xəstə olsa da, dost-tanışlarından uzaq düşməmişdi.

55. Mətnə əsasən hansı fikirlər verilmiş problemlərdən heç birinin həlli yolu sayıla ***bilməz***?

- təqaüdə çıxmış adamın tənha qalmağı
- idarəetmənin təkəbbürlü adama tapşırılması
- maddi çətinliklər

1. bəd əməllərin mətbuat vasitəsilə ifşa edilməsi
2. məqsədyönlü fəaliyyət göstərmək
3. ailə və dostların dəstəyi
4. aldığı təhsili davam etdirmək
5. ədalətsizliklə mübarizə aparmaq

A) 1, 4 B) 2, 3 C) 2, 5 D) 1, 5 E) 3, 4

56. Mətndə altından xətt çəkilmiş sözün kontekstə görə şərhinə uyğundur:

1. şişirtmək
2. tərbiyə etmək
3. karyerada yüksəlmək
4. ərazicə geniş olan müəssisədə işləməyə getmək
5. işdən azad edib başqa müəssisəyə göndərmək
6. bir neçə pillə yuxarı vəzifəyə təyin etmək

A) 2, 4, 6 B) 3, 6 C) 1, 3, 5
D) 1, 2, 4 E) 5, 6

57. Mətndə hansı suala cavab tapmaq mümkündür?

A) Muxtarın inciklik səbəbi nə idi?
B) Muxtar işi ilə bağlı hansı ideyaların müəllifidir?
C) Zöhrab niyə Muxtarın onun yerinə keçməsini istəyirdi?
D) Muxtar niyə ailəsi ilə birgə yaşamırdı?
E) Zöhrabın dostu ilə birgə hansı planları vardı?

58. Mətnin birinci abzasında hansı sözlə başlayan cümlə mətnin məzmununa uyğun ***deyil***?

A) İndi B) Muxtar C) O
D) Hələ E) Jurnalistlər

59. Mətndə əvvəlində hansı işarə qoyularaq fərqləndirilmiş hissədə insanların xarakterləri arasında kəskin ziddiyyət ifadə olunur? Fikrinizi əsaslandırın.

60. Mətndə üzərində rəqəm yazılmış sözlər əsasında cədvəli doldurun.

Söz	***Həqiqi mənadadır***	***Məcazi mənadadır***	***Cümlədə (həqiqidirsə, məcazi; məcazidirsə, həqiqi) başqa mənada işlədilməsi***
1.			
2.			
3.			

Sona xanım

Çoxdan bəri qapıda dayanıb oğlunun yolunu intizarla gözləyən Xatun Mehmanı evə buraxdı. Mehman attestatını çıxarıb anasına verdi. ♦ Xatun attestatı alıb öpdü və əllərini göyə qaldırıb:

– Min şükür. [ ] ● Rəngindən bilirəm ki, qiymətlərin hamısı yüksəkdir, – deyərək Mehmanın boynuna sarıldı.

[ ] Xatun oğlunun məktəbi bitirməyi şərəfinə axşam plov bişirdi, Mehmanın yaxın yoldaşlarını evlərinə dəvət etdi. [ ] Onlar yedikcə Xatun dayanıb baxırdı:

– Evimizin vəziyyəti yaxşı olsa idi, Sona xanımı da **çağırardıq**, – deyə Xatun balaca evinə ..... .

– Evimizi yaxşı-yaxşı qurandan sonra məlakqəlbli müəllimimi mütləq çağırarıq! – deyə Mehman müəlliminə tükənməz ehtiram hissi ilə cavab verdi.

– Bəli, bizim Sona xanım şəfqətli bir anadır, – deyə Mehmanın yaxın yoldaşlarından olan Salman dilləndi. – ▲ O, ömrünün mənasını səadət toxumu *səpməkdə*[1] görür!

– Bəli, doğrudur, – deyə Məsum da dilləndi. – Sona xanım saçlarını saysız-hesabsız şagirdlərinin yolunda ağardıb. ■ Onun alicənab ürəyi bütün məktəbi qızdırar!

– ✚ Elədir, çox lütfkar bir insandır. Səmimi dostluq olmadan heç bir ünsiyyətdən söhbət gedə bilməz, – deyə söhbətə Cəmil də qatıldı.

Məclisin axırına qədər Sona xanımın adı ehtiramla çəkildi.

[ ] Ana-bala tək qaldılar.

I Xatun bayaqkı söhbətin *güclü*[2] təsiri altında davam etdi. – Sən ali məktəbi bitirəndən sonra müəllimini də çağırarıq, lap körpə vaxtından o mənə toxtaqlıq verərdi. "Qorxma, Xatun, – deyərdi, – Mehman səni öz gözlərinin üstündə saxlayacaq, bütün ağrı-acıların çıxacaqdır!" Mən başımı əyərdim, o hey danışardı.

II – Baxardım ki, Sona xanım həm də məndən ötrü sənin qayğına çox qalır. Bilirdi ki, bizim bir-birimizdən başqa heç kimimiz yoxdur.

Xatun bir an fikrə gedib birdən döndü:

III – Məktəbdən çıxanda müəllim sənə nə söylədi? O səni sözsüz buraxmaz.

IV – Müəllim mənə dedi ki, oğlum, daima öz ürəyini, vicdanını *təmiz*[3] saxla, heç bir zaman onu ləkələmə!

Xatunun gözləri doldu:

V – Mən mətləbi başa düşdüm, oğlum, mən də elə belə deyirəm! Təmiz ad, təmiz vicdan bu dünyada qızıldan da, ləl-cəvahiratdan da qiymətlidir!

61. Mətndəki hansı obrazın nitqində mətnin məzmununa uyğun ***olmayan*** cümlə işlənmişdir?

A) Məsum B) Xatun C) Cəmil
D) Salman E) Mehman

Camscanner ilə skan edilib

2. Mətndəki əsas fikrin müəyyənləşdirilməsində mühüm məqam hesab edilə bilər:
1. Ana-balanın evləri haqqında düşüncələri.
2. Sona xanımın Mehmana tövsiyəsi.
3. Xatunun oğlunun uğurunu onun dostları ilə qeyd etmək niyyəti.
4. Şagirdlərinin Sona xanım haqqında düşüncələri.
5. Xatunun intizarı.

A) 1, 4 B) 1, 2, 3 C) 4, 5
D) 1, 3, 5 E) 2, 4

3. Verilmiş fikirlər mətndəki boş çərçivələrin yerinə hansı ardıcıllıqla əlavə edilsə, mətnin tərkib hissələri arasında əlaqə ***pozulmaz***?
1. Xatun bu günün xəyalını illərlə qurmuşdu.
2. On bir il addım-addım ötüb qurtardı.
3. Çay da içiləndən sonra hər kəs öz evinə dağıldı.
4. Gənclər hamısı öz uğurlarından qürurlu və sevincli idilər.

A) 4, 1, 2, 3 B) 1, 3, 2, 4 C) 2, 1, 4, 3
D) 2, 4, 1, 3 E) 1, 2, 4, 3

4. Mətndə əvvəlində işarə qoyulmuş hansı cümlələr əsasında müəllimin xarakterini müəyyənləşdirmək mümkündür?

A) ◆■ B) ▲■✚ C) ▲✚●
D) ◆✚● E) ■●

5. Mətn əsasında müəyyənləşdirmək mümkündür:
1. ailənin maddi vəziyyətini
2. Mehmanın atasız böyüməsinin səbəbini
3. valideynin müəllimə olan münasibətini
4. Mehmanın sənət seçimini
5. müəllimin şagird haqqında məlumatlılığını

A) 1, 3, 5 B) 1, 3, 4 C) 2, 3, 5
D) 1, 2, 4 E) 2, 4, 5

6. Mətndə əvvəlində Roma rəqəmi yazılmış hansı hissələr birləşdirilsə, dialoq arasındakı ardıcıllıq gözlənər?

A) IV və V B) II və III C) II və IV
D) I və II E) I və V

7. Mətndə nöqtələrin yerinə uyğun ***olmayan*** ifadəni müəyyən edin.

A) göz gəzdirdi B) nəzarət etdi
C) diqqət yetirdi D) baxışını zillədi
E) nəzər saldı

8. Mətndə tünd-qara hərflərlə verilmiş söz hansı cümlələrdə mətndəki mənasında işlənmişdir?
1. Kimsə adımı çəkib məni alçaq səslə *çağırırdı*.
2. Atlı qapı-qapı gəzib adamları toya *çağırırdı*.
3. Mərkəzdən qayıdan kimi təcili iclas *çağırmışdı*.
4. Aşıq gördüyünü *çağırar*.
5. Pəncərədən gördüyümüz qadın bizi içəri *çağırdı*.

A) 2, 5 B) 1, 2, 3 C) 4, 5
D) 1, 3, 5 E) 1, 4

69. Mətndə üzərində rəqəm yazılmış sözlər əsasında cədvəli doldurun.

Söz	*Həqiqi mənadadır*	*Məcazi mənadadır*	*Mətndəkindən fərqli mənada (həqiqi mənadadırsa, məcazi; məcazi mənadadırsa, həqiqi) işlədildiyi cümlə*
1.			
2.			
3.			

70. *"Müəllim elə bir memar, elə bir mühəndisdir ki, insanların düşüncələrini formalaşdırır"* aforizmini mətnlə əlaqələndirib fikrinizi ən azı iki cümlə ifadə edib yazın.

Gül dəstəsi

I Mirzə Cəlil iş otağında oturub "Molla Nəsrəddin" üçün yeni məqalə yazırdı ki, poçtalyon gəlib ona məktub verdi. Məktubda yazılmışdı: "24-cü nömrədəki azğın sözlərinə görə deyirəm sənə, lağlağı eləmə, əgər sən yenə elə sözlər yazsan, alıb bir köhnə mauzer, Qasım kəndində minib faytona, gəlib iki güllə ataram sənə".

II Saysız-hesabsız hədələrə alışmış Mirzə Cəlil acı-acı gülümsünüb öz-özünə dedi: "Gör məni nə ilə qorxudurlar?" Son məqalələri ilə də bədxah ruhaniləri və qoçuları hiddətləndirəcəyini bilirdi. Bu məqalələr həm Azərbaycan, həm də bütün Şərq qadınlarının azadlığına həsr edilmişdi.

III Məktubda yazılan sözlər yazıçıda yeni qüvvə oyatdı, coşqun yaradıcılıq eşqilə məqaləsini yazıb qurtardı.

IV O, küçəyə baxan pəncərəni açıb ətrafa nəzər saldı. Səfalı yaz axşamı idi. Küçədə var-gəl edən bir adam diqqətini cəlb etdi. Bu ən qəddar qoçulardan, nadan mollaların sadiq nökərlərindən idi. "Xeyir ola, bəlkə, məni izləyir?" – deyə yazıçı düşündü. Xəyalı onu uzaqlara apardı. Ona elə gəldi ki, bu qoçu özü kimiləri ilə birlikdə əlinə qamçı alıb çadrasını atmış bir neçə qadını cəzalandırır. Qadınlar yıxılır, lakin qalxıb vəhşilərin üzərinə daş yağdırırlar.

V Mirzə Cəlilin xəyalında başqa səhnə də canlandı: "Təbiət gülür, insanlar sevinc içindədirlər. Onlar məktəblərə, muzeylərə, kitabxanalara, teatrlara tərəf yol alırlar. Musiqi səslərindən qulaqlara pambıq tıxanır. Qadınlar, qızlar məktəbə, işə gedirlər. Kimisi alim, kimisi mühəndis, kimisi müəllim, kimisi də həkimdir. Mehribanlıqla danışıb-gülürlər".

VI Qapı döyüləndə Mirzə bayaq küçədə gördüyü qoçudan şübhələndi, yaxınlaşıb soruşdu:
– Kimdir?
– Bizik, – deyə qadın səsi eşidildi.

VII O, qapını açdı. İçəriyə mədəni geyimli orta yaşlı qadınla əlində gül dəstəsi tutmuş xoş simalı bir qız daxil oldu.

Camscanner ilə skan edilib

– Sizi qadınlar haqqında yazdığınız son məqaləniz münasibətilə təbrik edirik. Bu məqalə bütün Şərqdə [1] ... . Qoy sizi hədə-qorxular [2] ... .

Qız bu sözləri deyib əlindəki gülləri yazı masasının üzərinə qoydu.

71. Mətndəki əsas fikrə uyğundur:

1. Dərs alınmış müvəffəqiyyətsizlik elə müvəffəqiyyət deməkdir. (M.S. Fobes)
2. Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir. (V. Hüqo)
3. Öz həyatını insanlığın rifahına həsr edən adamlar qorxulardan azad olar. (Atalar sözü)
4. Oxumuş olanlardan ən böyük cahillər çıxdığı kimi, heç oxumaq bilməyənlərdən də həqiqəti görən gerçək alimlər çıxa bilər. (M.K. Atatürk)
5. Uğur qazanmaq istəyirsənsə, cəsarətli ol. (M. Vergili)
6. İctimai həyatı zəif inkişaf etmiş xalqlar üçün dövri mətbuat ən yaxşı tribunadır. (A.İ. Gertsen)

A) 2, 4, 5 B) 2, 5, 6 C) 1, 3, 4
D) 3, 5, 6 E) 1, 4, 6

72. Mətnin məzmununa uyğun düzgün plan ardıcıllığını müəyyən edin.

1. Ürəkaçan yaz günü xoşagəlməz an.
2. Gözlənilməyən qonaqlar.
3. Ziddiyyətli xəyallar.
4. Hədə-qorxuya etinasız yanaşma.
5. Yaradıcılıq eşqinin artması.
6. Yazıçıya xoş münasibət.

A) 2, 5, 3, 4, 1, 6 B) 4, 5, 1, 3, 2, 6
C) 2, 5, 1, 3, 6, 4 D) 5, 3, 6, 4, 1, 2
E) 4, 1, 3, 5, 6, 2

73. Verilmiş sitatla hansı abzaslarda ifadə olunmuş fikri qüvvətləndirmək olar?

Dünyada hər pislik, demək olar ki, cəhalətdən gəlir. (Alber Kamyu)

A) I, II, IV B) I, II, V C) V, VI
D) III, VI E) III, IV

74. Mətndə çərçivədə verilmiş sözlə bağlı doğru fikri müəyyən edin.

I – Sözün mənası (həqiqilik və ya məcazilik baxımından);
II – Sözün kontekstdəki mənasında cümlədə işlədilməsi

A) I – Həqiqi mənalıdır. II – Aynaya baxan camalını görər.
B) I – Məcazi mənalıdır. II – Binanın ön tərəfi şimala baxır.
C) I – Məcazi mənalıdır. II – O qədər əldən düşdü ki, əl-ayağı sözə baxmadı.
D) I – Həqiqi mənalıdır. II – Topların üzü şəhərə baxırdı.
E) I – Məcazi mənalıdır. II – Yarasına baxmaq üçün həkim çağırdı.

75. Mətnə görə əsaslandırmaq *olmaz*:

A) Mirzə Cəlilin öz mövqeyində heç bir güzəştə getmədiyini
B) Qadınların düşmənləri ilə mübarizə apara bilmədiyini
C) Problemin yalnız bir ölkəni əhatə etmədiyini
D) Mətbuatın cəmiyyətdə böyük təsir gücünə malik olduğunu
E) Cəhalətin bəzi qüvvələrin maraqlarına xidmət etdiyini

76. Mirzə Cəlili qadın azadlığı uğrunda mübarizəyə vadar edən xüsusiyyətlər:

1. şöhrətpərəstlik
2. insansevərlik
3. ədalətlilik
4. tərəqqipərvərlik
5. təvazökarlıq
6. xudbinlik

A) 2, 3, 4 B) 1, 2, 3 C) 2, 4, 6
D) 1, 5, 6 E) 3, 4, 5

77. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Əsas problem	*Problemi yaradan qüvvə*	*Mətnə görə problemin həlli yolu*
1. Mirzə Cəlilin təhdid olunması	2. Yoxsul təbəqə 3. Gerilik	4. Cəhalətin ifşası 5. Mübarizə 6. Qadınları mətbuatda işləməyə cəlbetmə

A) 3, 4, 6 B) 2, 4, 6 C) 1, 2, 6
D) 1, 3, 5 E) 3, 4, 5

78. Cədvəldəki *yanlış* fikirləri müəyyən edin.

Mətnə görə cəmiyyətin tərəqqisinə səbəb olur:	*Mətnə görə cəmiyyətin tərəqqisinə maneə olur:*
1. cəmiyyətdəki özbaşınalıq 2. cahil fikirlərə qarşı dözümsüzlük 3. mədəni inkişaf üçün edilən cəhd	4. mühafizəkarlıq 5. sərt tənqid

A) 1, 2, 5 B) 1, 4 C) 1, 2, 3
D) 3, 4 E) 2, 3, 5

79. Mətndə nöqtələrin yerinə uyğun məcazi mənalı ifadələr yazmaqla cümlələri tamamlayın.

80. V abzasda kontekstə uyğun *işlənməyən* ifadəyə əsasən cədvəli tamamlayın.

Kontekstə uyğun işlənməyən ifadə	*Həmin ifadənin doğru ifadə ilə əvəz olunaraq mətndəki cümlədə işlədilməsi*

Camscanner ile skan edilib

Nəcəf

I Həsən bəy xəstələnmişdi. Beşinci gün idi, gimnaziyaya gəlmirdi. Gimnazistlər onun yoxluğunu hər addımda hiss edirdilər.

II Dərsdən sonra Nəcəf və Rəhim Həsən bəyi yoxlamaq istədilər. Onlar şəhərin ilan kimi qıvrılan döngələrini keçərək Həsən bəyin evinə çatdılar. Qarşılarına orta yaşlarda bir qadın çıxdı. O, cavanların nə üçün gəldiklərini başa düşüb onları içəri dəvət etdi.

III Həsən bəy pəncərəsi küçəyə açılan otaqda uzanmışdı. *İfşa etdiyi*[1] cahillər tərəfindən bu yaxınlarda ona qəsd edilmiş, lakin xilas olmuşdu. **Buna baxmayaraq, o ehtiyat etmirdi.** Xəstəlik onu zəif salsa da, tələbələrini görən kimi ... .

IV Nəcəf və Rəhim iki saata qədər Həsən bəyin yanında qaldılar. Həsən bəy xalqın vəziyyətindən *can yanğısı*[2] ilə danışırdı. O deyirdi:

– Başqa millətlərdən fərqli olaraq cəhalət bizə inkişaf etməyə imkan verməmişdir. Xalqın səadəti uğrunda vuruşan ziyalılarımız məhrumiyyətlərə məruz qalıblar. Bax, biri elə o! – deyə divardan asılmış şəkli göstərdi və sözünə davam etdi, – Mirzə Fətəli Axundov nə cür maneələrlə üz-üzə gəldi. Ancaq onun iradəsi hər şeyi yıxıb keçdi.

V Nəcəfin ürəyində istər-istəməz şəkildəki adama qarşı məhəbbət hissi yarandı. Doğrudur, onu şəxsən tanımırdı, lakin təkcə Həsən bəyin o şəxs haqqında dedikləri və oxuduğu "Hacı Qara" komediyası kifayət idi.

VI Həsən bəy dərindən ah çəkdi:

– Eh, bircə bu qəzetin nəşrinə icazə versəydilər, qəzet vasitəsilə bütün xalqla danışmaq olar.

Bir qədər susduqdan sonra sözünə davam etdi:

– İmtiyaz sahiblərindən fərqli olaraq, üzərimizə düşən vəzifəni şərəflə yerinə yetirəcəyik. Lakin gələcəyin sahibləri sizsiniz, özünüz arzuladığınız kimi ictimai mühit yaratmalısınız.

VII Gimnazistlər ondan ayrıldıqları zaman Həsən bəy kövrəlmişdi. Onlar sağollaşıb bayıra çıxdılar. Nəcəfə elə gəlirdi ki, artıq uşaqlıq sahillərindən uzaqlaşır, fırtınalı dənizlərdən keçərək daha bir dənizə yaxınlaşır. Bu, gənclik sahilidir. Lakin nə olur olsun, müəlliminin və onun yaxın dostu Mirzə Fətəli Axundovun yolundan dönməyəcək.

1. Mətndəki əsas fikrə uyğundur:
1. Əsl hünər bolluq içində səbir etməkdir.
2. Böyük şəxsiyyətləri ancaq böyük millətlər yetişdirə bilər.
3. Öz dar günündə belə başqalarının rifahını, şadlığını düşünmək əsl insanlıq nümunəsidir.
4. İnsan xoş günündə daha çox yaxınlarını xatırlayır.
5. Əsl mübarizləri sərt qayalar belə sındıra bilməz.

A) 1, 4 B) 2, 5 C) 1, 3 D) 2, 4 E) 3, 5

2. Mətnə əsasən plan ardıcıllığını müəyyən edin.
1. Məşhur komediya ustasının xatırlanması.
2. Müəllimin tələbələrini görməsi.
3. Tələbələrin xoş məramı.
4. Gənc nəslə tövsiyə.
5. Nəcəfin qərarı.

A) 3, 2, 4, 1, 5 B) 2, 3, 1, 4, 5 C) 2, 5, 1, 4, 3
D) 2, 5, 4, 1, 3 E) 3, 2, 1, 4, 5

83. Alber Kamyunun *"Dünyada bir çox pisliklər cəhalətdən doğar"* deyimi ilə neçənci abzaslarda ifadə olunan fikirləri qüvvətləndirmək olar?

A) III, IV B) II, V C) V, VII
D) II, IV E) III, VII

84. Mətnə və Eyler-Venn diaqramına əsaslanmaqla yeri dəyişdirilməli olan fikirləri müəyyən edin.

A) 4↔5 B) 2↔3 C) 2↔4
D) 1↔5 E) 1↔3

85. Cədvəldəki doğru fikirləri müəyyən edin.

Mətnə görə ehtimal etmək olar:	*Mətnə görə faktdır:*
1. Həsən bəyin xəstəliyi ona edilən qəsdlə bağlı idi. 2. Həsən bəy ona qəsd edən cahilləri naşiri olduğu qəzetdə ifşa etmişdi.	3. Mirzə Fətəli Axundov bədii əsər müəllifi olub. 4. Mətndəki hadisənin baş verdiyi vaxt Mirzə Fətəli Axundzadə həyatda olub. 5. Mətndəki hadisənin baş verdiyi dövrdə maarifçiliyin inkişafına süni əngəllər yaradılıb.

A) 2, 3, 5 B) 2, 4 C) 1, 4
D) 1, 3, 5 E) 1, 2, 3

86. Həsən bəyi cəmiyyətin gələcəyi uğrunda çalışmağa sövq edən hansı xüsusiyyətləri idi?
1. düşmənə qarşı mərhəməti
2. tədbirli olmağı
3. mübarizliyi
4. imtiyaz sahibi olmağı
5. təşəbbüskar olmağı
6. xalqını sevməsi

A) 2, 3, 4 B) 2, 4, 6 C) 1, 5, 6
D) 3, 5, 6 E) 1, 3, 5

87. Mətndə nöqtələrin yerinə hansı ifadələr yazılsa, məzmuna uyğun *olmaz*?
1. sağlam oldu 2. dirçəldi
3. qüvvətləndi 4. cana gəldi
5. kömək etdi

A) 2, 5 B) 1, 3 C) 2, 4 D) 3, 4 E) 1, 5

Camscanner ile skan edilib

88. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Əsas problem	*Problemi yaradan qüvvə*	*Problemin həllində maraqlı olmayan qüvvə*
1. Qəsd 2. Cəhalət	3. Nadan insanlar 4. Xalq	5. Səlahiyyət sahibləri 6. Məhrumiyyət içində olan ziyalılar

A) 2, 3, 4 B) 1, 4, 6 C) 1, 2, 5
D) 3, 5, 6 E) 2, 3, 5

89. Mətndə tünd-qara hərflərlə verilmiş cümlədəki fikri mətnə görə əsaslandırıb yazın.

90. Mətndə üzərində rəqəm yazılmış sözlərə əsasən cədvəli doldurun.

Söz	*Kontekstə uyğun qarşılığı (ifadə etdiyi məna)*	*Həmin qarşılığın (ifadə etdiyi mənanın) mətndənkənar cümlə daxilində işlədilməsi*

Afrikanın anası

Miriam Makeba irqçiliyə qarşı mübarizənin simvollarından biri hesab olunur. Miriama Afrikanın anası anlamına *gələn*[1] "Mama Afrika" ləqəbinin verilməsi onun Afrika üçün hansı dəyərə malik olduğunu göstərir.

Miriam Makebanın yaşadığı Cənubi Afrikada insanlarla irqlərinə görə fərqli davranılırdı. Qaraların və ağların birlikdə vaxt *keçirməsi*[2], evlənməsi, dünyaya uşaq gətirməsi qadağan idi. Hətta avtobuslarda qaralara və ağlara fərqli yerlər ayrılmışdı. İrqi ayrı-seçkiliyin kəskin forması olan bu rejimin adı aparteid idi. **I** Aparteidin məqsədi azlıq təşkil edən ağ əhali tərəfindən qeyri-avropalıları istismar etmək və milli-azadlıq mübarizəsinə qarşı *güclü*[3] maneələr yaratmaq idi.

Kiçik Miriam hər bazar anası ilə birlikdə kilsəyə gedərdi. O, xorda *oxumaq*[4] üçün hər şeyi gözə almışdı. **II** Miriam irqçiliyə qarşı mübarizə apardı. Məşq zamanı gizlicə oxuyanlara qoşulurdu.

Miriam böyüyəndən sonra bütün üzvləri qızlardan ibarət olan qrupu ilə birlikdə yüzdən çox musiqi yaratdı. **III** Onun musiqilərinin mövzusunu Cənubi Afrikadakı insanların həyatı təşkil edirdi. Musiqilərində onu nəyin sevindirdiyini, nəyin qəzəbləndirdiyini, nəyin üzdüyünü anladırdı. **IV** Rəqs edir və aparteid haqqında mahnılar oxuyurdu.

Ancaq irticaçı rejim Miriamın aparteid əleyhinə olan musiqilərini ..... . Buna görə də səfərdən *qayıdarkən*[5] onun ölkəyə daxil olmasına icazə verilmədi və Miriam öz ölkəsinin vətəndaşlığından çıxarıldı. Bunun qarşılığında Miriama 10 dövlətdən vətəndaşlıq təklifi gəldi. Öz vətənindən uzaq düşən Miriam nəinki mübarizəsini dayandırdı, o, dünya turuna çıxdı və Afrikanın azadlıq uğrunda mübarizəsinin simvoluna ▲ çevrildi. **V** 1966-cı ildə Qremmi mükafatı alan ilk qaradərili afrikalı sənətçi oldu.

Miriam yalnız 31 il sonra ölkəsinə dönə bildi və o, qayıdandan bir qədər sonra Afrikada aparteid rejimi son qoyuldu.

91. Üzərində rəqəm yazılmış hansı sözlər həqiqi mənadadır?

A) 3, 4 B) 2, 3 C) 1, 5 D) 1, 2 E) 4, 5

92. Çərçivədə verilmiş sözün mətndəki mənasının şərhini müəyyən edin.

A) idarə üsulu, qaydalar
B) dəqiq müəyyən olunmuş qayda, intizam
C) adət-ənənə, etik davranış norması
D) bir şeyin iş, fəaliyyət və s. şəraiti
E) ümumi məqsədə nail olmaq üçün normalar məcmusu

93. Mətnin məzmununa uyğun deyimi müəyyən edin.

A) Adam evdən çıxanda nə edəcəyi barədə fikirləşməli, evə gələndə isə nə etdiyi haqda düşünməlidir. (Kleovul)
B) Ağıl təbiətin vergisi deyil, təcrübənin nəticəsidir. (Əfqan atalar sözü)
C) Haraya getdiyini bilən adama bütün aləm yol verər. (Devid Star Cordon)
D) Adətən kiçik işlərdə həddən çox canfəşanlıq edənlər böyük işlərə yaramırlar. (Fransua de Laroşfuko)
E) Səhv etməkdən qorxmayın, səhvi təkrarlamaqdan qorxun. (Teodor Ruzvelt)

94. Mətnə əsasən klasteri tamamlaya bilən fikirləri müəyyən edin.



1. istedadlıdır 2. şöhrətpərəstdir
3. ziddiyyətli düşüncələri var 4. cəsarətlidir
5. təkəbbürlüdür

A) 3, 4 B) 2, 5 C) 1, 4 D) 2, 3 E) 1, 5

95. Əvvəlində Roma rəqəmi qeyd olunmuş cümlələrdən biri mətnin hissələri arasında əlaqəni pozur. Həmin cümləni müəyyən edin.

A) V B) II C) III D) IV E) I

96. Əvvəlində ▲ işarəsi qoyulmuş sözün məcazi və ya həqiqi mənada olduğunu müəyyən edin və həmin sözün mətndəkindən fərqli mənada (həqiqi və ya məcazi) işləndiyi cümləni müəyyən edin.

A) Həqiqi mənadadır; Pulemyotlar düşmənə tərəf çevrildi.
B) Məcazi mənadadır; Üzündəki kədər bir anda sevincə çevrildi.
C) Məcazi mənadadır; Köynək tərs üzünə çevrilmişdi.
D) Məcazi mənadadır; Rəfiqələr arasındakı dostluq artıq şübhəyə çevrilmişdi.
E) Həqiqi mənadadır; Aydın kəndə tərəf çevrilib doğma yurduna bir daha tamaşa etdi.

CamScanner ile skan edilib

97. Altından xətt çəkilmiş sözün kontekstdəki mənasını müəyyənləşdirin.
1. münasibət göstərilmək
2. rəftar edilmək
3. yanaşılmaq
4. münasibət bildirmək
5. özünü aparmaq
A) 2, 3, 5 B) 1, 3, 4 C) 1, 2, 3
D) 1, 4, 5 E) 2, 4, 5

98. Mətnin əsas hissəsini əhatə edən plan bəndlərini müəyyən edin.
1. Qaradərili əhaliyə qarşı fərqli davranış
2. Musiqi vasitəsilə mübarizə
3. Gerçəkləşən arzu
4. Afrikanın azadlıq simvolu
5. Vətənə qayıdış
A) 1, 2, 4 B) 2, 3 C) 1, 3, 4
D) 1, 4, 5 E) 3, 5

99. "*Məğlubiyyətdən qorxanlar deyil, mübarizə aparanlar uğur qazanacaqlar*" (J. Kopp) aforizmini mətnlə əlaqələndirərək fikrinizi ən azı iki cümlə ilə yazın.

100. Mətndə nöqtələrin yerinə uyğun gələn ən azı 3 ifadə yazın.

Mühəndis

Çayın üzərindən körpü salmaq çətindirmi? 1. Əgər çay ensiz olsa, onun üstündən şalban və ya tir atılsa, "körpü" hazır olar. Bəs Araz, Kür kimi çaylarda necə? Belə böyük çayların üstündən salınacaq körpünü tikərkən metaldan və ya dəmir-betondan istifadə etmək lazımdır. Bəs necə müəyyən etmək olar ki, belə nəhəng körpünün neçə *dayağı*[1] olmalıdır? Körpü nə qədər maşının və adamın ağırlığına dözər? Güclü qasırğa, şiddətli tufan qopsa, körpü *uçmaz*[2] ki? Yazda çayların daşmasına, selin kükrəməsinə körpünün dayaqları tab gətirə bilərmi? Kür çayı üzərindəki ilk dəmir körpünü kim tikmişdir? 2. Tutaq ki, çox *yüksək*[3] sürətli yeni model idman avtomobilinə ehtiyac var. Belə avtomobilə necə mühərrik lazım olduğunu kim deyə bilər?

3. Bu suallara cavab vermək üçün bir çox elmləri: fizikanı, riyaziyyatı, kimyanı, rəsmxəti, məntiqi çox yaxşı bilmək vacibdir. Bütün bu sahələri kompleks şəkildə öyrənən, qazandığı bilik və bacarıq nəticəsində möhkəm dayaqlı körpü və yüksək sürətli avtomobil *düzəldən*[4] ***mütəxəssis*** mühəndis adlanır. Körpülərin, evlərin və başqa irili-xırdalı tikililərin layihəsini işləyib hazırlayan peşəkarlar inşaat mühəndisi, avtomobil düzəldənlər isə mühəndis-mexaniklərdir.

▲Sənayenin müxtəlif sahələri kimyaçı mühəndislər, elektrik mühəndisləri, neft-mədən mühəndisləri və başqa ixtisaslı mühəndislər tərəfindən inkişaf etdirilir. Fabrik və zavodlarda aparıcı mühəndislər sexlərin və laboratoriyaların işini yönləndirirlər.

Mühəndis həm çox bilməli, həm də çox iş bacarmalıdır. ..... . 4. Elmi-texniki tərəqqini sürətləndirmək üçün müəssisələrin texniki cəhətdən təkmilləşdirilməsində hər cür ixtisasdan olan mühəndislərin əməyi böyükdür.

Bu gün Vətənimizin qeyri-neft sektorunda nailiyyətlər qazanması vacibdir. Bunun üçün ölkəmizin savadlı mühəndislərə çox ehtiyacı var. 5. Gələcəkdə mühəndis olmağı arzulayan gənclərimiz çox oxumalı, biliklərə daha dərindən yiyələnməlidirlər.

101. Mətnə əsasən ***yanlış*** fikirdir:
A) Həyat təcrübəsi olan istənilən insan mühəndis ola bilər.
B) Zaman keçdikcə mühəndislik sahəsində görülən işlərin əhatə dairəsi genişlənmişdir.
C) Həyatın müxtəlif sahələrində mühəndislərə ehtiyac vardır.
D) Mühəndislik peşəsi hesablamaların dəqiq olmasını tələb edir.
E) Elmin yalnız bir sahəsini mükəmməl şəkildə qavrayan insan savadlı mühəndis ola bilməz.

102. Çərçivə daxilində verilmiş sözün mənasına uyğun nümunəni müəyyən edin.
1. Heydər Əliyev kompleksində həm də muzey vardır.
2. Kənd təsərrüfatının inkişafı üçün respublikamızda kompleks tədbirlər həyata keçirilir.
3. Bakıda salınmış yeni yaşayış kompleksləri göz oxşayır.
4. Bu sahədə həyata keçirilən kompleks işlər təhsil sisteminin ehtiyaclarından irəli gəlir.
A) 2, 3 B) 1, 3 C) 1, 2 D) 3, 4 E) 2, 4

103. Uyğunluğu müəyyən edin.
1. Giriş
2. Əsas hissə
3. Nəticə
a. Mühəndis bir çox elm sahələrini dərindən bilməlidir.
b. Ensiz çayların üzərindən körpü salmaq çox da çətin deyil.
c. Gələcəkdə mühəndis olmaq istəyənlər öz üzərində daha çox işləməlidirlər.
d. Müxtəlif sahələrin öz ixtisaslaşmış mühəndisləri olur.
e. Körpülər salınmazdan əvvəl onların dayanıqlılığı haqqında lazımi hesablamalar aparılmalıdır.
A) 1 – a, c; 2 – b; 3 – d, e
B) 1 – b, d; 2 – a, e; 3 – c
C) 1 – e; 2 – a, d; 3 – b, c
D) 1 – d, e; 2 – c; 3 – a, b
E) 1 – b, e; 2 – a, d; 3 – c

CamScanner ile skan edilib

104. Mətndəki məzmun ardıcıllığını nəzərə alaraq nöqtələrin yerinə uyğun olan fikri müəyyən edin.

A) Ölkəmizin müxtəlif ali təhsil ocaqlarında neft mühəndisləri, tərcüməçilər, həkimlər və s. hazırlanır.

B) Onun həm texnologiya barədə nəzəri bilikləri, həm də onu tətbiq etmək bacarığı olmalıdır.

C) Kənd təsərrüfatında da savadlı mühəndislərə ehtiyac vardır.

D) Elmi-texniki tərəqqinin inkişafı ekoloji problemlərin artmasına gətirib çıxarmışdır.

E) Son dövrlərdə biomühəndislik sahəsində inkişaf hiss olunmaqdadır.

105. Mətnə əsasən peşəkar mühəndis bacarmalıdır:

1. görəcəyi işin proyektini hazırlamağı
2. müxtəlif ixtisaslı mühəndisləri asanlıqla əvəz etməyi
3. müəssisələri texniki cəhətdən təkmilləşdirməyi
4. elmi-texniki biliklərə sahib olmağı
5. təbii fəlakətlərin başvermə səbəbini təxmin etməyi

A) 1, 4, 5 B) 1, 2, 5 C) 1, 3, 4
D) 2, 3, 5 E) 2, 3, 4

106. Mətnin giriş hissəsinin məzmunu ilə bağlı olmayan cümlə hansı ifadə ilə başlayır?

A) Yazda B) Belə avtomobilə C) Güclü
D) Kür çayı E) Tutaq ki

107. Mühəndis peşəsinin vacibliyi haqqında fikirlər mətnin hansı tərkib hissəsində və ya hissələrində öz əksini tapmışdır?

A) yalnız girişdə B) yalnız nəticədə
C) əsas hissədə və nəticədə
D) giriş və əsas hissədə E) yalnız əsas hissədə

108. Mətndə tünd-qara hərflərlə verilmiş ifadənin kontekstə görə mənasını müəyyən edin.

A) bir sənətlə keçinən adam
B) bir işi, məşğuliyyəti, fəaliyyəti özünə peşə seçmiş sənətkar
C) hər hansı bir sənətlə məşğul olan usta
D) elm və ya texnikanın müəyyən sahəsində xüsusi biliyi olan, müəyyən ixtisas almış adam
E) sifarişlə iş qəbul edib öz əmək alətləri ilə, kustar üsulla məhsul hazırlayan şəxs

109. Üzərində rəqəm yazılmış sözlər əsasında cədvəldə qeydlər aparın (✓).

	Həqiqi mənada işlənmişdir	*Məcazi mənada işlənmişdir*	*Sözün digər mənada (həqiqidirsə məcazi, məcazidirsə həqiqi) işlədilməsi*
1.			
2.			
3.			
4.			

110. Əvvəlində rəqəm yazılmış cümlələrdən hansı mətndə qarşısında ▲ qoyulmuş cümlədəki fikri əsaslandırır? Həmin cümləni müəyyən edib yazın və seçiminizi əsaslandırın.

Kenquru

Avstraliyaya gələnlər bu heyvana maraqla tamaşa edirdilər və yerli sakinlərdən onun adını soruşurdular. Yerli adamlar: "Kenquru", yəni "Məni sizi başa düşmürəm", – deyə cavab verirdilər. Qəribə qonaqlar elə bilirdilər ki, bu söz həmin maraqlı heyvanın adıdır. Elə o vaxtdan bu heyvan "kenquru" adlandırılmışdır.

Kenquru otyeyən heyvandır. Onun dal ayaqları qabaq ayaqlarından bir neçə dəfə uzundur, ona görə də kenquru gəzə bilmir, sürətli sıçrayışlarla hərəkət edir. Kenquruların dal ayaqları[1] onların ünsiyyətinə kömək edir. Belə ki, kenquru dal ayaqlarını ..... səs çıxarır və digərlərinə işarə edir. Kenquru ot yeyəndə qabaq ayaqlarını yerə qoyur. Onun iri və güclü quyruğu, ensiz kürəyi, insan əlinə[2] bənzər pəncəsindən ibarət silueti var. Arxa pəncəsində[3] cəmi dörd barmağı var, caynaqları, xüsusilə ən uzun – dördüncü barmağındakı[4] caynağı[5] bıçaq kimidir. Bununla da kenqurunun nəsli kəsilməmişdir.

Kenquru 12 metr uzununa, 3 metr hündürə tullanmaqla müdafiə olunur. İki metr yarım uzunluğunda olan nəhəng kenqurunun dünyaya gətirdiyi balanın uzunluğu təqribən 3 santimetr, gözləri isə kor olur. Getdikcə gözləri açılmağa, anasının gözlərinə bənzəməyə başlayır. Səkkiz aydan sonra bala ananın yarısı boyda olur. Bala kenquru anası ilə yanaşı oturan zaman adi bir xışıltı səsi eşidib qorxsa, cəld anasının kisəsinə girir, yerini rahatlayandan sonra başını çıxarıb ətrafa baxır.

Ana kenquru düşməndən qaçarkən artıq böyümüş balasını kisədən tullayır. Kisədən yerə düşən kenquru balası özünü müdafiə edə bilir.

Ağacda, çılpaq qayalıqlarda yaşayan kenquruların ömrü 10-15 ildir. Onlar əkinlərə ziyan vururlar. Qiymətli xəzindən və ətindən istifadə məqsədi ilə ovlandığına görə dövlət tərəfindən **mühafizə olunurlar**. Azərbaycanda da xüsusi qoruqlarda mühafizə edilən turac, ceyran, kəklik kimi heyvanlar var.

111. Mətndə çərçivə daxilində verilən sözün mənasına uyğun nümunənin işləndiyi cümləni müəyyən edin.

A) Müdir Əlini işdən *çıxarıb* başqa vəzifəyə təyin etmişdi.
B) Sürücü əlini maşının pəncərəsindən *çıxarıb* arxadakı maşına işarə edirdi.
C) Qara eynəkli adam özünü sudan quru *çıxarıb* qalib görkəmlə dayanmışdı.
D) Mən səsimi *çıxarıb* bir söz deyə bilmədim.
E) Yazıdakı səhvləri *çıxarıb* üzünü köçürdü.

CamScanner ile skan edilib

112. Planın tərkib hissələri ilə bağlı uyğunluğu müəyyən edin.

1. Giriş
2. Əsas hissə
3. Nəticə

a. Kenqurunun bədən quruluşu
b. Qəribə advermə
c. Bala kenquru
d. Kenqurunun faydası

A) 1 – b; 2 – a, c; 3 – d
B) 1 – b; 2 – c; 3 – a, d
C) 1 – c; 2 – a; 3 – d
D) 1 – d; 2 – a; 3 – b, c
E) 1 – a; 2 – d; 3 – c

113. Mətnə əsasən ***yanlış*** fikirləri müəyyən edin.

1. Kenquru sözü təsadüf nəticəsində yaranmışdır.
2. Kenqurunun ayaqları yalnız hərəkət etmək üçündür.
3. Kenqurular, adətən, on ildən az yaşamırlar.
4. Dünyaya yenicə göz açan bala kenqurunun çox iti görmə qabiliyyəti olur.

A) 3, 4 B) 1, 2 C) 2, 4 D) 1, 4 E) 2, 3

114. *"Bir çox canlıların barmaqlarının qarmaqvari ucları mənasındadır"* fikri üstündə rəqəm yazılmış hansı sözün şərhi ilə bağlıdır?

A) 3 B) 2 C) 5 D) 4 E) 1

115. Mətnə hansı sualı vermək ***olmaz***?

A) Kenqurular nə ilə qidalanırlar?
B) Kenqurular vətəni haradır?
C) Kenquru balasını necə müdafiə edir?
D) Böyük kenqurular boyu nə qədər olur?
E) Kenqurular ünsiyyətinə nə kömək edir?

116. Tünd-qara hərflərlə verilmiş ifadənin kontekstə görə qarşılığının işləndiyi cümləni müəyyən edin.

A) Vətəni qorumaq hər kəsin borcudur.
B) O, yarışda zəif müdafiə olunurdu.
C) Ön tərəfi qorumaq bizim komandaya tapşırıldı.
D) Mədəniyyət abidələri dövlətimiz tərəfindən qorunur.
E) Düşmənin müdafiəsi əsgərlərimiz tərəfindən yarıldı.

117. Verilmiş fikirlərlə mətnin hansı tərkib hissələrini genişləndirmək olar? Uyğunluğu müəyyən edin.

1. Bala kenquru bir müddət ana südü ilə qidalanmalı olur.
2. Bu heyvanın yaşadığı ölkə bitki örtüyü ilə zəngindir.
3. Bu heyvanları ovlamaq qadağan olunub.

a. Giriş
b. Əsas hissə
c. Nəticə

A) 1-b; 2- a; 3- c
B) 1-a; 2- b; 3- c
C) 1-c; 2- a; 3-b
D) 1-a; 2- c; 3- b
E) 1-b; 2-c; 3- a

118. Mətnin əsas hissəsinin məzmunu ilə uyğun ***olmayan*** cümləni müəyyən edin.

A) Kenquruların dal ayaqları onların ünsiyyətinə kömək edir.
B) Kisədən yerə düşən kenquru balası özünü müdafiə edə bilir.
C) Getdikcə gözləri açılmağa, anasının gözlərinə bənzəməyə başlayır.
D) Bununla da kenqurunun nəsli kəsilməmişdir.
E) Ana kenquru düşməndən qaçarkən artıq böyümüş balasını kisədən tullayır.

119. Mətnə əsasən cədvəldəki boş xanalara uyğun cavablar yazmaqla onu tamamlayın.

Səbəb	*Nəticə*
1.	1. Kenquru gəzə bilmir, tullanır.
2. Ətindən və xəzindən istifadə məqsədilə ovlanır.	2.
3.	3. Balasını kisədən tullaması bala kenqurunun həyatı üçün təhlükəli deyil.

120. Mətndə nöqtələrin yerinə uyğun gələn ifadəni müəyyən edib yazın.

CamScanner ile skan edilib

Şövkət Səlimova

I İkinci Dünya müharibəsi dövründə dünyada iki qadın gəmi kapitanından biri olan azərbaycanlı Şövkət Səlimova dənizdə uzaq səfərlərə çıxır, hərbi heyətə[1] başçılıq edirdi. Onu "....." adlandırırdılar.

II 1920-ci ildə İsmayıllı rayonunda neftçi ailəsində dünyaya göz açmışdır. Şövkət ailədəki 10 uşaqdan ən böyüyü, yaşıdları arasında isə ən fərqlisi idi. Kiçik Şövkət bütün qızlardan seçilirdi. Rəfiqələri tikmə, toxuma ilə maraqlanarkən Şövkət aviamodel kurslarına yazılmışdı. 11 yaşında burada hazırladığı aviamodel isə **rekord**[2] qıraraq birinci olmuşdu.

1. Bir gün Şövkət jurnalda SSRİ-nin ilk qadın gəmi kapitanı Anna Şetinanın fotoşəklini görür və dənizçi olmağa qərar verir. **2.** 20 yaşında Bakı dənizçilik məktəbini bitirir. **3.** Ailəsi və ətrafdakılar bir qadının dənizçi olmasına qarşı idilər. **4.** Lakin o, edilən etirazlara baxmayaraq, sevdiyi peşəyə yiyələnir.

III Təhsilini bitirdikdən sonra "Serqo" tankerində işləyir. Gəmi heyətini bir neçə dəfə çətin sınaqdan üzüağ çıxarır. İkinci Dünya müharibəsi başlayanda əvvəl kapitan müavini, sonra kapitan olur. Müharibə illərində "Dnepr" paroxodu ilə döyüşlərə qatılır. Stalinqrada hərbi texnika, yanacaq, silah-sursat daşıyır, yaralıları Bakı və Krasnovodska çatdırır.

IV Bir dəfə alman təyyarələri Şövkətin rəhbərlik etdiyi gəmini atəşə tutur. Şövkət özünü itirmir və gəmi heyətini ruhlandırır. Zenitçilərə atəş açmaq əmrini verir və döyüşü sona qədər davam etdirir. Ona bu qəhrəmanlığına görə "Qırmızı Ulduz" ordeni verirlər.

V Müharibədən sonra Aralıq, Mərmərə, Egey və Qara dəniz limanlarına qədər gedib çıxır. Azərbaycana qayıtdıqdan sonra yüksək nüfuz sahibi olur. Adını nəinki Azərbaycan, eləcə də dünya tarixinə qızıl hərflərlə yazdırmış Şövkət Səlimova həyat və fəaliyyəti ilə qadın adı üzərindəki "zəif" sözünü sildirən qəhrəman qadınlarımızdandır.

121. Mətndə çərçivə daxilində nömrələnmiş cümlələrin düzgün ardıcıllığını müəyyən edin.

A) 1, 3, 2, 4 B) 3, 1, 4, 2 C) 2, 3, 4, 1
D) 1, 3, 4, 2 E) 2, 1, 4, 3

122. Şövkət Səlimovanın ilk azərbaycanlı qadın gəmi kapitanı olmasını şərtləndirdi:

1. ona xüsusi adın verilməsi
2. sevdiyi peşəyə yiyələnmək yolunda qətiyyəti
3. neftçi ailəsində dünyaya gəlməsi
4. təsadüfən jurnalda gördüyü fotoşəklin təsiri
5. alman təyyarələrinin onun rəhbərlik etdiyi gəmini atəşə tutması

A) 3, 5 B) 3, 4 C) 2, 4 D) 1, 5 E) 1, 2

123. Mətndə tünd-qara hərflərlə verilmiş sözlərin şərhi əsasında uyğunluğu müəyyən edin.

a. görüləcək işin mümkün olan ən aşağı həddi
b. müəyyən sahədə qazanılmış ən böyük nailiyyət
c. xidmətinə, ixtisasına və s. görə bir qrup təşkil edən adamlar
d. görkəm, görünüş, şəkil, surət
e. əmək fəaliyyətində ən yüksək nailiyyətlər əldə etmiş adam

A) 1 – c; 2 – b B) 1 – b, d; 2 – e
C) 1 – c; 2 – d, e D) 1 – e; 2 – a
E) 1 – d; 2 – b, e

124. Eyler-Venn diaqramına əsasən ***yanlış*** fikirləri müəyyən edin.



1. Ailəsinin dəstəyini qazanır.
2. Qəhrəmanlığı ordenlə qiymətləndirilir.
3. Gəmi kapitanı olur.
4. Çətinliklərlə üzləşir.
5. Şəkli jurnalda dərc olunur.
6. Müharibədə şücaət göstərir.

A) 2, 3, 5 B) 1, 4, 6 C) 1, 3, 6
D) 2, 4, 6 E) 1, 3, 5

125. Mətndə nöqtələrin yerinə uyğun olan ifadəni müəyyən edin.

A) göylərin azad cəngavəri
B) Azərbaycan qartalı C) dənizlərin qızı
D) qızıl şahin E) səhra ilahəsi

126. Hansı plan bəndləri mətnin II abzasını əhatə edir?

1. Ailəsinin Şövkətə qadağası.
2. Çətinliklə böyümüş Şövkət.
3. Kiçik Şövkətin böyük uğuru.
4. Azərbaycan bölgəsinin gözəlliyi.
5. Yaşıdlarından fərqlənən uşaq.

A) 3, 4 B) 1, 2, 3 C) 1, 2, 4
D) 3, 5 E) 2, 5

127. Mətndə əvvəlində Roma rəqəmi yazılmış hansı abzasların sonuncu cümləsində məcazi mənalı ifadə işlənmişdir?

A) III, IV B) IV, V C) III, V D) II, III E) II, V

128. Mətndə altından xətt çəkilmiş söz hansı cümlədə mətndəki mənada işlənmişdir?

A) Kənddə isti çörəyin yanında həmişə bal qatılmış qaymaq olardı.
B) Sirkəni suya qatıb soyuducuya qoydu.
C) Şəkər qatılmış xəmirdən xüsusi dad gəlirdi.
D) Uşaqlar böyüklərə qatılıb məclisdə iştirak etdilər.
E) Ürəyindəki qatılıq onu rəhmsiz etmişdi.

129. Mətnə əsasən klasteri tamamlayan fikirlər yazın.



130. II abzasdan hansı ifadə ilə başlayan cümlə çıxarılsa, mətndə məzmun ardıcıllığı pozular? Fikrinizi əsaslandırın.

Dəmir yolu

Dəmir yolu hamar metal relslərdən düzəldilmiş şaxəli yol şəbəkəsidir. XIX əsrdə meydana çıxmış dəmir yolları insanların həyatında **çevriliş** etdi, insanlar uzaq məsafələrə tez və asanlıqla getməyə başladılar. Dövrümüzdə də dəmir yolu geniş yayılmış nəqliyyat vasitəsi olaraq dünyanın bütün ölkələrində mövcuddur.

İlk dəmir yolu ingilis şəhərləri Stokton və Darlinqton arasında 1825-ci ildə britaniyalı mühəndis Corc Stefenson tərəfindən salınmışdır. Tezliklə – 1829-cu ildə Liverpul və Mançester arasında da xətt açıldı. XIX əsrin əvvəllərində bütün dünyada dəmir yollarının tikintisi genişləndi.

İlk qatarlar buxar mühərrikləri ilə hərəkət edirdi. 1804-cü ildə kömür *şaxta*sı sahibi Riçard Trevitiq ağır yüklər daşıya bilən qazanlı buxar maşını icad etmişdi. Corc Stefenson karetalarla sərnişin daşınması ilə məşğul olan şirkət sahiblərini belə buxar maşınlarının səmərəli olmasına inandırdı. Müasir ▲ *lokomotivlər* isə elektrik və dizel motorlarının köməyi ilə dartınaraq qatarları hərəkətə gətirir. Hətta maqnit asılqanlı müasir qatarlar yolun üstündəki hava yastığının üstü ilə sanki "sürüşür" və təyyarə sürəti ilə müqayisə oluna biləcək sürətlə hərəkət edir.

■ Qatarlar hərəkət edərkən bir yoldan digərinə oxlardan – istiqaməti dəyişmək üçün relsləri birləşdirən və ya ayıran yerlərdən keçir. Hər bir dəmir yolu sahəsinin sərhədləri dispetçerlərin nəzarətində olan işıqforlarla işarə olunur. Dispetçerlər eyni yol sahəsində iki qatarın olmamasına kompüterin köməyi ilə nəzarət edirlər. Dəmir yol işıqforları avtomobil işıqforları ilə eyni prinsip üzrə işləyir. Azərbaycanda Bakı–Gəncə istiqamətində ən son texnologiyalarla idarə edilən sürət qatarının hərəkət yollarının ətrafında yaşayış məntəqələri genişləndirilir.

Dəmir yolu müxtəlif yükləri uzaq məsafələrə yüksək sürətlə və digər nəqliyyat vasitələri ilə müqayisədə qat-qat ucuz aparması ilə, həmçinin hərəkətinin müntəzəmliyi ilə fərqlənən nəqliyyat vasitəsi olduğundan həmişə əhəmiyyəti böyük olmuşdur.

131. Mətndə hansı suallara cavab *yoxdur*?
1. İlk dəmir yolu nə zaman salınmışdır?
2. Təyyarə hansı sürətlə hərəkət edir?
3. Qatarların hərəkətinə necə nəzarət edilir?
4. Yüklərin uzaq məsafəyə daşınması xərclərinin məbləği nə qədərdir?
5. Dəmir yolu hansı ölkələrdə mövcuddur?

A) 1, 3, 4 B) 2, 3, 5 C) 2, 4 D) 1, 5 E) 3, 5

132. *Bu baxımdan çağdaş dövrümüzdə İpək yolu ilə dəmir yolunun qarşılıqlı əlaqəsi uğurlu nəticələrə yol açır* fikrinin mətnin hansı hissəsinə əlavə olunması daha məqsədəuyğundur?

A) əsas hissənin əvvəlinə B) II abzasın sonuna
C) I abzasın əvvəlinə D) nəticə hissəsinə
E) əsas hissənin sonuna

133. Mətnə əsasən hansı bənddəki fikirlər dəmir yolu nəqliyyatında son yenilik hesab oluna bilər?
1. Dəmir yolunda buxar maşınından istifadə olunması
2. Sərnişindaşıma işinin mövcud olması
3. Müasir lokomotivlərin meydana gəlməsi
4. Sürət qatarlarından istifadə olunması
5. İngiltərədə kömürdən yanacaq kimi istifadə edilməsi

A) 1, 3, 5 B) 2, 4, 5 C) 1, 2, 3 D) 3, 4 E) 1, 4

134. Əvvəlində ▲ işarəsi qoyulmuş sözün mənasına uyğun ifadədir:
A) hərəkət edən obyektin bir yerdən başqa yerə çatması üçün optimal marşrut yollarını göstərən avadanlıq
B) relslər üzərində hərəkət edən sərnişin və yük daşıyan üstüörtülü və ya açıq araba
C) üzərində vaqon, qatar və s. təkərlərinin diyirlənərək hərəkət etdiyi ensiz polad tir
D) torpaq, asfalt və daş yollarda adam və yük daşıyan motorlu nəqliyyat vasitəsi
E) rels üzərində işləyən vaqonları, qatarları hərəkətə gətirən dartıcı maşın

135. Mətnə görə uyğun ***olmayan*** fikri müəyyən edin.
A) İlk dəmir yolu İngiltərədə salınmışdır.
B) XIX əsrin əvvəllərində İngiltərədə artıq iki dəmiryol xətti var idi.
C) Dəmiryolu müxtəlif yükləri uzaq məsafələrə daşımaqda ən sərfəli nəqliyyat vasitəsidir.
D) İlk qatarlar dizel mühərrikinin köməyi ilə hərəkətə gətirilirdi.
E) Qatarların hərəkətində dispetçerlərin rolu əhəmiyyətlidir.

136. Tünd-qara hərflərlə verilmiş sözün kontekstə görə qarşılıqlarını müəyyən edin.
1. dönüş 2. dəyişiklik 3. yüksəliş
4. irəliləmə 5. tərəqqi

A) 1, 2 B) 3, 4 C) 4, 5 D) 1, 3, 5 E) 2, 3

137. Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

Doğrudur	***Yanlışdır***	***Ehtimaldır***
1. Dünyanın elə bir ölkəsi yoxdur ki, orada dəmir yol nəqliyyat vasitəsi olmasın. 2. Dəmir yolunda avtomobil işıqforlarından istifadə edilir.	3. Müasir lokomotivlər buxar mühərriki ilə hərəkətə gətirilir. 4. Azərbaycanda istifadəyə verilmiş ilk qatarlar elektriklə hərəkətə gətirilirdi.	5. Qazanlı buxar maşını ilk dəmir yolu salınmamışdan əvvəl icad edilmişdir.

A) 2, 4, 5 B) 1, 2, 5 C) 2, 3, 4
D) 1, 3, 5 E) 1, 3, 4

CamScanner ile skan edilib

138. Çərçivə daxilində verilmiş sözün kontekstə görə mənasına uyğun deyil:

A) xeyirli B) zəruri C) faydalı
D) yaxşı nəticə verən E) əlverişli

139. Mətnə əsasən sxemi tamamlayın.

I ..... — Nəticə

II İnsanların həyatında kəskin dönüş edən nəqliyyat vasitəsi. — ____

III ..... — Əsas hissə

IV Dəmir yolu nəqliyyatında dispetçerlərin fəaliyyəti — ____

140. Əvvəlində ■ işarəsi qoyulmuş abzasda mətnin məzmununa uyğun olmayan cümləni müəyyən edin və seçiminizi əsaslandırın.

Təbiətin dostu olan şəhər

Amerikada Arizona ştatının yaxınlığında *şose*[1] ilə irəliləyərkən düzəngahda yüksələn bir şəhərə rast gələ bilərsiniz. Şəhər böyük körpülərə bənzər tikililərdən ibarət boş qalmış məskəni xatırladır. Təcrübə məqsədilə yaradılan Arkosanti şəhərinin tikilməsinə 1970-ci ildə başlansa da, inşaat işlərinin yalnız bir hissəsi tamamlana bilib. Kənd əhalisinin böyük qismi Afrika, Latın Amerikası və Asiyada məskunlaşıb. Bəs kimsəsiz çöllükdə şəhər salınmasının səbəbi nə idi?

1. Kənddə böyümüş memar Paulo Soleri ilk dəfə Finiks şəhərinə gələrkən şəhərlərin sürətlə böyüdüyünü, boş ərazilərin işğal edildiyini və yaşıllıqların avtomobil meydançalarına çevrildiyini müşahidə etmişdi. **2.** O bu problemin həllini tapmaq üçün illərlə yazılar yazdı, mühazirələr oxudu və nümunə *modellər*[2] yaratdı.

3. Onun təklif etdiyi layihədə şəhərlərdə yaşayan çoxsaylı əhalinin təbii resurslardan *maksimum*[3] istifadə etməsi və ətraf aləmə vurulan zərərin azaldılmasının zəruriliyi öz əksini tapmışdır. **4.** Elektrik lampalarını günəş işığı, kondisioneri ağacların olduğu təbii guşə əvəz etməli idi. **5.** Şəhəri əhatə edən qövsşəkilli tikililər isə istixana effekti yaradaraq evləri qızdırmalı idi. Ehtiyac olan hər yerə piyada getmək mümkündür, avtomobillər isə yoxdur. Eskalatorlar məsafələri qət etmək üçün yeganə *vasitə*[4] idi.

..... şəhərin inşası üçün çoxlu maliyyə vəsaiti lazım idi. Solerinin bu layihəsinə dövlət yardımı olmasa da, ona dəstək verən insanlar tapıldı. İnşaat işlərinə başlanıldı. Ancaq bəzi ideyaların həyata keçirilməsi çox böyük vəsait tələb etdiyindən inşa işlərinin sürəti zəiflədi.

40 il keçməsinə baxmayaraq, şəhərin inşası hələ də tam başa çatdırılmayıb. Buraya səyahət edənlər ağacların arasından göyə ucalan qövsların gözəlliyinə valeh olurlar. Yollar və avtomobillər olmadığından sakitliyi pozan yalnız küləyin titrətdiyi zınqırovların səsidir. Burada teatr, laboratoriya, hovuz, qonaq evləri, sənətkarlıq işləri və musiqi mərkəzləri yerləşir. Arkosantidə ekoloji problemlər qalsa da, onlardan qaçmaq mümkündür. Hər il dünyanın müxtəlif bölgələrindən çoxsaylı insanlar buraya səfər edir. İndi bura ətraf mühitin dostu sayılan nadir şəhərlərdəndir.

141. *"Zəbt etmək, tutmaq, zorla soxulmaq"* ifadələrinin qarşılığı mətndə əvvəlində rəqəm yazılmış hansı cümlədə işlənmişdir?

A) 2 B) 1 C) 3 D) 4 E) 5

142. Mətndə üzərində rəqəm yazılmış hansı sözlərin mətndəki mənası düzgün verilmişdir?

1. asfalt, yaxud sement-betonla örtülmüş yol
2. moda göstərən, maneken
3. ən çox
4. tərtib, nizam, qayda

A) 2, 4 B) 1, 3 C) 3, 4 D) 1, 2 E) 1, 4

143. Hansı plan bəndləri mətnin əsas hissəsinə aiddir?

1. Turistlərin şəhərə olan marağı.
2. İnşaat işlərinin zəifləmə səbəbi.
3. Arkosanti şəhərinin salınması ilə bağlı maraq doğuran sual.
4. Ekoloji təmiz şəhər modeli.

A) 2, 4 B) 2, 3 C) 1, 4 D) 1, 3 E) 1, 2

144. Mətndə nöqtələrin yerinə hansı ifadə artırılsa, əvvəlki abzasla əlaqə yaranar?

A) Qəribədir ki B) Axır ki C) Bəlkə də
D) Ancaq E) Çünki

145. Mətnə əsasən doğru fikirləri müəyyən edin.

1. Arkosanti şəhərinin inşasının tamamlanmaması Solerinin ideyasının özünü doğrultmadığını göstərir.
2. Hər il dünyanın müxtəlif bölgələrindən gələn çoxsaylı insan buranı ziyarət edir.
3. Şəhərdə müxtəlif mədəniyyət mərkəzləri yerləşir.
4. Şəhərin tikilib başa çatması əhalinin yardımı hesabına baş tutdu.
5. Arkosanti şəhərində ekoloji problemlər yoxdur.

A) 2, 5 B) 1, 2 C) 1, 3, 4
D) 3, 4, 5 E) 2, 3

146. Şəhərin inşasının tamamlanmama səbəbi mətnin neçənci abzasında əksini tapmışdır?

A) II B) V C) I D) IV E) III

147. Mətnin giriş hissəsində hansı sözlə başlayan cümlə mətnin məzmununa uyğun ***deyil***?

A) Şəhər B) Amerikada C) Təcrübə
D) Kənd E) Bəs

Cəlilqədim Məktəb Kitabı Evinin

148. Mətndə hansı suala cavab tapmaq mümkündür?
A) Soleri "ekoloji şəhər" yaratmaq üçün hansı işləri gördü?
B) Arkosanti şəhərinin inşasına yerli əhali niyə etiraz edirdi?
C) Şəhərin tikintisi neçə ilə yekunlaşdı?
D) Şəhər bura gələn insanlar üçün niyə maraq doğurmurdu?
E) Yerli əhali şəhərdə hansı ekoloji problemlərlə rastlaşırdı?

149. Mətnə əsasən cədvəli doldurun.

Arkosantinin yaşayış üçün əlverişli cəhətləri	*Arkosantinin yaşayış üçün əlverişsiz cəhətləri*

150. *"P. Soleri proyektində ətraf aləmə dəyəcək ziyanın azaldılmasını nəzərdə tutmuşdur"* hökmünü təsdiq edən ən azı iki fikir yazın.

Azərbaycan caz musiqisinin banisi

I "Öz musiqi *karyeramdan*[1] ona görə razıyam ki, mən musiqini və çalışmağı çox sevirəm". Bu sözləri muğam və cazı *sintez*[2] edən, musiqiləri indi də dünyanı **dolaşan** Vaqif Mustafazadə deyib.

II *Təhsil*[3] aldığı ilk musiqi məktəbini bitirəndə musiqi mütəxəssisi olan məktəb direktoru Vaqifin attestatına yazmışdı: "*İxtisasa*[4] uyğun gəlmir". Bu qeydlə Vaqif musiqi təhsilini davam etdirə bilməzdi. Ancaq o, sənədlərini musiqi texnikumuna təqdim edərkən buna əhəmiyyət verilmir. Çünki qiymət cədvəlində *nüfuzlu*[5] musiqiçi Georgi Şaroyevin verdiyi "əla" qiyməti də vardı. Yaşlı ustad o illərdə tək tələbəsi olan Vaqifə görə hər gün konservatoriyanın ən aşağı mərtəbəsindəki sinfə enər, dərsini keçərək təzədən ağır-ağır yuxarı qalxarmış.

III Vaqif 16 yaşında filarmoniyanın səhnəsindəki ifası ilə maestro Niyazini valeh edir. Bakı Musiqi Akademiyasında oxuduğu illərdə konsertlərdə iştirak edir və tanınmağa başlayır. 1965-ci ildə Qafqazda caz üçün ən əlverişli şəraitə malik olan Tiflisə köçür, "Orero" musiqi ansamblına rəhbərlik edir. Tallində keçirilən festivalda Gürcüstanı təmsil edərək dünyanın məşhur cazmenlərini heyran edir və müsabiqənin qalibi olur.

IV 1. Bu dövrdə Bakıda gənclər, azad düşüncəli adamlar arasında caz çox populyar idi. 2. Bundan sonra Bakıya dəvət edilir və vətənə qayıdır. 3. Onu tənqid edənlər isə getdikcə çoxalır. 4. Yenilikləri mühafizəkarlar və keçmiş SSRİ senzurasının xoşuna gəlmir. 5. Vaqif Bakıda keçirilən caz festivalında nəyə qadir olduğunu bir daha sübut edir.

V Vaqifin saçını, qeyri-adi imicini qəbul etmirlər. Elə buna görə də televiziyada solo-konsert vermək cəhdləri boşa çıxır. Bütün bunlar Vaqifi sarsıdır. 1979-cu ildə Monakoda qeyri-adi şərtlərlə festival keçirilir. Şərtlərə görə ifaçının kimliyi gizli saxlanılmalı idi. Festival başa çatdıqdan sonra bizə doğma olan ad çəkilir: Vaqif Mustafazadə. O bu festivaldan vətənə "Ağ royal" mükafatı ilə qayıdır.

VI Sənətkar qısa ömür yaşasa da, Azərbaycan Muğam-Caz hərəkatının memarı səviyyəsinə yüksəlmişdir.

151. Mətndə tünd-qara hərflərlə yazılmış söz hansı nümunələrdə mətndəki mənada (məcazilik və ya həqiqilik baxımından) işlənmişdir?
1. Aytənin bir-birinə dolaşmış saçlarını daramaq üçün bacısı xeyli əziyyət çəkməli oldu.
2. Bütün günü küçələri dolaşsa da, axtardığı ünvanı tapmadı.
3. O, həmişə mənim xəyallarımda dolaşır.
4. İşlərin elə dolaşıb ki, heç özün də baş açа bilmirsən.
5. Qartallar yaralı heyvanın başı üzərində dolaşırdı.
A) 4, 5 B) 3, 4 C) 1, 2, 3 D) 1, 3, 5 E) 2, 4

152. Mətndə məzmun ardıcıllığını nəzərə alaraq IV abzasdakı cümlələrin düzgün ardıcıllığını müəyyən edin
A) 4, 1, 5, 2, 3 B) 2, 4, 5, 3, 1 C) 1, 5, 2, 3, 4
D) 2, 1, 5, 3, 4 E) 1, 3, 4, 5, 2

153. Mətnə əsasən Vaqif Mustafazadə ilə bağlı cədvəldəki doğru fikirləri müəyyən edin

Problem yaradır:	*Problemin həll edilməsində rol oynayır:*
1. Vaqifin xarici görünüşü	4. Maestro Niyazinin heyranlığı
2. Tallində keçirilən festivalda Gürcüstanı təmsil etməsi	5. Georgi Şaroyevin qiymətləndirməsi
3. "Orero" musiqi ansamblına rəhbərlik etməsi	6. Onu tənqid edənlərin getdikcə çoxalması

A) 1, 2, 4 B) 1, 5 C) 3, 6 D) 2, 4, 6 E) 3, 5

154. Mətnə aid doğru fikir hesab etmək olar:
1. Bütün məkanlar musiqi üçün eyni dərəcədə əlverişli olmur.
2. Bütün pedaqoqlar qayğıkeş və xeyirxah olurlar.
3. Cazmenləri ancaq öz sahələrinin sənətkarları real qiymətləndirə bilirlər.
4. Ustad sənətkarları da təəccübləndirmək mümkündür.
A) 1, 4 B) 2, 4 C) 2, 3 D) 1, 3 E) 1, 2

155. Mətnin V abzası, əslində, iki abzasdan ibarətdir. İkinci abzasın ilk sözünü müəyyən edin.
A) Bütün B) Festival C) O
D) 1979-cu ildə E) Şərtlərə görə

156. Mətnə aid əsas fikri müəyyən edin.
A) Sənət ehtiyacdan yaranır və var-dövlət içində boğulub ölür.
B) Bir millətin xarakterini bilmək istəyirsinizsə, o millətin musiqisini dinləyin.
C) Su axar, çuxurunu tapar.
D) Günün harada xoşdursa, ora vətəndir.
E) Bütün sənətlər qardaşdır, hamısı bir-birinin işığı altında irəliləyir.

CamScanner ile skan edilib

157. Hansı plan bəndləri mətnin əsas hissəsinə aiddir?
1. Sənətkar ömrünün yüksək zirvəsi.
2. Şəxsi keyfiyyətin etirafı.
3. Sənətkarın məyusluğu.
4. V. Mustafazadənin davamçıları.
5. Müsabiqə qalibi.

A) 1, 2, 4 B) 1, 2, 5 C) 3, 4 D) 1, 3 E) 3, 5

158. *Xidməti və ya müxtəlif fəaliyyət sahələrində irəliləmə, uğur qazanma* şərhi mətndə üzərində rəqəm yazılmış hansı sözə aid edilə bilər?

A) 3 B) 2 C) 1 D) 4 E) 5

159. Mətnə əsasən Eyler-Venn diaqramını doldurun.



160. Çərçivədə verilmiş hissə neçənci abzasın sonuna əlavə edilsə, mətnin tərkib hissələri arasında əlaqə ***pozulmaz***? Fikrinizi əsaslandırın.

Əfsunlanmış tamaşaçılar arasında birinci ayağa qalxan münsif dünyaca məşhur İsveç cazmeni Yohanson olur. Heyrətindən təmkinini itirən Yohanson: "Öncə o, sonra mən qalib olacağam", – deyə var səsi ilə qışqırır.

Şəkidə

1894-cü ildə Tiflisdən Şəkiyə yollandım.

1. Şəkinin dindar, lakin müxtəlif sənət sahibi olan camaatı son vaxtlarda elmin lüzumunu anlayaraq maarif cəmiyyəti təşkil etmişdi. Bu cəmiyyət milli bir məktəb açmaq üçün hökumətdən izn aldı. Qafqazda ilk dəfə üsuli-cədid tipli nizamlı bir türk məktəbi açıldı və başqa şəhərlər üçün də ▲ *örnək oldu.*

Yuxarı cümə məscidinin yanında daşdan tikilmiş gözəl binanı məktəb üçün ayırdılar. **2.** Bir-iki həftəyə məktəb hazırlıqlarını bitirib dərsə başladıq. Məktəbə 200-ə qədər şagird yığıldı.

Məktəb cəmiyyət üzvlərindən toplanılan ianələr və şagirdlərin təhsil haqları ilə idarə olunurdu. Yoxsul uşaqlarından haqq alınmırdı.

İlk illərdə məktəb, demək olar ki, <u>şəriət ocağı</u> idi. Eyni zamanda, tarix, hesab, coğrafiya, rus dili, türk dili kimi bir neçə dərs tədris olunurdu. **3.** Lakin şagird ataları bundan çox da məmnun deyildilər. Ancaq mən darıxmır, səbir edirdim. Onları yavaş-yavaş ələ almağı düşünürdüm. Bununla yanaşı, bir neçə tacirin də məktəbə pul yardımı etdiyinin şahidi olmuşdum.

İkinci ildən şagirdlər tarix və coğrafiya ilə maraqlanmağa və bu dərslərə ... başladılar. Bir qədər sonra bu dərsləri yaxşı bilənlər artıq məktəbdə tanınırdılar. **4.** Hətta evlərin divarları uşaqları tərəfindən çəkilən xəritələrlə bəzənmiş oldu. Xüsusilə tarix dərsi şagirdlərdə və bəzi valideynlərdə maarif və mədəniyyətə qarşı ■ *rəğbət oyatdı.*

Mənim keçdiyim dərslər içərisində imla dərsi də vardı. **5.** Mən bu dərsi mədəni bir təbliğat vasitəsinə çevirmişdim. İstədiyim mövzunu hekayə kimi söyləyir, sonra yadda qalanı yazdırırdım. Şagirdlər imla yazmağı öyrənəndən sonra onlara mədəni həyata, azadlıq və hürriyyətə, eyni zamanda yeni elm və texnikanı mənimsəməli olduğumuza aid mövzular anladırdım.

Qısa müddət sonra məktəb bir xurafat ocağı olmaqdan qurtulur, az-çox elm məkanı olmağa yaxınlaşırdı. Bu o zaman üçün kiçik müvəffəqiyyət deyildi.

161. Mətnə əsasən ***yanlış*** fikirləri müəyyən edin.
1. Kasıb ailələrin uşaqlarının məktəbdə pulsuz təhsil almaq imkanı olub.
2. Şəkidə milli bir məktəb açılsa da, əhali cəhalətdən tamamilə uzaq deyildi.
3. Əvvəlcə Tiflisdə fəaliyyət göstərən bu məktəb başqa şəhərlər üçün də örnək oldu.
4. Məktəb yarandığı gündən dünyəvi əsaslarla fəaliyyət göstərirdi.
5. Şəkinin dindar sakinləri bir sıra peşə sahibləri idilər.

A) 4, 5 B) 2, 3 C) 1, 5 D) 3, 4 E) 1, 2

162. Hansı fikirlərin yeri dəyişdirilsə, mətnə aid ardıcıllıq düzələr?
1. Maarif cəmiyyətinin fəaliyyəti.
2. Məktəbin təminat mənbəyi.
3. Şagirdlərin dərslərə marağı.
4. Mədəni təbliğat vasitəsi.
5. Fərqlənən şagirdlər.

A) 2↔5 B) 1↔2 C) 3↔4
D) 4↔5 E) 1↔3

163. Altından xətt çəkilmiş ifadənin mətndəki mənasını müəyyən edin.
A) Müxtəlif sənət növlərinin öyrədildiyi yer, məkan
B) Əsasən, dünyəvi elmlərin öyrədildiyi məkan
C) Dini məktəblərin qızdırılması üçün istifadə olunan soba
D) Ruhanilərin olduğu, dini dərslərin tədris olunduğu yer
E) Din adamlarının tez-tez ziyarət etdiyi ocaq, pir, ziyarətgah

164. Əvvəlində rəqəm yazılmış hansı cümlələr mətndən çıxarılsa, məzmun ardıcıllığı ***pozulmaz***?

A) 2, 3 B) 1, 2, 4 C) 3, 4, 5 D) 1, 3 E) 2, 4, 5

165. Hansı nümunələrlə mətndəki əsas fikri əsaslandırmaq mümkün ***deyil***?
1. Tumurcuq dərdində olmayan ağac odundur.
2. Hər hansı məqsədə çatmaq üçün bir çox arzu və istəklərdən imtina etməlisən.
3. Amal uğrunda ölmək əbədi yaşamaqdır.
4. Məktəbləri olan bir millətin gələcəyi parlaqdır.
5. Mübarizə aparan adam üçün məğlubiyyət ar deyil.
6. Elmdə heç bir ideya ehkam deyil.

A) 4, 5, 6 B) 1, 3, 6 C) 1, 2, 4, 5
D) 1, 2, 3, 4 E) 2, 3, 5, 6

166. Mətndə nöqtələrin yerinə uyğun olan ifadəni müəyyən edin.
A) tərəddüd etməyə B) humanistlik etməyə
C) dəyər verməyə D) nifaq salmağa
E) kömək etməyə

167. Mətnin əsas hissəsinə aid olmayan ***yanlış*** fikri müəyyən edin.
A) Qısa müddət ərzində məktəb yeni uğurlar əldə etdi.
B) Bir müddətdən sonra məktəb mövhumat yeri olmaqdan tamamilə azad oldu.
C) Hökumətin icazəsi ilə yeni məktəbin açılışı baş tutdu.
D) Təbliğ edilən dəyərlər ancaq tarix fənni vasitəsilə mümkün olurdu.
E) Məktəbdə fəaliyyət göstərən müəllimlərdən ən azı biri başqa şəhərdən gəlmişdi.

168. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Mətndə bu haqda məlumat var	*Mətndə bu haqda məlumat yoxdur*
1. Məktəbin fəal şagirdləri tədris olunanlara evdə də xüsusi maraqla yanaşırdılar. 2. Məktəbdə təhsil alan şagirdlərin əksəriyyəti azərbaycanlı idi. 3. Elmin təbliğatı təkcə şagirdlərə deyil, getdikcə onların valideynlərinə də müsbət təsir göstərmişdi.	4. Məktəbdə bir neçə dil tədris olunurdu. 5. Məktəb uzun illər fəaliyyət göstərdi.

A) 1, 4, 5 B) 1, 2, 3 C) 1, 3, 5
D) 2, 4, 5 E) 2, 3, 4

169. Mətndə əvvəlində işarə qoyulmuş ifadələr əsasında cədvəli doldurun.

	Sözün qarşılığı (ifadə etdiyi məna)	*Həmin qarşılığın (ifadə etdiyi mənanın) mətndənkənar cümlədə işlədilməsi*
▲		
■		

170. Mətnin əsas hissəsində məzmun ardıcıllığını pozan cümləni müəyyən edib yazın və seçiminizi əsaslandırın.

Mətndə məzmun ardıcıllığını pozan cümlə	*Məzmun ardıcıllığını bərpa etdikdən sonra həmin cümlənin aid olduğu abzas*

Yaşıl Antarktida

I Yerin cənubundakı böyük qitə bir zamanlar indiki kimi buzlaqlardan ibarət deyildi. Bura sıx meşələrlə əhatə olunmuşdu və hər növ heyvanın **məskəni** idi. İqlimi də indikindən xeyli fərqlənirdi.

II Təxminən, 550-180 milyon il əvvəl Antarktida Qondvana adı verilən superqitənin parçası idi. Qondvananın indiki Afrika, Cənubi Amerika, Antarktida, Avstraliya, Yeni Zelandiya, Ərəbistan yarımadası, Madaqaskar və Hindistanı əhatə etməsi təsdiqini tapmışdır.

III Elm adamları Şərqi Antarktidada, təxminən, 1 km dərinlikdə heyrətamiz bir tapıntı üzə çıxarmışlar: indiki tropik zonalarda bitən bitkilərin fosillərini (qalıqlarını). Alimlərin gəldiyi **qənaətə** görə, bu tapıntı milyonlarla il bundan əvvələ aiddir.

IV Sonralar burada nə zamansa yaşamış bir çox məməlilərin fosilləri də tapıldı. Burada tapılmış fosillərin özünəməxsusluğu digər qitələrdə tapılanlardan daha qədim olmasında idi. Cənubi Amerika, Antarktida və Avstraliyada eyni kisəli heyvanın – indiki kenquruların əcdadının fosilləri də tapılmışdı. Qitələr ayrıldıqdan sonra isə həmin heyvan hər qitədə özünəməxsus **təkamül** yolu keçsə də, Avstraliyada ilkin quruluşunu saxlaya bilmişdir.

V Antarktidanın buz örtüyünün altında tapılan fosillər bir zamanlar qitənin çox isti ..... . Qitənin iqlimi bu gün ekvatora yaxın olan tropik iqlimə uyğun imiş. Bəs necə oldu ki, bu yaşıl **libas** geyinmiş qitə heç kimə qucaq açmayan buzlağa çevrildi?

VI Alimlər tərəfindən təbii şəraitlərin hansı zaman kəsiyində dəyişməyə başladığı öyrənilməyə çalışılır.

VII Bu dəyişikliklərin tədricən olduğu düşünülür. 56 milyon il əvvəl Cənubi Amerikanın superqitədən ayrılmağa başladığı güman edilir. 16 milyon il əvvəl isə Avstraliya və Antarktida bir-birindən ayrılmağa başladı. Antarktida Yerin cənub qütbünə doğru hərəkət etdi. Yer kürəsində iqlimin soyumasına, həmçinin buradakı tropik bitki örtüyünün azalmasına və nəhayət, buzlaşmadan sonra yox olmasına səbəb oldu.

171. Mətndə tünd-qara hərflərlə verilmiş sözlərdən heç birinin qarşılığı kimi düşünülə ***bilməz***:
A) nəticə B) məkan C) paltar
D) vəd E) inkişaf

172. Mətnin məzmununa əsasən hansı abzasların bir abzas şəklində verilməli olduğunu müəyyən edin.
A) I və II B) III və VII C) IV və V
D) VI və VII E) II və III

173. Mətnin plan bəndlərinə aid edilə ***bilməz***:
1. Qədim Antarktida.
2. Qitələrin toqquşması.
3. Buzlaqların altındakı bitki qalıqları.
4. Fosillərin bizə ötürdüyü informasiya.
5. İqlim istiləşməsinin nəticələri.
A) 1, 4 B) 4, 5 C) 1, 3 D) 2, 5 E) 2, 3

174. Mətnə görə ***yanlış*** hökmdür:

A) Müasir elm qədim tapıntıların yaşını təxmin etməyə də imkan verir.
B) Antarktidanın cənub qütbünə doğru hərəkət etməsi Qondvananın parçalanmasına səbəb olmuşdur.
C) Bitki və heyvan qalıqları əsasında keçmişlə bağlı müəyyən fikir söyləmək olar.
D) Buz qatının altında fosillər tapılmışdır.
E) Antarktida fosillərinin yaşı digər qitələrdə tapılanlardan daha qədimdir.

175. Mətnə əsasən səbəbini müəyyən etmək mümkündür:

1. hazırda bəzi qitələrdən eyni iqlimə xas bitki və heyvan qalıqlarının tapılmasının
2. Antarktidada vaxtilə kenquru yaşamasının
3. Qondvananın müxtəlif qitələrə parçalanmasının
4. Antarktidanın buzlağa çevrilməsinin
5. Superqitənin yerin digər quru hissəsindən ayrı olduğunu

A) 1, 2, 4 B) 2, 3, 5 C) 1, 3, 5
D) 2, 4, 5 E) 1, 3, 4

176. Mətndəki məlumatlara əsasən klasteri tamamlaya bilən fikirlərdir:

Əvvəllər Yer kürəsində indiki dövrlə müqayisədə fərqli olmuşdur: [ ]

1. alimlərin fikirləri 2. qitələrin strukturu
3. iqlim 4. heyvanların növləri

A) 1, 2 B) 2, 3 C) 1, 3 D) 1, 4 E) 3, 4

177. Mətnə və cədvələ əsasən müəyyən edin.

Doğrudur	*Yanlışdır*
1. Yerin müəyyən meşə sahəsi buzlaqlarla əvəz olunub. 2. Antarktida başqa bir qitənin altında qalıb.	3. Lap qədim zamanlarda Yer kürəsində çox böyük dəyişikliklər baş verib. 4. Qədim zamanlarda da Antarktidanın iqlimi mülayim iqlimə uyğun olub.

A) 1, 4 B) 1, 3 C) 2, 3 D) 1, 2 E) 3, 4

178. Mətnə əsasən ehtimal hesab edilə bilər:

A) Superqitənin mövcudluğu.
B) Cənubi Amerikanın superqitədən ayrılma vaxtı.
C) Bəzi heyvanların təkamül yolu keçərək bu günə qədər gəlib çıxması.
D) İqlim soyuması nəticəsində tropik bitki örtüyünün məhv olması.
E) Yer kürəsində iqlim dəyişikliyi.

179. Mətndə nöqtələrin yerinə uyğun ifadə yazmaqla cümləni tamamlayın.

180. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəb	*Nəticə*
	Antarktida iqlimi çox isti olan bir yer idi.
Antarktidadan müxtəlif fosillər tapıldı.	

Böyük Adriya – itmiş qitə

I Milyonlarla il əvvəl Qondvana adlı superqitənin mövcud olduğu sirr deyil. Qondvana indiki Afrika, Cənubi Amerika, Antarktida və Avstraliya qitələrini birləşdirirdi. Milyonlarla yaşı olan tropik iqlimə xas eyni bitki və heyvan növlərinin daşlaşmış qalıqları bu qitələrin hamısında aşkarlanmışdır.

II İndiki qitələr tədricən ayrılıb **müasir** geoloji **strukturu** meydana *çıxarmışdır*[1]. Ancaq tədqiqatlar onu da göstərdi ki, qitələr yalnız bir-birindən ayrılmayıb, hətta bir-biri ilə toqquşub.

III Holland araşdırmaçısı Van Hinsbergen və həmkarları Aralıq dənizinin dibində və sahillərindəki qayalıqlarda araşdırmalar aparmışlar. Onlar Avropanın cənubunda yerləşdiyi güman edilən və vaxtilə Qondvanadan *qopduğu*[2] müəyyən edilən "Böyük Adriya" adlı itmiş qitəni tapmaq niyyətində idilər.

IV Qitənin okeanın altında qaldığı güman edilirdi. Lakin araşdırmalar nəticəsində belə qərara gəlindi: Qitə həm suyun altına, həm də Avropanın altına batıb. Yüzlərlə kilometr dərinlikdəki mantiyaya – Yer qabığının altındakı **təbəqəyə** çökən Böyük Adriya müasir Avropanın altında qalıb. Bəs necə ola bilərdi ki, böyük bir qitə yerin dərinliyinə gizlənib yox olsun?

V 140 milyon il əvvəl iki qitənin *toqquşduğu*[3] və min illərlə *sürən*[4] bu proses nəticəsində Böyük Adriyanın tamamilə çökərək indiki İtaliya, Yunanıstan və Baltik ölkələrinin altında qaldığı məlum olmuşdur. Bu həmin ərazilərdə *böyük*[5] dağ silsilələrinin meydana gəlməsinə də səbəb olmuşdu. Üstəlik, tədqiqatçılara görə, Böyük Adriya çökmüş yeganə qitə deyildi, araşdırmalar qədimdə yoxa çıxan digər qitələrin də ..... .

VI Lakin itmiş qitələr tamamilə yox olmayıb, çöküşdən sonra arxalarında öz izlərini də qoyub. Mütəxəssislərin iddialarına görə, Böyük Adriya **dönəmindən** qalma qaya süxurlarındakı əhəng milyonlarla illər ərzində yüksək temperatur və təzyiq nəticəsində mərmərə çevrilib.

VII Van Hinsbergen qədim yunan və romalıların memarlıqda istifadə etdiyi mərmərlərin bu qayalardan əldə edildiyini deyir.

VIII Tədqiqatçılar Böyük Adriyanın son tapıntı olmayacağını, itmiş qitələrin daha çox olduğunu güman edirlər.

181. Mətndə tünd-qara hərflərlə verilmiş sözlərdən hey birinin qarşılığı kimi düşünülə ***bilməz***:

A) çağdaş B) qat C) quruluş
D) dövr E) əhəmiyyət

182. Mətnin məzmununa əsasən hansı abzaslar eyni bir abzasın tərkibində olmalıdır?

A) I və VI B) III və VII C) IV və V
D) VI və VII E) II və III

183. Mətnin tərkib hissələrinə aid bəndlərdən hesab edilə ***bilməz***:
1. Birləşmiş qitələr.
2. Qitələrin parçalanması.
3. Qitələrin bərpası.
4. İtmiş qitələrdən qalan izlər.
5. Böyük Adriya mədəniyyətinin sonu.

A) 1, 4 B) 2, 4 C) 2, 5 D) 3, 5 E) 1, 3

184. Mətnə əsasən ***yanlış*** hökmdür:
1. İtmiş qitə haqqında tədqiqatdan əvvəlki ehtimallar özünü tam doğrultmadı.
2. Qitələrin bir-birindən uzaqlaşması canlıların meydana gəlməsindən əvvəl baş verib.
3. Van Hinsbergen və həmkarları araşdırmalara başlamazdan əvvəl itmiş qitə haqqında məlumatlı idilər.
4. Qitələrin toqquşması uzun illər ərzində baş verib.
5. Qitələrin toqquşması yunanlar üçün təbii fəlakətə çevrilmişdir.

A) 2, 5 B) 1, 3 C) 4, 5 D) 2, 3 E) 1, 4

185. Mətnə əsasən səbəbini müəyyən etmək mümkündür:
1. mərmərin yaranmasının
2. qitələrin toqquşmasının
3. müxtəlif qitələrdən eyni bitki və heyvan qalıqlarının aşkarlanmasının
4. Avropanın altında başqa bir qitənin olmasının
5. tikinti materialı kimi mərmərin müxtəlif növlərindən istifadəsinin

A) 2, 4, 5 B) 1, 3, 4 C) 1, 4, 5
D) 2, 3, 5 E) 1, 2, 3

186. Mətndə üzərində rəqəm yazılmış ifadələr əsasında cədvəldəki ***uyğunsuzluğu*** müəyyən edin.

İfadələr	*Məcazi mənalıdır*	*Həqiqi mənalıdır*
1.		✓
2.	✓	
3.		✓
4.	✓	
5.		✓

A) 2, 4 B) 1, 4, 5 C) 1, 3 D) 2, 3, 5 E) 1, 2

187. Klasteri tamamlayan fikirləri müəyyən edin.

Mətnin giriş hissəsində bəhs olunur:

1. Tropik iqlimin qitələrin yaranmasına təsirindən
2. Qitələrin toqquşaraq Qondvananı əmələ gətirməsindən
3. Superqitənin milyon illər əvvəl mövcud olmasından
4. Vaxtilə Qondvanada heyvan və bitkilərin mövcud olmasından

A) 1, 4 B) 3, 4 C) 2, 3 D) 1, 2 E) 1, 3

188. Mətnə əsasən ehtimal oluna bilər:
A) qədimdə superqitənin mövcudluğu
B) itmiş qitələrin sayca daha çox olması
C) qitələrin toqquşması
D) itmiş qitənin izlərinin mövcudluğu
E) suyun altına batmış qitənin olması

189. Mətndə nöqtələrin yerinə cümləni tamamlaya bilən ən azı iki ifadə yazın.

190. Mətnə əsasən sxemi tamamlayın (✓) və seçiminizi əsaslandırın.

Toqquşmalardan əvvəl Avropa və Böyük Adriyanın bitkilər və heyvanlar aləminin eyni olduğunu:

söyləmək olar. ☐

söyləmək olmaz. ☐

Vulkanlar nə dərəcədə təhlükəlidir?

I Vulkan dərin maqma ocaqlarından yerin səthinə lava, qaynar qaz, su buxarı püskürən geoloji hadisədir. • Vulkan püskürən ərazilər zəngin faydalı qazıntı ehtiyatlarına malik olur. Tarix vulkanların *törətdiyi*[1] bir sıra fəlakətləri görmüşdür. ▲ Qədim Pompey şəhəri Vezuvi vulkanının külləri altında qalmış və burada yaşayışa son vermişdir. Bəs günümüzdə vulkanlar nə dərəcədə təhlükəlidir?

II Bəziləri vulkanların tez-tez fəallaşaraq ciddi təhlükəyə *səbəb olduğunu*[2] düşünürlər. ABŞ Yellouston Milli Parkında yerləşən vulkanın da aktivləşərək təhlükə yarada biləcəyi ehtimal olunur. Park öz qeyzerləri və kurortları ilə məşhurdur. ♦Yelloustonun *yerləşdiyi*[3] dağın altında böyük bir maqma kütləsinin yerləşdiyi məlumdur. ✚ Yelloustondakı ən böyük püskürmə yeddi yüz min il bundan əvvələ təsadüf edir. ■ Deməli, vulkanın yenidən püskürməsi ehtimalı çox zəifdir. Bəs görəsən, həmin vulkanda böyük püskürmə olsa, nəticəsi necə olar?

III Alimlərə görə, püskürmədən əvvəl Milli Parkın ətrafındakı torpaq zəmini yüksələrdi. Sonra maqma üzə çıxardı. Maqma təbəqəsinin üzərindəki tavan davam gətirə bilməz və püskürmə başlayardı. Böyük lava və kül kütləsi 26 km-ə qədər yuxarı fışqırar və püskürmə yüksəldikcə *xaric olunan*[4] kül daha çox ərazini əhatə edərdi. Beləliklə, vulkanın ən təhlükəli nəticəsi *hesab olunan*[5] kül yağıntısı olardı. Bir neçə yaxın şəhərin qalın kül təbəqəsi ilə örtülməsi binaların ağırlığa davam gətirməməsinə səbəb olar, bəzi uzaq şəhərlərdə isə insanların nəfəs alması və yaşaması çətinləşərdi. Hətta bu kül təbəqəsinin stratosferə yayılaraq günəş şüalarının yerə düşməsini əngəlləməsi və dünyanın bəzi bölgələrində bir neçə il yay mövsümünün olmaması da mümkün ola bilərdi.

IV Lakin Yellouston müşahidə bürosunun alimləri bu hadisənin ... . Hətta bir püskürmə olsa, bunun çox böyük olmayacağından əmindirlər. Araşdırmalar göstərir ki, ən pis halda tipik lava axını ola bilər. Burada sonuncu böyük püskürmə yüz min illər əvvələ təsadüf edir.

V Böyük təhlükə gözlənməsə belə, elm adamları vulkanlarla bağlı hər hansı təhlükəni qabaqlaya biləcək yollar axtarışındadırlar.

191. Mətndə üzərində rəqəm yazılmış hansı sözlər mənaca bir-birini əvəz edə bilər?
A) 1↔2 B) 1↔4 C) 3↔5
D) 2↔5 E) 3↔4

192. *"Vulkanlar püskürür"* səbəbinə uyğun ***olmayan*** nəticəni müəyyən edin.
A) Fəlakətlər baş verir.
B) Yerin altında maqma kütləsi yaranır.
C) Yaxın əraziləri qalın kül təbəqəsi örtür.
D) Canlıların həyatı üçün təhlükə yaranır.
E) Su buxarı, lava, kül və s. xaric olur.

193. Mətndə altından xətt çəkilmiş cümlədəki fikir ikinci abzasda hansı sözlə başlayan cümlədəki fikrin təkrarıdır?
A) ABŞ B) Yelloustondakı
C) Yelloustonun D) Bəziləri E) Deməli

194. Klasterə əsasən mətndə çərçivədə verilmiş sözün şərhini müəyyən edin.

Günortadan sonra yağış yağa bilər.	
1.	Havanın istiləşməsi mümkündür.
	2. .....

A) 1 – Bir şeyin ola bilmə mümkünlüyü;
2 – Günortadan sonra güman ki, hava dəyişəcək.
B) 1 – Təbii hadisənin dəqiqliyi; 2 – Təbiətdə hər şeyin baş verməsi əvvəlcədən məlum olur.
C) 1 – Qədimdə baş vermiş hadisə; 2 – Qədimdə baş vermiş hadisənin təkrarlanması mümkündür.
D) 1 – Bir şeyin baş verə bilməməsi; 2 – Belə hadisələr təkrar-təkrar baş verə bilməzdi.
E) 1 – Təbiət hadisəsinin baş verməsi; 2 – Günorta yağış yağmayacaq.

195. *Böyük püskürmənin təxmin edilən nəticəsi* və *Elm adamlarının əminliyi* plan bəndləri uyğun olaraq mətnin neçənci abzaslarına aiddir?
A) III, IV B) II, III C) I, II
D) IV, V E) II, V

196. Mətndə əvvəlində işarə qoyulmuş cümlələrə əsasən uyğunluğu müəyyən edin.
1. Vulkan nəticəsində baş vermiş müsbət hadisə
2. Vulkan nəticəsində baş vermiş mənfi hadisə
A) 1 – ♦; 2 – ✚
B) 1 – ▲; 2 – ✚
C) 1 – ●; 2 – ▲
D) 1 – ●; 2 – ■
E) 1 – ♦; 2 – ■

197. Hansı cümlə mətnin əsas və nəticə hissələri arasında əlaqə yarada bilər?
A) Palçıq vulkanlarının lava püskürən vulkanlara nisbətən aktiv olduğunu da nəzərə almaq lazımdır.
B) Vulkan palçığının müalicəvi xassələri elm adamları tərəfindən öyrənilir.
C) Unutmaq olmaz ki, təbii fəlakətlər insanı ən gözləmədiyi anda yaxalaya bilir.
D) Vulkan püskürməsi çox zaman güclü zəlzələlərlə də müşayiət olunur.
E) İnsanlar təbii fəlakətlərin yarada biləcəyi təhlükələrə qarşı tamamilə hazırlıqlıdırlar.

198. Mətnə görə vulkan zamanı müxtəlif yaşayış məntəqələrinə dəyən fəsadın yüngül və ya ağır olması hansı amillərlə bağlıdır?
1. yaşayış məntəqələrinin vulkana yaxınlığı və ya uzaqlığı ilə
2. püskürmənin hansı mövsümdə baş verməsi ilə
3. vulkan küllərinin yaşayış məntəqələrinə nə dərəcədə yayılması ilə
4. püskürmənin alçaqlığı və ya yüksəkliyi ilə
5. tikilən binaların hündürlüyü ilə
A) 1, 3, 4 B) 2, 3, 4 C) 2, 4, 5
D) 1, 3, 5 E) 1, 2, 5

199. Mətndə nöqtələrin yerinə uyğun fikir yazmaqla cümləni tamamlayın.

200. Mətnə əsasən hər hissəyə bir fikir yazmaqla Eyler-Venn diaqramını doldurun.



Camscanner ilə skan edilib

Amazon meşələrini qoruya bilməsək, nə baş verər?

I Amazon meşələrində ilbəil həm insan fəaliyyəti, həm də təbii amillər nəticəsində baş verən yanğınlar bu yaşıl sahəni tədricən məhv edir. Bu meşələr dünyanın iqlimi, ekosistemi üçün böyük əhəmiyyət daşıyır. Əgər bu təhlükənin qarşısını almasaq, 100 il ərzində bütün Amazon meşələri yox ola bilər. Bəs bunun hansı nəticələri ola bilər?

II Müasir dövrdə bir çox əhəmiyyətli dərmanlar Amazonda bitən müxtəlif bitkilərdən əldə edilir. Bu bitkilər məhv olarsa, tibb aləmi ... .

III Cənubi Amerika əhalisinin əksər hissəsinin gəlir mənbəyi Amazon meşələridir. Bu meşələrin məhv olması orada ixracatla bağlı ticarətin iflasa uğramasına və milyonlarla insanın gəlir yerinin bağlanmasına gətirib çıxarar.

IV "Dünyanın ağciyərləri" adlandırılan Amazon atmosferdəki oksigenin 20%-ni verir. Yanğınlar davam edərsə, böyük oksigen mənbəyini itirər və zəhərli qazların atmosferə yayılmasına şahid olarıq.

V Üç milyon km^2-dən geniş olan Amazon Yer üzündəki heyvanların 30%-nə ev sahibliyi edir. Burada dünyanın heç bir yerində olmayan bəzi heyvanlar və quşlar yaşayır. Bu heyvanlar olmasa, ekosistemimiz üçün gərəkli olan bioloji müxtəlifliyi də itirmiş olarıq. Bəs biomüxtəliflik niyə bu qədər önəmlidir? Biomüxtəliflik bitkilərin və heyvanların təkamül keçirib olduqları mühitə uyğunlaşmasına, bir-birinin sayəsində mövcudluğuna imkan yaradır.

VI Göründüyü kimi, nəhəng Amazon meşələrinin məhv olmasına göz yumsaq, bütün dünyanın fəlakətinə hazır olmalıyıq. Bəs biz nəyi isə dəyişə bilərikmi?

VII Elm adamları iddia edirlər ki, Amazon meşələri 90 milyard ton karbon **sərf edirlər**. Ağaclar olmasa, karbon atmosferə yayıla və Yerə düşən Günəş şüaları öz istiliyini saxlayaraq atmosferin həddən artıq qızmasına səbəb ola bilər. Bununla qütblərdəki buzlaqlar əriyərək dünyanın çox hissəsini su altında qoyar.

VIII Plastik əşyalardan imtina, suya qənaət, kağız və başqa təbii nemətlərdən qənaətlə istifadə ilə hər birimiz ətraf aləmə vurduğumuz zərəri azaltmış və planetimizin ömrünü uzatmış olarıq.

201. Mətndə tünd-qara hərflərlə verilmiş ifadənin şərhinə uyğun doğru fikri müəyyən edin.

A) xərcləmək – *Daha çox əmək sərf etməklə bu layihəni tamamlaya bilərsiniz.*
B) işlətmək – *Paltarın yuyulması üçün çox su sərf etdi.*
C) israf etmək – *Lazımsız yerə əmək sərf etdik.*
D) faydalı olmaq – *Sənin bu təklifin mənə sərf edir.*
E) həsr etmək – *Hər günün ən azı bir saatını kitab oxumağa sərf et.*

202. Hansı ifadəni mətndəki nöqtələrin yerinə əlavə etməklə cümləni tamamlamaq olar?

A) böyük zərər görmüş olar
B) təkamül dövrü keçirər
C) puça çıxar
D) xeyir tapmaz
E) yox olar

203. Mətnin planı əsasında uyğunluğu müəyyən edin.

1. Giriş
2. Əsas hissə

a. Meşə yanğınlarında insan faktoru.
b. Canlı aləmin mühafizəsi üçün görülə bilən işlər.
c. Zəhərli qazların atmosferə yayılması.
d. Amazon meşələrinin məhv ola biləcəyi müddət.
e. İqlimin isinmə təhlükəsi.

A) 1 – a, e; 2 – b, d
B) 1 – b, d; 2 – c, e
C) 1 – a, d; 2 – c, e
D) 1 – c, e; 2 – a, d
E) 1 – e; 2 – a, c

204. Mətnin hansı abzaslarının yeri dəyişdirilsə, fikirlərin ardıcıllığı bərpa olunar?

A) I↔II
B) I↔VIII
C) VI↔VII
D) V↔VI
E) II↔VIII

205. "*Yer üzündə bütün böcəklər məhv olarsa, dünyada canlı həyat yalnız 60 il mövcud ola bilər*" hökmü ilə mətndə altından xətt çəkilmiş hansı sözlə başlayan cümlədəki fikri qüvvətləndirmək olar?

A) Əgər
B) Cənubi
C) Dünyanın
D) Üç
E) Biomüxtəliflik

206. "*Sadə şəkildə desək, ağaclar olmasa, həyatımız toksinlərin ümidinə qalar*" cümləsi mətnin neçənci abzasının sonuna əlavə olunsa, məzmun ardıcıllığı ***pozulmaz***?

A) I
B) V
C) III
D) VII
E) IV

207. Birinci və sonuncu abzaslar əsasında meşələrin məhv olmasının hansı səbəblərini müəyyən etmək olar?

1. Təbii fəlakət.
2. İnsanların ekosistemə vurduğu zərər.
3. Karbonun atmosferə yayılması.
4. Təbii nemətlərdən israfla istifadə.
5. Ərzaq qıtlığı.

A) 1, 2, 4
B) 1, 3, 5
C) 2, 3, 4
D) 1, 2, 5
E) 3, 4, 5

208. Mətnə əsasən biomüxtəliflik anlayışı ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Dünyanın ekosistemi üçün çox əhəmiyyətlidir.
2. Zəhərli qazların atmosferə yayılmasının qarşısını alır.
3. Canlılar aləminin birgə yaşamını təmin edir.
4. Atmosferi oksigenlə təmin edir.
5. İnsanın qida ehtiyatını mühafizə edir.

A) 1, 2, 5
B) 2, 3
C) 1, 4
D) 1, 3
E) 3, 4, 5

209. Mətnə əsasən "*Təbiəti tükədirik, bundan sonrakı məqsədimiz yerdə qalanları qorumaq olmalıdır*" deyimini mətnlə əlaqələndirib fikrinizi ən azı iki cümlə ilə yazın.

210. Mətnə əsasən doğru hökmü müəyyən edin (✓) və seçiminizi əsaslandırın.

☐ Karbon isti qaz olduğu üçün iqlimin isinməsinə səbəb olur.

☐ İnsandan fərqli olaraq, digər canlıların təbiətə zərərli təsiri, demək olar ki, yoxdur.

☐ Meşələrin yanması yalnız insan fəaliyyəti ilə bağlıdır.

Camscanner ilə skan edilib

Qar dənəciyi Muzeyi

Muzeylər tarixin müəyyən məqamını özündə yaşadan, ötən **çağların** müxtəlif olaylarından xəbər verən *eksponatları*[1] komplektləşdirən, qoruyub saxlayan, öyrənən, nümayiş etdirən maddi-mənəvi xəzinə sayılır. Muzeylər mahiyyətinə görə müxtəlif təmayüllü olur. Məsələn, dövlət, arxeoloji, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq və s. Bununla yanaşı, bəzi ölkələrdə qeyri-adi əşyalar sərgilənən muzeylər də vardır. Məsələn, Cənubi Koreyada Sevgi Muzeyi, Türkiyədə Saç Muzeyi, Almaniyada Yalançı Muzey, ABŞ-də Pis İncəsənət Muzeyi və Zibil Muzeyi mövcuddur.

Yaponiyanın Hokkaydo adasında yerləşən muzeylərdən birində də çox orijinal *kolleksiya*[2] təqdim olunur. Bu muzeyin əsas *xüsusiyyəti*[3] burada nümayiş olunan kolleksiyanın qar dənəciklərindən ibarət olmasıdır. Bu muzey Qar dənəciyi Muzeyidir.

Muzeyin qurucuları bu • *kövrək* qar dənəciklərini qoruyub saxlaya bilmədikləri üçün ziyarətçilərə ən gözəl və qeyri-adi qar dənəciklərinin fotoşəkillərini göstərməyə qərar vermişlər. Muzeydə bir-birindən fərqli yüzlərlə qar dənəciklərinin fotoşəkillərini görmək olar.

Muzeyin qurucusu unikal muzeyşünas alim Nakaya Ukitirodur. O belə bir muzeyin qurulmasının olduqca çətin və məsuliyyətli iş olduğunu bildirmişdir. İlkin vaxtlarda hələ qar dənəciklərini canlı saxlamaq istədikləri üçün istifadə olunan alətlərin kifayət qədər baha olduğunu, muzeyin açılmasının böyük sərmayə tələb etdiyini söyləmişdir.

Muzeyin qurucusu Ukitiro böyük səbirlə qar dənəciklərini *təsnif etmiş*[4], onların özəl xüsusiyyətlərini göstərmişdir. O, hazırda da inanılmaz dərəcədə gözəl "qar yağışı" üzərində işləyir. Qar dənəciyi Muzeyini ziyarət edərkən muzey ziyarətçiləri Ukitironun bəzi kəşfləri ilə də tanış ola bilərlər.

Muzeydə sərgi salonlarından əlavə, tanınmış sənətkarların *müntəzəm*[5] çıxış etdikləri konsert salonu da mövcuddur. Salonun özünəməxsus akustikası var. Buna görə qonaqlar ən maraqlı fotokolleksiyaları və unudulmaz konsertləri izləmək imkanı əldə edirlər.

211. Mətnə əsasən klasteri tamamlaya bilən fikirləri müəyyən edin.

Nakaya Ukitiro	Məsuliyyətli bir işi öhdəsinə götürmüşdür.

1. Elmə məlum olmayan bir sıra təbiət hadisələrinin fotolarını tapıb üzə çıxarmışdır.
2. Bəzi ilklərə imza atmışdır.
3. Yaponiyada təsis edilmiş Qar dənəciyi Muzeyi onun adını daşıyır.
4. Nadir muzeyşünaslıq mütəxəssisidir.
5. Yeni qar dənəciklərini nümayiş etdirməyi planlaşdırmasa da, muzey öz fəaliyyətini davam etdirir.

A) 2, 4 B) 1, 3 C) 2, 5 D) 1, 4 E) 3, 5

212. Hansı fikirləri mətnə aid etmək ***olmaz***?

1. Adı çəkilən adada Qar dənəciyi Muzeyindən başqa bir neçə muzey də fəaliyyət göstərir.
2. Muzeydə tanınmış sənətkarların çıxış etməsi yapon ənənəsidir.
3. Muzeyə müxtəlif ölkələrdə xüsusi şəraitdə saxlanılan qar dənəcikləri də gətirilmişdir.
4. Muzeylərdə yalnız arxeoloji tapıntılar mühafizə edilmir.
5. Qar dənəciyi Muzeyi təmayülünə görə qoruq hesab edilir.

A) 1, 5 B) 2, 3, 5 C) 2, 4, 5
D) 3, 4 E) 1, 3

213. Üzərində rəqəm yazılmış sözlərdən birinin mətnə görə mənası düzgün ***verilməyib***:

A) 5 – bəzi vaxtlarda, hərdənbir
B) 2 – əhəmiyyəti olan şeylərin müəyyən sistem üzrə düzülmüş toplusu
C) 3 – hər hansı bir şeyi digərindən ayıran səciyyəvi cəhət, əlamət
D) 4 – hər hansı fərqlənmə əlamətlərinə və xassələrinə görə qruplara ayrılmaq
E) 1 – sərgidə, muzeydə nümayiş etdirilən məmulat

214. Hansı cümlə ilə mətni genişləndirmək olar?

A) Alimlər Marsın cənub qütbündə karbon qazından ibarət qar buludları aşkar ediblər.
B) Çoxsaylı tədqiqatlar nəticəsində Yer üzündə bir qar dənəciyinin o birinə bənzəmədiyi aşkarlanmışdır.
C) Qar hər zaman havanın soyuq olduğunu göstərir.
D) Qar dənəciklərinə düşən işıq müxtəlif tərəflərə yayılır.
E) Qar dənəcikləri muzeydə xüsusi qablarda nümayiş etdirildiyi üçün öz formasını saxlayır.

215. Mətndə əvvəlində • işarəsi qoyulmuş sözlə bağlı cədvəldəki doğru fikirləri müəyyən edin.

Mənası	*Kontekstə görə mənası*	*Həmin mənaya uyğun nümunə*
1. Həqiqi 2. Məcazi	3. tez ovulan, tez dağılan 4. titrək, nazik 5. tez mütəəssir olan, təsirlənən	6. Qoca kövrək səsinin titrədiyini duyub susdu. 7. Qaratikan kolunun kövrək zoğlarına toxunan kimi zoğlar qırılmağa başladı.

A) 1, 5, 7 B) 2, 5, 7 C) 2, 4, 6
D) 1, 3, 6 E) 1, 3, 7

216. Mətndə tünd-qara hərflərlə verilmiş sözü kontekstə görə əvəz edə bilər:

1. məkan 2. zaman 3. vəziyyət
4. yer 5. hal 6. dövr

A) 1, 3, 4 B) 1, 4, 5 C) 2, 6
D) 3, 6 E) 2, 5

Camscanner ilə skan edilib

217. Mətnə əsasən hansı fikri əminliklə söyləmək olar?
A) Nakaya Ukitironun bütün kəşfləri təbiət hadisələri ilə bağlıdır.
B) Avadanlıqlar kifayət qədər baha olduğundan istənilən bir muzey yaradılması olduqca çətindir.
C) Muzeyin açılması üçün lazım olan sərmayəni Ukitiro qoymuşdu.
D) Bir sıra muzeylərdə tanınmış sənətkarlar müntəzəm çıxış edirlər.
E) Muzeyi ərsəyə gətirərkən yaradıcıların məqsədi qar dənəciklərinin fotoşəkillərini deyil, qar dənəciklərinin özünü nümayiş etdirmək olmuşdur.

218. Mətnə əsasən doğru fikirləri müəyyən edin.
1. Təbiət hadisəsi maddi-mənəvi xəzinənin yaranması üçün əsas ola bilər.
2. Yalnız Avropa və Asiya qitələrində qeyri-adi muzeylər fəaliyyət göstərir.
3. Muzeyi ziyarət edənlər burada müxtəlif fəaliyyətlərlə tanış olurlar.
4. Qarın yağmasını izləmək imkanı turistləri muzeylərə cəlb edir.

A) 1, 2 B) 1, 4 C) 2, 3 D) 2, 4 E) 1, 3

219. Nakaya Ukitironun fəaliyyətinə əsasən uyğun fikirləri müəyyən edin [√] və seçiminizi əsaslandırın.

[ ] 1. Müvəffəqiyyət hər gün yığılan kiçik cəhdlərin nəticəsidir.
[ ] 2. Hər tapşırılmış işə görə yalnız bir nəfər məsuliyyət daşımalıdır.
[ ] 3. Uğur qazanmaq üçün hövsələ və dözüm tələb olunur.
[ ] 4. Kiçik işlərlə məşğul olsanız, böyük işlərdə uğur qazana bilməzsiniz.

220. Sxemdəki doğru fikri müəyyən edin [√] və seçiminizi əsaslandırın.

Mətnə əsasən *"Sənət təbiətdən sonsuzluğa atılan addımdır"* fikrini
- təsdiq etmək olar [ ]
- təkzib etmək olar [ ]

CamScanner ilə skan edilib

Buraxılış imtahanlarının modelinə uyğun mətn tapşırıqları (11-illik)

Platona inanmaq olarmı?

I Atlantida ilk dəfə qədim yunan mütəfəkkiri Platon tərəfindən qeyd edilən əfsanəvi ada və ya qitədir. Platon Atlantida faciəsi haqqında məlumatları babasından, onun isə Misir rahiblərindən eşitdiyini bildirərək yazır: "Dəhşətli zəlzələ və subasması nəticəsində bizim ordumuz bir gün və gecə ərzində torpağa gömüldü. Atlantida adası da dənizin dərinliklərində .....".

II Bəşər tarixinin sonrakı dövrlərində də Atlantidanın taleyinə elm adamları maraq göstəriblər. Onların bəziləri Atlantidanın ağır nəticələrə səbəb ola bilən fəlakətli təbiət hadisəsi nəticəsində məhv olması ilə bağlı Platonun görüşlər sistemini onun uydurması sayırdılar. Platonun Atlantida barədə məlumatlarına ciddi yanaşaraq elmi araşdırmalar aparanlar da yox deyil. 1882-ci ildə «Atlantida – subasmaöncəsi dünya» əsərini qələmə alan İqnatius Donelli hətta «atlantologiyanın atası» sayılır. O, Platonun reallıqda mövcud olmuş ▲ *nəhəng* adanı təsvir etməsi haqqında mülahizə irəli sürmüşdü.

III Donellinin davamçılarından olan Vilyam Skott-Elliot 1896-cı ildə yazdığı "Atlantida tarixi" adlı əsərində bu ada haqqında daha ■ *dolğun* məlumat verməyə çalışıb. Skott-Elliot tərəfindən tam həqiqət kimi təqdim olunan **konsepsiya**ya görə, Atlantida bizim eradan yüzlərlə min il əvvəl yüksək inkişaf səviyyəsinə çatmış sivilizasiyaya malik olub. Bu qitə Atlantik okeanın böyük bir hissəsini tuturmuş.

IV Skott-Elliot bu qitəni çökdürən dörd fəlakət müəyyən edib. İlk **kataklizm** təxminən 800 min il əvvəl baş verib. Nəticədə Amerika materiki bu nəhəng qitədən ayrılıb. İkinci geoloji fəlakət 200 min il əvvələ təsadüf edir. Atlantida ikiyə bölünüb. Daha dəhşətli üçüncü kataklizm isə 80 min il əvvəl baş verib. Ancaq bu dəfə də Atlantida öz mövcudluğunu qoruyub: nəhəng Atlantida, sadəcə, adaya – Poseydanidaya çevirilib. Platonun haqqında danışdığı Atlantida da, əslində, onun kiçik hissəsi olan Poseydanidadır. Nəhayət, eradan əvvəl 9564-cü ildə dördüncü və sonuncu fəlakət baş verib: okean Atlantidanı həmişəlik olaraq ♦ *udub*. Bunun nəticəsində planetimizin müasir quru və dəniz sərhədləri indiki görünüşünü alıb.

V Skott-Elliot məlumat verir ki, Atlantidanın qızıl əsrinin sonunda reaktiv aviasiya sahəsi yüksək inkişafa çatmışdı. Əlbəttə, belə mükəmməl aparatlara malik olsaydılar, atlantlar fəlakətdən qaçmağa cəhd göstərərdilər. Ancaq ali təbəqənin təmsilçilərinin Amerika və Afrikaya, eləcə də kosmik raketlərlə başqa planetlərə – Venera və Marsa pənah apardıqları barədə iddialara rast gəlinir.

VI Göründüyü kimi, Atlantida haqqında müxtəlif mülahizələr mövcuddur. Bu mülahizələr hər bir halda belə bir adanın, doğrudan da, mövcud olduğu biləcəyindən xəbər verir. Ancaq bəşər övladı Atlantida müəmmasını açmaq üçün hələ də etibarlı sübutlara sahib deyil.

1. Mətni genişləndirə bilən cümlələrə əsasən uyğunluğu müəyyən edin.

1. Giriş 2. Əsas hissə 3. Nəticə

a. Hətta Atlantida şəhərinin su altına batdığı güman edilən ərazidə aparılan sualtı araşdırmalarda okeanın dibində sıralanmış böyük daşların insan əli ilə sıralanması burada, həqiqətən də, vaxtilə sivilizasiyanın olmasını düşünməyə əsas verir.

b. Hesab edirdilər ki, Platon bu uydurması ilə gələcək nəsillərə öz həmvətənləri haqqında mifik qəhrəmanlıq tarixi hədiyyə etmək istəyib.

c. Suyun altında qalmış Atlantidanın okeanın dərinliyinə doğru çökməsi hələ uzun müddət davam edib, vulkan külü dəniz suyunu qatılaşdıraraq gəmilərin hərəkətini çətinləşdirib.

d. Atlantların yaşadıqları ərazini böyük filosof öz əsərində dəqiq məkan göstərmir, o yalnız indiki Cəbəllütariq boğazının ətrafını nişan verməklə kifayətlənir.

e. Günümüzdə Atlantida barəsində eşitməmiş insana nadir hallarda rast gəlmək olar.

A) 1 – d, e; 2 – b, c; 3 – a B) 1 – b, e; 2 – a; 3 – c, d
C) 1 – b, c; 2 – d; 3 – a, e D) 1 – c, e; 2 – a, b; 3 – d
E) 1 – a, d; 2 – c; 3 – b, e

2. Poseydanidanın məhv olmasından əvvəl Atlantidada baş verən kataklizmlər üçün ortaq nəticədir:

1. ərazinin kiçilməsi
2. ərazinin yox olması
3. subasma
4. dəniz sərhədlərinin müasir formada müəyyənləşməsi
5. quru sahəsində dəyişiklik

A) 1, 4 B) 3, 5 C) 1, 5 D) 2, 3 E) 2, 4

3. Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*	*Ehtimaldır*
1. Kataklizmlər yer kürəsində ciddi dəyişikliklər etməyə qadirdir. 2. Platon məlumatlarında yazılı mənbələrə əsaslanır.	3. Tədqiqatçılar Atlantidanın yoxa çıxmasının tədrici proses olduğunu söyləyirlər. 4. Günümüzdə mövcud olan bir neçə materikin yaranmasının Atlantidanın məhvinə səbəb olan sonuncu kataklizmdən qaynaqlandığı göstərilir.	5. Atlantida elmi əsərlərə mövzu olmuşdur. 6. Atlantida Atlantik okeanda mövcud olmuş qitədir.

A) 2, 3, 6 B) 1, 3, 6 C) 1, 2, 4, 5
D) 1, 4, 6 E) 2, 3, 4, 5

Camscanner ilə skan edilib

4. Atlantida ilə bağlı hansı fikir mətndə əksini *tapmamışdır?*
A) Atlantida təxminən 12 min il öncə okeana qərq olub.
B) Kataklizmlərdən əvvəlki Atlantidadan ayrılan böyük bir parça indi də mövcuddur.
C) Amerika Atlantidadan ayrılmasına baxmayaraq, onun koloniyası idi.
D) Atlantidada yüksək texnoloji inkişafa nail olmuşdular.
E) Atlantlar başqa planetlərlə əlaqə yarada bilirdilər.

5. Mətndə nöqtələrin yerinə uyğun gələn məcazi mənalı ifadələri müəyyən edin.
1. gözdən itdi
2. qərq oldu
3. yoxa çıxdı
4. özünü itirdi
5. yaddan çıxdı
A) 3, 4, 5 B) 1, 2, 4 C) 1, 4, 5
D) 2, 3 E) 1, 3

6. Tünd-qara hərflərlə verilmiş sözlərin şərhinə uyğun mətnin II abzasında ifadələr işlənmişdir. Həmin ifadələri yazın.

7. *"Yunan, german, slavyan, çin, hindu və digər xalqların qədim mifoloji rəvayətlərində odsaçan və səs-küylə uçan nəhəng əjdahalar, eləcə də qeyri-adi təsvirli cisimlər barədə rast gəlinən çoxsaylı məlumatlar, konsepsiyaya görə, Atlantida sivilizasiyasının texnoloji inkişafı haqqında öz təsvirini dəyişmiş dumanlı təsəvvürlərdir"* müddəasını mətnin neçənci abzası ilə əlaqələndirmək olar? Fikrinizi əsaslandırın.

8. Mətnə əsasən Eyler-Venn diaqramını doldurun.

İqnatius Donelli Vilyam Skott-Elliot



9. Mətndə əvvəlində işarə qoyulmuş sözlər əsasında cədvəli doldurun.

	Sözlərin üslubi funksiyası	*Cümlədə fərqli funksiyada işlədilməsi*
▲		
■		
♦		

10. Mətnə əsasən sxemi tamamlayan fikirlər yazın.



Söyüd kölgəsi

Bostançı Salman kişi bir gün bostanın qırağında dayanıb nəsə düşünürdü. Günorta yerinə qalxmış günəş düz başına döyür, tunc kimi qırmızı alnı işıldayırdı. Xəyalına nə gəldisə, dönüb yerə baxdı, çarıqlı ayağı ilə bərk torpağı eşələdi.

Daşlıca kənddən beş verst kənarda, bağ-bağat yollarının ayrıcında bir yer idi. Burada Saz bulağı deyilən balaca bir bulaq da var idi. ■ *Yolçular yay günlərində bulaqdan su içməmiş ötməzdilər.* Ancaq günün istisindən yayınmağa daş kölgəsi də yox idi.

1. Salman kişi yol ağzında bir söyüd ağacı əkdi. Beş il ondan muğayat olub böyütdü. Ağac öz kölgəsi ilə çölün havasını sərinlədir, gəlib-gedəni salamlayırdı. **Salman kişi bunu görəndə köksü böyüyür, könlü açılırdı.**

– Gərək, – deyirdi, – yoxlayam, görəm bu ağacın qədrini bilən varmı, gəlib-gedən nə deyir?

Bir gün iki atlı gəlib söyüdün altında düşdü. Salman kişi yanaşıb atlılara qulaq verdi. Atlılar ağır-ağır gəlib kölgəlikdə dirsəkləndilər. Onlar nəyin barəsindəsə deyişirdilər. Bir mətləb anlamayan bostançı dəyəsinə qayıtdı.

İkinci gün Salman kişi kölgəlikdə uzanan bir şəhərlini dinləyirdi. Şəhərli yorğun uzanmışdı. Bir xeyli dayanandan sonra öz-özünə gileyləndi:

– Deyirəm, zəhmət çəkib ağac əkirsən, heç olmasa meyvə ağacı əksənə.

2. Şəhərlinin sözü Salman əmini bərk tutdu, qayıdıb dəyəsinə gəldi.

Üçüncü gün biçinçilər Saz bulağına töküldülər. Onlar söyüd kölgəsində nahar eləməyə gəlmişdilər. Bir azdan süfrəni yığdılar, əllərini başları altına çarpazlayıb uzandılar.

– Rəhmət içində olasan, ay ağac əkən kişi. Kök sistemi yaxşı inkişaf etdiyindən kökü torpağın dərinliyinə gedən ağacların olmağı vacib amillərdən biridir. Var olsun bunu əkən əllər.

Salman kişi özünü saxlaya bilmədi, kölgəliyə tərəf yeridi və dilləndi:

– Var olsun qədirbilən igidlər! Burada çoxları oturub ağac əkəni yamanlayıb gedib. 3. Bilirdim ki, bu kölgəliyin qədrini bilənlər olacaq. 4. İndi sizin rahatlandığınızı görəndə, söhbətinizi eşidəndə bütün ağrılar canımdan çıxır.

Biçinçilərdən biri Salman kişinin sözünü kəsdi:

Camscanner ilə skan edilib

– Zər qədrini zərgər bilər, əmi, biz də zəhmət adamıyıq.

Salman kişi üzünü aşağıya tutub qollarını açdı:

– Budur ey, hamısı bağdı, bostandı. Babalar əkiblər, tər töküb becəriblər, xeyrini biz görürük. 5. Biz də gərək əkək, becərək ki, bəhrəsindən ancaq özümüz istifadə edək.

Onlar qalxıb gedəndə söyüd ağacı cavan, yaşıl, təmiz yarpaqlı budaqlarını dalğa kimi tərpədir, ipək kimi zərif, xışıltılı səs çıxarırdı.

11. Mətnə aid hökmlərdən biri doğrudur:

A) Yolçuların çoxu söyüdün kölgəsi az olduğu üçün minnətdarlıq etmirdi.

B) Salman kişi düşünürdü ki, insanlar qarşısında borcunu yerinə yetirib.

C) Salman kişi insanların fikrindən sonra bir də ağac əkməmək qənaətinə gəldi.

D) Salman kişinin insanlara etdiyi yaxşılıq təmənnalı idi.

E) İlk yolçular da yaşıllığın əhəmiyyətini anlamışdılar.

12. Mətnə əsasən hansı suala cavab vermək mümkündür?

A) Yolçular hara gedirdilər?

B) Salman kişi söyüd ağacını hansı məqsədlə əkmişdi?

C) Salman kişi yolçulara narazılığını necə bildirdi?

D) Saz bulağının suyu niyə azalmışdı?

E) Salman kişi yolçularla eyni süfrə arxasında niyə əyləşmədi?

13. Mətndə altından xətt çəkilmiş ifadənin kontekstə uyğun şərhini və ona uyğun nümunəni müəyyən edin.

A) boyun qaçırmaq→ O, tez-tez tapşırılan işdən yayınırdı.

B) gizlənmək→ Biz güllələrdən yayınaraq özümüzü meşəyə saldıq.

C) gözdən itmək→ Uşaqlar əl-ələ verib parkda gəzəndə mən gözdən yayınırdım.

D) başqa işlə məşğul olmaq→ Problemləri çox olduğu üçün tez-tez fikri yayınırdı.

E) hədəfə dəyməmək→ Ov güllədən yayınası deyil.

14. Mətndə tünd-qara hərflərlə verilmiş cümlə haqqında doğru fikirdir:

1. Cümlədə termin kimi işlənə biləcək söz var.
2. Üslubi baxımdan düzgün işlədilməyən ifadə var.
3. Bədii üsluba xas cəhətlər özünü göstərir.
4. Bədii təsvir vasitəsi işlənmişdir.
5. Rəsmi-işgüzar üslubun xüsusiyyəti də özünü göstərir.

A) 1, 2 B) 2, 4 C) 3, 5 D) 2, 3 E) 1, 5

15. Əvvəlində rəqəm qoyulmuş cümlələrdən hansı mətnin ümumi məzmununa uyğun ***deyil***?

A) 5 B) 3 C) 2 D) 4 E) 1

16. Obrazlardan birinin nitqindəki bir cümləni mətn üçün əsas fikir hesab etmək olar. Həmin cümləni müəyyən edib yazın.

17. *"Bəzi insanlar özünə edilmiş yaxşılıq əvəzində minnətdarlıq etməkdənsə, bu yaxşılığın az olduğunu, daha çoxunun edilə biləcəyini iddia edirlər"* fikrinin mətndə aid olduğu epizodu ifadə edərək yazın.

18. Mətnin əsas hissəsində mətnin üslubuna uyğun olmayan cümləni və onun aid olduğu üslubu müəyyən edib yazın.

19. Əsas mətnin və çərçivədə verilmiş əlavə mətnin üslubi xüsusiyyətlərini müqayisə edərək cədvəli tamamlayın. (Hər mətnə aid bir xüsusiyyət yazın.)

Söyüd söyüdkimilər fəsiləsinə aid bitki cinsidir. İriölçülü ağaclar və ya xırda kollardır. Yarpaqları uzunsov lansetvaridir, damarlanması lələkvaridir, saplağı qısadır. Nektarlı bitkilərdəndir. Söyüd cinsinin yer kürəsində 600-dən artıq növü məlumdur. Qafqazda təqribən 25, Azərbaycanda isə 15 növü bitir. Tez böyüyən, dekorativ bitki olmaqla geniş areala malikdir.

Əsas mətnin üslubi xüsusiyyəti	***Əsas mətndən götürülmüş nümunə (söz və ya ifadə)***	***Əlavə mətnin üslubi xüsusiyyəti***	***Əlavə mətndən götürülmüş nümunə (söz və ya ifadə)***

20. Əvvəlində ■ işarəsi qoyulmuş cümləni məcazi mənalı söz və ifadələrlə zənginləşdirib yenidən yazın.

Camscanner ilə skan edilib

İnam

Biz şəhərimizin gözü olan Füzuli küçəsində yaşayırdıq. Hər dəfə səki ilə gedəndə cərgələrlə əkilmiş çinarlara baxdıqca ürəyim açılırdı.

■ Yay günlərində istilər düşəndə bizim küçənin sakinləri bunu hiss eləməzdilər. Sanki həyətin ortasındakı xan çinar istiliyi udur, yarpaqları ilə evimizin divarlarını yelpikləyib sərinlədirdi.

Söz gəzirdi ki, küçəmizdəki çinarları kəsib yerində söyüd ağacları əkəcəklər. Amma bunu ciddi qəbul edə bilmirdim. Axı xan çinara toxunmağa kimin əli gələ bilər...

1. Anam bu xəbəri eşidərkən gözləri doldu. Atamın müharibəyə getmək xəbəri çıxanda da o beləcə quruyub qalmışdı. Axı onun ən əziz xatirələri yalnız evimizlə, küçəmizlə yox, eləcə də xan çinarla bağlı idi...

Məsələni aydınlaşdırmaq üçün Yaşıllaşdırma idarəsinə yollandım. Sədr Asəf Kərimova yaxınlaşıb salam verdim. Onun nurani çöhrəsində bir səmimiyyət, gözlərində mehriban ata nəvazişi vardı. Mən çinar əhvalatını soruşdum. O, asta-asta dedi:

– Doğrudur. Elə fikrimiz var.

– Axı nə üçün? – mən hirsimi boğa bilmədim.

– Qızım, çinarlar yavaş-yavaş quruyur. Yaxşı olmazmı ki, şəhərimizin yaraşığı pozulmasın?!

– Çinarlarımızın quruduğunu sizə kim deyib? Şəhərimizin rəmzini məhv eləyirsiniz.

– 2. Mən də bu şəhərdə doğulmuşam. Buranın hər daşı, kərpici mənə də əzizdir.

– Belə olsa idi, çinarlara qayğıkeşliklə yanaşardınız. Əgər onları kəsdirmək istəsəniz, bütün Füzuli küçəsi ayağa qalxacaq.

– Əsəbiləşmə, qızım. Unutma ki, söyüd ağacı həm tez böyüyür, həm də daha çox sərinlik gətirir.

– Bəli, tez də quruyur...

3. Bir neçə gündən sonra fəhlələr küçəmizdə göründülər. Çinarlardan birini kəsib yerində söyüd əkdilər. 4. Küçənin bir tərəfi sanki xarabaya döndü. Ürəyimizdən qara qanlar axırdı. Bizim xan çinarımızın budaqlarını doğramağa başlayanda isə uşaq kimi ağladım.

Aylar keçdi. Anamın saçları xeyli ağarmış, gözləri çuxura düşmüşdü. Söyüd ağaclarından bir neçəsi göyərdi, amma çox keçməmiş hamısı quruyub sıradan çıxdı.

Günlərin birində küçədə Asəf Kərimova rast gəldim. Məni tanıdı və üzünü çevirmək istədi. Amma mən onun qarşısında dayandım.

– Bilirəm, mənimlə dava eləməyə hazırsan, – dedi.

Qəmgin-qəmgin baxdığını görəndə yumşaldım:

– Asəf dayı, bəzən insan istəsə də, xeyirli iş görə bilmir, – dedim.

Söhbətimiz uzun çəkdi. 5. O, hələ də fikrindən dönməmişdi.

Sabahı əmim Fazil təzə xəbərlə bizə gəldi:

– Zərifə, dünən Yaşıllaşdırma idarəsində qızğın mübahisə oldu. Axırda təklifimi yekdilliklə qəbul elədilər. Qızım, bu il küçənizdə yenidən çinarlar əkəcəklər.

Doğrudan da, əkdilər. İşə gedəndə, axşam evə qayıdanda cavan çinarlara gözümü zilləyib baxır, ilk yarpaqlarının açılmağını səbirsizliklə gözləyirdim. İnanırdım ki, yeni çinarlar böyüyüb əvvəlkindən də gözəl olacaq.

21. Mətnə aid hökmlərdən biri doğrudur:

A) İnsanlar idarəetmə orqanlarının işinə təsir göstərə bilmirdilər.

B) Zərifə ağacların kəsilməsinə ağlamaqdan başqa heç bir münasibət göstərə bilmədi.

C) Asəf Kərimov rayon camaatı qarşısında borcunu yerinə yetirirdi.

D) Asəf Kərimov söyüd ağaclarının çinar ağaclarından daha çox yaralı olduğunu düşünürdü.

E) Asəf Kərimovun eqoizmi bir küçənin yaşıllığının məhv olmasına səbəb oldu.

22. Mətnin əsas və nəticə hissələri arasında işlənə biləcək keçid cümləni müəyyən edin.

A) Xəbərin gerçəkləşəcəyini narahatlıqla gözləməyə başladıq.

B) Yayılan xəbər hamını sarsıtdı.

C) Yan-yana düzülmüş çinarlar insanın ruhunu dincəldirdi.

D) Fazil əminin sözləri özünü çox gözlətmədi.

E) Küçəmizə bələd olan hər kəs Fazil əmi kimi düşünürdü.

23. Mətndə altından xətt çəkilmiş ifadənin kontekstə uyğun şərhini və ona uyğun nümunəni müəyyən edin.

A) məyus olmaq→ Bu xəbəri eşitdikdən sonra əhvalı pozuldu.

B) səliqədən düşmək→ Sinif otaqlarımızın nizamı pozulmuşdu.

C) üstündən xətt çəkilmək→ İcazəsi olmayanların adı siyahıdan pozuldu.

D) icazə verilməyən bir iş görmək→ Yol hərəkəti qaydaları pozulmuşdur.

E) qarışmaq → Günorta havanın sakitliyi pozuldu.

24. Cədvələ əsasən mətnin məzmununa aid doğru fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*	*Ehtimaldır*
1. Yaşıllaşdırma idarəsində söyüd rəmz kimi qəbul olunurdu.	3. Söyüdlərin əkilməsi gözlənilən nəticəni verməli.	5. Bütün sakinlərin xan çinarla bağlı xatirələri vardı.
2. Mətnin sonunda nikbinlik, gələcəyə inam ifadə olunub.	4. Asəf Kərimovun peşmançılıq keçirdiyini görən Zərifə heç nəyi üzə vurmadı.	6. Həm Zərifə, həm də anası çinarların kəsilməsi xəbərindən məyus oldular.

A) 3, 5, 6 B) 1, 2, 6 C) 2, 4, 5
D) 1, 3, 5 E) 1, 2, 4

CamScanner ilə skan edilib

25. Mətndə əvvəlində rəqəm qoyulmuş cümlələrdən hansı mətnin ümumi məzmununa uyğun ***deyil***?

A) 5 B) 2 C) 3 D) 4 E) 1

26. Obrazlardan birinin nitqindəki bir cümləni mətn üçün əsas fikir hesab etmək olar. Həmin cümləni müəyyən edib yazın və fikrinizi əsaslandırın.

27. *"İnsan özünə, fikirlərinin həqiqiliyinə əmin olduqda cəsarətli olur"* fikrinin mətndə aid olduğu epizodu ifadə edərək yazın.

28. Mətndə obrazların təsvirini əks etdirən cümlələri seçib yazın.

29. Əsas mətnin və çərçivədə verilmiş mətnin üslubi xüsusiyyətlərini nəzərə alaraq cədvəli tamamlayın. (Hər mətnə aid bir xüsusiyyət yazın.)

Çinar – çinarkimiklər fəsiləsindən olan bitkidir. Latınca "Platanaus", rus dilində "Платан", "Çinar" deməkdir. Yüngül, möhkəm, gözəl cizgili oduncağından faner, parket və s. hazırlanır. Dekorativ ağac kimi yaşıllaşdırmada istifadə edilir. Nadir və tükənməkdə olan bitki kimi Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilmişdir. Azərbaycan florasında "Barmaqyarpaq" çinar növü vardır.

Əsas mətnin üslubi xüsusiyyətləri	***Mətndən götürülmüş nümunə (söz və ya ifadə)***	***Əlavə mətnin üslubi xüsusiyyəti***	***Əlavə mətndən götürülmüş nümunə (söz və ya ifadə)***

30. Əvvəlində ■ işarəsi qoyulmuş cümləni məcazi mənalı söz və ifadələrlə zənginləşdirib yenidən yazın.

İnsanlıq

Çox illər bundan əvvəl soyuq qış günü Şimali Virciniya ştatında belə bir hadisə baş vermişdi. Bir qoca kişi çayın kənarında oturub onu çayın o biri sahilinə keçirəcək birini ümidlə gözləyirdi. 1. Şaxtada saqqalı buz bağlamış, bədəni soyuq şimal küləyindən az qala donub qaxaca dönmüşdü.

▲ O, xeyli gözlədi. Nəhayət, yaxınlıqda nal səsləri eşidildi. Qoca intizar dolu gözlərini döngədən çıxan atlılara zilləyib durdu. Birinci atlıya heç nə demədi. Onun diqqətini cəlb etməyə cəhd də göstərmədi. Beləliklə, qoca bir neçə atlını buraxandan sonra, nəhayət, birini saxladı. Atlı yol kənarında yumaq kimi büzüşüb qalmış qocaya diqqətlə baxırdı. 2. Onu diqqətdən qaçırmayan qoca dilləndi:

– Məni çaydan keçirərsənmi? Baxıram, burada ayaqla keçiləsi bərə-filan yoxdur.

Atın yüyənini çəkən atlı cavab verdi:

– O nə sözdür? Əlbəttə, keçirərəm, qalxın atın belinə.

3. Qocanın qaxaca dönmüş bədəninin sözünə baxmadığını, oturduğu yerdən qalxmaqda çətinlik çəkdiyini görən atlı dərhal onun köməyinə tələsdi və atın belinə qalxmaqda ona dəstək oldu. Onun soyuğa dözümü getdikcə zəifləyirdi. Atlı qocanı təkcə çaydan keçirməklə kifayətlənmədi, bir neçə mil aralıda olan evinə də apardı.

4. Onlar qocanın balaca, amma rahat olan daxmasına çatanda atlı marağını saxlaya bilməyib soruşdu:

– Cənab, mən sizi kənardan müşahidə edərkən gördüm ki, yanınızdan keçən bir neçə atlını ötürdünüz, onlara adi bir işarə də vermədiniz. Xahiş etmədiniz ki, sizi aparsınlar, təkcə məni saxladınız. Niyə? Əgər mən də imtina etsə idim, onda necə? 5. Bu soyuq qış günündə çayın qırağında qalacaqdınız?

Qoca müsahibinə baxıb cavab verdi:

– **Mən adamları pis tanımıram. O biri yolçuların gözlərinə baxanda başa düşdüm ki, onları yol kənarında qalmış bir qoca maraqlandıra bilməz. Onlardan nəsə xahiş eləmək faydasız idi. Sənin gözlərində isə insanlıq işartısı vardı. Onda başa düşdüm ki, sənin böyük ürəyin ətrafa, insanlara qarşı xeyirxahlıqla doludur.**

Deyilənlər atlını heyrətləndirdi.

– Bu *isti* sözlərə görə mən sizə təşəkkür edirəm, – deyə o, qocaya minnətdarlığını bildirdi. – Ümid edirəm, gələcəkdə öz şəxsi işlərimə aludə olmağım mənim ehtiyacı olanlara qayğı göstərməyimə mane olmayacaq.

31. Mətndə hansı suala cavab tapmaq mümkün ***deyil***?

A) Soyuq qocaya necə təsir etmişdi?
B) Atlını təəccübləndirən nə oldu?
C) İlk atlılar qocaya niyə kömək etmək istəmədilər?
D) Qoca yoldan keçən ilk atlılara niyə yaxınlaşmadı?
E) Qoca atlıdan niyə razı qaldı?

32. Mətnə əsasən cədvəldəki ***yanlışlığı*** müəyyən edin.

Səbəb	***Nəticə***
Soyuq hava	1. Qoca kişinin çay kənarında gözləməsi. 2. Qocanın çay kənarında vəziyyətinin pisləşməsi. 3. İlk gələn atlılara qocanın heç nə deməməsi. 4. Sonuncu atlının qocanı evinə qədər aparması. 5. Qocanın at ayaqları səslərini eşitməsi.

A) 1, 2, 5 B) 3, 4 C) 4, 5 D) 2, 3 E) 1, 3, 5

Camscanner ile skan edilib

33. Mətnin tərkib hissələrini nəzərə almaqla uyğunluğu müəyyən edin.

Qışın sərt üzü

I

Qocanın ilk atlıları müşahidə etməsi

Atlını maraqlandıran sual

II

III

a. Qocanın çayı keçmək cəhdi
b. Çətinliyə düşmüş qoca
c. Qocanın insanları təhlil etməyi
d. Daimi mərhəmətli olmaq ümidi
e. Qocanın evi

A) I – c; II – b; III – d B) I – a; II – d; III – e
C) I – c; II – a; III – b D) I – b; II – a; III – e
E) I – b; II – c; III – d

34. Mətndə çərçivə daxilində verilmiş sözü kontekstə görə əvəz edə bilər:

1. vurulmaq 2. başı qarışmaq 3. mübtəla olmaq
4. məftun olmaq 5. tutulmaq

A) 2, 5 B) 2, 3 C) 3, 4 D) 1, 5 E) 1, 4

35. Altından xətt çəkilmiş sözün mətndəki mənasına uyğun şərhi müəyyən edin.

1. *Adamlar isti paltarlarını geyinmişdilər* cümləsində mətndəki ilə eyni mənada işlənmişdir.
2. Kontekstə uyğun olaraq *gərgin* sözü ilə əvəz oluna bilər.
3. *Xəstənin bədəni istidir* cümləsində eyni mənanı ifadə edir.
4. Məcazi mənadadır.
5. *Səmimi münasibət* ifadəsində qarşılığı işlənmişdir.

A) 3, 4 B) 4, 5 C) 1, 2 D) 2, 3 E) 1, 5

36. Mətndə əvvəlində ▲ işarəsi qoyulmuş abzasda işlənmiş obrazlı ifadələri yazın və üslubi xüsusiyyətini izah edin.

37. Əsas mətnlə çərçivədəki mətni obrazlar və ya hadisələr əsasında müqayisə edərək, Eyler-Venn diaqramını doldurun. (Hər hissəyə ən azı bir doğru fikir yazmaqla)

E. Heminqueyin "Qoca dənizçi" əsərində qocanın bəxtsizliyinə inanan insanlar ondan uzaq qaçırlar. Buna baxmayaraq, balaca oğlan qocanın yanından əl çəkmir, qoca kimi uşaq da onun uğur qazanacağına inanır və ona kömək edir. Qoca və oğlan arasındakı dostluq onlara səmimi, mehriban anlar yaşadır.

Əsas mətn Çərçivədəki mətn



38. Mətnin sonunu hansı cümlə ilə tamamlamaq olar?

39. Mətndə tünd-qara hərflərlə verilmiş abzasa əsasən klasteri tamamlayın.

Qoca

40. Mətndə əvvəlində rəqəm yazılmış hansı cümlədə bütün sözlər həqiqi mənada işlənmişdir? Həmin cümlədə işlənən iki ifadəni məcazi mənada işlədərək yazın.

Bizə qanad verən adam

(I) Bir gün Əbil müəllim sinfə daxil olaraq "Cib dəftərçəniz varmı?" – deyə sual verdi. "Var!" – söylədik. "Sizə bir ad deyəcəyəm, oraya qeyd edin və heç vaxt unutmayın: "Məmməd Əmin Rəsulzadə". Müəllimimiz bu şəxs barəsində və sözsüz ki, Xalq Cümhuriyyəti haqqında bizə qısa, ancaq **dolğun** məlumat verdi. O vaxt Xalq Cümhuriyyəti barədə elementar bilgilərə sahib olmaq SSRİ-nin mahiyyətini açmaqla sovet qardaşlığının ▲ saxta mahiyyətini ifşa etmək idi.

(II) Əbil müəllim həmişə bizə tarixi gerçəkləri açıqlayardı. Onun danışdığı hadisələri unutmazdıq.

(III) Əbil müəllim kəndimizdə ilk alitəhsilli tarix müəllimi idi. Dərsi izah edəndə əlin alnına qoyur, işıqlı gözlərin azca yumurdu. Biz ondan çəkinirdik. Böyüyüb cavan oğlanlar, qızlar olanda da bu çəkingənlik canımızdan çıxmadı. Kənd arasında dolaşanda müəllimimizə rast gələcəyimizdən ehtiyat edirdik. Belə hallarda o, baxışı, duruşu, rəftarı, səlis və məntiqli danışığı ilə bizə öhdəliklərimizi xatırladırdı. Çünki əsl şagirdə avaralıq yaraşmazdı.

(IV) Valideynlərimiz həmişə Əbil müəllimi bizə misal göstərirdilər. Deyirdilər ki, yetim bir oğlan olsa da, bütün çətinlikləri dəf edərək Bakıya gedib ali təhsil alıb. Kəndimizdə Əbil müəllim təkbaşına, öz savadı və bacarığı hesabına uğur qazanmağın əsl nümunəsi hesab olunurdu və insanları o vaxt imkansız görünən bu faktın doğruluğuna inandırırdı. Onun həyatı bizim üçün örnək idi. Həyatda uğur qazanmaq üçün bilməlisən ki, böyük işləri asanlaşdırmaq üçün onların icrasını bir neçə mərhələyə bölməlisən.

(V) Əbil müəllim bizi təkcə müxtəlif məkanlara yox, həm də müxtəlif zamanlara xəyali səyahətlərə aparırdı. Şanlı keçmişimizi göz önünə gətirərək xəyalımızda ..... canlandırırdıq.

Bir gün Qərbi Roma imperiyasının süqutu haqqında dərsi danışırdım. Gözlərim dolmuşdu. Son abzasları dərsdən çox bir şeir kimi, poetik parça kimi söyləyirdim. Böyük və zəngin bir mədəniyyətin barbarlar tərəfindən darmadağın edilməsi elə-belə hadisə deyildi. Əbil müəllim həyəcandan əliminayağımın əsdiyini görmüşdü. Hətta atama demişdi ki, oğlunu həkimə göstər, əsəblərində problem ola bilər.

Camscanner ilə skan edilib

Əbil müəllim lap erkən yaşlarda gözümüzü açdı, bizə qol-qanad verdi. O vaxt ucqar kənd yerində belə müəllimlərin varlığı qənimət hesab olunurdu.

Zaman keçdi, Əbil müəllim kəndimizi göz yaşları ilə tərk etməli oldu. Hətta o yerlərin həsrətindən qalın bir şeir kitabı da bağladı. O, ömrünü Laçının işğalından sonra da gənclərin təhsilinə həsr etdi.

41. Mətnə əsasən klasteri tamamlayan fikirləri müəyyən edin.

Əbil müəllimin uşaqlara aşıladığı keyfiyyətlər:	tarixi keçmişimizə hörmət

1. məsuliyyət
2. əzmkarlıq
3. səbirlilik
4. qürur
5. təvazökarlıq

A) 2, 3 B) 4, 5 C) 1, 5 D) 1, 2 E) 3, 4

42. Mətnin aid olduğu üsluba xas olaraq III abzasda:
1. ellipsisdən istifadə olunmuşdur.
2. bədii sualdan istifadə olunmuşdur.
3. sözün məcazi mənasından istifadə olunmuşdur.
4. termin sıxlığı vardır.
5. sintaksisi məhduddur.

A) 1, 3 B) 1, 4, 5 C) 2, 3
D) 2, 4, 5 E) 3, 5

43. Mətndə nömrələnmiş hansı abzasda məntiqi ardıcıllığı pozan cümlə işlənib?

A) V B) II C) III D) I E) IV

44. Mətnin üslubuna uyğun ***olmayan*** cümlələri müəyyən edin.
1. 1918-ci ildə Şərqdə ilk demokratik cümhuriyyət – AXC quruldu.
2. Cümhuriyyətimiz haqqında söylədiyi xoş sözlər bu gün də beynimizə həkk olunub.
3. Gəncə şəhəri AXC dövründə paytaxt olmuşdur.
4. Belə məqamlarda xəyal quşu bizi öz qanadlarında illər, əsrlər öncəyə aparırdı.
5. 28 May Respublika Günü kimi qeyd edilir.

A) 2, 3, 5 B) 2, 4 C) 1, 3, 5
D) 1, 3, 4 E) 1, 2

45. Mətndə tünd-qara hərflərlə verilmiş sözün kontekstdəki mənasını və həmin mənaya uyğun nümunəni müəyyən edin.

A) dərin; Neft yerin dərin qatlarından çıxarılır.
B) zəngin; Məqalədəki zəngin faktlar diqqəti cəlb edir.
C) hazırlıqlı; Hazırlıqlı şagird özünü davranışından bəlli edər.
D) yetkin; O, yetkin bir yaşda idi, gələcəyi haqqında qərarı özü verə bilərdi.
E) güclü; Onun dolu çöhrəsi kimi güclü də səsi vardı.

46. Altından xətt çəkilmiş cümlədə məzmunu saxlamaqla mətnin səciyyəvi üslubi xüsusiyyətlərinə uyğun dəyişiklik edərək cümləni yenidən yazın.

47. Mətndə nöqtələrin yerinə uyğun gələn fikir yazın.

48. Aşağıda verilmiş hissədə təsvir edilmiş müəllim obrazı ilə mətndəki müəllim obrazını müqayisə edərək Eyler-Venn diaqramını doldurun.

Səxavət müəllim mənim ibtidai sinif müəllimim idi. O bizə ilk dəfə "vətən", "ana" sözlərinin mahiyyətini anlatmışdı. Səxavət müəllim qələm tutmağı, hərf yazmağı, oxumağı, hesablamağı öyrətdi bizə. Şagirdlərinin nəzərində həmişə ideal olub mənim Səxavət müəllimim. O hətta şagirdlərinin sağlamlığının da qeydinə qalırdı. Bağında yetişdirdiyi meyvələrdən tez-tez bizə sovqat gətirirdi.



49. Mətndə əvvəlində ▲ işarəsi qoyulmuş söz əsasında cədvəldə qeydlər aparın (√).

Həqiqi mənadadır	*Məcazi mənadadır*	*Fərqli (həqiqi və ya məcazi) mənada cümlədə işlədilməsi*

50. *"Müəllim insanları aydınlığa çıxaran işığa bənzəyir"* (Viktor Mari Hüqo) aforizmini mətnlə əlaqələndirərək fikrinizi yazın.

Camscanner ilə skan edilib

Əsgər anası

I Oğlunu orduya yola salandan sonra ana evdə otura bilmədi. Qonşusu dərzi Cahangirin yanına gedib arteldə işə başlamaq üçün kömək istədi. Dərzilik əl əməyinə əsaslanan kustar peşə sahəsidir. Bu peşə ona çoxdan tanış və yaxın iş idi. Cavanlıqda onun tikmə köynəkləri, əl işləri, sapla vurduğu naxışlar məşhur idi. Sonradan başı ailəyə, övlad böyütməyə qarışmışdı.

II O, yenə sənətinə qayıtmışdı, ancaq indi arteldə naxışlı köynək, ya dəsmal hazırlamırdı. Qışqabağı yun parçalardan isti paltar tikirdi. Yoldaşları da, ustası da onun işinə diqqət yetirir, kömək edirdilər. İşlədikcə gəncliyini xatırlayırdı. Ancaq heç bir xatirə və xəyal onu oğlu Tahir qədər məşğul etmirdi.

III Elə bilirdi, tikdiyi köynəklərin hamısı Tahir üçündür. Az qalırdı, verilən bütün ölçüləri kənara qoysun, ancaq oğlunun boyuna uyğun biçsin. Xəyalında Tahiri həmin köynək əynində düşmən üstünə hücum edən görürdü. Tikdiyi paltarların düyməsini möhkəm etmək üçün hamıdan çox çalışırdı. "Bir düymə, – deyirdi, – əsgəri vacib işindən qoya bilər!" Düşünürdü ki, Tahirə yazaram: "Bala, köynəyin yaxasına fikir ver. Orada ananın əlləri gəzmişdir..."

IV Tezdən onu oğlundan xəbər eşitmək üçün sonsuz ümidlə radionun qabağında görərdin. Havanın mülayim, isti keçdiyini eşidəndə ürəyi nisbətən rahatlıq tapardı. Savadsız olsa da, hər gün qəzet alar, axşam məktəb uşaqlarına oxudardı. Hərdən onlardan soruşardı: "Bala, quduz Hitlerin qoşunu bəs nə vaxt qırılacaq, o barədə nə yazırlar?"

V Tahir ilk məktubunda anasının arzusuna cavab vermişdi: "Ana, düşməni tam məhv edəndən sonra görüşərik". Ana isə məktubunda yazırdı: "Oğul, yaz görüm, əlimlə tikdiyim köynək sənə çatdımı? İstidir, möhkəmdir. Gərək səni sıxsın, soyuqdan qorusun".

VI Məktubu poçt qutusuna salandan sonra xəyal olub özü də kağızla birgə yollara düşürdü. Hərdən ürəyinə gəlirdi: "Davadır, göydən od yağır, Tahir tüfəngi alıb necə qələm götürsün?"

VII Bir gün anaya "Qəzetdə Tahirin şəkli var" xəbərini verdilər. Tezdən alıb qoynuna qoyduğu qəzeti çıxarıb açdı. Başında ulduzlu papaq, əynində əsgər köynəyi olan bir oğlan ananın üzünə baxıb gülümsəyirdi. Sanki gülə-gülə soruşurdu:

– Necədir, ana, yaraşırmı?!

VIII Ananın gözləri yaşardı. Sanki aylardan bəri ayrıldığı oğlunu bağrına basdı. Şəkli güzgü kimi gözünün önündə saxladı. Baxdı, baxdı, ixtiyarsız dilindən bu sözlər qopdu:

– Mübarək olsun, bala, paltarların mübarək, nizamın mübarək!

Bir neçə gündən sonra Tahir anasını məktubu ilə yenə sevindirdi.

51. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

	Səbəb	Nəticə
1.	Savadsız olmasına görə qəzeti uşaqlara oxutması	Ananın qəzet alması
2.	Müharibənin gedişini izləməsi	
3.	Əsgərlərə tikdiyi paltarlar haqqında məlumat almaq istəyi	
4.	Radioda deyilənləri anlamaması	
5.	Oğlunun müharibədə olması	

A) 1, 2, 3 B) 2, 5 C) 1, 3, 4
D) 2, 4 E) 3, 4, 5

52. Mətndəki əsas fikri ifadə edən aforizmi müəyyən edin.

A) Bir ana ürəyi dibində həmişə əfv olan uçurumdur. (Onore de Balzak)
B) Günəşin son şüası belə tükənər, ancaq bir ananın ümidləri və sevgisi həmişə yaşayar. (Eluca Ucanur)
C) Analarda qırıq qəlbləri düzəldən sehirli bir yapışqan vardır. (Cekson Braun)
D) Ana beş adam üçün ancaq dörd dilim tort qaldığını bildiyi zaman tortdan nifrət etdiyini deyən tək adamdır. (Tenneva Jordan)
E) Heç kim qollarında bir uşaq tutan ana qədər cazibədar və bir neçə uşaq arasındakı bir ana qədər hörmətli deyil. (İohann Volfqanq Höte)

53. Mətndə hansı suala cavab ***yoxdur***?

A) Ana paltarları tikərkən ən çox nəyə diqqət yetirirdi?
B) Ana niyə sənətindən uzaqlaşmışdı?
C) Ana nə üçün arteldə işləməyə başladı?
D) Tahirin şəkli niyə qəzetdə idi?
E) Tahir anasına necə təskinlik verirdi?

54. Mətnin üslubu üçün səciyyəvi olmayan cümlə neçənci abzasda işlənmişdir?

A) V B) II C) I D) IV E) VII

55. Mətnin tərkib hissələrini nəzərə alaraq ardıcıllığı müəyyən edin.

1. Məktublaşma.
2. Həsrətdən yaranan məşğuliyyət.
3. Kiçik bir detalın dəyəri.
4. Ananın qürur dolu sevinci.
5. Keçmiş xatirələr.

A) 4, 5, 3, 2, 1 B) 5, 2, 1, 4, 3 C) 5, 2, 3, 1, 4
D) 5, 3, 2, 1, 4 E) 4, 2, 3, 5, 1

56. Mətnin əsas hissəsində bir-birinə zidd olan fikirlər neçənci abzaslardadır? Seçiminizi əsaslandırın.

57. Mətnə əsasən ananın təskinliyini ifadə edən 2 cümlə yazın.

58. Klasteri tamamlayan fikirləri müəyyən edin.

Ananın xarakteri:

Camscanner ilə skan edilib

59. Mətnin əsas hissəsində yanlış işlədilmiş söz aid olduğu cümlədə məntiqi uyğunsuzluq yaradır. Bu ifadə hansı sözlə əvəz edilsə, məntiqi uyğunluq yaranar?

60. Mətndə altından xətt çəkilmiş cümlə əsasında cədvəli doldurun.

Cümlənin üslubi xüsusiyyəti	*Əsaslandırma*

Çovğun

I Karvan yola çıxanda səhər çoxdan açılmışdı. Qış günəşi axşamdan qırov[1] bağlamış yola zərli ▲şüalar saçırdı. Zeynalabdin öndə gedirdi. O, başlığının bir ucunu açdı, boynuna dolanmış ikinci ucunu açanda İmam Rza mane oldu:

– Qızışma, oğul, insana nə gəlsə, başdan gələr. İstəməsə də, qocanın sözləri ilə razılaşdı və başlığını azacıq alnına çəkdi. Dəvələr aram-aram irəlilədikcə dəvətikanı kollarından bir tutam qoparır, yağ kimi əridib udurdular. Karvan Şirvan bazarından Təbrizin məşhur bazarına gedirdi.

II Külək şimaldan qalxdı, özü də yavaş-yavaş, heç kəsi narahat etməyən meh[2] kimi. Karvanın qabağında gedən çarvadar sarbana nə dedisə, sarban qara dəvənin ovsarını boğazına dolayıb:

– Ey...ha...ha...ey...ha! Tərpən görüm! – bağırdı.

III – Bir azdan hava pisləşəcək, **yerişinizə haram qatın,** qardaşlar! – deyə sarban yenə çığırdı. Zeynalabdin göyə baxdı. Göyün üzünü qara buludlar almışdı. Qar yağmağa başladı. Çovğun getdikcə şiddətlənirdi. Zeynalabdin bir az əvvəl ona ağırlıq edən arxalığına[3] daha da sıx bürünüb qurşağını bərkitmişdi. Birdən onun yadına qoca İmam Rza düşdü. Karvandan geri qalan və beli bükülmüş qocanın qoluna girib bağırdı:

– Sən gözlərini yum, baba, qolumu buraxma!

Çarvadarlar, sarbanlar, bəzirganlar bir-birinə qarışmışdı, hərə öz hayındaydı. Hamı eyni bir şeyi düşünürdü: dayanmaq olmaz, çünki dayanmaq donmaq idi. Bacardıqca Şirvan bazarına tez çatmaq lazım idi.

Nəhayət, qar seyrəkləşməyə başladı, ruzigar taqətdən düşdü. Bəzirganbaşı yan tərəfdə qardan zorla seçilən qayanı göstərdi:

– Sarban, karvanı qayanın daldasına tərəf sürün! Heyvana da, adama da dinclik lazımdır.

IV Karvanın dayandığı nəhəng qayanın altı boş idi. Yolçular tonqal qaladılar, təmiz qardan sərniclərə[4] doldurdular. Tonqal başında Zeynalabdin də var idi. O, çovğundan güc-bəla ilə xilas etdiyi İmam Rza ilə yanaşı oturmuşdu. Qoca çaydan içib Zeynalabdinə dua edirdi:

– Kimsən, nəçisən, bilmirəm, bala, mən yaşa çatanda özün kimi qeyrətli yoldaşa rast gələsən.

V Zeynalabdin üçün bu səfər hələ başlanğıc, hələ ilk səfər idi. Bu onun insanlıq vəzifəsi idi. Hələ çoxlarına imdad[5] əli uzadacaq, çoxlarından da özü kömək görəcəkdi.

61. Verilmiş şərhlərdən hansı üzərində rəqəm yazılan sözlərdən heç birinə aid ***deyil***?

A) misdən və ya saxsıdan hazırlanmış qab
B) yaxası düyməli, beli büzməli və ya büzməsiz bir paltarı
C) soyuq temperaturda kristallar şəklində yerə düşən qar kütləsi
D) küləkli qar və yağış, boran, qasırğa
E) kömək, yardım

62. Mətnin məzmununa uyğun atalar sözünü müəyyən edin.

A) Yola bələd olan büdrəməz.
B) Pisi görməyincə yaxşının qədrini bilməzsən.
C) Pisliyi torpağa əkdilər, cücərmədi.
D) Yaxşılıq et, minnət qoyma.
E) Yaxşı yoldaş yolda tanınar.

63. Mətnə əsasən hansı sualları cavablandırmaq mümkündür?

1. Sarbanı yaxınlaşan təhlükə barədə kim xəbərdar etdi?
2. Karvanın yükü nə idi?
3. Sarban niyə karvanı tələsdirirdi?
4. Zeynalabdin nə məqsədlə səfərə çıxmışdı?
5. Zeynalabdin neçənci səfərinə çıxırdı?

A) 1, 2, 5 B) 1, 3, 5 C) 2, 3, 4
D) 2, 4, 5 E) 1, 3, 4

64. Mətndə tünd-qara hərflərlə verilmiş ifadənin kontekstə uyğun qarşılığını müəyyən edin.

A) aramla irəliləmək B) tez-tez yerimək
C) asta hərəkət etmək D) taqətdən düşmək
E) əhəmiyyət verməmək

65. *"İllərin yolçusu sahibinin səsindəki həyəcanı anladı və sürətini artırdı"* cümləsini mətnin nömrələnmiş hansı abzasının sonuna əlavə etmək olar?

A) I B) III C) V D) II E) IV

66. Çərçivəyə alınmış cümlənin məzmununu saxlamaqla onu mətnin üslubuna uyğun sosiyyəvi xüsusiyyətlərlə zənginləşdirib yazın.

67. Mətnin sonuncu abzasına əsasən klasteri tamamlayın.



Camscanner ilə skan edilib

68. Mətndəki hansı cümlə altından xətt çəkilmiş cümlə ilə fikir ***uyğunsuzluğu*** yaradır? Həmin cümləni müəyyən edib yazın.

69. Əvvəlində ▲ işarəsi qoyulmuş sözü mətnin üslubundan fərqli üslubda cümlədə işlədərək yazın.

70. *"Təsvir olunan hadisələr yaşadığımız dövrdən çox-çox əvvəllər baş verib"* fikrini mətndən iki fakt seçib yazmaqla əsaslandırın.

İtaliyalı alimin hekayəsi

I Rita dayəsinin xəstəlik nəticəsində ölümündən sonra həkim olmağa qərar vermişdi. Beyin hüceyrələrini təşkil edən neyronlar onu xüsusilə maraqlandırırdı. Universitetdən məzun olduqdan sonra o, professor Cüzeppe Levi və parlaq elm adamları olan bir neçə qrup yoldaşı ilə birləşərək çalışmağa başladı.

II 1936-cı ildə İtaliyanın faşist hakimiyyəti ölkədəki yəhudilərə elmi və pedaqoji fəaliyyəti qadağan etdi. Gənc alim yataq otağını laboratoriyaya çevirib toyuq embrionları üzərində təcrübələr aparmağa başladı. Müharibə dövründə daim bir ölkədən digərinə qaçmağa məcbur qalsa da, tədqiqatlarını davam etdirdi. Faşist ordusu İtaliyadan çəkiləndən sonra Rita həkim kimi çalışdı, qaçqınları müayinə etdi. İkinci Dünya müharibəsi bitdikdən sonra Rita Levi-Montalçini 20 il Amerikada yaşamış və ancaq elmi fəaliyyətlə məşğul olmuşdur. Boy faktoru sahəsində yeniliyə imza ataraq ona dünya şöhrəti qazandıran Nobel mükafatına layiq görülmüşdür.

III Rita 104 illik həyatı boyu xoşbəxtliyin düsturunu belə izah edirdi: "Mənim həyatımda mükəmməl insani münasibətlər, sevimli işim və əyləncələrim olub. Bax budur əsl insan həyatı".

IV Montalçininin elmi kəşfləri sayəsində dünya səhiyyəsi xərçəng və Alzheymer kimi xəstəlikləri daha dərindən tədqiq etməyə nail olub.

V Beyində apoptoz deyilən hüceyrə ölümünün araşdırılmasına və bu problemin həllinə uzun illərini həsr edən Montalçini 2012-ci ildə dünyasını dəyişib. Doğmaları etiraf edirdilər ki, alim ömrünün son günlərinədək elmi fəaliyyətlə məşğul olub.

VI Məşhur neyrobioloq deyirdi: "100 il yaşamaq istəyirsinizsə, səhər saat 5-də oyanın, gün ərzində bircə dəfə yemək yeyin. Şüurunuzu zorla da olsa, işləməyə məcbur edin. Yatmazdan öncə bir kasa şorba və ya bir stəkan naringi şirəsi içə bilərsiniz. Ancaq bioloji cəhətdən mümkün olsa belə, hamı 100 il yaşaya bilməz, bu, dünyanın nizamına ziddir. Hər birimiz 100 il yaşasa idik, planetdə körpələrə yer qalmazdı. Mən açıq və şux rəngləri sevirəm. Teatr və musiqi də ömrümü uzadan səbəblərdən biridir".

VII Montalçinin həyatındakı ən təsirli məqam ömrünün Afrikadakı qız uşaqlarının təhsili və inkişafı üçün təqaüd axtarmaqla keçmiş olmasıdır. Yaşadığı dövrdə müharibələrlə, ayrıseçkiliklə, etnik və sosial bərabərsizliklərlə üzləşmiş olan bu qadın qızların təhsilinə dəstək verməklə bəşəriyyət qarşısında ikinci böyük xidmətini yerinə yetirmişdir.

71. Mətnin tərkib hissələri ilə bağlı uyğunluğu müəyyən edin.

1. Giriş
2. Əsas hissə
3. Nəticə

a. Alimin kəşfləri bir çox xəstəliklərin daha dərindən öyrənilməsinə səbəb olur.
b. Rita məhrumiyyətlərə rəğmən tədqiqatlarını davam etdirir.
c. Montalçini qızların təhsili üçün əlindən gələn hər şeyi edir.
d. Həmkarları ilə birlikdə əməkdaşlığa başlayır.
e. Ritada beyin hüceyrələrini tədqiq etməyə maraq yaranır.

A) 1 – e; 2 – a, b; 3 – d
B) 1 – d, e; 2 – a, b; 3 – c
C) 1 – a, b; 2 – c, d; 3 – e
D) 1 – c, d; 2 – e; 3 – a, b
E) 1 – b; 2 – a, d; 3 – c, e

72. Mətnə əsasən Rita Levi-Montalçiniyə aiddir:

1. Fəaliyyətinin mərkəzində elmə maraqla yanaşı, insanlara sevgi dayanırdı.
2. Bir çox ağır xəstəliklərin ilk dəfə aşkara çıxarılması onun adı ilə bağlıdır.
3. Hər bir insanın çox yaşamağının təbiətin qanunauyğunluqlarına zidd olduğunu iddia edir.
4. Mənsub olduğu etnosun bir çox imtiyazlarından istifadə etmişdir.
5. Uşaqlarla vaxt keçirməyi ömrü uzadan səbəblərdən biri kimi göstərir.

A) 2, 5 B) 2, 4 C) 1, 4 D) 1, 3 E) 3, 5

73. Mətndə çərçivədə verilmiş ifadənin qarşılığının işləndiyi cümləni müəyyən edin.

A) Bu işdə həmyerlilərimizə kömək etməyə hazırıq.
B) Onun dediklərilə razılaşsaq da, ortaq yol tapa bilmədik.
C) Ailə üzvlərinin yerinə qərar vermək sənin öhdənə düşür.
D) Yeni layihənin hazırlanması hamımızı sevindirir.
E) İstədiyim hər şeyə nail olmuş, planlaşdırdıqlarımı həyata keçirmişdim.

74. Mətnin II abzasında hansı ifadə ilə başlayan cümlə yeni abzasdan yazılmalıdır?

A) İkinci Dünya Müharibəsi B) Gənc alim
C) Müharibə dövründə D) Faşist ordusu
E) Boy faktoru

Camscanner ilə skan edilib

75. Mətni genişləndirə ***bilməyən*** cümlələri müəyyən edin.

1. Dünya tərsinə çevrilsə də, Ritanı öz yolundan döndərmək olmazdı.
2. Rita İtaliya Respublikasında Senatın üzvü idi və siyasi fəaliyyətini Amerikada da davam etdirmişdir.
3. Neyron sinir sisteminin genetik vahidi hesab olunur.
4. Çəkdiyi əziyyətlərə baxmayaraq, Rita həyatsevərliyini itirmirdi.
5. Onun sözləri bir çox hallarda aforizmlərə çevrilirdi.

A) 1, 5 B) 1, 4 C) 2, 5 D) 2, 3 E) 3, 4

76. Uğura gedən yolda Ritanın qarşısına hansı çətinliklər çıxmışdır?

77. Eyler-Venn diaqramı əsasında əsas mətnlə çərçivədə verilmiş mətnin üslubi xüsusiyyətlərini müqayisə edərək, doğru fikirləri müəyyən edin.

Neyron nəzəriyyəsinə görə, sinir sistemi ayrı-ayrı neyronlardan təşkil olunmuşdur. Lakin qeyd etmək lazımdır ki, neyronların arasında həmişə müəyyən bir əlaqə yaranır. Deməli, neyronlarda olan sərbəstlik şərtidir. Sinir sistemi isə tamdır.



78. Mətnin giriş hissəsində məcazi mənalı ifadə yaradan sözü həqiqi mənada cümlədə işlədərək yazın.

79. Ritanın həyat və fəaliyyəti ilə bağlı mətndə hansı suala cavab tapmaq mümkün ***deyil***?

80. *"Xəyallarınızın sadəcə arxasınca getməyin, onları təqib edin" (Riçard Damb)* sitatını Ritanın fəaliyyəti ilə əlaqələndirərək fikirlərinizi yazın.

Satlıq kitab

Murad səhər tezdən bizim evə gəldi. [1.] Oxunmuş köhnə kitablarını bir torbaya qoyub gətirmişdi. Mən də axşamdan seçdiyim kitabları bir kağıza bükdüm, birlikdə küçəyə çıxdıq.

Kitabları divar dibində yan-yana düzdük. İkimiz də keçən həftə atalarımıza idman ayaqqabısı aldırdığımız üçün təzə kitab almaq üçün pul istəməyə *üzümüz*[1] yox idi. Dəfələrlə oxuyub az qala əzbərlədiyimiz *köhnə*[2] kitabları satıb yenilərini alacaqdıq.

Kitabları düzdükdən sonra müştəri gözləməyə başladıq. Uzaqdan Oqtay göründü. Bizə yaxınlaşınca dişlərini ağartdı:

– Aaa.. Küçə ticarətinəmi başlamışsınız?

Cavabımızı gözləmədən kitabları qarışdırmağa başladı. [2.] Kitablardan birini əlinə götürüb:

– Bunu aparım, oxuyub qaytararam, – dedi.

Muradla bir-birimizə baxdıq. Kitabların satılmaq üçün olduğunu deməyə macal tapmamış Oqtay kitabı qoltuğuna vurub uzaqlaşdı. Gülməyə başladıq.

Birdən qarşı eyvandan qəhqəhə eşitdik. ▲ Bu, adəti üzrə, gün ərzində bir an da olsa, gözlərini küçədə baş verənlərdən ayırmayan Əkrəm əmi idi. [3.] O gülməyini kəsib nəsihət verməyə başladı:

– Malınızı satmaq üçün güclü reklamdan istifadə etməlisiniz. Bir qayda olaraq, reklam məhsulun və ya xidmətin adı və bu məhsul və ya xidmətin alıcıya necə faydalı olacağı barədə məlumatları özündə saxlayır. Əvvəlcə ticarət obyektinizin gözəgəlimli olmasına çalışın. Elə olsun ki, yanından keçənlər alış-veriş etməsələr belə, bir-iki dəqiqə durub baxsınlar. Bir də ki ticarətdə yoldaşlıq olarmı? Bir azdan başqaları da gəlib kitablarınızı götürüb gedəcəklər. Bunun qarşısını almalısınız. Tez bir *lövhə*[3] hazırlayın, üstünə də malınızın qiymətini yazın ki, kitabların satlıq olduğunu bilsinlər. Aydın oldumu?

Əkrəm əminin sözləri ağlımıza batdı. Doğrudan da, ticarət obyektimizin çox zavallı görünüşü vardı. Ətrafını çiçəklərlə bəzəsə idik, gözəl görünərdi.

Tez evə qaçdıq. Mən bənövşə, viola dibçəklərini yüklənib gəldim, Murad da ətirşah, səhləb dibçəklərini. [4.] Kitabları ortaya, dibçəkləri isə ətrafına yerləşdirdik. Bir karton parçasının üstünə "Kitablar üzərindəki qiymətin yarısına satılır" yazıb kitabların arxasındakı divara yapışdırdıq.

Tezliklə ticarət obyektimiz müştəri ilə doldu. Reklam nə gözəl şey imiş! Nə yaxşı ki, Əkrəm əminin sözünü dinlədik.

Murad satıcı rolunu tez öyrəndi. Əlini-qolunu oynada-oynada müştəri səsləyirdi. Ancaq çox təəccüblüdür! Müştərilərin hamısı qadın idi. [5.] Durumu anladım. Qadınlar kitabları yox, çiçəkləri almaq istəyirdilər. Murad çiçəklərin yox, kitabların satılıq olduğunu anlatmaq istəsə də, bir şey çıxmırdı. Qadınların hərəsi bir dibçəyi qucaqlayıb piştaxtanın üzərinə pul qoyurdu. Pulu qoyan qucağında dibçək uzaqlaşırdı. Ovuclarımız pulla dolmuşdu, kitablar isə olduğu kimi yerində dururdu.

Əkrəm əminin eyvanına boylandıq, baş verənlərdən xəbərsiz halda yuxulayırdı. Deyəsən, satış barəsindəki tövsiyələrində bir çatışmazlıq vardı.

Evə dönərkən cibimiz pulla dolu idi, ancaq bunu kitab satışından yox, çiçək satışından əldə etmişdik. Məhəlləmizin bir kitab satandan çox çiçək satana ehtiyacı olduğunu da beləcə kəşf etdik.

Qapıdan girərkən anam **alov püskürürdü**. Olanları gizlədə bilmədim, hər şeyi danışdım. Anam mülayim və kövrək səslə dedi:

– Haradan ağlına gəlib ki, sənə kitab üçün pul verməyəcəyik? Kitaba veriləcək pulumuz həmişə var, təki sən oxumaq istə. Ancaq bu pəncərənin önünə bax, çiçəksiz nə qədər *quru*[4] və *soyuq*[5] görünür.

Pəncərənin önünə baxdım. *Bomboş*[6] görünürdü. Çiçəklərimiz indi kim bilir, hansı evin pəncərəsində idi?

81. Verilmiş cümlə rəqəmlə işarələnmiş hansı çərçivənin yerinə yazılsa, mətnin hissələri arasında əlaqə bərpa olunar?

Ovcunda pul vardı, deyəsən, çörək almağa gedirdi.

A) 1 B) 2 C) 3 D) 4 E) 5

82. Tünd-qara hərflərlə verilmiş ifadənin mənasına uyğun deyil:

A) gəmiləri dəryada batmaq
B) hirsi başına vurmaq
C) özündən çıxmaq
D) tüstüsü təpəsindən çıxmaq
E) cin atına minmək

83. Üzərində rəqəm yazılmış hansı sözlər məcazi mənada işlənmişdir?

A) 1, 2, 6 B) 2, 4, 5 C) 1, 3, 4
D) 1, 4, 5 E) 3, 5, 6

84. Mətnin üslubuna xas olaraq ayrı-ayrılıqda altından xətt çəkilmiş cümlələrdə müşahidə edilir:

1. ellipsis
2. metafor
3. bədii sual
4. bədii təzad

A) 2, 3 B) 2, 4 C) 1, 3 D) 3, 4 E) 1, 4

85. Mətnə əsasən doğru fikirdir:

1. Valideynləri uşaqlara kitab almayacaqlarını bildirmişdilər.
2. Uşaqlar kitab satdıqlarını gizlədirlər.
3. Məhəllənin qadınlarını kitablar maraqlandırmır.
4. Uşaqlar oxumadıqları kitablarını satmağa qərar verirlər.
5. Əkrəm əminin tövsiyələri də kitabların satılmağına yardım etmir.

A) 2, 3 B) 1, 5 C) 3, 5
D) 1, 2, 5 E) 1, 2, 4

86. Əkrəm əminin nitqində mətnin üslubuna uyğun ***olmayan*** cümləni müəyyən edib yazın.

87. Mətnə əsasən klasteri tamamlayın.



88. Çərçivə daxilində verilmiş hissənin planını tərtib edin.

89. Cədvəli tamamlayın.

Obraz	*Problem hesab edir:*	*Probleminin həllini nədə görür?*
	Yeni kitablar üçün pulun olmamasını	
Əkrəm əmi		

90. Əvvəlində ▲ işarəsi qoyulmuş cümlə ilə hansı cümlənin məntiqi əlaqəsi pozulmuşdur? Həmin cümləni müəyyən edib yazın.

Qar uçqunu

Bu arzuladığımız məkan idi: dağda gözəl bir ev. Bu evin tikilməsinə bir neçə il vaxtımız getmişdi. Amma cəmisi 10 saniyə vaxt kifayət etdi ki, evimiz göz qırpımındaca xarabalığa çevrilsin.

1. Fəlakətin baş verdiyi gün həyat yoldaşım altı yaşlı oğlumuzu da özü ilə götürüb yola çıxmışdı. ■ Mən onlara bir qədər gec qoşulmalı idim.

Xəbəri günorta aldım. Gəlib çatanda xilasetmə dəstəsinin əhatəsində olan doğmalarımı gördüm. *2. Onların sağlığı mənim üçün əvəzolunmaz möcüzə idi.* Daxmanın arxasındakı meşəyə baxdım. ● Gördüklərim məni sarsıtdı: qar kütləsi ağacları kibrit çöpü kimi qıra-qıra yamac boyunca üzüaşağı gəlibmiş! Qar uçqunu dağ evimizi nə kökə saldığını gördüm: dağ yuvamız. I ..... olmuşdu.

Etiraf edim ki, dağ evimizin darmadağın olması məni **üzmüş,** ruh düşkünlüyünə salmışdı. Üstündən xeyli ötəndən sonra da mən sakitləşə bilmir, düşünürdüm ki, axı niyə başımıza belə bəla gəldi?

Bu yerdə mən öz hekayətimi bitirə bilərdim. ✸ Amma onda siz həmin gün baş verən möcüzədən xəbər tutmazdınız.

Yoldaşım danışır ki, həmin gün yola çıxan qonşu qadın qar çovğununun başladığını görüb geriyə – üzüyuxarı kəndə doğru qayıdırmış. Çovğun şiddətlənir, şaxta qılınc kimi kəsirmiş. Əyri-üyrü dar yolda qonşu qadının maşını sürüşməyə başlayıb. Öz maşınında onunla üzbəüz gələn həyat yoldaşım var gücü ilə əyləci bassa da, xeyri olmayıb, maşın dayanmayıb. ▲O, qarlı dağ yolu ilə sürət götürüb üzüyuxarı şütüyüb. Son anda sükanı döndərib, maşının qabağı yoldakı qar topasına ilişib, arxa tərəf isə əks tərəfdəki topaya sürtünüb. *3. Həyat yoldaşım danışır ki, qonşunun maşınını çıxartmaq üçün bir saat əlləşiblər, axırda naəlac qalıb kömək üçün kurort ərazisinin xilasedicilərinə müraciət ediblər.*

4. Biz bu qəzanın ora-burasını bəzəyib bir az gülüşdük. Bu hadisənin misilsiz dəyəri mənə yalnız sonradan çatdı: əgər bu "xoşagəlməz" qəza baş verməsəydi, ailəm qar uçqununun altında qalacaqdı.

Mən bu hadisə barədə tez-tez düşünürəm. O zaman qonşunun maşını yolunu kəsərkən yoldaşımın nə qədər əsəbiləşdiyini təsəvvür edirəm. *5. Onda bu vəziyyət qadınların hər ikisinə bədbəxtlik kimi görünübmüş.*

O vaxtdan mən həyatımda baş verən hadisələri tələsik qiymətləndirməyə can atmıram. ★ Vaxt ötdükdən sonra əvvəlcə xoşagəlməz görünən hadisənin gerçəklikdə xeyir gətirdiyi üzə çıxır. Hansısa "bəla" üz verəndə "Axı nəyə görə?" deyib... II..... əvəzinə, mən sadəcə olaraq belə deyirəm: "Buna da şükür!" Sonra isə möcüzənin təsdiqini gözləyirəm.

91. Tünd-qara hərflərlə verilmiş ifadənin kontekstdəki mənasına uyğun ifadələri müəyyən edin.

1. pərişan etmiş
2. cin atına mindirmiş
3. qəmgin etmiş
4. peşman etmiş
5. kədərləndirmiş

A) 1, 3, 5 B) 3, 4 C) 2, 4
D) 2, 3, 5 E) 1, 4, 5

92. Əvvəlində işarə qoyulmuş cümlələrdən hansı məntiqi ardıcıllığı pozur?

A) ■ B) ▲ C) ● D) ★ E) ✸

93. Cümlələrdən biri mətndə ifadə olunan əsas fikir hesab oluna bilər?

A) Şər deməsən, xeyir gəlməz. (Atalar sözü)
B) Əhəmiyyətsiz saydığımız ən adi hadisələr bəzən həyatımızı cəhənnəmə döndərə bilər. (Dante Aligyeri)
C) İnsanlar yalnız təcrübələrə görə deyil, həm də təcrübələrindən aldıqları dərslər müqabilində yetkindirlər. (Bernard Şou)
D) Dünyada təsadüf yoxdur, bu dünyada hər şey ya sınaqdır, ya da cəzadır. (Fransua Voltel)
E) Hər işdə bir xeyir var. (Atalar sözü)

94. Çərçivədə verilmiş söz hansı sözlə əvəz edilsə, məntiqi uyğunluq bərpa olunar?

A) bağlanıb B) vurulub C) dəyib
D) bərkidilib E) dirənib

95. Uyğunluğu müəyyən edin.

1. *Giriş*	a. Qonşuların rastlaşması
2. *Əsas*	b. Bir saniyənin hökmü
3. *Nəticə*	c. Uğursuzluq hesab olunan xoşagəlməz hadisə
	d. Təmkinli olmağın möcüzəsi
	e. Təbiətin amansızlığı

A) 1 – a, d; 2 – c; 3 – e
B) 1 – b; 2 – a, c, e; 3 – d
C) 1 – b, c; 2 – a, d; 3 – e
D) 1 – d, e; 2 – a, c; 3 – b
E) 1 – c; 2 – b, e; 3 – d

96. Altından xətt çəkilmiş söz əsasında cədvəldə qeydlər aparın.

Həqiqi mənada işlənmişdir (√)	*Məcazi mənada işlənmişdir (√)*	*Fərqli (həqiqi və ya məcazi) mənada işlədin*

97. Nöqtələrin yerinə uyğun gələn ifadələr yazın.

98. Verilmiş cümləni nömrələnmiş hansı cümlədən sonra artırmaq olar?

Amma indi geriyə dönüb baxanda aydın görünür ki, onlar özləri də bilmədən xoşbəxt bir möcüzənin iştirakçısı olublar.

99. Nikbin insanın xüsusiyyətlərindən hansını verilmiş mətnə aid etmək olar? (√) Seçdiyiniz hökmü mətndən gətirilən nümunə ilə əsaslandırın.

☐ Özünəqiymət ən yüksək səviyyədədir.
☐ Uğursuzluqdan məyus olmurlar.
☐ Onlar yalnız xoş bir ünsiyyət axtarışındadırlar.
☐ Onlar hər zaman bağışlayırlar.
☐ Onlar hər zaman ən yaxşıya ümid edir və heç vaxt ruhdan düşmürlər.

100. Əsas mətnlə çərçivədəki mətni müqayisə etməklə cədvəli doldurun.

Nikbin insanlar deyir: "Pis nəsə baş verə bilməz, baş versə belə o mənim üçün yeni təcrübə olacaq. Bu hal gələcəkdə daha böyük bəlalardan qorunmaq və daha ciddi səhvlər etməmək üçündür". Onlar baş verəcəklər barədə öncədən hər hansı bir fikrə malik olmadan yalnız pozitiv düşünürlər. Nikbin insanlar heç bir çətinlikdən qorxmurlar. Onlar qətiyyən ruhdan düşmürlər.

Çərçivədəki mətnin üslubu	*Əsas mətnin üslubu*	*Üslubunu çərçivədəki mətndən fərqləndirmək üçün əsas mətndən gətirilən nümunələr*

Camscanner ilə skan edilib

Uşağın dili ilə

Almaniyada bir ailədə qonaq olmuşduq. Burada tanış olduğumuz Raymond və Toni nəzakət əlaməti olaraq bizə qonaq gəldilər və bu bizi çox *sevindirdi*[1]. Raymondla Toni İkinci Dünya müharibəsində bombardmana məruz qalmış *kiçik*[2] bir şəhərdə yaşayırdılar. 1. Onlardan xahiş etdik ki, bizə uşaqlıq çağlarından danışsınlar. Qonaqlarımızın uşaqlıq dövrü müharibə illərinə *düşmüşdü*[3]. ■Raymond gözlərimizi yaşardan bir əhvalat danışdı.

Bir dəfə müharibənin başa çatmasına az qalmış şəhər polisləri iki ingilis paraşütçüsünü ələ keçirirlər. 2. Paraşütçülər təyyarələrinin vurulduğu yerdə ağacdan *asılıb*[4] qalıblarmış.

Paraşütçüləri hələ səmada ikən görən Raymond baş meydana tərəf qaçır: Polislər əsirləri ora gətirməli idilər. Meydan artıq adamla *dolmağa*[5] başlamışdı.

Nəhayət, iki ingilis təyyarəçisini gətirirlər. ▲Onların dalınca bura hərbi əsirlərin saxlandığı həbsxanadan maşın gələcəkdi.

Camaat əsirləri görəndə qışqırmağa başladı: "Öldürülsünlər! Onlara ölüm!" *Dəhşətli bombardman hələ unudulmamışdı və şəhər əhli britaniyalıların və onların müttəfiqlərinin təyyarələrinə nifrət edirdi.* Kütlə əsirləri parçalamağa hazır dayanmışdı. ●Paraşütçüləri görəndə çoxları bostandakı işini yarımçıq qoyub, yaba və kürəklə silahlanaraq meydana *cummuşdu*[6].

Raymond ingilislərin sifətinə baxdı. ✦Paraşütçülər on doqquz-iyirmi yaşlı cavan uşaqlar idilər, özləri də bərk qorxmuşdular. 3. Oğlan başa düşürdü ki, əsirləri mühafizə edən vur-tut iki polis işçisi lap istəsə də, qəzəblənmiş kütləyə müqavimət göstərə bilməyəcək. Nəsə eləmək lazım idi, özü də vaxt itirmədən, təcili:

– Dayanın! - deyə Raymond qışqırdı və qəfildən qaçıb ingilislərin qarşısında – camaatla üzbəüz durdu.

Oğlana xətər yetirmək istəməyən kütlə bir anlığa susub qaldı. ✸Bu bəs idi ki, Raymond imkan tapıb qışqıra-qışqıra desin:

– Siz bir onlara fikir verin. 4. Axı onlar adicə oğlan uşaqlarıdır. Eynilə sizin oğlanlanlarınız kimi! Onlar da sizin uşaqlarınızın gördüyü işi görür. Öz ölkələri uğrunda vuruşurlar. *Əgər sizin oğlanlarınızı yad ölkədə əsir götürsələr, siz onların öldürülməyini istərdinizmi?!* İstərdinizmi ki, sizin uşaqları məhv etsinlər?! Bu uşaqlara da toxunmayın!

Adamlar donub qalmışdılar. Onların üzlərindəki qəzəb əvvəl xəcalətlə əvəz olundu, sonra çaşqınlıqla. 5. Nəhayət, yaşlı bir qadın dedi:

– Gör *nə günlərə gəlib çatmışıq, balaca uşaq deməsə, xeyri şərdən ayıra bilmirik.*

Kütlə yavaş-yavaş dağılışmağa başladı.

Raymond gənc ingilis paraşütçülərinin üzündəki ifadəni unutmamışdı. O, ümidvar idi ki, cavan ingilislər uzun, xoşbəxt bir ömür sürüblər və onları xilas edən alman uşağını yaddan çıxartmayıblar.

101. Hansı deyim mətndən çıxan əsas fikrə uyğundur?

1. Axına düşənlər başqa yolların mümkünlüyünü heç ağlına da gətirmir. Müdrik adam isə fərqli yolları görür və özü seçim edir. *(Əbu Turxan)*
2. Bir kəs ki ağrı hiss edir, o, canlıdır. O kəs ki başqasının ağrısını hiss edir, o, insandır. *(Lev Tolstoy)*
3. İgidin başı qalda gərək. *(Atalar sözü)*
4. Döyüş meydanında can versə insan,
   Xoşdur, namərdliklə qoyub qaçmaqdan. *(Sədi Şirazi)*
5. Səadət çiçəyi diləsə könlün, həyatda axtarma, özündə axtar. *(A. Əfəndiyev)*

A) 1, 2 B) 1, 3, 5 C) 3, 4
D) 2, 3 E) 1, 4, 5

102. Mətnlə bağlı doğru fikirləri müəyyən edin.

1. Raymond meydana əsirlərin gətiriləcəyini kəndlilərdən eşidir.
2. Polislərin sayı az olduğu üçün əsirləri qorumaq iqtidarında deyildilər.
3. Paraşütçülərin cəsarəti şəhər əhalisini heyrətə salır.
4. Raymondun nitqində əsirlərin toxunulmazlığı fikri vurğulanır.

A) 1, 2 B) 3, 5 C) 3, 4 D) 2, 4 E) 1, 5

103. Nömrələnmiş hansı cümlə çıxarılsa, mətnin məzmununda dəyişiklik ***olmaz***?

A) 1, 2, 3 B) 2, 4, 5 C) 3, 4
D) 2, 3, 5 E) 1, 5

104. Əvvəlində hansı işarə qoyulmuş cümlə özündən əvvəlki cümlənin açıqlamasıdır?

A) ✸ B) ▲ C) ● D) ✦ E) ■

105. VI abzasdakı hansı söz "birlikdə hərəkət edən və ya başqa bir məqsəd üçün ittifaq bağlamış tərəflərdən hər biri" mənasındadır?

A) polis B) paraşütçü C) əsir
D) vizit E) müttəfiq

106. Çərçivədəki mətnlə əsas mətni üslubi cəhətdən Eyler-Venn diaqramında müqayisə edib yazın.

Dövlətlər və ya siyasi qruplar arasında hərbi əməliyyatlar formasında olan münaqişələri müharibə adlandırmaq olar. Müharibə bir tərəfin digər tərəfə öz mövqeyini zorla qəbul etdirmək və kapitulyasiyanı rəsmiləşdirmək cəhdidir.



107. Altından xətt çəkilmiş cümlədəki məntiqi yanlışlığı düzəldərək cümləni yenidən yazın.

Camscanner ile skan edilib

108. Mətnin əsas hissəsinin ən azı 2 bənddən ibarət planını qurun.

109. Üzərində rəqəm yazılmış sözlərə əsasən cədvəli doldurun.

Həqiqi mənadadır	*Məcazi mənadadır*

110. *"Ağıl yaşda deyil, başdadır"* deyimini mətnlə əlaqələndirərək fikirlərinizi yazın.

Vətən həsrəti

1. Xaqani Bağdadın mühasirədən xilas edilməsinə sevinirdi. Haqqında çox eşitdiyi şəhərə artıq gedə biləcəyinə imkan yaranmışdı. 2. O, Mosul hakiminin ona qoşduğu atlıların müşayiəti altında Bağdada gəldi.

3. Şəhərin gözəlliyi və *ehtişamlı*[1] sarayları şairi heyran etdi. 4. Xaqanini Dəclə çayının lap yaxınlığında olan Gərc məhəlləsində kübarların yaşadığı hündür bir iqamətgahda qonaq etdilər. İqamətgahın eyvanı və eyvana çıxan pəncərələri Dəclə çayına nəzər yetirirdi. Xaqani hər səhər dostu Hilalla çayın sahilinə gəlir, onun gözəlliyini seyr edirdi.

Bir dəfə Dəclə sahilinə gələndə Hilal dedi:

5. – Şair dostum, Dəclə sahili, doğrudan da, gözəldir, insanın ruhunu oxşayır.

Şair:

– Doğrudur, Dəclə behiştin bir guşəsidir, burada insan dünyanın kədərini-qəmini unudur, – deyib bir qədər susdu, dərin bir ah çəkib davam etdi, – Hilal, bilirsənmi, niyə Dəcləni bu qədər sevirəm? Çünki ona baxanda dəli Kürü, lal Arazı görürəm. Dəclənin sahilində olanda özümü Şirvanda, Kürün sahilində hiss edirəm. ●Burada qalmağım üçün çox təkliflər edirlər, xəlifə bu yolda ayaqlarım altına səltənətlərini sərir. ▲ Onu da bilirəm ki, Şirvana qayıtmaq mənim üçün ölümə bərabərdir. ■ Şirvanşah Mənüçöhrün qəlbinə mənimlə bağlı ..... onun gözündən salmaq istəyirlər. ★Ona çatdırıblar ki, guya mən gəzdiyim yerlərdə şirvanşahla bağlı gizli sirləri paylaşmışam. Müəllimim məlikü̇ş-şüəra Əbül-Ülaya isə deyiblər ki, mən onu sıxışdırıb şairlərin başçısı olmaq istəyirəm. ◆ Saraylar vəfasızdır, dostum, bu gün şahdan sonra ikinci olan şəxs sabah dar ağacından yellənə bilər. Ancaq mən vətənimə qayıdacağam və günahsız olduğumu sübut edəcəyəm.

Hilal həyəcanını gizlədə bilməyib dilləndi:

– Şair, qayıtma Şirvana, saraylara güvənmə, şirvanşahın qəzəbinə düçar olsan, bundan qurtulmaq çətindir. Düzdür, sən şirvanşahın ən dəyərli adamısan, amma düşmənlərin güclüdür.

Xaqani *məhzun*[2] baxışlarını Dəclənin köpüklənən dalğalarına zilləyib dedi:

– **Yox, dostum, qayıtmalıyıq. Vətən həsrəti qəlbimə, ürəyimə dəli fırtına salıb. O dalğalanır, köpüklənir Dəclə çayıtək. O köpüklər Dəclənin könül ahından doğub. Bax mənim də könül ahım qəlbimi də köpükləndirib, ürəyimi də.**

Hilal dostunun sözlərindəki qətiyyəti hiss etdi susdu. O, dostunu yaxşı başa düşürdü, dostunun qəlbindən keçənlər ona da yad deyildi. Həm də anlayırdı ki, Xaqaninin vətən həsrətinin qarşısında heç nə dayana bilməyəcək. Bilirdi ki, bu hiss vətənə qovuşmayınca keçmir.

111. Hansı aforizm mətnin məzmununa uyğundur?

A) İnsan nə qədər savadlı olsa, vətəninə də bir o qədər lazımlı olar. (A. S. Qriboyedov)

B) Öz vətəninə mənsub olmayan bəşəriyyətə də mənsub deyil. (V. Q. Belinski)

C) Ərazi o zaman vətənə çevrilir ki, milli azadlıq ruhu ilə canlanmış olsun. (Əbu Turxan)

D) Ancaq sağlam milli şüura malik xalq öz haqqını qoruya və vətən torpağını gələcək nəsillərə əmanət kimi çatdıra bilər. (Ştraus)

E) Vətənpərvərlik özünün vətəndən ayrılmaz olduğunu dərk etmək, xoşbəxt və bədbəxt günlərini onunla birgə yaşamaqdır.

(L. N. Tolstoy)

112. Mətnin ideyasının açılmasında mühüm məqam hesab edilə bilər:

1. Sarayda Xaqani ilə bağlı şübhələrin yaradılması.
2. Mosul hakiminin atlılarının Xaqanini müşayiət etməsi.
3. Xaqaninin öz torpağına qayıtmaq istəyi.
4. Bağdadın mühasirədən qurtarılması.
5. Xaqaninin Dəcləni sevməsinin səbəbləri.

A) 1, 2, 5 B) 1, 2, 3 C) 4, 5 D) 3, 5 E) 3, 4

113. Mətndə nöqtələrin yerinə hansı ifadə yazıla bilər?

A) kefinə soğan doğrayıb
B) su səpib
C) məsləhət verib
D) nifaq toxumları səpib
E) yarasına duz səpib

114. Mətndə əvvəlində rəqəm yazılmış hansı cümlələrdə məcazi mənalı söz ***işlənməmişdir***?

A) 1, 3, 5 B) 1, 3, 4 C) 2, 4
D) 1, 2, 5 E) 2, 3

115. *"Ancaq mən heç vaxt əhdinə bivəfa, ustadına xor baxan biri olmamışam"* cümləsi mətndə hansı işarənin yerinə əlavə edilsə, məzmun ardıcıllığı ***pozulmaz***?

A) ◆ B) ■ C) ● D) ★ E) ▲

Camscanner ilə skan edilib

116. Mətnə əsasən sxemi tamamlayın (√) və fikrinizi əsaslandırın.



çünki _____

117. Xaqani və dostunun xarakterik xüsusiyyətlərini nəzərə alaraq, hər hissəyə ən azı bir fikir yazmaqla Eyler-Venn diaqramını doldurun.



118. Mətndə üzərində rəqəm yazılmış sözlərin qarşılığını (ifadə etdiyi mənanı) tapmaqla cədvəli doldurun.

Söz	*Sözün qarşılığı*

119. Mətndə altından xətt çəkilmiş cümlədə kontekstdəki mənaya uyğun düzgün işlədilməyən ifadələri müəyyən edib düzəliş etməklə cümləni yenidən yazın.

120. Mətndə tünd-qara hərflərlə verilmiş hissəyə əsasən cədvəli doldurun.

Hissədə özünü göstərən üslubi xüsusiyyətlər (fərqli üslubi xüsusiyyətlər yazmaqla)	*Hissədən nümunə ilə əsaslandırma*
1.	
2.	

Günəş batareyaları nə vaxt icad edilib?

2014-cü ildə alternativ energetikaya dair Bakıda keçirilən konfransın gündəliyi iki alim arasında mübahisəyə səbəb olmuşdu. Gündəliyə "Günəş batareyalarının tarixi və gələcəyi" mövzusunda çıxış salındığını görən bir iştirakçı istehza etmişdi: "Onların nə yaşı var ki, nə də tarixi olsun?!" Rusiyalı həmkarı etirazını bildirmişdi: "Bu batareyaların köməyi ilə hələ e.ə. I əsrdə Arximed doğma şəhərini düşmən hücumundan xilas edib".

Mübahisə edənlərin hər ikisi yanılırdı. Günəş batareyalarının iki əsrə yaxın tarixi var. Rəvayətə görə, yunan ixtiraçısı e.ə 212-ci ildə Sirakuz şəhərinə dənizdən hücum etmiş düşmən gəmilərini güzgü kollektorların vasitəsilə yandırmışdı. Kollektorlar istiliyi toplayır və ötürür, günəş batareyaları isə onu elektrik cərəyanına çevirir. Əsas fərq bundadır.

1839-cu ildə 19 yaşlı fransız fiziki Aleksandr-Edmond Bekkerel günəş enerjisini elektrik enerjisinə çevirməyin mümkünlüyünü əyani şəkildə nümayiş etdirdi.

1887-ci ildə kimyaçı Edvard Veston öz batareyasını yaratdı. 1888-ci ildə bu ixtirasına patent almaq üçün müraciətində Veston yazırdı: "Mənim məqsədim günəşin saçdığı enerjini elektrik enerjisinə çevirməkdir".

Günəş batareyalarının gücünü artırmaqla insanların istifadə etdikləri elektrik enerjisinin qiymətini aşağı salmağın həlli yolları üzərində görkəmli alimlər çalışırdılar. Amma Albert Eynşteynə qədər təbiətin bu sirrini heç kim tam izah edə bilmədi. 5. Nəhayət, 1905-ci ildə Eynşteyn bu sirri açdı. Bu münasibətlə o, 1921-ci ildə Nobel mükafatına layiq görüldü.

Məhz Eynşteynin ixtirası yüksək səmərəliliyə malik günəş batareyası yaratmağın mümkünlüyünə inamı •artırdı. Bu sahədə tədqiqatların önündə ABŞ-nin Bell laboratoriyaları gedirdi. XX əsrin 30-cu illərində mühəndis Rassel Ohl "İşığa həssas elektrik qurğusu"nu ixtira etdi. Tezliklə Bell laboratoriyasının üç alimi ilk müasir günəş paneli hazırladı.

Bell laboratoriyasının nailiyyətləri günəş batareyalarının yaradılması və təkmilləşdirilməsi yolunda böyük xidmətlər göstərmiş digər alimlərin adlarını ***kölgədə qoydu***. İdeyanı ilk dəfə reallığa çevirmiş Bekkerel olsa da, tarixdə ilk işlək günəş batareyası yaratmış Frittsin xidmətlərinin unudulması ədalətsizlik idi.

Yer səthinə düşən günəş enerjisinin miqdarı bütün neft, təbii qaz, daş kömür və digər yanacaq ehtiyatlarından çoxdur.

Təsadüfi deyil ki, indi 70-ə yaxın dövlətdə Günəş Elektrik Stansiyaları fəaliyyət göstərir. Bunlardan biri də Azərbaycandır. Təbii iqlim şəraiti Azərbaycanda günəş işığından istifadə etməklə elektrik enerjisinin istehsalını artırmağa geniş imkanlar yaradır.

121. Mətnin nəticə hissəsində verilən fikri hansı faktla təsdiq etmək olar?

A) Günəşli saatların miqdarı ABŞ-də və Orta Asiya ölkələrində il ərzində 2500-3000 saat, Rusiyada 500-2000 saat olduğu halda, ölkəmizdə 2400-3200 saata bərabərdir.

B) Günəş enerjisinin istifadəsinin üstünlüyü ondadır ki, günəş qurğuları işləyən zaman istixana effekti yaranmır, hava çirklənməsi baş vermir, istilik aşağı atmosfer qatlarına yayılmır.

C) Nəzərə alsaq ki, ölkəmizdə bir ev gündə təqribən 8-10 kilovatt·saat enerji sərf edir, azı 5 ədəd 250 vattlıq günəş paneli lazımdır.

D) 1958-ci ildə artıq ABŞ və SSRİ-nin kosmik peyklərində günəş panelləri quraşdırılmışdı.

E) Ehtimallara görə, 2100-cü ildə günəş ən başlıca enerji mənbəyinə çevriləcəkdir.

Camscanner ilə skan edilib

122. Hansı fikir mətnin heç bir abzasına aid tezis ola ***bilməz***?

A) XX əsrin əvvəllərində Nobel mükafatı mövcud idi.
B) Günəş batareyaları istiliyi elektrik enerjisinə çevirir.
C) Günəş enerjisini elektrik enerjisinə çevirməyin mümkünlüyü əyani şəkildə nümayiş etdirilmişdir.
D) Günəş batareyalarının tarixi haqqında müxtəlif fikirlər mövcuddur.
E) Günəş elektrik stansiyalarının fəaliyyəti üçün təbii iqlim şəraiti nəzərə alınmalıdır.

123. Mətndə tünd-qara hərflərlə verilmiş sözün kontekstə görə şərhi hansı cümlədə doğru verilmişdir?

A) Belə havada gözə görünmür, üzə çıxmaq istəmirdi.
B) Yoldaşlarını ötmək, daha irəliyə keçmək üçün bütün var-gücü ilə çalışırdı.
C) Onun laqeyd davranışları müdiriyyəti lap özündən çıxarmışdı.
D) Belə məşhur sənətçinin bizim ölkədə tanınmamağı hamımızı təəccübləndirmişdi.
E) Özünə diqqəti cəlb etməmək üçün verilən tapşırıqları yalnız iş saatında görürdü.

124. Mətnə əsasən hansı fikri söyləmək mümkün ***deyil***?

A) İlk fəal günəş batareyası yaratmış alimin xidmətləri qiymətləndirilməlidir.
B) İlk müasir günəş panelinin hazırlanması bir alimin adı ilə bağlı deyil.
C) Günəş batareyaları kollektorlardan fərqlənir.
D) Yer səthində neft, təbii qaz, daş kömür və digər yanacaq ehtiyatları tükənmək üzrədir.
E) Sirakuz Arximedin doğma şəhəridir.

125. Mətndə çərçivələrdə verilmiş sözlərdən birinin qarşılığı hansı nümunədə ***yanlış*** verilmişdir?

A) Sənin işin, fəaliyyətin nəticəsində beynəlxalq konfransa dəvət olunduq.
B) Hələ məktəbdə oxuyarkən bədii yaradıcılıqla məşğul olmağı xoşlayırdı.
C) C. Məmmədquluzadə Azərbaycan ədəbiyyatında böyük xidmətləri olan məşhur yazıçıdır.
D) Səhiyyə sahəsində əldə etdiyi yüksək nəticəyə görə diplomla təltif olundu.
E) Dostunun etdiyi təkliflərin həmişə əleyhinə çıxırdı.

126. Altından xətt çəkilmiş cümləyə əsasən cədvəli tamamlayın.

Cümlədəki fikir mətndə təsdiq və ya inkar olunur:	***Əsaslandırma***

127. Mətnə əsasən cədvəli tamamlayın.

Müddəa	***Fakt***
1.	1905-ci ildə Eynşteyn yüksək səmərəliliyə malik günəş batareyası yaratdı.
	2.

128. Hansı nümunə mətnlə eyni üslubdadır? (✓) Seçiminizi əsaslandırın.

☐ Cəsarət heç bir halın sarsıda bilməyəcəyi enerji mənbəyi, mükəmməl iradi qüvvədir.
☐ Elektrik enerjisi elektrik yüklərinin elektrostatik sahədə malik olduqları potensial enerjisidir.
☐ İnkişaf etmiş ölkələr alternativ enerji mənbələrindən istifadəni genişləndirməklə ətraf mühiti çirklənmədən qorumağa çalışır.

129. Altından xətt çəkilmiş ifadələrə əsasən cədvəli tamamlayın.

İfadə	***İfadənin mətndəki funksiyası (poetik, informativ və ya terminoloji)***	***İfadənin digər funksiyası (poetik, informativ və ya terminoloji)***	***Digər funksiyada cümlədə işlədilməsi***

130. Mətndə əvvəlində • işarəsi qoyulmuş ifadəyə əsasən cədvəli doldurun.

İfadənin mətndəkindən fərqli ifadə etdiyi mənası	***Həmin mənanın cümlə daxilində işlədilməsi***

Murovdağda ov

I Səhərin gözü yenicə çırtlayırdı. Ayaz əzəmətli Murovdağa baxdıqca ürəyi dağa dönürdü. Açıq, buludsuz qış səhərində də Murovun zirvələri duman içində itmişdi.

II Baba böyük qayanın dalında gizləndi, dağın belindən keçən dar cığırı Ayaza göstərdi:

– Sürü oradan gəlib bulağa ötəcək, cınqırını çıxarma.

III Dağların çəni seyrəkləşdi. Cığırda görünən təkə çevik hərəkətlə bərədən adlayıb ayıq, ürkək gözlərlə ətrafı süzdü. Sürü qayaların kölgəsindən çıxdı, təkənin dalınca hərəkət etdi. Təkə sürünü ardınca Güzgübulağa doğru çəkirdi.

IV Heyvan son keçiddə dayanıb dörd tərəfə boylandı. Pusquda duranları görməyib yoluna davam etdi.

V İri bir keçi Ayazın diqqətini cəlb etdi. Gözəl, nazik beli tarım çəkilmişdi. Balası yanından ayrılmırdı.

VI Ayaz kədərləndi. Sürüdəki gözəl balanın və ananın ölməsini istəmirdi. Bu an bala başını çevirib məlul gözlərlə Ayaza tərəf baxdı. Sanki kimsə Ayazın qulağına pıçıldadı: "Bu da işdir?! Xəlvətcə daşın dalında yat, dağların yaraşığı olan bu heyvanlara ölüm hazırla". Anlaya bilmədi ki, yumşaqürəkli babasının belə işə necə ürəyi gəlir.

– Bərəyə yaxınlaşırlar, ikisini, üçünü vuracağam, – deyə baba pıçıldadı.

VII Sürü bərədən adlamaq istəyəndə ana keçi balası ilə güllə mənzilinə yaxınlaşdı. ..... O, barmağını tətiyə basanda Ayaz qeyri-ixtiyari tüfəngin lülәsindən yapışıb ildırım sürətilə yuxarı qaldırdı. Gözlənilməz gurultu dağları sarsıdanda sürü qayaların arasında gözdən itdi. Qoca:

– Dəli-zad olmamışsan ki? – deyib özü də hiss etmədən ani hərəkətlə nəvəsinin sinəsindən itələdi.

VIII Ayaz səndələdi, bir anlıq yaşıl örpəyə bürünmüş sıldırım qayaların dibindəki dərəni gördü. Gözləri qaraldı, qorxdu. Qeyri-iradi cəldliklə sivri qayadan yapışdı. Artıq ovçuluq ehtirası soyumuş, təhlükəni duymuş qoca da özünə gəlmişdi. Tüfəngi itələyib nəvəsini bağrına basdı. Ayaz dedi:

– Baba, bir daha ceyrana, təkəyə güllə atma.

IX Baba cavab verməyib kəndə tərəf üz tutdu. Yol boyu Ayaz düşünürdü ki, yəqin, baba məni aciz-avara biri hesab edir. Bu düşüncə ürəyində şəhərə qayıtmaq istəyi oyadırdı.

X Baba isə, əksinə, sanki doxsan illik ömür dəftərini vərəqləyir, doğru yaşayıb-yaşamadığını düşünürdü. Yalnız kəndə çatanda çevrilib nəvəsinin işıqlı alnından öpdü.

– Sən haqlısan, bala! – dedi, – haqlısan!

XI Ayazın üstündən sanki dağ götürdülər. İndi o, kəndə gəldiyinə nə qədər sevinirdi. Bu an onun sinəsində anasına, məktəb yoldaşlarına deməli bir kitab söz vardı.

131. Mətnə əsasən hansı fikirləri doğru hesab etmək olar?

1. Bir əsrə yaxın yaşamış insan da həyatda nəsə öyrənməmiş ola bilər.
2. Ayaz ilk dəfə idi ki, kəndə gəlirdi.
3. Mətndə adı çəkilən su hövzəsinin suyunun şəffaf olması haqqında fikir söyləmək olar.
4. Heyvan sürüsü təhlükədən qorunmağa çalışırdı.
5. Ayazın babası ilə Murovdağa gəlməkdə məqsədi onu ov etməkdən çəkindirmək idi.

A) 2, 4, 5 B) 2, 3, 4 C) 1, 2, 5
D) 1, 3, 5 E) 1, 3, 4

132. Mətnə əsasən doğru fikirləri müəyyən edin.

Mətndə təsvir olunur:	*Mətndə təbliğ olunur:*
1. insanın gözəlliyi 2. təbiətin gözəlliyi 3. canlı varlığın gözəlliyi	4. mərhəmət 5. zəhmətkeşlik 6. səbirlilik

A) 3, 4, 5 B) 2, 3, 4 C) 2, 3, 5
D) 1, 2, 6 E) 1, 4, 6

133. Mətnə əsasən cədvəldəki ***yanlış*** fikirləri müəyyən edin.

Səbəb	*Nəticə*
Ayaz babanın işinə mane oldu.	1. Baba Ayaza narazılığını bildirdi.
	2. Baba silahı işə sala bilmədi.
	3. Ayaz peşmanlıq duydu.
	4. Ayaz narahatlıq keçirdi.
	5. Ayaz şəhərə qayıtmaq fikrindən daşındı.

A) 1, 4 B) 3, 4 C) 2, 4, 5
D) 1, 3, 5 E) 2, 3, 5

134. Mətnin IV və V abzaslarının yeri dəyişdirilsə, ...

1. fikirlərin ardıcıllığı pozular.
2. fikirlərin ardıcıllığı bərpa olunar.
3. fikirlərin ardıcıllığında qüsur yaranmaz.
4. əsas hissə fərqli abzasla başlayar.
5. mətnin tərkib hissələrinin həcmi sabit qalar.

A) 1, 4, 5 B) 2, 3 C) 3, 5
D) 1, 2, 5 E) 1, 2, 4

135. Klasteri tamamlaya bilən fikirləri müəyyən edin.

Mətndə çərçivə daxilində verilmiş ifadə → məcazi mənadadır.

1. "Baxdı" anlamındadır.
2. "Əziz kiçik qardaşını anasına tapşırıb cəbhəyə getdi" cümləsində işlənmiş sözlə eyni mənanı ifadə edir.
3. "Yol almaq" ifadəsinin qarşılığı ola bilər.
4. "Küsəndə hamıdan üz çevirmək onun adəti idi" cümləsindəki ifadə ilə eyni mənadadır.
5. "Tamaşa etmək" ifadəsi ilə əvəz oluna bilər.

A) 1, 5 B) 2, 3 C) 1, 4 D) 2, 4 E) 3, 5

Camscanner ile skan edilib

136. Mətnin sonuncu cümləsi əsasında cədvəli tamamlayın.

Poetik funksiyada işlənmiş sözlər	*Həmin sözlərin poetik funksiyada işlədildiyi başqa nümunə*

137. Mətndə nöqtələrin yerinə uyğun olan cümlə yazın.

138. Mətnin giriş hissəsində verilmiş cümlələrdən birindəki fikir mətnin əsas hissəsində təkzib olunur. Həmin cümlələrə əsasən cədvəli tamamlayın.

Cümlələr	*Əsaslandırma*

139. Altından xətt çəkilmiş ifadələrə əsasən cədvəli doldurun.

İfadə	*İfadənin kontekstə görə qarşılığı*

140. Mətnə əsasən cədvəli doldurun.

Obraz	*Ovdan sonrakı düşüncələri*
Baba	
Ayaz	

Nübar

I Nübar atasız-anasız bir qız idi, qardaşı ilə yaşayırdı. 14 yaşlı əkiz qardaşı hamballıq edirdi. Elə ki evdə darıxırdım, ya çöldə veyillənir, ya da onlarla vaxt keçirirdim.

II Oynayanda əllərimiz kirlənir, yaman günə düşürdü. 1. Həmyaş olsaq da, Nübarın əlləri həmişə partlaq-partlaq, üstü-başı kirli olardı.

III Bir gün Nübar məni evlərinə dəvət etdi. Daş-divarını his basmış mətbəxdən keçdik. Otağı nəzərdən keçirdim: kürsüdən savayı heç nə yox idi. İlk dəfə idi, belə bərbad ev ♦ *görürdüm.*

2. Otağın bir küncündə zibillikdən tapılan qəribə şeylər qalaqlanmışdı. Bunların arasında bir çarx mənim xoşuma gəldi və soruşdum:

– Bunu mənə verərsən?

– Əlbəttə, Fəridə, götür, sənin olsun, – dedi.

IV Çox təəccübləndim. Fikirləşdim ki, kimsə mənim oyuncaqlarımdan birini bəyənsə, ondan asanlıqla imtina etməzdim. Həmin gündən özümün xəsis, təkəbbürlü böyüdüldüyümə əmin oldum. Mən dövlətli ailədə boya-başa çatmışdım. 3. Anam həmişə deyərdi: "Qızım, diqqətli ol, yoldaşların sənin oyuncaqlarını götürməsinlər". Nübarın bu sözləri deyəcək kimsəsi yox idi.

V Ev çox soyuq idi. Nübar titrədiyimi görüb kürsünün üstünə çıxmağı təklif etdi. Kürsünün üstünə çıxdıq, istisi az idi. 4. Soyuqdan göyərmiş, tir-tir əsirdik.

– Kürsü soyuqdur, – dedim.

– Yox, elə soyuq deyil. Eşikdəkindən yaxşıdır. Dünən qonşuda çörək yapırdılar. 5. Təndirlərindən köz gətirib kürsümüzə tökdük, - dedi.

VI Nübarın sözünə inanmaq istədim. Lakin bədənim titrəyirdi, ağlım kəsmirdi, eşikdəkindən yaxşı ola. Səbrim aşıb-daşdı, qalxıb evimizə getdim.

Səhərə yaxın isti sobanın yanında tər içində oyandım. Bayırda qar yağırdı. Nübar yadıma düşdü. Qaranlıq, soyuq evlərini xatırlayanda sanki ..... . Yerimdən sıçrayıb anamın yanına qaçdım:

– Ana, nə olar, qoy Nübarı evə dəvət edim, evləri çox soyuqdur, – dedim.

Anam bir az susub könülsüz də olsa, razılıq verdi: – Bir halda ki sən istəyirsən, gəlsin.

VII Nübar bizə gələndə dodaqları göyərmiş, əlləri buz kimi olmuşdu. Onu isti sobanın yanına çəkdim. Bir az sonra yanaqları alma kimi qızardı, üzünə gülüş qondu, ... Onun valideynlərimin könlünü oxşaması üçün hər şey etməyə hazır idim. Dayəmdən xahiş etdim, Nübarı hamama apardı. Sonra onu öz otağıma gətirib isti paltar, saçlarını daraması üçün daraq verdim.

VIII Həmin gün Nübar, bəlkə də, həyatının ən xoşbəxt gününü yaşayırdı. Ancaq mən daha xoşbəxt idim. Sanki Nübarın bədənini titrədən buzlarla bərabər mənim içimdəki buzlar da əriyir, əsl dostluğun, paylaşmağın və xoşbəxtliyin nə olduğunu duyurdum.

141. Mətndə çərçivədə verilmiş sözün kontekstdəki mənasına uyğundur:

A) yerüstü bünövrə üzərində olan tikilinin bir hissəsi
B) kreslo, stul
C) yanları və söykənəcəyi olmayan stul; kətil
D) çörək bişirmək üçün qazılıb düzəldilmiş və içərisi kərpiclə hörülmüş yer, təndir
E) qızınmaq üçün altına od qoyulub, üstünə yorğan salınan yastı stol

142. Cədvəldəki doğru fikirləri müəyyən edin.

Mətn əsasında dəqiq demək olar:	*Mətn əsasında təxmin etmək olar:*
1. qızların yaşını 2. mətndə nitqi əksini tapmış obrazların hamısının adını 3. mətndə bəhs olunan ailələrin maddi vəziyyətini	4. Nübarın valideynsiz qalmağının səbəbini 5. hadisənin baş verdiyi mövsümü 6. hadisənin baş verdiyi şəhəri

A) 3, 4, 6 B) 1, 2, 5 C) 2, 4
D) 1, 3, 5 E) 1, 6

CamScanner ilə skan edilib

143. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

	Problem	Problemin səbəbi
1.	Nübarın qardaşının hamballıq etməsi	qonşuların laqeydliyi
2.	Nübargilin evinin soyuq olması	kürsünü isitməyə yanacağın olmaması
3.	Fəridənin ailə üzvlərinin xəsisliyi	ailənin varlı olması
4.	Fəridənin xudbinliyi	ailə üzvlərinin yanlış tərbiyəsi

A) 2, 3 B) 1, 2 C) 2, 4 D) 1, 3 E) 3, 4

144. Mətnin strukturu ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Sonuncu abzas mətndən çıxarılsa, məzmunda natamamlıq yaranmaz.
2. Əsas hissədə bir gündə baş verən hadisələrdən bəhs olunur.
3. Mətnin giriş hissəsi iki abzasdan ibarətdir.
4. "O mənim rəfiqəm idi" cümləsini mətnin giriş hissəsinə əlavə etmək olar.
5. VI və VII abzasların yeri dəyişdirilsə, fikirlərin ardıcıllığı bərpa olunar.

A) 1, 5 B) 1, 2 C) 3, 5 D) 2, 4 E) 3, 4

145. Əvvəlində IV yazılmış abzasda obrazın daxili düşüncələri haqqındakı fikirləri bu ifadələrlə ümumiləşdirmək olar:

1. mənəvi sarsıntı
2. iradəsizlik
3. özündən müştəbehlik
4. laqeydlik
5. özünütənqid

A) 3, 4 B) 1, 3 C) 2, 5 D) 2, 4 E) 1, 5

146. Kontekstə və aid olduğu üslubun səciyyəvi xüsusiyyətlərinə əsasən mətndə nöqtələrin yerinə uyğun olan ifadələri müəyyən edin.

147. Mətndə əvvəlində ♦ işarəsi qoyulmuş ifadəyə əsasən cədvəli doldurun.

İfadənin mətndəkindən fərqli mənası	Həmin mənanın cümlə daxilində işlədilməsi

148. Mətnlə əlaqələndirməklə "*Ailə daxillində uşaqlarda yaranan mənfi xüsusiyyətlər adi təsir nəticəsində dəyişə bilər*" deyiminin doğruluğunu əsaslandırın.

149. Əvvəlində VII yazılmış abzas əsasında cədvəli doldurun.

Mətnin üslubunun səciyyəvi xüsusiyyətlərinə uyğun ifadə	Əsaslandırma
1.	
2.	
3.	
4.	

150. "*Yaxşılıq qapını açar, səadət bu qapıdan içəri girər*" deyimi mətnin hansı abzaslarında öz təsdiqini tapır? Fikrinizi əsaslandırın.

Qartal

Gündoğan tərəfdə dağlıq bir yer var. Burada dağlar elə ucadır ki, ağsaçlı zirvələrinə nə bir vəhşi heyvan qalxır, nə də adi quş qona bilir. Ancaq vüqarlı qartallar bu zirvələrdə bala çıxarır, onları böyüdüb qanad açmağı öyrədirlər.

Bir uca dağ zirvəsindəki yuvada bala Qartal böyüyürdü. Nə qədər ki balaca idi, başı üzərindəki ənginliklərə baxır, göylərdə süzən güclü qartalları həsədlə seyr edir və arzulayırdı: "Böyüyüb qüvvətlənəndə mən də qocaman qartallar kimi göyün ən uca qatlarında süzəcəyəm".

Uzun illər keçdi, Qartalın qanadları möhkəmləndi. Şövqlə qıy vurub *pərvazlandı*[1]. Gah göylərdə *süzür*[2], gah da mavi səmanın dərinliklərindən düzlərə, dərələrə *şığıyırdı*[3]. İndi o, qüdrətli dağın qarlı ▲ *zirvəsinə* qonanda arzulayırdı: "Elə yüksəkliklərə qalxacağam ki, orada heç bir qartal süzməyib. Qanadlarım möhkəmlənəndə ilk uçacağım yer doğulduğum yuva olacaq".

Qartalın yaşadığı məkanda bütün dağlardan uca bir dağ vardı. **Dağın başı dumana bürünüb qamçılı şimşəklərlə bəzənəndə bütün ərazi çiskinə qərq olardı.**

Qartal həmin dağın uca zirvəsində özünə yer seçdi, sonra həmin zirvədən də yuxarı qalxdı, böyük qanadları ilə zirvəyə kölgə saldı.

Bu zaman dəhşətli tufan qopdu, Qartalın yolunu çulğaladı ki, o, gücü ilə lovğalanmasın. İndi qartalı tufanla döyüş gözləyirdi. Lakin qartal çoxdan idi, öz gücünü göstərmək istəyirdi, buna görə də geri çəkilmədi.

Dəli tufan ■ *qızmış* köhlənini çapdıqca Qartalı da ağuşunda uzaqlara apardı. Zavallı Qartal dağlardan uzaq düşdü, insan yaşayan vadilərin üzərindən uçub keçdi. Yorğunluğunu azacıq almaq üçün taqətsiz halda yerə endi. Bunu görən insanlar Qartala ● *tor* qurub onu bir qəfəsə saldılar.

Onun qabağına yeməklər qoyuldu, su verildi. Amma Qartal özünü qəfəsin divarlarına çırpır, caynaqları ilə məftilləri didir, qanadları ilə sütunları vururdu. Dimdiyi qopdu, sinəsi al qana batdı, amma Qartal qəfəsdən qurtulmaq savaşını dayandırmadı.

Camscanner ilə skan edilib

Qəfəslərdəki digər quşlar insanların Qartala necə qayğı ◆ *göstərdiyini*, Qartalın isə bu qayğıya biganə qalmasını görüb təəccüblənir və onu anlaya bilmirdilər.

Qartal getdikcə ..... . Lakin azadlığı əlindən alınmış Qartal bütün bunlara baxmayaraq, xilas olmağı bacarır və əngin səmalara geri dönür.

151. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Dəqiqdir	*Ehtimaldır*
1. Qəfəsdəki digər quşlar da təbii fəlakətin qurbanı olmuşdur. 2. Qartalın yaşadığı məkanda insan yaşamırdı. 3. Qartalın azad olmağı insanları məyus edir.	4. Qartalı başqalarına nümayiş etdirmək məqsədilə tutub qəfəsə salmışdılar. 5. İnsanlar qartala yaxşı qulluq edirdilər.

A) 4, 5 B) 1, 3, 4 C) 1, 2
D) 2, 3, 5 E) 2, 4

152. Mətndə üzərində rəqəm yazılmış sözlərin işlənmə yerinə əsasən uyğunluğu müəyyən edin.

1.
2.
3.

a. qanadlanmaq, uçmağa başlamaq
b. qanad çalmadan sakit-sakit, səssiz uçmaq
c. külək, təkan və s. gücü ilə havada hərəkət etmək, getmək
d. böyük sürətlə enərək hədəfə hücum etmək, üzərinə atılmaq
e. məqsədə yetişmək, sürətlə yuxarı qalxmaq

A) 1 – b; 2 – a; 3 – d
B) 1 – b, d; 2 – a, e; 3 – c
C) 1 – a, e; 2 – c; 3 – b, d
D) 1 – c, e; 2 – b; 3 – a
E) 1 – a; 2 – b; 3 – d

153. Mətndə tünd-qara hərflərlə verilmiş cümlənin üslubi xüsusiyyətlərinə əsasən doğru fikirləri müəyyən edin.

1. Bir varlığa məxsus əlamət başqa varlığın üzərinə köçürülüb.
2. Bütün sözlər poetik funksiya daşıyır.
3. Mənası hamı tərəfindən başa düşülən sözlər işlənib.
4. İnsan həyatı ilə təbiət hadisəsi qarşılaşdırılaraq iki zidd anlayış verilib.
5. Təsvir edilən yerin təbiəti haqqında poetik təsəvvür yaradır.

A) 1, 4, 5 B) 2, 3, 4 C) 2, 4, 5
D) 1, 2, 3 E) 1, 3, 5

154. Mətndə altından xətt çəkilmiş söz hansı cümlədə mətndəki mənanı ifadə edir?

A) Qulam teleqramı yazan ağsaçlı kişinin yanına qalxdı.
B) Xəstəxananın arxasındakı meydançadan səs-küy qalxdı.
C) Tənbəl adamın qalxacağı bir mövqe yoxdur.
D) Bütün salondakılar ayağa qalxdılar.
E) Qiymətlər qalxmış, ərzaq qıtlığı yaranmışdı.

155. Qartal haqqında hansı fakt mətndə öz təsdiqini *tapmır*?

A) Yuvaları əlçatmaz yerlərdə olur.
B) Güclü və geniş qanadları olur.
C) Səmada ən yaxşı hərəkət qabiliyyətinə sahib quşlardan biridir.
D) Qısa müddət ərzində yetkinliyə çatır.
E) Onları tabe etmək çətindir.

156. Mətndə nöqtələrin yerinə uyğun fikir yazmaqla cümləni tamamlayın.

157. Mətndə əvvəlində işarə qoyulmuş sözlər əsasında cədvəli tamamlayın.

	İnformativ funksiya daşıyır (✓)	*Poetik funksiya daşıyır (✓)*	*Sözün mətndəkindən fərqli funksiyada (informativdirsə; poetik, poetikdirsə, informativ) cümlədə işlədilməsi*
▲			
■			
●			
◆			

158. Mətnin əsas hissəsində məntiqi ***uyğunsuzluq*** yaradan cümləni müəyyən edib yazın və seçiminizi əsaslandırın.

159. Mətndəki obrazlar hansı xüsusiyyətləri simvolizə edir? Fikrinizi uyğun xanalara yazın.

Qartal	*İnsan*	*Digər quşlar*

160. "*Qırx il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq yaxşıdır*" (Babək) aforizmini mətnlə əlaqələndirib fikrinizi yazın.

Camscanner ilə skan edilib

Qayanın o biri üzü

Meşənin içi ilə gəlirsən, gəlirsən, döngəni burulan kimi Niyal kəndi görünməlidir. Ancaq görünmür, həmin dirsəkdəki böyük qaya mane olur. Qışda meşə ▲ *yarpaqsız qalanda* ağacların arasından Niyalı görüb heyran olursan. Yazda isə bir tərəfdən yarpaqlar, o biri yandan qaya Niyalın qarşısına pərdə çəkir. Burada səs-səmir eşidilmir, meşədə də, dərədə də əbədi sükut hökm sürür.

Aramsız yağan yağışlar tez-tez dağlardan çınqıl daşlarını aşağı tökür, qaya ilə dağın arasındakı yol keçilməz olurdu. Son yağışlarda isə Niyalın ətrafla əlaqəsi tamam kəsildi. Yol mühəndisləri gəlib baxdılar, çıxış yolu qayanı yerindən götürmək idi.

Qayanın, kim bilir, neçə yaşı vardı, elə bil yerdən bitib göyərmişdi, vəhşi heyvanı xatırladırdı. Deməli, traktor bir güllə ilə iki dovşan vuracaqdı[1], daşı dərəyə itələməklə həm ....., həm də ..... .

Rayonda bircə dənə yapon traktoru vardı, qayanı itələmək üçün onu gətirdilər. **Traktorçu aşağı boylandı, uçurumun dibi görünmür, yalnız dərədəki çayın güclü qıjıltısı eşidilirdi.** O sarısını uddu[2], yol işçisinə dedi:

– Yox, qardaş, mən başıma iş açа bilmərəm[3], buranı belə bilmirdim.

Yol işçisi gözünü döydü:

– Bəs nə edək?

Kimsə kənardan dilləndi:

– Fuada deyin. O bu işin öhdəsindən gələr. Bu yerləri də yaxşı tanıyır.

Yol işçisi Fuadın dalınca gedəndə traktorçunun rəngi özünə gəldi.

Fuad elə bil traktorun yox, Qıratın belinə sıçradı. Elə bu vaxt qaya ■ *gurultu ilə* dərəyə uçdu, neçə ağacı sındırdı, yaraladı, kol-kosu tapdaladı, dərədən axan çayın ortasına düşdü. Özünə yol tapa bilməyən dağ çayı burulub sağa doğru axdı.

Niyal qara buluddan çıxan gün kimi ● *parıldadı*. Fuad öz doğma kəndinə heyranlıqla tamaşa etdi. Traktoru söndürən kimi qulağına səs gəldi. İpəyin, cəhrənin, lülənin, xananın, kələgayının "səsi" idi bunlar. Bəziləri karxanalardan, əl dəzgahlarından çıxıb müasir toxucu dəzgahlarında məskən salmışdı.

İndi həmin "çaq-çuq" Fuadın qulağına dəyəndə zarafatla dedi: "Bax ey, bilsəydim, sexin səsi basacaq buranı, daşa toxunmazdım". Traktorun yönünü düzəldib yerə hoppandı, traktorçunu məzəmmət elədi:

– Qardaş, yaponlar bilsələr, onların traktorunu belə saxlayırsan, bağırları partlayar. Heyifdir.

Fuad kəndə tərəf üz tutdu. Adamlar yolun genişlənməyindən bir az əvvəl xəbər tutmuşdular. Qarşıdan, arxadan gələn maşınlar Fuadın yanından keçəndə onu salamlamaq üçün siqnal verirdilər. Fuad yoldan çıxıb meşənin içindən kəndə enən cığıra düşdü. Yarpaqlar son bahar nəğməsini oxuyurdu.

161. Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən edin.



A) 1, 3, 5 B) 2, 3, 4 C) 1, 5, 6
D) 2, 5, 6 E) 1, 2, 4

162. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*	*Ehtimaldır*
1. Təbiət hadisəsi problem yaradır. 2. Kənd əhalisi sənətkarlıqla məşğul olur.	3. Döngədəki qayanı sel suları bir gün əvvəl gətirib. 4. Fuad kəndə üz tutanda kəndin adamları yolun açıldığını bilirdilər.	5. Fuadın sənəti traktorçuluqdur. 6. Hadisə payızda baş verir.

A) 1, 2, 3, 5 B) 2, 4, 5 C) 1, 2, 4, 6
D) 3, 5, 6 E) 1, 3, 4, 6

163. Mətnin giriş və nəticə hissələri ilə bağlı ortaq fikirləri müəyyən edin.

1. Məcazdan istifadə edilib.
2. Mənzərənin təsviri üstünlük təşkil edir.
3. Obrazın xarakteri və görünüşü ilə bağlı müəyyən məlumat əldə etmək olur.
4. Aid olduğu üslubun səciyyəvi cəhətləri özünü göstərmişdir.

A) 2, 4 B) 2, 3 C) 1, 3 D) 1, 2 E) 1, 4

164. Hansı cümlə ilə mətnin ən azı 2 abzasını genişləndirmək olar?

A) Qaya düz uçurumun ağzında idi, yolu da əməlli-başlı daraltmışdı.
B) "Mən bu qayanı buradan mütləq götürməliyəm..." – deyə Fuad öz-özünə düşündü.
C) Niyalda qarşılaşdığı insanların xoş təbəssümü Fuadı çox sevindirirdi.
D) Elə bil Əmrəki dağı gəlib öz gözəlliyi ilə gözünün qabağında durdu.
E) Onun öz evində də babasından qalma kələgayı dəzgahı vardı.

165. Cümlələrin birində mətndə çərçivə daxilində olan söz kontekstdəki mənasına uyğun işlənmişdir:

A) Karxananın qabağındakı adam dərini suya basırdı.
B) O, pulu uşağın ovcuna basdı.
C) Həkim əlindəki tənzifi yaranın üstünə basdı.
D) Uşaqlar itləri daşa basırdılar.
E) Həyətdə yanan ocağın tüstüsü aləmi basmışdı.

Camscanner ilə skan edilib

166. Mətndə nöqtələrin yerinə məzmuna uyğun fikirlər yazmaqla cümləni tamamlayın.

167. Mətndə üzərində rəqəm yazılmış ifadələrin qarşılığını (ifadə etdiyi mənanı) müəyyən edib yazın.

168. *"Təbiətə məcburi müdaxilə arzuolunmaz nəticələrə yol açа bilər"* ifadəsini mətnlə əlaqələndirib fikrinizi yazın.

169. Mətndə əvvəlində işarə qoyulmuş ifadələri mətnin üslubuna uyğun obrazlı ifadələrlə əvəz edib yazın.

170. Mətnə əsasən sxemi tamamlayın (√) və seçiminizi əsaslandırın.

Tünd-qara hərflərlə verilmiş cümlə mətnin giriş hissəsindəki fikri		
	təsdiq edir.	
	təkzib edir.	

Əlifba islahatı

M.F. Axundzadənin ömrünün ən yüksək səhifələrindən biri onun yeni əlifba islahatı barəsində çəkdiyi əziyyətlərdir. O, ərəb əlifbasının
1
çatışmazlıqlarını müəyyən etdikdən sonra *yeni* bir əlifba layihəsi üzərində çalışmağa başladı.

M.F. Axundzadə məktublarında dilimizdə olan səslərin ərəb əlifbasında tam şəkildə ifadə edilə bilmədiyini yazır, yeni əlifbanın inkişaf üçün gərəkli olduğunu bildirir. Qeyd edir ki, bu fikrin İranda və Türkiyədə yayılmasına 15 il sərf etsə də, yeni əlifba
2
ideyasının *toxumları* yeni nəslin zəmanəsində göyərəcəkdir.

M.F. Axundzadənin fikrincə, "**ərəblər bu əlifba ilə başımıza bir oyun açıblar ki**, onun sayəsində hətta adi savad sahibi olmaq belə bizim üçün ən çətin işlərdən olmuşdur. Yeni əlifba vasitəsilə bütün türk dünyası az zaman içərisində öz dilində oxumaq, yazmaq imkanına malik olacaqdır".

M.F. Axundzadə yeni əlifba islahatını belə əsaslandırır:

▲ – *ərəb əlifbasında sait səslərə aid hərflərin olmaması, nöqtələrin çoxluğu, hərflərin bitişərək müxtəlif formaya düşməsi nöqsandır.*

– *əlifba xüsusilə tədris üçün yaramır, çox ağır olduğu üçün bu əlifbanı, bəlkə də, 3–4 ilə ancaq öyrənmək olur, ilk gündə əlifbanı öyrənmək uşağa riyaziyyatı öyrənməkdən çətin gəlir, elə buna görə də uşaq bezir və ona nifrət edir.*

Ərəb hərflərinin türk dilinin səslərinə uyğun olmadığını yazan ədib xarici dillərdən tərcümə olunan əsərlərdəki yer və ölkələrin adlarının, tibbi terminlərin də bu əlifba ilə doğru ifadə oluna bilmədiyini vurğulayır.

O zaman islam dünyasının ən güclü dövləti isə
3
Osmanlı imperiyası idi. O başa *düşürdü* ki, əlifba islahatı onun təkbaşına bacara biləcəyi iş deyil,
4
problem rəsmi səviyyədə həll olunmalıdır.

1. Əlifbanın nüsxəsi ilə tanış olan nazir Əli paşa
5
Mirzə Fətəlinin *məramını* anlayandan sonra deyir: "Gözəl şeydir, İstanbulda on il əvvəl bəziləri bu məsələni başa düşüb bir məclis də təşkil ediblər, lakin sonra iş yarımçıq qalıb" **2.** Odur ki, M.F. Axundzadə Osmanlı sarayına doğru yola düşür. **3.** Ədib təklifinin xoş qarşılanmadığını başa düşür. **4.** Təəssüf ki, İstanbul səfərindən ona yalnız könlünü almaq üçün verdikləri "Məcidiyyə" ordeni qalır.

171. Mətndə qarşısına ▲ işarəsi qoyulmuş hissənin məzmununu əhatə edən xülasəni müəyyənləşdirin.

A) M.F. Axundzadə elə əlifba yaratmaq istəyirdi ki, onun vasitəsilə bütün türk xalqları uzun zaman sərf etsə də, sonda öz dillərində səlis oxumaq, mükəmməl yazmaq imkanına malik olsunlar.

B) M.F. Axundzadə Avropa xalqlarına üstünlük verərək onların sözlərinin düzgün yazılmasını təmin edəcək əlifba uğrunda mübarizə aparır.

C) M.F. Axundzadə əlifba islahatının vacibliyini mövcud əlifbanın öyrənilməsinin çətinliyi, bir çox anlayışların bu əlifba ilə dəqiq ifadə oluna bilməməsi, ərəb hərflərinin türk dilinin səslərinə uyğun olmaması ilə əsaslandırır.

D) M.F. Axundzadə ərəb əlifbasında müxtəlif sait və samit səslərin olmamasından narahat olurdu.

E) M.F. Axundzadə ərəb əlifbası üzərində islahatlar aparmaqla türk dilləri üçün ortaq əlifba yaratmaq istəyirdi.

172. Mətnin tərkib hissələrinə əsasən uyğunluğu müəyyən edin.

1. Giriş	a. Mütərəqqi ideyaların gerçəkləşməsinə olan inam
2. Əsas hissə	b. Yerinə yetirilən islahata görə mükafatlandırma
3. Nəticə	c. Yeni əlifba layihəsi üzərində başlanan iş
	d. Maarifçi xadimin əlifba islahatını əsaslandırması
	e. Layihənin dövlət səviyyəsində müzakirəsi

A) 1 – d; 2 – a, e; 3 – b, c
B) 1 – a, b; 2 – c, d; 3 – e
C) 1 – a, e; 2 – b; 3 – d
D) 1 – b, c; 2 – a; 3 – d, e
E) 1 – c; 2 – a, d; 3 – e

Camscanner ilə skan edilib

173. Hansı doğrudur?
I – Səbəb
II – Nəticə
A) I – Ərəb hərfləri türk dilinin səslərinə uyğun deyil.
II – Tibbi terminlərin bu əlifbaya uyğunlaşdırılması zəruridir.
B) I – Əlifba islahatı rəsmi səviyyədə həll olunmalı idi.
II – M.F. Axundzadə Osmanlı sarayına yola düşür.
C) I – M.F. Axundzadə əlifba islahatı yolunda çox əziyyət çəkmişdir.
II – Əlifba islahatına İranda və Türkiyədə yayılmasına 15 il vaxt sərf etsə də, qeyd edir ki, yeni əlifba ideyasının toxumları yeni nəslin zəmanəsində göyərəcəkdir.
D) I – Ərəb əlifbasında sait səslərə aid hərflər yoxdur.
II – Osmanlı imperiyasının əlifba təcrübəsindən yararlanmaq lazım idi.
E) I – Əlifbanın nüsxəsi ilə tanış olan nazir Əli paşa Axundzadənin məramını anlayır.
II – İstanbulda məclis təşkil olunur.

174. Mətnin son abzasında nömrələnmiş cümlələr hansı ardıcıllıqla düzülməlidir?
A) 1, 4, 3, 2 B) 1, 2, 4, 3 C) 3, 1, 2, 4
D) 2, 1, 3, 4 E) 2, 3, 4, 1

175. Cədvələ görə yanlış fikri müəyyən edin.

Faktdır	*Ehtimaldır*
1. Yeni əlifbanın vacibliyinə inandırmaq üçün sərf olunan vaxt	4. Axundzadənin ordenlə mükafatlandırılması
2. Müəyyən zaman ərzində hər kəsin ərəb əlifbasını mənimsəyə bilməsi	5. Axundzadədən əvvəl əlifba islahatının çətinlik ucbatından yarımçıq qalması
3. Ərəb əlifbası ilə tibbi terminlərin doğru ifadə oluna bilməməsi	6. Ərəb əlifbasında sait səslərə aid hərflərin olmaması

A) 2, 3, 6 B) 1, 4, 5 C) 2, 3, 4
D) 2, 4, 6 E) 1, 2, 3

176. Mətnin məzmununa uyğun sillogizmi tamamlayın.
1-ci hökm: Yeniliklər çox vaxt əngəllərlə üzləşir.
2-ci hökm:
Nəticə: M.F. Axundzadə bir çox maneələrlə qarşılaşmışdır.

177. Çərçivə daxilində verilmiş sözün məcazi mənalı qarşılığını qeyd edin və həmin qarşılığı kontekstdəki mənasına uyğun olaraq mətndənkənar cümlədə işlədərək yazın.

178. Üzərində rəqəm yazılmış sözləri cədvələ uyğun qruplaşdırıb yazın.

Həqiqi mənada işlənmişdir	*Məcazi mənada işlənmişdir*

179. Mətnin ilk cümləsindəki üslubi cəhətdən ***yanlış*** sözləri uyğun ifadələrlə əvəz edərək cümləni yenidən yazın.

Üslubi cəhətdən yanlış sözlər	*Cümlənin təkmilləşdirilmiş variantı*

180. Əsas mətnlə çərçivədəki mətnin üslubunu müəyyən edin və hər birinin üslubi xüsusiyyətlərinə aid ən azı iki fakt yazın.

"Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası qərara alır:
1. 32 hərfdən ibarət latın qrafikalı Azərbaycan əlifbası kiçik dəyişikliklərlə aşağıdakı kimi sıralansın: Aa, Bb, Cc, Çç, Dd, Ee, Əə, Ff, Gg, Ğğ, Hh, Xx, Iı, İi, Jj, Kk, Qq, Ll, Mm, Nn, Oo, Öö, Pp, Rr, Ss, Şş, Tt, Uu, Üü, Vv, Yy, Zz
2. Latın qrafikalı Azərbaycan əlifbasının bərpası aşağıdakı qaydada həyata keçirilsin:
- 1992-ci ildə:
Sentyabr ayından orta məktəblərin 1-ci siniflərində dərslər yeni əlifba ilə keçirilsin.

Camscanner ile skan edilib

Astronavtın bir günü

I Kosmosa uçan astronavtın həyatı heç də asan deyil. Astronavt onu gözləyən hər cür təhlükələrdən başqa, qidalanması, geyimi və bir çox məişət işləri ilə bağlı problemlərlə üzləşə bilər. Buna görə də onlar sərt qaydalara əməl etməlidirlər. Su kosmik məkanın ən böyük problemidir. İşlənmiş su təkrar istifadə üçün daim yararlı hala gətirilir. Astronavtın bu gün istifadə etdiyi suyun böyük hissəsi dünən istehlak etdiyi sudan alınır.

II Yemək üçün qurudulmuş qidalardan istifadə olunur. Qidalar vakuum torbalarda saxlanılır, qida qəbulu zamanı isladılır və qızdırılır. Tədqiqatçılar astronavtın beş yüz qramlıq qidasının təxminən 10 min dollar dəyərində olduğunu söyləyirlər.

III Astronomik məkanda heç bir ağırlıq olmadığı üçün su hissəcikləri havada uçur. Buna görə astronavtlar durulama tələb etməyən sabundan istifadə edirlər.

IV Bir astronavtın astronomik məkanda 6 ay ərzində məruz qaldığı şüalanma nüvə stansiyasında işləyən insanların həyatı boyu məruz qaldığı radiasiyaya bərabərdir. Məkanda cazibə qüvvəsi yoxdur, bədən zamanla uzanmağa, boy artmağa, əzələlər əriməyə başlaya bilər. Buna görə astronavtlar müntəzəm şəkildə məşq etməlidirlər.

V Astronavt gündə 8 saat yata bilər. Bir çox astronavtlar yuxuya getmək üçün gözlərini yumduqda ulduz topalarını gördüklərini söyləyirlər. Bunun səbəbi məkanda yayılmış şüalardır. Bu şüalar bir müddət yuxunu qaçıra da bilər. Eyni zamanda təsiri duyulmaya da bilər. Yatdığı zaman astronavt yüksək səs mühitinin səs-küyünü eşitməmək üçün qulaq tıxaclarından istifadə edir. Yatarkən çantasındakı şəxsi yuxu kombinezonundan istifadə etməlidir. Bu kombinezonlar kosmik gəminin daxili divarına ilişdirilir, yuxuda olduqda özünə zərər verməyinə mane olur. Kosmik stansiya Yerdən təxminən 400 km yüksəkdədir. Çox sürətlə hərəkət edən bu stansiyalar 90 dəqiqə ərzində yalnız dünyanın bir hissəsini dövr edə bilir.

VI Astronavtın geyindiyi kosmik kostyum 13 qatdan ibarətdir. Bu kostyumu geyinmək üçün astronavta təxminən 45 dəqiqə vaxt lazımdır.

VII Kosmik fəzaya uçuşun bu qədər çətinlikləri ilə yanaşı, həm də astronavtdan üzərinə götürdüyü vəzifəni yerinə yetirmək tələb olunur. Ona görə də əminliklə demək olar ki, astronavtların elm üçün göstərdikləri fədakarlıq misilsizdir. Onların nümayiş etdirdikləri dözüm və şücaətin rolu isə danılmazdır.

181. Mətnin tərkib hissələrinə əsasən uyğunluğu müəyyən edin.

1. Giriş
2. Əsas hissə
3. Nəticə

a. Dünyanı dövr edən kosmik gəmi
b. Kainatı öyrənənlərin xidmətinin dəyərləndirilməsi
c. İstehlak edilən maddənin yenidən istifadəsi
d. Astronavtın vacib qaydalara əməl etmə səbəbi
e. Astronavtın bədəninin istidən və soyuqdan qorunması

A) 1 – d; 2 – b, c; 3 – a, e
B) 1 – d; 2 – a, c; 3 – b
C) 1 – e; 2 – a, c; 3 – b
D) 1 – a, d; 2 – b; 3 – e
E) 1 – c, e; 2 – a, b; 3 – d

182. Cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*	*Ehtimaldır*
1. Astronavtlar günün üçdə bir hissəsini yata bilərlər.	3. Kosmik məkanda xüsusi sabundan istifadə olunur.	5. Kosmik məkanda yayılmış şüalar astronavtın yuxusuna təsir etməyə bilər.
2. Astronomik məkanda çəkisizlik səbəbindən su hissəcikləri uçur.	4. Qulaqları tutulmamaqdan ötrü astronavtlar qulaqlıqdan istifadə edirlər.	6. Kosmik gəmi bir saat yarım ərzində dünyanın böyük bir hissəsini firlanan bilir.

A) 2, 3, 5, 6
B) 1, 2, 4, 5
C) 1, 4, 6
D) 2, 4, 5, 6
E) 1, 3, 4

183. "*Mətndən aydın olur ki, bəşəriyyətin əldə etdiyi böyük uğurlar ağır əzab və gərgin zəhmət hesabına əldə edilmişdir*" fikrini hansı sitatla qüvvətləndirmək olar?

A) Başqalarının xoşbəxtliyi üçün çalışmaqla biz öz xoşbəxtliyimizi tapırıq. (Platon)
B) Qazanılmış elmi nailiyyətlərin arxasında kimlərinsə fədakarlığı durur. (Əbu Turxan)
C) Canıyananlıq başqasının bədbəxtliyinə, paxıllıq isə başqasının xoşbəxtliyinə yanmaqdır. (Platon)
D) Müdrik adamın faciəsinə şərik ol, nadan adamın xoşbəxtliyinə şərik olma. (Əbu Turxan)
E) Heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir. Ancaq elmin gücünə tərəqqi etmək mümkündür. (Nəriman Nərimanov)

184. Mətnə əsasən doğru fikirlərdir:

1. Astronavtın təhlükəsizliyini təmin etmək üçün müxtəlif üsullar düşünülmüşdür.
2. Astronavtın məişət həyatı onun istəklərinə uyğun ən yüksək səviyyədə təmin olunmuşdur.
3. Astronavt olmaq hər cür qlobal təhlükələrlə üzləşmək deməkdir.
4. Astronavtın geyimi onu təhlükəli vəziyyətdən qoruyur.
5. Astronavt tələb olunan qaydaları pozmamalıdır.

A) 1, 4, 5
B) 2, 4
C) 1, 2
D) 2, 3, 5
E) 1, 3

185. *Astronavt kosmik məkanda müxtəlif şüalarla üzləşir* tezisini hansı abzaslara aid etmək olar?

A) III, IV, VI
B) II, IV
C) I, II, III
D) I, V, VI
E) IV, V

Camscanner ilə skan edilib

186. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəb	*Nəticə*
Kosmosda ağırlıq olmadığı üçün su hissəcikləri havada uçuşur.	2.
1.	Astronavt müntəzəm məşq edir.

187. Mətnin hansı hissələri abzasa bölünməlidir? Həmin hissələri və abzasların başlandığı sözləri müəyyən edin.

188. Mətnə əsasən cədvəli tamamlayın.

Müddəa	*Fakt*
Astronavtları qida ilə təmin etmək maddi cəhətdən o qədər də asan deyil.	
Mürəkkəb quruluşa malik olan geyimlərini geyinmək üçün astronavtlar xeyli zaman sərf edirlər.	

189. Mətndə çərçivə daxilində verilmiş sözə əsasən cədvəli tamamlayın.

Çərçivə daxilindəki söz	*Sözün mətndəki mənasına aid nümunə (cümlə)*	*Sözün mətndəki mənasından fərqli nümunə (cümlə)*

190. Əsas mətnlə çərçivədə verilmiş mətnin üslubi xüsusiyyətlərinə əsasən Eyler-Venn diaqramını doldurun. (Hər hissəyə ən azı bir doğru fikir yazmaqla)

Düyü qırtıckimilər fəsiləsinə aid bitki cinsidir. Düyüdə orqanizm üçün qiymətli lizin amin turşusu vardır. Düyüdə nişastanın faizi olduqca yüksəkdir, bəzən 90 faizə çatır. Düyünün bir neçə növü var: yumru (uzunluğu 5,15 mm qədərdir), orta (uzunluğu 5,16-6,15 mm-ə qədərdir) və uzun (uzunluğu 6,16 mm-dən çoxdur).

Çərçivədə verilmiş mətn — Əsas mətn



Rəngləri necə görürük?

I Rənglər həyatımızda çox önəmli yer tutur. Təbiət öz rəngləri ilə *zövqümüzü oxşayır*[1]. Sevdiyimiz, əsasən də, geyim alarkən üstünlük verdiyimiz rənglər var. Rəngləri görə bilməsək, həyatımız, doğrudan da, maraqsız olar. Bəs rəngləri necə gördüyümüzü heç düşünmüsünüzmü?

II 1672-ci ildə prizmalarla təcrübə aparan ingilis alimi İsaak Nyuton böyük bir kəşf etdi: adi "ağ" işığın müxtəlif dalğa uzunluğuna malik olan işıq şüalarının birləşməsindən yarandığını müşahidə etdi. Əşyanın konkret rəngdə görünməsinin səbəbi onun müvafiq dalğa uzunluğundakı işığı başqalarına nisbətən daha çox əks etdirməsidir. Bütün əşyalar öz rəng dünyalarının sirrinə görə məhz işıqlandırılmaya borcludur. Məsələn, almanın qırmızı görünməsi işıq spektri üzərində məhz qırmızıya uyğun şüaların əks olunmasından qaynaqlanır. Nyutonun bu kəşfindən sonra fiziklər: "Rəng yoxdur, sadəcə dalğa uzunluğu var", – deyirlər.

III Gözümüz öz üzərinə düşən işığı *rəngli fotolent*[2] qoyulmuş fotoaparat kimi müxtəlif rənglərə ayırır. İşıq əvvəl buynuz qişasından keçir. Buynuz qişası filtr vəzifəsini yerinə yetirir.

IV O daha sonra göz bəbəyinə çatır. *Sinir şəbəkəsi*[3] gözümüzdə fotolent rolunu oynayır və rəng impulslarını qəbul edir.

V Rənglərlə bağlı fikirlər duyğu orqanlarımızın hələ tam mənası ilə öyrənilmədiyini göstərsə də, qəti şəkildə deyə bilərik ki, rənglər, əslində, optik bir xəyaldır. Fiziklər rənglərin optik bir xəyal olmasına sübut olaraq, mavi xalının qaranlıq bir otaqda qırmızı almadan, yaxud bir ağ siçandan fərqli rəngdə görünmədiyini *irəli sürürlər*[4]. Bu halda belə, işıq mənbəyinə görə fərq yaranır. Ağ siçan qırmızı bir ampulanın işığında gün işığında olduğundan fərqli görünür. Və ya buludlu bir noyabr günündə bütün təbiətdə sanki *rənglər itir*[5], bozun çalarları üstünlük təşkil edir.

VI 400 ilə yaxındır ki, fiziklər rəng anlayışını çözməyə çalışırlar. İsaak Nyuton 1666-cı ildə şüşə prizmadan günəş işığını keçirərək qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy və bənövşəyidən ibarət bir göyqurşağı əldə etmişdi.

VII Cisimlərin günəş işığının bir qismini ....., bir qismini isə ..... ilə rənglər ortaya çıxır. Qırmızı bir gül işıq dalğalarının köməyi ilə qırmızını canlandırır. Canlı-cansız bütün cisimlərdə eyni proses təkrarlanır.

191. *O zamandan rənglərin günəş işığının müxtəlif parçalarından başqa bir şey olmadığı düşünülür* cümləsini mətnin neçənci abzasının sonuna artırmaq olar?

A) IV B) VI C) III D) V E) I

192. Mətndə üzərində rəqəm qoyulmuş hansı ifadələr məcazi mənada işlənmişdir?

A) 2, 3, 5 B) 2, 4, 5 C) 1, 5 D) 1, 4 E) 3, 4

Camscanner ilə skan edilib

193. Mətndə birləşdirilməsi uyğun olan iki abzası müəyyən edin.

A) II və III B) I və II C) IV və V
D) VI və VII E) III və IV

194. Mətndə çərçivədə verilmiş sözün kontekstdəki mənasına uyğun qarşılığının işləndiyi nümunəni müəyyən edin.

A) Əhalinin sıx məskunlaşdığı ərazidə tədbir təşkil edilmişdi.
B) Hindistanda uzun əsrlər insanlar doğulan kimi müxtəlif sosial təbəqələrə – kastalara bölünmüşdür.
C) Təklif edilənlər bizim tələblərimizə uyğun gəlirdi.
D) Onun əsərlərinin baş qəhrəmanları öz hərəkətlərini başqasına xoş getmək üçün nizamlayırdı.
E) İnsanlar arasında təbəqələşmənin əmələ gəlməsi Tunc dövründən başlayır.

195. Mətnə aid ***yanlış*** fikri müəyyən edin.

A) Rənglərin ayırd edilməsində gözümüzdəki sinir şəbəkəsinin rolu böyükdür.
B) Duyğu orqanlarımızın tam mənası ilə dərk edilməsi rənglərlə bağlı fikirlərlə sübut olunur.
C) Fiziklərin rənglər haqqında fikirləri Nyutonun kəşfinə əsaslanır.
D) İşıq şüaları rənglərin görünməsində əsas rol oynayır.
E) Əgər hər yer qaranlıq olsa, rənglər də ayırd edilməz.

196. Mətnin II abzasında hansı sözlə başlayan cümlə üslubi baxımdan fərqlidir?

197. Mətndə nöqtələrin yerinə uyğun olan sözləri ardıcıllıqla yazın.

198. Mətnin əsas hissəsinə aid tezis yazın.

199. *"Elm təbiət kitabını oxuyur və öyrəndiklərini təbiətin öz üzərində sınaqdan keçirir" (Əbu Turxan)* aforizmini mətnlə əlaqələndirərək fikirlərinizi yazın.

200. Mətnə əsasən cədvəli doldurun.

Səbəb	*Nəticə*
	Əşyalar müəyyən bir rəngdə görünür.
Təbiət elmləri ilə bağlı təcrübi çalışmalar XVII əsrdən etibarən intensivləşdi.	

Şüuraltımız necə çalışır?

I Şüuraltı – beynimizin bir parçasıdır. O, iradədən asılı olmayaraq çalışan, bədən əzələlərini idarə edən, gecə yatarkən orqanizmin bütün həyati funksiyalarının çalışmasını təmin edən, beş duyğu orqanı ilə qavradığımız hər şeyi anbaan qeydə alan və şüura ötürən bir hissədir.

II Şüurla şüuraltını aysberqə oxşada bilərik. Bu aysberqin səkkizdə yeddisi dənizin altında, səkkizdə biri isə dənizin üstündədir.

III Üstdə olan hissə şüur, altda qalan hissə isə şüuraltıdır. Gün ərzində davranışlarımızın, keçirdiyimiz hisslərin və düşdüyümüz vəziyyətin çoxu şüuraltının nəzarəti altında həyata keçir. Şüuraltı bədənin sirli memarı və inşaatçısıdır. Şüuraltımız sayəsində nəfəs alıb veririk. O özü isə şüura tabedir.

IV Bütün vərdişlərimiz şüuraltıda qeyd edilir. Məsələn, velosiped sürməyi öyrənmə mərhələsində şüur daima oyaqdır, buna görə diqqətli olmağa ehtiyac duyulur. Ancaq bir neçə dəfə istifadə etdikdən sonra velosiped sürərkən etdiyimiz hərəkətlərin çoxu şüuraltının əmri ilə avtomatik hala gəlir. Demək olar, hər kəsin başına gəlibdir; yolla gedərkən xəyala dalıb gedər, sonra nəzərdə tutduğumuz yerə çatdığımızı görərik. Bu an avtomat pilot vəzifəsini yerinə yetirən şüuraltının bizi idarə etdiyindən xəbərsiz ola bilərik.

V Bir körpənin yeriməyi öyrənməsi, musiqi aləti çalmaq və ya maşın sürməyi öyrənmək şüuraltının köməyi ilə olur. Şüuraltı bu işləri vərdiş halına gətirdikdən sonra avtomatik şəkildə icra edir.

VI Əgər şüuraltımızdan ..... istifadə etsək, bu, problemlərə, müvəffəqiyyətsizliyə ..... . Düşüncəli şəkildə istifadə etsək, azadlıq və zehni rahatlıq əldə edə bilərik. Düşüncələrimiz yaradıcı və sevgi dolu olanda müsbət cavab alacağımız qaçılmazdır.

VII Bir arzunun reallaşması üçün 3 mərhələyə ehtiyac vardır:

1. Qarşıya çıxan problemi görmək, ya da qəbul etmək;
2. Problemi ən yaxşı həll yolunu bilən şüuraltıya təhvil vermək;
3. Problemin həll olunacağına dərindən inanaraq rahatlıq tapmaq.

VIII Öz-özümüzə: "kaş ki yaxşılaşa bilə idim", ya da "ümid edirəm, işə yarayar" deməyək. Görüləcək işə tam inanaraq sağlam düşüncələrimizi şüuraltımıza təhvil verək, sonra sakitləşək. Özümüzü onun ixtiyarına buraxaq.

201. Verilmiş cümlə neçənci abzasın əvvəlinə artırılsa, tərkib hissələri arasında əlaqə bərpa olunar?
Şübhələr və tərəddüdlər arzularımızın reallaşmasına mane olar.

A) II B) VIII C) IV D) I E) V

Camscanner ilə skan edilib

202. Əsas mətnlə çərçivədəki mətnin üslubi xüsusiyyətlərini nəzərə alaraq, Eyler-Venn diaqramında hansı fikirlərin yeri dəyişdirilsə, doğru olar?

İntuisiyanın yaranma mexanizmi şüurun formalarının yaranma mexanizmi ilə eynidir. Efferent vəziyyət müxtəlif hərəkətetdirici sinirlərə, o cümlədən nitqə doğru istiqamətlənərək təfəkkürü, səsli nitqi, yəni şüuru, habelə intuisiyanı yaradır.



A) 1 ↔ 3 B) 2 ↔ 5 C) 1 ↔ 4
D) 3 ↔ 5 E) 2 ↔ 4

203. Mətnin məzmununa əsasən birləşdirilməsi uyğun olan iki abzası müəyyən edin.

A) V və VI B) III və IV C) II və III
D) VI və VII E) I və II

204. Mətndə çərçivədə verilmiş sözün kontekstdəki mənası hansı nümunədə verilmişdir?

1. Bu əşyalar günəş işığının təsirindən formasını dəyişir.
2. Arzuları reallaşmış, istədiyi ali məktəbə qəbul olmuşdur.
3. Tapşırıqları yerinə yetirib növbəti iclasa hazırlaşdı.
4. Bütün cari məsələlər müzakirə edilirdi.
5. Araşdırmalarının nəticəsində yeni qərar verildi.

A) 3, 5 B) 1, 2 C) 2, 3 D) 1, 4 E) 4, 5

205. Mətnə aid ***yanlış*** fikri müəyyən edin.

A) Şüuraltıda gedən prosesləri idarə etmək həmişə öz əlimizdədir.
B) Şüuraltıdan müsbət şəkildə istifadə etmək müsbət nəticələrə gətirib çıxarır.
C) Vərdişlərimiz şüuraltıda qeyd olunur.
D) Problemi həll etməyi şüuraltımıza etibar etməliyik.
E) Şüuraltımız biz yatarkən belə bizi idarə edir.

206. Mətnin əsas hissəsini əhatə edən tezis yazın.

207. Mətnə əsasən sxemi tamamlayın.

I _____ Nəticə
II Şüuraltının insan fəaliyyətində rolu
III _____ Giriş
IV "Buz dağı"

208. Mətndə nöqtələrin yerinə uyğun olan sözləri ardıcıllıqla müəyyən edin.

209. *"Xoşbəxt olmaq qabiliyyəti elə özümüzdən asılıdır" (Şarlotta Bronte)* aforizmini mətnlə əlaqələndirərək fikrinizi yazın.

210. Mətnin III abzasında hansı ifadə ilə başlayan cümlə üslubi baxımdan fərqlənir?

Marduk planeti

I Qədim mədəniyyətlər hər zaman insanlar üçün maraqlı mövzu olmuşdur. Min illik əfsanələrin insanlara **ötürdüyü** faktlar içərisində gerçək detalları axtarıb bəlli etmək tədqiqatçılar üçün həmişə cansıxıcı görünmüşdür. Belə maraq doğuran əfsanələrdən biri də Marduk planeti haqqındadır.

II 1976-cı ildə Azərbaycan əsilli şumerşünas Zəkəriyya Sitçin şumerlərin min illər bundan əvvələ aid yazılarını **oxuyaraq,** "12 planet" adlı əsərində hər 3600 ildən bir Günəş sistemini ziyarət edən Marduk planetindən bəhs etdi.

III Marduk şumerlərin və aşşurların dastanlarında bəhs edilən tanrıların ən müdriki və güclüsüdür. Babil astroloqları bu planetə öz tanrılarının adını vermişdilər.

IV Planetlərin bir-birinə yaxınlaşması zamanı planetezimal nə qədər böyük olursa, onun qravitasiyası bir o qədər güclü olur və o, intensiv olaraq kiçik kütləli qonşularını udur. Şumer inancına görə, Marduk planeti hər dəfə Yerə daha yaxın məsafədən **keçir** və bu da Yerdə böyük fəlakətlərin olması ilə nəticələnir. Şumer əfsanələrində həmin planetdə yaşayan annunakilərdən də bəhs edilir. Guya annunakilər Yer insanlarına nisbətən daha üstün mədəniyyətə malik olduqlarından Yerə enərək insanlara oxuyub-yazmaq və elm öyrətmişlər.

V Misir mənbələrində bəhs edilən bir göy cismi də şumer əfsanələrinin söz açdığı Marduk planetini xatırladır. İstanbul muzeyindəki het və aşşurlara aid lövhələrdə nəhəng göy cisminin şəkilləri saxlanılır. Amerikanın yerli xalqlarından olan mayyalara aid olan yazılarda da belə bir planetdən bəhs edilmiş və dəqiqliyinə görə heyrət doğuran mayya təqvimi ilə bu planetin Yerə yaxınlaşacağı vaxt göstərilmişdir.

VI Qədim mənbələrin bu qədər üst-üstə düşməsi Marduk planetinin, həqiqətən də, mövcud olub-olmaması haqqında mübahisə yaratmışdır. 1983-cü ildə NASA kosmosa peyk göndərdi. Aylar sonra bu peyk Günəş sistemindən əlli milyard mil uzaqlıqda nəhəng bir planet kəşf etdi. Heyrətamiz kəşf qəzetlərin birinci səhifələrində "Sirli bir göy cismi kəşf edildi" başlığı ilə dərc edildi. NASA bu planeti "X" planeti adlandırdı. Bu planetin Yer kürəsindən ilk olaraq görülməsi isə 21 oktyabr 2003-cü ildə Kaliforniyada teleskopla gerçəkləşdi.

Camscanner ilə skan edilib

VII Bəzi tədqiqatçılar şumer mənbələrində bəhs edilən göy cisminin "X" planet ola biləcəyi mövzusuna diqqət çəksə də, NASA bu fikirlə razılaşmır. Əlbəttə, hal-hazırda elm çox sirləri çözmüş, insanların ətraf aləm haqqında bilikləri mif və əfsanə səviyyəsindən uzaqlaşmışdır. Buna baxmayaraq, hələ də həmin əfsanələrdəki fikirlər tədqiqatçılarda maraq doğurur.

211. Mətnin tərkib hissələrinə əsasən uyğunluğu müəyyən edin.

1. Giriş
2. Əsas hissə

a. Müdrik Şumer tanrısı
b. NASA ilə fikir ayrılığı
c. Əfsanələr maraq obyekti kimi
d. Elmin əfsanələri üstələməsi
e. Sirli planet müxtəlif mənbələrdə

A) 1 – a, b; 2 – d, e
B) 1 – b; 2 – c, d
C) 1 – c; 2 – a, e
D) 1 – a, e; 2 – b, c
E) 1 – c; 2 – a, b

212. "*Eləcə də Şumer yazılarına görə, Mardukun peyklərindən biri min il əvvəl Tiamat adında başqa bir planetlə toqquşmuş, bu gün Mars və Yupiter arasında olan asteroit qurşağının yaranmasına səbəb olmuşdur*" fikri mətndə nömrələnmiş hansı abzasların arasına artırılsa, mətnin tərkib hissələri arasında əlaqə ***pozulmaz***?

A) VI-VII
B) III-IV
C) I -II
D) V-VI
E) IV-V

213. Mətndə altından xətt çəkilmiş cümlədəki fikri hansı sitatla qüvvətləndirmək olar?

A) Bir vaxt gələcəkdir ki, elm xəyalı qabaqlayacaq. (Jül Vern)
B) Daş-qaş əvəzinə özünə bilik yığsan, daha çox tanınarsan: ən qiymətli daşı salıb itirə bilərsən, ən sadə biliyi isə səndən heç kəs ala bilməz. (Əbül Fərəc)
C) Elmin gücü, yıxar bürcü. (Azərbaycan atalar sözü)
D) Elmdə irəli gedib mənəviyyatda geridə qalan insan son nəticədə irəli yox, geriyə gedir. (Aristotel)
E) Elm təbiət kitabını oxuyur və öyrəndiklərini təbiətin öz üzərində sınaqdan keçirir. (Əbu Turxan)

214. Mətnə əsasən doğru fikirdir:

1. Marduk planeti haqqında əfsanələr insanların marağına səbəb olmuşdur.
2. NASA-nın aşkar etdiyi "X" planeti şumerlərin Marduk planeti ilə eyni əlamətlərə malikdir.
3. Əfsanələrdə Marduku dini motivlərlə əlaqələndirməmişdilər.
4. "X" planetinin axtarışında Marduk haqqında əfsanənin rolu olmuşdur.
5. Təxəyyül elmdən güclü olsa da, bu haqda son sözü elm dedi.

A) 1, 5
B) 2, 5
C) 3, 4
D) 2, 4
E) 1, 3

215. Cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*	*Ehtimaldır*
1. İstanbul muzeyində naməlum nəhəng göy cisminin şəkilləri saxlanılır.	3. Nasa X planetin şumer əfsanələrindəki göy cismi olduğunu təsdiq etdi.	5. Mayya təqviminə görə nəhəng planet yerə yaxınlaşacaq.
2. İlk dəfə XX əsrin sonlarında nəhəng göy cismi teleskopla müşahidə edildi.	4. Babil astroloqları naməlum planeti öz tanrılarının şərəfinə Marduk adlandırıblar.	6. Marduk planetinin adı şumerlərin əfsanələrində çəkilir.

A) 2, 4, 6
B) 1, 3, 5
C) 1, 2, 6
D) 3, 4, 5
E) 1, 2, 5

216. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəb	*Nəticə*
1. Marduk planeti haqqında müxtəlif əfsanələr vardır.	
2.	Marduk planetinin ola biləcəyi insanları düşündürmüşdür.

217. Mətndə tünd-qara hərflərlə verilmiş sözlərə əsaslanmaqla cədvəli tamamlayın.

Sözlər	*Sözlərin mətndə olan mənası (həqiqi, yoxsa məcazi)*	*Sözlərin mətndəkindən fərqli mənada cümlədə işlədilməsi*

218. I abzasda işlənmiş üslubi cəhətdən nöqsanlı cümləni müəyyən edin və düzəliş edərək yenidən yazın.

219. Mətnin üslubu üçün xarakterik ***olmayan*** cümlə mətnin neçənci abzasında işlənmişdir? Həmin cümləni müəyyən edərək yazın.

220. Mətnin VI abzasında hansı sözlə başlayan cümlə yeni abzasın başlanğıcıdır?

Camscanner ilə skan edilib

Çöllərin, dənizlərin, azadlığın şairi

Əli Kərim sovet dövründə yaşamış Azərbaycan şairidir. (1) O, hüznlü lirik şeirləri ilə ədəbiyyatımızda özünəməxsus üslub yaratmışdır. Əli Kərimin böyüklüyü ondadır ki, yaşadığı dövrün qadağalarına, repressiyalarına baxmayaraq, ideologiyaya xidmət edən bircə şeir də yazmamış, yalnız gördüyü həyat həqiqətlərini, insan hisslərini, yaşamını özünəxas səmimiliklə anlatmışdır. ■

Müasirlərindən birinin yazdığına görə, bir dəfə onu tanıyanlardan biri Əli Kərimdən soruşur:

– Niyə partiyanın üzvü olmaq üçün cəhd göstərmirsiniz?

O, qızğın halda çiyinlərini çəkir:

– Şair nə üçün partiyanın üzvü olmalıdır?! Şair sənət böyüdər[1], sənət yaradar. Şairinki çöldür, dənizdir, azadlıqdır, – sonra qəfil gözünə sataşan uzaqdakı buruğu göstərir, – bax, o buruq kimi...

Bu sərbəstliyinə, azadlığına görə də dövrünün siyasi, ədəbi elitası tərəfindən etiraz və ögeyliklə qarşılanan Əli Kərim heç vaxt "xalq şairi" olmadı, heç bir fəxri ada, titula layiq görülmədi. (2) Ona qarşı gözləri bağlanan rejim məmurları tarixə qovuşub unuduldu, ancaq Əli Kərim əbədi yaşam qazandı. ▲

(3) Utancaq, təvazökar şair çıxış etdiyi müzakirələrdə nadir hallarda iştirak edərmiş. Cəmi 38 il ömür sürüb özündən sonrakı şairlər üçün məktəb rolunu oynayacaq bir irs qoyub getsə də, ömrünün sonlarına yaxın: "Heyif, bu yaşda heç nə, heç nə edə bilmədim", – deyərək hələ nə qədər böyük arzuları, yaradıcılıq imkanları olduğunu ifadə edirdi. ●

(4) Şairin istedadını hələ onun sağlığında həssaslıqla duyan, onu bir insan kimi yüksək dəyərləndirən Rəsul Rza Əli Kərimi "hər sözü, hər misrası ilə bir pillə ucalan, özünü də aşıb keçən novator şair" adlandırmışdı.

◆ Üç uşaq atası olan şair daim işsizlikdən, evsizlikdən də əziyyət çəkdi. Olduqca darısqal evdə yaşayan şairin mənzilini böyütməyə[2] ehtiyacı olsa da, çox sonradan ona verilən və yerdən 28 pillə aşağıda yerləşən zirzəmi ilə kifayətlənməli oldu. (5) Əli Kərim bu zirzəmidə üç uşağını tərbiyə edir, özündən sonra müxtəlif dillərə tərcümə edilərək dünyanın bir çox ölkələrində nəşr ediləcək zəngin ədəbi irsini yaradırdı.

▼ Sevgi və inam dolu ruha sahib şair "Mənim ömrüm" adlı şeirində yazırdı:

Baxsan bu dünyanın ha tərəfinə,
Bir yerdə qəbrim var, on yerdə sağam.
Göy uçsa, yer qopsa, ölmərəm yenə,
Hələ neçə dəfə doğulacağam.

221. Mətndə qarşı-qarşıya ***qoyulmur***:
A) şair – rejim B) təvazökarlıq – cəsarət
C) əbədilik – ötərilik D) istedad – məhrumiyyət
E) qadağalar – azadlıq

222. *"Əli Kərimin azadlığı, mənəvi böyüklüyü, qüruru onu yalnız titullardan, adlardan məhrum etməsi"* nümunəsi hansı işarə qoyulmuş hissəyə artırılarsa, mətnin tərkib hissələri arasında əlaqə bərpa olunar?
A) ▼ B) ◆ C) ● D) ▲ E) ■

223. Hansı sitatla mətndə tünd-qara hərflərlə fərqləndirilmiş hissədəki fikri qüvvətləndirmək olar?
A) Klassiklər keçmişlə bu gün arasında körpüdürlər. (Əbu Turxan)
B) Amal uğrunda ölmək əbədi yaşamaqdır. (Ş.M. Xiyabani)
C) Yaradıcılıq dünyada ən böyük üsyandır, çünki yaratmaq istəyən bir kəs bütün şərtlərdən qurtulmalıdır. (Oşo)
D) Dahi bir faiz ilham və doxsan doqquz faiz zəhmət deməkdir. (T. Edison)
E) Şöhrət dalğaları yüngül adamları tez yerindən oynadır. (Əbu Turxan)

224. Üzərində rəqəm yazılmış sözlərin mətndəki mənası haqqında uyğunluğu müəyyən edin.
a. Məcazi mənada işlənmişdir.
b. Həqiqi mənada işlənmişdir.
c. Obrazlı ifadədir.
d. "Yazda gələn güclü sel çayın yatağını xeyli genişləndirmişdi" cümləsində həmin sözün qarşılığı verilmişdir.
e. Şişirtmək mənasındadır.
A) 1 – a, c, d; 2 – b, e B) 1 – b, d; 2 – a, c, e
C) 1 – a, c; 2 – b, e D) 1 – a, c; 2 – b, d
E) 1 – b, c; 2 – a, e

225. Əvvəlində rəqəm yazılmış hansı sözlə başlayan cümlədə söz sırasında dəyişiklik edilsə, fikir yanlışlığı aradan qalxar?
A) Utancaq B) Ona C) Əli
D) O E) Şairin

226. Mətn əsasında cədvəldə səbəb-nəticə əlaqəsinə uyğun fikirlər yazın.

Səbəb	*Nəticə*
	Əli Kərim ömrünün sonlarına yaxın təəssüf hissi keçirirdi.
Əli Kərim siyasət, ideologiya şairi olmamışdı.	

227. Mətnin əsas hissəsini əhatə edən ən azı üç bənddən ibarət plan tərtib edərək yazın.

228. *"Əli Kərim şəxsiyyəti bir çox insanların maraq obyekti olmuşdur"* fikrini mətndəki ən azı iki faktla əsaslandırıb yazın.

Cəlilov Elşən Əli oğlu

229. Mətnin üslubi xüsusiyyətlərinə və mətndən seçilmiş nümunələrə əsasən cədvəli doldurun.

Mətnin nəsr hissəsinin üslubi xüsusiyyətləri	Həmin xüsusiyyətə aid nümunə (cümlə və ya ifadə)	Mətnin nəzm hissəsinin üslubi xüsusiyyətləri	Həmin xüsusiyyətə aid nümunə (cümlə və ya ifadə)

230. Mətndə altından xətt çəkilmiş sözün hansı funksiya daşıdığını sxemdə qeyd edin (√). Həmin sözü mətndəkindən fərqli funksiyada (informativdirsə, poetik; poetikdirsə, informativ) cümlədə işlədərək yazın.

	İnformativ
	Poetik

Karbon

I Yer kürəsi həyat üçün vacib olan xüsusiyyətlərə malik bir aləmdir. Burada müxtəlif maddələrin öz rolu, öz ahəngi var. **1.**

II Karbon olduqca əhəmiyyətli bir element olub, orqanizmin qurulmasında və həyat fəaliyyətinin təmin olunmasında vacib rol oynayır. Karbon unikal **xassələri** sayəsində digər kimyəvi elementlərlə birləşib milyonlarla birləşmələr əmələ gətirir. Biosferi təşkil edən bütün canlılar karbonun birləşmələrindən meydana gəlmişdir.

III Kütləsi 70 kq olan insan bədənində 15 kq karbon vardır. Karbon birləşmələri orqanizmə daha çox meyvə və tərəvəzlərin nazik qabığı, paxlalılar, süd məhsulları, yumurta və s. vasitəsilə daxil olur. **2.**

IV Bitkilərin kütləsinin orta hesabla 45%-ni karbon təşkil edir. Karbon qazı atmosferin tərkibində olduğundan bitkilər onu havadan udur. Onun atmosferdəki hazırkı miqdarı bitkilər üçün kifayət edir. Planetin yerüstü bitkiləri hər il 20 milyard ton, su bitkiləri isə 155 milyard ton karbon qazı mənimsəyir. Lakin atmosferdə karbon qazının miqdarı tükənmir. Bəs karbon qazı təbiətdə olduğu miqdardan artıq olarsa, nə baş verər?

V Karbon qazı infraqırmızı şüaları udur. Bununla da Yer qabığına yaxın sahələrdə istiliyin saxlanmasını təmin edir. Havada olan karbon qazının miqdarı iki dəfə artarsa, yer qabığında temperatur 40° C artar. Havanın bir kubmetrində 20 mq karbon qazı olarsa, insanın yaşaması üçün ciddi təhlükə yaranar. Atmosferdə karbon qazının artması Yer kürəsində iqlimin istiləşməsinə səbəb olur. **3.**

VI Əgər təbiətdə karbon qazı normal miqdarından az olsa idi, atmosferdə temperatur aşağı düşər,

VII Normal şəraitdə yanma prosesində karbonun oksigenlə birləşməsindən karbon qazı və su yaranır. Ancaq oksigen çatışmazlığı olarsa, dəm qazı yaranır. Qapalı, kiçik otaqlarda yanan ocaqdan, sobadan ayrılan dəm qazı insan həyatı üçün təhlükəlidir. İnkişaf etmiş ölkələrin iqtisadiyyatlarının böyük bir hissəsi əsası karbon olan yanacaqların, kimyəvi maddələrin və dərmanların istehsalına əsaslanır. Eyni zamanda karbon əsaslı sintetik birləşmələrin istehsalı bir çox ölkələrdə həyat səviyyəsinin inkişafına güclü təsir etmişdir. Bu da karbonun nə dərəcədə əhəmiyyətli olduğunu bir daha təsdiq edir.

VIII Maraqlı faktlardandır ki, karbon ilə bəşəriyyətin tanışlığı çox qədimlərə təsadüf etdiyindən onun kim tərəfindən kəşf olunduğu məlum deyil.

231. Mətndə nömrələnmiş boşluqlara əsasən uyğunluğu müəyyən edin.

a. Bu fakt həmin qidaların nə qədər əhəmiyyətli olduğunu göstərir.
b. Onların arasında tarazlığın pozulması ciddi fəsadlar törədərdi.
c. Suda olan bitkilərdə miqdarı 40%-ə, quruda olan bitkilərdə 46%-ə çatır.
d. Dünyada gedən biokimyəvi proseslər sayəsində karbonun tarazlığı qorunur.
e. Bütün bitkilərin karbon mənimsəmə xüsusiyyəti eynidir.

A) 1 – c; 2 – b; 3 – d
B) 1 – d; 2 – a; 3 – e
C) 1 – b; 2 – a; 3 – d
D) 1 – c; 2 – e; 3 – b
E) 1 – b; 2 – d; 3 – a

232. Mətnə əsasən doğru fikri müəyyən edin.

A) Karbon qazının miqdarının qeyri-sabitliyi təbiətdə yalnız insanlara təsir edir.
B) Su bitkiləri yerüstü bitkilərə nisbətən karbon qazını daha çox mənimsəyir.
C) Karbon əsaslı yanacaqlar dünya ölkələri üzrə eyni miqdarda istehsal olunur.
D) Karbon qazının artması temperaturun aşağı düşməsinə səbəb olur.
E) Müxtəlif səbəblərdən atmosferdə karbon qazının tükənməsi prosesi baş verir.

233. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Karbon qazı təbiətdəki miqdarından az olarsa:	Karbon qazı təbiətdəki miqdarından çox olarsa:
1. Mövcud əlverişli tarazlıq başqa qazlar hesabına bərpa olunardı.	4. Bitkilərin karbona olan ehtiyacı tam şəkildə təmin olunardı.
2. Canlılar yeni şəraitə çətinliklə uyğunlaşardılar.	5. Karbon əsaslı sintetik birləşmələrin istehsalı azalır.
3. Havanın temperaturu azalardı.	6. İnsan həyatı üçün təhlükə yaranar.

A) 1, 4 B) 3, 6 C) 1, 5, 6 D) 2, 4 E) 2, 3, 5

Camscanner ile skan edilib

234. Mətnin tərkib hissələrinə əsasən ardıcıllığı müəyyən edin.

1. Karbonun istiliyin saxlanmasını təmin etməsi
2. Karbon birləşmələrinin bütün canlı orqanizmlərin qurulmasında iştirak etməsi
3. İnsan orqanizmində karbon
4. Təbiətdə karbon qazının azalmasının nəticəsi
5. Bitkilərin tərkibində karbon

A) 3, 2, 5, 4, 1 B) 2, 5, 4, 3, 1 C) 2, 3, 5, 1, 4
D) 1, 3, 5, 2, 4 E) 3, 5, 2, 1, 4

235. Mətndə tünd-qara hərflərlə verilmiş sözün qarşılığını və mətndəki mənasına uyğun şərhi müəyyən edin.

Sözün qarşılığı	*Nümunə*
A) vəziyyət	Xəstənin vəziyyəti getdikcə yaxşılaşırdı.
B) təfsilat	Məsələnin təfsilatı ilə maraqlanmırdı.
C) səbəb	Dediyi səbəblər ağlabatan idi.
D) xüsusiyyət	Hər bir cisim özünəməxsus xüsusiyyətlərə malikdir.
E) struktur	Bu struktur olduqca mürəkkəb qurulmuşdu.

236. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəb	*Nəticə*
Karbon qazı infraqırmızı şüaları udur.	
	Dəm qazının qapalı məkanlarda yığılıb qalmaması üçün zəruri texniki tədbirlər həyata keçirilməlidir.

237. Hansı cümlə mətnin nəticə hissəsi ilə səsləşir? Seçiminizi əsaslandırın.

1. Bəşəriyyətin karbon qazına olan ehtiyacını ödəməsi qısa zaman ərzində həllini tapacaq. ☐
2. Karbon qazı ilə bağlı aparılan tədqiqatlar alimin yeni kitabında dərc olunacaq. ☐
3. Bu kəşf bütün insanlar üçün əsl tədqiqat obyekti oldu. ☐

238. "*İsveç alimi S. Arrenius müəyyən etmişdir ki, bir sıra qazlar atmosferin qızmasına səbəb olur*" fikri mətnin neçənci abzasına artırılsa, məzmun ardıcıllığı ***pozulmaz***? Seçiminizi əsaslandırın.

239. Mətnin VII abzasında hansı ifadə ilə başlayan cümlə yeni abzasdan yazılmalıdır?

240. Mətndə altından xətt çəkilmiş sözlər mətndə hansı mənada işlənmişdir (✓)? Həmin sözləri mətndəkindən fərqli mənada (həqiqidirsə, məcazi; məcazidirsə, həqiqi) cümlədə işlədərək cədvəldə yazın.

Sözlər	*Həqiqi mənadadır*	*Məcazi mənadadır*	*Mətndəkindən fərqli mənada cümlədə işlədilməsi*

Əhməd bəy Ağaoğlu

Tanınmış türk yazarı Şükufə Nihal: "O, insanlığın az rastlaşdığı zənginliklərdən idi. Elmli, çalışqan, mübariz, zəki bir şəxsiyyət idi. Ağaoğlunun əsl qiymət verdiyim tərəfi xarakterinin möhtəşəmliyi idi. O, insan idi, bütöv bir insan!" – yazırdı.

Əhməd bəy Ağaoğlu İstanbula 1909-cu ilin ortalarında gəlmişdi. Bunu mühacirətə yola düşənə qədər redaktoru olduğu "Tərəqqi" qəzetinin redaksiyasına göndərdiyi 28 iyun 1909-cu il tarixli məktubu da təsdiq edir. Yeni vətənində onun ictimai-siyasi fəaliyyəti diqqətdən kənarda qalmır. Mühacirət həyatının üçüncü ilində o, Türkiyə parlamentinə deputat seçilir. Türkiyədən Rusiyanın türklər yaşayan bölgələrinə müəllimlər göndərilməsi işinin təşkilatçılarından biri kimi tanınır.

Vətənə 1918-ci ilin iyununda Türkiyənin Qafqaz ordusunun komandanı Nuru Paşanın siyasi müşaviri kimi qayıdır, mübahisəli məsələlərin həllində yardımçı olmağa çalışır. Vaxtın namünasibliyinə baxmayaraq, müvəqqəti paytaxt Gəncədə iki sayını çıxarmağa imkan tapdığı "Türk sözü" adlı qəzet təsis edir.

1918-ci ilin dekabrında Parlament Ə. Ağaoğlunu Ə. Topçubaşovun rəhbərliyi ilə Paris Sülh konfransının nümayəndə heyətinin tərkibinə daxil edir. Viza problemi ucbatından bir müddət İstanbulda qalmalı olurlar. Səfər ərəfəsində ədalətsizliklə üzləşir: müttəfiq dövlətlərin İstanbuldakı işğalçı qüvvələri onu kütləvi qırğın təşkilatçısı kimi həbs edir, Malta adasına sürgün edilir.

Nəhayət, 1921-ci ilin mayında iki ildən artıq davam edən ..... . Malta məhbuslarını azadlığa aparan gəmi İtaliya sahillərinə yan *alır*[1]. Artıq Azərbaycanda sovet respublikasının qurulduğunu və yeni dövlətin *başında*[2] yaxından tanıdığı N. Nərimanovun durduğunu *öyrənən*[3] Əhməd bəy Ağaoğlu vətənə *qayıtmaq*[4] qərarına *gəlir*[5].

N. Nərimanov yüksək dostunu Bakıda keçmiş vəzifəyə dəvət edir. Lakin Ağaoğlu prosesləri dərindən izlədikdən sonra ▲*qərarını* dəyişir: yeni quruluşun fikir sisteminə qatılmır, türklərin qurtuluş imkanının Türkiyə türklüyündə olduğu qənaətinə gəlir və Ankaraya xidməti namus borcu hesab etdiyi üçün Türkiyədə qalmalı olur. Burada o, Türkiyənin Böyük Millət Məclisinə deputat seçilir.

Camscanner ilə skan edilib

Təbiətcə üsyankar və barışmaz olan Ə. Ağaoğlu fəlsəfədən tutmuş hüquqa, ciddi tarixi araşdırmalara qədər xalqı maarifləndirən, onu gələcək mübarizəyə səsləyən əsərlər qələmə alır. Sayı-hesabı olmayan bu qiymətli yazılar dəfələrlə nəşr olunur.

241. Biri Ə. Ağaoğlunun fəaliyyətinə aid ***deyil***:
A) qəzetçilik B) millət vəkilliyi
C) kütləvi qırğın təşkilatçısı
D) siyasi müşavirlik E) maarifçilik

242. Altından xətt çəkilmiş ifadənin kontekstə görə qarşılığı ***deyil***:
A) zaman uyğunsuzluğu B) vaxtın çatışmazlığı
C) qısa zaman kəsiyi D) maddi imkansızlıq
E) vaxta qənaət

243. Mətndə üzərində rəqəm yazılmış hansı ifadələr məcazi mənada işlənmişdir?
A) 2, 5 B) 1, 3, 5 C) 1, 4
D) 3, 4 E) 1, 2, 5

244. Mətndə haqqında geniş məlumat verilən şəxslə bağlı ***deyil***:
A) Paris Sülh konfransının nümayəndə heyətinin tərkibinə daxil edilmişdir.
B) Mətbuat sahəsində təsisçilik fəaliyyət olub.
C) Kütləvi qırğın törətdiyi üçün sürgün edilir.
D) Azərbaycanda qurulmuş yeni dövlətin başçısı ilə köhnədən dostluq əlaqələri var idi.
E) Müxtəlif vaxtlarda deputat seçilir.

245. Mətni əhatə edən plan bəndlərini müəyyən edin.
Giriş → 1. Rusiyadakı soydaşlara dəstək
2. İnsanın insana səmimi dəyər verməsi
Əsas hissə → 3. Ə. Ağaoğlunun həyatının mühacirət dövrü
4. Xalqı mübarizədən çəkindirən fəaliyyət
Nəticə → 5. Üsyankar ruhlu əsərlərin dəfələrlə işıq üzü görməsi
6. Baş tutmayan səfər
A) 2, 4, 5 B) 1, 4, 6 C) 3, 4, 5
D) 2, 3, 5 E) 1, 2, 6

246. Aşağıda verilmiş izahların mətnin dördüncü abzasında hansı ifadələrə aid olduğunu müəyyənləşdirib uyğun çərçivədə yazın. Həmin sözlərdən hansı mətndə ifadə etdiyi mənadan fərqli mənada da işlənə bilər? (Cümlədə işlədin.)

Bir dövlətin xarici nümayəndəlikləri və ya gömrük xidmətinə təqdim edilən icazə sənədi ☐

Birlikdə hərəkət etmək və ya başqa bir məqsəd üçün ittifaq bağlamış tərəflərdən hər biri ☐

Yola çıxma, uzun müddət olduğun yerdən ayrılma ☐

247. Mətndə çərçivə daxilindəki cümləni sözlərin sırasına dəyişiklik etməklə düzgün şəkildə yazın.

248. Mətndə əvvəlində ▲ işarəsi qoyulmuş sözlə bağlı sxemi tamamlayın. (✓)

Qərar – bir məsələ müzakirə edildikdən sonra hamı tərəfindən çıxarılan nəticədir.
Verilən şərh mətndəki sözün izahına uyğundur. ☐
Verilən şərh mətndəki sözün izahına uyğun deyil. ☐
Çünki _____

249. Mətndə nöqtələrin yerinə uyğun gələn fikri müəyyənləşdirib yazın.

250. "*Cəsarət insanı zəfərə, qorxaqlıq isə ölümə aparır*" (Yavuz Sultan Səlim) deyimini Ə. Ağaoğlu şəxsiyyəti ilə əlaqələndirərək fikirlərinizi ən azı iki cümlə ilə yazın.

Badminton

..... Bu idman oyununun adı İngiltərənin Badminton şəhərinin adından *götürülmüşdür*[1]. Müəyyən xüsusiyyətlərinə görə tennisə *bənzəyir*[2]. Bu oyun qədim Malayyada yaranmış, sonralar Asiyanın başqa ölkələrinə də yayılmışdır. İlk dəfə İngiltərənin Badminton şəhərində Hindistandan qayıtmış ingilislər tərəfindən nümayiş etdirilmişdir. Bir müddətdir ki, Olimpiya idman növü hesab olunur.

Bu oyun tor ilə iki hissəyə bölünmüş düzbucaqlı meydançada keçirilir. Torun hündürlüyü 1,55 metr olur. Əsasən, üzərinə dəri çəkilmiş və tac şəkilli lələklərə malik olan top və tennis tipli raketka ilə oynanılır.

Oyunda məqsəd topu meydançanın rəqibə aid hissəsinə *salmaq*[3], öz sahəsinə düşməyə imkan verməməkdir. Badminton oyunu 3, yaxud 5 hissədən ibarət olur və hər bir hissənin hesabı 15 xal qazanılanadək davam edir. Sıfır hesabında və cüt ədədli ballarda top sağdan çəpinə, tək ədədli ballarda isə soldan şaquli istiqamətdə ötürülür. Qoşa oyunlarda topu birinci olaraq sağdakı idmançı oyuna daxil edir. Hər qazanılan baldan sonra oyunçular öz yerlərini dəyişirlər.

Qaydalarının sadəliyinə, kiçik meydançada, çəmənlik və çimərliklərdə oynamaq imkanı olduğuna görə müasir badminton ən kütləvi idman oyunlarından birinə çevrilmişdir.

Badmintonun inkişafına və yarışların təşkilinə Beynəlxalq Badminton Federasiyası rəhbərlik edir. Üç ildən bir kişilər arasında "Tomas kuboku", qadınlar arasında isə "Uber kuboku" uğrunda beynəlxalq miqyaslı badminton yarışları keçirilir. **Uğurlu gələn hər il doğma və əziz Uimbldon şəhərində İngiltərə birinciliyi keçirilir.** Bu birincilik uğrunda açıq badminton yarışları təşkil edilir.

Camscanner ilə skan edilib

Azərbaycanda da badmintona *güclü*[4] maraq olmuşdur. Azərbaycanda da badminton idman növü 1960-cı ildən inkişaf etməyə başlayıb. 2015-ci ildə Azərbaycan millisi dünya reytinqində 82-ci yerdə qərarlaşıb. Həmin ildə də Azərbaycan Badminton Federasiyası yaradılmışdır. 1998-ci ildən ölkəmiz Beynəlxalq Badminton Federasiyasının üzvüdür. Badminton yarışları üzrə Azərbaycanın ilk çempionu Q. Hadıyev olmuşdur. Təkcə kişi idmançılarımız deyil, qadın idmançılarımız da bu idman növü üzrə yarışlarda iştirak etmişlər. Qadın idmançılarımızdan N. Mehdiyeva İslam Ölkələri Qadınlarının İdman Oyunlarında III *yeri tutmuşdur*[5].

251. "*Badminton ayaqla oynanılmır*" fikrini hansı abzasdakı ifadə ilə əsaslandırmaq olar?

A) IV B) V C) III D) I E) II

252. Mətnə əsaslanmaqla ***yanlış*** fikirləri müəyyən edin.

1. Badminton oyununda ən azı iki nəfər iştirak edir.
2. Oyunun başlama və bitmə vaxtını müəyyən etmək üçün hökmən saatdan istifadə edilir.
3. Oyunu hakim idarə edir.
4. Azərbaycanın ilk çempionu Beynəlxalq yarışmanın 1-cisi olmuşdur.
5. Badminton oyunları eyni sayda hissələrdən ibarət olmaya bilər.

A) 2, 3, 4 B) 3, 4, 5 C) 1, 4
D) 2, 5 E) 1, 3, 5

253. Mətnin üslubu ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Poetik funksiya daşıyan ifadələr çoxdur.
2. Dili anlaşıqlıdır.
3. Dialoji nitqdir.
4. Hər kəs tərəfindən anlaşılmayan ifadələr çoxluq təşkil edir.
5. Standart formaya uyğundur.
6. Publisistik üslubdadır.

A) 2, 6 B) 1, 5 C) 3, 4, 5
D) 1, 2, 4 E) 3, 6

254. Üzərində rəqəm yazılmış hansı ifadələr həqiqi mənada işlənmişdir?

A) 2, 3 B) 1, 3, 5 C) 2, 3, 4
D) 4, 5 E) 1, 5

255. Mətnə əsaslanmaqla cədvəldəki ***yanlış*** fikirləri müəyyən edin.

Səbəb	*Nəticə*
1. Oyun qaydalarının sadəliyi 2. İngilislərin Hindistandan qayıtması	Badminton kütləvi idman növünə çevrildi.
3. Vaxt tamam olması 4. 15 xal qazanılması	Oyunun hissələri başa çatır.

A) yalnız 4 B) 2, 4 C) 1, 3
D) yalnız 1 E) 2, 3

256. Mətnin nəticə hissəsi əsasında plan tərtib edin.

257. Mətnin sonuncu abzasındakı fikirləri ümumiləşdirən tezis yazın.

258. Tünd-qara hərflərlə yazılmış cümlədəki üslub səhvlərini düzəldərək cümləni yenidən yazın.

259. Mətnin əvvəlində nöqtələrin yerinə uyğun gələn cümlə yazın.

260. Çərçivədə verilmiş söz əsasında sxemi tamamlayın.



Həmin sözü fərqli funksiyada cümlədə işlədin.

Xilas, yoxsa təhlükə?

Yer kürəsində yüksələn ***xətlə***[1] gedən yoxsulluq, qida çatışmazlığı dünya alimlərini və ilk növbədə, aqrar sahə mütəxəssislərini düşündürən aktual problemlərdəndir. Bu təhlükənin qarşısının alınması üçün alimlər tərəfindən irəli sürülən çıxış yolu isə bəşəriyyətə faydalı, yoxsa zərərli olacağı dəqiq bilinməyən bir təklifdir. Bir sıra dövlətlərin dəstəklədiyi ideya genetik modifikasiya olunmuş məhsulların (GMO) istehsalının genişləndirilməsidir.

Genetik modifikasiya müxtəlif canlılara məxsus genlərin bitki və heyvanların üzərinə köçürülməsi yolu ilə baş verir. Məsələn, söhbət geni dəyişdirilmiş kartofdan gedirsə, bu o deməkdir ki, onun genetik koduna əqrəb genləri daxil edilmişdir. Bununla kartof ziyanvericilərə qarşı müqavimət əldə edir və daha məhsuldar olur. Şimal balıqlarının geni pomidor və çiyələyə köçürülməklə bitkinin soyuğa davamlılığı artır. İlandan alınmış genin qarğıdalıya köçürülməsi ilə bitki ziyanvericilərə qarşı davamlı olur. Hazırda dünyada yüzlərlə geni dəyişdirilmiş bitki: soya, buğda, qarğıdalı, kartof, pomidor, pambıq və s. sortları yaradılmışdır. Fermalarda saxlanılan heyvanların GMO qidalarla bəslənilməsi də kifayət qədər geniş hal almışdır. ABŞ-də genetik modifikasiya olunmuş qızıl balıq adi qızıl balıqdan iki dəfə böyükdür, lakin yeni balıq çoxalma qabiliyyətinə malik deyil.

Genetik modifikasiya olunmuş toxumlardan yetişən bitkilər, adətən, kəskin hava şəraitinə, kimyəvi maddələrə davamlı olur, hətta özlərinin zəhər istehsal etmək bacarığı sayəsində onları yeyən həşəratları məhv edir. Belə bitkilər uzun müddət yaxşı saxlanır, gözəl görkəmə malik olur, kəsilib saxlandıqda ***rəngini***[2] dəyişmir. Bu məhsullara qurdlar və bakteriyalar hücum çəkmir.

Gen mühəndisliyi ***yolu***[3] ilə əldə edilən qidaların geniş tətbiqi cəmiyyət qarşısında onların təhlükəsizliyi

Camscanner ilə skan edilib

ilə bağlı bir çox suallar doğurur. İlk baxışdan hesab olunur ki, GMO sənayesi ancaq iqtisadi artıma, bolluğa yardım edir. Lakin məhsulların tərkibində yad orqanizmlərin genlərinin olması ideyası təbii proseslərə ziddir və bunun gələcəkdə nələrə səbəb olacağı məlum deyil. Ekspertlərin bir qismi diqqəti başqa bir məqama da yönəldirlər: ABŞ-də istehsal olunan ərzaq məhsullarının 80-85 %-i genetik modifikasiyalı tərkibə malikdir və əhalisi qida mənşəli sağlamlıq problemləri ilə ən çox üzləşən ölkə də məhz ABŞ-dir. [ ]. Bundan əlavə, GMO məhsulların bəzi hallarda hətta ölümlə nəticələnə bilən kəskin allergik reaksiya yaratdığı güman edilən hallar da qeydə alınmışdır.

Bütün bunlar, ən əsası isə, GMO məhsulların sonrakı nəsillərə göstərəcəyi təsirlə bağlı qeyri-müəyyənlik əksər dövlətlərin, həmçinin Azərbaycan Respublikasının belə məhsulların istehsalına və idxalına məhdudiyyətlər qoymasına səbəb olmuşdur. Buna baxmayaraq, GMO məhsullarının istehsalı dünyada fasiləsiz olaraq artmaqdadır.

261. Çərçivəyə alınmış sözün şərhinə uyğun ifadə hansı nümunədə işlənmişdir?

1. Ekoloqlar şoranlaşmış ərazilərdə ağac əkmək fikrini *müdafiə edirlər*.
2. O, şənbə günləri valideynlərinə bağ işlərində *kömək edir*.
3. Çətin anlarda dostlar adama *arxa durur*.
4. Çəpərə doğru əyilmiş alma ağacına *dayaq vurdular*.
5. Onun *rəhbərlik etdiyi* bir neçə ekspedisiya uğurlu tapıntılar aşkarlayıb.

A) 2, 4 B) 1, 4 C) 2, 3, 5
D) 1, 3 E) 3, 4, 5

262. Mətndəki boşluqlardan heç birinin yerinə artırıla ***bilməz***:

1. Geni dəyişdirilmiş məhsullarla qidalanan bəzi ölkələrin əhalisində piylənmə prosesinin də getdiyi müşahidə edilmişdir.
2. Müasir texniki vasitələrdən istifadə edərək müvafiq təşkilatlar tərəfindən, ölkəyə gətirilən məhsullara və xammala ciddi nəzarət etmək vacibdir.
3. Transgen məhsullar bütün planetdə sürətlə yayıldığından, demək olar ki, elə bir insan tapmaq mümkün deyildir ki, GMO tərkibli məhsullar yemədiyini iddia etsin.
4. GMO məhsulların hamısı sanki eyni standart ölçüdə olur, parlaq və hamar səthə malik olur.
5. Transgen biotexnologiya - müasir biologiyanın və xüsusən də, müasir kənd təsərrüfatının ən qabaqcıl və sürətlə inkişaf edən sahələrindəndir.

A) 2, 3, 4 B) 2, 4, 5 C) 1, 3, 4
D) 1, 2, 6 E) 3, 5, 6

263. Mətnin məzmununa aid ***olmayan*** fikri müəyyən edin.

A) Bəzi ölkələrdə transgen qidalar üstünlük təşkil edir.
B) Heyvan və bitki genləri eyni orqanizmdə mövcud ola bilər.
C) Heyvanlara da fərqli genlər köçürmək mümkündür.
D) İnsanlara fərqli genlərin köçürülməsi böyük narahatlıq doğurur.
E) Geni dəyişdirilmiş bitkilərlə bağlı ziddiyyətli fikirlər mövcuddur.

264. Azərbaycan Respublikasının "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" qanununda nəzərdə tutulmuş məsələlərdən hansılar mətnin məzmunu ilə səsləşir?

A) Azərbaycan Respublikasına məxsus ənənəvi mədəni bitki brendlərinin beynəlxalq miqyasda təbliği
B) Azərbaycan Respublikasına idxal olunan bütün genetik materialların ölkənin gömrük sərhədindən keçirilərkən yoxlanılması
C) mədəni bitkilərin və onların yabanı əcdadlarının genetik ehtiyatlarının təbii areallarında mühafizəsi, bərpası, çoxaldılması və səmərəli istifadəsi üzrə fəaliyyəti həyata keçirmək
D) nadir və nəsli kəsilməkdə olan bitki növləri, eləcə də xalq seleksiyasının yerli sortlarının becərildiyi və mədəni bitkilərin yabanı əcdadlarının təbii bitdiyi ekosistemlərin mühafizəsi
E) kənd təsərrüfatı təyinatlı nadir və nəsli kəsilməkdə olan bitki növlərinin (populyasiyalarının) mühafizəsi

265. Mətnin üslubuna uyğun ***olmayan*** fikirləri müəyyən edin.

1. Molekulyar səviyyədə genetik tədqiqatların əsas obyekti nuklein turşuları, DNT və RNT molekullarıdır.
2. Hazırda gen mühəndisliyi sahəsində böyük inqilabi dəyişikliklər baş verir.
3. Genetik mühəndislik — canlı orqanizm genomunun rekombinant DNT texnologiyası metodları vasitəsilə dəyişdirilməsidir.
4. Birmənalı olaraq sübut olunmuşdur ki, geni dəyişdirilmiş əksər orqanizmlər nəsil vermək imkanından məhrumdur.
5. Transgen bitkilər müntəzəm olaraq terapevtik zülallar – albumin, interferon, hirudin sintez edir.

A) 1, 3, 5 B) 1, 4 C) 2, 3, 5 D) 2, 4 E) 3, 4, 5

266. Geni dəyişdirilmiş məhsulları hansı xüsusiyyətlərinə görə tanımaq olar? Ən az 2 xüsusiyyət yazın.

267. Mətnə əsasən tamamlayın.

Yaranan problem:
Problemin həlli:

Camscanner ilə skan edilib

268. Mətnin bütün abzaslarını nəzərə almaqla cədvəli doldurun.

Abzaslar	Müddəa	Fakt
I		
II		
III		
IV		
V		

269. Cədvəli doldurun.

Genetik modifikasiya olunmuş bitkilər	
Hansı üstünlüklərə malikdir?	Hansı mənfi cəhətləri var?
1.	1.
2.	2.

270. Mətndə üzərində rəqəm yazılmış sözlər əsasında cədvəli doldurun.

Söz	Həqiqi mənadadır (✓)	Məcazi mənadadır (✓)	Sözün mətndəkindən fərqli mənada (həqiqidirsə, məcazi; məcazidirsə, həqiqi) cümlədə işlədilməsi
1			
2			
3			

Tornado

I Hər il dünyada təhlükəli təbii fəlakətlər baş verir. Onların hər biri özünəməxsus xüsusiyyətlərinə, dağıdıcı ▲ *miqyasına* görə fərqlənir. Tornado adlanan atmosfer hadisəsi də təbii fəlakətdir.

II Küləyin istiqamətinin kəskin dəyişməsi və sürətinin artması ilə müşahidə olunan tornado burularaq fırlanan hava sütunları əmələ gətirir, müxtəlif istiqamətdə yerini dəyişir. Bu sütunlar üfüqi vəziyyətdən şaquli vəziyyətə keçdikdə daha aydın görünür.

III Tornado qıfa bənzəyir, ensiz boğazı var, yuxarı qalxanda isə genişlənir. O, yoluna çıxan böyük və ağır əşyaları, maşınları, hətta insanları, evləri də sovurur. Sovrulmuş əşyaları sonda məhv edilmiş, zədələnmiş vəziyyətdə harasa atır, havada fırladır.

IV Tornadolar müxtəlif formada və ölçüdə olur: zəif, güclü və şiddətli. Tornadonun orta uzunluğu 80 metrdir. Ən təhlükəli tornado 3 kilometr uzunluğunda olmuşdur. Tornadolar, əsasən, 10 dəqiqədən az müddətdə bitir və sürəti saniyədə 50 metr olur.

V Tornadolar – ən çox yayda yaranır. Daha çox Amerika Birləşmiş Ştatlarında, sonra Argentinada, Avstraliyada baş verir. Meteorologiya elmi tornado haqqında çox şey öyrənə bilmişdir. Onun sürətini və uzunluğunu təyin etmək mümkündür. Hətta alimlər əvvəlcədən əhalini tornado haqqında xəbərdar edə bilərlər, amma qarşısını ala bilməzlər. Bundan xilas olmaq isə mümkündür: müşahidə etmək, tornadonun istiqamətini müəyyən etmək, sonra onun hərəkət istiqamətindən sürətlə uzaqlaşmaqla "sovrulmadan" xilas olmaq olar.

VI Tornadoların vurduğu dərin təsirləri nəzərə alaraq demək lazımdır ki, yüksək temperaturlu hava şəraitində ..... tədbirləri görmək böyük əhəmiyyət daşıyır. Sürücülərin tornadodan maşınları ilə qaçması çox təhlükəlidir. Bu halda ən yaxşı yol dərhal maşından çıxıb təhlükəsiz sığınacaq tapmaqdır. Sakinlər tornado baş verən müddətdə zirzəmidə qalmalı, zirzəmi olmadıqda isə tikilinin ən aşağı mərtəbəsinə enib ağır mebellərin altına sığınmalıdırlar. Heç bir tikili əlçatan olmadıqda isə görüləcək ən ■ *optimal* tədbir yerin ən dərin hissəsində uzanıb əllərlə başı qorumaqdır.

VII Faciəvi hallar yaradacaq həcmcə böyük olan təhlükəli təbiət hadisələri əhalinin qəflətən həyat • *ritminin* pozulmasına, insanların və digər canlıların ölümünə səbəb ola bilər. Lakin müxtəlif fəlakətlər haqqında biliklərə malik olduqda öncədən mühafizə tədbirləri həyata keçirmək mümkündür.

271. Mətndə nöqtələrin yerinə hansı ifadələr yazıla bilər?

1. təhlükəsizlik
2. qarşısını alma
3. mahiyyətə uyğun
4. xeyli
5. ehtiyat

A) 2, 4 B) 1, 2 C) 1, 5 D) 3, 5 E) 3, 4

272. Çərçivədəki fikri nömrələnmiş hansı abzasa əlavə etməklə mətni zənginləşdirmək olar?

> Tornadoların 10 faizini təşkil edən zəif tornadoların ömrü 20 dəqiqəyə qədər uzanır və sürəti saniyədə 90 metrə qədər arta bilər.

A) V B) II C) III D) I E) IV

273. Əvvəlində Roma rəqəmi ilə V yazılmış hissə iki abzasdan ibarətdir. İlk sözünə görə ikinci abzasın başlandığını cümləni müəyyən edin.

A) Onun B) Daha C) Tornadolar
D) Meteorologiya E) Hətta

274. Mətnin VI abzasına uyğun tezisi müəyyən edin.

A) Müxtəlif ehtiyat tədbirləri sayəsində tornadodan qorunmaq mümkündür.
B) Zirzəmidə gizlənmək tornadodan qorunmaqda ən yaxşı üsuldur.
C) Uzanıb başı əllərlə qorumaq tornadodan müdafiə olunmağa kömək edə bilər.
D) Elm tornadoların xüsusiyyətlərini öyrənmək yolunda xeyli irəliləmişdir.
E) Yüksək temperatur tornadoların yaranmasında əsas amildir.

Camscanner ilə skan edilib

275. Mətnə əsasən ***yanlış*** fikirlərdir:

1. Tornado dairəvi hərəkət edir.
2. Tornadonun aydın müşahidə olunması ona yaxınlıq məsafəsindən asılıdır.
3. Fəlakətlər zamanı düzgün davranmaq itkiləri azalda bilər.
4. Tornado havanın çirklənməsindən əmələ gələn ən ciddi fəlakətlərdən biridir.
5. Tornado qarşısına çıxan metal əşyaları belə sovura bilər.

A) 2, 5 B) 2, 4 C) 1, 3, 4
D) 2, 3 E) 1, 4, 5

276. Mətnə əsasən klasteri tamamlaya bilən 2 fikir yazın.

Tornadonun yaratdığı problemdir: tikililər dağılır.

277. Mətnə əsasən cədvəli doldurun.

Şəxslər	*Tornado zamanı zəruri davranış*
	Avtomobili tərk etməlidir.
Piyadalar	
Sakinlər	

278. Əsas mətnlə çərçivədə verilmiş mətnin üslubi xüsusiyyətləri əsasında Eyler-Venn diaqramının hər hissəsinə uyğun fikirlər yazın.

Çərçivədə verilmiş mətn Əsas mətn

1 3 2

Hər səhər, hər axşam, hər axşam, hər səhər
Çox zaman sərsəri küləklər bixəbər
Bir yaxın dost kimi qapımı döyərlər,
Küləklər, küləklər, bəstəkar küləklər,
Dünyanı dolaşan bəxtiyar küləklər! (Mikayıl Müşfiq)

279. Altından xətt çəkilmiş cümlədə söz və ifadələrin düzgün ardıcıllığını bərpa etməklə cümləni yenidən yazın.

280. Mətndə əvvəlində işarə qoyulmuş sözlərin yerinə görə mənasını müəyyən edib yazın.

▲ _____
■ _____
● _____

Qəzet

(1) Qədim zamanlardan insanları ətrafda nələrin baş verdiyi maraqlandırmışdır. Vaxtaşırı kiminsə yolu təsadüfən şəhərə düşürdüsə, qayıdanda gördükləri və eşitdikləri barədə hamıya danışırdı. Ancaq bu məlumatlar həcm və ▲ *dolğun* məlumat baxımından çox qısa, həm də məhdud olurdu.

(2) Ölkə başçıları daxildə və digər dövlətlərdə nələrin baş verdiyini bilməli idilər. Bu səbəbdən də təsadüfi səyyahların söylədikləri ehtimallarla kifayətlənə bilməzdilər. Ona görə də xüsusi kuryer və elçilərdən istifadə edirdilər.

(3) Lakin hökmdarlardan savayı, tacirlər də xəbərlərlə maraqlanırdılar. Onlar gəmilərlə digər dövlətlərə mal göndərdikləri üçün oralarda vətəndaş müharibəsi, hər hansı başqa təhlükənin olub-olmadığını öyrənmək arzusunda idilər.

(4) İnsanların ölkədə və ölkədən kənarda nələrin baş verdiyini öyrənmək istəyi qəzetin yaranmasına səbəb oldu. Qəzet dünyada ən ■ *nəhəng* kütləvi informasiya vasitəsi hesab olunur. Bəs ilk qəzet nə vaxt və harada yaranıb? Bu sahədə araşdırma aparmış alimlərin mövqeyi müxtəlifdir.

(5) Ən geniş yayılmış fikirlərdən biri budur ki, ilk qəzet bizim eradan əvvəl 59-cu ildə Romada nəşr olunub. Bu, gil və ya taxta lövhələr üzərinə əl ilə yazılmış «Günün hadisələri» adlı "mətbuat orqanı" idi. Onu hazır edəndən sonra ictimai yerlərdən asır, hətta məmurların evlərinə çatdırırdılar. Adından da göründüyü kimi, "Günün hadisələri" gündəlik "nəşr" idi.

(6) Təxminən 1550-ci ildə geniş ticarət hesabına çiçəklənən Venesiyada ən son xəbərlər çap olunmuş vərəqlər yayılmağa başladı. Bu vərəqlər o zamanın qəzetləri idi. O dövrdə İtaliyada ən kiçik pul vahidi qazetta idi. Dəyəri çox az olan qazettaya bu vərəqlərin bir nüsxəsini və ya bu vərəqdəki xəbərlərin ucadan oxunduğu toplantıya buraxılışı almaq olurdu. Tezliklə xəbər vərəqələrini də belə adlandırmağa başladılar. 1631-ci ildə Parisdə çıxan qəzet isə artıq rəsmi olaraq bu adı daşıyırdı. "La Gazetta" tarixdə ilk qəzet idi ki, orada ödənişli reklam və elanlar yerləşdirilirdi. Bəlkə də, məhz bu nəşr "qəzet" sözünün bir çox dillərə daxil olmasına rəvac verdi.

(7) Digər versiyaya görə, 1300 il əvvəl Çində "Paytaxt xəbərləri" dünyada ilk qəzet hesab olunur. Həmin dövrdə Çində qəzet nəşri üçün zəruri şərait yetişmişdi: kağız istehsalı və bəsit də olsa, çap üsulu ixtira olunmuşdu.

(8) Ölkəmizdə qəzetçiliyin tarixi o qədər də qədimə • *söykənmir*. 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin işıq üzü görməsi ilə Azərbaycanda milli mətbuat orqanının əsası qoyuldu. Qəzetin təsisçisi və redaktoru görkəmli mütəfəkkir Həsən bəy Zərdabi olmuşdur.

Camscanner ilə skan edilib

281. Mətndə altından xətt çəkilmiş sözə əsasən doğru fikri müəyyən edin.

Sözün qarşılığı	*Sözün mətndəki mənasında işləndiyi cümlə*
A) həyata keçmək	Ürəkdə qalan arzular çiçəklənir.
B) inkişaf etmək	Bağçalar çiçəkləndi; Qonaq gəldi bizə yaz.
C) gül açmaq	Bağ-bağça sulananda çiçəklənib bar verir.
D) tərəqqi etmək	Ölkəmiz günü-gündən çiçəklənir.
E) abadlaşmaq	Zəhmətinlə çiçəklənir; Qara qumlu səhralar.

282. Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*
1. İtaliyada xəbərlərin çap olunduğu vərəqlərin qiyməti baha idi. 2. Parisdə nəşr edilən qəzetin adı İtaliyadakı pul vahidinin adından götürülmüşdür.	3. İlk kağız qəzet İtaliyada nəşr olunmuşdur. 4. İlk qəzet hazırlayanlar hökmdarın xüsusi kuryerləri və elçiləri hesab olunurdu. 5. Qəzetin hazırlanmasında tarixən müxtəlif materiallardan istifadə olunmuşdur.

A) 1, 3, 5 B) 4, 5 C) 2, 3, 4
D) 3, 5 E) 1, 2, 4

283. Mətnin tərkib hissələri ilə bağlı uyğunluğu müəyyən edin.

1. Giriş
2. Əsas hissə
3. Nəticə

a. gil lövhə üzərində yazılan xəbərlər
b. ilk qəzet haqqında fikirlər
c. məhdud məlumatlar
d. milli mətbuat orqanının yaranmasında böyük xidmətləri olan şəxs
e. Azərbaycanda ilk qəzet

A) 1 – c; 2 – a, b; 3 – d, e
B) 1 – d; 2 – a, b; 3 – e
C) 1 – d; 2 – a, b; 3 – c, e
D) 1 – c, d; 2 – a; 3 – b, e
E) 1 – c; 3 – a, d; 3 – b, e

284. Çərçivədə verilən sözlə bağlı doğru fikirləri müəyyən edin.

1. Həqiqi mənadadır.
2. *Miqyası, ölçüsü böyük* mənasında işlənmişdir.
3. Məcazi mənadadır.
4. *Sahə etibarilə çox böyük* mənasında işlənmişdir.
5. *Ətraflı* sözünün qarşılığıdır.
6. *"Dostumun geniş dünyagörüşü vardır"* cümləsində həmin mənaya uyğun söz işlənmişdir.

A) 3, 4, 5 B) 2, 3, 6 C) 1, 5, 6
D) 1, 3, 6 E) 1, 2, 4

285. Mətnin üslubu ilə eyni üslubda işlənən cümlələri müəyyən edin.

1. Müəllimimizin qəzetdə çıxan duzlu, məzəli şeirlərini xüsusi bir ləzzətlə oxuyar, çoxunu əzbərdən bilərdik.
2. Bu gün dünya oxucusu yüzlərlə qəzet vasitəsilə çox müxtəlif və rəngarəng informasiya almaq imkanına malikdir.
3. Salmanın qəzetdə çıxmış şəklini Gülsüm nənə hər kəsə göstərir, nəvəsindən ağızdolusu danışırdı.
4. XIX əsrin sonlarından başlayaraq Azərbaycanda bir-birinin ardınca müxtəlif qəzetlər nəşr olunmağa başladı.
5. Müxtəlif qrupların maraqlarını əks etdirən mətbuat orqanları indi daha çox internet üzərindən yayılmaqdadır.
6. Rəflər özünəməxsus qoxusu olan saralmış qəzet və jurnallarla dolu idi.

A) 1, 4, 6 B) 2, 4, 5 C) 2, 3, 5
D) 1, 2, 6 E) 1, 3, 5

286. Mətndə əvvəlində işarə qoyulmuş sözlər əsasında cədvəli doldurun.

	Həqiqi mənada işlənmişdir (√)	*Məcazi mənada işlənmişdir (√)*	*Sözün mətndəkindən fərqli mənada (həqiqidirsə, məcazi; məcazidirsə, həqiqi) cümlədə işlədilməsi*
▲			
■			
●			

287. Mətndə verilən hansı iki fakt bir-biri ilə ziddiyyət təşkil edir? Bu faktların işləndiyi cümlələri müəyyən edərək yazın.

288. Mətnə əsasən Eyler-Venn diaqramını doldurun.



289. Neçənci abzasların yeri dəyişdirilsə, mətnin tərkib hissələri arasında əlaqə bərpa olunar?

***Abzas*:**
Fikrin əsaslandırılması:

290. Qəzetin yaranmasına ehtiyac yaradan səbəbləri yazın.

Camscanner ilə skan edilib

Bitkilər bir-biri ilə ünsiyyət qururmu?

Bir çoxları bitkilərin təhlükədən qoruna bilmədiyini və düşmənə asanlıqla təslim olduğunu zənn edir. Ancaq aparılan tədqiqatlar vəziyyətin heç də zənn edildiyi kimi olmadığını ortaya çıxarmışdır. Tam əksinə, bitkilər düşmənlərinə qarşı təəccüb doğuran taktikalar işlədərək və aralarında gizli bir "dildən" istifadə edərək özlərini qoruyurlar.

Ünsiyyət saxlamanın ən ..... yolu danışmaqdır. **1.** İnsan danışaraq ətrafındakılara istəklərini, düşüncələrini və s. ifadə edir. **2.** İnsanlar kimi heyvanlar da öz aralarında asanlıqla əlaqə qurub çıxardıqları səslər ilə təhlükə anını, ovun yaxınlaşdığını, toplaşmaları lazım olduğu anı bir-birlərinə bildirirlər. Bəzi heyvanlar isə olduqları məkanın rənginə uyğun olaraq rəngini dəyəşir, bununla da, həm düşmənin gözündən yayınmağa, həm də digər həmcinslərini xəbərdar etməyə çalışırlar. **3.** Bəs canlılar aləminin ən səssiz üzvü olaraq bilinən, üstəlik, hərəkət qabiliyyəti məhdud olan bitkilər bir-biri ilə necə əlaqə saxlayır? Bitkilər danışırmı? Bir çox tədqiqatçılar _____ **4.** Ancaq aparılan bəzi elmi tədqiqatlar bitkilər arasında gizli bir "dilin" mövcud olduğunu irəli sürür. **5.** Bitkilər ətrafdakı canlılar tərəfindən sezilməyən qoxu – "uçan üzvi birləşmələr" vasitəsilə əlaqə qurur. Metabolizm prosesində bir-birindən fərqli minlərcə üzvi birləşmələr istehsal edə bilir. Bu birləşmələr əksər bitkilərin ətrafını bulud kimi sarır.

Bizim sadəcə xoşumuza gələn və ya heç hiss etmədiyimiz bu qoxu ətrafdakı canlılar üçün, bir növ, qoruyucu rolunu oynayır. Çünki bitki bu birləşmələrdən düşmənlərini uzaqlaşdırmaq və ya cəzb etmək üçün istifadə edir. İndiyə qədər minə yaxın birləşmə tapılmışdır və böyük ehtimalla bunların sayı daha çoxdur.

Bitkilər tərəfindən istehsal edilən ətirli birləşmələr də son dərəcə qarışıq kimyəvi reaksiyalar nəticəsində ortaya çıxır.

Bitkilər özlərinə zərər verən canlıların hücumuna məruz qalanda ifraz etdikləri üzvi birləşmələr vasitəsilə ətrafdakı bitkilərə xəbər göndərir. Bu xəbər sistemi hücuma məruz qalan bitkinin yaydığı üzvi birləşmələri digər bitkilərin gizlicə "dinləməsi" formasındadır. Beləcə, təhlükə anında müdafiə sistemi qurulur.

Bəs bu "dinləmə" əməliyyatı necə gerçəkləşir? Hücuma məruz qalan bitkilərin ifraz etdiyi birləşmələr qonşu bitkilər tərəfindən mənimsənilir və digər bitkilərə ötürülür. Ard-arda gələn siqnallar analiz edilir və müdafiə sistemi həyata keçirilir. Burada bir başqa gerçək ortaya çıxır: Bitkilər "danışmaqla" kifayətlənməyib, həm də bir-birini "dinləyir".

291. Mətnə əsasən cədvəldəki doğru fikirləri müəyyən edin.

Səbəb		*Nəticə*
Bitkilərin hücuma məruz qalması	1.	"Uçan üzvi birləşmələr" vasitəsilə əlaqə qurmaları
	2.	Ard-arda gələn siqnalların analiz edilməsi
	3.	Düşmənə qarşı işlətdiyi taktikaların təəccüb doğurması
	4.	Heyvanların təhlükə anında çıxardıqları səslə bir-birini təhlükədən xəbərdar etməsi
	5.	Hərəkət qabiliyyətlərinin məhdud olması

A) 1, 2 B) 2, 3, 4 C) 2, 4
D) 1, 3, 5 E) 4, 5

292. Çərçivədə verilmiş fakt əvvəlində rəqəm yazılmış hansı cümlədəki fikri əsaslandırmağa xidmət edir?

Heyvanlar aləminin ən səssiz üzvləri balıqlar belə bədən dili işlədərək bir-biri ilə xəbərləşirlər. Yeni Zelandiyanın Oklend Universiteti alimlərinin iddialarına görə, istənilən balıq səs çıxara bilir. Lakin onların hamısını eşitmək mümkün deyil. Səslərin gücü və tezliyi balıqların qulaqcıqlarında yerləşən əzələlərin gücündən asılıdır.

A) yalnız 5 B) 2, 3 C) 1, 3
D) 4, 5 E) yalnız 2

293. Çərçivədə verilmiş sözün kontekstdəki mənasının şərhinə aid ***yanlış*** nümunəni müəyyən edin.

	Sözün qarşılığı	*Nümunə*
1.	eşidilmək	*Onun gəlişi haqqında xəbər artıq eşidilmişdi.*
2.	başa düşülmək	*Hər bir insanın başa düşülməyə ehtiyacı var.*
3.	qavranılmaq	*Asanlıqla qavranılan dərs gözəl metodikadan xəbər verir.*
4.	hiss edilmək	*Hərəkətlərindən könülsüz olması hiss edilirdi.*
5.	duyulmaq	*Rəssamın incə zövqü əsərlərindən duyulurdu.*

A) 2, 3, 5 B) 1, 3 C) 4, 5
D) 2, 4 E) 1, 3, 5

294. Mətnin məzmunu ilə bağlı ***olmayan*** fikirləri müəyyən edin.

1. Bitkilərin ünsiyyət saxlama üsulları heyvanlardan fərqlənir.
2. Bitkilərin qoxunu hissetmə qabiliyyəti vardır.
3. Canlılar bitkilərin ifraz etdiyi qoxunu hiss edə bilmir.
4. Bitkilərin eşitmə orqanları heyvanlardan fərqlidir.
5. Bütün canlıların təhlükə ilə üz-üzə gəldiyi məqamlar olur.

A) 1, 2, 4 B) 3, 5 C) 2, 4, 5 D) 1, 2, 5 E) 3, 4

295. Tünd-qara hərflərlə verilmiş cümlədə nöqtələrin yerinə hansı ifadə yazılsa, fikir daha dəqiq və düzgün ifadə edilər?

A) faydalı B) əhəmiyyətli C) mükəmməl
D) sadə E) dəyərli

296. Düz xətt çəkilmiş hissəyə uyğun gələn fikir yazın.

297. Mətnə əsasən cədvəli tamamlayın (təkrara yol verməden).

Varlıq	*Ünsiyyət forması*	*Məqsəd*
	Qoxu	
İnsan		
		Təhlükəni xəbər vermək

298. Mətnin beşinci abzasını ifadə edən tezis yazın.

299. Altından dalğalı xətt çəkilmiş cümlə: (✓)

☐ Bədii sualdır.

☐ Bədii sual deyil.

Çünki

300. Eyler-Venn diaqramı əsasında mətnlərin üslubi xüsusiyyətlərini müqayisə edin.

Metabolizm – maddələr mübadiləsi; orqanizmdə gedən kimyəvi reaksiyaların məcmusu deməkdir.

Əsas mətnə aid üslubi xüsusiyyətlər — Çərçivədəki mətnə aid üslubi xüsusiyyətlər



Tibbin simvolu ilan və qədəh

İlan lap qədim zamanlardan tibb elminin diqqət mərkəzində olmuşdur. Onun simvola çevrilməsində bir çox əfsanələrin ▲rolu vardır. Ən *məşhur*[1] əfsanə isə Qiqeya və Asklepios haqqında olandır.

Qiqeya qədim yunan mifologiyasında sağlamlıq ilahəsi idi. Onun atası Asklepios isə şəfa tanrısı idi. Asklepiosun simvolu əsaya sarılmış ilan, qızı Qiqeyanın simvolu isə qədəhə sarılmış bir ilandır. Əfsanəvi yunan həkimi Asklepios həmişə öz əsərlərində ilanı təsvir etməyə çalışıb. İlanların tibdə rolunun olması barədə söylədiyi fikirlər onu alim və həkim, hətta həkimlərin tanrısı etmişdir.

Əfsanəyə görə, Asklepios yunan çarı Minosomun sarayına dəvət olunur ki, onun ölmüş oğlunu xaç suyuna salsın. Həkim saraya gedərkən görür ki, onun əsasına ilan *dolaşıb*[2]. O qorxur və əsa ilə ilanı öldürür. Sonra həkim ölmüş ilanın yanında ikinci ilanın peyda olduğunu görür. İkinci ilanın ağzında bir ot olur. Asklepios düşünür ki, ikinci ilan ölmüş ilanı xaç suyuna salmaq üçün ■ağzında ot gətirib. O da həmin otlardan yığıb çarın oğlunun xaç suyuna salınmasında istifadə edir.

İlanla əlaqədar ilk simvolun təxminən bizim eranın 600-800-cü illərinə təsadüf etdiyini söyləmək olar. Lakin həmin dövrlərdəki simvollarda ilan və fincan ayrı-ayrı təsvir olunub. Simvoldakı şəkildə fincanın ayaqlarına dolanmış ilan başını fincanın içərisinə doğru əymişdir.

Qədimdən bu günədək gəlib çatmış əfsanələrdə, inanclarda deyilən fikirlərə **söykənərək** demək olar ki, ilana münasibət birmənalı olmamışdır. İlan bir tərəfdən dilini çıxarıb qarşısındakı heyvanı hipnoz edirsə, digər tərəfdən xəstəliklərə meydan oxuyur. Buna görə də o həm xoşbəxtliyin və bədbəxtliyin, həm də həyat və ölümün rəmzi sayılır.

Qiqeyanın qədəhindən simvol kimi 1796-cı ilə qədər Paris Əczaçılıq Cəmiyyəti üçün hazırlanmış metal pulların üzərində istifadə edilmişdir. O zamandan bəri bu simvol dünyada Amerika, Kanada, Avstraliya Əczaçılar Cəmiyyətləri və s. kimi bir çox əczaçılıq assosiasiyaları tərəfindən qəbul edilmişdir. Hazırda Avropada Qiqeyanın qədəhi apteklərin simvolu kimi istifadə olunur. Amerikada isə Avropadan fərqli olaraq, apteklərdə həvəngdəstə simvolundan istifadə olunur. Hal-hazırda Azərbaycanın da tibb ocaqlarında bu emblemə rast gəlmək olur.

301. Mətnə görə doğru fikirdir:

A) Asklepios həkimlərin tanrısı hesab edilsə də, Qiqeyanın qədəhi daha məşhurdur.
B) Tibb elmi müasir dövrümüzdə yaranmış və inkişaf etmişdir.
C) Bütün ölkələrdə adı çəkilən simvolun eyni təsvirindən indi də istifadə olunur.
D) İlanın tibbin simvoluna çevrilməsi onun zəhərindən dərmanlar hazırlanması ilə bağlıdır.
E) Mənbələrdə ilan yalnız müsbət şəkildə qeyd olunub.

302. Əvvəlində işarə olan sözlərin həqiqi və məcazilik baxımından Eyler-Venn diaqramındakı şərhi ilə bağlı doğru fikirləri müəyyən edin.



A) 1, 4 B) 3, 5 C) 2, 4 D) 2, 3 E) 1, 5

303. Çərçivə daxilində verilmiş hissənin məzmununu əhatə edən tezisdir:

A) 1796-cı ildən sonra ilan və qədəh simvolundan istifadə olunmadı.

B) Dünyanın çox az ölkəsində Qiqeyanın qədəhi simvol kimi qəbul olunub.

C) Ölkəmizdə yalnız sovet dövründə bu emblemdən istifadə olunurdu.

D) "İlan və qədəh" təsviri dünya səhiyyəsinin əsas simvoluna çevrilib.

E) Amerika, Kanada, Avstraliya kimi ölkələrdə apteklər sayca çoxdur .

304. Üzərində rəqəm yazılmış sözlər əsasında uyğunluğu müəyyən edin.

1.

2.

a. "Tanınmış" mənasındadır.

b. "Sarılıb" mənasındadır.

c. "Populyar" sözünün qarşılığı ola bilər.

d. "Gəzmək" anlamındadır.

e. "Açılması mümkün olmayan" mənasındadır.

A) 1 – b, d; 2 – c, e
B) 1 – a, c; 2 – d
C) 1 – a, c; 2 – b
D) 1 – d; 2 – c, e
E) 1 – a; 2 – b, e

305. Hansı fikir mətnə artırılsa, məntiqi cəhətdən əsas məzmunun açılmasına kömək edər?

A) İlanları öyrənən elm serpantologiya adlanır.

B) Azərbaycanda əczaçılıq tarixi 1938-ci ildən başlanır .

C) Yunan mifologiyası Qərb sivilizasiyasının mədəniyyət, incəsənət və ədəbiyyatına böyük təsir göstərib.

D) Azərbaycanda ilanla bağlı miflərə rast gəlinir.

E) İlanın sarılaraq fincana doğru əyilməsi ilan zəhərindən hazırlanan dərmanların fincanda hazırlanmasına işarətdir.

306. Mətnin üslubi xüsusiyyətləri əsasında sxemdə qeydlər aparın.

☐ Bədii
☐ Elmi → Çünki [ ]
☐ Publisistik

307. Tünd-qara hərflərlə verilmiş sözün kontekstə uyğun qarşılığını müəyyən edib yazın, sonra isə həmin qarşılığı mətndənkənar cümlə tərkibində işlədin.

308. *"İlan və qədəhin birlikdə simvol kimi qəbul edilməsi XVI əsrdə məhşur həkim Parasels tərəfindən irəli sürülmüşdür"* cümləsi ilə hansı abzası genişləndirmək olar?

309. Altından xətt çəkilmiş cümləni məcazi mənalı ifadələr əlavə etməklə yenidən yazın.

310. *"İlana münasibətdə müxtəlif yanaşmalar mövcuddur"* fikrini əsaslandırmaq üçün mətnə əsasən faktlar yazın.

Kartof bitkisi və aclığa son

I Kartof qida ehtiyatı kimi dünyada ən çox becərilən və istifadə olunan bitkidir. Kartof həm də ən ▲ səmərəli əkinçilik bitkisidir: 1 hektar ərazidə 50-80 ton kartof *yetişdirmək*[1] mümkündür. Bu, taxıldan iki dəfə çoxdur. Kartof Avropada təxminən 400 il bundan əvvəl *ortaya çıxmış*[2] və Qərb dünyasının həyatını tamamilə dəyişmişdir.

II XVII əsrin əvvəllərində Avropa aclıqdan əziyyət çəkirdi. Kasıbları qida ilə təmin etmək mümkün deyildi, aqrokimyəvi biliklər inkişaf etmədiyi üçün taxıl bitkilərinin məhsuldarlığı *aşağı*[3] idi. Məsələn, Fransa yalnız geniş sahələr əkdikdə və hava şəraiti əlverişli olduqda əhalini taxılla təmin edə bilirdi. Lakin Napoleon müharibələrindən sonra Fransa, demək olar ki, aclığı unutdu, çünki Fransada kütləvi şəkildə kartof becərilməyə başlanmışdı.

III 1780-1841-ci illərdə irlandiyalıların sayı 2 dəfə artmışdı. Halbuki bu illərdə İrlandiya sənaye və kənd təsərrüfatında əhəmiyyətli irəliləyiş əldə etməmişdi. Yalnız kartof istehsalının genişləndirilməsi nəticəsində çoxsaylı əhalinin qida tələbatı ödənmişdi. Kartof qədim dövrlərdə İnk imperiyasının da ■ tərəqqisinə səbəb olmuşdu. Onlar 4000 il bundan əvvəl bu yabanı bitkini becərməyə başlamışdılar. Bu bitki sərt iqlimi yaxşı keçirir, yaxşı saxlanılırdı.

IV Kartof Avropada bəzək bitkisi hesab edilmişdir. İspanlar gümüş mədənlərində işləyən qulları kartofla qidalandırmağa başladılar. Onilliklər sonra isə yoxsulların süfrəsinə gəlib çıxdı. Yoxsullar qısa zamanda kartofun dəyərini anladılar.

V Kartof tezliklə əsgərlərin də qida mənbəyi oldu. Ordu daha yüksək qidalanmağa, hətta daha az müharibə törətməyə başladı. Çünki torpaq çatışmazlığı artıq böyük problem deyildi: kartofun meydana çıxması kənd təsərrüfatının məhsuldarlığını artırmış, torpaq problemi *aradan qalxmışdı*[4].

VI Beləliklə, Avropanın əhalisi iki yüz ildə – 1700-1900-cü illərdə 126 milyondan 300 milyona qədər artdı. Tarlalarda işləyən insanların sayı da tələb olunandan çox artıq idi, kəndlilər şəhərlərə *köçməyə*[5] başladılar. İqtisadçıların fikrinə görə, • urbanizasiya və sənaye inqilabı, əsasən, kartof sayəsində oldu.

VII Yer üzündə insan sayı durmadan artmaqdadır, bu da insanları qida ilə təmin etmək üçün alternativ variantlar tapmaq zərurəti yaradır. NASA 2015-ci ildən "Marsda kartof" layihəsi üzərində işləyir və Mars şəraitinə ən yaxın şəraitdə uğurla kartof yetişdirməyə nail olur. Agentlik 2033-cü ildə həmin planetə uçmağa və orada insanlardan ibarət koloniyaların yaradılması imkanını araşdırmağa ümid edir. Bəs onlar nə ilə qidalana bilərlər? Əlbəttə, əsrlər boyu avropalıların və Cənubi Amerikanın yerli sakinlərinin qidalandıqları kartofla.

Camscanner ilə skan edilib

311. Mətnin tərkib hissələrinə əsasən uyğunluğu müəyyən edin.

1. Giriş
2. Əsas hissə
3. Nəticə

a. Kartofun müharibələrə səbəb olması
b. Kənd təsərrüfatında yüksəliş
c. Gələcəyin qidası
d. Dünyada ən sərfəli bitki
e. Əhalinin yerdəyişməsi

A) 1 – b; 2 – c, d; 3 – e
B) 1 – d; 2 – b, e; 3 – c
C) 1 – d; 2 – c; 3 – b, e
D) 1 – a; 2 – b, c; 3 – e
E) 1 – a; 2 – e; 3 – c, d

312. *Ağır işə tab gətirmələri üçün kartof misilsiz enerji mənbəyi oldu* cümləsi nömrələnmiş hansı abzasa artırılsa, mətnin tərkib hissələri arasında əlaqə *pozulmaz*?

A) III B) II C) IV D) I E) VII

313. Mətnin sonuncu abzasındakı fikirləri hansı sitatla qüvvətləndirmək olar?

A) Həqiqi sahibi olmayan torpaq yetimdir. (Həsən Əliyev)
B) Təbiətin insana bəxş etdiyi nemətlərdən səmərəli istifadə onun xilasıdır. (Həsən Əliyev)
C) Hər dağıntı düzələ bilir, təbiətin dağıntısı heç vaxt. (Falih Rıfkı Atay)
D) Torpaq deyir, öldür məni, dirildim səni. (Azərbaycan atalar sözü)
E) Məhəbbət təbiət kimidir, ilk soyuqlar daha çox hiss olunur. (Bruast)

314. Mətnə əsasən doğru hökmdür:

1. Varlılar kasıbların kartofu tanımasına uzun müddət imkan verməmişlər.
2. İnsanlar gələcəklərini də kartofla xilas etmək barəsində düşünürlər.
3. İnsanların əziyyətli bir əkinçilik növü ilə tanış olması onların həyatını dəyişdi.
4. Qida bitkisinin sərt iqlimə davamlılığı onu daha dəyərli və istifadəyə yararlı edir.
5. Kartofun yayılması müharibələrə son qoydu.

A) 1, 5 B) 2, 5 C) 3, 4 D) 2, 4 E) 1, 3

315. Mətnin strukturu ilə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*
1. Mətnin III abzasını 2 abzasa bölməyə ehtiyac var.	4. Mətnin sonuncu abzasında dialoqdan istifadə edilmişdir.
2. Mətnin nəticə hissəsindən fərqli olaraq, giriş hissəsinin əsas hissə ilə əlaqəsi zəifdir.	5. Elmi üsluba nisbətən bədii üslubun xüsusiyyətləri daha qabarıqdır.
3. Mətnin ilk cümləsinin mətndən çıxarılması struktur pozuntusuna səbəb olar.	6. Məcazi mənalı ifadələr işlənmişdir.

A) 2, 3, 5 B) 1, 3, 4, 5 C) 1, 2, 4, 6
D) 3, 4, 6 E) 2, 4, 5

316. Abzaslardan birinin ilk cümləsinin abzasın məzmunu ilə əlaqəsi zəifdir. Həmin cümləni yazın və seçiminizi əsaslandırın.

317. Mətnin V abzasında düzəlişə ehtiyacı olan cümləni müəyyən edərək qüsurları aradan qaldırmaqla (yalnız qüsur olan məqamlarda) yenidən yazın.

318. Mətndə əvvəlində işarə qoyulmuş sözlərin mənalarını müəyyən edib yazın.

▲ _____
■ _____
● _____

319. Əsas mətnlə çərçivədə verilmiş mətnin üslubi xüsusiyyətlərini nəzərə alaraq, Eyler-Venn diaqramını doldurun. (Hər hissəyə ən azı bir doğru fikir yazmaqla)

Kartof badımcançiçəklilər fəsiləsinin Solanum cinsindən çoxillik bitki növüdür. Əsasən, Cənubi və Mərkəzi Amerikada bitən 200-dək yabanı və mədəni növü məlumdur. Mədəni halda 2 növü – geniş yayılmış Çili kartofu (S. tuberosum) və And kartofu (S. andigenum) var. Çili kartofu 3-6 gövdədən ibarət, hündürlüyü 50-80 sm olan koldur.



320. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəb	*Nəticə*
Avropada qidanın əsasını kartof təşkil etməyə başladı.	
	Avropa aclıqdan əziyyət çəkirdi.

Cəmi 320 sual

Azərbaycanın ilk professional qadın müğənnisi

XX əsrin əvvəllərində opera səhnəsində bütün qadın rollarını kişilər ifa edirdi. Köhnə fikirli adamlar qadınların səhnəyə çıxmasını pis qarşılayırdılar. Təhlükəli olsa da, Azərbaycan qadınlarının qapalı geyimdə gəzdikləri vaxt Şövkət Məmmədova tamaşaların 1. ..... uyğun avropasayağı geyimdə səhnəyə çıxdı. Ölümlə üz-üzə dayanaraq sənətə addım atan ilk qadın müğənni oldu.

Musiqiyə marağı ailəsindən başlasa da, balaca Şövkətin Romanovlar Musiqi Cəmiyyətinin nəzdindəki musiqi məktəbində təhsil alması onun bu sahəyə daha sıx bağlanmasına səbəb olmuşdu.

Hacı Zeynalabdin Tağıyev təsadüfən gənc qızın istedadını görərək təhsil alması üçün onu İtaliyaya göndərmişdi. Şövkət 1911-ci ildə Milan şəhərində musiqi məktəbinə daxil olmuş, bir il sonra nədənsə ona gələn yardım kəsilmiş və bu səbəbdən geri qayıtmalı olmuşdu.

Bir qədər sonra Üzeyir Hacıbəyli təhsilini davam etdirməsi üçün Şövkətə kömək təklif edir və onu Şərqdə ilk qadın olaraq səhnəyə çıxmağa ürəkləndirir.

1912-ci ildə Tağıyevin teatrında "Ər və arvad" operettası səhnəyə qoyulur. Tamaşadan gələn gəlir Şövkətin təhsilini davam etdirməsinə ayrılacaqdı. Bunun üçün isə gənc ifaçı səhnədə bir neçə musiqi ifa etməli idi. Tamaşadan sonra Şövkət səhnəyə çıxır və "Seviliya bərbəri" operasından Rozinanın ariyasını böyük 2. ..... ifa edir. Bu yeniliyi götürməyən bəzi *mühafizəkarlar*[1] Şövkəti və ona köməklik edən Üzeyir bəyi öldürmək istəyirlər. Şövkət səhnədə olarkən dostları həyatının təhlükədə olduğu barədə onu xəbərdar edirlər. [ ] **Bu müddətdə qoçuların Şövkətə atəş açmaq üçün kifayət qədər vaxtı olsa da, amma onun sehrli səsinə valeh olub əllərini tərpədə bilmirlər.** Şövkətin ifası bitən kimi dostları onları arxa qapıdan faytonla qaçırırlar.

Şövkət 1915-ci ildən təhsilini Kiyev konservatoriyasında davam etdirir. Burada tanınmış bəstəkar Reynqold Qlier müğənninin *ecazkar*[2] səsinə pərəstiş edir və məşhur "Şahsənəm" əsərini yazır. Sonralar Şövkət xanım bu operada Şahsənəmin partiyasını misilsiz füsunkarlıqla ifa edərək SSRİ xalq artisti adına layiq görülür.

Şövkət xanım təhsil alıb Azərbaycana döndükdən sonra mədəni həyatda fəal iştirak edir. 1923-cü ildə onun təşəbbüsü ilə Bakıda teatr texnikumu açılır.

Azərbaycan səhnəsinin sönməz ulduzu Şövkət Məmmədova özündən sonra çox sayda qadınların səhnəyə çıxmasına, onların Azərbaycan mədəniyyətinə uğurlar gətirməsinə səbəb olmuşdur.

321. Mətndə üzərində rəqəm yazılmış sözlərin mətndəki mənasının şərhi ilə bağlı uyğunluğu müəyyən edin.

1. a. xariqüladə
2. b. köhnəlik tərəfdarı
   c. mühafizəkar siyasi partiyanın üzvü
   d. yüksək
   e. hər kəsi heyrətə salan

A) 1 – b, d; 2 – a B) 1 – a; 2 – e
C) 1 – c; 2 – d D) 1 – b; 2 – a, e
E) 1 – e; 2 – b, d

322. Mətndə boş çərçivənin yerinə hansı nümunə artırılsa, cümlələr arasında əlaqə yaranar?

A) Şövkət xanım isə heç nəyə məhəl qoymayaraq ariyanı başa vurur.
B) Üzeyir bəy belə xəbərdarlıqlardan çox eşitmişdi, ona görə də soyuqqanlı davranırdı.
C) Lakin Şövkətin nitqi vəziyyəti dəyişir.
D) Üzeyir bəy tələşlə Şövkəti oradan uzaqlaşdırır.
E) Lakin bu xəbərdarlıq özünü doğrultmur.

323. Aid olduğu üsluba xas olaraq mətndə:

1. Mətbuat dilindən istifadə olunmuşdur.
2. Arxaik leksikadan geniş istifadə olunmuşdur.
3. Fikirlər aydın təqdim edilmişdir.
4. Mücərrəd obrazlılıq mövcuddur.
5. Nitqin sərbəstliyi əsasdır.

A) 4, 5 B) 1, 3 C) 2, 3 D) 1, 5 E) 2, 4

324. Mətnə əsasən doğru hökmdür:

1. Şövkətin səsi yeniliyə qarşı düşmən olanlara da təsir edib.
2. Şövkət musiqi təhsilini tamamlaya bilməyib.
3. Şövkətin musiqi təhsili müxtəlif ölkələrlə bağlı olub.
4. Şövkət mükəmməl musiqi təhsili alandan sonra müğənniliyə başlayıb.
5. Həmin dövrdə Azərbaycanda opera sənətinə maraq olmayıb.

A) 2, 4 B) 2, 5 C) 3, 5 D) 1, 3 E) 1, 4

325. Mətn əsasında cədvəldəki doğru nümunələri müəyyən edin.

	Tünd-qara hərflərlə verilmiş cümlədəki söz	***Həmin sözün mətndəki mənada (həqiqilik və ya məcazilik baxımından) işlədildiyi başqa cümlə***
1.	açmaq	Məlikməmməd tövləyə girib atları açdı.
2.	sehrli	Şuşa şəhəri sehrli bir gözəlliyə malikdir.
3.	səs	Xalqının səsinə qulaq asan lider yenilməz olar.
4.	əl	Bir əl tərpət, bu işləri yoluna qoyaq.
5.	valeh olmaq	İnsan bu gözəl mənzərəyə valeh olmadan baxa bilmir.

A) 2, 5 B) 2, 3 C) 3, 4 D) 1, 4 E) 1, 5

326. Mətnə əsasən iki fakt yazmaqla Şövkətin qarşısına çıxan çətinlikləri müəyyən edin.

327. Mətndə nöqtələrin yerinə uyğun sözləri müəyyən edib yazın.

328. Mətnə əsasən Şövkətin istedadının dəyərləndirilməsini göstərən ən azı iki fakt yazın.

329. Mətnə əsasən sxemi tamamlayın (✓) və seçiminizi əsaslandırın.

☐ Sənət ehtiyacdan yaranır və var-dövlət içində boğulub ölür. (Jorj Sand)

☐ Yalnız yaradıcı insanlar tarixin yaddaşında həmişəlik qalırlar.

☐ Əsl sənətkarlıq üzdə sadə görünənin alt qatdakı dərin mənasını üzə çıxarmaq məharətidir. (Əbu Turxan)

330. Mətnə əsasən verilmiş hökmü əsaslandıran faktlar yazmaqla cədvəli tamamlayın.

Şövkətin musiqi sənətinə gəlməyi təsadüfi olmayıb.	
1-ci fakt:	***2-ci fakt:***

Raxmaninov bu əsəri indi yazsa idi, bu cür yazardı

Konservatoriyada ifaçılıq fakültəsinə qəbul imtahanı idi. Xalq artisti rektor Cövdət Hacıyev qəbul imtahanlarında şəxsən iştirak edirdi.

Həmin vaxt zala bir gənc daxil olur və S. Raxmaninovun simfonik əsərlərindən birini ifa edir. İfa zamanı imtahan komissiyasının üzvləri və Cövdət Hacıyev məmnunluqla bir-birlərinə baxırlar. Gənc musiqiçi ifasını ▲qəflətən əsərdə olmayan akkordla bitirir. Cövdət Hacıyev həmin andaca irad bildirir:

– Axı axırda ifa etdiyiniz akkord əsərdə yoxdur.

Gənc dillənir:

– Düzdür, Raxmaninovda o akkord yoxdur, Raxmaninov bu əsəri indi yazsa idi, bu cür yazardı.

Bu söz müəllimi hövsələdən çıxarır. İmtahan vərəqini alıb "2" yazır.

İki il keçir, həmin gənc indi ifaçılıq fakültəsinə deyil, ən çətin şərtləri olan bəstəkarlıq fakültəsinə sənəd verir. Yenə Cövdət Hacıyevin iştirakı ilə imtahan başlayır. Gənc musiqiçi əsəri qaydalara uyğun şəkildə ifa edir və bəyənilir. Keçən dəfədən özünü bir az ■günahkar kimi hiss edən Cövdət müəllim sevincək deyir:

– Bax görürsən, işləyəndə, istəyəndə yaxşı təqdim edə bilirsən, ələ!

Gənc musiqiçi o biri imtahanları da uğurla verir və bəstəkarlıq fakültəsinin dörd yeni tələbəsindən biri olur.

Sentyabrın ilk günlərindən birində həmin gənc rektor Cövdət Hacıyevin kabinetinə daxil olur.

– Cövdət müəllim, gəlmişəm, xahiş edəm ki, məni konservatoriyadan azad edəsiniz, – deyir.

Rektor təəccüblənir:

– Niyə?! Bu cür gözəl fakültəyə daxil olmuşsan, müəllimin də ya mən, ya da Qara Qarayev olacaq.

Gənc deyir:

– Bilirəm, Cövdət müəllim. Əgər Qara müəllim daimi Bakıda yaşasa idi, ●həvəslə onun sinfində oxuyardım. Amma o, ildə iki dəfə gəlir, ümumi göstərişlər verir, mən isə mükəmməl təhsil almaq istəyirəm. Sizinlə də keçən qəbuldan bir narazılığımız olmuşdu, bəzi məsələlərə <u>baxışlarımızda</u> da müəyyən fərq var, ancaq şəxsiyyətinizə dərin hörmət bəsləyirəm. Qorxuram, sonradan aramızda inciklik yaransın. Odur ki, sizin sinfə də gələ bilmərəm. Onsuz da bir çox şeyləri bilirəm, müstəqil oxuyub-öyrənməyi davam etdirərəm.

Cövdət müəllimin öyüd-nəsihətləri, onu bu çılğın qərardan daşındırmaq təşəbbüsləri nəticə vermir və tələbə konservatoriyadan ayrılır.

Həmin gənc sonralar Azərbaycan caz musiqisinin banisi və Azərbaycan Caz-Muğam Hərəkatının memarı səviyyəsinə yüksələn, heç vaxt ali musiqi təhsili almayan bəstəkar Vaqif Mustafazadə idi.

331. Mətnə uyğun ***olmayan*** fikri müəyyən edin.

A) İstedad və əzmkarlıq bütün maneələri aşıb keçmək gücündədir.

B) Ali bəstəkarlıq təhsili almadan da məşhur bəstəkar olmaq olar.

C) Cəsarət və özünəinam uğur qazanmağın əsas şərtlərindəndir.

D) Yeniliklər və dəyişikliklər cəmiyyətdə asanlıqla qəbul edilmir.

E) Tələskənlik və özündənrazılıq bizi ali təhsildən məhrum edə bilər.

332. Mətnin üslubi xüsusiyyətlərini müəyyən edin.

1. Obrazlı ifadələrdən istifadə olunmuşdur.
2. İzah etmək, nəticə çıxarmaq əsas xüsusiyyətdir.
3. Arxaik leksika mühafizə olunur.
4. Fikirlər anlaşıqlı və standart formadadır.
5. Xalq dilinə yaxındır.

A) 1, 5 B) 2, 3 C) 4, 5 D) 3, 4 E) 1, 2

333. Mətndə çərçivədə verilmiş hissəni ümumiləşdirən fikri müəyyən edin.

A) İndi bəstəkarlıq fakültəsini seçən gənc daha çətin sınaqla qarşılaşmalı idi.

B) Bu hadisə əvvəlki xoşagəlməz hadisədən iki il sonra baş verir.

C) Qaydalara uyğun yerinə yetirilən budəfəki ifa daha çox bəyənilir.

D) Gənc oğlan bu ifada dəyişiklik etmir.

E) Gənc musiqiçi bəstəkarlıq fakültəsinin tələbəsi olur.

334. Mətndə altından xətt çəkilmiş ifadənin kontekstə görə şərhi əsasında müəyyən edin.

	Doğrudur	***Yanlışdır***
Kontekstə görə qarşılığı	1. fikirlərimizdə 2. təəssüratımızda	3. mülahizəmizdə
Nümunə	4. Məsələ ilə bağlı yanaşmalarda müxtəliflik var. 5. Filmə tamaşa edənlər arasında tələbələr də var idi.	6. Axırıncı görüşümüzdən sonra onu bir daha görmədim. 7. İşini bitirənə qədər nəzərim üstündədir.

A) 1, 2, 4, 7 B) 3, 4, 6, 7 C) 2, 3, 5
D) 1, 4, 6, 7 E) 1, 2, 5

335. Mətnin əsas hissəsinə aid olan bu plan bəndini həm də mətnin nəticə hissəsinə aid etmək olar:

A) Musiqi əsərində edilmiş dəyişiklik.
B) Müəllimin fədakarlığı.
C) Musiqi təhsilinin rolu.
D) Müvəffəqiyyət.
E) Konservatoriya təhsilinin nəticəsi.

336. Əvvəlində işarə qoyulmuş ifadələrin kontekstə görə qarşılığını müəyyən edin.

▲ _____
■ _____
● _____

337. Mətnə əsasən cədvəli tamamlayın.

Gənc musiqiçiyə məxsus xüsusiyyətlər	*Əsaslandırma*

338. Mətnə istinad etməklə doğru fikirləri işarələyin (✓) və seçiminizi əsaslandırın.

Rəyi əsas götürülür: ☐ İmtahan komissiyasının ☐ Rektorun

"Ehtiyat təcrübədən doğar" deyimi aiddir: ☐ Vaqif Mustafazadəyə ☐ İmtahan komissiyasına

339. Mətnə əsasən cədvəli tamamlayın.

Mətndəki təhsil müəssisəsinin üstün cəhəti	*Mətndəki təhsil müəssisəsinin mənfi cəhəti*

340. "*Əsl istedada sədd çəkmək mümkün deyil, o, əvvəl-axır parlayacaq*" aforizmini mətnlə əlaqələndirib fikirlərinizi yazın.

Nils Bordan mükəmməl cavab

Kral Akademiyasında müəllim tələbələrdən birinə fizikadan ən aşağı qiyməti vermək istəsə də, tələbə ən ***yüksək*** qiymətə layiq olduğunu iddia edirdi. Onlar üçüncü tərəfin – akademiyanın prezidenti Ernest Rezerfordun köməyindən istifadə etmək qərarına gəlirlər. Bu, tələbə üçün gözlənilməz olur. Sual belə idi: "Barometrin köməkliyi ilə binanın hündürlüyünü necə ölçmək olar?"

Tələbə belə cavab vermişdi: "Barometrlə dama qalxmaq, onu uzun kəndirlə aşağı sallamaq, daha sonra kəndiri ölçmək lazımdır. Kəndirin uzunluğu binanın hündürlüyünü bildirəcək". Tələbənin cavabı məntiqi cəhətdən doğru idi. Lakin imtahan fizika fənnindən idi və cavabın bu sahə ilə əlaqəsi yox idi.

Rezerford tələbəyə bir daha cavab verməyə çalışmasını deyir. Ona 6 dəqiqə vaxt verir və bildirir ki, cavab mütləq fizika ilə bağlı biliklərə əsaslanmalıdır. Vaxt tamam olduqda tələbənin vərəqi boş idi. Rezerford tələbədən təslim olub-olmadığını soruşur. Tələbə bir neçə cavab variantının olduğunu və ən yaxşısını seçməklə məşğul olduğunu deyir. Yeni cavab belə idi: "Barometrlə binanın damına qalxmaq və onu aşağı atmaq lazımdır. Düşmə zamanını hesablayıb, düsturdan istifadə edərək binanın hündürlüyünü təyin etmək olar".

Rezerford həmkarından bu cavaba münasibətini soruşur. O isə məmnun qaldığını bildirir. Onlar tələbədən digər cavabları da səsləndirməsini xahiş edirlər. Tələbə cavab verir:

— Günəşli havada küçəyə çıxmaq, barometrin və onun kölgəsinin hündürlüyünü, həmçinin binanın özünün kölgəsinin hündürlüyünü ölçmək mümkündür. Daha sonra heç də çətin olmayan üsullardan istifadə edərək binanın əsl hündürlüyünü tapmaq olar.

— Pis deyil, — Rezerford deyir. Başqa üsullar da mövcuddur?

— Bəli. Çox sadə bir üsul var. Barometri əlinizə götürüb divara dayayaraq pilləkənlə qalxırsınız və qeydlər edirsiniz. Bu qeydlərin sayını hesablayıb onu barometrin ölçüsünə vursanız, binanın hündürlüyünü əldə edəcəksiniz.

— Nəhayət, — deyə o, sözünü yekunlaşdırır, — bütün üsullar içərisində ən sadə olanı budur: Barometri özünüzlə götürün, binanı idarə edən şəxsi tapın və deyin: "Cənab, mənim mükəmməl barometrim var. Mənə binanın hündürlüyünü desəniz, o sizindir".

Bu zaman Rezerford tələbədən nəyə görə əvvəldən suala düzgün cavab vermədiyini soruşur. O, müəllimlərin məktəb və kolleclərdə tələbələri standart fikirlərlə yükləməsini görməkdən həddən artıq usandığını bildirir.

Həmin tələbə danimarkalı fizik, 1922-ci ildə Nobel mükafatına layiq görülmüş Nils Bor (1885-1962) idi.

341. Mətnin məzmununa əsasən uyğunluğu müəyyən edin.

1. Doğrudur.
2. Yanlışdır.
3. Ehtimal olunur.

a. Tələbə istədiyi qiyməti almağa nail olur.
b. Tələbənin suala ilk cavabı tamamilə yanlış olduğundan E. Rezerford ona bir neçə şans verir.
c. Tələbə əvvəlcədən suala tələb olunan formada cavab verə bilərdi.
d. Tələbənin yaradıcı yanaşması fizika ilə məhdudlaşmırdı.
e. Tələbə mübahisəyə üçüncü tərəfin qoşulacağını bilirdi.

A) 1 – b, d; 2 – a, c; 3 – e
B) 1 – a, c; 2 – b, e; 3 – d
C) 1 – c, d; 2 – b, e; 3 – a
D) 1 – c; 2 – d, e; 3 – a, b
E) 1 – a, e; 2 – b; 3 – c, d

CamScanner ilə skan edilib

342. Mətnin əsas hissəsindəki abzasların birinə aid ümumiləşmiş fikri müəyyən edin.

A) Müəllim və tələbə mübahisəsində tələbə həmişə haqlı tərəfdir.
B) Hər kəs öz fikrində haqlıdır.
C) Bütün mübahisəli məsələlər sonda öz həllini tapır.
D) İkitərəfli mübahisələr həmişə üçüncü bir tərəfin köməyi ilə həllini tapır.
E) Hansısa bir suala müxtəlif variantlarla cavab tapmaq olar.

343. Mətndə çərçivə daxilində verilmiş sözün mətndəki mənasına uyğun işləndiyi nümunəni müəyyən edin.

A) Əlbəttə, bu dərdi çəkməyə onun gücü çatmazdı.
B) Kisələri qumla doldurub arabaya yığmalı idi.
C) Maşına həddən artıq yük vurulduğu üçün tərpənə bilmirdi.
D) Səbətə alma yığıb qonşuya verdi.
E) Yeni işçinin üzərinə o qədər iş qoymuşdular ki, anasına baş çəkməyə vaxt tapmırdı.

344. Mətnə əsasən cədvəldəki uyğun fikirləri müəyyən edin.

Səbəbi məlumdur	*Səbəbi məlum deyil*
1. Akademiyanın prezidenti Ernest Rezerford tələbəyə sual ünvanlayır. 2. Nils Bor Nobel mükafatına layiq görülmüşdür.	3. Tələbənin cavabı məntiqi cəhətdən doğru olsa da, qəbul edilmir. 4. Tələbə sualın cavabını əvvəldən bilsə də, suala düzgün cavab vermir. 5. Kral Akademiyasının prezidenti fizik idi.

A) 3, 5 B) 1, 3 C) 1, 5 D) 2, 4 E) 2, 3

345. Plan bəndləri ilə aid olduğu tərkib hissələri arasındakı ***uyğunsuzluğu*** müəyyən edin.

1. İrəli sürülən iddia → Giriş
2. İlk fikir ayrılığı → Əsas hissə
3. Maraq doğuran şərh → Giriş
4. Müxtəlif izahlar → Əsas hissə
5. Dəyərləndirilən fəaliyyət → Nəticə

A) 1, 2 B) 2, 3 C) 1, 3, 5 D) 3, 4 E) 2, 4, 5

346. Altından xətt çəkilmiş ifadələrə əsasən cədvəli tamamlayın.

İfadə	*İfadənin mətndəki funksiyası (poetik, informativ və ya terminoloji)*	*İfadənin digər funksiyası (poetik, informativ və ya terminoloji)*	*Digər funksiyada cümlədə işlədilməsi*

347. Mətnə istinad etməklə uyğun seçim edin (✓) və fikrinizi əsaslandırın.



Əsaslandırma:

348. Mətnə əsasən cədvəli tamamlayan fikirlər yazın.

Mətndəki təhsil müəssisəsinin üstün cəhəti	*Mətndəki təhsil müəssisəsinin mənfi cəhəti*

349. "*Köhnə ənənələrlə razılaşmamaq yaradıcı təfəkkürün göstəricisidir*" deyiminin mətndə təsdiq və ya təkzib edildiyini müəyyən edin və fikrinizi əsaslandırın.

☐ Təsdiq edilir.

☐ Təkzib edilir.

350. Tünd-qara hərflərlə verilmiş ifadəni mətndəkindən fərqli mənalarda cümlədə işlədin.

Böyüklər üçün məktəb

Teatrın vətəni qədim Yunanıstandır. Burada qədim zamanlarda ilah Dionisin şərəfinə təntənəli bayramlar keçirilirdi. Azad yunanlar şəhər və kənd küçələrində təntənəli gəzintilər təşkil edir, Dionis haqqında əfsanələrdən səhnələr oynayırdılar. Əvvəllər tamaşalar açıq havada, təpənin ətəyində göstərilərdi. Tamaşaçılar isə yamacda yer tutub rahatlıqla tamaşaları izləyə bilirdilər. Təpənin ətəyində yunanca "skena" adlanan çadır ▲ qurulurdu. Burada aktyorlar paltarlarını ■dəyişirdilər. Sonralar yunanlar çadır əvəzinə kiçik bina tikdilər. Tamaşa vaxtı burada dekorasiyalar asırdılar. Binanın qarşısında aktyorların və xorun çıxış etməsi üçün meydança – orkestra düzəldirdilər. Beləliklə, e.ə. V əsrdə ilk teatr binaları tikilməyə başlanıldı.

Qədim yunanlar teatrı çox sevir, onu "böyüklər üçün məktəb" adlandırırdılar. Tamaşalar yarış səciyyəsi daşıyırdı. Aktyorlar tamaşanın məzmununa uyğun maskalar taxırdılar. *Parlaq*[1] rəngli maskaları ən arxa cərgələrdə belə oturanlar yaxşı görürdülər. Aktyorlar səhnədə hündür görünməkdən ötrü qalın altlığı olan xüsusi ayaqqabılar geyinirdilər. Qadın rollarını da kişilər oynayırdılar. Hər il üç-dörd teatr tamaşası ●göstərilir və hər tamaşa üç gün səhərdən axşama qədər davam edirdi. Sonradan bu tamaşalardan ən uğurlusu xüsusilə qeyd olunurdu.

CamScanner ilə skan edilib

Qədim yunan əfsanələri teatra olduqca zəngin mövzu verirdi. Əfsanələr əsasında tragediyalar adlanan pyeslər yaranırdı. "Tragediya" sözü yunanca "keçilər mahnısı" deməkdir. Tragediyalarda qəhrəmanlar arasında gedən kəskin mübarizə, onların faciəsi, çox vaxt isə ölmələri təsvir olunurdu. Antik dövrdə ilk tragediyaları Esxil yazmışdır. Esxillə bir dövrdə yaşamış digər faciə ustası Sofoklun "Antiqona" tragediyası müəllifinə böyük şöhrət qazandırmışdı.

Gülməli səhnəciklərdən şən və məzəli pyeslər – komediyalar yarandı. "Komediya" yunan sözü olub, "şən sakinlərin mahnısı" mənasını verir. Komediyada gülüş yumor və satira xarakteri daşıya bilir.

Yunanlar tamaşa günündə sübh tezdən yemək-içmək *götürüb*[2] teatra toplaşardılar. Tamaşa qurtardıqda xüsusi komissiya tamaşaçıların rəyini nəzərə alaraq, qələbəni ən yaxşı pyes müəllifinə və ən yaxşı aktyorlara verirdi. Onlar çələnglə və *qiymətli*[3] hədiyyələrlə mükafatlandırılırdılar. Pyes müəllifləri son dərəcə *böyük*[4] hörmətə malik idilər. Afina teatrında Esxilə və Sofokla heykəl qoymuşdular. Onları "müdriklik dahiləri" adlandırırdılar. Aristofan teatrın rolunu belə qiymətləndirirdi: "Müəllimlər şagirdlərə ağıl öyrətdikləri kimi, şairlər də böyükləri tərbiyə edirlər". Teatr sonralar qədim Romada, Şərq ölkələrində – Çində, Hindistanda, Yaponiyada geniş yayıldı. 1948-ci ildə teatr ictimaiyyəti rəsmi olaraq YUNESKO-nun himayəsi altında Beynəlxalq Teatr İnstitutunda birləşdi.

351. Verilən nümunələr mətndəki bəzi fikirlərlə səsləşə bilər. Biri ***yanlışdır***:

A) Esxil "faciənin atası" adlandırılır və yunan faciəsinin banisi hesab olunur.
B) E.ə 480-ci ildən başlayaraq komediya tamaşaları nümayiş etdirilirdi.
C) Esxil İran-yunan müharibəsində iştirak etmiş, müharibə bitdikdən sonra bütün həyatını teatr və yaradıcılığa həsr etmişdir.
D) E.ə. V əsrin Afinasında teatr Dionisə etiqadla sıx bağlı idi.
E) Esxilə qədər yunan dramı sadəcə dini bir mərasim olub.

352. Mətnə əsasən hansı hadisələrin səbəbini müəyyən etmək mümkün ***deyil***?

1. Pyes müəlliflərinə ehtiram göstərilirdi.
2. Sofoklun əsəri ona məşhurluq qazandırır.
3. Qədim yunanlar teatra xüsusi maraq göstərirdilər.
4. Qadın rollarını kişilər oynayırdılar.
5. Tamaşalar əvvəllər təpənin ətəyində göstərilirdi.

A) 1, 4 B) 1, 3 C) 2, 4 D) 2, 5 E) 3, 5

353. Çərçivədə verilmiş sözün kontekstə görə mənasını müəyyən edin.

A) teatr tamaşasının ayrıca bir hissəsi, parçası
B) həyatda təsadüf edilə bilən hadisə, epizod
C) teatr tamaşalarının göstərildiyi xüsusi meydança
D) teatrda göstərilmək üçün yazılmış əsər
E) tamaşaçılara göstərilən tamaşa, pyes

354. Mətnin hər hansı bir abzasını əhatə edən tezis ola ***bilməz***:

1. İlk teatr binaları qədim Yunanıstanda ucaldılmışdır.
2. Qədim Yunanıstanda hündür altlığı olan ayaqqabılar istehsal edilirdi.
3. Teatr tamaşalarının mövzusu, əsasən, yunan əfsanələrindən götürülürdü.
4. Qədim Yunanıstanda ən yaxşı tamaşa və ən yaxşı müəllif müəyyən olunurdu.
5. Qədim Yunanıstanda teatr sənəti kimi heykəltaraşlıq sənəti də mövcud olmuşdur.

A) 2, 5 B) 1, 2 C) 1, 3, 4 D) 4, 5 E) 2, 3, 4

355. Mətnə əsasən adı çəkilən pyes müəlliflərinin yaradıcılığı üçün ortaq sayıla ***bilməz***:

1. Yeni janrın əsasını qoymuşlar.
2. Faciə ustasıdırlar.
3. Əsərlərində qəhrəmanın çəkdiyi iztirablar əks olunur.
4. Qədim dövrdə yaşamışlar.
5. Bir əsəri ilə məşhurdurlar.
6. Hər ikisinin yaradıcılığı yüksək qiymətləndirilmişdir.

A) 2, 3, 5 B) 1, 5 C) 1, 4, 6 D) 2, 6 E) 3, 4

356. Mətnin nəticə hissəsi əsas hissənin tərkibində verilmişdir. Nəticə hissənin ilk cümləsini müəyyən edin və fikrinizi əsaslandırın.

357. Mətnə əsasən verilmiş müddəaları əsaslandıran faktlar yazın.

1. Müddəa: Pyes müəllifləri son dərəcə böyük hörmətə malik idilər.
Fakt:
2. Müddəa: Tamaşalar yarış səciyyəsi daşıyırdı.
Fakt:

358. Mətndə üzərində rəqəm yazılmış sözlərə əsasən cədvəli doldurun.

Söz	*İnformativ funksiya daşıyır*	*Poetik funksiya daşıyır*	*Digər funksiyada informativdirsə, poetik, poetikdirsə, informativ funksiyada söz birləşməsi və ya cümlədə işlədilməsi*
1.			
2.			
3.			
4.			

Camscanner ile skan edilib

359. Hansı aforizmlərlə mətndəki fikirləri əlaqələndirmək olar? (√) Seçiminizi əsaslandırın.

1. ☐ Teatr həyata düzgün baxmaq, düzgün qavramaq, düzgün başa düşməkdir.
2. ☐ Bizim dünyamız arxasında böyük sirlər gizlədən teatr pərdəsidir.
3. ☐ Teatr xalqı maarifləndirmək üçün çox təsirli vasitədir.
4. ☐ Teatr yalnız eyni fikri bölüşən sənətkarlardan ibarət olmalıdır ki, davamlı olsun.

360. Mətndə əvvəlində işarə qoyulmuş sözlərə əsasən cədvəli doldurun.

Söz	*Sözün mətndəkindən fərqli ifadə etdiyi mənası*	*Sözün mətndəkindən fərqli ifadə etdiyi mənanın cümlə daxilində işlədilməsi*
▲		
■		
●		

Gəncədə

I 1896-cı ilin yazında xəstəliyimlə əlaqədar Gəncəyə gəlib burada məskunlaşmalı oldum.

II Həmin vaxtlarda Gəncədə istədiyin qədər xanlar, bəylər, nüfuzlu ruhanilər, dövlətli hacılar vardı. Bunlar kasıb uşaqlarının deyil, öz uşaqlarının belə qeydinə qalmamışdılar. Şəhərdə qız-oğlan gimnaziyaları, şəhər məktəbləri vardı. Ancaq bu məktəblərdə türk balaları yox dərəcəsində idi. Bu böyük şəhərdə türklər içində mühəndis, aqronom, pedaqoq barmaqla göstəriləcək qədər az idi.

III Daha əvvəl qaldığım Şəki hacı, əfəndi ocağı olduğu kimi, bura da məşədi, kərbəlayi, axund qaynağı idi. Sevindirici hal idi ki, 1829-cu il nizamnaməsinə əsasən XIX əsrin 30-cu illərində Şəkidə artıq dünyəvi təhsildə verən ibtidai məktəblərin təməli qoyuldu.

IV Gəncə çayının üzərindən keçən körpünün o biri tayındakı məhəllədə xristianlar yaşayırdı və burada gimnaziyalar, şəhər məktəbləri, klublar, teatrlar, mədəni təşkilatlar, xeyriyyə cəmiyyətləri, işıqlı, geniş küçələr, yeniliklər...

V Bu tərəfdəki türk məhəllələrində dustaqxanalar, qalalar, məhkəmələr, molla mədrəsələri, xurafat, pir ocaqları, istədiyin qədər köhnəliklər, qaranlıqlar... Burada camaatın başları elmə arxa çevirən ruhanilərin ətəklərinə doğru əyilir, böyük bir kütlənin mənliyi yerlərə sərilirdi. Cavan, qoca, oxumuş, oxumamış – hamı öz yaşayış və səadət istəyini yalnız ruhanilərdən diləyirdi.

VI **Gəncədə Məhəmməd adlı İstanbuldan gəlmiş cavan bir müəllimlə tanış oldum.** Bu gənc maarifpərvərin yardımı ilə açılmış "Cümə" məscidi məktəbi müəllimliyinə təyin olundum. Məhəmməd bəyin sayəsində məktəb qısa zamanda böyüyüb tanındı.

VII Məhəmməd bəy məktəbi ruhani xidmətindən qurtarıb zəmanəyə uyğun bir milli məktəb halına gətirməyə çalışırdı.

VIII Gəncə türklərinin yeganə maarif müəssisəsi bu məktəb idi. Buna görə əlimizdən gələni edir, bu qaranlıq mühitdə kiçik də olsa, bir işıq yandırmağa çalışırdıq. Daha əvvəl Şəkidə olduğu kimi şəriət dərsləri ilə yanaşı, coğrafiya, tarix, dil və s. dərsləri tədris edir, dünyəvi fənlərə ayrılmış dərs saatlarının miqdarını artırmağa çalışır, şagirdləri düşündürməyə yönələn suallar, tapşırıqlar verirdik. Dünyəviləşmə – dini norma və dəyərlərin yerinə, rasional, ağıla və təcrübəyə istinad edən, ümumi mənafeyi nəzərə alan dünyəvi dəyərlərin inkişaf etməsidir.

IX Çox keçmədi ki, məktəb gözəl quruluş və tədris sayəsində bir çox gənc müəllimlər, yazıçılar yetişdirdi. Azərbaycan türk ədəbiyyatı üfüqünə yeni parlayan və işıq salan Abdulla Sur kimi ulduzlar ortaya çıxardı. **İnanırdıq ki, bizim ▲*yetişdirdiyimiz ulduzlar* bir gün Gəncəni daha parlaq işıqlara qərq edəcək.**

361. Mətnə əsasən hansı fikirlərin yeri dəyişdirilsə, Eyler-Venn diaqramında yol verilmiş səhvlər düzələr?



A) 2 ↔ 3 B) 1 ↔ 3 C) 4 ↔ 5
D) 2 ↔ 5 E) 1 ↔ 4

362. Mətnə əsasən uyğun fikirləri müəyyən edin.

Doğrudur	*Yanlışdır*
1. Bir nəfər ictimai mühitə müsbət təsir edə bilir. 2. Ruhanilərə ümid mənbəyi kimi baxılıb.	3. Dini mənsubiyyətə görə təzyiq müşahidə olunur. 4. Fanatizm geniş yayılmışdı. 5. Müəyyən vaxtlar Gəncədə milli kadrlar çox az olub.

A) 1, 2, 3 B) 2, 3, 4 C) 1, 3, 5
D) 4, 5 E) 1, 4

363. Mətndə altından xətt çəkilmiş hissə haqqında ***yanlış*** fikirləri müəyyən edin.

1. Məcazdan istifadə olunmuşdur.
2. Nəsr dilindədir.
3. Mətnin üslubuna xələl gətirən ifadələr var.
4. Təzaddan istifadə olunmuşdur.
5. Bədii xitabdan istifadə olunmuşdur.

A) 1, 4 B) 2, 3 C) 2, 4 D) 3, 5 E) 1, 5

Camscanner ilə skan edilib

364. VI və IX abzaslarda tünd-qara hərflərlə verilmiş cümlələrin üslubi xüsusiyyətləri əsasında müəyyən edin.

VI abzasdakı cümləyə aid yanlış fikirlər	*IX abzas abzasdakı cümləyə aid doğru fikirlər*
1. Anlaşıqlı, hamının başa düşə biləcəyi dildədir.	4. Yalnız informativ funksiya daşıyan sözlərdən ibarətdir.
2. İnversiyaya yol verilməyib.	5. Əvvəlində işarə qoyulmuş ifadə poetik funksiya daşıyır.
3. Poetizmdən istifadə olunub.	

A) 2, 3, 4 B) 1, 4 C) 4, 5
D) 2, 3, 5 E) 1, 2, 5

365. Mətnin ideyası baxımından klasteri tamamlaya ***bilməyən*** fikirləri müəyyən edin.

Düzgün yol məqsədə çatmaq üçün ən yaxın yoldur. (N.Tusi)



1. Böyük məqsədə çata bilmək üçün kiçik məqsədlərdən imtina etməyi bacarmaq lazımdır. (Əbu Turxan)
2. Təhsil ona həvəslə yanaşanların əməyində faydalı olur. (Sokrat)
3. Məqsəd aydın, xoşniyyətli olanda nəticəsi də uğurlu olur. (C. Vudford)
4. İki nəfər eyni işi görəndə müxtəlif nəticələr alınır. (Properi)

A) 2, 4 B) 2, 3 C) 1, 2 D) 1, 4 E) 1, 3

366. VIII abzasa əsasən sxemi tamamlayın.

Müddəa _____

Fakt _____

367. "*Çörəyi ver çörəkçiyə, birini də üstəlik*" deyiminin mətndə kimə aid olduğunu müəyyən edin (✓) və fikrinizi mətn əsasında ən azı iki nümunə yazmaqla əsaslandırın.

Nümunələr

☐ Mətni danışan şəxsə _____

☐ Məhəmməd bəyə _____

368. Mətndə bir-biri ilə ziddiyyət yaradan abzasları müəyyən edin və seçiminizi əsaslandırın.

369. Mətnə əsasən cədvəli tamamlayın.

	Səbəb	*Nəticə*
1	Gəncə şəhərindəki məktəblərdə türk balaları yox dərəcəsində idi.	
2	Gəncə şəhərində gözəl quruluşlu məktəb və tədris təşkil olunur.	

370. Mətnin məzmununa uyğun ***olmayan*** cümləni müəyyən edin. Həmin cümləyə əsasən cədvəli tamamlayın.

Mətnin məzmununa uyğun olmayan cümlə	*Cümlənin aid olduğu üslub*	*Həmin üslubun əsas xüsusiyyətləri*

Sürəyya Ağaoğlu

I Azərbaycanlı ictimai xadim Əhməd bəy Ağaoğlunun qızı Sürəyya xanım XX əsrin əvvəllərində hələ bir çox qadınların qapalı gəzdiyi Türkiyədə "İlk qadın vəkil" adını qazanmışdı. 1903-cü ildə Şuşada doğulan Sürəyya 7 yaşı olanda ailəsi ilə Türkiyəyə *mühacirət*[1] edib.

II 1921-ci ildə Darülfünunun Hüquq fakültəsinə sənədlərini vermək istəyəndə ona qızlar üçün bu fakültənin olmadığını bildirirlər. O, qızlar üçün fakültənin açılmasını tələb edir, lakin "Bir nəfər üçün fakültə açıla bilməz" cavabını alır. Sürəyya məktəb yoldaşları Melda və Bediani dilə tutaraq onları da bu fakültəyə sənəd verməyə razı salır. Beləliklə, Türkiyədə qızlar üçün ilk Hüquq fakültəsi açılır.

III Uşaqlıq və gənclik illəri Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün yaxınlığında keçən Sürəyya universiteti bitirən kimi sərbəst vəkillik icazəsi alaraq yeni dövlət quruculuğu dövründə olan Türkiyədə ilk qadın vəkil olur.

IV İş həyatı maraqlı keçən Sürəyya həmkarı olan rəfiqəsi ilə nahar etmək üçün yer tapmaqda həmişə çətinlik çəkirdi. Qadınların restoranda nahar etməsi o zamanın şərtlərinə görə mümkünsüz idi. Onlar Sürəyyanın o zaman mətbuat katibi olan atasından "İstanbul" restoranında nahar etmək üçün icazə istəyirlər. Əhməd bəy etiraz etmir.

V Növbəti gün iki rəfiqə restorana gedirlər. Onlara heç kim bir şey demir, lakin arxalarınca danışmağa başlayırlar. Şikayətlər Əhməd bəyə çatdırılır. Evə qayıdanda atası Sürəyyaya: "Bundan sonra nahar fasiləsində mənim yanıma gəlin", – deyir.

VI Bir müddət sonra Atatürk və həyat yoldaşı Sürəyyagilin evinə qonaq gəlir. Söhbət əsasında Sürəyya bu məsələni Atatürkə danışır. Atatürk ciddi bir mövqe bildirməsə də, səhər Sürəyyanı nahara aparmaq üçün onun iş yerinə gəlir. Sürəyya təəccüblə qapıya çıxıb avtomobilə minir. "İstanbul" restoranının qarşısında avtomobil dayanır. Millət vəkili Salih bəy tələsik yaxınlaşır. Atatürk hər kəsin eşidə biləcəyi bir səslə ona deyir:

– Bu gün Sürəyyanı bizə aparıram, ancaq sabah naharı burada edəcək.

VII Səhər Sürəyya "İstanbul" restoranına gedərkən bir neçə millət vəkilinin öz həyat yoldaşı ilə burada olduğunu görür. Heç kim onları baxışları ilə belə narahat etməyə cəsarət etmir.

Camscanner ilə skan edilib

VIII Beləliklə, bu hadisə ilə cəmiyyətə ..... *mesaj*[2] verilmiş olur.

IX Sürəyya Ağaoğlu Türkiyənin ictimai həyatında böyük işlər görmüş, dünyəvi dövlətçilik *ənənələrinin*[3] inkişafına yardım etmiş azərbaycanlı olaraq tanınır.

371. Mətnin ikinci abzasını ümumiləşdirən fikri müəyyən edin.

A) Hüquq fakültəsində təhsil almaq istəyən Sürəyya öz sinif yoldaşları Melda və Bedianın da arzusunu reallaşdırır.

B) Türkiyədə Cümhuriyyət yaransa da, hələ qadınlar öz siyasi hüquqlarından tam istifadə edə bilmirdilər.

C) Hüquq fakültəsində təhsil almaq istəyən Sürəyya Türkiyədə qızlar üçün bu fakültənin açılmasına nail olur.

D) Hüquq fakültəsində təhsil almış Sürəyyanın "Türkiyənin ilk qadın vəkili" adını qazanması üçün şərait yaranır.

E) Cümhuriyyət dövründə Türkiyədə qadınlarla kişilər bərabər hüquqlara malik olsalar da, eyni fakültədə oxumurdular.

372. Çərçivədəki hissə neçənci abzasdan sonra əlavə edilsə, mətndə məzmun ardıcıllığı ***pozulmaz***?

Sən demə, o bu məsələyə çox əsəbiləşmiş, lakin bunu büruzə verməmiş, evə gəldikdən sonra dərhal bir neçə millət vəkilinə zəng edərək həyat yoldaşları ilə bərabər həmin restorana getmələrini tapşırıbmış.

A) IX B) VIII C) VI D) V E) VII

373. Mətnin aid olduğu üslub haqqında doğru fikirləri müəyyən edin.

1. Aydın və anlaşıqlı dildə olur.
2. Terminoloji funksiya daşıyan beynəlmiləl ifadələr üstünlük təşkil edir.
3. Dili, əsasən, sərbəst olur.
4. Məcazi ifadələrin də işlədilməsi mümkündür.
5. Dili yalnız müəyyən ixtisas sahibləri tərəfindən yaxşı başa düşülür.

A) 1, 2 B) 3, 5 C) 1, 4 D) 2, 5 E) 3, 4

374. Mətnə əsasən həmin dövrdə mövcud olan dövlət quruluşu haqqında doğru fikirləri müəyyən edin.

1. Vətəndaş hüquqları qorunmağa çalışılırdı.
2. Dövlət quruluşunda dəyişiklik baş verməmişdi.
3. Parlament fəaliyyət göstərirdi.
4. Qadınların hüquqları qarşısında pozulmaz sədd vardı.
5. Dünyəvi dövlət formalaşırdı.

A) 1, 2, 4 B) 2, 5 C) 2, 3
D) 1, 3, 4 E) 1, 3, 5

375. Mətnin giriş və əsas hissələrinin sərhədi pozulub. Əsas hissə birinci və ya ikinci abzasdakı hansı sözlə başlayan cümlə ilə başlamalıdır?

A) O B) 1921-ci C) 1903-cü
D) Sürəyya E) Beləliklə

376. Mətndə üzərində rəqəm yazılmış sözlərin kontekstə görə qarşılığını (ifadə etdiyi mənanı) yazın.

377. Mətnin məzmununa əsasən nöqtələrin yerinə uyğun fikir yazmaqla cümləni tamamlayın.

378. Mətnə əsasən Sürəyyanın nailiyyətlərində rol oynamış iki amil yazın.

379. Mətnə əsasən sxemi tamamlayın (✓) və fikrinizi əsaslandırın.

Mətndə bəhs olunan dövrdə Türkiyədə cəmiyyətin əksər nümayəndələri
- ☐ mühafizəkar idilər.
- ☐ yenilikçi idilər.

380. Mətnin IV abzasında əks olunan problemə əsasən cədvəli doldurun.

Problem	*Problemin həllinə çalışan şəxslər*	*Problemin həllini nədə görür?*

Camscanner ilə skan edilib

Amerikanın qədim sakinləri

Nəhəng piramidaları Amerikanın mərkəzində inşa edən, sonra isə tarixin qaranlığında yox olan mayyalar kimdir? Məşhur arxeoloq Corc Stüart: "Hər səhər oyananda mayyalar haqqında nə qədər az biliyə malik olduğumuzu düşünürəm, bu tropik meşəli ərazidə neçə yaşadıqlarının ancaq 1 faizini bilirik", – deyirdi.

Təqribən eramızdan əvvəl II minillikdən mövcud olan mayya mədəniyyətini tarixdə mükəmməl əlifbası, incəsənəti, riyaziyyatı, ..., ... ilə iz qoyan mayyalar yaratmışlar.

▲ Mayyalar inşa etdikləri piramidalarla da məşhurdurlar. Piramidalardan astronomik müşahidələr aparılırdı. Mayyaların astronomiya elmi üzrə əldə etdikləri mükəmməl biliklər bir çox töhfələr vermişdir. Astronomik müşahidələr əsasında təqvim yaradılmışdı. Piramidalardakı pillələrin ümumi sayı 365-dir, yəni bir ildəki günlərin sayı qədərdir. Mayya təqvimi bir çox sahələrdə, həmçinin kənd təsərrüfatının idarə edilməsi – səmərəli əkinçilik sisteminin qurulmasında mayyaların köməyinə çatmışdır. Bu təqvimdən Mərkəzi Amerikadakı digər xalqlar da istifadə edirdilər.

▲ Lakin piramidalar çox zaman xalqın rifahına yox, [ ]. Dini ayinlər zamanı kahinlər allahlarla əlaqə yaratmaq üçün piramidaların zirvəsinə qalxır, insanlar əl çalaraq onları alqışlayırdılar. **Bu alqış səsləri piramida kompleksinin akustik effekti sayəsində kütlənin özünə iki-üç qat artıq qayıdır, allahların cavabı kimi izah olunurdu**. Qəribə və *ecazkar*[1] təsir bağışlayan, çoxşaxəli biliklərin məhsulu olan belə nəhəng piramida kompleksləri sadə xalqı hökmdarın gücünə, kahinlərin böyüklüyünə, onların qüdrətinin tükənməzliyinə, müqəddəsliyinə inandırmalı idi.

Piramidalar səsucaldıcı xüsusiyyətə malikdir. Yuxarı pillələrə qalxan insanların addımlarının səsi yağış səsi kimi piramidanın aşağısından eşidilir. Burada 150 metrlik məsafədə olan səsləri aydın eşidə bilirsən. Belə *effekt*[2] yaratmaq üçün qədim memarlar divarların qalınlığını dəqiq hesablamalı idilər.

Mayyada yaralara insan saçı ilə tikiş atılır, diş plombları qoyulur və hətta protez dişdən istifadə edilirdi.

Mayya sivilizasiyası XI əsrə qədər qəribə şəkildə yox olmuş, əksər böyük mayya şəhərləri dağıdılmış və tərk edilmişdi. İrəli sürülən nəzəriyyələr arasında ən məntiqli səbəb daxili müharibələr, quraqlıq, qıtlıq və iqlim dəyişiklikləridir.

Bəzi tədqiqatçıların ispanların mayya dövlətçiliyinə son qoyması haqqında fikirləri düşündürücüdür. İspanlar Mərkəzi Amerikaya gələrkən mayyaların mərkəzləşmiş dövləti yox idi. Hər qəbilə ilə ayrıca vuruşmuş ispanların Mayya şəhərlərini nəzarət altına almaları təxminən 170 il çəkmişdi.

İspanların gəlişindən sonra əksər mayya qəbilələri xristianlıq dininin katolik *məzhəbini*[3] qəbul etmək məcburiyyətində qaldılar. Lakin indiyədək də öz ənənələrini və qədim dinlərə inancını davam etdirən mayya qəbilələri var.

381. Mətnə əsasən doğru fikirləri müəyyən edin.
1. Piramidalardakı pillələrin sayının ilin günlərinin sayına uyğun olması təsadüfdür.
2. Mayya təqvimi səhiyyə sahəsində də inkişafa səbəb olmuşdur.
3. Mayya mədəniyyətinin yox olması ilə bağlı müxtəlif fikirlər mövcuddur.
4. Mayyaların nailiyyətindən başqa xalqlar da bəhrələnmişlər.

A) 1, 2 B) 2, 4 C) 1, 3 D) 3, 4 E) 2, 3

382. Mətnə əsasən Mayyada:
A) din insanları maarifləndirirdi.
B) elmi inkişaf etdirməkdə məqsəd yalnız xalqın rifahını təmin etmək idi.
C) hakim təbəqə cəhalətə qarşı mübarizə aparırdı.
D) bilik həm də gücə xidmət edirdi.
E) sivilizasiyanın yarandığı ilk dövrlərdən əhali xristian idi.

383. Digər abzaslardakı fikirlərə əsasən mətndəki nöqtələrin yerinə hansı sözləri fakt kimi əlavə etmək olar?
1. arxitekturası 2. ədəbiyyatı
3. müqəddəsliyi 4. tibbi
5. musiqisi

A) 2, 4 B) 1, 4 C) 1, 3, 5
D) 1, 2 E) 3, 4, 5

384. Mətndə tünd-qara hərflərlə verilmiş cümlədəki sözlərlə bağlı hansı əvəzlənmə üslubi yanlışlıq ***yaratmaz***?
A) səda – səmir B) piramida – həndəsi fiqur
C) alqış – dilək D) akustik – səslənmə
E) kompleks – dəst

385. Mətnin giriş hissəsi ilə bağlı ***yanlış*** fikri müəyyən edin.
A) Mövzu haqqında müəyyən təsəvvür yaradır.
B) Cümlələrin yeri dəyişdirilsə, fikirlərin məntiqi ardıcıllığı pozulmaz.
C) Sözün poetik funksiyasından istifadə edilmişdir.
D) Ərazinin təbiəti haqqında da məlumat var.
E) Məşhur alimin mayya arxitekturasına münasibəti ifadə edilir.

386. Mətnə əsasən sxemdəki doğru fikri müəyyən edin (√) və fikrinizi əsaslandırın.

İspanlar – işğalçı deyillər. ☐
İspanlar – işğalçıdırlar. ☐

Camscanner ilə skan edilib

387. Əvvəlində ▲ işarəsi qoyulmuş abzaslar əsasında cədvəli tamamlayın.

Müddəa	*Müddəanı əsaslandıran faktlar*
	Piramidalarda dini ayinlər icra olunurdu.

388. Mətndə üzərində rəqəm yazılmış sözlərin qarşılığını (ifadə etdiyi mənanı) müəyyən edib yazın.

389. Mətndən altından xətt çəkilmiş cümlədəki hökmü əsaslandıran iki fakt yazın.

390. Mətndə boş çərçivənin yerinə uyğun olan fikri yazmaqla cümləni tamamlayın.

Gələcək nəsilləri necə qoruya bilərik?

I 1949-cu ildə – Naqasakiyə nüvə silahı atılandan 4 il sonra Nobel mükafatı mərasimində yazıçı Uilyam Folkner insanlığa zidd bu hərəkətə etiraz etdi və bəşəriyyətin sənətlə nicat tapacağını bəyan etdi. Böyük yazar Con Stounberq də Nobel çıxışında sənətin insanlar arasında mənəvi körpü olacağını söylədi.

II Bəs uzaq gələcəkdəki bəşəriyyəti də sənətlə xilas etmək mümkündürmü?

III Müasir dövrdə 32 ölkədə 440-a qədər nüvə mərkəzi fəaliyyət göstərir. Buradakı tullantıların 96-98 faizi təkrar istifadə olunur. Təxminən 2 faizi isə gələcək üçün təhlükəlidir. Amerikanın Texas ştatının bir neçə kilometrliyində VİP adlı tullantı izolyasiya müəssisəsi var. Buradakı duz yataqlarında radioaktiv tullantılar yerin 600-700 metr dərinliyinə *gömülür*[1]. 250 milyon il stabil olduğu güman edilən bu anbarlar 2035-ci ilə qədər tullantılarla dolacaq. Həmin vaxt açılmış quyular partlayıcılar vasitəsilə daha da çökdürüləcək və planetimiz tullantıları bir növ udacaq. Təbii şəraitin nəticəsi olaraq çökmüş tullantıların üzərindəki yarıqlara 75 il ərzində duz *sızacaq*[2] və bu yarıqları tam qapadacaq. Bəs uzaq gələcəkdəki nəsillərə belə ərazilərin təhlükəli olduğunu necə anlada bilərik? İndiki təhlükə simvolları, hərflər, dillər min illər sonra anlaşılacaqmı?

IV 250 min il əvvəl biz Homo Sapiens olaraq yeni-yeni tarix səhnəsinə çıxırdıq. 250 min il bundan sonra isə yadplanetlilər dünyaya gələ, yaxud insanlar planetlərarası mədəniyyətə *çata*[3] bilərlər. Hər bir halda dillər, mədəniyyətlər, fikirlər tamamilə dəyişəcək.

V Svastika işarəsi qədim dinlərdə həyat rəmzi *sayılırdı*[4], sonralar alman faşistlərinin rəmzi nişanına çevrildi. Qədim yazılar, dillər bu gün anlaşıqlı deyil. Müasir sivilizasiya qədim adətlərlə üst-üstə düşməyə bilər. Təhlükə haqqında xəbərdarlığı sözlər, rəqəmlər, rəsm əsərləri vasitəsilə anlatmaq təklifləri olsa da, hər birinin qüsurlu cəhəti var.

VI Bir başqa təklif də var: Stounberq və Folknerin bəhs etdiyi sənət vasitəsilə. Təklif edilən bir forma tikanvari, sivri uclu heykəllərdir. Belə heykəllər insanda qorxu, sıxıntı, təhlükə hissləri *yaradır*[5]. Nüvə məkanlarını tonlarla ağırlıqda, metrlərlə hündürlükdə belə heykəllərlə doldursaq, bəlkə də, gələcək nəsilləri xəbərdar edib təhlükədən uzaqlaşdıra bilərik.

VII Gündəlik problemlərlə qarşılaşarkən bundan 100 min il sonrakı gələcəyi düşünmək asan deyil. Ancaq bu gün 25 deyil, 80 il yaşaya bildiyimizə görə atalarımıza, onların doğru addımlarına borcluyuq. Əgər biz də gələcək nəsillərə yaxşı əcdad olmaq istəyiriksə, sabahımızı bu gündən düşünməliyik.

391. Hansı fikirlərin yeri dəyişilsə, cədvəldəki *uyğunsuzluq* aradan qalxar?

Mətndə bu haqda məlumat var	*Mətndə bu haqda məlumat yoxdur*
1. Bəzi incəsənət nümunələri vasitəsilə gələcək nəsillərə mesaj ötürmək haqda düşünülür. 2. Radiasiya təhlükəsini xəbər verən xüsusi simvollar hazırlanır. 3. Simvollar öz əvvəlki mənasını itirə, yeni məna kəsb edə bilər.	4. Gələcək nəsillər inkişaf etmiş mədəniyyətə malik olarlarsa, radiasiya riskini ölçə bilər və bizim xəbərdarlığımıza ehtiyac qalmaz. 5. Uzun zaman kəsiyi – 100 min illər nəsillər arasındakı əlaqəni qıra bilər.

A) 1 ↔ 5 B) 3 ↔ 5 C) 2 ↔ 5
D) 1 ↔ 4 E) 2 ↔ 4

392. Mətnə əsasən hansı fikirləri əsaslandırmaq mümkündür?

1. 2035-ci ildə nüvə anbarlarının dolması ilə nüvə müəssisələri öz işini dayandıracaq.
2. Naqasakiyə nüvə silahının atılması Nobel mükafatı mərasiminin keçirilməsinə səbəb olmuşdur.
3. Qədim əcdadlarımız 250 min il bundan sonrakı nəsillərə mesaj ötürmüşlər.
4. Nüvə mərkəzlərində tullantıların təkrar istifadəsi təhlükənin miqdarını azaldır.
5. Bir ölkədə bir neçə nüvə mərkəzi fəaliyyət göstərə bilər.

A) 4, 5 B) 3, 5 C) 2, 4 D) 1, 2 E) 1, 3

393. Mətndə üzərində rəqəm yazılmış sözlərdən biri mətndəki mənasında işlədilmişdir:

A) 5 – Alimlər yeni elektron maşınlar yaradır.
B) 2 – Bu məlumat tez bir zamanda mətbuata sızacaq.
C) 3 – Onlar dərəyə enməmiş biz artıq çaya çatmışdıq.
D) 4 – Kiçik bacım məktəbdə ən fəal şagird sayılır.
E) 1 – Onu tarixə gömmək istəsələr də, bu mümkün olmadı.

Camscanner ilə skan edilib

394. Mətnin üslubu üçün səciyyəvi ***olmayan*** xüsusiyyət və ona uyğun nümunəni müəyyən edin.

A) Sözün məcazi mənasından istifadə; Müasir dövrdə 32 ölkədə 440-a qədər nüvə mərkəzi var.

B) Sözün terminoloji funksiyası; Nobel mükafatı mərasimi.

C) Obrazlı ifadələrdən istifadə; ... sənətin insanlar arasında mənəvi körpü olacağını söylədi.

D) Xalq dilinə yaxınlıq; Təxminən 2 faizi isə gələcək üçün təhlükəlidir.

E) Nitqin təbiiliyi, sərbəstliyi; Qədim yazılar, dillər bu gün anlaşıqlı deyil.

395. Mətnin tərkib hissələri ilə bağlı doğru fikri müəyyən edin.

A) Əsas hissəyə "Nüvə məkanlarını gələcək nəsillərdən necə gizlətməli?" başlığını vermək olar.

B) Nəticə hissəsində mətndəki hadisələrin ümumiləşdirilməsi deyil, bu hadisələrin səbəbi verilmişdir.

C) IV və VII abzasların yeri dəyişdirilsə, mətndəki fikirlərin ardıcıllığı bərpa olunar.

D) Giriş hissədə məntiqi əlaqəni pozan cümlə çıxarılmalıdır.

E) Altından xətt çəkilmiş cümlələr mətndən çıxarılsa, abzaslar arasındakı məzmun ardıcıllığı pozular.

396. Mətnə əsasən cədvəli tamamlayın.

Abzas	*Abzasa aid plan bəndi*	*Həmin abzasda ehtimal edilən fikir*
	Düşüncələrin dəyişilməsi	
VI		

397. Mətnə əsasən *"Mütəxəssislər radioaktiv tullantıların izolyasiyası haqqında düşünərkən geoloji şəraiti nəzərə almışlar"* fikrini əsaslandırın.

398. Mətnə əsasən cədvəli tamamlayın.

Müddəa	*Müddəanı təsdiq edən faktlar*
	1. Con Stounberq sənətin insanlar arasında mənəvi körpü olacağını söyləmişdi.
	2.

399. Hansı aforizmlərlə mətndəki fikirləri əlaqələndirmək olar? (√) Seçiminizi əsaslandırın.

1. İnsan gələcəkdə onu nələr gözlədiyini bilsəydi, həyatı dözülməz olardı. ☐
2. Sənət bütün cəmiyyətə xidmət edə bilər. ☐
3. Gələcəyi xilas edəcək yeganə şey bu gündür. ☐
4. Mənim bütün marağım gələcəkdədir, çünki həyatımın qalan hissəsini orada keçirəcəyəm. ☐

400. Mətndə çərçivədə verilmiş ifadəyə əsasən cədvəli doldurun.

Sözün mətndənkənar ifadə etdiyi mənası	*Həmin mənanın cümlə daxilində işlədilməsi*
1.	
2.	
3.	

Camscanner ilə skan edilib

Qəbul imtahanlarının modelinə uyğun mətn tapşırıqları

Sizə təqdim olunmuş mətnləri diqqətlə oxuyun və uyğun tapşırıqları yerinə yetirin.

Admiral qadın

Nyu-York şəhərində doğulan Qreys Hopper adlı qadın hərbçi, proqramçı idi.

7 yaşı olarkən Qreys bir gün saat mexanizmini öyrənmək üçün evdəki saatları söküb sındırır. Anası evdə sonuncu saatın qaldığını bildirəndən sonra Qreys əlini saxlayır. Qreysin bu marağı ömrünün sonuna kimi davam edir, maraqlı hesab etdiyi hər şeyi qurdalayıb yoxlayır.

Qreys admiral babasının yolu ilə gedərək İkinci Dünya müharibəsində hərbi dəniz qüvvələrində xidmət edir. Ona xüsusi layihə həvalə edilir. "Gəl Markla tanış ol", – deyirlər. ..... . "Mark" ilk kompüter olduğundan onu heç kim idarə edə bilmirdi. Qreys kompüteri tədqiq etməyə başladı. Onun "Mark" üçün yazdığı proqram sayəsində düşmənlərin gizli mesajlarının şifrəsi çözüldü.

Qreys bir neçə dəfə təqaüdə çıxmaq istəmiş, ancaq fövqəladə bacarıq sahibi olduğu üçün hər dəfə geri çağırılmış, nəhayət, babası kimi admiral olmuşdur.

1. Mətnə əsasən klasteri tamamlayın.



2. Mətndəki nöqtələrin yerinə uyğun gələn elə cümlə yazın ki, ilk kompüterlə qarşılaşmanın Qreysdə yaratdığı təəssürat ifadə edilmiş olsun.

3. Mətnlər əsasında Eyler-Venn diaqramındakı rəqəmlərin qarşısında uyğun fikirlər yazın.

Kompüter texnikası aşağıdakı mərhələlərdən keçmişdir:
I nəsil (1940-1959) – elektron lampalı kompüterlər.
II nəsil (1960-1969) – element bazası, əsasən, yarımkeçiricilərdən ibarət olan elektron hesablama maşınları.
III nəsil (1970-1985) – element bazalı mikroelektronika və inteqral sxemlərdən ibarət olan kompüterlər.



Bitkilər musiqidən təsirlənirmi?

Müasir dövrümüzdə insanların çox zaman təbiətlə iç-içə yaşaya bilmədikləri məlum faktdır. Təbiəti sevən insanlar gül dibçəklərini, çiçəkləri evə gətirməyə ehtiyac duyurlar. Çox vaxt evlərimizə gətirdiyimiz çiçəklərin tez solmasının qarşısını almaq haqqında düşünməli oluruq.

Çiçək yetişdirənlərin fikrinə görə, musiqi çiçəklərə müsbət təsir edir və onlar gec solur. Bəs bu fikir doğrudurmu? Elm adamları bu hadisəni araşdırmaq istəsələr də, bitkilərin beyni olmadığı üçün axtarışlar nəticəsiz qalmışdır. Elmi dəlillərə əsaslanan nəticə əldə edilməsə də, musiqinin bitkinin inkişafına təsir etdiyini söyləyən həvəskar tədqiqatçılar var. Onlar fərqli musiqilərin səsləndirildiyi şəraitlərdə eyni növdən olan bitkilər yetişdirir və həmin bitkilərin inkişafında ayrı-ayrı nəticələr əldə etdiklərini iddia edirlər.

Nəticə etibarilə bitkilərin də bir çox canlılar kimi çevrəsindəki səslər və musiqi ilə əlaqəsi olmadığı düşünülə bilərdi. Lakin elm adamlarının fərqli metodlara istinad edərək əldə etdikləri nəticələr bitkilərin də müxtəlif vəziyyətlərdə musiqidən təsirləndiyinin sübutudur. Bu həm də bəzi bitkilərin musiqi duyumu olan canlılarla ortaq xüsusiyyətlərə malik olduğunu düşünməyə əsas verir.

4. *"Mətndə 2 abzasın məzmunu bir-birilə ziddiyyət təşkil edir"* fikrinin doğruluğunu sübut edən abzasların ilk sözünü yazın və əsaslandırın.

5. Mətnə əsasən cədvəli doldurun.

Girişdə	
Səbəb	***Nəticə***
Əsas hissədə	
Səbəb	***Nəticə***

6. Mətnin II abzasındakı hansı sözlərin qarşılığı III abzasda işlənmişdir? Həmin sözləri və qarşılıqlarını müəyyən edib cədvəli doldurun.

	II abzasda işlənmiş söz	***Həmin sözün III abzasdakı qarşılığı***
1		
2		
3		
4		

Camscanner ilə skan edilib

Bitkilərin qışda tənəffüs etməsi

Bitkilərdə tənəffüs orqanının yarpaqlar olduğunu bilirik. Fotosintez prosesi yarpaqlar sayəsində həyata keçirilir və bitki yaşaya bilir. Buna baxmayaraq, qışda yarpaqlarını tökən bitkilər də yaşamlarını davam etdirə bilir. Bəs necə olur ki, bitkilər tənəffüs orqanlarını qışda itirsə də, canlı qala bilir? Bitkilər qışdan salamat çıxmaq üçün müəyyən proseslərdən keçir.

Yarpağını tökən bitkilər qışda ..... həyata keçirə bilməz, çünki bunun üçün yarpaqlardakı xlorofillərə ..... vardır. Buna görə də bitkilər isti havalarda yarpaqları hələ tökülməmişdən bol-bol qida yığıb saxlayır. Yığılan bu qida nişastadır. Qış gəldikdə hər bitki yaşamını davam edə bilmək üçün saxladığı nişastanı oksigenlə yandırır və beləliklə, enerji əldə edir.

7. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəb	*Nəticə*
1.	3. Fotosintez prosesi baş vermir.
2.	4.

8. Mətnin məzmununa əsaslanmaqla fərqləndirilmiş (kursivlə yazılmış) hissədə nöqtələrin yerinə uyğun ifadələr əlavə edib cümləni yenidən yazın.

9. Mətnin tərkibində müxtəlif üslublara aid nümunələrin olduğunu əsaslandıran ən azı 2 nümunə (söz birləşməsi, yaxud cümlə) yazmaqla sxemi tamamlayan fikirlər yazın.



Qış yuxusuna gedən heyvanların qidalanması

Bir çox heyvanlar qış yuxusuna gedir. Bu bizə təəccüblü görünsə də, bu heyvanlar qış boyu yataraq həyatlarının həmin müddətini, bir növ, yaşamamış olurlar. Canlıların qidaya, suya ehtiyacını nəzərə alsaq, aylarla yatmaq fikri bizə qəribə görünə bilər. Bəs bu heyvanlar qış yuxusu zamanı necə qidalana bilir? Qışdan əvvəl heyvanlar çoxlu miqdarda yağları bədənlərinə toplayaraq qışa hazırlaşırlar. Bu, sonradan onlara enerji əldə etməyə kömək edir.

Qış yuxusuna gedən heyvanlar qidalanmır. Bədən temperaturu, ürək ritmi kimi həyati funksiyalarını zəiflədərək enerji sərfiyyatını azaldırlar. *..... minimum miqdarda enerjini isə əvvəlcədən bədənlərinə topladıqları yağları yandıraraq .....* . Bu da onları qış boyu yatdıqları müddət üçün lazım olan enerji ilə təmin edir.

10. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəb	*Nəticə*
1.	3.
2. Heyvan orqanizmi əvvəlcədən toplanılan yağı yandırır.	4.

11. Mətnin məzmununa əsaslanaraq fərqləndirilmiş hissədə nöqtələrin yerinə uyğun ifadələr əlavə edib cümləni yenidən yazın.

12. Mətnin birinci abzasına əsasən müəyyən edib yazın. (✓)

1. ☐ Ədəbi dilin norması(ları) pozulub.
2. ☐ Ədəbi dilin norması pozulmayıb.

Çünki _____

Camscanner ilə skan edilib

Parisdəki insanlar

1912-ci ildə Parisdən qayıdan Hacı Zeynalabdin Tağıyev "Bakı" qəzetinin müxbirinə başına gələn maraqlı bir əhvalatı danışır:

– Parisdə faytonda gedirdim. Sağa burulmaq lazım idi, faytonçu isə səhvən sola döndü. Çətirin ucu ilə onun kürəyinə toxunub dedim:

– Sağa dön.

Bu vaxt faytonçu qəzəblənmiş halda yerə atılıb qollarını ölçə-ölçə qışqırmağa, nə isə deməyə başladı.

– Ona nə oldu? – deyə mən tərcüməçidən soruşdum.

Tərcüməçi dedi:

– Qəzəblənib ki, nə cəsarətlə çətirlə onun kürəyinə toxunmuşsunuz? Bununla o özünü təhqir olunmuş, alçaldılmış hesab edib.

Əvvəl təəccübləndim, sonra isə hər şeyi başa düşdüm. Fikirləşdim ki, bizdə də Parisdəki kimi ..... həyat başqa cür ola bilər.

13. Mətnin məzmununa əsaslanaraq nöqtələrin yerinə uyğun olan fikri əlavə etməklə cümləni yenidən yazın.

14. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəb	*Nəticə*
H.Z. Tağıyev Parisdə maraqlı hadisə ilə qarşılaşır.	
	Faytonçu özündən çıxır.

15. Mətnin məzmununa uyğun fikri seçin (✓) və seçiminizi əsaslandırın.

☐ Hər kəsin öz ləyaqətini müdafiə etmək hüququ var.

☐ Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur.

☐ Hər kəs dövlətin qayda-qanunlarına əməl etməlidir.

☐ Hadisələrə münasibətlər bütün ölkələrdə eyni cür olur.

Əsaslandırma _____

Yuxu necə yaranır?

Yuxu insan bədəninin istirahət vəziyyətidir. Yuxusuz insanların iş qabiliyyətinin azalması, sinir sistemindəki pozğunluq yuxunun beyindən idarə edildiyinin göstəricisidir. Bəs yuxu zamanı insan orqanizmində hansı proseslər gedir?

Bədənin hər orqanı yuxuya özünəməxsus şəkildə reaksiya verir. Yuxu zamanı təkcə əzələlərin işi dayanmır, beyinin bir qismi də fəaliyyətdən qalır. Tənəffüs və qan dövranının fəaliyyətinin zəifləməsi, qan təzyiqinin aşağı düşməsi, bədənin istiliyinin azalması müşahidə olunur.

Bəzi insanlara bir neçə saatlıq yuxu kifayət etdiyi halda, digərlərində ancaq səkkiz saatlıq yuxu tələbatı ödəyir. Yuxu müddəti bütün insanlarda eynidir. Normal sinir sisteminə malik insanlarda yuxu ilk iki saatda ən dərin həddə çatır. Şirin yuxu insanı öz qoynuna alaraq ənginliklərə aparır və hər şeyi unutdurur.

Yorğun beyin yuxu nəticəsində dincəlir, amma yorğun insanın istədiyi vaxt dərhal yuxuya getməsi mümkün olmaya da bilər. Dərin yuxuya getmək üçün seçilən məkanda sakitliyin olması, işıqların söndürülməsi, beyindəki yorucu fikir və düşüncələrin uzaqlaşdırılması vacib amillərdəndir.

16. Mətnə əsasən klasteri tamamlayan fikirlər yazın.

Beyni yorğun adamın yuxuya getməsi üçün problem yarada bilər:

17. Üçüncü abzasda üslubca mətnə uyğun olsa da, məzmunca uyğun ***olmayan*** cümlə işlənmişdir. Həmin cümləni müəyyən edin və qarşısında ***uyğunsuzluğun*** səbəbini yazın.

18. Altından xətt çəkilmiş cümləyə əsasən sxemi tamamlayın (✓) və seçiminizi əsaslandırın.

Ritorik sualdır.	☐
Ritorik sual deyil.	☐

Əsaslandırma _____

Camscanner ilə skan edilib

İnsan niyə yaşlanır?

İnsan bədənindəki hüceyrələrin yeddi ildən bir yeniləndiyi elm aləminə məlumdur. Bəs insan nə üçün yaşlanır?

Müasir dövrdə insanların cavan qalmaq istəyi müxtəlif vasitələrlə tamamilə həll olunub. Kosmetik vasitələr, təbabət və sağlamlıq mərkəzləri gənc qalmaq istəyənlərə daim ümid versə də, insanların yaşlanması qaçılmazdır. Yaşlanmaq fırtınalı həyatın limanıdır.

Δ Yaşlanma insan doğulduğu andan bədənin "proqramlaşdırılmış" fəaliyyətidir. Bu, hormonların qarşılıqlı təsiri nəticəsində baş verir. DNT-də baş verən müəyyən proseslər yaşlanmaya bilavasitə təsir edir. Bəs vaxtından tez qocalmanın səbəbi nədir?

Yağlı qida qəbulu, maddələr mübadiləsinin pozulması, artıq çəki yaşlanmanı sürətləndirən amillərdəndir. Hüceyrələrin fəaliyyətinə zərərli təsir edən hər bir maddə: alkoqol, tütün, radioaktiv maddələr və digər zərərli vərdişlər həm birbaşa, həm də immun sistemini zəiflətməklə yaşlanmaya təsir edir. Hər kəs orqanizminə düzgün qulluq göstərməklə və faydalı qida qəbul etməklə vaxtsız yaşlanmanın qarşısını ala bilər.

19. Mətnin əsas hissəsi əsasında cədvəldəki boş hissələrə uyğun fikirlər yazın.

Təkmilləşdirilməsinə ehtiyac olan cümlənin ilk sözünü yazın.	
Təkmilləşdirilməyə ehtiyacın səbəbi.	
Cümlənin təkmilləşdirilmiş forması.	

20. Mətnə əsasən vaxtsız yaşlanmanın qarşısını ala bilər:

21. Qarşısında Δ işarəsi qoyulmuş abzasda hansı sözlər bir-biri ilə (forması dəyişə bilər) əvəz edilsə, mətnin məzmununa təsir *etməz*?

Kompüterlərin inkişaf tarixindən

İnformatikanın tarixi kompüterlərin yaranması və inkişaf mərhələlərini, təsnifatını, aparat və proqram vasitələrini əhatə etdiyinə görə inkişaf tarixi də kompüter texnikasının inkişaf tarixinə uyğundur. "Kompüter" ingilis sözü olub, hesablayıcı deməkdir.

Bu sözdən əvvəl "hesablama maşını", "elektron hesablama maşını" kimi ifadələrdən istismar olunurdu. Müasir elektron hesablama maşınları – kompüterlər hərtərəfli quruluşa malik qurğular kompleksidir. Həmin maşınlar əvvəlcədən istehsal olunmuş xüsusi proqramlar əsasında müxtəlif informasiya proseslərini yerinə yetirir.

Bu proseslər məlumatların daxil edilməsi, işlənməsi, mühafizəsi və istifadəsindən ibarətdir. Bir sıra elektron hesablama aparatları model quruluşa malik olduğu üçün belə çoxsaylı qurğular informasiyanın emalı prosesini tez və rahat həyata keçirir, hesablamanın tezliyini artırır.

22. Mətndə çərçivə daxilində verilmiş hissədə yerinə görə düzgün işlənməyən sözlər vardır. Həmin sözləri düzəltməklə cümlələri yenidən yazın.

23. Mətnə əsasən cədvəli tamamlayan fikirlər yazın.

Səbəb	*Nəticə*
Bir sıra elektron hesablama aparatları model quruluşa malikdir.	

24. Verilmiş cümləni hansı sözlə başlayan cümlənin əvvəlinə artırmaq olar?

"Hesablama maşınları yarandığı dövrdən günümüzədək böyük inkişaf yolu keçmişdir".

CamScanner ilə skan edilib

İnsan və təbiət

Təbii şərait ətraf mühitin xassələrinin məcmusu kimi başa düşülür. Təbii şərait təsərrüfatın bütün sahələrinə, insanın həyat şəraitinə müxtəlif dərəcədə müsbət və ya mənfi təsir göstərir. O, tarixən insan fəaliyyətinin təsirinə məruz qalır və dəyişir.

İnsan öz xeyri üçün ... . İnsan səhra və yarımsəhralara su çəkir, yeni meşələr salır. İnsanların texniki imkanları artır, beləliklə, təbii şəraitin dəyişməsi də cəldləşir. Antropogen fəaliyyət nəticəsində təbiətdə müxtəlif dəyişikliklər baş verir. Meşələrin məhv edilməsi, süni göllərin yaradılması, yolların və kanalların tikilməsi – bunların hamısı yer səthinin landşaftını dəyişir. Atmosferdə istilik effekti yaradan toz və qazların toplanması qlobal istiləşməyə səbəb olur. Qlobal istiləşmə də təbiətdə iqlim dəyişikliyinə yol açan əsas vəzifələrdən biridir.

25. Nöqtələrin yerinə "təbiət" sözündən istifadə etməklə elə fikir yazın ki, mətnin tərkib hissələri arasında əlaqə bərpa olunsun.

26. Hansı cümlələrdə üslubi baxımdan səhv işlənmiş söz vardır? Həmin sözə əsasən cədvəli doldurun.

Üslubi baxımdan səhv söz	*Həmin sözün işləndiyi cümlənin düzəliş edilmiş yeni forması*

27. Mətnə əsasən cədvəli tamamlayan fikirləri yazın.

Səbəb	*Nəticə*
İnsan səhra və yarımsəhralara su çəkir, yeni meşələr salır.	
	Qlobal istiləşmə baş verir.

Adı Avropa tarixinə qızıl hərflərlə yazılan türk sərkərdəsi

(1) Attila Böyük Hun imperatoru olmuşdur. (2) O, cəsur bir döyüşçü, heç nədən qorxmayan komandir idi.

(3) Hökmdarlığı boyunca bəzi dövlətləri ona vergi ödəməyə tabe etmişdir.

(4) Tez-tez Roma imperatorluğuna səfər təşkil edən Attila bəzi Bizans qaynaqlarında mərhəmətsiz hökmdar kimi xatırlanır.

(5) Attila türkün tarixində qəhrəmanlıq epopeyası yaratdı və Altay dağlarından başlanan böyük xalqlar köçünü başa çatdırdı.

(6) Attila 8 il ərzində Avropada böyük işlər həyata keçirmiş, müqəddəratı öz xalqının mənafeyi naminə dünyaya hökmranlıq etmək olmuşdur. (7) O, Avropanın qapılarını türkün üzünə açdı. Türkün nəyə qadir olduğunu: qüdrətini, mədəniyyətini Avropaya çatdırdı. Attila Avropa xalqlarına azadlığın nə olduğunu da anlatdı. Zülm içində boğulan xalqlar Attilaya qoşuldular. Avropalılar Attilanı "Tanrının pisliklər üzərinə enən qırmancı" adlandırmışdılar.

28. Əvvəlində rəqəm yazılmış cümlələrə əsasən məna baxımından uyğun ***olmayan*** ifadələri və onların düzgün formasını qeyd edin.

29. "*Avropalıların Attilaya münasibəti ziddiyyətli olmuşdur*" fikrini mətnə görə əsaslandırın.

Bir tərəfdən ..... .

Digər tərəfdən ..... .

30. Mətnə əsasən cədvəli tamamlayan fikirləri yazın.

Səbəb	*Nəticə*
Attila avropalılara azadlığın nə olduğunu anlatdı.	
	Avropanın qapılarını türkün üzünə açdı.

CamScanner ile skan edilib

Kəlağayı

Kəlağayı istehsalı Azərbaycanda qədimdən məlumdur. Bəzi mənbələrdə qeyd edildiyinə görə, qadınların müasir kəlağayılara bənzər baş örtüyü eramızdan əvvəl VI-V əsrlərdə İran şahı I Daranın zamanında saray qadınları arasında geniş yayılmışdı.

Orta əsrlərdə Azərbaycan ərazilərində kəlağayı düzəldən kiçik müəssisələr mövcud olmuşdur. 1784-cü ilə aid tarixi məlumatlarda isə qeyd edilir ki, Şirvandan başqa ölkələrə göndərilən 400 tona qədər ipək və kəlağayının mühüm bir hissəsi İsmayıllı rayonunun Basqal kəndinin payına düşmüşdür.

1862-ci ildə Azərbaycandan ilk dəfə olaraq Londonda keçirilən ümumdünya sərgisində iştirak edən basqallı toxucu Nəsir Abduləziz oğlu nümayiş etdirdiyi nəfis kəlağayı və zərif qanovuz parçaya görə gümüş medal və xüsusi diplomla mükafatlandırılıb.

Bu nəfis baş örtüyünün üzərinə orta əsrlərdə buta formasında naxışlar vurulur, bu da istehsalçının möhürü rolunu oynayırdı. Bu möhürlər istehsalçı tərəfindən sağ qolunu yumruq halında təbii boyaya saldıqdan sonra kəlağayının üstünə vurulurdu və həmin yumruq izindən kəlağayının ..... bilinirdi. Kəlağayıların üzərinə yumruqla vurulan buta forması zaman keçdikcə formalaşaraq təkmilləşdirilmiş və ənənə halını almışdır.

31. Altından xətt çəkilmiş cümləyə üslubi düzəliş etməklə cümləni yenidən yazın.

32. *Azərbaycan kəlağayıları ölkəmizin hüdudlarından kənarda da şöhrət tapmışdır* fikrini mətndən 2 fakt yazmaqla əsaslandırın.

33. Nöqtələrin yerinə məntiqi əlaqəni gözləməklə cümləni tamamlayan fikir yazın.

Gözləri necə qorumaq olar?

Göz görmə funksiyasını təmin edən duyğu orqanıdır. Gözlərimiz daim müxtəlif xarici təsirlərə məruz qalır. Göz xəstəlikləri bəzən irsi xarakter daşısa da, kompüter, smartfon, televizor və s. cihazların gündəlik istifadə edildiyi dövrdə onların gözlərimizə vurduğu zərər problemi daha da aktuallaşır.

Mütəxəssislər qeyd edir ki, kompüterlə işləyərkən gözlərimizdə problemlər yaşanmaması üçün 30-40 dəqiqədən bir kompüterdən ayrılmaq və pəncərə qarşısında dayanıb uzaq məsafələrə baxmaq lazımdır. Planşetdən və smartfondan uzanmış vəziyyətdə istifadə etmək, kompüterdən istifadə zamanı beli əymək zərərlidir.

İşlədiyiniz otaqda mühit işıqlandırılması düzgün qurulmalıdır. Qaranlıq otaqda kompüterə, televizora baxmaq gözlərə daha çox zərər verir.

▲Gözlərin görmə qabiliyyətini artırmaq üçün A vitamini qəbul etmək lazımdır. Bəzi başqa vitaminlərin çatışmaması da göz xəstəliklərinə səbəb olur. Lakin normadan çox vitamin qəbulunun da orqanizmdə fəsadları olur. Məsələn, A vitamininin azlığı ürəkbulanma, yuxululuq, başağrısı kimi hallara səbəb ola bilər. Buna görə də vitamin qəbulu zamanı həkimlə məsləhətləşmək lazımdır.

Görməni mühafizə etmək və yaxşılaşdırmaq üçün əsas təbii metod onu yorulmaqdan qorumaq, daim rahat halda saxlamaqdır.

Həyatın gözəlliklərini monitorda deyil, elə həyatın özündə izləmək daha faydalıdır.

34. Mətnin giriş və əsas hissələri arasında əlaqəni bərpa edən bir cümlə yazın.

35. Mətnə əsasən cədvəli tamamlayan fikirlər yazın.

Səbəb	*Nəticə*
İrsi amillər rol oynayır.	

36. Əvvəlində ▲ işarəsi qoyulmuş abzasda abzasın məzmununa zidd olan cümləni müəyyən edib lazımi düzəliş aparmaqla yenidən yazın.

Göyqurşağı necə yaranır?

İnsan hadisələrini anlamağa çalışmış və ilk zamanlar bu hadisələrin səbəbini başa düşməmiş, mifoloji qüvvələrlə əlaqələndirmişdir. Göyqurşağının yaranması da keçmişdə ağlasığmaz hadisələrə bağlansa da, əslində, meteoroloji hadisədir. Göyqurşağı nə möcüzəvi bir körpü, nə də altından keçilən halqadır.

Göyqurşağı günəş şüalarının yağış damlaları və duman tərəfindən qırılması, əks etdirilməsi nəticəsində meydana gəlir. Təbiətdə bu cür hallar həmişə baş verə bilər. Böyük damlalardan yaranan **qurşaqlar** daha nəzərəçarpan olur. Kiçik yağış damlaları isə daha tutqun, ancaq həcmli göyqurşağı yaradır. Həqiqətən də, bir balaca boyu var, dam dolusu toyu var.

Yağış damlalarının davamlı surətdə yerini dəyişməsi göyqurşağının görünüşündə dəyişiklik yaradır. Günəşin olduğu bucağa görə göyqurşağı dairəsinin mövqeyi dəyişir. Günəş yüksəldikcə göyqurşağı aşağı enir.

İnsanın əvvəllər qarşısında aciz qaldığı təbiətlə bağlı bir çox sualın cavabı müasir dövrdə elmi şəkildə öz izahını tapmışdır.

37. Mətnə əsasən klasteri tamamlaya bilən fikirlər yazın.

Göyqurşağının görünüşünə təsir edir: _____ _____ _____

38. Mətn və cədvəl əsasında müəyyən edib (✓) yazın.

	Doğru-dur	*Yanlış-dır*	*Əsaslandırma*
Bütün dövrlərdə haqqında söhbət gedən təbiət hadisəsinə insanların münasibəti eyni olmuşdur.			
Giriş və əsas hissələrdə bir-birinə zidd fikirlər ifadə olunub.			
Mətnin məzmunu ilə əlaqələnən, üslubi cəhətdən fərqli olan cümlədən də istifadə edilib.			

39. Mətndə tünd-qara hərflərlə verilmiş sözün üslubi funksiyası əsasında sxemi tamamlayın. (✓)

Poetik funksiya daşıyır.	☐
İnformativ funksiya daşıyır.	☐
Terminoloji funksiya daşıyır.	☐

Həmin sözü ayrı-ayrı cümlələrdə elə işlədib yazın ki, mətndəkindən və bir-birindən fərqli funksiyalar (informativdirsə, terminoloji və poetik, yaxud da əksinə) daşısın.

Dünyada 24 saat internet olmasa, nə baş verər?

Cəmi 15-20 il əvvəl çoxlarımız internetin nə olduğunu bilmirdik. Ancaq internet həyatımıza elə sürətlə *nüfuz etdi*[1] ki, bütün sosial, iş həyatımızın onunla idarə olunduğunun fərqinə vardıq. Bəs bir gün səhər yuxudan oyandığımız vaxt heç bir yerdə internetin olmadığını bilsək, nələr baş verər?

Mütəxəssislərin fikrinə görə, günümüzdə bircə günlük internetin olmaması böyük *xaosa*[2] səbəb ola bilər. İlk növbədə, telefon xətlərinin yüklənməsi və sıradan çıxması mümkündür. Əksər müəssisələrdə görülən işlər internetdən asılı olduğu üçün belə müəssisələrin fəaliyyəti, demək olar ki, iflic olacaq. Böyük şəhərlərdə avtomobil tıxacları, bankların, marketlərin qarşısında növbələr, kart ödənişləri, bankomat fəaliyyəti mümkün olmadığından nağd pul çatışmazlığı, ərzaq qıtlığı, nə baş verdiyini bilməyən insanların həyəcanı... Şirkətlər milyonlarla pul itirəcək və birjalar qapanacaq. Hava limanlarının, qatarların, uzaq yola çıxan bərələrin hərəkəti mümkün olmayacaq.

Beləliklə, bir neçə il əvvəl heç ehtiyac hiss etmədiyimiz halda, günümüzdə həyatımızın bir çox sahələrinin internetdən asılı olduğu və cəmi bir günlük bağlanmasının insanların həyatında böyük fəsadlara səbəb olacağı qənaətinə gəlmiş oluruq.

40. Üzərində rəqəm yazılmış ifadələrin hər birinin ən azı iki qarşılığını müəyyən edib yazın.

41. Altından xətt çəkilmiş cümlənin üslubi baxımdan düzəlişə ehtiyacı olub-olmadığını yazın. Fikrinizi əsaslandırın.

42. Fikirlərin doğru və ya yanlış olduğunu mətnə görə əsaslandırın.

1 Elmi-texniki tərəqqidən söhbət gedir, fikir elmi üslubda ifadə olunur. _____ _____

2 İfadə olunan fikirlər məişətlə əlaqələndirilmir, mətn təhkiyəyə əsaslanır. _____ _____

3 Səbəbinin məlum olduğu psixoloji gərginlikdən, məlumat çatışmazlığından söhbət gedir, qəzet (jurnal) dilinə uyğundur. _____ _____

CamScanner ilə skan edilib

Ən uzun heyvan hansıdır?

Maraqlıdır ki, planetimizdə ən uzun heyvanların əksəriyyəti dənizdə yaşayır.

Amerikanın məşhur jurnallarından biri məktəblilər arasında sorğu keçirib. "Dünyanın ən uzun heyvanı hansıdır?" suallına üç cavab variantı təklif olunub: mavi balina, meduza, kortumlu sovulcan. Məktəblilərin çoxu balina, bəziləri isə meduza variantına [1]. Halbuki kortumlu sovulcan mavi balinadan 2 dəfə, meduzadan isə təxminən 1,6 dəfə uzun olur. Onun uzunluğu bəzi hallarda 60 metrə çatır. Təsəvvür edin ki, bu, futbol meydançasının yarıdan çoxuna bərabərdir.

Kortumlu sovulcan dəniz və okeanlarda [2]. Alimlər onun təxminən 500 milyon il yaşadığını güman edirlər. Kortumlu sovulcanın belə uzunömürlülüyü onun güclü müdafiə sisteminə malik olması ilə bağlıdır. Təhlükə ilə üzləşəndə bu sovulcan bədən gövdəsini yapışqan maye ifraz edir. Bu yapışqanı düşməni yerdən qoparmaq hədəfdən artıq çətindir. Həmin mayedən insanın əlinə bir damcı düşsə, o bu qoxudan aylarla birə gələ bilməz.

Bu sovulcan zəhərli qarmaqcıqları olan kortumu ilə narçəngləri tutur və onlarla qidalanır. O, asanlıqla bədənini kiçik hissələrə bölə bilir və hər hissədən yeni sovulcan yaranır.

43. Mətndən cədvəldəki fikirləri təsdiq edən faktları seçib yazın.

Fikir	Fikri təsdiq edən fakt
1. Kortumlu sovulcan yırtıcıdır.	
2. Məktəblilər öz seçimlərində yanılmışdılar.	
3. Bir çox uzun heyvanlar sudə yaşayır.	
4. Kortumlu sovulcan sudə və nəmgil yerlə qoşalır	

44. Mətnə əsasən cədvəli tamamlayın.

Səbəbi	Fikir	Nəticəsi
	Kortumlu sovulcan kəskin qoxulu yapışqan maye ifraz edir.	

45. Mətndəki boş xanaların yerinə uyğun olan müvafiq sözləri yazın.

Bir vulkan dəlinsə, nə baş verər?

Vulkan yer qabığındakı tektonik çatlar və kanallar üzərində əmələ gələn, dərin maqma *ocaq*larından təbii lava, qaynar qaz püskürən geoloji törəmədir. Yerin dərinliyində meydana gəldiyindən onların tərkibini tam öyrənmək mümkün olmamışdır. Son illər bəzi geoloqlar vulkanların dəlinməsi təklifi ilə çıxış edirlər.

Mütəxəssislər vulkanları dəlməklə onun mərkəzi qatlarını öyrənməyin yaxın zamanlarda reallaşacağını fikirləşirlər. Digər layihənin tərəfdarları isə vulkanın dərinliklərinə doğru 6 km-lik dəlik açmaq və içərisinə təzyiqlə soyuq su vurmaq, bununla həm vulkanı soyutmaq, həm də təbii enerji əldə etmək istəyirlər. Belə ki, onlar vulkanın dərin qatlarında dövr etdirilən suyun temperaturunun təqribən 3500°C olacağı və böyük miqdarda elektrik enerjisi verən stansiya qurmaq xəyalının gerçəkləşəcəyi fikrindədirlər.

Bəzi ölkələr yerin dərinliyinə doğru müəyyən bir hüduda qədər su isitmə sistemi tətbiq etməklə maqmanın istiliyindən enerji istehsal edir. Lakin müəyyən sərhədi keçmək yüksək partlayışla nəticələnə bilər. Belə partlayışın dünyada iqlim dəyişikliyinə səbəb ola biləcəyi düşünülür.

Vulkanın maqma qatını su ilə soyutmaq da təhlükəlidir. Bu, maqmanın üst hissəsində yerləşən qatın daha kövrək hala gəlməsinə və çökməsinə şərait yarada bilər.

46. Mətndə tünd-qara hərflərlə verilmiş sözü mətndənkənar cümlə daxilində poetik (I) və informativ (II) funksiyada işlədərək yazın.

47. Mətndə altından xətt çəkilmiş cümləyə əsasən sxemi tamamlayın (✓) və seçiminizi əsaslandıran ən azı iki cümlə yazın.

Cümlədəki fikri → fakt hesab etmək olar. ☐
→ fərziyyə hesab etmək olar. ☐

48. Mətnin giriş və əsas hissələrinə aid hər bir abzasda mənaca bir-birini əvəz edə bilən ifadələri müəyyən edərək müvafiq xanalara yazın.

Ən dözümlü səyahətçilər

Günəş sistemindən kənara kosmik səfər etmək... Ağlasığmaz təsir bağışlasa da, artıq 2022-ci ildən alimlər bu istiqamətdə çalışmalara başlamışlar. Onlar çox isti və ya çox soyuq ola biləcək qalaktikalara kosmik obyekt göndərməyi, hətta bu kosmik obyektə canlı səyahətçi yerləşdirməyi də düşünürlər.

Amerikada Santa Barbara Universitetinin bir qrup alimi "İnterstellar", yəni "qalaktikalararası bioloji səyahət" mövzusunda bir layihə hazırlamışdır. Onlar ən yaxın qalaktikaya 20 ilə getməyin mümkün olacağını düşünürlər. Lakin işıq ili ilə ölçülən uzaq məsafələri qət etmək üçün yeni bir texnologiya tətbiq etmək vacibdir. Buna görə də "İnterstellar" layihəsinin yaradıcıları çox güclü bir lazerlə kosmik obyektin sürətini işıq sürətinin beşdə birinə çatdırmağı düşünürlər. Təbii ki, bu sürətdəki obyektin və həmin obyektlə kosmosa göndəriləcək canlının ölçüsü böyük ola bilməz. Bəs hansı canlı belə bir səyahətə davam gətirə bilər?

Tardiqrat və ya su ayıları adlandırılan 0,5 mm-lik canlılar. Onlar $+150^0$ C istiliyə, -272^0 C soyuğa davam gətirə bilirlər. Üstəlik, əlverişsiz vəziyyətdə 10 illərlə yuxu rejiminə keçib normal həyat şəraiti yarandıqda yenidən canlanmağı, çoxalmağı bacarırlar. Beləliklə, ilk qalaktikalararası səyahətə məhz tardiqratların göndərilməsi məntiqlidir.

49. Mətnə əsasən cədvələ uyğun fikirlər yazın.

Qarşıya qoyulan plan (məqsəd)	*Proqnoz*

50. Mətnə əsasən sxemi tamamlayın (✓). Fikrinizi əsaslandırın.

Mətn ☐ elmi üslubdadır.
☐ publisistik üslubdadır.

51. Mətnə əsasən tardiqratların və qalaktikalararası səyahətin xüsusiyyətlərini nəzərə almaqla cədvəldəki nöqtələrin yerinə uyğun fikirlər yazın.

Tardiqratlar (su ayıları) kosmik səyahətə uyğundur:		
İstifadəsi nəzərdə tutulmuş canlı varlıqların ölçüsü baxımından	*Səyahətin müddəti baxımından*	*... baxımından*
...	...	*Kosmik fəzadakı cismin temperaturu canlı həyat üçün əlverişsiz ola bilir, ya çox yüksək, ya da çox aşağı temperatur yaranır. Tardiqratlar (su ayıları) isə çox yüksək və çox aşağı temperatura dözüm göstərə bilirlər.*

"Mən azadam"

Bəzən insanların kitaba münasibəti onun bestseller olub-olmamasından asılı olur: daha çox satılan kitab həm də daha dəyərli hesab olunur.

1950-ci ildə Nyu Yorkdakı WOR radio kanalının aparıcısı "hər şeyi bildiyini" iddia edən belə insanlara bir dərs vermək qərarına gəlir. Gecə verilişində dinləyicilərinə müraciət edir: "Sabah səhər hamımız kitab mağazasına gedib olmayan bir kitabı istəyək".

Sabahısı bir alıcı şəhərdəki bir kitab mağazasına daxil olub Fridrix Yuinqin "Mən azadam" romanını soruşur. Kitabxanaçı onlarda belə roman olmadığını deyir. İkinci alıcı eyni kitabı soruşanda satıcı istər-istəməz siyahıya baxır. Üçüncü, dördüncü şəxslər kitabı soruşanda isə artıq naşirləri axtarmağa başlayır.

Ölkədə həmin kitab haqqında söz-söhbət yayılmağa başlayır. Bir gün "New York Times" qəzeti "Yeni nəşrlər" rubrikasında bu kitabın adını çəkir. Təbii ki, kitabın mövzusunu hələ onlar da bilmirdilər. Amma hadisələrin dinamikası "çoxbilmişlər" üçün yetərli olur. Bunlardan birinə kitab haqqında sual verildikdə: "Yuinq! Xalqın bu adamı kəşf etməsinin vaxtı gəlmişdi", – deyir. Bu romanının kitab klublarında oxunmağa başladığını deyənlər də, bəyənmədiyini deyənlər də ortaya çıxır.

Bir gün bir jurnalist bu kitabı tapmaq qərarına gəlir. O, mövzunun həmin radio verilişdən qaynaqlandığını və belə bir kitabın, əslində, mövcud olmadığını üzə çıxarır.

52. Mətnin nəticə hissəsini genişləndirib tamamlamaq üçün elə bir cümlə yazın ki, həm də mətndən çıxan nəticəni ifadə etsin.

53. Mətndə haqqında danışılan jurnalisti hadisələrə münasibətdə digər cəmiyyət üzvlərindən fərqləndirən ən azı iki fikir yazın.

54. Mətndə və nümunədə çərçivədə verilmiş sözlərə əsasən cədvəli tamamlayın.

Roman fransız sözü olub, həcmcə böyük, adətən, nəsrlə yazılan böyük hekayə deməkdir.

Sözün mətndəki üslubi funksiyası	*Sözün nümunədəki üslubi funksiyası*

Camscanner ilə skan edilib

Öyrənmə

Öyrənmə, bəlkə də, həyatda əldə edə biləcəyimiz ən lazımlı bacarıqdır. Bəs uğurlu öyrənmənin sirri nədədir?

Stenford Universitetinin professoru Kandas Tilə görə, oxuyarkən vacib fikirlərin altından xətt çəkmək vərdişi, sadəcə, zaman itkisidir. Həmin bilikləri öz sözlərimizlə ifadə edib yazmaq daha effektivdir. O, çətin mövzulardan qaçmağın yanlış olduğunu və öyrənmənin, əslində, bu mübarizə prosesində çətinliklə gerçəkləşdiyini deyir.

Görkəmli Amerika fiziki Riçard Feynmanın hələ tələbəlik illərindən formalaşdırmağa başladığı öyrənmə texnikası isə dörd addımdan ibarətdir:

1. Lazımi mövzunu seçərək öyrənməyə başla və vacib fikirləri bir dəftərə qeyd et.

2. Qeydlər apararkən mövzunu başqasına izah edəcəkmiş kimi mümkün qədər sadə fikirlərlə ifadə etməyə çalış.

3. Bu zaman mövzuda çatışmazlığın olduğunu görəcəksən. Bu boşluqları doldurmaq üçün əlavə mənbələrə üz tut. Mövzunu qüsursuz şəkildə izah edə bilənə qədər çalışmaları təkrarla.

4. Mövzunu izah edərkən analoji nümunələr, misallar göstər.

Beləliklə, Feynmanın öyrənmə texnologiyasını ümumiləşdirsək, "....." şüarı ortaya çıxar. Burada söhbət hər hansı professional öyrətmə prosesindən – müəllimlikdən getmir. Öyrəndiklərinizi, sadəcə, dostunuza izah etmək də kifayətdir.

55. Mətnə görə sxemi tamamlayan fikirlər yazın (✓). Fikrinizi əsaslandırın.

Kandas Tilin və Riçard Feynmanın fikirləri arasında
- ☐ ziddiyyət var
- ☐ uyğunluq var

56. Sonuncu abzasdakı fikirlərə və Feynman texnologiyasının xüsusiyyətlərinə əsaslanmaqla mətndəki nöqtələrin yerinə uyğun cümlə yazın.

57. Mətnlərin üslubi xüsusiyyətləri əsasında cədvəli tamamlayan fikirlər yazın.

"Öyrənmə" mətni	***Maddə 42. Təhsil hüququ*** ***I Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.*** ***II Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.*** ***III Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.***
1. 2.	1. 2.
Oxşar cəhətləri:	
1.	

Günəş saatı

Qədim dövrlərdə zamanı ölçməyə çalışan ayrı-ayrı xalqlar müxtəlif üsullardan istifadə ediblər. Ən qədim saat Günəş saatı hesab olunur. İlk Günəş saatını düzəltmək qədim misirlilərin *1*..... . Onlar Günəşin hər gün müntəzəm bir hərəkətlə doğmasını, müəyyən vaxtlarda göy üzünün eyni nöqtələrində olmasını, sonra batmasını müşahidə edərək ən qədim saatı ixtira ediblər. Bu saat meydanın yüksək bir yerində qoyulan daşdan ibarət olub. Qədim misirlilər Günəşin hərəkəti əsasında bu daşın kölgəsini izləməklə vaxtı ölçüblər. Yeri gəlmişkən, saat əqrəbinin sağa hərəkət etməsi də buradan *2*..... . Belə ki, Misir Yer planetinin şimal yarımkürəsində ekvator xəttinə yaxın yerləşən ölkədir və **Günəş <u>çıxanda</u> qədim misirlilərin yaratdıqları saatda kölgə dərhal qərbdə peyda olurdu. Günəş hündürləşdikcə kölgə şimala, yəni sağa doğru hərəkət edirdi.** Daha sonralar çarxlı, mexaniki, müasir dövrdə batareyalı saatlar yaradılanda da istiqamət dəyişmədi və beləcə əqrəbin soldan sağa doğru hərəkəti günümüzədək gəlib çıxdı.

58. Mətndə altından xətt çəkilmiş sözün mətndəkindən fərqli mənaları əsasında cədvəli doldurun.

	Sözün mənası (qarşılığı)	*Həmin mənanın (qarşılığın) cümlədə işlədilməsi*
1.		
2.		
3.		
4.		

59. Mətndə tünd-qara hərflərlə verilmiş hissəyə üslubi düzəliş etməklə yenidən yazın.

60. Mətndə nöqtələrin yerinə uyğun gələn məcazi mənalı ifadələr yazın.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ 20 MAY 2023-CÜ İL TARİXİNDƏ III İXTİSAS QRUPU ÜZRƏ KEÇİRİLƏN QƏBUL İMTAHANINDA AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İSTİFADƏ OLUNAN TEST TAPŞIRIQLARI

1. Hansı fikirlər məsdər və feili sifət üçün ortaq ***deyil***?
1. Qrammatik məna növünə görə dəyişə bilir.
2. Feilin ilkin formasıdır.
3. İki nitq hissəsinin xüsusiyyətlərini daşıyır.
4. Şəkilçidən asılı olaraq müxtəlif zaman anlayışı da bildirir.
5. Həm hərəkət, həm də əlamət və ya keyfiyyət bildirir.
6. Təsdiq və inkarda işlənə bilir.

A) 2, 4, 5 B) 1, 4, 6 C) 2, 3, 5 D) 1, 3, 5 E) 2, 4, 6

2. Eyler-Venn diaqramına əsasən nümunələrdəki təsriflənən feillərlə bağlı uyğunluğu müəyyən edin.

Bayram tonqalları yandırıldı. *Zəlzələdən ziyan görənlərə yardım edildi.*



a. Hərəkətin obyekti mübtəda vəzifəsindədir.
b. Subyekt hərəkəti icra etməyə başqasını məcbur edir.
c. Hərəkəti icra edən qrammatik cəhətdən məlum deyil.
d. Şəxssiz növdədir.
e. Quruluşca düzəltmədir.

A) 1 – a, c; 2 – e; 3 – b B) 1 – c; 2 – e; 3 – a C) 1 – b, e; 2 – d; 3 – a, c
D) 1 – c; 2 – d; 3 – e E) 1 – a, e; 2 – d; 3 – c

3. "*O bu sözləri birnəfəsə deyib düşündü ki, görəsən, bu hərəkəti ilə qızı təşvişə salmadı ki...*" cümləsindəki köməkçi nitq hissələrinin işlənmə ardıcıllığını müəyyən edin.

A) modal söz, qoşma, bağlayıcı, ədat B) modal söz, ədat, bağlayıcı, qoşma
C) bağlayıcı, modal söz, qoşma, ədat D) bağlayıcı, modal söz, qoşma, nida
E) ədat, modal söz, qoşma, bağlayıcı

4. Uyğunluğu müəyyən edin.
1. Sözdəki samitlərin hamısı kardır.
2. Sözdəki saitlərlə samitlərin sayı bərabərdir.
3. Sözdəki kar samitlərlə cingiltili samitlərin sayı eynidir.

a. çiskin b. radio c. ittifaq d. fasad e. həmkarlıq

A) 1 – d; 2 – b; 3 – a, e B) 1 – a; 2 – b; 3 – c C) 1 – b; 2 – a; 3 – e
D) 1 – d; 2 – e; 3 – a E) 1 – a, e; 2 – d; 3 – b, c

5. "*Ürəkdən qopan kədər bədəninə soyuq cərəyan kimi yayıldı*" cümləsinin sintaktik təhlil sxemini müəyyən edin.

A) B) C)
D) E)

6. Mübtədaların ifadə vasitəsini nəzərə alaraq düzgün ardıcıllığı müəyyən edin.
- *Kənd uşaqları əllərində dəri top meydançaya tərəf qaçırdılar.*
- *Qapıda dayananlar bizi çox hörmətlə qarşıladılar.*
- *Qapıya çatdığım zaman yağış iri-iri damcılarla yağmağa başladı.*
- *Qocalar uşaqlara faydalı məsləhətlər verdilər.*
- *Hamı tamaşanın finalını həyəcanla gözləyirdi.*

1. sifət 2. isim 3. ismi birləşmə 4. feili birləşmə 5. əvəzlik

A) 2, 4, 3, 1, 5 B) 3, 4, 2, 5, 1 C) 3, 4, 2, 1, 5 D) 2, 3, 1, 5, 4 E) 2, 1, 4, 3, 5

CamScanner ilə skan edilib

7. Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən edin.

A. *Əlində körpəni oynadır qarı,*
Göstərir uzanan dilsiz yolları.

B. *Əqidəsi olmayan ən cəsur insan da qorxağa çevrilə bilər.*



1. Bütün sifətlər əlamət bildirir.
2. "*Qoca*" sözü ilə sinonimlik yaradan söz işlənməyib.
3. Tərkibində ismin xüsusiyyətini daşıyan sifət var.
4. Sifətlər müxtəlif cümlə üzvü vəzifəsində çıxış edir.
5. Sifətlərdən biri keyfiyyətin normadan çox olduğunu bildirir.
6. Sifətin quruluşca hər üç növünə aid nümunə işlənmişdir.

A) 4, 5, 6 B) 1, 2, 5 C) 1, 2, 6 D) 3, 4, 5 E) 2, 3, 4

8. Budaq cümləsi qeyri-müəyyən şəxsli cümlə olan tabeli mürəkkəb cümlə hansıdır?

A) Evə gəlmişdim ki, işıqları söndürdülər.
B) Deyirlər, Elçin sabah gələcək.
C) Dostum düşünürdü ki, onu hələ çox danlayacaqlar.
